AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

AZƏRBAYCAN DİLİ
VƏ
NİTQ MƏDƏNİYYƏTİ

MƏŞĞƏLƏ-MÜHAZİRƏ MƏTNLƏRİ

MƏŞĞƏLƏ-MÜHAZİRƏ MƏTNLƏRİNİN SİYAHISI

Azərbaycan Respublikasının Dövlət Himni…….....
Azərbaycan bayrağı və gerbi …….. ……..
Azərbaycan Respublikasının Konstitusiyasından…….. …
Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur……..
"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....
Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı……
Azərbaycan Dövlət İqtisad Universiteti yüksəkixtisaslı iqtisadçı kadr hazırlayan yeganə ali təhsil müəssisəsidir…….
Dilimiz –milli varlığımızdır…… ….
Dil nədir?.....
Dilçilik elmi…… ….
Azərbaycan dili haqqında ümumi məlumat.....
Fonetika……
Hərflər və danışıq səsləri ……
Azərbaycan əlifbası …….....
Yazının əmələ gəlməsi.....
Azərbaycan dili haqqında ümumi məlumat.....
Şifahi xalq ədəbiyyatı……..
Qədim dünyada ilkin iqtisadi görüşlərin yaranması.....
Səslərin təsnifatı……
Azərbaycan dilində nitq etiketləri……...
Saitlər ……..

Yazılı ədəbiyyat……
Sözlərdə saitlərin yeri……...
Novruz bayramı ……..
Spesifik saitlər……..
Maliyyə uçotu……..
«Kitabi-Dədə Qorqud»……
«Kitabi-Dədə Qorqud»da iqtisadi görüşlər……..

Qoşa saitli sözlərin yazılışı və tələffüzü……..
Samitlər ……
Atilla …….
Azərbaycan dili dünya dilləri sırasında…….
İslam haqqında……
Həcc ziyarəti…….
Qədim və orta əsrlərdə iqtisadi fikir və təlimlər……
Samitlərin incə və qalınlığı……..

Qoşa samitli sözlərin yazılı və tələffüzü……...
Vurğu ……
Heca …….
Pulun meydana gəlməsi tarixindən…….
Ahəng qanunu …..……
Transmilli şirkətlər…….
Cavanşir ……...
Kommersiya fəaliyyətinin mahiyyəti, prinsipləri və funksiyaları.
Fonetik hadisələr……..
Orfoqrafiya prinsipləri…….
Babək …….....
Süleyman Rüstəm…….
Təbrizim ……..……...
Orfoepiya …….
Qətran Təbrizi……..
Leksika……..
Sözlərin forma və məna qrupları……
Məhsəti Gəncəvi……
Rübailər ……
Omonimlər ……..
Əfzələddin Xaqani Şirvani……
Vətən həsrəti ……
Qəzəl …….
Sinonimlər ……
Nizami Gəncəvi……
Nəsihət …….
Eşq ……
Antonimlər ……..
Azərbaycan dilində sözlərin mənşəcə növləri……
Bəxtiyar Vahabzadə…….
Şəhidlər ……
Ana dili …….
Ömər Xəyyam……..

Rübailər ……
Yunus Əmrə……..
Salam olsun……..
Mənalı söz…….
Arxaizmlər ……
Neologizmlər …….....
Kommersiya fəaliyyətinin təşkili prinsipləri və funksiyaları.....
Особенности маркетинга как функция современного менеджмента…….
Qazi Bürhanəddin……
Tuyuğ ……
Ədəbi dilimiz haqqında……..
Frazeoloji birləşmələr……
Atalar sözləri…….
Məsəllər ……
Hikmətli sözlər……
Morfologiya
Sözün tərkibi…….....
Kök və şəkilçi …….....

Nitq hissələri
Əsas nitq hissələri.....
İsim …….....
Təşkilatı strukturun formalaşması prinsipləri.....
İmadəddin Nəsimi.....
Quran möcüzəsi.....
Xüsusi və ümumi isimlər…….....
Kəmiyyət kateqoriyası. Tək və cəm isimlər…….....
Mənsubiyyət kateqoriyası…….....
Hal kateqoriyası…….....
Xarici iqtisadi əlaqələr…….....
Təşkilati strukturun əsas növləri …….....
Xəbərlik kateqoriyası…….....
Təşkilati strukturun seçilməsini müəyyənləşdirən amillər……
İsimlərin quruluşca növləri…….....
Azərbaycan …….....
Sifət ……..
Sifətin quruluşca növləri……..
Xəlil Rza Ulutürk…….
Şah İsmayıl Xətai…….
Sifətlərin dərəcələri……..
Şah İsmayıl Xətai dövründə Azərbaycan mədəniyyəti……

Say ……
Deportasiya (Tarixin acı ibrət dərsləri)……..
Əvəzlik……..…….
Biznesin restrukturizasiyası prosesinin tənzimlənməsi…….
Fel …….
İstehsal və istehsal prosesi ……
Felin məna növləri……
Aşıq Qurbani……
Felin quruluşca növləri……
Məhəmməd Füzuli……
İnkarlıq kateqoriyası……
Kərpickəsən qoca……
«Koroğlu» dastanı……
Təsirlilik və təsirsizlik kateqoriyası…….……
Aşıq Alı…….
Felin zamanları…….
Klassik iqtisad məktəbi……..
İstehsalın təşkili prinsipləri və tipləri……

İstehsal proqramının əsaslandırılması……
İstehsal güclərinin planlaşdırılması……
Felin qrammatik məna növləri……
Şah Abbas ……..
Şəxs kateqoriyası……..
Kəmiyyət kateqoriyası…….....
Molla Pənah Vaqif…….....
Felin şəkilləri…….....
Əmr şəkli…….....
Nadir şah Əfşar……
Xəbər şəkli…….
Lazım şəkli……
Pənahəli xan Cavanşir…….
Arzu şəkli……..
Vacib şəkli…….
«Şah İsmayıl» dastanı……..
Şərt şəkli……
Cavad xan……
Felin təsriflənən və təsriflənməyən formaları…….
İqtisadi nəzəriyyə iqtisad elmləri sistemində……..
Məsdər……...
Müəssisə maliyyəsinin mahiyyəti və funksiyaları ……
Feli sifət……

Feli bağlama…….
Hüseynqulu xan……
Qaçaq Nəbi……
Zərf……
Zərfin mənaca növləri .....
Tarixdən gələn səslər.....
Zərfin quruluşca növləri.....
Saib Təbrizi……..
Köməkçi nitq hissələri
Qoşma ……..
Bağlayıcı ……...
Ədat ……..
Azərbaycan və beynəlxalq iqtisadi təşkilatlar……
Modal sözlər…….

Xüsusi nitq hissəsi
Nida ……..
Almas İldırım……
Əsir Azərbaycanım …….

Sintaksis. Sintaktik əlaqələr
Tabesizlik əlaqəsi…….
Nizami Gəncəvinin yaradıcılığında iqtisadi fikirlər……
Tabelilik əlaqəsi……
Uzlaşma əlaqəsi……
Məhəmməd Peyğəmbər……
Məhəmməd Peyğəmbərin kəlamları……..
Огонь внутри нас или шаманское заклинание…….
Yanaşma əlaqəsi……..
Xurşudbanu Natəvan…….
Söz birləşmələri…….
İsmi söz birləşmələri……
İbn Sina…….
Böyük Loğman .....…….....
Qurban bayramı – əqidə sınağı……...
Feli birləşmələr…….
Nəsirəddin Tusi.....
Çingiz xan…….
Cümlə üzvləri
Mübtəda……
Xəbər …….

Məmməd Araz……..
Ашуқ Алескер……..
İkinci dərəcəli üzvlər…….
Tamamlıq……..
Təyin……..
Cəlil Məmmədquluzadə……
Zərflik ……..
Mirzə Ələkbər Sabir…….
Zərfliyin mənaca növləri……..
Hüseyn Cavid……
Əhməd Cavad……
Mirzə Fətəli Axundov……..
Nəriman Nərimanov…….

Zərfliyin ifadə vasitələri……..
Şəmsəddin Eldəgiz……
Cümlənin həmcins üzvləri……
Həmcins üzvlərdə ümumiləşdirici sözlər.....
İkinci dərəcəli üzvlərin xüsusiləşməsi…….
Qrammatik cəhətdən cümlə üzvləri
ilə əlaqədar olmayan sözlər
Xitab …….
Ara sözlər……..
Sadə cümlə……
Nəqli cümlə…….
Sual cümləsi……..
Əmr cümləsi…….
Nida cümləsi…….
Cümlə üzvlərinin iştirakına görə sadə cümlənin növləri……
Müxtəsər və geniş cümlə.....
Yarımçıq cümlə.....
Cüttərkibli və təktərkibli cümlələr.....
Xarəzmi……..
Quran – möcüzədir……..
Allah-taalanın 99 gözəl adları və mənaları…….
İslam……..
Коран……
Qeyri-müəyyən şəxsli cümlələr.....
Fərabi……
Ümumi şəxsli cümlələr.....
Abbasqulu ağa Bakıxanov Qüdsi……...
Şəxssiz cümlələr……

Adlıq cümlələr……..
Məsdər cümlələr…….
Səməd Vurğun……...
Söz-cümlə…….
Hacı Zeynalabdin Tağıyev……..
Azərbaycan milyonçusu Musa Nağıyev…….
Mürəkkəb cümlə…….....
Mustafa Kamal Atatürk ……..
Mürəkkəb cümlədə əlaqə vasitələri ……
Tabesiz mürəkkəb cümlə……..
Tabesiz mürəkkəb cümlənin tərəfləri arasında məna əlaqələri……..……..
Tabeli mürəkkəb cümlə……
Rəsul Rza……..
Budaq cümlələr…….
Mübtəda budaq cümləsi……..
Xəbər budaq cümləsi……
Lütfi-Zadə…….
Əmtəə və əmtəəşünaslıq……..…
Hüseyn Arif……
Tamamlıq büdaq cümləsi……
Mahmud Kaşğari……..
Türk dilləri ailəsi……..
Təyin budaq cümləsi……
Zaman budaq cümləsi……..
Yer budaq cümləsi……
Səbəb budaq cümləsi……
Məqsəd budaq cümləsi…….....
Kəmiyyət budaq cümləsi……..
Tərzi-hərəkət budaq cümləsi…….....
Dərəcə budaq cümləsi……..
Nəticə budaq cümləsi…….....
Şərt budaq cümləsi.....
Qarşılıqlı - güzəşt budaq cümləsi……
Məhəmmədhüseyn Şəhriyar…….
Nitq mədəniyyəti…….....
Natiqlik sənətinin tarixinə dair …….....
Azərbaycan natiqlik sənətinin inkişaf yolları
Natiqlik sənətinin cəmiyyətdə rolu və növləri…….
Nitqin hazırlanması və mərhələləri ……..
Nitq mədəniyyətinin başqa elmlərlə əlaqəsi .....

Nitq prosesində tələffüz, intonasiya və orfoepiyanın rolu.....
Natiqin əməyi və davranışı……
Natiqlik sənəti…….....
Nitq etiketləri……
Tarixin qan yaddaşı - 20 Yanvar faciəsi…. ……...
Xocalı faciəsi…….
Professor Mirzə Kazımbəy–Dərbənddən başlanan əzablı yol.....

"AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ" FƏNNİ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ

Azərbaycan Dövlət İqtisad Universitetində Azərbaycan dili 80 ildən çoxdur ki, (1933-cü ildən) tədris edilir. Azərbaycanın bir sıra ali məktəblərinin (məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Pedaqoji Universiteti və Azərbaycan Dillər Universitetinin) rus bölmələri üçün «Azərbaycan dili» dərsliyi nəşr edilmişdir, lakin bu dərsliklər İqtisad Universitetinin spesifik xüsusiyyətlərinə uyğun gəlmir. Təqdim edilən «Azərbaycan dili və nitq mədəniyyəti» dərsliyi dövlət standartının tələblərinə və tələbələrin dil öyrənmək istəklərinə tam uyğundur.

Azərbaycan dili Azərbaycan Respublikasının Konstitusiyasında dövlət dili kimi təsbit edilmişdir. Bu qanuna əsasən respublikada təhsil, təlim və tərbiyə işləri Azərbaycan dilində aparılmalı, bütün kütləvi informasiya vasitələri bu dildə olmalı, dövlət təsisatları yazışmalarda bu dildən istifadə etməlidir.

Dərslik Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan və rus bölmələri üçün nəzərdə tutulmuşdur və müvafiq tədris proqramı əsasında hazırlanmışdır. Öz istiqlaliyyətinə, dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın ali təhsil ocaqlarında təhsil alan tələbələrin Azərbaycan dilini mükəmməl bilmələri, bu dildən ədəbi dil kimi istifadə etməyi bacarmaları, nitq vərdişlərini inkişaf etdirmələri günün vacib məsələlərindəndir. Buna görə də, Azərbaycan Dövlət İqtisad Universitetini bitirən iqtisadçı mütəxəssislərin respublikamızda öz bilik və bacarıqlarını tətbiq etmələri üçün Azərbaycan dilini yaxşı bilmələri və gözəl nitq qabiliyyətinin olması vacibdir. Dərsliyin əsas məqsədi tələbələrə Azərbaycan dilini mükəmməl mənimsətmək, onlara şifahi və yazılı ədəbi dil vərdişlərini aşılamaq, iqtisadiyyat terminlərinə yiyələndirmək, ədəbiyyatımızın korifeylərinin həyat və yaradıcılıqları ilə tanış etməkdir. Belə düşünürük ki, gənc iqtisadçılar Azərbaycan dilini və mədəniyyətini yüksək səviyyədə mənimsəsə, öz ixtisas sahələri ilə bağlı məntiqli nitq nümunələri ilə karyera yüksəlişinə nail ola bilərlər.

Dərslikdə iqtisadi və ədəbi materiallarla yanaşı nitq qabiliyyətini inkişaf etdirmək üçün də materiallar yer almışdır. Azərbaycan xalqının görkəmli ədəbi və tarixi şəxsiyyətləri haqqında materiallar xronoloji ardıcıllıqla müfəssəl mətnlərdə öz əksini tapmışdır. Mətnlər - konkret süjetə malik, bitkin təlim materiallarıdır. Onların seçilməsində, tərtibində tələbələrin nitq fəaliyyətinin bütün növləri (danışma, dinləyib-anlama, oxu və yazı) üzrə inkişaf səviyyəsi nəzərə alınmışdır.

Təcrübə göstərir ki, dərsliklərdəki mətnlər müəyyən situasiyanı əks etdirdikdə onların leksik tərkibindəki müəyyən tematik söz qrupları daha tez dərk olunur və mənimsənilir.

Tələbələrin Azərbaycan dili üzrə nitq qabiliyyətini inkişaf etdirməyin əsas vasitələrindən biri də onlarda ixtisaslar üzrə lüğət ehtiyatının zənginləşdirilməsidir. Bu işdə Azərbaycan Dövlət İqtisad Universitetinin təmayülünə uyğun ixtisas mətnlərinin dərsliyə daxil edilməsinin böyük əhəmiyyəti olacaqdır.

Azərbaycan dili inkişaf etmiş zəngin dillərdən biridir və o bu gün də zənginləşməkdə davam edir. Hazırda bu dildə yüzlərlə qəzet və jurnal çap olunur, çoxlu elmi və siyasi əsərlər, tərcümə ədəbiyyatı nəşr edilir, radio və televiziya verilişləri yayımlanır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dili respublikamızda yaşayan rusların, gürcülərin və bir çox azsaylı xalqların, o cümlədən talış, tat, ləzgi, kürd, udin və saxurların da ümumi ünsiyyət vasitəsidir. ADİU-nun tələbələri üçün nəzərdə tutulan «Azərbaycan dili və nitq mədəniyyəti» dərsliyindən nəinki tələbələr, eyni zamanda Azərbaycanda yaşayan digər xalqlar da bəhrələnə biləcək.

Dərsliyin hazırlanmasında Y.Seyidovun «Azərbaycan dili», N.Abdullayev, B.Abdullayev və M.Əsgərovun «Азербайджанский язык», N.Məmmədovun «Azərbaycan dili» kitablarından, habelə Türkiyədə, Rusiyada, Fransada, İngiltərədə nəşr olunan dilçiliyə aid dərsliklərdən və dərs vəsaitlərindən bəhrələnilmişdir.

Bu gün Azərbaycanda dönmədən həyata keçirilən dil siyasəti öz bəhrəsini verməkdədir. Ulu öndər Heydər Əliyevin dil siyasətini uğurla davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev Azərbaycan dilinin, ədəbiyyatımızın, ümumiyyətlə, mədəniyyətimizin inkişafına böyük qayğı göstərir.

Ölkə prezidenti möhtərəm İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında 23.05.2012-ci il tarixli sərəncamının və eyni adlı Dövlət Proqramının işığında hazırlanan bu dərsliyin tələbələrə və müəllimlərə gərəkli olacağına inanırıq.

Tofiq Əbdülhəsənli

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Musiqisi: Üzeyir Hacıbəylinin,
Sözləri: Əhməd Cavadındır

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

AZƏRBAYCAN BAYRAĞI VƏ GERBİ

Müstəqil Azərbaycanın dövlət bayrağı üç rəngdən — mavi , qırmızı və yaşıl rənglərdən ibarətdir.

Bayrağın qırmızı zolağında aypara, ayparanın arasında səkkizguşəli ulduz var. Hətta ulduzun mərkəzində alov dilləri də diqqəti cəlb edir.

Dövlət bayrağındakı **mavi rəng – türklüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng islamçılığı** bildirir. Bayrağın ortasındakı **ayrapa və ulduz Aya və Günəşə işarədir, əbədiliyi, dünyəviliyi andırır. Ulduzun arasındakı alov dilləri – Odlar yurdu olan Azərbaycana işarədir.**

İndiki dövlət bayrağımız 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı olmuşdur. 1991-ci il fevralın 5-dən həmin bayraq yenidən xalqımıza qaytarılmışdır.

Dövlət bayrağımızın əsas ideyası belədir: Azərbaycan Respublikası dünyada demokratiyaya, türklüyə və islamçılığa rəğbət göstərən dünyəvi dövlət kimi inkişaf edir.

Gerbin əsası qalxana oxşayır. Qalxanın üzərində üçrəngli dairəvi xətlər var. Xətlərin üstündə səkkizguşəli ulduz, ulduzun arxasında alov görünür. Qalxanın arasından sağa tərəf sünbül, sola tərəf isə palıd yarpaqları düzülmüşdür.

Gerbimizdəki **qalxan – müdafiə rəmzidir**: üzərindəki üçrəngli dairəvi xətlər bayrağımızı andırır. Dairəvi xətlərin üstündəki **səkkizguşəli ulduz – günəşə, onun ortasındakı alov dilləri** – Azərbaycana işarədir. **Sünbüllər – bolluq, palıd yarpaqları – uzunömürlülük nişanəsidir.**

Gerbimizin ifadə etdiyi əsas ideya belədir:

Dünya xalqlarına sülh, bolluq və uzun ömür arzulayrıq. Biz müharibə istəmirik, bizə hücum edənlərdən isə qorunmağa hazırıq.

Dövlət himnini əzbər bildiyimiz kimi, bayrağımızın və gerbimizin əsas ideyalarını da bilməliyik. Bu ideyaları yadda saxlamaq, onlara əməl etmək hər bir azərbaycanlının müqəddəs borcudur. Himn də, bayraq da, gerb də Azərbaycan Respublikasının dövlət rəmzləridir.

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDAN

(12 noyabr 1995-ci ildə qəbul edilmişdir)

Maddə 21. Dövlət dili

I. Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir.

Azərbaycan Pespublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri

I. Azərbaycan Respublikasının Dövlət rəmzləri – Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respblikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli, üç üfiqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında, bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya ilə müyyən edilir.

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCANIN MEMARI VƏ QURUCUSUDUR

Ümummilli liderimizi, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran Günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. O, bütün cəhətlərə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun zəkası, ideyaları daim Azərbaycanın üzərində Günəş kimi parlayacaq, yolumuzu nura qərq edəcək. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında ikən öz adını dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının siyahısına yazmış və bununla da hər birimizə başucalığı gətirmişdir.

Hər kəsin dəyəri onun yaşadığı zaman kəsiyində göstərdiyi xidmətləri, əməlləri ilə ölçülür. Bu mənada ümumilli liderimiz Heydər Əliyev barəsində belə demək mümkündür: O, Tanrının Azərbaycan xalqını sevərək ona göndərdiyi fədakarlıq simvolu idi. Böyük öndərin yeganə amalı, yaşamaq devizi belə idi: Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün qüvvə və bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək!

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər salsaq, bunu aydın sezə bilərik. Məlumdur ki, ulu öndər respublikamıza müxtəlif ictimai-siyasi formasiyalarda rəhbərlik etmişdir və bu cəhətdən onun Azərbaycana rəhbərlik illərini iki mərhələyə bölmək mümkündür. Birinci mərhələ 1969-1985-ci illəri əhatə edir. Həmin dövrdə Azərbaycan keçmiş Sovet İttifaqının tərkibində olsa da, Heydər Əliyev ittifaq büdcəsindən respublikamıza daha çox vəsait ayrılması üçün sözün əsl mənasında qətiyyət göstərmişdir. Böyük öndərin uzaqgörənliyi bu gün hər birimizdə sevincqarışıq dərin heyrət doğurur. O, hələ Sovet İttifaqının mövcudluğu şəraitində gələcəyi düşünür, respublikamızın nə vaxtsa müstəqilliyə qovuşacağına inanır və bundan ötrü güclü maddi-texniki baza yaradırdı.

Heydər Əliyev ikinci dəfə Azərbaycana respublikamız müstəqillik qazandıqdan sonra — 1993-2003-cü illərdə rəhbərlik etmişdir. Böyük öndər 1993-cü ilin iyun ayında ikinci dəfə Azərbaycanın ali rəhbərliyinə qayıdanda ölkəmizdə çox ağır vəziyyət hökm sürürdü. Belə ki, ayrı-ayrı qüvvələr, nadan siyasətçilər Azərbaycanı vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmışdılar, müstəqilliyimizin əldən getməsi, ölkənin parçalanması təhlükəsi yaranmışdı. Belə ağır vəziyyətdə xalq öz böyük oğlu Heydər Əliyevi Azərbaycana dəvət etdi. Xalqının səsinə səs verən və xalqına arxalanan Heydər Əliyev özünəməxsus müdrikliklə xaosun qarşısını aldı, Azərbaycanı ahəngdar inkişaf relslərinin üstünə çıxartdı.

Buna görə də Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Onun rəhbərliyi altında keçən illər respulikamız üçün sabitliyin möhkəmlənməsi, iqtisadi çiçəklənmə, nüfuzlu beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə sıx əməkdaşlıq qurulması, əhalinin rifah halının yaxşılaşması illəri olmuşdur.

Ümumilli lider Heydər Əliyev üçün ən böyük ağrı xalqın, Vətənin ağrısı idi. Məmləkətin ayağına dəyən daş onun qəlbinə dəyirdi. Bu sözləri yazarkən 1990-cı ilin qanlı 20 Yanvar faciəsi yada düşür. Azərbaycanın üstünə qoşun yeridiləndə, günahsız soydaşlarımız qətlə yetiriləndə Heydər Əliyev xalqımıza qarşı törədilən bu ağır cinayətə sakit yanaşa bilmədi. O, təqiblərə, özünə və ailəsinə yönələn təhlükələrə məhəl qoymadan respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gələrək ittifaq rəhbərliyinin vəhşi hərəkətlərinə qəti etirazını bildirdi. Həmin dövrdə qapalı həyat tərzi keçirməyə məcbur edilən insan üçün belə bir addımı atmaq sözün əsl mənasında qəhrəmanlığa bərabər idi.

Bəli, Heydər Əliyevin böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında, vətənpərvərliyində idi. O, varlığı, duyğuları və yanğıları ilə sözün müstəqim mənasında əsl azərbaycanlı idi. Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüdrətli idi. Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan «Xalq-Heydər - Heydər Xalq» deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.

«Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, qloballaşma şəraitində Azərbaycan dilinin imkanlarından dövrün tələblərinə uyğun istifadəni və ölkədə dilçiliyin inkişafını təmin etmək məqsədi ilə qərara alıram:

1. «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı» təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsinə nəzarət və tədbirlərin icrası zamanı müvafiq təşkilatlarla işlərin əlaqələndirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2013-cü il.

Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı

1. Giriş

Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən biri olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşmə və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azər-

baycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 2001-ci il 18 iyun tarixli 506 nömrəli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsbit edilməsi haqqında» 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də «Azərbaycan Respublikasında Dövlət dili haqqında» Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» 2004-cü il 12 yanvar tarixli 55 nömrəli və «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 2004-cü il 12 yanvar tarixli 56 nömrəli sərəncamlarına əsasən latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğətlər və bədii ədəbiyyat nümunələrinin çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olmuşdur.

Eyni zamanda, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında» 2012-ci il 23 may tarixli 2236 nömrəli və «Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında» 2012-ci il 29 may tarixli 2240 nömrəli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsində mühüm fəaliyyətə malik sənədlərdir. «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı» (bundan sonra – Dövlət Proqramı) həmin sərəncamlardan irəli gələn məsələlərin həllinə yönəlmişdir və 2013-2020-ci illər ərzində bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

1. Dövlət Proqramının məqsədi

Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tətbiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılması, dilçilyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq sahələrinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir.

2. Dövlət Proqramının əsas vəzifələri

2.1. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

3.1.1.Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması;

3.1.2.dilçilik sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi;

3.1.3.dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla, elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

3.1.4.dilçilik sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi;

3.1.5.dilin inkişafı və tədrisi məsələlərinin uzlaşdırılması və təkmilləşdirilməsi;

3.1.6.dilçi alimlərin müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi;

3.1.7.dil (ədəbi dil) və mədəniyyət tarixinin daha əsaslı tədqiqini təmin etmək üçün qədim dillərin tarixinin öyrənilməsi;

3.1.8.dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

3.1.9.dil və nitq mədəniyyətinin yüksəldilməsi;

3.1.10.Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi;

3.1.11.Azərbaycanda dil situasiyalarının və dil ədaqələrinin öyrənilməsi.

3. Gözlənilən nəticələr

4.1.Dövlət Proqramının yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır;

4.1.1Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və ölkədə dilçiliyin inkişafının dövlət səviyyəsində təmin olunması;

4.1.2.dünya dilçilk elminin müasir inkişaf meyilləri nəzərə alınaraq, Azərbaycan Milli Elmlər Akademiyasında və respublikanın digər elmi müəssisələrində, ali məktəblərində aparılan fundamental və tətbiqi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

4.1.3.dilçiliyin inkişafı sahəsində fəaliyyət göstərən elmi müəssisə və qurumların maddi-texniki bazasının möhkəmləndirilməsi;

4.1.4.Azərbaycan dilinin və dilçilik elminin inkişafı ilə bağlı qısamüddətli və uzunmüddətli kompleks elmi proqramların işlənib həyata keçirilməsi;

4.1.5.Azərbaycan dilçiliyinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

4.1.6.qədim dillərin öyrənilməsi sahəsində dönüş yaradılması və müasir dünya dilçiliyinin nəzəri səviyyəsinə uyğun elmi tədqiqatlar aparılması işinin gücləndirilməsi;

4.1.7.dilçilik sahəsində ixtisaslı kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi;

4.1.8.dünyanın aparıcı mərkəzləri ilə beynəlxalq elmi əməkdaşlığın inkişaf etdirilməsi, dilçiliyin aktuallıq kəsb edən müxtəlif problemlərinə dair birgə tədbirlərin həyata keçirilməsi;

4.1.9. Azərbaycan dilinin dövlət dili kimi inkişafı, tədrisi, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik quruluşunun qorunması, söz yaradıcılığı prosesinə nəzarətin gücləndirilməsi və nitq mədəniyyəti sahəsində kompleks tədbirlərin həyata keçirilməsi;

4.1.10. dilin inkişafı və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

4.1.11. mətbuat orqanlarında, televiziya və radio kanallarında, internet resurslarında və sosial şəbəkələrdə ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün mexanizmlərin müəyyənləşdirilməsi;

4.1.12. elmi, bədii və publisistik əsərlərin orijinaldan tərcüməsi, eləcə də filmlərin dublyajı sahəsində qüsurların aradan qaldırılması üçün tədbirlərin müəyyənləşdirilməsi;

4.1.13. reklam, afişa və elanlarda ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün yolların müəyyən edilməsi;

4.1.14. Azərbaycan dilini öyrənən xarici vətəndaşlar və xarici dili öyrənmək istəyən azərbaycanlılar üçün tədris vasitələrinin daha intensiv hazırlanmasının təmin olunması;

4.1.15. Azərbaycan dilinin düzgün işlənməsində çevikliyin təmin olunması üçün müvafiq İnternet resurslarının yaradılması;

4.1.16. Azərbaycan dilində İnternet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması sahəsində işlərin görülməsi.

4. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsində müvafiq dövlət qurumlarının xərclər smetasında elmi tədqiqatların aparılması üçün nəzərdə tutulmuş vəsaitlər, büdcədənkənar vəsaitlər, qrantlar, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

"Zəngin elmi- pedaqoji ənənələrə malik Azərbaycan Dövlət İqtisad Universiteti ölkəmizdə təhsilin inkişafına sanballı töhfələr vermişdir."

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ YÜKSƏKİXTİSASLI İQTİSADÇI KADR HAZIRLAYAN YEGANƏ ALİ TƏHSİL MÜƏSSİSƏSİDİR

Ölkəmizin qocaman və mötəbər ali təhsil müəssisələrindən biri olan, fəaliyyət göstərdiyi bütün dövrlərdə çətin, ziddiyyətli və eyni zamanda şərəfli tarixi inkişaf yolu keçən, yüksəkixtisaslı iqtisadçı kadr hazırlığında misilsiz xidmətlər göstərən elm və təhsil məbədinin - Azərbaycan Dövlət İqtisad Universitetinin 80 yaşı tamam olur.

Ali iqtisadi təhsilin modern sisteminin qurulmasında, Azərbaycan iqtisad elminin inkişafında, yüksəkixtisaslı mütəxəssis hazırlığında mühüm xidmətləri olan Universitetin 80 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncam əldə olunan nailiyyətlərin dövlət səviyyəsində təsbiti, kollektivin əməyinə verilən çox yüksək qiymətdir.

Universitetin bugünkü inkişaf səviyyəsinə çatma yolları heç də hamar olmamışdır.

Onun son dərəcə mürəkkəb, ziddiyyətli, sıxıntılar və anlaşılmaz hadisələrlə müşayiət olunan tarixi inkişaf prosesinin normal, sabitqədəmli gedişinə nail ola bilməyən sələfləri olmuş institutlar 3 dəfə (1941-1945; 1959-1966; 1987-1990-cı illərdə) ləğv edilərək bağlanmış, yaxud da başqa institutların tərkibində öz fəaliyyətini fakültə statusunda davam etdirməli olmuşdur.

Qeyd edək ki, ölkənin heç bir təhsil müəssisəsi məzmun etibarilə repressiya xarakteri daşıyan mütəmadi "bağlanmalarla" üzləşməmişdir.

Tarixi mənbələrin araşdırılması göstərir ki, Azərbaycanda ali iqtisadi təhsilin formalaşması və inkişaf prosesi mahiyyətcə fərqli xüsusiyyətlərə malik mərhələli yol keçmişdir. Ölkənin sosial-siyasi və iqtisadi həyatında baş verən dəyişikliklərlə növbələşən mərhələlilik universitetin keçmişi ilə bağlı tarixi həqiqətlərin üzə çıxarılması baxımından mühüm əhəmiyyət kəsb edir.

İqtisadi təhsilin ilkin institutlaşması, yaxud gələcəkdə Azərbaycan Dövlət İqtisad Universitetini formalaşdıracaq tarixi prosesin "hərəkətə"' keçdiyi dövr -birinci mərhələ 1920-1930-cu illəri əhatə edir. Bu dövr Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı ilə başlanan "yeniləşmə" prosesi ölkədə tamamilə fərqli situasiyanın formalaş-

masına səbəb oldu. Real bazarın təşəkkülü prosesi dayandırıldı və ölkə iqtisadiyyatı tənəzzül mərhələsinə qədəm qoydu. Keçmişə aid olan hər şeyin inkarı yolunu tutmuş Sovet hökuməti iqtisad elminə münasibətdə də eyni mövqedə dayanırdı. "Sosialist iqtisadiyyatı" deyilən yeni yaranışın nəzəri əsaslarının yoxluğu sovet iqtisadi təhsilinin təşkilində böyük problemlər yaradırdı. Bununla yanaşı qeyd etmək lazımdır ki, 1920-ci ildə təşkil edilmiş Politexnik İnstitutunun nəzdində fəaliyyət göstərən "Kənd təsərrüfatı və iqtisad" fakültəsi ali iqtisadi təhsilin institutlaşması nöqteyi-nəzərindən ilk cəhd idi.

Cəmi bir il sonra Azərbaycan Dövlət Universitetinin nəzdində əvvəlcə bölmə, sonralar — 1930-cu ildə İqtisad fakültəsi yaradıldı. Elə həmin ildə ölkənin təhsil sistemində xüsusi yer tutan Azərbaycan Dövlət Universitetinin yenidən təşkili ilə əlaqədar olaraq onun bazasında müstəqil institutlar təşkil olundu. Azərbaycan Dövlət İqtisad Universitetinin sələfi olan Ticarət-Kooperativ İnstitutunun yaradılması haqqında qərar məhz həmin ildə verildi. Eyni zamanda, qeyd etmək lazımdır ki, sözügedən dövrdə iqtisadçı kadrların hazırlanması ilə məşğul olan kiçik institutlar fəaliyyət göstərirdi.

Bunlara misal olaraq, Bakı Sosialist Uçotu İnstitutunu, Maliyyə İnstitutunu, Plan-İqtisad İnstitutunu, İstehlak Kooperasiyası İnstitutunu (sonralar Sovet Ticarəti İnstitutu) göstərmək olar.

Azərbaycanda ali iqtisadi təhsil sisteminin formalaşması prosesinin ikinci mərhələsi 1930-1959-cu illəri əhatə edir. Ziddiyyətli məqamların çoxluğuna, imperiya xislətindən irəli gələn haqsızlıq və ədalətsizliyin yüksək səviyyədə qərarlaşmasına, ifrat mürəkkəb xarakterinə görə bu mərhələ xüsusilə nəzər-diqqəti cəlb edir. İqtisadi təhsil sferasının inkişafı prosesində hədəflənən məqsədlər baxımından pərakəndəliyin aradan qaldırılmasını əvvəldə sadaladığımız kiçik institutların birləşdirilərək K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun yaradılmasını (1936-cı il) sözügedən mərhələnin yeganə müsbət cəhəti kimi səciyyələndirmək olar.

1937-ci il repressiyaları, digər sahələrdə olduğu kimi, yeni yaranmış institutun da kadr təminatının məhv edilməsinə gətirib çıxarmış, 5 il ərzində (1936 - 1941) 5 rektor dəyişilmiş, elmi dərəcəsi olmayan, təhsil sferasından uzaq şəxslər məsul vəzifələrə təyin olunmuşlar.

II Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq aparılan kütləvi səfərbərlik sözügedən sferada böyük problemlər yaratmışdı. Sovet hökuməti özünün yaratdığı problemlərdən çıxış yolunu institutun ləğv edilərək Azərbaycan Dövlət Universitetinin tərkibinə verilməsində gördü. Cəmi 3 il sonra - 1945-ci ildə institutun müstəqilliyi bərpa olundu.

1945-ci ildən etibarən yenidən müstəqil fəaliyyətə başlayan Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun 1959-cu ilə qədər respublikamızın, eləcə də digər müttəfiq respublikaların iqtisadçı kadrlarla təmin olunmasında mühüm rolu olmuşdur. Eyni zamanda, tədrisin təşkili və idarəedilməsinin o dövr üçün mütərəqqi səciyyə daşıyan vahid sistemi qərarlaşmış, "sosialist"

iqtisadiyyatının nəzəri-konseptual əsasları - "sosializmin" siyasi iqtisadının elmi istiqamət kimi formalaşması prosesi başa çatmışdı.

Amma əldə edilən nailiyyətləri nəzərə almayan imperiya mərkəzi öz xislətinə sadiq qalaraq, heç bir əsaslı səbəb göstərmədən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun müstəqil fəaliyyətini dayandırdı və ayrı-ayrı fakültələrin Azərbaycan Dövlət Universiteti, Azərbaycan Neft və Kimya İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutları arasında bölüşdürülməsi haqqında qərar qəbul etdi. Güclü maddi-texniki bazaya, yüksəkixtisaslı kadr potensialına, zəngin elmi-pedaqoji ənənələrə malik ali məktəbin ahəngdar fəaliyyəti bərbad hala salındı. Onu da qeyd etməmək düzgün olmazdı ki, institutun bağlanmasında onun kollektivinin də rolu az olmamışdı.

Atılan addımın gerçəkliyə adekvat olmaması bütün çılpaqlığı ilə dərk edilsə də, yanlış qərarın düzəldilməsi üçün ittifaq hökumətinə 6 il vaxt lazım oldu. Yalnız 1966-cı ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun yaradılması haqqında qərar qəbul edildi.

Ali iqtisadi təhsil sisteminin inkişafında üçüncü mərhələ 1966-1987-ci illəri əhatə edir. 1966-cı ildən sərbəst fəaliyyət imkanı əldə etmiş Azərbaycan Xalq Təsərrüfatı İnstitutu bu dəfə 1987-ci ilə qədər, yəni 20 ildən bir az çox öz müstəqilliyini qoruyub saxlaya bilmişdi. 1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlanan pozitiv proseslər ictimai həyatın əksər sferalarında olduğu kimi, ali təhsil sistemində də keyfiyyət sıçrayışına səbəb oldu. Ümumiyyətlə, 1969-1982-ci illəri - Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü ölkənin imperiya tərkibində inkişaf prosesinin "qızıl dövrü" adlandırmaq olar. Milli mövcudluq və onunla bağlı olan hər şeyə böyük diqqət və qayğı ilə yanaşan ulu öndər sözügedən inkişaf dövründə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun keyfiyyətcə yeni mərhələyə keçidinin təminatında müstəsna rol oynamışdı. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ilə Azərbaycan yenidən imperiyanın xəbis niyyətli, şərəfsiz siyasi xadimlərinin eksperiment poliqonuna çevrilir. Yüksək hazırlıqlı iqtisadçı kadrları ilə şöhrət qazanmış Azərbaycan Xalq Təsərrüfatı İnstitutu hadisələrin sonrakı gedişinin də təsdiq etdiyi kimi təkcə Azərbaycan xalqına qarşı deyil, SSRİ-nin digər türk və müsəlman xalqlarına qarşı da nifrəti ilə fərqlənən M.Qorbaçovun qəzəbinə düçar oldu.

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ciddi nöqsanlar haqqında" 1987-ci il 24 sentyabr tarixli haqsız qərarına əsasən, SSRİ Ali Təhsil Nazirliyinin 1987-ci il 30 oktyabr tarixli əmri ilə AXTİ bağlandı və N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı Filialına çevrildi. Müqayisə üçün xatırladaq ki, əgər 1941 və 1959-cu illərdə AXTİ bağlanarkən onun müvafiq ixtisasları və kollektivi Azərbaycanın özünün müvafiq ali məktəblərinə - Azərbaycan Dövlət Universitetinin və digər institutların tərkibinə verildisə, 1987-ci ildə Azərbaycanda zəngin ənənəsi ilə fərqlənən, müstəqil fəaliyyət

göstərmiş ali məktəb respublikadan kənarda mövcud olan və öz elmi-pedaqoji potensialına və maddi-texniki bazasına görə AXTİ-dən o qədər də fərqlənməyən, hətta bir sıra parametrlərinə görə ondan geridə olan Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialına çevrildi.

Universitetin 70 illik yubileyindəki çıxışında ulu öndər 1987-ci il hadisələrindən bəhs edərək ürək yanğısı ilə vurğulamışdı ki, "bu işi öz şəxsi mənafeləri üçün edən adamlar anlamırdılar ki, bu əməlləri ilə öz ölkəsinə, respublikasına, xalqına, millətinə zərər gətirir, onu ləkələyirdilər". "Mən onda çox acıdım" deyən ümummilli lider institutun bağlanmasını "Azərbaycan üçün çox dəhşətli bir hadisə" kimi qiymətləndirmişdi.

Məntiqi nöqteyi-nəzərdən inkişaf prosesinin əlahiddə mərhələsi kimi (dördüncü mərhələ) səciyyələnən 1987-1991-ci illər Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tarixində "çəkisizlik" illəri, kollektivin mənəvi-psixoloji repressiyaya məruz qaldığı ən ağır dövrlərdən biri olmuşdur. Leninqrad Maliyyə-İqtisad İnstitutunun emissarları tərəfindən "idarə edilən" Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yeni statusda - filial kimi fəaliyyət göstərmək məcburiyyətində qalmışdı. Sovet imperiyasının aqoniya mərhələsinə (1988-ci il) qədəm qoyması onsuz da dözülməz olan situasiyanı daha da mürəkkəbləşdirmiş, elm-təhsil sferasında sırf mənəvi - psixoloji gərginliklə bağlı problemli halların meydana çıxmasına şərait yaratmışdı.

Qanlı Yanvar hadisələrindən sonra institutun müstəqilliyinin bərpası belə, artıq formalaşmış gərginliyi, mahiyyətcə xaotik anlam daşıyan spontan xarakterli hərəkətlərin yaratdığı situasiyanı aradan qaldıra bilməmişdi. Ali iqtisadi təhsilin beşinci inkişaf mərhələsi 1991-2003-cü illəri əhatə edir.

1991-ci ildə dövlət müstəqilliyinin əldə edilməsi ilə 1988-ci ildən davam edən və ölkənin ictimai-siyasi həyatının bütün sferalarında mövcud olmuş böhranlı situasiya daha da dərinləşmiş, ölkə parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı. 1991-1993-cü illərdə səriştəsizlərin hakimiyyəti xaosla nəticələnmiş, vətəndaş müharibəsi təhlükəsi gerçəkləşmə mərhələsinə qədəm qoymuşdu. Aydındır ki, qeyd edilən situasiyada ali iqtisadi təhsilin "necə"liyindən danışmağın yeri yoxdur. Yalnız 1993-cü ildə - ulu öndərin hakimiyyətə qayıdışı ilə real məzmunlu təhdid və təhlükələr aradan qalxmış, unitar Azərbaycan dövlətinin mövcudluğu qorunub saxlanmışdır. 1995-ci ildən başlanan sistem dəyişikliyi prosesi ali iqtisadi təhsilin inkişafı prizmasından son dərəcə əlverişli şərait yaratmışdı. Bu baxımdan, Azərbaycan Dövlət İqtisad İnstitutunun həyatında bir sıra yeniliklərin meydana çıxması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Məsələn, 1991-ci ildən etibarən yeni ixtisasların - xarici iqtisadi əlaqələr, bir neçə il sonra marketinq iqtisadiyyatın hüquqi tənzimlənməsi, kommersiya və s. açılması və müvafiq kafedraların yaradılması, eyni zamanda, bəzi kafedraların informasiya texnologiyaları ilə tam şəkildə təchizi ("Marketinq və XİƏ") prosesin kütləvi xarakter alacağına, institut həyatının Avropa standartları səviyyəsinə çatacağına böyük ümid

yaratmışdı. Lakin bu və ya digər səbəblərdən gözlənilənlər gerçəkləşmədi. Ayrı-ayrı struktur bölmələrin əlahiddə şəkildə yüksək inkişaf tempi götürməsi ümuminstitut hadisəsinə çevrilmədi, ətalətlilik və açıq-aydın şəkildə müşahidə olunan durğunluq halları aradan qaldırılmadı.

Mübaliğəsiz olaraq, demək olar ki, Azərbaycan Dövlət İqtisad İnstitutunun həyatında "sabitləşmiş" durğunluq halından çıxış və keyfiyyətcə yeni mərhələyə keçid öz başlanğıcını 2000-ci ildən götürür.

Ulu öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə Respublikada paralel fəaliyyət göstərən iqtisad yönümlü ali məktəblərin birləşdirilməsi əsasında Azərbaycan Dövlət İqtisad Universitetinin yaradılması və bir qədər sonra universitetimizə muxtariyyət statusunun verilməsini modernləşmə prosesinin başlanğıcı kimi qəbul etmək olar.

Bu dövrdən başlayaraq yeniləşmə prosesi artıq dözülməz dərəcədə köhnəlmiş və müasir tələblərə cavab verməyən maddi-texniki bazanın inkişafından tutmuş struktur dəyişikliklərinə qədər çox geniş bir diapazonu əhatə edirdi. Universitetin xarici aləmə açılışı, lokal İnternet şəbəkəsinin yaradılması, təlim-tərbiyə prosesinin artıq ənənəyə çevrilmiş stereotiplərdən təmizlənməsi, elmi fəaliyyətin real xarakter kəsb etməsi yönümündə həyata keçirilən islahatlar əvvəlki dövrlərlə müqayisəyə gəlməyəcək qədər böyük və əhəmiyyətli idi. Qısa vaxt ərzində baş verən keyfiyyət dəyişiklikləri, sağlam psixoloji mühitin yaranması hələ 1987-ci ildən kollektivin bəzi üzvlərinin günahı ucbatından universitetin formalaşmış mənfi imicini aradan qaldırdı.

Universitetin 2002-ci ildə keçirilən 70 illik yubileyində iştirak etməklə, ulu öndər bu ali təhsil müəssisəsinə bəraət qazandırmaqla yanaşı, kollektivin tarixi xidmətlərini layiqincə dəyərləndirmişdi.

Əslində, İqtisad Universitetinin XXI əsrin başlanğıcındakı intibahı ulu öndərin təhsil strategiyasının təntənəsidir. Məhz bu dövrdə Azərbaycan təhsilinin inkişaf strategiyası müəyyənləşdirildi və geniş islahatlar proqramı qəbul edildi. Ali iqtisadi təhsilin müasir mərhələsi 2003-cü ildən başlayaraq bu gün də uğurla, yeni keyfiyyət müstəvisində davam etməkdədir.

Azərbaycan Dövlət İqtisad Universitetinin 2003-cü ildən sonrakı fəaliyyəti, bilavasitə Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin respublikamızın ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, elm və təhsilin dinamik və davamlı inkişafı üçün lazım olan bütün şəraiti yaratması ilə səciyyələnir. Mübaliğəsiz demək olar ki, məhz bu dövrdən başlayaraq ADİU-nun elmi-pedaqoji fəaliyyətinin hərtərəfli inkişafı üçün zəruri olan bütün şərait təmin edilmiş, dinamik inkişaf edən və şaxələnən iqtisadiyyatımız üçün ali təhsilli iqtisadçı kadrlar və menecerlər hazırlanması məsələsi ölkə rəhbərinin böyük diqqət və qayğısı ilə əhatə olunmuşdur.

2004-cü ildən başlayaraq praqmatik müstəvidə həyata keçirilən modernləşmə prosesi elm-təhsil prosesindən tutmuş maddi-texniki bazanın

keyfiyyətcə yeniləşməsinə, elektron universitet konsepsiyasının həyata keçirilməsinə, kollektivin sosial-məişət problemlərinə qədər çox geniş aspektdə olan vəzifələr kompleksini əhatə edir.

Qeyd etməliyik ki, son 10 ildə, xüsusilə 2003-cü ildən sonrakı dövrdə Azərbaycan Dövlət İqtisad Universiteti bütün parametrləri ilə respublikanın aparıcı ali məktəblərindən birinə çevrilmişdir. İqtisad Universiteti Azərbaycanda iqtisadiyyatın əksər sahələri üçün ali təhsilin bütün pillələri (bakalavriat, magistratura və doktorantura) üzrə mütəxəssislər hazırlanmasını həyata keçirən yeganə ali təhsil üzrə dövlət müəssisəsidir. İqtisad Universiteti Avropa təhsil məkanına uğurla inteqrasiya olunur. Boloniya təhsil sisteminə keçid, demək olar ki, başa çatdırılmış, müasir tədris metodları və texnologiyalarının tətbiqinə əsaslanan keyfiyyətli və şəffaf təhsil mühiti təmin olunmuş, çevik idarəetmə sistemi, mükəmməl struktur, müasir tələblərə cavab verən maddi-texniki baza və təhsil infrastrukturu yaradılmışdır.

Universitetin Nərimanov rayonunda yerləşən yeni tədris korpusunun açılış mərasimindəki (2007-ci il) proqram məzmunlu çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görülən işlərə çox yüksək qiymət vermiş, İqtisad Universitetində aparılan modernləşmə prosesinin ölkənin bütün ali məktəblərində həyata keçirilməsinin zəruriliyini qeyd etmişdi.

80 il ərzində universitet 120 mindən artıq iqtisadçı, menecer, mühəndis-texnoloq və digər mütəxəssislər hazırlamışdır. Respublikamızın bütün regionlarında, MDB ölkələrində, dünyanın bir çox yerlərində universitetin məzunları dövlət strukturlarında, müxtəlif özəl qurumlarda məsul vəzifələrdə yüksək peşəkarlıqla çalışırlar.

Dünyanın 30-dan çox ölkəsinin vətəndaşları müxtəlif illərdə İqtisad Universitetinin divarları arasında yüksək səviyyəli iqtisadçı mütəxəssis, alim və pedaqoq kimi yetişmək imkanı əldə etmişlər. Universitetin xarici məzunları bir sıra ölkələrdə (Türkiyə, İran, Yaxın Şərq ölkələri, Rusiya, Türkmənistan, Qazaxıstan, Nigeriya, Monqolustan, Kuba, Yəmən, Konqo, Vyetnam, Laos və s.) uğurlu əmək fəaliyyəti ilə məşğul olaraq, diplomumuzu bir daha şərəfləndirmişlər.

Hazırda Azərbaycan Dövlət İqtisad Universiteti yüksək intellektual potensialı olan professor-müəllim kollektivinə, müasir dünya standartlarına cavab verən tədris sisteminə, güclü maddi-texniki baza və infrastruktura malik olan modern tədris müəssisəsidir. Universitetin 11 fakültəsində, Magistratura, Distant və Əlavə Təhsil Mərkəzlərində, Doktorantura, Dərbənd şəhərindəki filialında 18 minə yaxın tələbə, magistr və doktorant təhsil alır.

Təhsil prosesi ən yüksək təlim texnologiyalarına əsaslanmaqla, yüksəkixtisaslı professor-müəllim heyəti tərəfindən Azərbaycan, rus, türk və ingilis dillərində həyata keçirilir. Tələbələrin tədrisi ilə 900 nəfərə yaxın professor-müəllim heyəti məşğul olur. Onlardan 100-dən çoxu elmlər doktoru,

professor, 500-ə qədəri isə fəlsəfə doktoru, dosentdir. Bundan əlavə, universitetdə 800 nəfərə yaxın təsərrüfat-texniki heyət çalışır.

Universitetin nəzdində ümummilli lider Heydər Əliyevin İqtisadi İrsinin Öyrənilməsi Mərkəzi, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu, Tədris-Metodiki Mərkəzi, Magistratura Mərkəzi, MBA proqramı, Distant və Əlavə Təhsil Mərkəzi, İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi, Gənclər üçün Karyera Mərkəzi, Əcnəbi Tələbələr üçün Hazırlıq Mərkəzi, Dünya Bankının İctimai-İnformasiya Mərkəzi, Ümumdünya Ticarət Təşkilatının İstinad Mərkəzi və digər strukturlar fəaliyyət göstərir.

Xüsusi istedada malik olan tələbələr üçün universitetdə fakültə statusunda 2000-ci ildən etibarən Xüsusi İstedadlar Qrupu (XİQ) fəaliyyət göstərir. XİQ-də tədris ingilis dilində olmaqla, Harvard Universitetinin təhsil proqramlarına əsaslanır və universitetin yüksəkixtisaslı müəllimləri, Amerika və Avropadan dəvət olunmuş professorlar, yerli və xarici şirkətlərin təcrübəli menecerləri tərəfindən həyata keçirilir.

Dünyanın 70-dən çox nüfuzlu ali təhsil müəssisəsi ilə birbaşa əməkdaşlıq edən ADİU Avropa Universitetləri Assosiasiyasının, Avropa Rektorları Klubunun, Avrasiya Universitetləri Assosiasiyasının, İslam ölkələri Universitetləri Federasiyasının, Qara Dəniz ölkələri Universitetlər Assosiasiyasının, YUNKTAD-ın Virtual İnstitutunun və digər bir çox beynəlxalq qurumların üzvüdür.

Göründüyü kimi, 2000-ci ildən başlayaraq intensiv xarakter almış yeniləşmə prosesi artıq bir sıra parametrlər üzrə yüksək nəticələr əldə etməyə imkan vermiş, universitetin keyfiyyətcə yeni məzmun və mahiyyətcə inkişaf yoluna qədəm qoyduğunu əyani şəkildə nümayiş etdirir.

Modernləşmə prosesi çərçivəsində hadisələrin başvermə tezliyi, aparılan islahatların yüksək effektivlik dərəcəsi və əldə olunan nəticələrin gerçək xarakterliliyi belə bir qənaətə gəlməyə imkan verir ki, universitetin qlobal miqyasda yüksək reytinqli analoji qurumlarla səviyyə bərabərliyinə çatması hec də uzaqda deyildir...

Azərbaycan Dövlət İqtisad Universiteti – 80.
Bakı: Şərq –Qərb, 2010, S. 8-15

DİLİMİZ MİLLİ VARLIĞIMIZDIR

Dil xalqın mövcudluğunun əsas əlaməti, xalqın varlığı deməkdir. Heç də təsadüfi deyildir ki, görkəmli alman filosofu Vilhelm fon Humboldt hələ 170 il bundan əvvəl yazırdı ki, hər bir dil mənsub olduğu xalqın ətrafına dairə çəkir, bu dairədən yalnız başqa dairəyə daxil ol-

maqla çıxmaq olar. Məlum həqiqətdir ki, xalqın bütün mənəviyyatı dildə öz əksini tapır. Yenə də V.Fon Humboldtun dili ilə desək, «dil xalqın ruhunun sanki xarici təzahürüdür, xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - daha çox eynilik təşkil edən bir şey təsəvvür etmək çətindir». Hər bir xalq dili ilə yaşayır. Xalqı öldürmək üçün onun dilini əlindən almaq lazımdır. Dil yaşayırsa, xalq da yaşayır, dil ölürsə, xalq da ölür.

Başqa dildə danışan xalqı əvvəlki xalq adlandırmaq olmaz, bu artıq yeni dıli olan yeni xalqdır. Xalq dilini dəyişirsə, özünü, adını, ruhunu, mənəviyyatını, əxlaqını, dünyagörüşünü, hətta adət-ənənəsini də dəyişir. Bir sözlə, əvvəlki xalq olmur. Buna görə də, özünü istəyən, yaşamaq istəyən xalq dilini qorumalı, yaşatmalı, inkişaf etdirməlidir. Dilini qorumağı bacarmayan xalq özünü qorumağı bacarmır, özünü ölümə məhkum edir. Deyirlər ki, dil cəmiyyətdə əmələ gəlir, cəmiyyətdən kənarda mövcud ola bilməz. Əlavə etmək lazımdır ki, cəmiyyəti də dil əmələ gətirir, dil olmazsa, cəmiyyət də ola bilməz. Hələ bir az irəli getsək, deyə bilərik ki, insanı insan edən, onu ətraf mühit fövqünə qaldıran, onu bioloji varlıqdan ictimai varlığa çevirən dilidir. Dilsiz insan, milli dilsiz isə millət yoxdur. Buna görə də hər bir xalq, millət, cəmiyyət, əgər yaşamaq istəyirsə, öz dilinin qayğısına qalmalı, onu inkişaf etdirməlidir. Cəmiyyət dil sahəsində dövlət siyasətini müəyyənləşdirməli və onu ardıcıl surətdə həyata keçirməlidir.

Bu deyilənləri bütünlüklə Azərbaycan dilinə də aid etmək olar. Fərəhlidir ki, son zamanlar Azərbaycanda dil sahəsində dövlət siyasəti müəyyənləşdirilmiş və həyata keçirilməyə başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı Azərbaycan dilinin milli ədəbi dil kimi inkişafına təkan vermiş, onun təhsil və mədəniyyətdə, ictimai həyatımızın bütün sahələrində işlənməsi ilə yanaşı, dövlət idarələrində də istifadə edilməsinə yol açmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində deyilir: «**I.** Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir. **II.** Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir».

Azərbaycan çoxmillətli dövlət olduğu üçün dövlət Azərbaycan Respublikasında yaşayan bütün xalqların dillərinin qorunması və inkişafı üçün təminat verir. Lakin hər hansı bir çoxmillətli dövlətdə müxtəlif xalqların bir-biri ilə ünsiyyət saxlaması üçün millətlərarası ünsiyyət vasitəsi olan dili də olmalıdır. Əks halda, ünsiyyət sahəsində də hərc-mərclik yaranar, xalqlar bir-birini başa düşməz, cəmiyyətin ictimai həyatı pozular, cəmiyyətin ozünün yaşaması təhlükə altına düşər.

Azərbaycan dili Azərbaycan Respublikasında yaşayan əhalinin böyük əksəriyyətini təşkil edən azərbaycanlıların millı dili olmaqdan əlavə, Azərbaycanda yaşayan bütün xalqların millətlərarası ünsiyyət dilidir. Buna görə də azərbaycanlılarla yanaşı, burada yaşayan bütün xalqlar Azərbaycan dilini ədəbi dil səviyyəsində, öz ana dilləri kimi bilməlidir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rus bölmələrinin tələbələri üçün hazırlanmış bu dərsliyin məqsədi rus bölmələrində təhsil alan tələbələrə Azərbaycan dilini mükəmməl mənimsətmək, onları cəmiyyətimizdə layiqli yer tutmağa hazırlamaq, cəmiyyətimizin bərabərhüquqlu üzvləri olmalarını təmin etməkdir.

Bəzən iddia edirlər ki, Azərbaycan ali məktəblərinin rus bölmələrində təhsil alan tələbələrin böyük əksəriyyəti azərbaycanlı olduğu üçün onlara Azərbaycan dilini tədris etməyə ehtiyac yoxdur. Bu yanlış fikirdir. Çünki milliyyətcə azərbaycanlı olan, lakin təhsilini rus dilində almış tələbələr Azərbaycan danışıq dilini hətta yaxşı bilsələr də, ədəbi dildən, xüsusən yazı qaydalarından istifadə edə bilmirlər. Buna görə də respublikamızın ali məktəblərinin rus bölmələrində Azərbaycan dilinin tədrisi nəinki lazımdır, hətta onun tədrisinə ayrılan vaxt qarşıya qoyulan məqsədlərə nail olmaq üçün daha da artırılmalıdır. Ali məktəblərimizin (məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dillər Universitetində) rus bölmələri üçün Azərbaycan dili dərslikləri mövcuddur. Təqdim edilən "Azərbaycan dili və ədəbiyyatı" dərsliyinin digər dərsliklərdən başlıca fərqi bundadır ki, dərslik Azərbaycan Dövlət İqtisad Universitetinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmışdır.

Əbülfəz Rəcəbli,
BDU-nun professoru,
filologiya elmləri doktoru

DİL NƏDİR?

«Dil nədir, necə yaranıb, dilsiz cəmiyyət yaşaya bilərmi?» sualları ta qədimdən insanları düşündürmüşdür. Çox qədimlərdən insanlar bu qənaətə gəliblər ki, dilsiz cəmiyyət yarana bilməz.

Dil ünsiyyət vasitəsidir. İnsanlar bir-birini dil vasitəsilə başa düşür, məhz dillə əlaqə saxlayırlar. İnsanlar bir-biri ilə əlaqə saxlamaq üçün müəyyən kollektiv şəklində, toplu halında yaşamalıdırlar. Artıq bu, cəmiyyət deməkdir. Bir halda ki, dil insan cəmiyyətində meydana gəlir, ona görə də ictimai hadisə sayılır.

Dilin yaranması üçün insan orqanizminin fizioloji cəhətdən müəyyən şəkildə, bugünkü vəziyyətdə formalaşması da vacib şərtlərdəndir.

İnsan orqanizminin məhz gördüyümüz şaquli şəklə düşməsi ilə danışıq üzvləri, səs aparatı formalaşır, səslərin tələffüzü üçün tənəffüsü ağciyər müntəzəm edir. Həmçinin başın (sifət quruluşu, çənə və s.) və onun içində yerləşən, dil üçün çox vacib sayılan şüurun – təfəkkürün akkumulyatoru rolunu oynayan beynin bu biçimdə müəyyənləşməsi də bədənin şaquli quruluşu ilə bağlıdır. Beləliklə, insan bədəninin şaquli vəziyyətə keçməsi, insanın əməklə məşğul olmasının buna təsiri, eyni zamanda dilin və şüurun yaranması bütöv halda bir ictimai prosesdir.

Dil xalqın varlığıdır, mədəniyyətidir.
Heydər Əliyev

Hər bir Azəbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, Dövlət dilini mükəmməl bilməlidir.
Heydər Əliyev

Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir.
Heydər Əliyev

Ana dilində danışmaq böyük mədəniyyətdir.
Hegel

Millətin dilini bilmədən onun dərdinə çarə etmək olmaz.
Nəriman Nərimanov

Hər bir xalqın tərəqqi yolu onun müəllimindən asılıdır.
Nəriman Nərimanov

Milləti dil formalaşdırır.
Ferdinand de Sössür

Biz dünyanı dilimiz vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq.
Abbas Səhhət

Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan, ölüb getməz, amma dilini alsan, yox olar və ondan bir nişan tapılmaz.
K.D.Uşinski

DİLÇİLİK ELMİ

Qədim tarixə malik olan dilçilik elmi ilk dəfə Yunanıstanda yaranmışdır. Dilçilik elmi ictimai hadisə olan dili öyrənir. Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Şərqdə ilk dilçi alim Mahmud Kaşqari olmuşdur. O, XI əsrdə yaşamışdır. Onun «Divani-lüğət-it-türk» əsəri 1072-ci ildə yazılmışdır.

Dilçilik elminin aşağıdakı bölmələri var:

1. **Fonetika** – danışıq səslərini öyrənir.
2. **Leksika** – dilin lüğət tərkibini, yəni sözü öyrənir.
3. **Etimologiya** – sözün mənşəyini öyrənir.
4. **Dialektologiya** – müxtəlif ərazilərdə işlənən məhəlli sözləri öyrənir.
5. **Orfoqrafiya** – sözlərin düzgün yazılışını öyrənir.
6. **Orfoepiya** – sözlərin düzgün tələffüzünü öyrənir.
7. **Frazeologiya** – məcazi mənada işlənən söz birləşmələrini öyrənir.
8. **Söz yaradıcılığı** – sözlərin əmələgəlmə yolları və üslüblarından danışır.
9. **Qrammatika** – dilimizin ən böyük bölməsidir, 2 yerə bölünür:

a) **Morfologiya** – sözlərin qrammatik quruluşundan, nitq hissələrindən bəhs edir;

b) **Sintaksis** – söz birləşməsi və cümlədən bəhs edir.

10. **Üslubiyyat** – üslubları öyrənir.
11. **Onomologiya** – hər yerdə böyük hərflə yazılan xüsusi adları öyrənir.

Azərbaycan dilinin ilk elmi qrammatikasını XIX əsrdə yaşamış M.Kazımbəy yazmışdır.

Sözlər və cümlə təhlil olunarkən aşağıdakı şərti işarələrlə göstərilir:


- sözün kökü

- leksik şəkilçi

- qrammatik şəkilçi

- mübtəda

- xəbər

- tamamlıq

- təyin

- zərflik

FONETİKA
(ФОНЕТИКА)

«Fonetika» yunan sözüdür. «Fon» səs, «etika» ali təlim deməkdir.

Dilçiliyin danışıq səslərindən bəhs edən şöbəsinə fonetika deyilir. Danışarkən tələffüz etdiyimiz səslər danışıq səsləri adlanır. Səs və hərf dilin kiçik vahidləridir. Onlar birləşib söz və cümlə yaradırlar. Səs deyilir, mühitə yayılır, beyinə həkk olunur və qulaq vasitəsilə eşidilir. Danışıq səsləri danışıq üzvləri vasitəsilə əmələ gəlir. Danışıq üzvləri aşağıdakılardır:

- ağciyərlər;
- nəfəs borusu;
- səs telləri;
- ağız boşluğu;
- dil;
- dodaqlar;
- dişlər;
- burun boşluğu.

HƏRFLƏR VƏ DANIŞIQ SƏSLƏRİ
(БУКВЫ И ЗВУКИ РЕЧИ)

Fonetikada danışıq səsləri, ahəng qanunu, heca və vurğu öyrənilir.

Фонетика изучает звуки речи, слог, ударение и закон гармонии, (сингармонизм).

Danışarkən tələffüz etdiyimiz səslər danışıq səsləri adlanır. Danışıq səslərini tələffüz edir və eşidirik. Səslərin yazıda işarələrinə hərflər deyilir. Hərfləri yazırıq və görürük. Azərbaycan dilində 32 hərf vardır**: a, b, c, ç, d, e, ə, f, g, ğ, h, x, ı, i, j, k, q, l, m, n, o, ö, p, r, s, ş, t, u, ü, v, y, z.**

Произносимые во время речи звуки называются звуками речи. Звуки мы произносим и слышим. Условные знаки для изображения звуков речи называются буквами. Буквы пишем и видим. В азербайджанском языке 32 буквы: **a, b, c, ç, d, e, ə, f, g, ğ, h, x, ı, i, j, k, q, l, m, n, o, ö, p, r, s, ş, t, u, ü, v, y, z.**

Sözlər danışıq səslərindən ibarətdir. Azərbaycan dilində **44** danışıq səsi vardır[1], bunlardan **/ğ/, /ə/, /g/, /ö/, /ü/, /h/, /c/** dilimiz üçün səciyyəvi səslər hesab olunur.

Слова состоят из звуков речи, которых в азербайджанском языке **44**. Из них **/ğ/, /ə/, /g/, /ö/, /ü/, /h/, /c/** - специфические звуки азербайджанского языка.

---

[1] Bax: Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı: Maarif, 1973.- S.51.

Rus dilindən alınma sözlərlə dilimizə keçən dilarxası **/k/** səsinin xüsusi hərfi işarəsi yoxdur, bu səs əlifbamızda **k** hərfi ilə yazılır.

Hazırda əlifbamız latın qrafikası əsasında tərtib edilən **32** hərfdən ibarətdir.

Для заднеязычного **/к/,** представленного в русских заимствованиях в азербайджанском алфавите нет особой буквы. Для передачи этого звука на письме используют букву **/к/** азербайджанского алфавита.

В настоящее время азербайджанский алфавит построен на основе латинской графики и состоит из 32 букв.

■**Tapşırıq.** *"Əlifba haqqında" mətni oxuyun və məzmununu öyrənin.*

Azərbaycanlıların ulu babaları qədim rum yazısından istifadə etmişlər. Bu, qədim türk əlifbası adlanır.

V əsrin əvvəllərində isə Azərbaycanda alban əlifbası yaranır. 52 hərfdən ibarət olan bu əlifba ilə yazılmış daş kitabələr bu günümüzə qədər gəlib çatmışdır.

VII əsrdə ərəblər ölkəmizi istila etdikdən sonra islam dini ilə bərabər, öz əlifbalarını da Azərbaycan xalqına qəbul etdirdilər. Əsrlər boyu ərəb əlifbasından azərbaycanlılar, özbəklər, türkmənlər, tatarlar, türklər, farslar, uyğurlar, noqaylar və s. xalqlar istifadə etmişlər.

Beləliklə, VII əsrdən XX əsrin əvvəllərinədək Azərbaycan xalqı ərəb əlifbasında yazıb-yaratmışdır.

SSRİ yarandıqdan sonra 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda ərəb əlifbasından latın qrafikasına keçmək haqqında qərar qəbul edildi. Təxminən 12-13 il Azərbaycan xalqı latın qrafikasından istifadə etdi.

Keçmiş Sovet dövlətinin ictimai-siyasi ədalətsizliyinə məruz qalan Azərbaycan Moskvanın təkidilə 1939-cu ildə rus qrafikası (kiril) əsasında əlifba yaratmaq məcburiyyətində qaldı. Bu əlifbada yazmağın çətinliklərini nəzərə alan dilçi alimlərimiz rus qrafikasında olmayan, Azərbaycan dilinin fonetik xüsusiyyətlərini özündə əks etdirən səsləri göstərmək üçün latın mənşəli **ə, ö, h** işarələrini və rus qrafikasında olan hərflərdə müəyyən dəyişikliklər etməklə **c, g, ü, ğ** səslərini əlifbaya daxil etdilər. 32 hərfdən ibarət olan bu əlifbadan SSRİ-nin dağılmasına (1991-ci ilə) qədər istifadə olundu.

Latın qrafikasında yazmağın asanlığını və dünyəviliyini nəzərə alan müstəqil Azərbaycan Respublikası 2001-ci il avqustun 1-dən latın qrafikası əsasında tərtib edilmiş əlifbaya keçdi. Hal-hazırda dünya xalqlarının əksəriyyəti kimi Azərbaycan xalqı da latın əlifbası əsasında yaradılmış Azərbaycan əlifbasından istifadə edir.

AZƏRBAYCAN ƏLİFBASI

LATIN QRAFİKALI AZƏRBAYCAN ƏLİFBASI

Adı	Çap şəkli	Əlyazma şəkli	Adı	Çap şəkli	Əlyazma şəkli
A	**Aa**	***Aa***	**Qe**	**Qq**	***Qq***
Be	**Bb**	***Bb***	**El**	**Ll**	***Ll***
Ce	**Cc**	***Cc***	**Em**	**Mm**	***Mm***
Çe	**Çç**	***Çç***	**En**	**Nn**	***Nn***
De	**Dd**	***Dd***	**O**	**Oo**	***Oo***
E	**Ee**	***Ee***	**Ö**	**Öö**	***Öö***
Ə	**Əə**	***Əə***	**Pe**	**Pp**	***Pp***
Fe	**Ff**	***Ff***	**Er**	**Rr**	***Rr***
Ge	**Gg**	***Gg***	**Se**	**Ss**	***Ss***
Ğe	**Ğğ**	***Ğğ***	**Şe**	**Şş**	***Şş***
He	**Hh**	***Hh***	**Te**	**Tt**	***Tt***
Xe	**Xx**	***Xx***	**U**	**Uu**	***Uu***
I	**Iı**	***Iı***	**Ü**	**Üü**	***Üü***
İ	**İi**	***İi***	**Ve**	**Vv**	***Vv***
Je	**Jj**	***Jj***	**Ye**	**Yy**	***Yy***
Ke, ka	**Kk**	***Kk***	**Ze**	**Zz**	***Zz***

■**Tapşırıq.** *Aşağıdakı sözlərin mənasını və düzgün tələffüzünü öyrənin:*

ağ, dağ, gənc, uca, mən, sən, bacı, gəl, get, soğan, gözəl, yağış, küçə, göz, üzük, üzüm, doğma, cahan, cümlə, kaman, zəfər, xoşbəxt, buğda, sünbül, zirvə, gecə, seyrək.

Qeyd: Rus dilindən Azərbaycan dilinə keçmiş kolxoz, kosmos, traktor, kombayn və s. sözlərdə **/k/** səsi rus dilində olduğu kimi tələffüz edilir. Lakin həmin səs Azərbaycan dilinin səsləri sırasında ayrıca olaraq qeyd edilmir, əlifbada onun xüsusi işarəsi yoxdur. Çünki həmin səs Azərbaycan dilində fonem xüsusiyyəti daşımır və ümumxalq danışıq dilinin səs tərkibinə daxil olmamışdır.

Примечание: Звук **/к/** в заимствованных из русского языка словах колхоз, космос, трактор, комбайн и т.п. произносится как русский **/к/.** Но он как отдельный звук не входит в звуковую систему азербайджанского языка, и не имеет специального графического обозначения. Так как звук **/к/** не сформировался как самостоятельная фонема, он не вошел в взуковой состав общенародного разговорного языка.

■**Tapşırıq.** *Mətni rus dilinə tərcümə edin və məzmununu danışın.*

YAZININ ƏMƏLƏ GƏLMƏSİ HAQQINDA

Bəşəriyyət öz inkişafı tarixində yüzlərcə kəşflər etmişdir. Bunlardan ən böyüyü yazıdır. Yazının ilkin növü əşyaların köməyi ilə olmuşdur. İnsanlar uzaq yerlərə öz fıkirlərini əşyaların köməyi ilə çatdırmışlar. Buna görə də, yazının ilkin növü **əşyavi yazı** adlanmışdır.

Azərbaycan nağıllarında əşyavi yazı ilə bağlı maraqlı epizodlar vardır. «**Daşdəmirin nağılı»nda Mirzə Möhsün Nardana «məktub» - daş, dəmir, əl dəyirmanı, armud və gavalı göndərir. Nardan daşla, dəmirin Daşdəmir,** əl dəyirmanının isə ovdan olduğunu bilir. Daşdəmir isə armudun abasbəyi armudu adlandığına görə şahın qoşun başçısı Abbas bəyə, gavalının isə vəzir Alı adlandığına görə vəzirə işarə edildiyini oxuyur.

Müasir həyatımızda da əşyavi yazının izlərinə rast gəlmək mümkündür. Məsələn, yas saxlayan şəxsin qara paltar geyməsi onun yaxın bir adamının vəfat etdiyini bildirir[1].

Yazının ikinci növü şəkli (piktoqrafik) yazıdır. Bu yazıda nəzərdə tutulan əşyanın şəkli çəkilir. Piktoqrafik yazıya aid nümunələrə bu gün də təsadüf edilir.

Yazının üçüncü növü səs yazısıdır (ideoqrafik). Bu yazıda da fikir şəklin köməyi ilə çatdırılır. Lakin piktoqrafik yazıda şəkil birbaşa əşyanın özünü bildirdiyi halda, ideoqrafık yazıda şəkil rəmzi mənada (ideya şəklində) işlənir. Əgər piktoqrafik yazıda günəş şəkli günəşi bildirirsə, ideoqrafik yazıda bu şəkil işıq anlayışını ifadə edir.

Yazının son –dördüncü növü hərfi (fonoqrafik) yazıdır.

Fonoqrafik yazının ilk mərhələsi heca yazısı (sillabik yazı) olmuşdur. Əsl fonoqrafik yazıda isə hər səs bir işarə ilə, yəni hərflə ifadə olunur. Sözdəki səslərin hərflərlə göstərilməsindən sonra əlifba meydana çıxmışdır.

İstər kiril, istərsə də latın əlifbası fonoqrafik yazıya əsaslanmışdır.

AZƏRBAYCAN DİLİ HAQQINDA ÜMUMİ MƏLUMAT

Hər bir dövlətin dövlətçilik atributlarından biri onun siyasi, iqtisadi, mədəni fəaliyyətini cəmiyyətə çatdıran dildir. Azərbaycan Respublikasının Konstitusiyasında yazılmışdır: «Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir». Bu isə o deməkdir ki, Azərbaycan Respublikasının bütün dövlət orqanlarında, idarə və müəssisələrində ya-

[1] Bax: M.Nağısoylu «Azərbaycan dili» (ali təhsil və hazırlıq kurslarının dinləyiciləri üçün dərslik). Bakı: «Zirvə yayımları», 1999, s. 175

zılı və şifahi işlər Azərbaycan dilində aparılmalıdır və azərbaycanlılarla bərabər dövlət idarəçiliyində vəzifə tutan müxtəlif xalqların nümayəndələri də öz ana dili ilə yanaşı, Azərbaycan dilini də lazımi səviyyədə bilməlidirlər.

Dil, hər şeydən əvvəl, ünsiyyət vasitəsidir. Bu baxımdan Azərbaycan dili də Azərbaycan Respublikasında və Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların ana dilidir. Respublikamızda 9,4 milyon, Cənubi Azərbaycanda isə 30 milyona yaxın adam bu dildə danışır. Bundan başqa, dünyanın müxtəlif ölkələrində, o cümlədən, keçmiş SSRİ ərazisindəki respublikalarda, Türkiyədə, Almaniyada, ABŞ-da, Fransada, İngiltərədə, Norveç, Danimarka və Hollandiyada, Hindistan və Pakistanda, Avstraliya və Yaponiyada yaşayan azərbaycanlılar ana dili kimi bu dili işlədirlər. Bütövlükdə Azərbaycan dili təxminən qırx milyona qədər azərbaycanlı arasında ünsiyyət vasitəsidir.

Azərbaycan dili türk dilləri ailəsinin cənub-qərb qrupuna daxildir. Bu qrupa oğuz dil qrupu da deyilir. Azərbaycan dili, türk dili, türkmən dili və qaqauz dili oğuz dil qrupunu təşkil edir.

Azərbaycan dili qədim ədəbi dillərdən biridir. Bu dildə hələ XI əsrdə yazılmış əsərlər vardır. AMEA-nın əlyazmalar fondunda, həmçinin dünyanm bır çox muzey və kitabxanalarında Azərbaycan dilində çox qiymətli əlyazmalar saxlanılır.

Azərbaycan dili inkişaf etmiş, zəngin dillərdən biri kimi, bu gün də öz inkişafını davam etdirir. Hazırda respublikamızda bu dildə yüzlərlə qəzet və jurnal çap olunur, çoxlu elmi, bədii və siyasi əsərlər, tərcümə ədəbiyyatı nəşr edilir, radio və televiziya verilişləri yayımlanır. Hətta, ABŞ-da «Amerikanın səsi», Almaniyada «Azadlıq» radiosu Azərbaycan dilində verilişlər aparır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dili respublikamızın ərazisində yaşayan bir çox azsaylı xalqların, o cümlədən talış, tat, ləzgi, kürd, udin və saxurların da ümumi ünsiyyət vasitəsidir. Azərbaycanda yaşayan rusların və gürcülərin də xeyli hissəsi bu dili bilir.

Azərbaycan dili daim inkişafdadır. Odur ki, bu gün hər bir Azərbaycan vətəndaşı Azərbaycan dilini dövlət dili olaraq mükəmməl öyrənməli və onu daha da inkişaf etdirməyə çalışmalıdır.

ŞİFAHİ XALQ ƏDƏBİYYATI

"Qaçaq Nəbi" dastanı
(1854-1886)

Nəbi xalq qəhrəmanıdır. O, 1854-cü ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Uşaq yaşlarından muzdur olan Nəbi varlıların zülmünü və özbaşınalığını görmuş, buna dözməyib qaçaq düşmüşdür. Elə dastanın adı da buradan götürülmüşdür. Nəbi eldə-obada xanların, bəylərin zülmünə qarşı çıxan özü kimi qoçaq adamları başına toplamış, xanlara və bəylərə qarşı vuruşmuşdur. O, yoxsulların tərəfini saxlayır, onların yaxşı yaşaması üçün əlindən gələni edirdi. Nəbi 1886-cı ildə İranda vuruşmaların birində həlak olmuşdur. 20 ilə yaxın apardığı mübarizə Nəbi haqqında çoxlu rəvayət, xatirə, mahnı və nəğmələr yaratmağa imkan vermişdir.

Dağlarının başı dumandı-duman,
Nəbidən çəkirlər zalımlar aman.
Qoç Koroğlu kimi Nəbi qəhrəman,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən ay qoçaq Nəbi.

Nəbinin qaşları qaradır, qara,
Düşmən ürəyinə vurubdur yara.
Bəyləri, xanları gətirib zara,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən ay qoçaq Nəbi.

Şeirdə adı çəkilən Həcər Nəbinin həyat yoldaşıdır. O, azərbaycanlı qadınına xas olan bütün keyfiyyətləri özündə cəmləşdirir. Həcər həm də Nəbinin döyüş yoldaşıdır. O, çox bacarıqlı, qorxmaz, çevik, qayğıkeş, mehriban və ərinə sadiq bir azəri qadınıdır.

«Səttarxan» dastanı

Tarixdən məlum olduğu kimi Azərbaycan torpağı 1828-ci ildə Rusiya ilə İran arasında iki yerə parçalanmışdır. Azərbaycanın cənub hissəsi - İran Azərbaycanı, şimal hissəsi isə - rus Azərbaycanı adı ilə dünyaya tanınmışdır. İndi haqqında danışacağımız «Səttarxan» dastanında 1905-ci ildə İran Azərbaycanında baş verən azadlıq hərəkatından danışılır. Dastanın qısa məzmunu belədir: İran şahı Məmmədəli şah Cənubi Azərbay-

canda zülmünu və ədalətsizliyini günü-gündən artırır. Azərbaycan xalqı çox acınacaqlı həyat keçirir və ona görə də, tez-tez üsyan edir. Bu üsyanın başçısı Səttar xan idi. O, öz xalqını azad və xoşbəxt görmək istəyir. Bu məqsədlə şaha şeirlə məktub yazır, Azərbaycana azadlıq və istiqlaliyyət xahiş edir.

İnsan olan vətənini satmasın,
Təmiz qanı nahaq qana qatmasın,
Namusun, qeyrətin, arın satmasın.

Səttar xanın xahişi və onun tutduğu mövqe şahın xoşuna gəlmir. Saray adamları ona məsləhət görürlər ki, Səttar xanı saraya çağırsın və onu pulla ələ alsın. Şah belə də edir. Səttar xanı saraya çagırır. Səttar xan pulu və qızılını sahın üstünə atır və deyir: "Şah, məni nə hesab edirsən, yoxsa Səttar xanı pulla satın almaq istəyirsən. Onu bilin ki, Səttar xan azərbaycanlıdır. O, dünya malına aldanıb öz vətənini, öz xalqını satmaz. Əgər siz Azərbaycanda sakitlik istəyirsinizsə, onda haqqımızı özümüzə qaytarın. Onda biz də rahat olarıq, siz də".

Bunu eşidən şah Səttar xanı tutmaq üçün əmr verir. Səttar xan saraydan qaçıb Təbrizə gəlir, vətəninin, xalqının azadlığı uğrunda mübarizəni davam etdirir:

Azadlıq yolunda axsa da qanım,
Qurbandır vətənə bu cismi-canım,
Qoy dönsün gülşənə Azərbaycanım,
Bağım olsun, şirin barın görüm mən.

Səttar xan Təbrizə hücum edən şah qoşunları sərkərdəsinə qan tökməyib çıxıb getməyi təklif edir. Lakin heç kəs onun təklifini qəbul etmir. Belə olduqda Səttar xan öz mücahidlərinə (əsgərlərinə) döyüş əmrini verir.

Şahın qoşunları məğlub ediləndən sonra Səttar xan Təbrizə dönür və Vətənə olan məhəbbətini belə ifadə edir:

Azərbaycan cavanları, At salın, girin meydana,
Yeriyin düşmən üstünə. Cəng edin mərd-mərdanə.
Koroğlular, Cavanşirlər, Boyansın düşmən al-qana,
Mərd gedin düşmən üstünə. Hərəmiz bir xan üstünə.

Bu dastanı Aşıq Hüseyn Cavarlı yazmışdır. Dastanın yalnız bir hissəsi çap olunmuşdur. Ümumilİkdə isə dastan tamamlanmamışdır.

AŞIQ POEZİYASİ

Azərbaycan şifahi xalq ədəbiyyatının ən böyük və zəngin janrlarından biri də aşıq poeziyasıdır. Qədim zamanlarda aşığa ozan da deyirdilər.

Aşıq poeziyası aşıq yaradıcılığı sənətinin 3 xüsusiyyətini özündə cəmləşdirir. Aşıq həm yaxşı saz çalmalı, rəqs etməli, gözəl səslə oxumağı bacarmalı, həm də gözəl şeir və dastanlar qoşmalıdır. Bu xüsusiyyətlərinə görə aşıqlar *2* qrupa bölünür. Yuxarıda dediyimiz 3 xüsusiyyəti özündə cəmləşdirən aşıqlara yaradıcı, ustad aşıqlar deyilir. İkinci qrup aşıqlara isə peşəkar ifaçı aşıqlar deyilir. Belə aşıqlar ustad aşıqların şeir və dastanlarını əzbərləyir və xalq içərisində oxuyurlar.

Ta qədim zamanlardan başlayıb bu günə kimi inkişaf edən aşıq yaradıcılığında, aşıq poeziyasında çox boyük ustad aşıqlardan olan Aşıq Qurbanini, Aşıq Tufarqanlını, Aşıq Alını, Aşıq Ələsgəri, Aşıq Ululu Kərəmi, Sarı Aşığı və s. göstərmək olar. Ustad aşıqlar öz şeirlərində xanların, bəylərin zülmünü, həyat hadisələrini, yaşadıqları dövrə öz münasibətlərini, xarici düşmənlərə qarşı öz nifrətlərini, vətənə və xalqına olan öz dərin məhəbbətlərini tərənnüm etmişlər. Bundan başqa, onlar öz şeirlərində xalqa nəsihətlər verir, dövrün yeniyetmə və cavanlarında nəcib hisslər yaradırlar. Paxıllığa, ikiüzlülüyə, oğurluğa, yaltaqlığa, xəyanətə qarşı onlarda nifrət oyadırlar. Bir sözlə, ustad aşıqlar öz şeirləri ilə insanlarda əxlaqi keyfiyyətlər aşılayırlar.

Aşıq Ululu Kərim bir ustadnaməsində (ustadnamə-usta sözü, usta nəsihəti deməkdir) öz əxlaqi-tərbiyəvi fikirlərini incə-poetik bir şəkildə xalqa çatdırır.

Salam verib bir məclisə varanda,
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.
... Dindirəndə kəlmə-kəlmə cavab ver,
Görən desin — bərəkallah, yaxşıdır.

Yazıb-yaratmaqda, çalıb-oynamaqda ustad aşıqlardan geri qalmayan qadın aşıqlarımız da olubdur. Onlara misal olaraq Aşıq Nabatı, Aşıq Sənəmi, Fatma xanım Kəminəni, Gövhər xanımı, Aşıq Hamayılı, Əsməri, Aşıq Pərini, Aşıq Bəstini və başqalarını göstərmək olar.

Aşıq Ələsgər

Aşıq Ələsgər 1821-ci ildə keçmiş Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. O, Azərbaycan aşıq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir.

Aşıq Ələsgər məktəb təhsili görməmişdir. O, çox istedadlı olmuş, 15 yaşında saz çalmağı və söz deməyi bacarmışdır. Ustad Aşıq Alının şagirdi olmuşdur.

Aşıq Ələsgər ömrü boyu zəhmətlə yaşamışdır. Şeir deməkdə, saz çalmaqda mahir olduğu kimi, araba bağlamaqda, dəyirmançılıqda da fərqlənmişdi.

Aşıq Ələsgər Azərbaycan xalq poeziyasının ən gözəl nümunələrini - dastan və qoşmaları əzbər bilir, çoxlu aşıq havasını sazda çalırdı. O, öz şeirlərində xalqın başına gətirilən müsibətlərdən bəhs edirdi:

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə.
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıdan belinin qatı çıxıbdır.

Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının yenilikçi nümayəndələrindəndir. Onun yaratmış olduğu dodaqdəyməz, dildönməz, cığalı kimi şeir formaları indi də oxucular tərəfindən sevilə-sevilə oxunur:

Qışda dağlar ağ geyinər, yaz qara,
Sağ əlində ağ dəftərə yaz qara.
Əsər yellər, qəhr eyləyər, yaz qara,
Daşar çaylar, daşlar gələr çata-çat.

Aşıq Ələsgər 1926-cı ildə vəfat etmişdir.

Xəstə Qasım

XVIII əsrdə yaşayıb-yaradan görkəmli xalq aşıqlarından biri də Xəstə Qasımdır. O, həm nəsihətamiz, həm də lirik şeirləri ilə şöhrət qazanmışdır. Həyatı haqqında dəqiq məlumat yoxdur. Şeirlərindən məlum olur ki, o, Cənubi Azərbaycanın Tikmədən kəndindəndir.

Xəstə Qasım hər şeydən əvvəl, öz ustadnamələri ilə məşhurdur. Onun ustadnamələri insanları doğruluğa, ədalətə, xeyirxahlığa çağırır, mala, pula, dövlətə, qolunun zoruna arxalanıb yoxsullara zülm edənləri doğru yola dəvət edir. Aşağıdakı iki bənd şeir yuxarıda dediklərimizə nümunə ola bilər:

Bir yerə gedəndə özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə,
Əgər güclü isən, fəqiri döymə,
Demə var qüvvətim, qolum yaxşıdır.

Xəstə Qasım kimi qılsan dadını,
Canı çıxsın, özü çəksin odunu,
Yaxşı igid yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdır.

Aşıq Pəri

Aşıq Pəri təxminən 1810-cu illərdə, indiki Cəbrayıl rayonunda yoxsul kəndli ailəsində anadan olmuşdur. O, doğma Maralyan kəndindən Şuşaya köçmüş və orada yazıb yaratmışdır.

Aşıq Pəri çox gözəl, sakit təbiətli, ağıllı və hazırcavab bir qız idi. O, şeirlərini aşıq şeri formasında yazırdı. Onun şeirlərinin çoxu itib-batmış, yalnız 40-50 şeiri gəlib bizə çatmışdır. Aşıq Pəri öz şeirlərində ana təbiəti, dostluğu, ədaləti tərənnüm etməklə yanaşı, öz bəxtindən, dövrünün ədalətsizliyindən şikayətlənirdi. Deyilənə görə, Aşıq Pəri çox gənc yaşlarında vəfat etmişdir. Aşıq Pəri yoxsul bir ailədə böyümüş və şeirlərindən bilinir ki, o, öz bəxtindən şikayətçi olmuşdur:

Nə müddətdir bu qəflətdən,
Oyanmırsan, qara baxtım.
Çəkdirdiyin əziyyətdən,
Usanmırsan, qara baxtım.

Axıtdın sel tək qanımı,
Üzmüsən cavan canımı.
Almısan adü – sanımı,
Utanmırsan, qara baxtım?

Yaşayırsan zəhmət ilə,
Çətinliklə, zillət ilə.
Sən Pəriylə hörmət ilə,
Dolanmırsan, qara baxtım.

Aşıq Bəsti

Aşıq Bəsti təxminən 1836-39-cu illərdə Kəlbəcər rayonunun Lev kəndində anadan olmuşdur. Savadsız bir qız olan Bəsti ağlı və fərasəti ilə başqalarından seçilmişdir. O, Aşıq Ələsgər və Aşıq Qurbani kimi ustad aşıqların məclisində olmuş, onlardan öyrənmiş və şeir deməyə başlamışdır. Çoban nişanlısı azğın bəylər tərəfindən öldürüləndən sonra Aşıq Bəsti daha kəndlərində qalmamış, faciəli məhəbbətini saz və sözlə ifadə

etməyə başlamışdır. O, həm aşıqlıq etmiş, həm də bir çox aşıqlar yetişdirmişdir.

Aşıq Bəsti şeirlərində xanların və bəylərin harınlığını pisləməklə yanaşı gözəlliyi, doğruluğu tərənnüm edirdi.

O, öz dərdini saz və sözlə ifadə edir, göz yaşları axıdaraq oxuyurdu. Bunun nəticəsində Aşıq Bəstinin gözləri tutulur. El arasında ona «Kor Bəsti» də deyirlər.

Aşıq Bəsti 1936-cı ildə təxminən 100 yaşında doğma kəndində vəfat etmisdir.

QOŞMALAR

Ay bəy, nə gəzirsən hallı-havalı,
Süleyman mülkünün yiyəsi kimi.
Nədəndi yaxşının başın kəsməyə,
Hazırsan xəncərin tiyəsi kimi?

Güvənməyin dövlətinə, varına,
Lənət olsun qeyrətinə, arına.
Haqdan zəfər dəysin bütün barına,
Lüt qalginən palaz iynəsi kimi.

Ağladım doyunca, gülmədim haşa,
Bir ah çəkdim, dağlar gələr baş-başa.
Bəsti deyər, səni də düş ataşa,
Yan Novruz şamının piləsi kimi.

Çobandağı

Səndən axır abi-kövsər,
Suyun baldı Çobandağı.
Bəzənmisən gəlin kimi,
Nə cəlaldı, Çobandağı?

Kəkliklərin qonur daşa,
Qaqqıldaşa-qaqqıldaşa.
Hər görən eylər tamaşa,
Bir xəyaldı Çöbandağı.

Hər dürlü çiçək sinəndə,
Tapılmaz qeyri-çəməndə.
Bahar fəsli Bəsti səndə,
Qonaq qaldı Çobandağı.

Dağ üstündən çəkdin dağı,
De nəydi günahım, dağlar?
Sən mənə kəsildin yağı,
Tutsun səni ahım, dağlar?

Qara gəlibdir dövranım,
Əl vurma, tökülər qanım.
Hanı mənim Çobanım,
Oydu qibləgahım, dağlar.
Niyə belə yazdı fələk,
Ayrılığa dözmür ürək.
Bəsti kimi sən də qal tək,
Olmasın pənahın, dağlar.

«Astiaq» əfsanəsi

Əfsanənin qısa məzmunu belədir: «Azərbaycan ərazisində olan son Midiya hökmdarı İştuvequ-Astiaq yatıb yuxuda görür ki, qızı Mandananın ətrafında su əmələ gəlir. Bu su çoxalıb şəhəri və bütün Asiyanı basır.

Astiaq yuxudan oyanıb yuxusunu danışır. Yuxu yozanlar belə deyirlər ki, Mandanadan olacaq oğlan onun taxtı-tacını əlindən alacaqdır. O vaxtkı qanuna görə şah yalnız midiyalılardan olmalı idi. Buna görə Astiaq qızı Mandananı Kombis adlı fağır bir iranlıya ərə verir.

Bir qədər keçəndəıı sonra Astiaq ikinci dəfə yuxuda görür kı, Mandananın sinəsində üzüm tənəyi ağacı göyərdi və böyüyüb bütün Asiyanı tutdu. Yuxu yozanlar bu yuxunu da əvvəlki kimi yozdular. Astiaq hamilə qızını saraya gətirib nəzarət altında saxlayır. Bir müddət keçəndən sonra Mandananın bir oğlu olur. Astiaq uşağı Harpaq adlı qohumuna verib öldürməsini əmr edir. Harpağın uşağı öldürməyə əli gəlmir və uşağı bir çobana verir ki, onu öldürsün. Təsadüfən həmin çobanın arvadının da oğlu olur, lakin uşaq ölü doğulur. Ər-arvad Mandananın oğlunu özlərinə götürür, ölü uşağı isə Harpağın adamlarına göstərib dəfn edirlər.

Bu hadisədən on il keçəndən sonra çobanın oğlu uşaqlarla oynayırmış. Oyuna görə onu Şah seçirlər. Çobanın (Mandananın) oğlu oyun vaxtı Artembaras adlı bir Midiya zadəganının oğlunu əmri yerinə yetirmədiyi üçün «Şah» kimi döydürür. Döyülən oğlan evə gəlib hadisəni atasına danışır. Zadəgan bunu özü üçün təhqir hesab edir. Oğlunu da götürüb Astiaqın yanına şikayətə gəlir.

Astiaq qəzəblənib çobanı və onun oğlunu hüzuruna çağırtdırıb danışdırır.

Uşağın çox sərbəst və cəsarətli danışığı Astiaqı şübhələndirir. O, uşaqda özünə bənzər əlamətlər görür. Bir tərəfdən də uşağın yaşı nəvəsi-

nin (Mandananın oğlunun) yaşına uyğun gəlir. Əhvalatı çobandan soruşur. Çoban qorxaraq hər şeyi açıb danışır. Astiaq Harpağı hüzurüna çağırtdırır. Harpaq da hər şeyi olduğu kimi danışır.

Astiaq deyir ki, sən çox yaxşı iş görmüsən. Mən bu işə görə çox əzab çəkirdim. Madam ki, iş belə dəyişib, uşaq sağ qalıb, onda sən də öz oğlunu saraya göndər, qoy bir yerdə böyüsünlər. Harpaq öz oğlunu saraya göndərir. Astiaq bu işin şərəfinə böyük ziyafət verir. Ziyafətdə Harpaq da iştirak edir. Yeyıb-içəndən sonra Astiaq Harpaqdan soruşur:

- Xörəklər xoşuna gəldimi?

Harpaq razı qaldığını söyləyir. Xidmətçilər Astiaqın əmri ilə Harpağın qabağına üstü örtülü bir səbət qoyurlar. Harpaq örtüyü qaldırıb oğlunun kəsilmiş başını, əllərini və ayaqlarını səbətin içində görür.

Astiaq Harpaqdan intiqam alandan sonra yuxuyozanları yanına çağırıb əhvalatı onlara danışır. Onlar deyirlər ki, artıq uşaq bir dəfə şah seçilib, demək sənin yuxun çin olub. Daha o şah ola bilməz.

Beləliklə, Mandananın oğlu ölümdən qurtulur. Babası onu İrana ata və anasının yanına göndərir.

İllər keçir, Harpaq Astiaqdan oğlunun intiqamını almaq üçün fürsət gözləyir. Bu məqsədlə Harpaq Mandananın oğlu ilə əlaqə saxlayır və bütün əhvalatı ona danışır. Oğlan böyük bir ordu hazırlayıb Midiyanın paytaxtı Həmədan şəhərinə (Ekbatan) babasının üstünə hücum edir. Astiaq keçmişdə etdiyi pisliyi unudub Harpağı orduya sərkərdə təyin edir. Harpaq bundan istifadə edib üsyançıların tərəfinə keçir. Xəyanətdən xəbər tutan Astiaq əvvəlcə yuxu yozanları cəzalandırır, sonra özü ordu ilə qabağa çıxır. Lakin davam gətirə bilmir. Ordu basılır, paytaxt alınır. Astiaq özü əsir düşür. Harpaq onun yanına gəlir, ona qarşı etdiyi pisliyi Astiaqın yadına salır və onu təhqir edir.

Astiaq başa düşür ki, bu xəyanətdə Harpağın da əlı vardır, deyir:

-Sən ən axmaq və şərəfsiz bir adamsan. Ona görə axmaqsan ki, qurduğun bu hiylə və xəyanət nətcəsində özün taxta sahib ola biləcəyin halda, onu başqasına vermisən. Ona görə şərəfsizsən ki, əgər şahlığı mütləq başqa bir adama vermək lazım idisə, sən onu bir midiyalıya verə bilərdin. İndi sənin şərəfsizliyin ucbatından heç bir təqsiri olmayan midiyalılar (azərbaycanlılar) illər boyu köləlikdə yaşamış farsların köləsi oldu.

Beləliklə, Midiyalı Mandananın Kombis adlı farsdan olan və tarixə Kiroş Kir adı ilə daxil olmuş oğlu qədim Midiya hakimiyyətinə son qoydu.

QƏDİM DÜNYADA İLKİN İQTİSADİ GÖRÜŞLƏRİN YARANMASI

İqtisadi təlimlər tarixinin öyrənilməsi, bir qayda olaraq Qədim dünyada meydana gəlmiş iqtisadi görüşlərin, fikirlərin öyrənilməsi və mənimsənilməsi ilə başlanır. Bu da təsadüfi deyil.Çünki bəşəriyyətin tarixi təkamülü, insan cəmiyyətinin təşəkkülü, ilkin olaraq qədim dünyada meydana gəlmişdir. Minilliklər ərzində formalaşmış təbiət və cəmiyyət haqqındakı düşüncələr, baxışlar, görüşlər, fikirlər şifahi yollarla nəsildən-nəslə keçmiş və müxtəlif səpkili əfsanələr, rəvayətlər, eposlar, poeziyalar kimi ayrı-ayrı xalqların maddi və mənəvi mədəniyyətlərinə çevrilmişdir. Belə bir tarixi inkişaf prosesi, elmi dünyagörüşlərin formalaşması, ən qabarıq şəkildə özünü Qədim Şərqdə, Qədim Asiyada, Antik dövrün ən parlaq nümunələri oian Yunanıstanda və Qədim Romada əks etdirmişdir.

İctimai əmək bölgüsünün meydana gəlməsi, istehsal vasitələrinin təsərrüfat həyatında müəyyənedici rola malik olması, qul əməyinin mənimsənilməsi prosesi ictimai inkişafın iki yolunu müəyyən etdi. Bunların biri cəmiyyətin həyatında ictimai əməyin təşkilinin üstün rola malik olması ilə, ikincisi isə, müxtəlif ailələrin istehsal vasitələrinə və qullara görə mülkiyyətlərinin inkişafı ilə əlaqədardır.Məhz bununla əlaqədar olaraq tarixdə iqtisadi inkişafın, o cümlədən "siniflərin" meydana gəlməsinin iki üsulu fərqləndirilir. Bunlardan birini Asiya istehsal üsulu, digərini isə antik istehsal üsulu kimi fərqləndirirlər. Bununla əlaqədar olaraq bəzi hallarda Qədim dünya dedikdə, Şərq və Asiya ölkələri, Antik dünya dedikdə isə Qədim Yunanıstan və Qədim Roma nəzərdə tutulur. Lakin bir ümumi cəhət vardır ki, ictimai inkişafda, təsərrüfatçılığın təşkilində, siniflərin əmələ gəlməsində, dövlətin idarə olunmasında, insanların istehsal vasitələrinə və əməyinə görə davranış və fəaliyyət qaydalarının müəyyənləşdirilməsində nəticə etibarı ilə eyni iqtisadi fikirlər söylənilmişdir. Məhz bununla əlaqədar olaraq, qədim dünya dedikdə istər-istəməz uzaq keçmişdə mövcud olmuş olduqca dəyərli fikirləri, mövcud dövri dolğun əks etdirən elmi mülahizələri vəhdət şəklində şərh etmək ehtiyacı əmələ gəlir. Ona görə də Antik dövrün iqtisadi fikirlərini, analoji olaraq Qədim dövrün fikirləri kimi də qəbul etmək olar.

Qədim dünyanın iqtisadi fikrində təsərrüfat fəaliyyətinin gedişatı və dərk olunması görkəmli elm xadimlərinin ya iqtisadi görüşlərində, ya da xalqın əfsanəvi poetik və mənəvi dəyərlərində öz əksini tapmışdır.

İqtisadi fikir haqqında danışarkən bir qayda olaraq bütün dünya ölkələrində qəbul olunmuş ümumi bir cəhət vardır ki, o da Qədim Şərqdə mövcud olmuş iqtisadi görüşlərin , fikirlərin öyrənilməsinə xüsusi diqqətin yetirilməsidir.

"İqtisadi təlimlər tarixi",
Bakı, 2002, s.19-20

SƏSLƏRİN TƏSNİFATI
(КЛАССИФИКАЦИЯ ЗВУКОВ)

Səslər fərdi xüsusiyyətlərinə görə iki yerə ayrılır:

По своим индивидуальным особенностям звуки речи делятся на две группы:

1. Saitlər (гласные):**/a/, /e/, /ə/,/i/, /ı/, /o/, /ö/, /u/, /ü/;**

2. Samitlər (согласные): **/b/,/v/, /q/,/ğ/,/d/,/c/, /z/, /y/, /k/, /g/, /l/, /m/,/n/, /p/, /r/, /s/, /ş/, /t/, /f/, /x/, /h/, /ç/, /c/.**

■**Tapşırıq.** *Mətni köçürün, saitlərin altından xətt çəkin və məzmununu danışın.*

Tərcümə

Tərcümə sənəti vaxtilə «him-cim» elminin (pantomimanın) bünövrəsi olmuşdur. İnsanlar bir-birinin dilini bilmədən mal mübadiləsi etmiş, beləliklə də, bu «elm» ticarətin açarına çevrilmişdir.

Alış-verişlə başlayan tərcüməçilik sənəti dövlətçiliklə bağlı olaraq rəsmiləşmişdir. Bir dövlətin başqa dövlətlə diplomatik əlaqə saxlaması üçün əcnəbi dilləri bilən həmvətənə ehtiyac yaranmışdır. Bunun nəticəsində yerli tərcüməçi kadrlar hazırlanmışdır. Məsələn, İsmayıl bəy Qutqaşınlı, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazımbəy, professor Mustafa Topçubaşov Azərbaycan dilindən ərəb, fars, rus, fransız dillərinə və ya əksinə tərcümələr etmişlər.

XX əsrin əvvəllərindən Azərbaycanda peşəkar tərcüməçilik sənəti inkişaf etməyə başlayır. Klassik dünya ədəbiyyatının fəlsəfi və bədii nümunələri dilimizə tərcümə olunur. Bu xeyirxah işdə Ruhulla Axundovun, N.Nərimanovun, M.Rəfilinin, A.Ə.Şərifin, T.Eyyubov və başqalarının böyük xidmətləri olmuşdur.

Bu gün isə Azərbaycanda müasir beynəlxalq tələblər səviyyəsində çoxdilli tərcüməçi kadrlar fəaliyyət göstərir.

Ruscadan azərbaycancaya tərcümənin bəzi cəhətləri vardır. Belə ki, Hind-Avropa dilləri ailəsinə aid olan rus dili və türk dilləri ailəsinə daxil olan Azərbaycan dilinin daxili quruluşu arasında müəyyən fərqlər mövcuddur ki, bunu da tərcümədə nəzərə almaq lazımdır.

■**Tapşırıq**. *Aşağıdakı nitq etiketlərini öyrənin.*

Azərbaycan dilində nitq etiketləri

Düzgün danışmaq və yazmaq mədəni nitqin mühüm cəhətidir. Mədəni adam həmişə nəzakətli danışmaq qaydalarına əməl edir.

Azərbaycan dilində mədəni nitqin bir sıra qaydaları –etiketləri vardır: müraciət qaydaları, görüşmə və ayrılma qaydaları, təbrik və alqış qaydaları.

Müraciət qaydaları çoxdur. Mədəni adam özündən böyüklərə «Siz» deyə müraciət edir, tez-tez «Bağışlayın», «Buyurun», «Əyləşin», «Zəhmət olmasa», «Üzr istəyirəm», «Xahiş edirəm» kimi sözlər işlədir. Müsahibə zamanı nəzakətli adam «Bəli», «Xeyr», «Buyurun» deyə cavab verir.

Müraciət qaydaları yerinə görə iki cür olur: rəsmi müraciət (cənab, xanım, bəy, vətəndaş) və qeyri-rəsmi müraciət (əmi, dayı, bacıoğlu, əzizim, qadası, gözəl qız və s.).

Görüşmə və ayrılma qaydalarına daha tez-tez müraciət olunur. Salamlaşarkən «Salam!», «Xoş gördük!», «Sabahınız xeyir!», «Axşamınız xeyir!» kimi ifadələr işlədilir. Tanışlıq zamanı, adətən, əl verilir. Bu zaman böyük kiçiyə, qadın kişiyə, rəhbər işçi tabe olana birinci əl uzadır.

Ayrılıq zamanı mədəni adam «Xudahafiz», «Hələlik», «Əlvida», «Salamat qalın», «Gecəniz xeyrə qalsın», «Yaxşı yol», «Görüşənə qədər» və s. ifadələr işlədir.

Təbrik və alqış qaydaları. Təbrik zamanı «Təbrik edirəm!», «Gözünüz aydın!», «Mübarəkdir!» və s. sözlər işlədilir, cavabında isə «Sağ olun!» deyilir.

Alqış zamanı, adətən, «Yaşa!», «İşin uğurlu olsun!», «Əhsən!», «Yorulmayasan», «Allah razı olsun», «Yastığın yüngül olsun» və s. ifadələrdən istifadə olunur.

SAİTLƏR
(ГЛАСНЫЕ)

Boğazda və ağız boşluğunda heç bir maneəyə rast gəlmədən tələffüz olunan, heca yaradan danışıq səslərinə saitlər deyilir. Sait səslər bunlardır: /a/,/e/,/ə/,/i/,/ı/,/o/,/ö/,/u/,/ü/

Звуки речи, которые при произношении не встречают в полости рта преграды и образуют слог, называются гласными. Гласные звуки следующие: /a/,/e/,/ə/,/i/, /ı/,/o/,/ö/,/u/,/ü/

Saitlər aşağıdakı prinsip əsasında təsnif edilir:

Классификация гласных звуков производится по нижеследующим принципам:

1. Dilin üfüqi vəziyyətinə görə (по горизонтальному положению языка):

a) dilönü və ya incə saitlər (переднеязычные гласные): /ə/,/i/,/ö/,/ü/,

b) dilortası sait (среднеязычный гласный): /e/,

c) dilarxası və ya qalın saitlər (заднеязычные гласные): /a/, /ı/,/o/,/u/

2. Dilin şaquli vəziyyətinə görə (по вертикальному положению языка):

a) açıq saitlər (открытые гласные): /a/,/ə/,/o/,/ö/,

b) yarımqapalı sait (полузакрытый гласный): /e/,

c) qapalı saitlər (закрытые гласные): /i/,/ı/,/u/,/ü/.

3. Dodaqların vəziyyətinə görə (по участию губ):

a) dodaqlanan saitlər (лабилализованные гласные): /o/, /ö/,/u/,/ü/,

b)dodaqlanmayan saitlər (нелабилализованные гласные): /a/,/e/,/ə/,/i/,/ı).

■ **Tapşırıq.** *Azərbaycanda daha hansı meyvə, bostan-tərəvəz bitki növlərinin yetişdirildiyini söyləyin.*

■**Tapşırıq**. *«Torpağımızın bəhrələrini qoruyun» mətninin məzmununu danışın.*

Qeyd: Azərbaycan dilində saitlərin uzanması hadisəsi yoxdur, yalnız başqa dillərdən alınan bir sıra sözlərdə (alim, adil, mötərizə, tərif) saitlər qismən uzadılır, lakin bu, fonematik xüsusiyyət daşımır.

Azərbaycan dili saitlərinin hamısı monoftonqlardır. Azərbaycan ədəbi dili tələffüzündə diftonqlar yoxdur.

Примечание: В азербайджанском языке нет явления долготы гласных. Оно наблюдается лишь в некоторых из заимствованных слов, но эта долгота не носит фонематического характера.

Все гласные азербайджанского языка являются монофтонгами. В литературном азербайджанском произношении дифтонги отсутствуют.

■**Tapşırıq**. *Köçürün və mətnin məzmununu nəql edin, mətndəki saitlərdən hər birinin xüsusiyyətlərini ayrı-ayrılıqda yazın.*

Nümunə; a - qalın, dodaqlanmayan, açıq saitdir.

YAZILI ƏDƏBİYYAT

«Avesta» bizim eradan əvvəl IV-V əsrdə yaşamış Caması adlı bir şəxs tərəfindən yazıya köçürülmüşdür. Bu kitabın şifahi yaranma tarixi isə daha qədimdir.

«Avesta» qədim azərbaycanlıların müqəddəs saydıqları kitabdır. Bu kitab 12 min inək dərisi üzərində qızıl hərflərlə yazılmışdır. Makedoniyalı İsgəndər qədim Azərbaycanın paytaxtı İstəxri şəhərini tutur və «Avesta» kitabının tibb, fəlsəfə, astroloji hissələrini yunan dilinə tərcümə etdirib kitabın əslini yandırır. Buna baxmayaraq, «Avesta» şifahi şəkildə Azərbaycan xalqının yaddaşında yaşayır və sonralar yazıya köçürülür. Makedoniyalı İsgəndərdən sonra Azərbaycana hücum edən ərəblər bu kitabla daha vəhşicəsinə rəftar edib onu yandırırlar.

Bütün bu hadisələrdən sonra Azərbaycan xalqının yaddaşında yaşayan «Avesta»nın bizə gəlib çatan hissəsi təxminən 25 fəsildən ibarətdir. Bu fəsillərdən məlum olur ki, kilabın müəllifi azərbaycanlı peyğəmbər Zərdüşt həm də şairdir. Zərdüşt əmindir ki, gec-tez xeyir şərə, yaxşı pisə, işıq qaranlığa qalib gələcəkdir.

Azərbaycan xalqının dini kitabı olan «Avesta»nın tərbiyəvi əhəmiyyəti üç əxlaqi şüardır: xeyir iş, xeyir söz, xeyir fikir. Zərdüştün dediyinə görə, insan fikrində də, iş görəndə də, danışanda da xeyirxah olmalı, xeyirə xidmət etməlidir.

İnsan mülayim, mehriban, gözütox olmalıdır. Qəddar, paxıl, kinli olmamalıdır.

«Avesta»da yalançılıq, yaltaqlıq, qəddarlıq ən çirkin xüsusiyyət kimi rədd edilir.

«Avesta», əsasən, mənzum şəkildə - şeirlə yazılmışdır. Bu kitabda olan tarixi həqiqətlər, əfsanələr, rəvayətlər, süjetlər və surələr onu göstərir ki, hələ o vaxtlar Azərbaycan xalqının zəngin ədəbiyyatı olmuşdur. Bunu «tarixin atası» sayılan Herodotun «Tarix» əsərində daha aydın görmək olar. Herodotun bu kitabında qədim Azərbaycanla əlaqədar bir neçə əfsanə vardır. Herodot əfsanələri yazıya alarkən əvvəlki tarixi məlumatlardan, yazılı abidələrdən, rəsmi sənədlərdən istifadə etmişdir. Deməli, bundan belə nəticə çıxarmaq olar ki, Azərbaycanda şifahi və yazılı ədəbiyyat Herodotdan çox-çox əvvəl yaranmışdır. Herodotun öz «Tarix» kitabına əlavə etdiyi «Astiaq» və «Tomris» əfsanələri «Avesta» kitabına, Zərdüşt yaradıcılığına əsaslanmışdır.

■**Tapşırıq.** *Köçürün, açıq saitlərin altından bir, qapalı saitlərin altından iki xətt çəkin.*

Ana! Mənası var bu böyük adın,
Dahilər yaradır bu ana qadın,
Südüylə bəsləyir, böyüdür bizi,
Gözlərilə çəkir keşiyimizi.
Lakin qurtarmasa qadın zillətdən,
Nə azad ana var, nə azad Vətən.

S. Vurğun

SÖZLƏRDƏ SAİTLƏRİN YERİ (МЕСТО ГЛАСНЫХ В СЛОВАХ)

a, ə, i, u, ü saitləri sözün hər yerində işlənir. Гласные a, o, ı, u, ü встречаются во всех позициях слова: Arif, ana, əl, ələk, əziz, kitab, iyirmi, igid, tüfəng, tütün, ütü, üzük, xizək, gümüş.

Azərbaycan dilində e,o,ö saitləri sözün yalnız ilk hecasında işlənir.

Гласные e,o,ö употребляются только в начальном слоге слова.

Alınma sözlərdə isə əvvəldə, ortada və sonda gələ bilir:

Məsələn: maye, müsyö, tanqo, ev, elm, eyni, ecazkar, oyun, oraq, oğul, oturmaq, ölkə, gözəl, dövlət, dözüm.

/ı/ saiti sözün əvvəlindən başqa qalan bütün mövqelərdə işlənir.

Гласный /ы/ употребляются во всех позициях слова, кроме начала.

Məsələn: yazıçı, qış, payız, işıq.

E,o,ö saitləri şəkilçilərin tərkibində işlənmir. Şəkilçilərdə a,o,ı,i,u,ü saitləri iştirak edir.

Гласные /e,o,ö/ не встречаются в составе аффиксов. Аффиксы образуются с участием гласных a,o,ı,i,u,ü:

- lar, -lər - quşlar, binalar, evlər, dəftərlər;

- maq, - mək - durmaq, oxumaq, gəlmək, getmək; .

- dı,- di,- du,- dü - oynadı, gəldi, düşdü;

- lıq, - lik, - luq, - lük - çınqıllıq, daşlıq, çəmənlik, dostluq, üzümlük.

■**Tapşırıq.** *«Novruz bayramı»na aid məlumatı öyrənin.*

Novruz bayramı

Novruz bayramının tarixi çox qədimdir. Hələ 12 min il bundan əvvəl yeni il şənliyi xatırlanır, hörmətlə yad edilirdi. Bu bayram indi bizdə «Novruz» bayramı adı ilə məşhurdur. Bu ad isə bizim deyil, fars sözüdür.

Midiya dövlətinin süqutu ilə «Avesta» İran imperiyasının dini-hüquqi - mərasimi qanunlar kitabı olduqda, bu qədim «Yeni il» bayramı farslara da keçib. Fars dilində «Novruz» kimi qəbul edilib, yəni məzmu-

nu qalıb, adı tərcümə olunub, məşhurlaşıb və bizə yenidən bu şəkildə — «Novruz» şəklində qaytarılıb.

Ululərımız «Yeni il», «Təzə il» anlayşında kainatın dövr etməsini, hərəkətini və bu dövretməni dəqiq hesablayıb nəzərə alıblar: «Novruz»a, təzə ilə keçid günü gecə ilə gündüz bərabərləşir, yəni təzə ildən uzana-uzana gələn günlər, dekabrdan uzanmağa başlayır, martın 21-də bərabər olur və il yenidən təzələnir.

Beləliklə, «Yeni il» şənliyi - «Novruz» bayramı ulu şumerlərdən, əcdadlarımızdan qalan xəlqi-milli yeni il, yəni yaz bayramı olub, hələlik onun 12 min il yaşı olduğu məlumdur; lakin məntiq deyir ki, bu yaş daha qədimdir, çünki hələ Bilqamıs dövründə «Yeni il» şənliyinin mövcudluğu və ənənəvi olaraq keçib gəldiyi xatırlanır, yad edilirdi.

Əslində bu bayramın yaşı bəşəriyyətin yaşı qədərdir. Onun heç bir dinlə əlaqəsi yoxdur. «Yeni il» şənliyi, «Novruz» bütün dinlərdən əzəlidir, qabaqdır.

■**Tapşırıq.** *Şeiri ifadəli oxuyun.*

Soltan Yusif

Novruz bayramı

Açın qapıları gələn sabaha,
Günəşli bahara çıxırıq daha,
Deyirəm min şükür böyük Allaha,
Güldən çələng hörmək əyyamı gəlib,
Yurdumuza Novruz bayramı gəlib.

Küsmüşlər öpüşsün, barışsın bu gün,
Xoş söhbət etməkdə yarışsın bu gün.
Qoy fərəh-fərəhə qarışsın bu gün,
Xalqıma tanrının salamı gəlib,

Yurdumuza Novruz bayramı gəlib.
Tarı-kamançanı siz hallandırın,
Xonçalar bəzəyin, şamlar yandırın,
Həyətdə tonqallar alovlandırın,
Könlümə hoppanmaq ilhamı gəlib,
Yurdumuza Novruz bayramı gəlib.

Qızlar gözlərinə yaylıq bağlasın,
Bəxtinə duşmüşü tutub saxlasın,
Analar sevincdən coşsun, çağlasın,
Damdan üzük salmaq axşamı gəlib,
Yurdumuza Novruz bayramı gəlib.

Qoy kədər qıraqdan baxıb üzülsün,
Billur fincanlara şərbət süzülsün,
Süfrəyə nemətlər zövqlə düzülsün,
Doyunca şadlanmaq məqamı gəlib,
Yurdumuza Novruz bayramı gəlib.

SPESİFİK SAİTLƏR
(СПЕЦИФИЧЕСКИЕ ГЛАСНЫЕ)

Azərbaycan dilində /ə/ saiti spesifik səsdir. Bu səsi tələffüz edərkən dil irəliyə doğru hərəkət edir, dilin ucu alt dişlərə toxunur və onun orta hissəsi damağa yaxınlaşır. Bu səs rus dilindəki **/a/** və **/g/** səsləri arasında orta mövqe tutan yumşaq /ə/ səsinə yaxın tələffüz edilir.

Гласный **/ə/** является специфическим звуком азербайджанского языка. При образовании этого звука язык продвигается вперед, кончик языка касается нижних зубов, а средняя часть приближается к твердому небу. Этот звук произносится близко к русскому /ə/, занимающему среднее положение между /a/ ∪ /g/.

/ö/ səsini tələffüz edərkən dil ağız boşluğunda /e/ səsinin tələffüzündəki vəziyyəti alır.

Məsələn: ölkə, çörək, çöp, gül.

При образовании звука **/ö/** язык в полости рта принимает такое же положение, как при звуке « е ».

/ü/ səsini tələffüz edərkən dil **/u/** səsinin tələffüzündəki vəziyyəti alır, lakin dodaqlar daralır və irəliyə doğru uzanır.

При образовании звука /ü/ язык принимает такое же положение, как при произношении /u/, однако здесь губы сужены и вытянуты вперед.

Məsələn: üzüm, sürü, ütü.

■**Tapşırıq.** *Aşağıdakı parçadan /ə,ö,ü/ səsləri olan sözləri tapıb dəftərinizə yazın və düzgün tələffüzünü öyrənin. Mətni danışın.*

Maliyyə uçotu

Maliyyə uçotu dünya ölkələrində geniş istifadə olunan uçot növüdür. Maliyyə uçotunun məqsədi maliyyə-mühasibat hesabatlarının tərtibi üçün lazımi məlumatların alınmasıdır. Həmin uçot məlumatları həm müəssisənin daxili heyəti, həm də təşkilatdan kənarda olan istifadəçilər üçün nəzərdə tutulur. Maliyyə uçotunun hesabatları ümumi qəbul edilmiş prinsiplərə və tələblərə cavab vermişdir.

Maliyyə uçotunda təsərrüfat əməliyyatları mühasibat uçotu hesabatlarında baş verən tarixə yazılır. Müəssisənin rəhbərliyi hesabatların təqdim edilməsinin keyfiyyətinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatları ancaq pul istifadəsində yazılaraq, özündə Baş kitabın bütün hesabları üzrə son qalıqları əks etdirir. Maliyyə uçotunun prinsiplərindən biri də maliyyə hesabatlarının təqdim edilməsinin daimiliyi və dövriliyidir.

(A.Kərimov. Mühasibat uçotu,
vergilər. Bakı, 2001, s.10)

Tapşırıq. *«Kitabi-Dədə Qorqud» haqqında məlumatı öyrənin.*

«KİTABİ-DƏDƏ QORQUD»

«Kitabi-Dədə Qorqud» Azərbaycan ədəbiyyatının və dilinin ən qədim yazılı abidəsidir. Bu dastan XI-XII əsrlərdə və daha çox əvvəllərdə Azərbaycanda baş verən hadisələrlə səsləşir. «Kitabi-Dədə Qorqud» 12 boydan (dastandan) ibarətdir. Dastanlarda xalqımızın qəhrəman tarixi keçmişi, yadelli basqınçılarla mübarizəsi öz əksini tapmışdır. Vətənpərvərlik və qəhrəmanlıq motivləri «Kitabi-Dədə Qorqud»un əsas qayəsidir.

«Kitabi-Dədə Qorqud»da həm yaşlı (Qazan xan, Dirsə xan, Qazlıq qoca, Bəkil, Qaragünə və s.), həm də gənc (Beyrək, Basat, Buğac, Uruz, Qanturalı, Əmran və b.) nəslə məxsus qəhrəmanlardan söhbət açılır. Dastanlarda gənclərə daha geniş yer verilir. El adətinə görə, cavanlara qəhrəmanlıq göstərməyincə ad verilmir. Dədə Qorqud gəlir gəncin qəhrəmanlıqlarını sadalayır və ona ad qoyur. Bu gənclər doğma yurdlarını basqınlardan qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Oğuz igidləri qəsbkar deyillər, özgə torpaqlarında gözləri yoxdur, müharibənin və qan tökülməsinin əleyhinədirlər. Buradakı qadınlar da igidlikdə, mərdlikdə kişilərdən geri qalmır, onlarla çiyin-çiyinə hünər göstərirlər. Burla xatun, Banuçiçək, Selcan xatun və başqaları namuslu, tədbirli, ağıllı, təmkinli və dözümlüdürlər.

«Kitabi-Dədə Qorqud»da xalqımıza xas olan ana-ataya, ağsaqqallara hörmət, dostluq, sədaqət kimi mənəvi sifətlər tərənnüm olunur. Ana surəti vətən rəmzi kimi ümumiləşdirilir. Ana haqqı tanrı haqqı kimi qiymətləndirilir.

Dastanlarda eyni zamanda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfur sifətlər kəskin tənqid edilir.

«Kitabi-Dədə Qorqud» Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir. Bu dastanın motivləri əsasında N.Xəzri poe-

ma, Anar kino-dastan yazmış, «Azərbaycanfilm» kinostudiyasında iki-seriyalı bədii film çəkilmişdir.

«Kitabi-Dədə Qorqud»da iqtisadi görüşlər

Ən qədim dastanlarımızdan olan «Dədə Qorqud» eposunda iqtisadi fikirlər, iqtisadi düşüncələr çoxdur. Eposun hər boyunda iqtisadi məzmunlu motivlər vardır.

Qədim əcdadlarımız eposun ayrı-ayrı boylarında öz həyat tərzlərini yaxşılaşdırmaq və arzularını həyata keçirməyə cəhd göstərmişlər. Belə ki, Oğuz türklərinin, 24 vilayətin əhalisinin mədəniyyətinin zənginlikləri, yovşanlı çölün ətri, dünya türklərinin iqtisadi həyatının-məşğuliyyətinin saysız-hesabsız sahələri (maldarlıq, qoyunçuluq, atçılıq, dəvəçilik, xalçaçılıq, toxuculuq, ovçuluq, əkinçilik, bağçılıq və s.), məişət və iaşə əşyaları, bəzək şeyləri, zərgərlik məmulatı, soyuq silah, tikinti materialları və s. haqqında informasiya burada öz əksini tapmışdır. Dastanda dövrün əmək fəaliyyətinin növləri və peşə sahələri öyrənilməsinə dair məsələlər vardır. Ağır məclislər quran, süfrələrə qızıl qədəhlər düzdürüb, 80 yerdə küplər qoyduran, tövlə-tövlə atları, qatar-qatar dəvələri, axçası-pulu olan Oğuz bəyləri körpü tikdirirlər, dağların döşündə bağlar salırlar, üzümdən şərab düzəldirlər. Oğuz elində əkinçi, çoban, maldar, ilxıçı, bağban, zərgər kimi peşə sahibləri yaşayırlar. Ölkənin iqtisadiyyatının inkişafında özünəməxsus yer tutan peşələrdən biri ticarətdir. Tarixən sövdəgar, bəzirgan adı daşımış tacirlər mal alıb-satır, alış-veriş edir, həm də olduqları ölkənin mədəni durumu haqqında da məlumat-soraq gətirirdilər.

Oğuz elində seçilən peşələrdən biri tacirlikdir. Baybörə üzünü sövdəgərlərə tutub deyir: «Ay tacirlər, Allah mənə bir oğul verdi. Oğluma görə Rum elinə gedin, oğlum böyüyüncə yaxşı hədiyyələr gətirin».

Tacirlər gecə-gündüz yol getdilər. İstanbula gəldilər. Danışıq aparıb yaxşı hədiyyələr aldılar. Vətənə dönərkən əsir alınırlar, biri qaçıb Oğuza gəlir. Bamsıya kömək üçün üz tutur. Oğlan şərabı içmir. Əlindəki qızıl qədəhi yerə çırpır. «Dediklərimi yetirin, mənim geyimimi, Şahbaz atımı gətirin!» - deyib onu sevənlərlə atlanır.

Bu sətirlərdən aydın olur ki, tacirlər Oğuzdan İstanbula gedirmişlər. Bizans tacirləri ilə danışıb razılaşma o vaxt ticarətdə başlıca prinsiptələb olmuşdur.

Oğuz elində hər bir bəyin ilxısı, müxtəlif məkanlarda tövləsi, əmir-axurbaşı varmış. Bunlarla belə oğuzlarda ciddi əməl olunan qonaqqarşılama və xidmətetmə ənənələri mövcud imiş.

Özlüyündə eposun ədəbi-bədii, tarixi-mədəni, etik-estetik, psixoloji dəyərlərə malik boylarından olan «Bamsı Beyrək» dastanındakı aşağıdakı fakt da mövzu baxımından diqqəti daha çox çəkir.

«Dədə Qorqud» boylarında iqtisadi fakt və məlumatlar zəngindir və boylardan aydın olur ki, Qorqud zamanında iqtisadiyyat insanların yaşayışını, həyat sürməsini təmin etmək baxımından yaranmışdı.

Burada çust, başmaq, çəkmə, qatran və çarıq istehsal olunurdu. Kürkçülük, papaqçılıq (qoyun dərisindən), tumaç və müşkü istehsalı geniş yayılmışdı. Lakin dastanlardan göründüyü kimi, o zaman tez-tez baş verən müharibələr iqtisadi inkişafa böyük zərbə vururdu. Ticarət və sənətkarlığın inkişafı ləngiyirdi. Lakin bununla belə Oğuzda kənd təsərrüfatı inkişaf edirdi. Ticarət, əl əməyi sənayesi təşəkkül tapırdı.

«Dədə Qorqud» boylarında diqqəti cəlb edən maraqlı faktlardan biri Oğuz bəylərinin iqtisadi durumundakı oxşarlıqdır. Belə ki, onların qurduqları məclislər eyni cür döşənir, eyni cür zəngin və bərəkətlidir. Bəylər bəyi Qazan xan «doxsan otaqlı uca evləri qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək-xalı düzəltmişdi».

Oğuzda bəylər, xanlar zəngindirlər, onlar çoxotaqlı mənzil tikdirirlər, yerə ipək-xalçalar döşətdirirlər, süfrələrində naz-nemətlər olur, qızıl qədəh sürahilərdə şərab paylanılır.

Oğuz elinin maraqlı adət-ənənələrindən biri igidlik göstərənlərə ad qoyulması ilə yanaşı, onlara bəylik verilməsi, at, dəvə, qoyun, qızıl axça verilməsidir. Əslində bu, çox önəmli faktdır. Deməli, 24 Oğuz vilayətinin bəyləri yeni qurulan ailələrin maddi cəhətdən özlərini təmin etmələrinə xüsusı diqqət yetirirlər. Əslində, bu artıq ənənəvi bir məsələ olub, məqsədyönlü şəkildə həyata keçirilir. Niyyət Oğuz kiçik qrupların-ailələrin özünütəsdiqinə, maddi cəhətdən qüvvətlənməsinə yönəldilirmiş.

Özünün tarixi-fəlsəfi, bədii-etik, sosial-mənəvi ideya məzmunu ilə seçilən boylarından biri də «Dəli-Domrul»dur.

Quru çay üzərində körpü qurdurmuş Dəli Domrul körpüdən keçənlərdən 33, keçmək istəyənlərdon 40 axça alırdı. Bunu ona görə edirdi ki, özündən cəsur bir adam axtarırdı ki, onunla çıxıb savaş etsin.

İgidliyi, cəsurluğu Ruma, Şama belə gedib çatmış Dəli Domrulun sözləri Allah-taalaya xoş getmir. Əzrail Allahın birliyini tanımayan dəli axmağın canını almağa gəlir.

Allah-taalaya yalvaran Dəli Domrul səhvini başa düşüb aman istəyir. Həmin boylarda Dəli Domrul deyir:

...Bizim böyük sahəli dağlarımız olur,
O dağlarımızda bağlarımız olur.
O dağların qara salxımlı üzümü olur,
O üzümü sıxırlar, al şərabı olur.

Deməli, Oğuzun iqtisadiyyatında əkinçilik, bağçılıq, şərabçılıq xüsusi yer tuturmuş.

Boyun sonrakı hissəsində Dəli Domrul canının əvəzində can keçməsi üçün ata-anasına üz tutur. Ata və ananın dediklərindən aydın olur ki, Duxa qoca da başqa oğuzlar kimi maddi imkanlara malikdir. O da Baybörə bəy, Dirsə xan, Salur Qazan, Aruz qoca... kimi imkanlı bir şəxsdir:

Qarşı yatan uca dağım gərəksə,
Söylə, olsun Əzrailin yaylağı.
Suyu-soyuq bulaqlarım gərəksə,
Onlar olsun Əzrailin bulağı!
Tövlə-tövlə şah atlarım gərəksə,
Onun yüklüyü olsun!
Yaylaqdakı ağ qoyunum gərəksə,
Mətbəxlərdə olsun ona şülənlik!
Qızıl-gümüş pul gərəksə,
Xərcləsin, qursun bir şənlik!

Deməli, tövlə-tövlə at, qatar-qatar dəvə, sürülərlə qoyun, bol axça-qızıl Oğuzun iqtisadiyyatında başlıca sərvət növləri sayılır. Məsələ burasındadır ki, Oğuz bəyləri həmin sərvətləri kimsədən gizlətmirlər. Onlar bunu kimin yolundasa xərcləyib sərf eiməyə hazır olurlar. Deməli, onlar xəsis, var-dövlət əsiri deyillər.

Bu cür humanist hərəkət birinci boyda da var. Dirsə xan acı doydurur, borclunu borcdan qurtarır, çılpağa don geyindirir. Deməli, Oğuz elindəki varlılar topladıqları sərvəti, xəzinəni başqaları-həmvətənləri üçün sərf etməyə həmişə hazırdır. Onlar bu işi böyük məmnuniyyətlə, Allah-taalaya xoş gəlsin deyə edirlər. Bu humanist əməl, hərəkət ulu Tanrıya xoş gəlir, onların alqışı eşidilir, diləyini hasil edir.

Qorqud fəlsəfəsi haqlı olaraq bütün türkdilli xalqların ensiklopediyası hesab edilə bilər. Onun tarixi ümummilli ənənəsi 2 qlobal sivilizasiyadan-köçəri dünyasının milli-mənəvi və maddi mədəniyyətinin olduqca çox qədım qaynaqlarından və türk xalqlarının yaşadığı, formalaşmış oturaq maldarlıq, qoyunçuluq, atçılıq, dəvəçilik, əkinçilik, bağçılıq və sənətkarlıq, tikinti işləri aparmaq kimi tarixi-iqtisadi-etnoqrafik qaynaqlarından qidalanır. Bu gün bütün türk dünyasında iqtisadçı, filosof, tarixçi, etnoqraf, ədəbiyyatçı, dilçi, kənd təsərrüfatı üzrə elmi iş aparanlar öz elmi araşdırmalarında dastana müraciət edirlər.

«Kitabi-Dədə Qorqud» Şərqdən, Altaydan tutmuş Balkan yarımadasınadək böyük bir sahədə yaşamış türkdilli xalqların iqtisadi fikir tarixinin öyrənilməsində özünəməxsus yeri olan ilkin iqtisadi fıkrin formalaşmasında iqtisadi dəyərlər, mülkiyyət münasibətləri və s. haqqında özündə bədii-obrazlı məlumat saxlayan bir mənbədir.

Yusif Ağayev, iqtisad elmləri namizədi, dosent. «Azərbaycan müəllimi» qəzeti, 7.I.05.№1 (8110)

QOŞA SAİTLİ SÖZLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ (ПРАВОПИСАНИЕ И ПРОИЗНОШЕНИЕ СЛОВ С ПАРНЫМИ ГЛАСНЫМИ)

Azərbaycan dilində elə sözlər vardır ki, onlarda sait səslər yanaşı gəlir. Belə sözlər qoşasaitli sözlər adlanır. Qoşasaitli sözlərin çoxunun yazılışı və tələffüzü fərqlənir.

В азербайджанском языке есть слова, в которых встречаются смежные гласные. Такие слова называются словами с парными гласными различаются.

Məsələn:

I

saat - часы bədii- художественный
maaş - зарплата təəssüf-сожаление
camaat - люди təəccüb- удивление
inşaat - стройка, строительство
mətbəə- типография
təbii – естественный, натуральный

II

zəif-слабый	müəllim -учитель
ailə - семья	xain -изменник, предатель
müasir-современный	müalicə -лечение
dairə -круг	səadət -счастье
Faiq- Фаик	müavin -заместитель
Nailə -Наиля	müəssisə-учреждение
Səidə -Саида	daim-всегда

Azərbaycan dilində başqa dillərdən keçmiş bəzi sözlərdə (I bölmə) eyni saitlər yanaşı gəldikdə uzun tələffüz olunur.

В некоторых заимствованных словах одинаковые смежные гласные произносятся как один долгий звук.

III

Yazılır	**Tələffüz olunur**
saat	s [a:] t
maaş	m [a:] ş

camaat cam [a:] t
inşaat inş [a:] t
təbii təb [i:]
bədii bəd [i:]
təəssüf t[ə:]ssüf
mətbəə mətb [ə:]

IV

/ai/, /aı/, /ia/. /io/, /ei/, /oe/ sait birləşmələri tələffüz edilərkən onların arasında çox zaman epentetik/y/ samiti artırılır.

При произношении слов, содержащих сочетания гласных /аи/, /ае/, /иа/, /ио/, /еи/, /ое/, между смежными гласными вставляется эпентетический /й/.

Yazılır	**Tələffüz olunur**
ailə	[ayilə]
aeroklub	[ayeroklub]
epidiaskop	[epidiyaskop]
divizion	[diviziyon]
simpozium	[sipoziyum]
ateist	[ateyist]
poema	[poyema]
zəif	[zəyif]

/ea/, /ei/, /eö/ sait birləşməsində /e/ saiti /i/ saitinə çevrilir və buna görə də /iya/, /iyo/ kimi tələffüz olunur.

При произношении слов с сочетанием гласных /ea/,/eo/ звук /е/ переходит в /и/, звучит как /ийа, ийо/

Yazılır	**Tələffüz olunur**
teatr	[tiyatır]
okean	[okiyan]
realizm	[riyalizim]
feodal	[fıyadal]
teorem	[tiyorem]

/ia/ sait birləşməsi olan alınma sözlərin tələffüzündə /i/ saiti, /y/ samiti ilə əvəz olunur.

При произношении слов с сочетанием смежных гласных /иа/ гласный /и/ чередуется с /y/

Yazılır	**Tələffüz olunur**
sosialist	[sosyalist]

material [materyal]
artezian [artezyan]
diametr [dyametr]

/üa/, /üə/, /əa/ sait birləşmələri olan alınma sözlərin tələffüzündə əvvəlki sait düşür, /a/,/o/ saitləri nisbətən uzun tələffüz olunur

При произношении гласных с сочетанием смежных /üa/, /əa/ первый выпадает, а гласные /a/,/o/ произносятся дольше.

Yazılır Tələffüz olunur

müəllim [mə:llim]
müalicə [ma:licə]
müasir [ma:sir]
Səadət [sa:dət]

■**Tapşırıq.** *Aşağıdakı sözlərin tələffüz formalarını yazın:*

reaktiv, diametr, olimpiada, akvarium, aeroport, diabet, xain, müavin, duel

■**Tapşırıq.** 15 *qoşa saitli söz yazın.*

■ **Tapşırıq.** *Aşağıdakı sözləri yazın, ucadan tələffüz edin. Sözlərin yazılışı və tələffüzündəki fərqi müəyyənləşdirin.*

Nailə [Nayilə]
Faiq [Fayiq]
Səidə [Səyidə]
istiot [istiyot]
dairə [dayirə]
müəssisə [mə:ssisə]

SAMİTLƏR
(СОГЛАСНЫЕ)

Tələffüz zamanı boğazda və ağız boşluğunda müxtəlif maneələrə rast gələn danışıq səslərinə samitlər deyilir. Azərbaycan dilində 23 samit səs vardır.

Звуки речи, которые при образовании в ротовой полости встречают различные преграды, называются согласными. В азербайджанском языке 23 согласных звука.

Samit səslər aşağıdakı prinsiplərə görə təsnif olunur:

Классификация согласных звуков производится по нижеследующим принципам:

1. Səs tellərinin iştirakına görə (по участию голосовых связок)

a) **kar samitlər** (глухие согласные): /k/, /p/, /s/, /t/, /f/, /x/, /h/, /ç/, /ş/.

b) **cingiltili samitlər** (звонкие согласные): /b/, /v/, /g/, /ğ/, /d/, /j/, /z/, /y/, /q/, /l/, /m/, /n/, /r/, /c/

Kar samitlərin əmələ gəlməsində səs telləri iştirak etmir, cingiltili samitlər isə səs tellərinin fəal iştirakı ilə əmələ gəlir.

При образовании глухих согласных голосовые связки не участвуют, тогда как звонкие согласные образуются при их активном участии.

Bir sıra samitlər bir-birindən yalnız səs tellərinin iştirakına görə fərqlənir.

Ряд согласных различаются только участием в них голосовых связок.

Müqayisə et (sr.) /k-q/, /p-b/, /s-z/, /t-d/, /f-v/, /ç-c/, /ş-c/, /x-ğ/.

2. Küy və tonun iştirakına görə (по участию шума и голоса)

a) **küylü-kar samitlər** (шумные глухие согласные); /k,p,s,f,x,h,ç,ş/.

Onların yaranmasında küy fəal rol oynayır.

При их образовании активную роль играет шум.

b) **küylü-cingiltili samitlər** (шумные звонкие согласные): /b,v,q,ğ,d,j,z,y,c,ç/

Küylü-cingiltili samitlərin əmələ gəlməsində ton küyü müşayiət edir.

При образовании шумных звонких согласных шум сопровождается голосом.

c) **sonor samitlər** (сонорные согласные): /l,m,n,r/. Sonorlar tonun köməyi ilə yaranır, onların əmələ gəlməsində küy əhəmiyyətsiz dərəcədə iştirak edir. Burada ton küylə müşayiət edilir.

Сонорные согласные образуются при помощи тона и незначительного шума. В их артикуляции голос сопровождается шумом.

■**Tapşırıq.** *«Atilla» mətnini köçürün, küylü kar samitlərin altından bir, küylü cingiltili samitlərin altından iki, sonorların altından dalğalı xətt çəkin.*

■**Tapşırıq.** *Mətnin məzmununu danışın.*

Atilla

Atilla türk və dünya tarixinin görkəmli şəxsiyyətlərindəndir; yenilməz sərkərdə, böyük xaqan idi. Eramızın beşinci əsrində yaşamış və Qərbi Hun imperatoru olmuşdur. Atilla Qərbi və Şərqi Roma dövlətlərini lərzəyə salmış və dünya hakimi mövqeyinə qalxmışdır.

Atilla bütün Romanı diz çökdürmək üçün ordusunu hərəkətə gətirdi. Atilla Roma imperatorluğunun və bütün Avropanın ən böyük və məşhur şəhəri, Papanın iqamətgahı yerləşən Romanın qapılarına çatdığı zaman romalılar Papa I Leonun rəhbərliyi ilə böyük bir heyət göndərdilər. Atilla bu heyəti öz qərargahında qəbul etdi. Papa I Leon türk qərargahına imperator və bütün xristian dünyası adından gəldiyini söyləyərək, təmsil etdiyi ölkələrin sayını göstərdi. Zatən ən böyük hörmətli imperatorlar da daxil olmaqla, bütün xristian aləminin böyüyü olan Papanın Atillanın ayağına gəlməsi idi. Papa Atilladan Romanın bağışlanmasını, məhv edilməməsini rica etdi. Əlavə olaraq bildirdi ki, Atilla bütün Romaya hakimdir, bütün şərtlər qəbul olunacaqdır. Təki xristianlığın mərkəzi Roma dağıdılmasın. Bu, Romanın təslimi demək idi.

Atilla Papa Leonun yalvarmasını qəbul etdi. Konstantinopolu dağıtmadı, gözəl memarlıq və incəsənət inciləri ilə zəngin olan Romaya qıymadı. Lakin vaxtilə Roma ordusunun komandanı, sonralar imperator olmuş Yuli Sezar Misirə gəldiyi zaman dünyanın ən zəngin və ən böyük kitabxanası olan İsgəndəriyyə kitabxanasını yandırmışdı...

Atilla İtaliya səfərindən döndükdən sonra, bütün dünyanı hökmü altına almaq məqsədi ilə son bir səfərə çıxmaq istəyirdi. Bütün Qərb ölkələri onun əlində idi. Bütün Şərqi də əlinə keçirmək üçün İranda hökm sürən Sasaniləri özünə tabe etmək istəyirdi. Fəqət İran səfəri baş tutmadı. Qəflətən vəfat etdi. Atillanın ölümü hunları matəmə qərq etdi.

Rəvayətə görə, böyük sərkərdə və hökmdarı iç-içə olan üç tabuta qoydular. Birinci tabut qızıldan, ikinci tabut gümüşdən, üçüncü tabut isə poladdan düzəldilmişdi. Bu üçqatlı tabut Atillanın silahları və qiymətli əşyalarıyla birlikdə Tissa çayının adalarının birində basdırıldı. Bu kiçik adada çox dərin qəbir qazıldı, sonra çayın yatağı dəyişdirildi və su «Tanrının qırmancı» adlanan adanı örtdü. Beləliklə, ulu Atillanın qəbri itib bilinməz oldu.

(T.Seyidov. «Azərbaycan dili», Bakı, 2001, s. 175-176)

■**Tapşırıq**. *Aşagıdakı mətnin məzmununu öyrənin.*

Azərbaycan dili dünya dilləri sırasında

Dünyada 3500-dən artıq dil vardır. Dünya dilləri bir neçə kökdən yaranmışdır. Bir kökdən yaranan dillər qohum dillər (yaxud dil ailələri) adlanır. Məsələn, Hind-Avropa, Türk, Altay, Avstroneziya dil ailələri və s. İlk dövrlərdə eyni kökdən olan dillərin ayrılması nəticəsində müxləlif dil qrupları yaranmışdır. Məsələn, Hind-Avropa dil ailəsindən slavyan, roman, german və s. dil qrupları törəmişdir. Qədim türk dili ailəsindən oğuz, qıpçaq, qarluq və s. dil qrupları əmələ gəlmişdir. Sonralar bu dil qrupları öz növbəsində şaxələnərək yeni qollara ayrılmışdır. Oğuz dilindən türkmən, qaqauz, türk və Azərbaycan dili yaranmışdır. Qıpçaq dilindən qazax, qırğız, tatar, başqırd, qumuq və s. dillər əmələ gəlmişdir. Qumuq dilindən özbək, uyğur, salur və s. dillər yaranmışdır.

Beləliklə, Azərbaycan dili türk dilləri ailəsinin oğuz qrupuna aiddir. Hazırda dünyada 40 milyondan çox adam bu dildə danışır. Əvvəl bu dil tatar dili, türk-tatar dili, türk dili adlanmışdır. Azərbaycan Respublikasının 1993-cü il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir.

3. Əmələgəlmə yerinə görə (по месту образования)

1) Dodaq samitləri (губные согласные).

Dodaqların fəal iştirakı ilə yaranan samitlərə - dodaq samitləri deyilir. Onlar iki yerə ayrılır. (Согласные, образованные при активном участии губ, называются губными. Губные согласные делятся на две группы):

a) Qoşadodaq samitləri (губно-губные согласные) : /b/, /m/, /p/

b) Dodaq-diş samitləri (губно-зубные согласные): /v/, /f/.

2) Dil samitləri (язычные согласные) : /q/, /ğ/, /d/, /j/, /z/, /y/, /k/, /g/, /1/, /n/, /s/, /t/, /ç/, /c/, /ş/.

Onlar üç qrupa bölünür (Они делятся на три группы):

a) Dilönü samitlər (переднеязычные согласные): /d/, /j/, /z/, /1/, /n/, /r/, /s/, /t/, /ç/, /c/, /ş/.

b) Dilortası samitlər (среднеязычные согласные): /y/, /k/, /g/.

3) Boğaz samiti (гортанный согласный): /h/.

4. Əmələgəlmə üsuluna görə (по способу образования):

a) Kipləşən samitlər (смычные согласные): /p/, /r/, /t/, /d/, /q/, /g/.

Bu samitlərin əmələ gəlməsində danışıq üzvləri kipləşir və nəfəs borusundan gələn havanın təsiri ilə birdən açılır, bu vaxt küy yaranır.

При образовании этих согласных органы речи смыкаются и под воздуха, проходящего через дыхательное горло, быстро размыкаются, вследствие чего и образуется шум.

b) Novlu samitlər (щелевые согласные): /f/, /v/, /s/, /z/, /ş/, /ğ/, /y/, /x/, /j/, /h/.

Bu samitlərin əmələ gəlməsində fəal danışıq üzvü qeyri-fəal üzvə yaxınlaşır və dar nov əmələ gətirir. Hava axınının novun kənarlarına sürtünməsi nəticəsində küy alınır.

При образовании этих согласных активный орган речи приближается к неактивному и образует узкий проход. При трении струи воздуха о края щели образуется шум.

c) kipləşən-novlu samitlər (смычно-щелевые): /n/,/m/,/l/

Bu samitlərin əmələ gəlməsində də kipləşmə olur, lakin hava axınının burundan, ya da ağızdan çıxması üçün də imkan qalır. Birinci halda /m/,/n/ burun samitləri, ikinci halda isə /l/ ağız samiti yaranır.

При образовании этих согласных наблюдается смыкание, но остается для воздушного потока либо через нос, либо через рот. В первом случае образуются носовые согласные /м/, /н/, а во втором – язычный согласный /е/.

ç) Titrək samit (дрожащий согласный): /r/.

Bu samitin əmələ gəlməsində dilin ucu alveollara (dişlərin dibinə) tərəf qalxır və hava axınınm keçməsi ilə titrəyir, yəni ritmik olaraq alveollara sıxılır və açılır.

При образовании этого согласного кончик языка приподнимается к альвеолам и под воздействием воздушной струи, вибрирует, то есть ритмически то смыкается, то размыкается с альвеолами.

d) Afrikat (qovuşuq) samitlər (affrikatı): /ç,c/.

Afrikatların əmələ gəlməsində fəal üzv qeyri-fəal üzvlə tam kipləşmə əmələ gətirir, lakin bu kipləşmənin açılması birdən, yəni partlayış nəticəsində deyil, kipləşmənin nova çevrilməsi nəticəsində olur. Ona görə də afrikatlar kipləşmiş başdlanğıcı və novlu sonluğu olan mürəkkəb artikulyasiyaya malik olurlar. Hər afrikat samit sanki özündə iki samiti birləşdirir: /ç/=/t+ş/, /c/=/d+j/.

При образовании аффрикат активный орган образует с пассивными полное смыкание, но размыкание при этом происходит не мгновенно – путем взрыва, а в результате перехода смыкания в щель. Поэтому аффрикаты представляют собой концом. Каждая аффриката как бы объединяет в себе два согласных: /ч/=/т+ш/, /с/=/д+ж/.

■**Tapşırıq.** *Mətni oxuyun.*

İslam haqqında

İslam dini bizə çox şeyləri təlim edir. İslamı tam şəkildə öyrənsək, heç kim bir-birinə nəinki pislik etməz, hətta belə fikirdə də olmaz.

İslam dini elmin bir çox sahələrini - fəlsəfəni, siyasəti, hüququ, məntiqi, pedaqogikanı özündə birləşdirir. Həmin dinin özüllərinin, xüsusən də Quran və peyğəmbərin hədislərinin zəngin tərbiyəedici imkanları vardır. Nümunələrə müraciət edək: Quranda Məhəmməd Peyğəmbər həyatda yaxşı işlər görməyi, xoş əməllər sorağında olmağı, hərtərəfli mədəniyyətə yiyələnməyi məsləhət görür, pis əməllərdən uzaq olmağı tələb edirdı. («Pis sözlər pis adamlara məxsusdur. Yaxşı sözlər yaxşı şəxslərə»).

Məhəmməd Peyğəmbərin hədislərinin tərbiyəedici imkanları da genişdir. Həzrəti Məhəmməd əleyhissəlam, hər şeydən əvvəl beşikdən qəbrədək elm öyrənməyi tövsiyə edirdi. Alimlər cəmiyyətimizin hazırkı mərhələsində həmin ideyanı möhkəm müdafiə edir, fasiləsiz təhsil ideyasını irəli sürürlər. Azərbaycanda fasiləsiz milli təhsil konsepsiyasında da belə bir müddəa irəli sürülür.

Maraqlı və diqqətəlayiq cəhət burasındadır ki, Həzrəti Məhəmməd elmə yiyələnməyi istər kişi, istərsə də qadın ücün vacib sayırdı. Özü də peyğəmbər avam, savadsız və cahil mollaların dediyinin əksinə olaraq, elmi ibadətdən üstün tutur və bu xüsusda deyirdi: «Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir» (101 hədis). Peyğəmbər təhsilə kiçik yaşlardan başlamağı məqsədəuyğun hesab edir, uşaqlıqdan öyrənilən elmi daş üstündə yazıya, müəyyən yaş həddinə çatdıqdan sonra öyrəniləni isə su üstündə yazıya bənzədirdi.

Həzrəti Peyğəmbər öz oğul və qızlarına layiqli tərbiyə verməyi ata-anaların borcu saymaqla yanaşı, eyni zamanda övladlardan tələb edirdi ki, valideynlərinə hörmət və ehtiram göstərsinlər, ehtiyac duyduqda, kömək əllərini onlara uzatsınlar («Ömrünün uzanmasını və ruzisinin artmasını istəyən kəs valideyninə ehtiram etsin», «Ata-ananıza ehtiram edin ki, övladlarınız da sizə hörmət qoysunlar»).

Hədislərdə həyalı və namuslu olmaq mühüm mənəvi keyfiyyət kimi irəli sürülür. Bunun səbəbi isə belə aydınlaşdırılır: «Həyalı və namuslu olun ki, qadınlarınız da həyalı və namuslu olsunlar». Bunlardan belə bir nəticə çıxarmaq olar ki, bəzən qadının həyatda, məişətdə özünü necə aparması kişidən çox asılıdır. Hər bir kişi, ər gərək bunu nəzərə ala.

Məhəmməd Peyğəmbər gəncləri qocalara hörmət bəsləməyə, onların öyüd-nəsihətini eşitməyə çağırırdı: «Xeyir-bərəkət qocalardadır». Həqiqətən, böyüklərin, ixtiyar babaların sözü, məsləhəti ilə iş görmək adamı xoşbəxtliyə çatdırır. Bu da təsadüfı deyildir. Axı onlar böyük həyat yolu keçmişdir.

Peyğəmbər valideynləri öz övladları ilə mehriban rəftar etməyə və onlara yaxşı tərbiyə verməyə çağırırdı.

Həzrəti Məhəmməd ömrü uzun, əməli gözəl olanları insanların ən xeyirlisi, ömrü uzun, əməli bəd olanları isə insanların ən pisi hesab edirdi. O, insanlarda vətənpərvərlik hissini yüksək qiymətləndirirdi («Vətəni sevmək imandandır»). Həm də Peyğəmbər Vətənə sevgini sözdə deyil, əməldə görür, çox haqlı olaraq məğlubiyyətin səbəbini xəyanətdə gəzirdi. Onun fıkrincə, «xəyanəti millətin öz içərisində axtarmaq lazımdır» («Millətimin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz»).

Hədislərdə qonşuluq münasibətlərinə də toxunulur, qonşunun xeyir-şərindən vaxtında xəbər tutmağın («Yaxın qonşu ac ola-ola tox yaşayan qonşu mömin sayıla bilməz), qonşu ilə mehriban dolanmağın («Ən yaxşı qonşu öz qonşusu ilə yaxşı dolanandır»), qonşuya yaxşılıq etməyin («Allah-taala pis qonşuya rəhm etməz», «Qonşuları ilə ünsiyyət saxlamayan mənfəətini itirər») yolları göstərilir.

Peyğəmbərin həsəd (paxıllıq) haqqında dediyi sözlər də maraq doğurur: «Od ağacı yandırıb yediyi kimi, həsəd də yaxşılıqları yeyər. Su odu söndürdüyü kimi, sədəqə də pisliyin alovunu söndürər».

Əsrlər, min ildən artıq vaxt keçsə də, həmin sözlər öz dəyərini itirməmişdir.

Hədislərdə insanlara qənaətlə dolanmaq məsləhət görülür. Qənaət etməyi bacaran şəxs sabahını da düşünən şəxsdir. Məhəmməd Peyğəmbərin qənaətincə, ən yoxsul adam kasıb olan yox, tamahkar olandır. Aşağıdakı müddəalar bir daha Peyğəmbərin nə qədər iti, dərin ağıl sahibi, uzaqgörən şəxs olduğunu sübuta yetirir: «Qənaətcillik güzəranın, camaatla mehriban rəftar ağlın, ağıllı sual isə elmin yarısıdır»; Peyğəmbərə görə, qohum-əqrəbası ilə əlaqəsi olmayan mehribançılığını, ailəsinə biganə olan isə xoş güzəranını itirər.

Həzrəti Məhəmməd əleyhissəlam insanlara tədbirli olmağı, bir iş görmək istəyəndə həmin işin nəticəsini düşünməyi məsləhət bilirdi. («Bir iş görmək istəsən sonunu düşün, sonu xeyirdirsə, ondan yapış, şərdirsə fikrindən daşın»).

Beləliklə, bədxahlarımızın dediklərinin əksinə olaraq islamın özülləri, o cümlədən Quran, Məhəmməd Peyğəmbər heç də zorakılığı təbliğ etmir, bu özüllər humanist bəşəri ideyaları müdafiə edir, insanlarda nəcib sifətlər formalaşdırmağa çalışır, onları xeyirxah işlər görməyə, yaxşılığa, səmimiyyətə, mehribançılığa, dostluğa, ədalətə səsləyir.

Həcc ziyarəti

Kəbəni Allahın əmri ilə ilk dəfə Adəm (ə) qurmuşdur. Nuh (ə)-un tufanı zamanı Kəbə dağıdılmışdır. Peyğəmbər İbrahim (ə) oğlu İsmayıl (ə) mələk Cəbrayıl (ə)-ın köməyilə bu ibadətgahı bərpa etmişdir. Kəbə

kub şəklindədir. Ölçüləri 10 x12 x15 metrdir. Qapısı təmiz qızıldandır, çəkisi 286 kq-dır. Məscidül-həramın 9 minarəsi var, minarələrin hündürlüyü 90 metrdir. Kəbənin Həcərul-Ərşad küncündə 1 minarə, qalan künclərində isə 2 minarə vardır. Adəm (ə) Səfa dağına enəndə ora qaranlıq olub, bu zaman göydən Kəbənin yerinə bir dürr düşərək ətrafı işıqlandırıb. Bu nurun əhatə etdiyi hüdudda 300-dən artıq peyğəmbər dəfn olunub. Hicri-İsmayılda 70 peyğəmbər, o cümlədən İsmayıl (ə) və anası Hacər xanımın qəbri-şərifləri vardır. Həcərül-Əsvədlə Kəbənin qapısı arasına – mültəzəm deyilir, bu yerdə 2 rukət namaz qıla bilənin duaları tez qəbul olunur.

Fatimə binti Əli (ə)-ni dünyaya gətirən zaman o yerdən Kəbənin içərisinə daxil olub. Bir rəvayətə görə isə o yerdən divar aralanıb, digər rəvayətə görə isə o vaxt həmin yerdə də bir qapı olub. Deməli, Kəbənin 2 qapısı var imiş. Həmin yer, yəni Yəmən rükütü Əhlibeytə məxsusdur. Orada oxunan dualara 70 mələk amin deyər.

Həcc Ziyarəti islamın maddi, mənəvi, siyasi və ictimai tutuma malik olan vacib əməllərindən biridir. Həcc Ziyarətində müsəlmanlar dünyanın hər yerindən bir yerə toplaşaraq vəhdət təşkil edir, bir-birilərilə dərdləşir, rəy mübadiləsi edirlər. Bu Ziyarət birlik və həmrəyliyi gücləndirir, ayrı-seçkiliyi aradan qaldırır, dostluq və qardaşlığı möhkəmləndirir. Bu əzəmətli ibadət mərasimi insanlar arasında ünsiyyət yaradaraq iqtisadi, ticarət, sənaye və s. işlərə də yol açır. Həcc ziyarəti vətəndən ayrı düşmək, yol yorğunluğu, əziyyət, zəhmətlərə dözmək, mal-dövlət xərcləmək, bir sıra arzu və istəklərdən əl çəkərək ziyarət əməllərini yerinə yetirmək və Allah-taala ilə əhdi təzələməkdir. Ehram geyinmək, cismani ləzzətlərdən çəkinmək, dünyəvi duyğulardan uzaq olaraq yaddaşı-qəlbi Allaha doğru yönəldərək qiyamət mənzərələrini və axirət əhvalını xatırlamaqdır. Onu da bilmək lazımdır ki, Həcc Ziyarətində olarkən Allah-taalanın qonağısan, öz qonağına isə Allah-taalamız özü ehtiram edir.

Kəbə Səudiyyə Ərəbistanının Məkkə şəhərindədir. Ərəbistan yarımadası Asiya qitəsinin cənub-qərbində yerləşir. Sahəsi 3 milyon kv.metrdir. Şimaldan İordaniya, Küveyt, İraq, Şam və Fələstinlə, cənubdan Yəmənlə, şərqdən Fars körfəzi və qərbdən Qırmızı dənizlə əhatə olunub. Keçmiş adı Hicazdır. Kəbə əsrdəki Beyti-Məmurun yer üzərində oxşarını təcəssüm etməsidir.

Kəbə islam simvolu və bayrağıdır. İlk quru məkan Kəbənin olduğu yerdə yaranıb. Həmin vaxtlar isə bütün Yer kürəsinin tən ortası olması rəsmi surətdə yerin maqnit mərkəzi yerləşir və yerin maqnit oxu da məhz Kəbədən keçir. Dünyanın hər yerindən maqnit xətləri Kəbəyə – yəni qibləyə yönəlir. Hər kəs qibləni təyin edən cihazlardan istifadə edibsə, bunun şahidi olub. Belə ki, yerin maqnit meridianı iddia olunduğu kimi İngiltərənin Qrinviç şəhərindən deyil, Məkkədən keçir. Məlumdur ki, insanın bədənində də maqnit meridianları mövcuddur. Bu meridianların

(insan və yer) üst-üstə düşməməsindən asılı olaraq orqanizmə müsbət və mənfi təsiri olur. Güman ki, bu namaz qılarkən üzü qibləyə dayanmağın səbəblərindən biridir.

■**Tapşırıq.** *Mətnin məzmununu nəql edin.*

Qədim və orta əsrlərdə iqtisadi fikir və təlimlər

İqtisadi fikir tarixi iqtisadiyyatın tarixi qədər qədimdir. İcma quruluşunda, bəsit iqtisadiyyat şəraitində insanların iqtisadi mühit haqqında müəyyən təsəvvür və görüşləri olmuşdur. Bütün bunlar bizə əsatirlər, nağıllar, dastanlar və s. şəklində gəlib çatmışdır. Əsil iqtisadi fikir və biliklər isə icma quruluşunun dağıldığı, dövlətin və siniflərin yarandığı dövrdə meydana çıxmağa başlamışdır. Umumiyyətlə, elm, biliklər cəmiyyətin daha yetkin mərhələsində, xüsusilə klassik quldarlıq dövründə yaranmışdır.

İqtisadi fikir və biliklərin meydana çıxması üçün daha yetkin iqtisadiyyatın olması zəruri idi. Belə bir iqtisadi, mədəni şərait qədim Misirdə, Babilistanda, Çində, Hindistanda, İranda mövcud olmuşdur. Hələ eramızdan 4-5 min il əvvəl qədim böyük dövlətlər və mədəniyyətlər Şərq ölkələrində — qədim şumerlərdə (indiki İraq ərazisində), Misirdə, Türküstanda və s. ölkələrdə meydana gəlmişdir. Bu ölkələrdə istehsalın ən qədim və əsas sahələri olan əkinçilik, heyvandarlıq, suvarma sistemi, sənətkarlıq, ticarət, şəhər mədəniyyəti daha yüksək səviyyəyə qalxmışdır.

F.Engels «Kapital»ın III cildinə əlavədə yazır: «Əmtəə mübadiləsi hələ heç bir yazılı tarixin mövcud olmadığı zamanlarda Misirdə bizim tarixdən azı üç və ya beş min il qabaq, Babilistanda isə dörd-altı min il qabaq başlanır».

Qədim Şərqdə əmlak bölgüsünün və bunun əsasında əmtəə mübadiləsinin erkən inkişafı pulun da bu ölkələrdə yaranmasına səbəb olmuşdur. Belə ki, Şərq ölkələrinin əksəriyyətində qaramal, qoyun və bu kimi məhsullar mübadilədə vasitəçi rolunda çıxış etmişdir. Heç də təsadüfi deyildir ki, bir sıra Şərq ölkələrində, eləcə də Azərbaycanda mal, əmtəə anlayışları eyni məna daşıyan anlayışlar kimi işlədilir.

Metal pulların (mis, gümüş, qızıl) kəsilməsi və dövriyyəyə buraxılması da Qədim Şərq ölkələrində həyata keçirilmişdir. Hazırda dünyanın bir çox ölkələrində işlədilən «moneta» pul adı da o dillərə Şərqdən keçmişdir. Görünür, bizim «manat» milli pul vahidinin adı da oradan götürülmüşdür. Bu ad eramızdan öncə Bisütun qayalarındakı mixi yazılarda «manat», «monnat» kimi həkk olunmuşdur. İlk dəfə Çində (XII əsr) dövriyyəyə kağız pul buraxılmışdır. Bütün bunlar onu göstərir ki, əkinçiliyin, maldarlığın, ticarətin, şəhər mədəniyyətinin, dövlətin və onun idarəetmə funksiyalarının inkişaf etdiyi qədim ölkələrdə iqtisadi fikrin yaranması və inkişafı üçün geniş zəmin olmuşdur. Bunun nümunələrini qədim Misirin papirus yazılarında (e.ə. III-

II minilliklərdə), şumerlərin daş və kərpic yazılarında (e.ə. IV-III minilliklərdə), Babilistan hökmdarı Hammurapinin daş üzərində mixi yazılar ilə həkk olunmuş qanunlarında (e.ə. XVIII əsr) və s. abidələrin verdiyi məlumatlarda görə bilirik. Düzdür, bu abidələrdə sistemli iqtisadi biliklər əks olunmamışdır. Lakin dövrümüzə gəlib çatan bu sənədlərdə dövlətin iqtisadiyyatı, idarəetmə qayda-qanunları, cəmiyyətdə ictimai təbəqələr və onların münasibətləri öz əksini tapmışdır. Eyni zamanda biz o mənbələrdən dövrün iqtisadi, təsərrüfat həyatı haqqında, insanların həyat tərzi, sərvətin mənbələri haqqında da məlumatlar ala bilirik.

Qədim dünyanın yaratdığı böyük dövlətlər, iqtisadi və mədəni həyat yox olub getmişdir. Lakin qədim sivilizasiyalar yunan və Avropa mədəniyyətlərinə güclü təsir göstərmişdir. Qədim yunanlar keçmişdə tərəqqi edən və çiçəklənən iqtisadi və mədəni həyatın əsil davamçıları kimi çıxış etmişlər.

Yunanlar təbiəti, cəmiyyəti öyrənən elmlərin əsasını qoymuşlar. Qədim yunan alimləri iqtisadiyyatın araşdırılması sahəsində yüksək qabiliyyət nümayiş etdirmişlər. Ksenofontun (e.ə. 430-355-ci illər), Platonun (e.ə. 427-347-ci illər), Aristotelin (e.ə. 348-322-ci illər) əsərlərində quldarlıq quruluşunun iqtisadi münasibətləri araşdırılmışdır. İlk dəfə «İqtisadiyyat» -«Oikonomia» anlayışını elmə gətirən də onlar olmuşlar. Beləliklə, iqtisadiyyat anlayışı elm tarixinə daxil olmuşdur. Ksenofont «Oikonomia» başlığı altında qul əməyinə əsaslanan ev təsərrüfatı və onun ağıllı idarə olunmasından danışır.

Antik dünyanın ən görkəmli zəkalarından biri olan Aristotel iqtisadçı sayılmağa layiqdir. O, «Siyasət» və «Etika» əsərində «iqtisadiyyat» anlayışının nəzəri əsasını vermişdir. Aristotel elm tarixində ilk dəfə əmtəə-pul münasibətlərinin mahiyyətini və qanunauyğunluqlarını araşdırmışdır. Onun əmək, dəyər, qiymət, pul haqqında yürütdüyü iqtisadi-nəzəri fikirlər sonrakı əsrlərdə iqtisadi nəzəriyyələrin inkişafına təsir göstərmişdir.

Ümumiyyətlə, antik yunan alimlərinin yaratdıqları elmi məktəblər və nəzəri sistemlər Şərqdə və Avropada elmin və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır. Bu, iqtisad elminin yaranmasına və formalaşmasına da öz təsirini göstərmişdir.

Orta əsrlərdə iqtisadi fıkir və təlimlər nəzərəçarpacaq qədər inkişaf etdirilə bilməmişdir. Avropada antik yunanlardan başlanan iqtisadi nəzəriyyələrin ardıcıl davam etdirə bilməməsinin səbəbləri haqqında müxtəlif fikirlər mövcuddur. Bu dövr xristianlıq dininin yaranması və yayılması dövrü olmuşdur. Bunun nəticəsində ictimai-iqtisadi həyatın yönəldilməsi və tənzimlənməsi "Bibliya"nın (İncilin) ehkamlarının təsirinə məruz qalmışdır. K.Marks Avropada orta əsrlər dövründə iqtisadi fıkrin inkişaf edə bilməməsinin səbəbini xristian dininin hökmranlığının nəticəsi kimi izah etmişdir.

(İqtisadi nəzəriyyə. Bakı, 2001, s. 32-36)

SAMİTLƏRİN İNCƏ VƏ QALINLIĞI (МЯГКИЕ И ТВЕРДЫЕ СОГЛАСНЫЕ)

Azərbaycan dilində bəzi samitlər sözdə işlənmə yerindən, qonşu səslərdən asılı olaraq incə və ya qalın tələffüz olunur. **Məsələn**: /l/ səsi bala sözündə qalın, ali sözündə nisbətən incə, Əli sözündə isə incə tələffüz olunur. Rus dilindəkindən fərqli olaraq, Azərbaycan dilində samitlərin belə tələffüzü fonoloji -məna fərqləndirici xüsusiyyət daşımır.

В азербайджанском языке некоторые согласные в зависимости от позиции в слове, окружения соседних звуков произносятся мягко или твёрдо. Например: звук /л/ в слове Əли мягко. Такое произношение согласных в азербайджанском языке, в отличие от русского, не имеет фонологического, т.е. смысло-различительного значения.

Bu cəhətdən yalnız **/k-q/, /g-ğ/** səsləri fərqlənir. Burada incə və qalınlıq bəzən, xüsusən şəkilçilərin tərkibində, fonematik xüsusiyyət daşımasa da, (məsələn, **- maq, -mək, -ıq, -ik, -uq, -ük, -dıq, -dik, -duq, -dük**), əksər hallarda bunlar müxtəlif səslər olduğu kimi, müxtəlif fonemlər kimi də çıxış edır.

В этом отношении различаются лишь звуки **/k-q/, /g-ğ/.** Хотя в ряде случаев, особенно в составе аффиксов, мягкость и твердость согласного не имеет фонологического характера (- **maq, -mək, -ıq, -ik, - uq, -ük, -dıq, -dik, -duq, -dük),** эти разные звуки, выступают и как различные фонемы.

Məsələn: kar-qar, kal-qal.

QOŞA SAMİTLİ SÖZLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ (ПРАВОПИСАНИЕ И ПРОИЗНОШЕНИЕ СЛОВ С ПАРНЫМИ СОГЛАСНЫМИ)

I

qəssab - мясник addım - шаг
əvvəl - начало, до, раньше pilləkən - лестница
qüvvət - сила əlli - пятьдесят
innab - унаби amma - но
rəssam -художник

II

əlbəttə - конечно təşəkkür - благодарность
hətta – даже mürəkkəb – чернила, сложный
səkkiz - восемь

III

toqqa - пояс saqqal - борода
doqquz - девять rəqqasə -танцовщица
şaqqa - полоть çaqqal - шакал

IV

ədəbiyyat - литература keyfıyyət - качество
təyyarə - самолет kəmiyyət - количество
cəmiyyət - общество xasiyyət - характер

V

sünbül – колос xəstə - больной
şənbə - суббота usta - мастер
tənbəl - ленивый bağça - садик
anbar - склад bitki - растение
əcdad – предки nöqtə - точка
vicdan – совесть nöqsan - ошибка
şaftalı - персик məftil - проволка

Qoşa eyni samitli sözlərdə samitlərin biri uzun tələffüz olunur, digəri tələffüz olunmur (I bölmə):

В словах с двойными согласными один согласный произносится как долгий, а другой утрачивается (см. I раздел)

Yazılır	**Tələffüz olunur**
qəssab	[qəs:ab]
addım	[ad:ım]
güllə	[gül:əJ
əlli	[əl:i]
dirrik	[dir:ik]

Sözlərdə qoşa /t/ və /k/ samiti işləndikdə, onlardan ikinci samit cingiltiləşir (II bolmə):

При произношении слов с двойными глухими согласными /т/ и /к/ второй согласный приобретает звонкость (см. II раздел)

hətta	[hətda]
əlbəttə	[əlbətdə]
mürəkkəb	[mürəkgəb]
təşəkkür	[təşəkgür]

Qoşa /q/ samitli sözlərin tələffüzündə birinci samit karlaşaraq, /k/ kimi səslənir, ikinci samit isə dəyişmir (III bölmə).

В словах с двойными звонкими согласными первый согласный оглушается, а второй остается без изменения (см. III раздел).

Məsələn:
toqqa [tokqa]
saqqal [sakqal]və s.

Sözlərdə qoşa /y/ samiti yanaşı gəldikdə, onlardan yalnız biri tələffüz olunur (IV bölmə).

В словах с двойным /й/ произносится лишь один из них (см. IV раздел).

ədəbiyyat [ədəbiyat]
cəmiyyət [cəmiyət]

Bəzi müxtəlif qoşa samitli sözlər yazıldığı kimi tələffüz olunmur (V bölmə).

Некоторые слова с неодинаковым парными согласными произносятся не так, как пишутся (V раздел).

Məsələn:

şənbə [şəmbə]
vicdan [vijdan]
xəstə [xəsdə]
bağça [baxça]
bitki [bitgi]
nöqtə [nöktə] və s.

■**Tapşırıq.** *Sözləri ifadəli oxuyun. Onların yazılışı ilə tələffüzü arasındakı fərqi müəyyənləşdirin:*

faiz, düşmən, stadion, yuva, ailə, motor, əlifba, sait, zənbil, qardaş, dustaq, ölkə, rəndə, şaxta, nöqsan, traktor, rəqs, Məkkə, tüstü, məftil, tülkü, aşpaz.

■**Tapşırıq.** *Verilmiş cədvəl əsasında sözlərin yazılışı ilə tələffüzü arasındakı fərqi gostərin:*

Yazılır	**Tələffüz olunur**
şaftalı	[şafdalı]

səkkiz, doqquz, əlbəttə, cəmiyyət, rəssam, inşaat, ləzzət, tüfəng, ağac, rəng, həftə, teatr, müəllim.

VURĞU
(УДАРЕНИЕ)

Əsl Azərbaycan sözlərində vurğu, əsasən, sözün son hecası üzərinə düşür. Əgər söz şəkilçi qəbul edirsə, vurğu şəkilçinin üzərinə keçir.

В исконно азербайджанских словах ударение в основном падает на последний слог. Если слово принимает аффикс, то ударение переносится на этот аффикс.

Məsələn: oxu - oxuyur, ana – ananın

Vurğu qəbul etməyən bəzi şəkilçilər, məsələn, xəbərlik (**-dır, -dir, -dur, -dür**), inkarlıq (**-ma, -mə**), bəzı feli bağlama şəkilçiləri (**-madan, -mədən, -kən**) istisna təşkil edir.

Исключение составляют некоторые аффиксы, в частности аффиксы сказуемости **(-dır, -dir, -dur, -dür),** отрицания **(-ma, -mə)**, **деепричастия (-madan, -mədən, -kən)** и др.

Rııs dili vasitəsilə Azərbaycan dilinə keçən sözlərin əksəriyyətində vurğu həmin dildəki mövqedə saxlanır.

В большинстве слов, заимствованных азербайджанским языком из русского, ударение сохраняет свою позицию.

Məsələn: kafedra, opera, gitara.

Azərbaycan dilində vurğu geniş planda məna fərqləndirici səciyyəyə malik deyildir, lakin bəzən vurğunun yerinin dəyişdirilməsi sözün mənasının da dəyişməsinə səbəb olur.

В широком плане в азербайджанском языке ударение не носит смыслоразличительного характера, но иногда его перенос приводит к изменению значения слова.

Məsələn: alın - alın, gəlin - gəlin, çəkmə - çəkmə, süzmə- - süzmə.

■**Tapşırıq.** *Aşağıdakı sözlərdə vurğunun yerini dəyişin, hər sözü cümlədə işlədib, dəftərinizə yazın.*

biçin, süzmə, suvarma, gəlmə, alma, qazma, bulama, əkin, səpin, yarma, qovurma, soyulma, çığırtma, çəkmə, dösəmə.

Nümunə: Sahədə biçin başladı. Taxılı itkisiz biçin.

■**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edib yazın və vurğulu hecaların altından xətt çəkin.*

Андрейка смутно помнит ласковую старую женщину, приемную мать, которая купала, поила, кормила его и укачивала посреди хаты на подвешенной к потолку люльке. Он помнит также, что, когда ему срав-

нялось четыре года, пришли какие-то люди, сняли его с лавки, где он спал, положили на стол под образа, зажгли свечи, а потом унесли куда-то, и он остался в двоем с дедом Агафоном. Помнит он, что каждый раз, как дед отправлялся на море, отводил его в поселок, который лежал в овраге, в степи, верстах трех от берега, и оставлял у своей кумы, бабки Спиридонихи.

С шести лет дед стал брать мальчика с собой на море, и Андрейка часто спал на носу лодки, на подостланной дедом соломе, а над ним носились чайки, светило солнце и летели брызги волн.

(A.Serafimoviç)

■**Tapşırıq**. *Köçürün, qara hərflərlə yazılmış sözlərin üstündə vurğunu göstərin:*

Gəlin gəlir (Невеста идет),
Məktəbə **gəlin** (Приходите в школу),
Alma al (Купи яблоки),
Armud **alma** (Не покупай груши),
İsti **qazma** (Теплая землянка),
Yeri **qazma** (Не копай землю),
Sərin su (Прохладная вода),
Paltarı **sərin** (Развешьте белье),
Gəlmə adam (Приезжий человек),
Bura **gəlmə** (Не приходи сюда),
Asma körpü (Висячий мост),
Paltarı **asma** (Не вешай бельё).

HECA
(СЛОГ)

Səslənmə zamanı nitqin ayrıldığı ən kiçik parçalara heca deyilir. Sözün tərkibində neçə sait varsa, o qədər də heca vardır.

Минимальный звуковой отрезок, выделяющийся в потоке звучащей речи, называется слогом. Количество слогов в слове определяется количеством гласных в слове.

Məsələn: göz, ət, ba+lıq, fəh+lə, ba+la+ca, mü + vəf + fə + qiy + yət, zə + rər + siz + ləş + dir + mək.

Rus dilindən fərqli olaraq, Azərbaycan dilində samitlər bir heca daxilində çox vaxt yanaşı gəlmir. Bəzi alınma və sonor samitlə işlənən sözlər istisna təşkil edir.

В отличие от русского языка в азербайджанском языке в пределах одного слога не могут находиться рядом несколько согласных. Исключение составляют некоторые заимствованные слова и слова, в которых один из смежных согласных является сонорным.

Məsələn: kosmonavt, şərf, nərd, səmt, dörd, yurd, türk.

Rus dilində olduğu kimi, Azərbaycan dilində də açıq və qapalı hecalar vardır.

В азербайджанском языке, как и в русском, слоги бывают открытыми и закрытыми.

Saitlə bitən hecaya açıq heca deyilir.

Слог, оканчивающийся на гласный, называется открытым.

Məsələn: sü+rü, ya+zı, dü+yü, bu, ba+cı.

Samitlə bitən hecaya qapalı heca deyilir.

Слог, оканчивающийся на согласный, называется закрытым.

Məsələn: ət, mey+dan, dəf+tər, ör+dək, əl+cək.

Sözlərə şəkilçi əlavə edərkən açıq heca qapalı hecaya, qapalı heca açıq hecaya çevrilə bilər.

В тех случаях, когда слова принимают аффиксы, открытый слог может стать закрытым, и, наоборот, закрытый открытым.

Məsələn: ana – anam, iş+lə, iş+lə+t, yol+daş, yol+da+şa.

Pulun meydana gəlməsi tarixindən

Tarixi mənbələr göstərir ki, pul insan cəmiyyətinin yaranması ilə bir vaxtda meydana gəlməyib. Milyon ildən çox tarixi olan bəşər cəmiyyətində pul təxminən 6-8 min ildir ki, mövcuddur. Pulun kəşfindən əvvəl insanlar arasında barter ticarəti, yəni əmtəənin əmtəəyə mübadiləsi geniş yayılmışdı. Əmtəə mübadiləsi prosesində müxtəlif ərazilərdə müəyyən bir əmtəə bütün başqa əmtəələr üçün ümumi ölçü vahidi funksiyasını icra edir. Bu cür ölçü vahidi kimi Afrikada balıqqulağı, Rusiyada isə xəzdən istifadə olunurdu.

Metalların kəşfi və onların xassələrinin öyrənilməsi nəticəsində alqı-satqı prosesində ümumi ölçü vahidi rolu tədricən metallara, yəni misə, gümüşə və qızıla keçdi. Qeyd etmək lazımdır ki, gümüş və qızıl təbiətən pul olmamışdır. Onlar da başqa əşyalar kimi insan əməyinin məhsullarıdır. Lakin bu metalların bir sıra təbii xassələri uzun tarixi dövr ərzində onların pul rolunu icra etməsinə səbəb olmuşdur.

Ən qədim pul nümunələri eramızdan əvvəl (e.ə.)VII əsrdə Çində mövcud olmuşdur. E.ə. təxminən 500-cü ildə İran şahı Dara dövriyyəyə pul buraxaraq barter ticarətini onunla əvəz etdi. İranın dağ mağaralarından tapılmış qayaüstü yazılar dediklərimizi bir daha sübut edir. Qeyd etmək lazımdır ki, ilk kağız pullar da XII əsrdə məhz Çində buraxılmış-

dır. Amma artıq 1500-cü ildə Çin hökuməti kağız pul buraxılışını dayandırmağa məcbur oldu, çünki bu pullar dövriyyəyə həddən çox buraxıldığına görə qiymətdən düşmüşdü.

Tarixdən bizə bu da məlumdıır ki, əsası XVI əsrin əvvəllərində, daha dəqiq desək, 1502-ci ildə Şah İsmayıl Xətai tərəfindən qoyulmuş müstəqil Azərbaycan dövləti olan Səfəvilər dövlətində də qızıl və gümüş pullar kəsilirdi.

Artıq 1724-cü ildən etibarən Rusiyanın bir çox yerlərində, o cümlədən Moskvada, Peterburqda, Uralda və Sibirdə metal pıllar kəsmək üçün xüsusi müəssisələr yaradılırdı.

1893-cü ildə ABŞ hökuməti də dollar adlanan gümüş pulun buraxılmasına başladı. Dollar öz adını bir neçə Avropa ölkəsində istifadə olunan gümüş tarelin adından götürmüşdür. Bu puldan istifadə bimetallizmə əsaslanırdı. Bimetallizm elə bir pul sistemidir ki, orada iki nəcib metal, yəni həm qızıl, həm də gümüş qanuni ödəniş vasitəsi sayılır. Təbii ki, qızıl və gümüşün qiymətlərinin dəyişməsi nəticəsində bu metallardan biri ticarət üçün daha sərfəli olurdu. Beləliklə də, dövriyyədə bu nəcib metallardan yalnız biri işlənirdi.

1873-cü ildə ABŞ-da gümüş pulun azad kəsilməsi ləğv edildı və pul vahidi kimi qızıl dollar fəaliyyətə başladı. 1913-cü ildə isə «Federal ehtiyat aktı» adlanan qanun qəbul edildi ki, bu akta əsasən banknot emissiyası, yəni qiymətli kağızların buraxılması 12 federal banka həvalə edildi və bu günə qədər də ABŞ-da kağız pullar həmin banklar tərəfından buraxılır.

AHƏNG QANUNU (SİNHARMONİZM)
(ЗАКОН ГАРМОНИИ (СИНГАРМОНИЗМ)

Rus dilindən fərqli olaraq, Azərbaycan dilində müəyyən cəhətdən həmcins səslər sözdə bir-birini izləyir. Bu ahəng qanunu adlanır.

В отличие от русского языка, в азербайджанском языке в пределах слова встречаются звуки, в определенном смысле одинаковые по происхождению. Этот закон называется законом гармонии (сингармонизмом).

Ahəng qanununun üç növü vardır:

Закон гармонии имеет три вида:

1. Saitlərin ahəngi (гармония гласных).

Saitlərin ahəngi dil və damaq ahəngi olmaqla iki cür olur. Dil ahənginə görə, sözün ilk hecasında arxa sıra və ya ön sıra saiti varsa, o biri hecalarda da ya arxa sıra və ya ön sıra saiti gəlir.

Гармония гласных бывает двух видов: небная и губная. Согласно небной гармонии, если в первом слоге имеется гласный переднего или заднего ряда, то и в следующих слогах также следует гласный переднего или заднего ряда.

Məsələn: altı, barıt, üzük, ütü, bülbül, yazıçılıq

Dodaq ahənginə görə, dodaqlanan və dodaqlanmayan saitlər bir-birini izləyir.

По губной гармонии употребляются друг другу лабиализованные и нелабиализованные гласные.

2. Saitlərlə samitlərin ahəngi (гармония гласных и согласных).

Burada dilin və səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlər, yəni qalın və incə saitlərlə, qalın və incə samitlər uyuşur, saitlər samitləri cingiltiləşdirir.

В данном случае по положению языка и участию голосовых связок употребляются однородные гласные согласным т.е. твердые и мягкие гласные – твердым и мягким согласным, гласные озвончивют согласные.

Məsələn: qaşıq, qatıq, yaşamaq, qadın, mələk, ölçü, kəklik, gedir.

3. Samitlərin ahəngi.

Bu qanuna görə, kar və ya cingiltili samit öz həmcinsi ilə, yəni kar samit kar samitlərlə, cingiltili samit cingiltili samitlərlə uyuşur.

Согласно этому закону, глухие или звонкие согласные уподобляются своим однородным, т.е. глухой согласный – глухому согласному, звонкий – звонкому.

Məsələn: kəskin, küskün, qaçqın, vurğu, bitkin, durğun.

■**Tapşırıq.** *Köçürün. Ahəng qanununa tabe olan və olmayan sözləri ayırın:*

ünvan, məktub, yürüş, töhfə, alim, hekayə, vergi, mühasibat, uçot, maliyyə, iqtisad, gəlir, mənfəət, məsləhət, köçəri, gözəllik, göyərçin, yasəmən, ziya, düyü, dükan.

■**Tapşırıq.** *Aşağıdakı sözləri sxemə uygun şəkildə qruplaşdırın:*

gülüş, geniş, əlli, alça, hidayət, aləm, aşkar, iqtisad, mühasibat, əmtəə, maliyyə, komersant, bankir, biznes, vergi, icarədar.

Ahəng qanununa tabe olan sözlər (слова, подчиняющиеся сингармонизму)	**Ahəng qanununa tabe olmayan sözlər (слова, не подчиняющиеся сингармонизму)**
üzüm	mişar

■**Tapşırıq.** *Mətni köçürün. Ahəng qanununa tabe olmayan sözləri seçib yazın. Sözlərdə saitlərin ahəngini növlər üzrə göstərin. Mətnin məzmununu danışın.*

TRANSMİLLİ ŞİRKƏTLƏR

Transmilli şirkətlər (TMŞ) XX əsrin ikinci yarısından başlayaraq dünya iqtisadiyyatının inkişafında müstəsna rol oynayırlar. Son illər transmilli şirkətlərin sürətlə inkişafı beynəlxalq rəqabətin kəskinləşməsinə və əmək bölgüsünün dərinləşməsinə gətirib çıxarmışdır.

TMŞ-nin fəaliyyət xarakteri və forması XX əsrin ikinci yarısından dəyişməyə başlamışdır. Belə ki, kartel formasında olan beynəlxalq birliklər öz yerini beynəlxalq konsern və başqa iri istehsal firmalarına verdilər. Yeni tipli beynəlxalq birliklər məhdud ərazilərə yayıldılar. Müasir TMŞ-ləri qlobal bazar və dünya səviyyəsində rəqabət qabiliyyəti səciyyələndirilir.

Hazırda dünyada 80 minə yaxın TMŞ fəaliyyət göstərir. Onların xarici filiallarının sayı 830 mindən çoxdur.

Dünyanın ən iri 500 TMŞ-ləri içərisində ən vacib rolu 4 kompleks oynayır; elektronika, neft emalı, kimya və avtomobil. TMŞ-lərin ümumi məhsul satışının 80%-i bu komplekslərin payına düşür.

Xarici ədəbiyyatlarda transmilli şirkətlərin bir çox növü verilmişdir. Əsasən 3 növ transmilli şirkət fərqləndirilir. Bunlara aiddir: Transmilli şirkət, Çoxmilli şirkət, Qlobal şirkət.

TMŞ-xarici aktivlərə malik milli şirkətdir. Bu növ şirkətləri ABŞ-da səhmdar cəmiyyəti adlandırırlar. Elə TMŞ-lərin çoxu ABŞ-da olduğuna görə bu termin bütün dünyada belə qəbul olunub. TMŞ xarici ölkələrdə öz işgüzar fəaliyyətini, orada istehsal, satış və elmi mərkəzlərə malik qız kompaniyaların açılması ilə həyata keçirir. Bunlara misal olaraq amerikan firmaları «General-Motors» , «Ford», «İBM» «Ekson» İsveç firması olan «Nestle»ni göstərmək olar.

R.Ə. Abbasova
"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.162

■**Tapşırıq.** *Mətni Azərbaycan dilinə tərcümə edin.*

Когда дикие звери ходят по лесам и по полям, то они всегда идут на ветер и слышат ушами, и чуют носом то, что впереди них. Если бы не было ветра, они бы не знали куда им идти.

Для того чтобы на траве, кусте или дереве завязалось семя, нужно чтобы с одного цветка пыль перелетела на другой цветок. Цветки бывают

далеко друг от друга и им нельзя пересылать свою пыль с одного на другой.

Когда огурцы растут в парниках, где ветра нет, тогда люди сами срывают один цветок и накладывают на другой, чтобы цветковая пыль падала на плодовый цветок. Пчелы и другие насекомые иногда переносят на лапках пыль с цветка на цветок. Но больше всего пыль эту переносит ветер. Если бы не было ветра, половина растений была бы без семян.

Л.Н.Толстой

■**Tapşırıq.** *Aşağıdakı mətni köçürün. Məzmununu rus dilinə tərcümə edin.*

Cavanşir
(616-681)

Cavanşir Albaniyanın (Azərbaycan) məşhur Mehranilər sülaləsinin ən görkəmli nümayəndəsi idi. O, 637-ci ildən 681-ci ilədək Alban – Azərbaycan dövlətinin başçısı olmuşdur. O vaxt Girdman dövlətinin paytaxtı Bərdə şəhəri idi.

VII yüzilliyin I yarısında ərəblər Şimala və Qərbə hücumlar etməyə başladılar. Ərəblərin ilk müharibəsi İran dövləti ilə oldu. İndi olduğu kimi o vaxtlar da Cənubi Azər-baycan İranın tərkibində idi. Albaniya – Şimali Azərbaycan isə onun vassalı idi. Buna görə də, Cavanşir bıı müharibələrdə İranın tərəfində iştirak edirdı.

Cavanşir 3 minlik Alban - Azərbaycan qoşunları ilə müharibəyə qoşuldu. Ərəblərə qarşı vuruşdu. Bu müharibə 7 il davam etdi. Müharibənin sonunda Cavanşir başa düşdü ki, İran - Sasani dövləti dağılmaq üzrədir. Buna görə də, Cavanşir öz ölkəsinə, Bərdəyə qayıtdı.

Ərəblərə qarşı aparılan bu döyüşdə Cavanşir igid və məşhur bir sərkərdə kimi ad qazanmışdı. İran hökmdarı bütün döyüşlərdə onunla məsləhətləşirdi.

Bildiyimiz kimi, Albaniya - Azərbaycan Şərq və Qərbin qapısında yerləşir. O vaxt dörd nəhəng dövlət - ərəb, İran, Bizans və Xəzər imperiyaları daim bir-birilə müharibələr aparırdı. Bu müharibələrin zərbəsi Azərbaycana dəyirdi. Cavanşir ölkəni bu ağır zərbələrdən xilas etmək üçün siyasət yolunu seçdi. O, Bizans ilə müqavilə bağladı ki, ərəblərə qarşı güclü müttəfiqi olsun. Lakin 662-cı ildə Xəzər qoşunları Azərbaycana soxulur. Cavanşir qoşunu ilə Kür çayı üstündə xəzərləri məğlub edir. Xəzərlər ikinci dəfə 664-cü ildə daha güclü qoşunla yenidən Azərbaycana hücum edir. İndi ermənilər etdikləri kimi xəzərlər də şəhər və kəndlərimizi yandırır, xalqımızı əsir aparırdılar. Bu dəfə Cavanşir görür ki, düşmən çox güclüdür. Hərb yolu ilə ona qalib gələ bilməz. Odur ki, Cavanşir Xəzər

xaqanı ilə sülh bağlayır, əsir düşmüş xalqı geri qaytarır. Cavanşir sülhü möhkəmlətmək üçün Xəzər xaqanının qızı ilə evlənir. Beləliklə, xalq qəhrəmanımız Cavanşirin həyata keçirdiyi siyasət nəticəsində vətənimiz – Azərbaycan torpağı bir müddət qırğından və müharibədən xilas olur. Amma bu çox çəkmir. Ərəblər həm Bizansa, həm də Azərbaycana qarşı yenidən hücuma keçir. Bu müharibədə Cavanşir Bizans imperatorundan ona bir kömək olmayacağını görüb yenə də siyasətə əl atır. Xalqını və vətənini – Azərbaycanı ərəblərin qırğınından və talandan xilas etmək məqsədilə 667-ci ildə Dəməşq (Şam) şəhərinə Xəlifənin görüşünə yollanır. Cavanşir Xəlifədən xahiş edir ki, onu vassallığa qəbul etsin. Xəlifə bu təklifi qəbul edir.

Beləliklə, Azərbaycan yenə də bir müddət müharibələrdən azad olur. Cavanşir Xəlifənin yanına gedib Azərbaycandan aldığı vergini və xəracı 3 qat azaldır. Sonralar Xəlifə Cavanşirə bütün Azərbaycan hakimliyini təklif edir. Cavanşir isə buna razı olmur. Xəlifənin Cavanşirə və Azərbaycana qarşı bəslədiyi bu rəğbətin səbəbi o idi ki, Azərbaycan, ərəbləri və ərəb torpaqlarını Xəzər və Türküstan hücumlarından qoruyurdu. Həm də Xəlifə Cavanşirin igidliyi və cəsurluğunu xoşlayır, onu yüksək qiymətləndirirdi.

Cavanşirlə Xəlifə arasında olan bu yaxşı münasibət nəticəsində Azərbaycanın vəziyyəti xeylı yüngülləşmişdi. Lakin Azərbaycanda olan xristian-alban feodallarının Cavanşirin müsəlman hökmdarı ilə olan bu yaxınlığından xoşları gəlmir. Odur ki, xristianlar Cavanşirə qarşı suiqəsd hazırlayırlar. 681-ci ildə onlar Cavanşiri öldürdülər. Həmin dövrdə yaşamış məşhur Alban - Azərbaycan şairi Davdağ Cavanşirin ölümünə bir neçə mərsiyə - şeir yazmış və onu Cavanşirin tabutu üstündə oxumuşdur:

Mənim Şərq ölkəmi bürüdü kədər,
Yayılmış cahana qara bir xəbər.
Qoy ellər eşitsin mənim səsimi,
Səsimə səs verib ağı desinlər.

Sakit həyatımız matəmlə doldu,
Bizdə soyğunçular müsəlləh oldu.
Misilsiz bir dövlət çökdü kökündən,
O parlaq şüası saraldı, soldu.

KOMMERSİYA FƏALİYYƏTİNİN MAHİYYƏTİ, PRİNSİPLƏRİ VƏ FUNKSİYALARI

Bazar iqtisadiyyatının effektiv fəaliyyət göstərməsi və dayanıqlı inkişafı ayrı-ayrı istehsallar, sahibkarlar, şirkətlər və firmalar arasında qarşılıqlı

əlaqələrin forması kimi kommersiya əməliyyatlarının yerinə yetirilməsi səviyyəsindən daha çox asılıdır. Kommersiya işinin iqtisadi cəhətdən düzgün, savadlı təşkili bazar iqtisadiyyatının dayanıqlı inkişafının əsasını təşkil edir.

Kommersiya ticarət sahibkarlığının bir növüdür. Kommersiya latın mənşəli söz olub ticarət deməkdir. Lakin nəzərə almaq lazımdır ki, «ticarət» termini iki mənada işlədilir: bir halda o xalq təsərrüfatının sərbəst sahəsi, digər halda isə əmtəənin alqı-satqı aktlarının həyata keçirilməsi prosesi deməkdir. Kommersiya fəaliyyəti - mənfəət alınması məqsədilə alqı-satqı aktlarının həyata keçirilməsi üzrə ticarət prosesləri ilə əlaqədardır. Daha geniş mənada kommersiya dedikdə mənfəət alınmasına yönəldilən hər hansı fəaliyyət başa düşülür. Beləliklə, kommersiya – alıcı tələbinin ödənilməsi və mənfəət alınması məqsədilə əmtəənin alqı-satqısının aparılmasına yönəldilən proseslərin və əməliyyatların məcmusudur.

Sənaye müəssisələrində kommersiya fəaliyyəti maddi-texniki təminata və təchizata bölünür. Bazar iqtisadiyyatlı ölkələrdə sənaye firmalarının öz üzərinə götürdükləri təchizat- kommersiya əməliyyatlarının payı daim artır. Sənaye firmaları özlərində yaxşı rəqabət mübarizəsində böyük üstünlüyə malik olan təchizat aparatı saxlayır. Bir çox firmaların öz təchizat kanalları olur, firma maqazinləri təşkil edirlər.

Müəssisədə hazırlanan məhsulun təchizatı bazarın tədqiqini, bazarın seqmentləşdirilməsini və məqsədli bazarın seçilməsini, əmtəə və kommunikasiya siyasətinin işlənib hazırlanmasını nəzərdə tutan marketinq tədqiqatlarının aparılmasını tələb edir.

L.Kaşıyeva
"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.167

FONETİK HADİSƏLƏR
(ФОНЕТИЧЕСКИЕ ЯВЛЕНИЯ)

Azərbaycan dilində nitq zamanı səslərin işlənmə yeri və bir-biri ilə qonşuluğu sözün tərkibinin fonetik dəyişikliklərə uğramasına səbəb olur. Belə hallar bəzən yazıda da özünü göstərir. Odur ki, Azərbaycan dilində düzgün yazmaq, oxumaq və danışmaq üçün bu hadisələri nəzərə almaq lazımdır.

В Азербайджанском языке в связной речи звуки влияют друг на друга. При этом в них нередко происходят определенные изменения, которые отражаются на письме. Поэтому для верного писания, прочтения и произношения необходимо иметь представление об этих явлениях.

Bu hadisələr sözün mənasına təsir edə bilmədiklərinə görə fonetik hadisə hesab olunur. Azərbaycan dilində müxtəlif fonetik hadisələr vardır.

Однако эти явления не влияют на значение слова и поэтому считаются фонетическими явлениями. В азербайджанском языке имеется ряд фонетических явлений.

1. ASSİMİLYASİYA (SƏS UYUŞMASI) HADİSƏSİ (АССИМИЛЯЦИЯ)

Bir səsin başqa uyğun bir səsə keçməsinə assimilyasiya deyilir. Dilçilikdə irəli, geri, tam və natamam assimilyasiya növü vardır.

Употребление одного звука к другому называется ассимиляцией. В языкознании различаются следующие виды ассимиляции: прогрессивная, регрессивная, полная и неполная.

I. a) İrəli assimilyasiya (прогрессивная ассимиляция): adlar /addar/, danlamaq /dannamaq/, çəmənlər /çəmənnər/. tarlaçılıq /tarraçılıq/, gözlər /gözdər/.

b) Geri assimilyasiya (peегрессивная ассимиляция): alırlar /alıllar/, yazarlar /yazallar/, getsə /gessə/, dinməz /dimməz/, rusca /rucca/.

II. a) Tam assimilyasiya (полная ассимиляция): gülər-lər/güləllər/, səndən/sənnən/, məndən/mənnən/, qarlar/qarrar/, dinməz/dimməz/, yavaşca/yavacca/

b) Natamam assimilyasiya (неполная ассимиляция): gözlük /gözdük/, bıçaq /pıçaq/, zənbil /zəmbil/

2. DİSSİMİLYASİYA (SƏS FƏRQLƏNMƏSİ) HADİSƏSİ (ДИССИМИЛЯЦИЯ)

Sözün tərkibində məxrəc və akustik cəhətdən bir-birinə yaxın və ya eyni olan iki səsdən birinin digərindən uzaqlaşmasına dissimilyasiya deyilir.

Расподобления артикуляции одного из двух одинаковых звуков в пределах слова, утрата им общих фонетических признаков называется диссимиляцией.

Məsələn: səkkiz /səkgiz/, müşkül /müşgül/, əlbəttə /əlbətdə/, zərər /zərəl/, qaralmaq /qararmaq/

3. PROTEZA (SƏSARTIMI) HADİSƏSİ (ПРОТЕЗА)

Sözün əvvəlinə müxtəlif danışıq səsinin artırılmasına proteza deyilir. Məsələn: Azərbaycan dilində proteza hadisəsi /r/ samiti ilə başlanan sözlərə bəzi hallarda /i/ saitinin artırılması ilə baş verir. Azərbaycan dili-

nin qanunauyğunluqlarına görə iki samit arasına /i/, /u/, /e/ səslərindən biri artırılır.

Протезой называется появление добавочного звука в абсолютном начале слова. По нормам азербайджанского языка в начале слова не допускается употребление смежных согласных или гласных. В заимствованных словах со смежными согласными или гласными это явление устраняется добавлением соответственно протетического гласного или вставочного согласного. Гласный ставится и перед словами с начальными /p/. Между смежными согласными ставится один из звуков /i/, /u/, /e/

Məsələn: şkaf - işkaf, stəkan-istəkan, Rza - İrza, dövr -dövür, qrup - qurup, qram – qıram, sədr - sədır.

4. ELİZİYA (SƏSDÜŞÜMÜ) HADİSƏSİ (ЭЛИЗИЯ)

Tələffüzdə bir sıra sözlərin və ya onlara qoşulan şəkilçilərin tərkibindəki səslərdən bu və ya digəri düşür ki, buna da eliziya hadisəsi deyilir.

При произношении слов нередко имеет место выпадение одного из звуков данного слова. Это явление называется элизией.

Məsələn: Əliağa /Əlağa/, Əlisultan /Əlsultan/, haradan /hardan/, hökümdar /hökmdar/, burun /burnun/, sinif /sinfi/, fikir /fikri/, müəllim /məllim/.

Bu hadisə danışıq dilində çox yayılmışdır və bəzən yazıda da əks olunur.

Элизия распространена в разговорной речи, но иногда отражается и на письме.

5. METATEZA (SƏSLƏRİN YERDƏYİŞMƏSİ) HADİSƏSİ (МЕТАТЕЗА)

Sözün tərkibində səslərin yerlərini dəyişməsi hadisəsinə metateza (yerdəyişmə) deyilir. Перестановка звуков в пределах слова называется метатезой.

Məsələn: çılpaq/çıplaq, kirpik/kiprik, doğra/dorğa, tor-paq/topraq, qeyrət/qiryət, yanlış/yalnış, Fərhad/Fəhrad, gös-tər/görsət, layihə/lahiyə, məşhur/məhşur.

Göstərilən sözlərdən bəziləri ədəbi tələffüzdə səhv hesab olunmur, onlar ədəbi tələffüzdə və yazıda əsas variant kimi möhkəmlənmişdir.

В литературном произношении некоторые из этих слов считаются правильными: они закреплены как основной вариант и в орфоэпии, и на письме.

Məsələn: yarpaq, torpaq, süfrə.

ORFOQRAFİYA PRİNSİPLƏRİ (ПРИНЦИПЫ ОРФОГРАФИИ)

Yazıda nitqin düzgün əks olunmasını tənzim edən qaydalar sisteminə orfoqrafiya deyilir.

Орфографией называется общепринятая и единообразная система способов написания всех слов данного языка.

Orfoqrafiya danışıq səslərinin hərflə ifadəsi, sözlərin ayrı, bitişik və defislə yazılması, sətirdən-sətrə keçirmə, sözün ilk səsinin böyük, yaxud kiçik hərflə yazılması, kök və şəkilçilərin, ixtisarların, idarə və təşkilat adlarının yazılması kimi qaydaları əhatə edir.

Орфография устанавливает правила отражения на письме звуков речи, раздельное, совместное или слитное написание, определяет со строчной или заглавной буквы пишется слово, регулирует написание корней, суффиксов, сокращений и наименований организаций.

Azərbaycan dilinin orfoqrafiyası fonetik, morfoloji və tarixi-ənənəvi prinsiplərə əsaslanır.

Орфография азербайджанского языка основана на трех принципах: фонетическом, морфологическом и историко-традиционном.

1. Fonetik prinsip sözlərin deyiliş formasını əks etdirir, yəni Azərbaycan dilindəki sözlərin çoxu necə eşidilirsə, o şəkildə də yazılır.

Согласно фонетическому принципу, большинство слов азербайджанского языка пишется так как слышится, т.е. соответствие со звучанием.

Məsələn: ata, ana, beş, odun, ağ, qara, mən, sən, o, biz, siz, yaxşı, su, dağ.

2. Morfoloji prinsip müxtəlif şəkildə deyilən kök və şəkilçilərin vahid formada yazılmasını tənzim edir. Eyni söz kökünün və şəkilçinin müxtəlif şəkildə tələffüzünə baxmayaraq, morfoloji prinsipə görə onlar bir cür yazılır.

По морфологическому принципу орфографии упорядочивается единое написание вариантов различного произношения одного и того же корня или аффикса.

Məsələn:

Tələffüz olunur	**Yazılır**
qızdar	qızlar
bannar	banlar

kənt kənd
narrar narlar
əv, öy ev

3. Azərbaycan dilində ənənəvi prinsip, əsasən, alınma sözlərin yazılmasında özünü göstərir. Bu prinsipə görə sözlərin yazılışı sozün deyilişi ilə deyil, ənənə ilə müəyyən edilir.

В азербайджанском языке традиционный принцип обнаруживает себя в основном при написании заимствованных слов. Согласно этому принципу слова пишутся не так как произносятся, а на основе исторической традиции.

Məsələn:

Tələffüz olunur	**Yazılır**
kamandir	komandir
təcüb	təəccüb
Maskva	Moskva
zülüm	zülm
feyil	fel
çörəy	çörək

■**Tapşırıq.** *«Babək» mətnində sözlərin yazılısı ilə deyilisi arasındakı fərqi müəyyənləşdirin. Mətnin məzmununu danısın:*

Babək

Əsrlər boyu Azərbaycan torpağı xarici işğalçıların nəzərini cəlb etmiş və indi də cəlb etməkdədir. Bütün dövrlərdə Azərbaycan xalqının qəhrəman, mərd oğulları olmuşdur.

IX əsrin ortalarında ərəb qoşunlarına və digər yadelli işğalçılara qarşı çıxan mərd oğullara başçılıq edən yenilməz xalq qəhrəmanlarından biri də Babək idi. Babək təqribən 795-798-ci ildə yoxsul kəndli ailəsində anadan olmuş, kiçik yaşında çobanlıq etmişdir. Sonralar bir dövlətlinin karvanına sarbanlıq edə-edə eli-obanı gəzmişdir. Hər bir yerdə ədalətsizlik, zülm, istismar görmüş və qəlbində düşmənlərə nifrəti daha da artmışdı. Ömrü boyu Azərbaycan xalqının azadlığı və xoşbəxtliyi uğrunda vuruşmuşdur. Bu əməl və arzular uğrunda vuruşanlara xürrəmilər deyirdilər.

816-cı ildə xürrəmilərə Babək başçılıq edirdi. Bu zaman xürrəmilərin məskəni Araz çayından bir qədər cənubda, sıldırım qayalı yerdə olan Bəzz qalası idi. Ərəblər dəfələrlə Bəzz qalasına Babəkin üstünə qoşun göndərsələr də, hər dəfə Babəkin mübariz qoşunları qarşısında aciz qalır-

dılar. Xürrəmilər 20 ildən artıq ərəblərlə mübarizə apardılar. Bu mübarizə genişlənib kəndli müharibəsinə, kəndli üsyanına çevrildi.

838-ci ildə ərəblər Afşin adlı sərkərdəni Babəkin üstünə göndərdilər. Uzun sürən ağır müharibədən sonra Bəzz qalası alındı. Ailəsi və yaxınları ilə birlikdə mühasirədən çıxmış Babək milliyyətcə erməni olan bir nəfərin satqınlığı nəticəsində ərəblərin əlinə keçdi. 838-ci ildə Babək İraqın Samirə şəhərində işgəncə ilə edam edildi. Babəkin əvvəlcə qollarını, sonra isə qıçlarını kəsdilər. Başını isə üsyançıları qorxutmaq üçün Xorasana göndərdilər.

Edam zamanı Babəkin sağ qolu kəsiləndə o, öz qanı ilə üzünü boyayır. Ərəblərin başçısı Lətifə ondan nə üçün belə etdiyini soruşduqda, Babək deyir: «Qan itirdiyimə görə rəngim saralacaq. Üzümü boyadım ki, saraldığımı görüb məni qorxaq adlandırmayasınız».

SÜLEYMAN RÜSTƏM
(1906-1989)

Xalq şairi Süleyman Rüstəm XX əsr Azərbaycan poeziyasının yaradıcılarından biridir. O, poeziyada milli və klassik ənənələrin davamçısı olmuş və bu ənənələri öz yenilik axtarışları ilə zənginləşdirmişdir. Elə bu səbəbdən də, Süleyman Rüstəmin yaradıcılığı milli poeziyamızda yenilikçiliyin formalaşması və inkişafı ilə sıx bağlıdır.

Süleyman Əlabbas oğlu Rüstəmzadə Bakının Novxanı kəndində fəhlə ailəsində dünyaya gəlmişdir. Onun qayğısız uşaqlıq illəri Xəzərin sahilində keçmişdir. Babasının danışdığı sehrli nağıllar, xoş söhbətlər, oxuduğu qüssəli mahnılar onun qəlbində qəribə hisslər oyadardı.Valideynləri savadsız olsalar da, övladlarının təhsil almasını istəyirdilər. Bu məqsədlə də onu Bakıda görkəmli yazıçı Süleyman Sani Axundovun müdir olduğu və hamının «Süleyman Sani» məktəbi kimi tanıdığı rus-tatar məktəbinə qoyurlar. İlk təhsilini bu məktəbdə alan Süleyman sonra sənaye texnikumuna daxil olur, lakin 1924-cü ildə öz arzusu ilə buradan pedaqoji təmayüllü məktəbin son kursuna keçirilir. 1925-ci ildə o, ali təhsil almaq məqsədilə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olur. Burada görkəmli ədib Ə.Haqverdiyevin və başqa müəllimlərin mühazirələrini dinləyən Süleyman 1929-cu ildən təhsilini Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakültəsində davam etdirir.

S.Rüstəmin «Unudulmuş gənc» adlı ilk şeiri 1923-cü ildə «Maarif və mədəniyyət» jurnalında dərc olunmuşdur. Bundan sonra müntəzəm olaraq mətbuatda şeirləri çıxan gənc şair 1927-ci ildə «Ələmdən nəşəyə» adlı ilk kitabını nəşr etdirir. Bu kitab onun bir neçə illik ədəbi fəaliyyətinin məhsulu idi. Kitaba daxil olan şeirlərində o, zamanın, dövrün tələbi ilə inqilabdan sonra yeni həyat quran adamların işini, mübarizəsini tərənnüm edirdi. Sonra-

kı illərdə S.Rüstəmin «Addımlar», «Atəş», «Səs», «Şairin səsi», «Ulduzlar», «Gecənin romantikası» və başqa kitabları nəşr edildi.

Böyük Vətən müharibəsi illərini şairin yaradıcılığında xüsusi bir mərhələ hesab etmək olar. Bu dövrdə onun «Ana ürəyi», «Durnalar», «Ana və poçtalyon», «Gün o gün olsun ki» kitabları çap olunmuşdur. S.Rüstəmin müharibə mövzusunda yazdığı şeirlərdə vətənə sonsuz məhəbbət, sədaqət, qələbəyə inam, beynəlmiləlçilik və qəhrəmanlıq motivləri çox güclüdür. Şeirlərinin birində o, öz duyğularını belə ifadə edir:

Mən istərəm sağ çıxmayım bahara
Təki anam düşmənə baş əyməsin.
Bu müqəddəs, son davada hər yara
Mənə dəysin, vətənimə dəyməsin.

Müharibənin ilk illərində S.Rüstəmin Sovet ordusu sıralarında İranda, Cənubi Azərbaycanda xidmət etməsi ona Arazın o tayında yaşayan azərbaycanlı bacı və qardaşlarının həyatını, məişətini ətraflı öyrənməyə, onların istək və arzularını, həsrətini dərk etməyə kömək etmişdir. Cənub mövzusu S.Rüstəmin poeziyasında 60 ilə yaxın bir müddətdə əsas, aparıcı mövzulardan biri olmuşdur. «Cənub şeirləri» şairin vətənə, xalqa, ana dilinə olan məhəbbət çələngi idi. Onun bu silsilədən olan «Təbrizim», «Vətən yandı», «Amandır, getmə», «Dilimə dəymə» və onlarla başqa şeirləri, M.H.Şəhriyara ünvanlanan mənzum məktubları, «On ikinci tüfəng», «Memarın faciəsi», «Şairin ölümü» poemaları bu cəhətdən çox səciyyəvi və əhəmiyyətlidir.

S.Rüstəm görkəmli bir dramaturq kimi də tanınır. O, hələ 1922-ci ildə «Çimnaz xanım yuxudadır» adlı birpərdəli komediya yazmış, əsər Tənqidtəbliğ teatrında tamaşaya qoyulmuşdu. Sonrakı illərdə onun «Durna», «Burda mənəm, Bağdadda kor xəlifə» komediyaları yarandı. Lakin S.Rüstəmi bir dramaturq kimi şöhrətləndirən onun 1940-cı ildə qələmə aldığı «Qaçaq Nəbi» mənzum dramıdır.

Vətənpərvər şair, görkəmli dramaturq S.Rüsrəm bacarıqlı bir ictamai xadim kimi də uzun illər vətəninə və xalqına xidmət etmişdir.

■**Tapşırıq.** *Orfoqrafik normalara əməl edərək, şeri ucadan oxuyun.*

Süleyman Rüstəm

Təbrizim

Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə,
İkiyə bölünməz saf bir ürəklə…
Təbrizim, Təbrizim, aman, Təbrizim!
Yox olsun başından duman, Təbrizim!

Atımı yol boyu çapıb sürərək,
Hər keçən yolçuya salam verirəm,
Nələr eşidirəm, nələr görürəm!
Nədir bu qaranlıq gecə, Təbrizim,
Buna necə dözüm, necə, Təbrizim!

Ağlasan, ağlaram, gülsən, gülərəm,
Yaşasan, yaşaram, ölsən, ölərəm,
Varımı səninlə yarı bölərəm,
Gəl, bir də üzündən öpüm, Təbrizim,
Başına gül, çiçək səpim, Təbrizim!

Nədir o mənalı, dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Məlul-məlul baxıb durma, Təbrizim!

Sənin çiçəyinə, gülünə qurban!
Mənə qardaş deyən dilinə qurban!
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

ORFOEPİYA
(ОРФОЭПИЯ)

Dilçilikdə ədəbi tələffüz normalarını öyrənən bölmə orfoepiya adlanır.

Раздел языкознания, изучающий нормы литературного произношения, называется орфоэпией.

Azərbaycan dilinin orfoepiya qaydalarına görə iki və çoxhecalı sözlərin sonunda cingiltili samit karlaşır.

По правилам орфоэпии азербайджанского языка, на конце двухсложных и многосложных слов звонкие согласные оглушаются.

Məsələn: corab /corap/, polad /polat/, ağac /ağaç/, kitab /kitap/, gəlib /gəlif/, pələng /pələnk/.

Orfoepiya qaydalarına görə, yanaşı işlənən iki kar samitdən biri (ikincisi) cingiltili samit kimi tələffüz olunur.

Согласно правилам орфоэпии, один (второй) из двух смежных глухих согласных озвончается.

Məsələn: səkkiz /səkgiz/, mürəkkəb /mürəkgəb/, içdi /işdi/, məktəb /məytəb/, əcdad /əjdad/.

İxtisarların deyilişi, sözlərdə vurğunun yeri, alınma sözlərin düzgün tələffüz məsələsi də orfoepiyada öz əksini tapır.

Произношение аббревиатур, место ударения в слове и правильное произношение заимствованных слов также относится к вопросам орфоэпии.

Orfoepiya dildə, əsasən düzgün və zərif tələffüzə xidmət etdiyi üçün bir sıra sözlərin deyiliş qaydası sonralar həmin sözlərin yazılış qaydasına çevrilə bilir.

Согласно нормам орфоэпии произношение некоторых слов зачастую становится и нормой их орфографии.

■**Tapşırıq**. *Orfoepik normalara əməl edərək, mətni ucadan oxuyun.*

Qətran Təbrizi
(1012-1088)

XI əsr saray ədəbiyyatının ilk görkəmli nümayəndəsi Qətran Təbrizidir. O, Təbriz yaxınlığında doğulmuş, gənc yaşlarında Gəncəyə gələrək, bir müddət burada Şəddadilər sarayında yaşamışdır. Şair sonradan Təbrizə qayıdaraq, ömrünün çoxunu Rəvvadilər sarayında keçirmişdir.

O, Şərq şerinin müxtəlif janrlarında əsərlər yazmışdır. Farsca yazsa da,onun şeirlərində Azərbaycan düşüncə tərzi, azərbaycanlı ruhu hiss olunur. Şair əsərlərində Azərbaycan dili sözlərindən də istifadə etmişdir.

Qətran Təbrizi öz dövrünün dünya elm və mədəniyyət xəzinəsinə yaxından bələd olmuşdur. Ona görə də onun əsərləri yüksək bədii keyfiyyətləri ilə də, tarixi elmi mahiyyəti ilə də qiymətli sənət nümunələri hesab olunur.

Onun farsca lirik şeirlər toplusu - «Divan»ı və «Əttəfasir» («İzahlar») adlı farsca izahlı lüğəti vardır. Qətran Təbrizinin şeirlərinin çoxu mədhiyyələrdir. Şairin lirik şeirlərində məhəbbət və təbiət təsvirləri də geniş yer tutur. Lirik şeirləri qəsidə, qəzəl və rübai janrlarındadır.

Q.Təbrizi 1088-ci ildə Təbrizdə vəfat etmiş, orada da dəfn olunmuşdur.

■**Tapşırıq.** *Mətni tərcümə edib yazın, səslərin tələffuzü və yazılmasını öyrəndiyiniz qaydalar əsasında izah edin.*

Но вот, проводив глазами сынишку, он глухо покашлял, снова заговорил, и я весь превратился в слух.

По началу жизнь моя была обыкновенная. Сам я уроженец Воронежской губернии, с тысяча девятисотого года рождения. В гражданскую

войну был в Красной Армии, в дивизии Киквидзе. В голодный двадцать второй год подался на Кубань, ишачить на кулаков, потому и уцелел. А отец с матерью и сестренкой дома померли от голода. Остался один. Родни – хоть шаром покати, - нигде, никого, ни одной души. Ну, через год вернулся с Кубани, хатенку продал, поехал в Воронеж. Поначалу работал в плотницкой артели, потом пошел на завод, выучился на слесаря. Вскорости женился. Жена воспитывалась в детском доме. Сиротка. Хорошая мне попалась девка! Смирная, веселая. Модливая и умница, не мне чета. Она с детства узнала, почем фунт лиха стоит, может, это и сказалось на ее характере. Со стороны глядеть – не так уж она была из себя видная, но ведь я-то не со стороны на нее глядел, а в упор. И не было для меня красивей и желанней ее, не было на свете и не будет!

■**Tapşırıq.** *Tərkibində /k/ hərfi olan 25 söz yazın. Onlardan onu* ***kosmonavt*** *sözündəki, on beşi isə* ***kənd*** *sözündəki /k/ səsi kimi oxunsun.*

■**Tapşırıq.** *«Elm insanı ucaldır» mövzusunda kiçik bir inşa yazın, yazarkən orfoqrafiya qaydalarına, oxuyarkən orfoepiya qaydalarına necə əməl eidiyinizə diqqət edin.*

LEKSİKA
(ЛЕКСИКА)

Leksika dilin lüğət tərkibini, müasir vəziyyətini, tarixi inkişaf prosesini - tarixən dəyişməsini, zənginləşməsi yollarını, eləcə də sözlərin mənbəyini və işlənmə sahəsini öyrənir. Leksikada ilk növbədə sözlərin mənası, mənşəyi, işlədilmə sahəsi, ədəbi normaları müəyyənləşdirilir.

Лексика изучает словарный состав языка, его современное состояние, процесс его исторического развития – историческое изменение, пути обогащения, а также происхождение и область употребления слов. В лексикологии в первую очередь определяется значение слов, их происхождение, сферы и нормы употребления.

SÖZLƏRİN FORMA VƏ MƏNA QRUPLARI
(ГРУППЫ СЛОВ ПО ФОРМЕ И ЗНАЧЕНИЮ)

Çoxmənalı sözlər
(Многозначные слова)

Çoxmənalılıq eyni fonetik cildə malik sözün bir neçə məna bildirməsidir. Çoxmənalılıq bu və ya digər əşyanın, hadisənin, keyfiyyətin, hərəkətin adının başqa bir əşyaya, hadisəyə, keyfiyyətə, hərəkətə keçməsidir. Deməli, söz əsas mənasından başqa, bir neçə əlavə mənaya malik ola bilər.

Многозначностью называется способность слова выражать несколько значений, не меняя своего фонетического облика. Многозначность – это переход наименования предмета, явления, качества, действия на другой предмет, явление, качество, действие. Следовательно, слово кроме основного значения может иметь еще несколько других значений.

Məsələn:
Qanad: quşun qanadı **(**крыло птицы)
təyyarənin qanadı (крыло самолета)
sağ, sol qanad (правое, левое крыло)

Çəkmək: ipi çəkmək (тянуть веревку)
yol çəkmək (строить дорогу)
su çəkmək (провести воду)
qol çəkmək (подписать)
dərd çəkmək (горевать)

papiros çəkmək (курить)
kef çəkmək (кутить)
baş çəkmək (проведать)
dağ çəkmək (причинить неизгладимое горе)
şəkil çəkmək (рисовать)
kanal çəkmək (провести канал)
şirə çəkmək (выжимать сок)
ət çəkmək (провести мясо через мясорубку)
divar çəkmək (строить стену)
tüfəng çəkmək (направить винтовку на кого-либо)

Çoxmənalı sözlərin məna əlaqələri qırılmır; onlar eyni bir nitq hissəsinə aid olur.

Все значения многозначного слова сохраняют связь с основным значением и относятся к одной и той же части речи.

Məsələn: baş (isim) - dağın uca yeri, baş (isim)-kəllə,
baş (isim) - bulağın üstü
aydın (sifət) açıq- aydın (sifət) - anlaşıqlı
keçmək
(fel) - sönmək, keçmək (fel) bağışlamaq

Sözün ilk mənası onun müstəqim mənası, digər mənaları isə onun məcazi mənalarıdır. Odur ki, əvvəlcə onun əsas mənasını öyrənmək lazımdır.

Первоначальное значение слова – это его прямое значение. Другие значения того же слова называются переносными. Поэтому в первую очередь необходимо знать прямое значение слова.

Çoxmənalı sözün bu və ya digər mənası mətndə konkretləşir.

Выбор одного их значений многозначного слова определяется контекстом.

■**Tapşırıq.** «İnsanın üzü, dəftərin üzü, parçanın üzü, taleyin acı üzü, payızın boz üzü» *birləsmələrini cümlə içərisində işlədin və çoxmənalı sözlərin mənalarını aydınlaşdırın.*

■**Tapşırıq.** *Çoxmənalı sözlərin mənalarını tapıb, cümlədə işlədin, cümlələri rus dilinə tərcümə edin:*

sabah, sağ, say, sarımaq, tayfa, tarix, taxta, tel, təpə, ton, top, usta.

■**Tapşırıq.** *Məlumatı öyrənin.*

Məhsəti Gəncəvi
(1089-?)

Məhsəti Gəncəvi qədim Azərbaycan şəhəri Gəncədə anadan olmuşdur. O, dahi şair Nizamının müasiri idi. Məhsəti xanım mükəmməl təhsil almış, ədəbiyyat, hüquq, məntiq elmlərinə, incəsənətə yiyələnmişdir. Gənc yaşlarında o, musiqiçi, şairə, şahmatçı kimi tanınırdı.

Şairə məlahətli səsə və kaman çalmaq qabiliyyətinə malik idi. O, məşhur fars-tacik şairi Ömər Xəyyamın (1048-1131) təsiri ilə yazdığı rübailərində öz şəxsi həyatından şikayətlənmiş, özbaşınalığa və zorakılığa qarşı etiraz səsini ucaltmışdır.

Gözəl musiqiçi və şairə kimi tanınan Məhsəti rübai ustası kimi daha çox şöhrət qazanmışdır. Şairənin hər bir rübaisi oxucunu fikir dəryasında üzdürür:

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömür,
Əcəl köhlənində hazırdır yəhər.

Şərqdə rübai deyilərkən ilk sıralarda Məhsətinin adı durur. Rübai həcmcə ən kiçik poetik şəkillərdəndir, lakin bədii tutumu çox genişdir:

Qızıl dedi: «Mənəm hər kəsə gərək,
Duz kimi möhtacdır mənə hər xörək.
Məni ölü kimi basdırmayın siz,
Həyat üçün mənəm ən yaxın kömək».

Məhsətinin rübailərində Bəlx, Mərv, Nişapur, Herat şəhərlərinin adı çox çəkilir:

Srağagün lalə Nişapurda atəş saçdı,
Dünən nilufər Mərvin suyundan baş çıxardı.
Bu gün Heratın küləyi qızıl gül bəsləyən oldu,
Sabah bütün Bəlx torpağı nərgizə bürünəcək.

Məhsətının ömrünün müəyyən günləri, ayları bu şəhərlərlə bağlı olmuş, o, bir müddət Mərvdə (İranda) yaşayıb-yaratmışdır. O, məşhur şairə kimi yeri düşəndə saraya şeir məclislərinə dəvət olunurmuş. Buna görə də Məhsəti Sultan Səncər (1118-1157) sarayına gedib çıxmış və bir müddət də orada qonaq olmuşdur.

Hal-hazırda Britaniya kitabxanasında saxlanan «Məhsəti və Əmir Əhməd» əlyazmasına çəkilən miniatürlərdən birində şairə Xətib oğlu ilə birgə şahmat taxtası arxasında təsvir edilmişdir.

Məhsəti ilk böyük qadın şairəmiz olmaqdan başqa, həm də tanıdığımız ilk qadın şahmatçımızdır:

Xoşbəxdir üzünə rüh qonsa hər kəs,
Rühun eyləyəni şah edə bilməz.
Mən oyuna baxım, yoxsa rühünə,
Bu halda neyləyim, mat qalmayım bəs?

Bir sıra rübailəri göstərir ki, o, şahmat oyununa yaxşı bələd imiş.

«Məhsəti və Əmir Əhməd» əlyazmasından anlaşılır ki, Məhsəti Sultan Məhəmmədin sarayında təşkil olunan ziyafətlərə, şeir məclislərinə dəvət edilir. Şairə təxminən 25-26 yaşlarında Əmir Əhmədlə tanış olur. Əmir Əhməd atası Gəncə xətibinin iradəsinin əksinə, Məhsəti ilə dostluq edir və onun yaşadığı Xarabət məhəlləsinə tez-tez qonaq gəlir. Məhsətinin bir şairə kimi şöhrətlənməsi, Xorasanda da tanınması məhz Sultan Mahmudun (1118-1131) hakimiyyətinin ilk illərinə düşür.

Din xadimləri Məhsətini dinsiz və pozğun bir qadın kimi qələmə verib, camaatın gözündən salmağa çalışırdılar. Bir gün Məhşəti Gəncəvini şərabı, musiqini tərif edən şeirlər yazmaq üstündə təqsirləndirib Gəncədən sürgün edirlər. Onu gecə ikən bir dəvə karvanına qoşub Zəncana, oradan da Hicaza aparırlar. Qürbət eldə tənha həyat sürən şairə bir neçə ildən sonra ziyalıların - başda Nizami Gəncəvinin köməyi ilə Vətənə qayıdır.

Məhsəti Gəncəvi doğma şəhəri Gəncədə vəfat etmiş və Nizami Gəncəvinin məqbərəsi yaxınlığında dəfn olunmusdur.

■**Tapşırıq 50.** *Aşağıdakı rübailəri əzbərləyin.*

Rübailər

Qəmlə dost elədi cəmalın məni,
Qızıltək saraltdı xəyalın məni.
Sənինlə içərəm şərabı ancaq,
Əbədi məst edər vüsalın məni.

Bu vüsal gecəsi, amandır, yatma!
Murada yetməyə zamandır, yatma!
Xumar gözlərini qapama, ey yar!
Bu, ələ düşməyən bir andır, yatma!

Könlümə yar oldu bir gecə dilbər,
Yalqız gecələrdən şikayət eylər.

Ey gecə, kədərim olsa da, getmə,
Səadət də olsan, gəlmə ey səhər!

Mən, ey Xətiboğlu, sənə cananam,
Bil, ölüncə sənə sadiq insanam.
Ölməyə hazırdır yolunda çoxu,
Mənsə istəyirəm eşqinlə yanam.

OMONİMLƏR
(ОМОНИМЫ)

Omonimlər eyni fonetik tərkibə malik olub müxtəlif məna bildirən sözlərdir. Ancaq bu mənalar arasında heç bir əlaqə olmur. Azərbaycan dilində omonim sözlərin mənası müxtəlif nitq hissəsinə aid ola bilər.

Омонимами называются слова, одиноковые по звучанию и написанию, но разные по значению. Значение омонимов не связаны друг с другом. В азербайджанском языке значения омонимов могут принадлежать различным частям речи.

Məsələn: biz (isim) - deşmək üçün metaldan qayrılan ucu şiş alət; biz (əvəzlik) - birinci şəxs əvəzliyinin cəmi; dolu (isim) havadan tökülən yağmur danələri; dolu (sifət) - ağzına qədər bir şeylə dolmuş və s.

Azərbaycan dilində omonimlər çoxdur. Onların hansı mənada işləndiyini ancaq mətndən bilmək olur.

В азербайджанском языке омонимов много. Смысловое значение омонима определяется контекстом.

Məsələn:

Aşıq Şəmşir, Dəli dağdan keçəndə
Kəklikli dağlardan xəbər al məni!

S.Vurğun

Omonimlərin bədii nitqdə böyük əhəmiyyəti vardır.
Великое значение омонимов в художественной речи.
Omonimlər sözlərin yazılışını, səslənməsini və vurğusunu dəyişmir.
Омонимы не меняют написания, звучания и ударения слов.

■**Tapşırıq.** *Omonimləri seçib yazın və məna fərqlərini aydınlaşdırın.*

Bir taxta üstündə bir şeir yazsam,
Sanaram yetirmiş bu taxta barı.
Nizami hakimdi sənət taxtında,
Kaş mən də çıxaydım bu taxta barı.
Qocalmazdım olsam eldə baş əyər,

Anlar sözüm arif olsa baş əyər.
Qulluq etsən meyvələnər, baş əyər,
Əsirgəməz səndən bu tağ da barı.

Əcaib, ərisən polad tək əri,
Dərd əyər, qəm əyər polad tək əri.
Dağ sökər tankların polad təkəri,
Dözərmi zərbinə bu taxta barı?
Əcaib

■**Tapşırıq**. *Aşağıdakı omonim sözlərin mənalarını izah edin:*

dağ, dil, aşıq, üz, yaz, çay, qaz.

■**Tapşırıq**. *Eyni və müxtəlif nitq hissələrinə aid omonimləri cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin:*

dövlət, əsər, yaz, yay, yar, koma, kürək, kütlə, göy, gün, ləpə, maya, mil, ocaq, sap, seçmə, sirkə, soy, tam, tay, təsnif.

■**Tapşırıq.** *Məlumatı öyrənin, sairin rübaisini əzbərləyin.*

Əfzələddin Xaqani Şirvani
(1126-1199)

XII yüzillik tam əsasla Azərbaycan poeziyasının «qızıl dövrü» adlandırılır. Bu yüzillikdə dünya ədəbiyyatına Xaqani yə Nizami kimi iki misilsiz poeziya ulduzu gəlmişdir.

Xaqani 1126-cı ildə Şamaxı yaxınlığındakı Məlhəm kəndində doğulmuşdur. 8 yaşında ikən atasını itirən Xaqani dövrünün məşhur alimi və həkimi olan əmisi Kafiəddin Ömər ibn Osmanın himayə və tərbiyəsində böyümüş, ondan elmin bir çox sahəsinə dair bilik almışdır. Hələ gənc yaşlarında yazdığı şeirlər ona şöhrət qazandırmışdır. Gənc yaşlarından şeir yazan Xaqani öz istedadı ilə tezliklə tanınmış və Şirvanşahlar sarayına dəvət olunmuşdur. Bu sadə gəncin saraya yol tapıb məşhurlaşması ilə bağlı el arasında bir sıra rəvayətlər yaranmışdır.

Həmin rəvayətlərdən birində deyilir ki, kiçik İbrahim yol kənarında çırpı yığırmış. Onunla qarşılaşan Şirvan hökmdarı Məniçöhr soruşur:

- Neyləyirsən?

Uşaq cəsarətlə cavab verir:

- Şahım, çör-çöp yığıram.

Məniçöhr gülərək soruşur:

- Çöp çöpdür, bəs çör nədir?

Uşaq özünü itirmədən deyir:

- Çöp düz duranı, çör isə yıxılanıdır.

Uşağın cəsarəti və ağıllı cavabı Məniçöhrün xoşuna gəlir. Ona bir qızıl verir. Uşaq isə qızılı qaytarır. Şah soruşur:

- Niyə götürmürsən?

Uşaq deyir:

- Evdə inanmazlar, deyərlər ki, oğurlamısan.

Şah:

- Götür, deyərsən ki, padşah verdi.

Uşaq:

- İnanmazlar. Deyərlər ki, padşah versəydi çox verərdi, bir qızıl verməzdi.

Xalq öz sevimli sənətkarının ağıl və fərasətini göstərmək üçün belə rəvayətlər yaratmışdır.

Xaqani onun yüksək istedadını qiymətləndirən Şirvanşahların məlik şüarası Əbül-Üla Gəncəvinin dəvəti ilə saraya gəlmiş, onun qızı ilə evlənmişdir. Şair Əbül-Ülanın ona verdiyi «Xaqani» təxəllüsü ilə şeirlər yazmışdır. Lakin saray onun əzab və üsyankar ruhunu buxovladı, sənətkarı istədiyi kimi yaşamağa, yazıb-yaratmağa qoymadı.

Tədricən şairdə riyakar saray həyatına qarşı narazılıq yaranır və o, rübailərinin birində yazır:

İstəmirəm adımı çağıralar Xaqani
Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani!

Xaqaninin əsərləri tezliklə Yaxın və Orta Şərq ölkələrinə yayılır. O, klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Onun rübailərinin sayı 300-ü ötüb keçmişdir.

Xaqani öz şeirlərində yazırdı ki, insan öz qəlbinin ayna kimi təmiz olmasını istəyirsə, on şeyi qəlbindən çıxarmalıdır: tamah, xəyanət, paxıllıq, haram, qiybət, ədavət, həsəd, təkəbbür, riya və kin. O yazırdı:

İstəsən ki, olsun şərəfin yüksək,
Daima təvazökar olasan gərək.

Dövlət nə qüdrətin, nə hünərindir,
Mənsəb də, dövlət də nakəslərindir.

Kimdə dövlət varsa, hümməti yoxdur,
Kimdə hümmət varsa, dövləti yoxdur.

Xaqani 1156-cı ildə Məkkəyə ziyarət bəhanəsilə Şirvanı tərk etməyə məcbur olur. Bu səfərin nəticəsində şair «Töhfətül -İraqeyn» kimi Şərq poeziyasında özünəməxsus yer tutan bir fəlsəfi poema yaratdı. Bu əsərdə Xaqani səfər macəraları ilə yanaşı rast gəldiyi alimlərlə görüşlərindən aldığı təəssüratdan bəhs edir, öz əsil-nəsəbi və ailəsi haqqında ətraflı məlumat verir.

Xaqani Şamaxıya qayıtdıqdan sonra saraydan birdəfəlik uzaqlaşmaq istəyir və buna görə də, Şirvanşah I Axsitanın əmri ilə 1170-ci ildə gizlincə Şabran qalasına salınır. 7 ay həbsxanada qalan şair özünün üsyankar ruhlu «Həbsiyyə» şeirlər silsiləsini yazır. 1173-cü ildə Xaqani, nəhayət, özünün də yazdığı kimi, «Şirvan bəndi»ndən xilas ola bilir və ailəsi ilə birlikdə «ikinci ana» adlandırdığı Təbrizə köçür.

Xaqaninin lirik əsərləri, saf eşqi, məhəbbəti, vəfa və sədaqəti tərənnüm edən qəzəlləri diqqətəlayiqdir. O, bir sıra şeirində mühitindən, zülmkar hökmdarlardan gileylənmiş, arif adamların, alimlərin zəlalətdə olduğunu cəsarətlə söyləmişdir.

Şair 1199-cu ildə Təbrizdə vəfat etmiş və Sürxabda «Şairlər qəbiristanlığı»nda dəfn edilmişdir. Nizami öz böyük sənət dostunun ölümü münasibətilə mərsiyə yazmışdır. Həmin mərsiyədə deyilirdi:

«Hey deyirdim ki, Xaqani mənim mərsiyəçim olsun, təəssüf ki, indi mən Xaqaninin mərsiyəçisi olmuşam».

Azərbaycanın dahi şairi Mücirəddin Beyləqani də hələ həmin dövrdə Xaqaninin əsl yüksək qiymətini vermişdir.

Yaxın və Orta Şərqin görkəmli söz ustalarından Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əbdülqasim Şirazi, Əmiri və başqaları Xaqanini özlərinin ustadı adlandırmış, əsərlərinə nəzirələr yazmışdılar.

■**Tapşırıq.** *Ə.Xaqaninin «Vətən həsrəti» şerini əzbərləyin.*

Vətən həsrəti

İraqa, İrana eyləsəm səfər,
Başıma yağış tək yağar simu-zər.
Şahlar qarşımda diz çökər mənim,
Başıma tabaqla zər tökər mənim.

Lakin üzüm gülməz, gözlərim ağlar...
Qəlbimdə dağ qədər ağır intizar.
Vətən həsrətilə töküb göz yaşı,
«Ah vətən» deyərəm hər qədəmbaşı.

Şamaxı, ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.
İndisə ümidim Təbrizdir, Təbriz,
Bu şəhər də mənə doğmadır, əziz.
Anasından küsən körpə bir uşaq
Atası qoynunda uyuyar ancaq.

■**Tapşırıq.** *Qəzəli ifadəli oxuyun.*

Xaqani Şirvani

Qəzəl

Canım nə qədər var, mənə canan sən olarsan,
Candan da əziz olsa bir insan, sən olarsan.

Sən indiyədək qəlbim üçün qəlb idin, ey yar,
Bundan sonra da canım üçün can sən olarsan.

Hər yarəm olsa, onun məlhəmi sənsən,
Hər dərdim olarsa, ona dərman sən olarsan.

Könlün necə istərsə, elə ver mənə fərman,
Ömrün nə qədər var, mənə soltan sən olarsan.

Eylərəm əgər şərhini iman ilə küfrün,
Baş hərflə sərlövhəyi - divan sən olarsan.

Bundan belə aldatma məni küfrlə, dinlə!
Xaqaniyə həm küfr, həm iman sən olarsan.

Xaqani nədir? Gəlsəm əgər, ey gözü şəhla!
Əlbəttə ki, Xaqaniyə xaqan sən olarsan.

SİNONİMLƏR
(СИНОНИМЫ)

Yaxın, oxşar məna ifadə edən müxtəlif fonetik tərkibli sözlərə sinonimlər deyilir.

Синонимами называются слова, различные по звучанию, но близкие или одинаковые по значению.

Məsələn: dünya - aləm - cahan - kainat - yer kürəsi; uçmaq – dağılmaq - yıxılmaq – aşmaq; igid – cəsur – qorxmaz; əyləmək - saxlamaq – dayandırmaq.

Sinonim sözlər yalnız eyni nitq hissəsinə aid olur. Eyni nitq hissəsinə aid mənaca yaxın söz qrupu sinonim cərgə adlanır. Hər bir sinonim cərgənin dominantı olur. Dominant sinonim cərgənin mənasını aydınlaşdıran daha tipik sözə deyilir.

Синонимы являются слова одной части речи. Близкая по значению и принадлежащая одной части речи группа слов называется синонимическим рядом. В каждом синонимическом ряду имеется доминанта. Доминантной называется наиболее типическое слово, поясняющее значение синонимического ряда.

Məsələn: qamarlamaq - tutmaq – yaxalamaq; qınamaq -danlamaq sinonim sözlərində qamarlamaq və qınamaq felləri dominantdır.

■**Tapşırıq.** *Verilmiş sözlərin sinonimlərini tapıb, qarşısında qeyd edin:*

bahar, gözəl, bilikli, igid, kiçik, xeyli, dayanmaq, qaçmaq, demək.

■**Tapşırıq.** *Asağıdakı sinonimləri rus dilinə tərcümə edin və cümlə içərisində işlədin:*

eynək - çeşmək – gözlük; gözəl - qəşəng - göyçək; ürək - könül - qəlb; enli – geniş; çox – xeyli; xəstə - azarlı - naxoş – nasaz- kefsiz, qovun - yemiş.

■**Tapşırıq**. *Mətni oxuyun və məzmununu danışın.*

Nizami Gəncəvi

Azərbaycan xalqının XII əsrdə yetişdirdiyi ən böyük simalardan biri Nizami Gəncəvi olmuşdur. O, 1141-ci ildə Gəncədə doğulmuşdur. Şairin adı İlyas, atasının adı Yusifdir. Nizami onun təxəllüsüdür. Bu sözün mənası «sözləri nizama salan, nəzmə çəkən», bir sözlə, «şair» deməkdir.

Nizami Gəncə şəhərində anadan olduğu üçün Gəncəvi (Gəncəli) adını qəbul etmişdir. Q, ilk təlim-tərbiyəsini Gəncə mədrəsələrində almış-

dır. Azərbaycan dilindən başqa, fars, ərəb dillərini mükəmməl bilmiş, yunan və latın dillərinə bələd olmuşdur.

Sair bütün ömrünü Gəncədə keçirmiş və zəmanəsinin ən bilikli, məşhur şəxsiyyətlərindən olmuşdur.

Nizami öz vətəni Azərbaycanı sevmiş, onun gözəlliklərini və insanlarını yüksək zövqlə tərənnüm etmiş, Azərbaycan dilinə ana dili kimi məhəbbət bəsləmişdi. Nizaminin fikir və sənət dünyasının elmi təhlili göstərir ki, öz doğma torpağına bu qədər bağlı olan böyük mütəfəkkir öz ana dilində - Azərbaycan dilində yazmaya bilməzdi. Lakin hələlik onun Azərbaycan dilindəki əsərləri elm aləminə məlum deyil. Əldə olan əsərləri fars dilindədir. Nizamişünaslıq bu əsərlərə söykənir.

Nizaminin yazdığı qəzəllər, qəsidələr, rübailər dillər əzbəridir. Onların bir çoxuna musiqi bəstələnmişdir.

Nizami dünya, xüsusən Şərq ədəbiyyatına güclü təsir göstərmişdir. Nizami mövzuları, Nizami ədəbi ənənələri ədəbiyyata yeni istiqamət vermişdir. Onlarla şair «Xəmsə» yazmış və ya «Xəmsə» yaratmağa çalışmışlar. Xüsusən «Leyli və Məcnun» mövzusunda yüzlərlə fərqli əsərlər yazılmışdır. Lakin heç bir «Xəmsə» Nizami «Xəmsə»si bərabərinə çatmamışdır, heç bir «Leyli və Məcnun» Nizaminin «Leyli və Məcnun» poeması səviyyəsində olmamışdır. Yalnız XVI əsr şairi M.Füzuli bu mövzuda ikinci dahiyanə əsər yaratmışdır, həm də Azərbaycan dilində.

Nizami yaradıcılığı bəşəri təfəkkürün zirvəsi və ya zirvələrindən biri kimi, dünya elminin daima müraciət etdiyi sənət aləmidir. Onun haqqında minlərlə əsərlər yazılmış və yazılmaqdadır. Əsərləri dünya dillərinin bir çoxuna tərcümə olunmuş və tərcümə olunmaqdadır.

Dahi şairimiz öz dövrünün bütün elmlərini dərindən bilirdi. O, otuz yaşında artıq məşhur şair idi. Yaradıcılığına qəzəl, qəsidə və rübailərlə başlayan şair dünya ədəbiyyatında özünə görkəmli yer tutmuşdur. İlk böyük əsəri «Sirlər xəzinəsi» ona böyük şöhrət qazandırmışdır. Nizami Gəncəvini dünya ədəbiyyatında məşhur edən onun beş ölməz poemasıdır. Bu əsərlər dünyada «Xəmsə» («Beşlik») adı ilə məşhurdur. Bunlar «Sirlər xəzinəsi» (1170), «Xosrov və Şirin» (1180), «Leyli və Məcnun» (1188), «Yeddi gözəl» (1196) və ömrünün sonlarında yazıb qurtardığı ən böyük əsəri olan «İskəndərnamə» (1200) poemalarıdır.

Nizami Gəncəvi öz əsərlərində xalq həyatının misilsiz gözəlliklərini məharətlə təsvir etmiş və söz sənətini yüksək qiymətləndirmişdir. O, bədii əsəri xəzinəyə bənzədərək yazırdı:

Dünyada nə qədər kitab var belə,
Axtardım, aradım, gətirdim ələ.
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım.

Nizaminin adı Homer, Firdovsi, Ömər Xəyyam, Dante, Şekspir kimi söz ustalarının adı ilə bir sırada durur. Hazırda elə bir mədəni xalq yoxdur ki, Nizamini tanımasın. Şairin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş və geniş yayılmışdır. O, 1209-cu ildə Gəncə şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

■**Tapşırıq.** «*Nəsihət» şerini əzbərləyin.*

Nəsihət

...İnsan sağlam olar az-az yeməkdən,
Uzun ömür etməz əsla çox yeyən.
Həddindən ziyadə yesə bir insan,
Gəyirər, pis qoxu gələr ağzından.
Aslantək sən də az yeməyə alış,
Çünki qorxaq olar çoxyeyən camış.
Dartıb sürüyərlər tənbəl eşşəyi,
Çünki ölçüsüzdür yeyib, içməyi.
Buludtək damcıyla su al dənizdən,
Verəndə bol-bol ver səxavətlə sən.
Suçu tuluğundan tez-tez su paylar,
Tuluq gah boşalar, gah da ki dolar.
Yağlıdan, yavandan elə ye ki, sən,
Onu asanlıqla həzmə verəsən.
Saxla əndazəni qədərlə, sayla,
Bir az ye, bir az yığ, bir az da payla!
Bu cür yeyib, yığıb, paylasan əgər,
Sənə bu dünyada xoşbəxt deyərlər.

■**Tapşırıq.** *«Eşq» şerini ifadəli oxuyun.*

Eşq

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin.
Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı böyük cahanı.
Eşqsiz bir bədən bir neydir qırıq,
Yüz canı olsa da, ölüdür artıq.
Eşqsiz bu dünya soyuq məzardır,
Ancaq eşq evində rahatlıq vardır.
Sevgi hiylə bilməz, düzəltməz duzaq,

Səni şevdasından buraxmaz uzaq.
Eşq düşsə daşın da qəlbinə əgər,
Gövhərdən özünə məşuq düzəldər.
Maqnit olmasaydı eşqin əsiri,
Çəkməzdi özünə dəmir zənciri.
Kəhrəbanın eşqə düşməsə canı,
Elə cəzb etməzdi quru samanı.
İdrakı dinləsən, söyləyir o da:
Hər şey eşq üstündə durur dünyada.
Göylər yaransaydı eşqdən azad,
Düşün, olardımı yer üzü abad?
Eşqdən dünyaya saldım dumanlar,
Əqlin gözlərini etmişəm xumar.
Eşq ilə düzəltdim mən bu dastanı,
Doldurdum səsiylə eşqin, dünyanı.

(«Xosrov və Şirin» poemasından ixtisarla)

ANTONİMLƏR
(АНТОНИМЫ)

Müxtəlif fonetik tərkibə malik, bir-birinə zidd, əks məna ifadə edən sözlərə antonim deyilir.

Слова, различные по фонетическому составу и противоположные по значению, называются антонимами.

Məsələn: qara - ağ, quru - yaş, gülmək - ağlamaq, soyuq - isti, işgüzar - tənbəl, dost – düşmən, dəcəl - dinc, dağ - dərə, yay-qış.

Antonimlər həm öz sözlərimiz, həm də alınma sözlər hesabına yaranır.

Məsələn: mərhəmət (ərəbcə) - qəzəb (ərəbcə), qalın (azərbaycanca) – incə (azərbaycanca), konkret (rusca) - abstrakt (rusca), kobud (azərbaycanca) - zərif (ərəbcə), əvvəl (ərəbcə) -son (azərbaycanca).

Антонимами могут быть как азербайджанские, так и заимствованные слова.

■**Tapşırıq.** *Asağıdakı cözlərin antonimlərini tapıb, qarşısında qeyd edin:*

dağ, alt, səhər, yaxşı, az, sürətlə, gəlmək, yatmaq, ac.

■**Tapşırıq.** *Verilmiş antonimləri rus dilinə tərcümə edin:*

təzə - köhnə, uca - alçaq, qoca - cavan, dost - düşmən, xəstə-sağlam, böyük – kicik, bərk - yumşaq, gecə - gündüz, almaq - satmaq.

AZƏRBAYCAN DİLİNDƏ SÖZLƏRİN MƏNŞƏCƏ NÖVLƏRİ (ГРУППЫ СЛОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА ПО ПРОИСХОЖДЕНИЮ)

Azərbaycan dilinin leksikası iki xətt üzrə formalaşmışdır:

a) əsl Azərbaycan sözləri;

b) başqa dillərdən alınma sözlər (ərəb, fars; rus dili və rus dili vasitəsilə Avropa dillərindən alınan sözlər).

С точки зрения происхождения лексика азербайджанского языка делится на две группы:

а) исконно-азербайджанская лексика;

б) лексика, заимствованная из других языков (арабского, персидского, русского и посредством русского языка из европейских языков).

Məsələn:

I. Əsl Azərbaycan sözləri (исконные азербайджанские слова)

daş -камень	dəniz - море
qaş - брови	qara - черный
yol -дорога	buğda - пшеница
göl - озеро	armud -груша
əl - рука	bacı - сестра

II. Fars-ərəb sözləri (арабские и персидские слова):

həyət -двор	dost - друг
çarpayı - кровать	aləm - мир
xiyar - огурец	alim - ученый
noxud - горох	ərizə - заявление
sirkə - уксус	məruzə - доклад
plov - плов	salam -привет
nəlbəki - блюдце	məktub - письмо
məktəb - школа	katib - секретарь
kitab - книга	din - религия

III. Rus və rus dili vasitəsilə başqa dillərdən keçən sözlər (русские слова, вошедщие в азербайджанский язык посредством русского языка):

şkaf - шкаф	kino - кино
şifoner - шифонер	foye - фойе
telefon - телефон	foto - фото
doktor - доктор	qlobus - глобус
diktor - диктор	sovxoz - совхоз
traktor - трактор	ruçka - ручка
opera - опера	sumka - сумка

I. Əsl Azərbaycan sözlərinin aşağıdakı spesifik xüsusiyyətləri vardır:

1) Əsasən bir hecadan ibarət olur: süd (молоко), qar (снег), qış (зима), çox (много), az (мало), qaz (гусь), qız (девочка) və s.

2) Ahəng qanununa tabe olur: onlar (они), külək (ветер), papaq (шапка) və s.

3) Vurğu son heca üzərinə düşür: barmaq (палец), yağış (дождь), kağız (бумага), kəpənək (бабочка), üzük (кольцо), üzüm (виноград) və s.

4) j, r, ğ samitləri və ı saiti ilə başlanmır.

I. Исконно азербайджанские слова обладают следующими специфическими особенностями:

1) состоят в основном из одного слога;

2) подчиняются закону гармонии;

3) принимают ударение на последнем слоге;

4) не начинаются с согласных j, r, ğ, ı гласной и в абсолютном начале слова

II. Başqa dillərdən alınma sözlər (слова, заимствованные из других языков)**.**

Müasir Azərbaycan dilinin leksikasında alınma sözlər çoxdur.

В лексике современного азербайджанского языка много заимствованных слов.

Azərbaycan dilində alınma sözlər, əsasən, iki qrupa bölünür:

Заимствованные слова в азербайджанском языке делятся на две группы:

1) Ərəb-fars mənşəli sözlər (слова арабского-персидского происхождения): kasa (чашка), dost (друг), dünya (мир), məktəb (школа), mürəkkəb (сложный, чернила), maarif (просвещение), saat (часы),

məktub (письмо), libas (одежда), zinət (украшение), tələbə (студент), əla (отлично), alim (ученый), sahil (берег), ərizə (заявление) və s.

2) Rus dilindən və rus dili vasitəsilə Avropa dillərindən alınma sözlər (слова, заимствованные из русского языка посредством русского и европейских языков).

Belə sözlər öz növbəsində iki yerə ayrılır:

Эти слова, в свою очередь, можно разделить на две группы:

a) Məişət leksikasına daxil olan sözlər (Слова, составляющие бытовую лексику): stol (стол), stul (стул), adyal (одеяло), çaynik (чайник), maqnitofon (магнитофон), televizor (телевизор), mebel (мебель) və s.

b) Elm, texnika, kənd təsərrüfatı, incəsənət və digər sahələrə aid sözlər (Слова, относящиеся к науке, технике, сельскому хозяйству, искусству и другим областям): kosmonavt (kosmonavt), zavod (завод), traktor (трактор), kombayn (комбайн), akademik (академик), dosent (доцент), telefon (телефон), konsert (концерт), artist (артист), balet (балет), kino (кино), roman (роман), janr (жанр), rektor (ректор), aspirant (аспирант), kafedra (кафедра), filoloq (филолог), poema (поэма), qrammatika (грамматика), leksika (лексика) və s.

Alınma sözlərin bir çoxu fonetik, qrafik cəhətdən, hamısı isə qrammatik cəhətdən Azərbaycan dilinə uyğunlaşdırılmışdır.

Многие заимствованные слова подверглись изменениям фонетического и графического характера, но все слова грамматически осваивались азербайджанским языком. **Müqayisə et:**

şəhr - şəhər, adəm - adam, kasə - kasa, şəmamə - şamama, şəkl - şəkil, şəkkər - şəkər, фабрика - fabrik, аптека -aptek, аукцион – auksion, инвестиция - investisiya və s.

Azərbaycan dilinə müxtəlif dillərdən söz keçdiyi kimi, Azərbaycan dilindən də sözlər başqa dillərə keçmişdir.

Как в азербайджанском языке есть заимствованные слова из других языков, так и в других языках имеются слова азербайджанского происхождения.

Məsələn: Azərbaycan dilindən **ordu, elçi** sözü ərəb və fars dılinə, **kərpic, ocaq, al, başmaq, araba, qaragül, yurd** və s. sözlər slavyan dillərinə keçmişdir.

Rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınan bir sıra sözlər Azərbaycan dilinin orfoqrafiya və orfoepiyası ilə uyğunlaşmır:

Некоторые слова, вошедщие в азербайджанский язык из русского и посредством русского из других языков, не подчиняются нормам орфографии и орфоэпии азербайджанского языка.

Yazılır:

Rus dilində	**Azərbaycan dilində**
аппарат	aparat
баллон	balon
кассета	kaset
массаж	masaj
грамм	qram
шоссе	şose
вокзал	vağzal
аптека	aptek
Tələffüz edilir:	
лампа	lampa
шапка	şapka
марка	marka

■**Tapşırıq 65.** *Sözləri köçürün. Hər birinin qarşısında Azərbaycan dilindəki tələffüz şəklini qeyd edin:*

генерал, гитара, аппарат, вокзал, килограмм, телеграмма, группа, цех, цирк, утюг, парашют, химия, бульвар, Апшерон, конституция, чемодан, Кавказ, фотоаппарат, француз, Европа, Россия.

■**Tapşırıq.** *Lüğətdən istifadə edərək sözləri mənşəyinə görə qruplaşdırın və rus dilinə tərcümə edin:*

çarpayı, məhkəmə, silah, qəbz, zirzəmi, dərs, qələm, dövlət, sifət, mühəndis, iqtisad, zəhmət, təriqət, əbədi, maliyyə, qiymət, müqavilə, müsadirə, əmtəə, idxal, ixrac.

■**Tapşırıq**. Mətni oxuyun və *«Ana dili» şerini əzbərləyin.*

Bəxtiyar Vahabzadə
(1925-2009)

Bəxtiyar Vahabzadə ömrü boyu müəllimlik etmişdir. Müəllim-yazıçıların əsərlərini isə məktəb şagirdləri və tələbələr daha çox sevirlər. Şairin ana, məktəb, müəllim, ana dili haqqında yazdığı şeirlər dillər əzbəridir.

B.Vahabzadənin yaradıcılığı çox zəngindir. Yəni həm çoxlu şeirləri, həm də irihəcmli əsərləri var. Bu əsərlərində şair xeyirxahlıqdan, əməksevərlikdən, təbiətin gözəlliyindən söz açmışdır. Amma onun vətənimiz və xalqımız haqqında yazdığı əsərləri daha çoxdur. Vətənimizin müstəqilliyini, xalqımızın azadlığını həmişə əziz tutan şair hələ rusların ölkəmizə

ağalıq etdiyi sovet hakimiyyəti illərində qadağalara baxmayaraq bu barədə əsərlər yazmışdır.

Cəsarətli şair 19-cı ildə hələ sovet ideologiyasının tüğyan etdiyi zamanda Azərbaycanın iki yerə bölünməsinə həsr etdiyi «Gülüstan» poemasını yazdı. Bu poema öz zamanında ziyalılar arasında əldən-ələ gəzdi və müəllifinə böyük şöhrət qazandırdı.

50-ci ildə şair «Ana dili» şerini yazdı. Onu heç yerdə çap etmədilər. Əlacsız qalan B.Vahabzadə yataqda yatan xalq şairi S.Vurğunun yanına gedir və dərdini ona danışır. S.Vurğun ona belə məsləhət görür: get, şeirin epiqrafına Stalinin dəbdə olan bu sözlərini yaz. O, belə də edir. Beləliklə, «Ana dili» işıq üzü görür.

1990-cı il 20 yanvarda rus sovet hakimiyyəti xalqımıza qarşı dəhşətli cinayətə əl atdı; azadlıq, müstəqillik arzulayan əliyalın insanlarımızı güllələdilər, tankların altında əzdilər. Bu vəhşilikdən sarsılan xalq şairi Bəxtiyar Vahabzadə «Şəhidlər» əsərini yazdı.

Türk dünyası, türk xalqları bu böyük şairlə fəxr edir, dünyanın bütün mədəni ölkələrində onun əsərləri maraqla oxunur.

Vətən uğrunda həlak olan insanların xatirəsi xalqımız üçün çox əzizdir. Belə insanlar şəhid adlanır. Vətənimizin müstəqilliyi, xalqımızın azadlığı yolunda şəhid olanlarımız çoxdur. Bu barədə xeyli əsər yazılıb.

Böyük şairimiz B.Vahabzadənin aşağıdakı «Şəhidlər» şerini oxuyarkən hər sözə, hər misraya, hər bəndə diqqətli olun. Unutmayın ki, əsərdə təkcə matəm ruhu ifadə olunmayıb, yəni şəhid olan vətəndaşlarımızla bağlı ağı deməklə kifayətlənməyib. Şeirdə xalqımızın taleyi, keçmişi, gələcəyi, düşmənləri barədə fikirlər söylənib.

Xalq şairi Bəxtiyar Vahabzadə 2009-cu il fevralın 13-də Bakı şəhərində vəfat etmişdir.

Şəhidlər
(İxtisarla)

Qatil güllәsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər,
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən göylərinə çəkdi şəhidlər.

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə,
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü,
Mümkünə döndərdik çox namümkünü,

Xalqın qəlbindəki qorxu, hürkünü.
O gecə dağıdıb, sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də,
Yıxıb kölәliyi ürəyimizdə,
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurdulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər,
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər.

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu ana yurdun,
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz şəklini çəkdi şəhidlər.

Dözdü hər zülmətə, dözdü hər şeyə,
«Dünyada mənim də haqqım var», - deyə,
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər.

Bəxtiyar Vahabzadə

B.Vahabzadə «Mərziyə» poemasını sovet dövründə yazmışdır. Bu poema İranla bağlı olmuşdur. İran bizim ana dilimizə pis münasibət bəsləmişdir. Şair demək istəyir ki, dili olmayan millət yaşaya bilməz. O, bu dövrdə «Latın dili» şerini yazır. Latın xalqı olmasa da, onun dili yaşayır. Amma xalq var ki, dili ölüb, özü yaşayır. O, yaşamaq deyil:

Vətəndən qovulub ana dilimiz,
Ana dili deyib, gəlmə yad dili.
Ərəbcə danışdıq ölülərlə biz,
Rusca qırıldadıq dirilərlə biz.

Dil insanlar arasında ünsiyyət vasitəsidir
İ.Stalin

Ana dili

Dil açanda ilk dəfə «ana» söyləyirik biz,
«Ana dili» adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.
Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır.
Bu dil bir-birimizlə əhdi-peymanımızdır,
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.
Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəgmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağsaçlı babaların əqlindən, kamalından
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.
Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!

Bəxtiyar Vahabzadə

Ömər Xəyyam
(1048-1131)

Ömər İbn İbrahim Xəyyam 1048-ci ildə Nişaburda doğulmuşdur. Xorasan, İsfahan, Mərv**,** İraq, Məkkə, Bağdad kimi yerlərə səyahət etmiş, sonra vətənə qayıtmışdır.

Ömər Xəyyam filosof-şair olmuşdur. Onun bir çox elmi əsərləri bizim günlərə gəlib çatmamışdır.

Xəyyam dərin fəlsəfi şeirlərin müəllifidir. O, fizika və tarixlə, siyasət və musiqi ilə məşğul olmuşdur. Müasirləri onun riyazi qabiliyyəti ilə fəxr edirdilər, onun doqquz yüz il bundan əvvəl ixtira etdiyi astronomiya təqvimi bu gün bizim istifadə etdiyimiz təqvimdən daha dəqiq idi.

Xəyyam insanların şüurunda ən əvvəl dahi şairdir. Onun şeirlər məcmuəsi dünyanın bir çox xalqlarının dilində nəşr olunmuşdur. Rübailəri sayəsində Xəyyamın adını bütün ölkələrdə və qitələrdə tanıyırlar. Onun poeziya irsi həyatda bütöv istiqamət, ədəbiyyatda xüsusi məktəb yaratmışdır.

Rübailərdən başqa o, fars və ərəb dillərində riyaziyyata, həndəsəyə, astronomiyaya dair bir sıra ciddi, qiymətli əsərlər yazmışdır. Xəyyam həm də böyük filosof, təbib və metroloq olmuşdur. Onun riyazi görüşləri üzrə XX əsrdə iki doktorluq dissertasiyası (Türkiyədə və Moskvada) müdafiə edilmişdir[1].

Lakin bu dahi şairi daha çox tanıdan onun «Rübailər»idir:

Dünyada o kimdir ki, günah işləməmiş?
Heç bir günah etmədən necə ömr eləmiş?
Mən pislik edim, sən də mənə pislik elə,
Öyləsə mənimlə səndə bəs fərq nə imiş?

Xəyyamın həyatı Məlikşah Səlcuqi dövründə yaxşı keçmişdir. Məlikşah onu münəccimlərin başçısı təyin etmiş, onun rəhbərliyi ilə öz məmləkətində böyük bir rəsədxana tikdirmək istəmişdir. Bunun üçün o, Xəyyamı maliyyə cəhətdən yaxşı təmin etmişdir. Məlikşah gözlənilmədən öldürüləndən sonra mühitin Xəyyama münasibəti dəyişmiş, onun düşmənləri baş qaldırmış, əleyhinə təbliğat aparmış, onu dinsiz, islamiyyətin düşməni adlandırmışlar.

Xəyyamın fəlsəfəsi: İnsanın ömrü sürətlə keçir, axıb gedən həyat bir də geri dönmür, ölüm gətirir. Madam ki, belədir, insan həyatını zövq və səfa ilə keçirməli, təbiətin gözəlliklərindən və nemətlərindən mümkün qədər çox istifadə etməlidir.

---

[1] Əkrəm Cəfər. «Ömər Xəyyam rübailəri». Azarbaycan Dövlət Nəşriyyatı. Bakı, 1984, s.6.

Həyat ancaq bu dünyadadır! Saysız-hesabsız ölüb gedənlərdən bir xəbər yoxdur. Ölənlər qəbirdə çürüyüb torpağa dönürlər. Qabağımızdakı bu şərab şüşələri, qədəhlər, piyalələr ölüb getmiş dilbərlərin dodaqları, gözəl əlləri, zərif boyunları, aşiq və məşuqların torpağa dönmüş üzvləridir. Varlıqda olan maddələr fasiləsiz toplanır, dəyişir və dağılır. Sonsuz fəzanın nə əvvəli olmuş, nə də axırı olacaq. Haradan gəlmişik? Haraya gedirik? Nə üçün doğuluruq? Nə üçün ölürük? İnsanın yüz min ildən sonra bir ot kimi bitmək ümidi də yoxdur. Bu kuzəçinin ayaqları altında tapdalanan torpaq ölüb getmiş insanların vücududur. Bu kuzələri qayıranlar da, alanlar da, satanlar da yoxluqdan gəlib yoxluğa gedən müsafirlərdir. Madam ki, belədir, onda faydalı iş görək, içək, kef çəkək, müvəqqəti həyatdan zövq alaq. Boş mövhumata, dinə inanmayaq. Dünyanın ləzzətindən faydalanaq. Xəyyamın fəlsəfəsi və əqidəsi qısaca belədir.

Xəyyamın şərabla əlaqədar olaraq bir çox rübailəri haqqında ziddiyyətli fikirlər irəli sürülür. Bir çox səbəblərə görə ehtimal etmək olar ki, Xəyyam tərəfindən bu söz sırf rəmzi mahiyyət daşımışdır. Belə nəticə çıxarılır: deməli, Xəyyamın rübailərində şərab digər hallarda maddi substansiya kimi çıxış edir.

Xəyyamın yaradıcılığı, xüsusən rübailəri haqqında dünyanın müxtəlif dillərində yazılmış tədqiqat əsərləri böyük bir kitabxana təşkil edir. Lakin bu dahi şəxsiyyətin həyatı və mübarizəsi haqqında Azərbaycanın böyük şairi Hüseyn Cavidə qədər dram əsəri yazan ikinci bir müəllif bizə məlum deyil. H.Cavidin «Xəyyam»ı həm fəlsəfi və tarixi baxımdan, həm də yüksək bədiiliyi ilə misli olmayan bir əsərdir.

Ömər Xəyyam Şərqin bir sıra ölkələrinə səyahətə çıxmış, sonra vətənə qayıtmışdır. O, ömrünün çox qismini Nişaburda keçirmiş və 1131-ci ildə orada vəfat etmişdir. Məqbərəsi də Nişaburdadır.

Ömər Xəyyam

Rübailər

Aləm-əbədi, ömür-qısa bir müddət,
Meysiz və gözəlsiz olmaq, əlbəttə qələt.
Ey mərd, nə qədər «qədim-yeni»dən danışaq,
Mən öldümmü, «qədim-yeni» boş söhbət.

Dünyada o kimdir ki, günah işləməmiş,
Heç bir günah etməyən necə ömr eləmiş?
Mən pislik edim, sən də pislik elə,
Öyləsə mənimlə səndə bəs fərq nə imiş?

Yox səndə, fələk, ağıl, hünərdən bir əsər,
Etməzsən azadlara ədalətlə nəzər,

Namərdlərə verdin pulu da, dövləti də,
Nifrət sənə ey çərxi-xəyanətvərlər!

Əfsus, cavanlıq illəri çatdı başa,
Gül fəsli, sevinc dövrü bahar vardı qışa,
Uçdu o məhəbbət quşu, gənclik getdi,
Heyhat, o dönüb bir də gələrmi:.. Haşa!..

Qürbətdə əgər olsa idim bir yaradan,
Yox eylər idim bu aləmi mən aradan,
Sonra yaradardım, elə bir aləm ki,
Öz arzusuna asan çata hər insan.

Qəm-qüssə ilə şad ürəyi üzməməli,
Xoş halını möhnətin daşı əzməməli.
Heç kəs bilmir sabah nələr gözlər onu,
Mey içməli, yar sevməli, kam izləməli.
Mən eyləmirəm tövbə, soruşsan səbəbin,
Çünki mənə mey haram deyildir, öləmin,
Cahillərə doğrudan haramdır badə,
Aqillərin içməklərinə mən zamin.

Mey içsən əgər gözlə ağıldan çaşma,
Cahillik edib içkidə həddən aşma!
İstərsən əgər halalın olsun badə,
Heç kimsəni incitmə, qudurğanlaşma!

Mey içsən, iç ağıllı bir insanla,
Ya laləyanaq, nazlı, gülər cananla,
Çox içmə, uzun danışma, sirrin açma,
Hərdən bir iç, gizlicə iç, həddi aşma!

Ömrün qatarı əcəb nə tez keçmədədir,
Şadlıqla keçən hər dəm əziz keçmədədir,
Saqi, nə çəkirsən qəmini özgələrin?
Doldur qədəhi, ver, gecəmiz keçmədədir.

Mən bilmirəm heç salan məni dünyayə,
Cənnətli salıb və ya cəhənnəmli olayə.
Badə ola, yar ola, rübab, bir də çəmən-
Bunlar mənə nəqd, sənə cənnət nisyə.

Xoşbəxt o ki, bu dövrdə azad yaşamış,
Az-çox nəyi var, razı qalıb şad yaşamış.
Ömrün qısa müddətin qənimət bilmiş,

Meydən və gözəldən alaraq dad, yaşamış.

Tərkibini bu təbiətin böylə edən,
Öz etdiyini qüsurlu etmiş, o nədən?
Vaxtı eləmişsə nə üçün bəs dağıdır?
Pisdirsə əgər, bu eybi bəs kimdir edən?

Dünya malına bunca həvəs, arzu nədən?
Heç gördünmü bir əbədi ömr eləyən?!
Cismində gedib-gələn nəfəs burovuz,
Şey ki, burovuzdur, ona bel bağlama sən!

Bülxanə və Kəbə qulluğun səhnəsidir,
Naqus və azan əsirliyin nəğməsidir,
Mehrab ilə, məscid, kilsə, xaç, təsbeh-
Bunlar hamısı əsarətin pərdəsidir.

Bir sirli vücuddan törəmişdir bu cahan,
Mahiyyətini bu cövhərin yoxdur açan,
Hər kəs nə gəlib ağlına bir sözdü deyib,
Əslində nədir, dərk eləmir bir insan.

Könlüm, bu zəmanədən sən ehsan diləmə!
Dövrandan, aman gözləmə, sahman diləmə!
Dərman diləsən, bır az da artar dərdin,
Dərdinlə barış, səbr elə, dərman diləmə!

Meyxanə diyarında gedib qəlb axtar,
Kamilləri tap, onlar ilə ol həmkar,
Yüz Kəbədən artıqdı bir insan qəlbi,
Sən Kəbəyə getmə, get təmiz qəlblərə var!.

Beş gün bu cahan oldu bizim mənzilimiz,
Tək dərdi-bəla oldu fəqət hasilimiz.
Getdik buradan ürəkdə min həsrət ilə,
Əfsus ki, həll olmadı bir müşkilimiz.

Bir kuzəçidən kuzə satın aldım mən,
Söz söylər idi bu kuzə hər bir sirdən:
Mən bir şah idim, qızıl piyaləm var idi,
Hər sərxoşun indi kuzəsi oldum mən.

Yaradan dünyanı neyçün yaratdı,
Sonra dağıtmağa neyçün əl atdı.
Gözəldirsə məhvə nə layiq,

Çirkinsə nə üçün günaha batdı.

Nə yazıq, ömrümüz getdi tufana,
Döndü çox ciyərlər əcəldən qana.
O dünyadan dönüb gələn olmadı,
Bilək neylədilər orda insana.

Yunus Əmrə
(1238-1320)

Böyük türk ozanı Yunus Əmrə 1240-cı ildə Sivrilusarın Sanköy kəndində anadan olmuşdur. Hal-hazırda bu kənd Yunus Əmrənin adını daşıyır.

Yunus Əmrənin şeirlərindən bilinir ki, o, mədrəsə təhsili almışdır.

Yeddi yüz ilin göz-gözü görməz dumanları arasından az-çox aydın görünən həqiqətlərə əsasən, Yunus Əmrə XIII əsrin ikinci yarısında və XIV əsrin əvvəllərində Anadoluda yaşamış bir türkmən dərvişidir. Elm aləmi onun harada doğulduğu, təhsili, dünyadan köcdüyü yer barədə axtarışlardan hələ ki, inandırıcı bir nəticə əldə edə bilməyib. Onun Türkiyədə ayrı-ayrı kənd, səhərdə müqəddəs sayılan 9 məzarı vardır, bir cisim, doqquz məzar! Ululuğun doğurduğu heyrət! Hər şəhərli, hətta kəndli Yunusun öz torpaqlarında gömülmüş olmasını istəmiş, onu özündən saymış və bağrında ona layiq bir məzar hazırlamışdır: hər məchul məzarı Yunusun torpağa basılmış əbədiyyət möhürüdür[1].

Yunus Əmrə mənəvi tərəqqi yolunun Allahın zikri ilə mümkün olduğunu belə söyləyir:

Allah əmrini tutalım,
Rəhmətinə batalım.
Bülbül kimi ölәlim,
Allah, Allah, Kərim Allah
Rəhim Allah deyəlim...
Allah adı dillərdə,
Sevdası könüllərdə.
Şol qorxulu yerlərdə,
Allah, Allah deyəlim
Kərim Allah deyəlim!

Yunus Əmrəyə görə varlıq Tanrının iradə və istəyi ilə var olmuşdu. Varlığı mənalandıran insandır. İnsanın yeganə məqsədi Allah eşqi ilə

[1] B.Vahabzadə «İki zirvə qarşısında düşüncələr». Bakı, «Yazıçı», s.3.

dopdolu olmasıdır. Allah eşqinə yönəlmiş insanlar Tanrının əsəri olduğu üçün onları sevmək lazımdır. İnsanlar bir-birini sevməlidir:

Adımız misgindir bizim,
Düşmənimiz kimdir bizim.
Biz kimsəyə kin tutmarız,
Kami aləm birdi bizə, -

deyən Yunus Əmrə fəlsəfəsinin təməli də «Sevəlim, Seviləlim» düsturudur. Allahı sevmək, insanları sevmək.

Mən gəlmədim dava üçün,
Mənim işim sevda üçün, -

deməklə bu böyük ozan dünyaya sevib-sevilmək üçün gəldiyini söyləyir.

İnsanlar arasındakı anlaşılmazlıq, sevgidən, dostluqdan uzaqlaşmaq onun insanlıq fəlsəfəsinə yaddır. Bu düşüncələr içərisində Yunus Əmrə deyir ki:

Gəlin tanış olalım,
İşi kolay qılalım.
Sevəlim, seviləlim
Dünya kimsəyə qalmaz.

İnsanlar bir-birilərinin könüllərini qırdıqları təqdirdə qıldıqları namaz belə onları Tanrıya yaxınlaşdıra bilməz:

Bir kəs könül yıxdın isə,
Bu qıldığın namaz deyil.

Könlü Allah sevgisi ilə aşıb-coşan Yunus Əmrəyə görə könül bir tanrı kitabıdır:

Alimlər kitab düzər,
Qaranı ağa yazar.
Könüllərdə yazılır,
Bu kitabın surəsi.

Tanrı məkanının, Tanrıya gedən yolun və bütün mənəvi həqiqətlərin yolunun da könüldən keçdiyini ifadə edən Yunus Əmrə deyir ki:

Çalış, qazan, ye, yedir,
Bir könül ələ gətir!
Yüz Kəbədən yaxşıdır,
Bir könül ziyarəti.

Məlumdur ki, türklərin islamiyyəti qəbulu qorxudan deyil, sevgidəndir. Türkün müsəlmanlığı sevərək qəbul etməsi Tanrı sevgisindən irəli gəlmişdir.Yunus Əmrə Tanrı sevgisinin könüllərdə olduğunıı belə ifadə edir:

Soruş bana axlı erən
Könülmü yey, Kəbəmi yey.
Mən ayduram, sən eydir,
Könüldədir Hak durağı.

Haqq aşığı Yunus Əmrə Tanrı islamiyyətin qanunları çərçivəsində düşünür. Onun üçün Tanrı bir dost, bir sevgidir. Ona yaxınlaşmaq, onunla söhbət etmək, onunla dərdləşmək istəyir. Bu düşüncəni aşağıdakı şerində belə ifadə edir:

Eşqin aldı məni məndən,
Mənə səni gərək, səni.
Cismim yanır gecə-gündüz,
Mənə səni gərək, səni...

Miskin Yunus mənim adım
Günü-gündən artar adum!
İki cahanda muradım,
Mənə səni gərək, səni

Yunus Əmrənin heca vəzni ilə yazdığı «Salam olsun» gəraylısı onun insan və dünya haqqındakı ən müqəddəs düşüncə və duyğularının ifadəsidir.

Yunus Əmrə

Salam olsun

Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!
Bizim üçün xeyir - dua,
Qılanlara salam olsun!

Əcəl bükə belimizi,
Söylətməyə dilimizi.
Xəstə ikən halımızı,
Soranlara salam olsun!

Tənim ortaya açıla,
Yaxasız köynək biçilə.

Bizi asan bir vəch ilə,
Yuyanlara salam olsun!

Kimsə durmaz qəsdimizə,
Gedər olduq dostumuza,
Namaz üçün üstümüzə,
Duranlara salam olsun!

Bu qaydada gedən gedər
Əcəl ki var, bizi güdər...
Bizim halımızdan xəbər
Soranlara salam olsun!

Dərviş Yunus söylər sözü,
Yaş doludur iki gözü
Bilməyən nə bilsin bizi?!
Bilənlərə salam olsun!

Mənalı söz

Mənalı söz deyənlərin,
Üzünü ağ edər bir söz,
Sözü bişirib deyənlərin,
İşini sağ edər bir söz.

Söz var ki, kəsər savaşı,
Söz də var kəsdirər başı,
Çevirib noğulu aşı,
Bal ilə yağ edər bir söz.

Dediyin sözləri bişir,
Mənasız sözləri şaşır[1],
Sözünü ağılla düşür,
Damarı sağ edər bir söz.

Gəl, ey könlüm şəhriyarı[2],
Sözümüzü dinlə barı,
Yüz min gövhəri[3], dinarı[4],
Qara torpaq edər bir söz.

İnsan bilər söz dəmini,
Söyləməz sözün kəmini,
Bu dünya cəhənnəmini,

[1] Şaşır - unutmaq
[2] Könlüm şəhriyarı – sultanım, həmdəmim, sirdaşım
[3] Gövhər – qiymətli daş-qaş
[4] Dinar – pul vahidi

Səkkiz uçmaq edər bir söz[1].

Yeri sən öz yolun ilə,
Qatil olma, bilün[2] ilə,
Anla ki, öz dilin ilə,
Dərdini dağ edər bir söz[3].

Yunis, seçmə söz yatından[4],
Söylə sözü qayətindən[5],
Keçmə, keçmə şeyx qatından[6],
Səni iraq edər bir söz[7].

ARXAİZMLƏR (KÖHNƏLMİŞ SÖZLƏR)
АРХАИЗМ (УСТАРЕВШИЕ СЛОВА)

Azərbaycan dilinin lüğət tərkibi daima inkişaf edir. Bir sıra sözlər köhnəlir və lüğətin passiv fonduna keçir. Belə sözlərə köhnəlmiş sözlər, arxaizmlər deyilir.

Словарный состав азербайджанского языка находится в постоянном развитии. Ряд слов постепенно устаревают и переходят в пассивный словарный фонд. Такие слова называются устаревшими словами или архаизмами.

Məsələn: çarıq (gön ayaqqabı), suç (günah), tanıq (şahid), dəbilqə (dəmir papaq), xurcun (ikigözlü heybə-torba), kəndxuda (kəndin başçısı), baqqal (ərzaq malları satan dükançı).

İctimai quruluşun dəyişməsi ilə əlaqədar olaraq, köhnə ictimai quruluşla bağlı olan bir sıra sözlər də köhnəlmişdir.

В связи с изменением общественного строя, устарел также ряд слов, связанных со старым общественным строем.

Məsələn: dəbilqə, pristav, kəndxuda, qazı, koxa, xan, padşah, vəzir və s.

Belə sözlər tarixizm adlanır.

Такие слова называются историзмами.

■**Tapşırıq 68.** *«Dilbəra» qəzəlini köçürün. Arxaik sözlərin altından xətt çəkin.*

---

[1] Səkgiz uçmaq edər bir söz – mənalı söz cəhənnəmi səkkiz bağçasına çevirə bilər
[2] Bilün – biliyin, ağılın
[3] «Dərdini dağ edər» - dərdini artırar, dərdini dağa döndərər
[4] Yatından – yadından, layiq olmayanından
[5] Qayət – yaxşısı, ürəyə yatan
[6] Qatı - önü
[7] İraq - uzaq

Dilbəra

Dilbəra, mən səndən ayrı təndə-canı neylərəm?
Tacu-təxti, mülkü, malü, xanümanı neylərəm?
Taki gördüm fəzl halın, qılmışam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm.
Çox dualar qılmışam mən xaliqin dərgahına,
Çün muradım hasil olmaz, mən duanı neylərəm.

İ.Nəsimi

NEOLOGİZMLƏR (YENİ SÖZLƏR)
НЕОЛОГИЗМЫ (НОВЫЕ СЛОВА)

Həyat tərzi, dünyagörüşü dəyişdikcə, bəzi məfhumlar köhnəldiyi kimi, bir sıra məfhumlar da yeni yaranır. Dildə yeni məfhumları bildirən yeni sözlər əmələ gəlir ki, bunlara da neologizmlər deyilir.

В силу непрерывного исторического развития, смены мировоззрения ряд понятий устаревает, а ряд возникает. Новые слова, появляющиеся в языке в результате возникновения новых понятий, явлений, качеств, называются неологизмами.

Məsələn: özəlləşdirilmə, soyqırımı, soykökü, tozsoran, soyuducu, televizor, teletayp, soyadı, soydaş, durum, cangüdən, çağdaş, repressiya, yayım, kosmonavt, kosmodrom.

Neologizmlərin bir hissəsi başqa dillərdən alınma yolla yaranır.

Часть неологизмов образуется путем заимствования из других языков.

Məsələn: investisiya, spiker, birja, menecer, marketinq, magistratura, bakalavr, biznesmen, kompyuter, ekologiya.

■**Tapşırıq.** *Nəsiminin «Məndə sığar iki cahan» şerini oxuyun, arxaik sözləri öyrənin.*

Məndə sığar iki cahan

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-ləməkan mənəm, kövnü-məkana sığmazam.

(İki cahan (maddi və mənəvi içimə sığmış, mən isə bu dünyaya sığmaram, Yurdu olmayan inci mənəm, varlığa və kainata sığmaram).

Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,
Kəs sözünü, əbsəm ol, şərhi-bəanə sığmazam.
(Göy və yer, kaf və nun (gün) hamısı məndə tapıldı. Səsini kəs, lal ol, sənin anlatmana sığmazam).

Kövni-məkandır ayətim, zati dürür bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam.
(Varlıq və yer əlamətidir, başlanğıcım varlığın sahibi olan zat ilə başlanır. Sən məni bu əlamətlə tanıt və bil ki, bu əlamətə sığmaram).

…Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü-şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

(**Çar**-çahar, **pənc,** şeş rəmzi məna bildirir və şairin aləmə sığmazlığını ifadə edir. Belə ki, **çahar** (dörd) həyat üçün zəruri olan dörd ünsürü - **su, hava, od, torpağı; pənc** (beş) - beş duyğu üzvünü **- görmə, eşitmə, iybilmə, dadma, toxunmanı;** şeş isə 6 tərəfi **- sağ**, **sol, aşağı, yuxarı, ön, arxanı** bildirir[1].

Lüğət

Gövhərı-laməkan (yeri-yurdu olmayan, yersiz) – здесь: без места жительства
Kövnü-məkan (dünya, varlıq) – мир, земной шар
Ərş (göy) - небо
Fərş (yer, yer-göy) – земля, вселенная
Kaf, nun (hərf adları) – наименования букв
Çun (cahan) – мир, свет
Əbsəm ol (lal ol, səssiz ol) - замолчи
Şərhi bəyan (açıb söyləmək) - раскрыть
Ayət (Quranın müstəqil cümlələrindən biri) – аят, стишки Корана
Zat (əsil, mahiyyət, cövhər) – сущность, начало
Bidayət (başlanğıc, əzəl, əvvəl) - начало
Zərrə (zərrələr, hissəciklər) -частица
Çar/çahar (dörd) - четыре
Pənc (beş), - пять
Bəyan (bildirmə, izah etmə) – изложение, объяснение

[1] S.Məmmədov «İ.Nəsiminin "Məndə sığar iki cahan..." qəzəlinin tədrisi təcrübəsindən". Azərbaycan dili və ədəbiyyatı tədrisi. Bakı, s.l 5-19

KOMMERSİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ PRİNSİPLƏRİ VƏ FUNKSİYALARI

Kommersiya riskini əvvəlcədən görməyi bacarmaq ticarət sferasında sahibkar üçün ən mühüm prinsip sayılır. Risk – nəticənin qeyri-müəyyənlik dərəcəsidir.

Kommersiya riski – kommersiya işində mümkün ola bilən zərərdir. Kommersiya riski inflyasiya nəticəsində, firmanın maliyyə vəziyyətinin pisləşməsi ilə, həmçinin riskli sövdələşmələr bağlamaq üzündən, müqavilə öhdəliklərinin yerinə yetirilməsi, rəqiblərin hərəkəti, daşınma zamanı yüklərin korlanması, təbii fəlakət nəticəsində baş verə bilər. Sosial-psixoloji vəziyyətin qeyri-sabitliyi səbəbindən də kommersiya riski yarana bilər. Kommersiya fəaliyyətində prioritet istiqamətlərin müəyyən edilməsi kommersiya fəaliyyətinin bütün detallarını daim öyrənməyi və bilməyi nəzərdə tutur.

Ticarət sövdələşmələri üzrə qəbul olunmuş öhdəliklərin yerinə yetirilməsinə görə yüksək məsuliyyət prinsipi işgüzar aləmdə kommersantın nüfuzunu artırır. Bu prinsipin reallaşması – kommersiya fəaliyyətinin effektivliyinin rəhnidir.

Sabit uzunmüddətli əlaqələr şəraitində sənaye şirkətləri ticarət firmalarını maliyyələşdirir, onlara ticarət kreditləri verir, onların yeni ticarət müəssisələri, o cümlədən supermarketlərin tikilməsi işlərində, müasir texniki vasitələrlə və ticarət avadanlıqları ilə təchizatında iştirak edir, reklam və satışın sövdələşməsi tədbirləri üzrə məsrəflərin çox hissəsini ödəyirlər. Digər bir xüsusiyyət ondan ibarətdir ki, çox hallarda uzunmüddətli şəxsi istehlak təyinatlı mallar, o cümlədən soyuducular, paltaryuyan maşınlar, tozsoranlar, teleradio və s. mallar istehsalçıları aralıq pərakəndə-topdansatış vasitələrdən imtina və öz nümayəndələri vasitəsilə öncədən poçta reklamlarından istifadə edərək bilavasitə evlərdə əlaqələr yaradırlar.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.169

■**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edin, yeni sözlərin altından xətt çəkin.*

Особенности маркетинга как функция современного менеджмента

Формирование рыночных отношений в нашем обществе ставит перед экономической наукой сложные проблемы, решение которых в значительной степени определяет экономическое развитие республики. Важное значение на сегодняшний день представляет деятельность предприятий республики, как самостоятельных субъектов рынка.

Сегодня многие предприятия республики выходят на внешний рынок, начинают оперировать в совершенно иной, непривычной хозяйственной среде. Им уже самим непосредственным образом приходится сравнивать себя с реальным рынком, на собственном опыте почувствовать какого уровня развития достигли сегодня рыночные отношения. Не овладев самыми передовыми методами маркетинга, предприятия обречены на неудачу в конкурентной борьбе. Как работать с потребителем? Как правильно оценить своих конкурентов, их силу и слабость? Как определить сравнительные преимущества в конкурентной борьбе, правильно выбрать сегмент или «нишу» рынка, сферу хозяйственной деятельности? На все эти вопросы может дать ответ только маркетинг.

С помощью маркетинга можно сделать любой нужный и полезный в обществе труд производительным по своему характеру. Чтобы не изобретать велосипед, не придумывать какие-то особые формы обустройства рыночной экономики и пути перехода к ней в который раз обосновывается это нашей национально-исторической исключительностью; можно внедрить в нашу республику наиболее передовые формы хозяйствования и управления, а не пытаться в очередной раз воспроизводить допотопные структуры из-за рубежа, от которых там же отказались давно; можно сделать наши предприятия действительно самостоятельными, свободными от бюрократических пут, превратить их формальную самостоятельность, которая обусловлена нашим законодательством, в реальную возможность, стать на деле свободными и независимыми производителями; можно и нужно эффективно и разумно распорядиться иностранными инвестициями, которые предлагают нам сегодня высокоразвитые страны, и, наконец-таки, эффективно участвовать в международном разделении труда.

Все это предполагает глубокое изучение всех компонентов маркетинговой деятельности. Хозяйствующие субъекты, чтобы маневрировать в условиях рынка, должны внедрять элементы маркетинга, используя при этом опыт зарубежных фирм.

Шахбазов К.А., Сеидов Э.С.

■**Tapşırıq.** *Mətni öyrənin.*

Qazi Bürhanəddin (1344-1398)

Q.Bürhanəddinin əsl adı Əhməddir, oğuzların Salur boyundandır. 1344-cü ildə Qeysəriyyə şəhərində qazi ailəsində doğulmuşdur. İlk təhsilini doğma şəhərində alan Qazi sonradan Misirdə və Şamda (Dəməşqdə) da oxumuşdur. 1365-ci ildə Qeysəriyyəyə gələn Qazi burada qazilik rütbəsini almışdır. O, 1381-ci ildən ömrünün sonunadək hökmdar olmuşdur. Hakimiyyətdə olduğu illərdə bir sıra yürüşlərdə olmuş, zəfərlər qazanmışdır.

Q.Bürhanəddin həm igid və döyüşkən bir hökmdar, həm də incə qəlbli bir şair kimi tarixə daxil olmuşdur. Onun ana dilində yazdığı mükəmməl divanı günümüzə qədər gəlib çıxmışdır. Bu divan ana dilimizdə yazılan və əldə olan ilk divan sayılır. Şairin ərəb dilində yazdığı «Səadət iksiri» və «Seçilmiş izahlar» adlı dini-fəlsəfi əsərləri də vardır.

Q.Bürhanəddin yalnız lirik şeirlər yazmışdır. Şeirləri qəzəl, rübai və tuyuğ janrlarındadır. Onun şeirlərində lirik qəhrəmanın könül dünyasının xüsusiyyətlərindən biri nikbinlik və sevinc hisslərinin qabarıq şəkildə ifadəsidir. «Bu gecə» rədifli qəzəlində şair oxucusunu həyat gözəlliklərini duymağa, ondan zövq almağa və şənlənməyə səsləyir:

Bəzənmişdir yenə gülşən bu gecə,
Əya, bülbül, gözün rövşən bu gecə.
Ey göz, göz al nigarın söhbətindən,
Ey yüz, ayağına döşən bu gecə.

Sadə dildə və yüksək sənətkarlıqla yazılmış bu qəzəl insan könlünü oxşayır, sevinc və fərəh hissləri oyadır.

Q.Bürhanəddinin yaradıcılığında tuyuğlar əsas yer tutur. Ədəbiyyatımızda tuyuğ janrınm banisi Q.Burhanəddindir. Şairin tuyuğlarının çoxunda igidlik və qəhrəmanlıq tərənnüm olunur:

Ərənlər ər yolunda ər tək gərək,
Meydana erkək kişi nər tək gərək.
Yaxşı - yaman, qatı - yumşaq olsa xoş,
Sərvərəm deyən kişi erkək gərək.

Şairə görə başçılıq (sərvərlik) istəyən kəs mərd olmalı, igidlər meydanda qorxu bilmədən vuruşmalıdır.

Qazinin tuyuğlarında öyüd-nəsihət məzmunlu fikirləri də geniş yer tutur. Aşağıdakı tuyuğda şair insanları bir-biri ilə səmimi olmağa səsləyir:

Yar odur ki, yar ilə həmdərd ola,

Yarından yüz qaytaran yar sərd ola.

Q.Bürhanəddimn şeirləri incə və rəngarəng deyim tərzi, yüksək bədii sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Şairin poezi-yasında səslərin ahənginə, sözlərin müxtəlif məna qollarına və məcazlara geniş yer verilmişdir:

Gəl, gəl görəlim, gəl görəlim, gül görəlim biz,
Bir nəğmə gətir ortaya, bülbül görəlim biz,
Könül ilə dedim ona, könül ilə dinlədi,
Könül eylədinsə eylə, könül ilə, könül ilə.

Qazi Bürhanəddin şeirlərinin bir xüsusiyyəti də ana dilinə məxsus sözlərin bol-bol işlənməsidir. Şair ana dilinin zəngin söz ehtiyatından məharətlə istifadə edərək, «Dədə Qorqud» dastanlarında olduğu kimi, türk mənşəli əski sözlərə üstünlük vermişdir. Bu sozlərin bir çoxu, təbii ki, zaman keçdikcə unudulmuşdur və hazırda arxaik sözlər sayılır. Qazi Bürhanəddinin yaradıcılığında ana dili poeziyanın güclənməsində, ədəbiyyatda nikbinlik, həyatsevərlik və səmimilik duyğularının geniş şəkildə yayılmasında mühüm rol oynamışdır.

Q.Bürhanəddin 1398-ci ildə Ağqoyunlu hakimlərindən Qara Yülük Osman bəylə döyüşdə öldürülmüşdür. Qazi Bürhanəddinın saray tarixçisi Əziz ibn Ərdəşirin «Bəzmü-rəzm» («Qonaqlıq və döyüş») əsərində hökmdarın həyatı və döyüşləri geniş şəkildə təsvir olunmuşdur.

Şairin «Divan»ını professor Ə.Səfərli 1988-cı ildə Bakıda çap etdirmişdir.

Qazi Bürhanəddin

Tuyuğ

Bu nə hüsnü, bu nə xətti, bu nə qəddü, nə bəladır?
Camalın rəvzəmi, yarəb və ya firdovsi-əladır?
Sacın ənbərdurur liykən anə kafurxidmətkar,
Ləbin yaqutdur illa ki, ləlianə lalədur.
Qaşın peyvəstə bizimləvü qəddin rastdır, liykən
Gözünə yəxşi baxıcəx qiyas oldur ki, aladır.
Yüzü gül, gözüdür nərgis, təni bərgi-səməndəri-tər.
Bəli kirpikləri caduvü, yürəgi səngi-xaradur.
Xətti-Xızır, ağzı-Məryəm, sözü-İsa, ləbi-Yəhya,
Özü-Yusif, gözü-Musa, Zehni-Adəm, zihəvvadur.

ƏDƏBİ DİLİMİZ HAQQINDA

Azərbaycan dilində bizə çatan ilk yazılı nümunə hələ ki, XIII əsrə aiddir. Ancaq bir sıra faktorlar bu dilin bir neçə əsr əvvəldən müntəzəm olaraq, yazılı dil kimi işləndiyinə dəlalət edir… Alban əlifbasının olması, ərəb əlifbasının türk dillərinin səs tərkibini əks etdirmək sınaqları, Azərbaycan ədəbiyyatında poetik janrların formalaşması, renesans ədəbiyyatımızı yaradan yetkin mədəni-tarixi şərait, nəhayət, XIII əsrdəki yazı dilimizin bədii-semantik kamilliyi həmin qənaəti təsdiqləyir. Deməli, ədəbi dilimizin məlum yazılı dövrü, bir tərəfdən qədim, özünü tutmuş bünövrə üstündə durur, digər tərəfdən onun səviyyəsi və sonrakı inkişafı sürəti həmin tarixi köklə birbaşa səslənir.

(Azərbaycan ədəbi
dili tarixi, Bakı, 1992)

FRAZEOLOJİ BİRLƏŞMƏLƏR (ФРАЗЕОЛОГИЗМЫ)

Vahid bir leksik mənanı ifadə edən söz birləşməsinə frazeoloji birləşmə deyilir. Frazeoloji birləşmələr tərkibcə dəyişməyən və məcazi mənada işlənən sabit söz birləşmələridir.

Фразеологизмами называются словосочетания выражающие единое лексическое значение. Фразеологизмы – это по структуре неделимые устойчивые словосочетания, употребляющиеся в переносном значении.

Məsələn:

ağzına su almaq - susmaq (набрать в роты воды)
qulaq asmaq - dinləmək (слушать)
əldən düşmək - yorulmaq (сильно устать)
başa düşmək - anlamaq (понимать)
qol çəkmək – imzalamaq (подписать)
dərd çəkmək - qəmlənmək (горевать)
başa çatdırmaq - bitirmək (закончить)
gözdən düşmək - etibarı itirmək (потерять доверие)
qapı dalına düşmək - utanmaq (стесняться)

Əksər hallarda cümlə kimi formalaşan atalar sözləri, məsəllər, hikmətli sözlər (aforizmlər) və s. də frazeologiyaya aid edilir.

Пословицы, поговорки, афоризмы и другие фразеологизированные обороты, в большинстве случаев формирующиеся как предложения, также относятся к фразеологии.

1. Atalar sözləri (Пословицы)

Az olsun, yaxşı olsun (Лучше меньше, да лучше).
Axtaran tapar (Кто ищет, тот всегда найдет).
Acıqlı başda ağıl olmaz (Гнев убивает разум).
Bala baldan şirindir (Дитя – что патока с медом).
Qızım, sənə deyirəm, gəlinim sən eşit (Свекровь дочь бранит, невестку учит)

2. Məsəllər (Поговорки)

Bəylə bostan əkənin tağı çiynində bitər (С собакой ляжешь, с блохами встанешь).

Adamın adı çıxınca, canı çıxsa yaxşıdır (Лучше смерть, чем дурная слава).

Sonrakı peşmançılıq fayda verməz (Сделанного не воротишь).

Uzaq qohumdan yaxın qonşu yaxşıdır (Добрый сосед лучше дальней родни).

Gec gələn qonaq öz kisəsindən yeyər (Поздно пришел, только кости нашел).

Gözəl - gözəl deyil, könül sevən gözəldir (Мила –не бела, да сердцу мила).

Gözəl də kamallı gərək (Ум красавице не помеха).

3. Hikmətli sözlər (Афоризмы)

Soyuq məzara da zinətdir insan
... A qızım, üzündən götür duvağı, qoy açıq görünsün ayın qabağı.
Qızılı udsa da qara torpaqlar, yenə qiymətini özündə saxlar.

S. Vurğun

Xəzinə kəşf etmək istəsə biri, gərək unutmasın çətinlikləri.
Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan.

N.Gəncəvi

■**Tapşırıq 72.** *Bir neçə frazeoloji birləşmə söyləyin və mənasını rus dilində aydınlaşdırın.*

■**Tapşırıq.** *Verilmiş frazeoloji birləşmələrə aid sinonim sözlər tapıb birlikdə yazın.*

Ağız açmaq, özünü çəkmək, başa düşmək, qulaq asmaq, bel bağlamaq, əldən düşmək, quyruq bulamaq, gözdən pərdə asmaq, ağızdan-ağıza düşmək, qulaqardına vurmaq.

Nümunə: quyruq bulamaq - yaltaqlanmaq.

MORFOLOGİYA
(МОРФОЛОГИЯ)

SÖZÜN TƏRKİBİ
(СОСТАВ СЛОВА)

Dilin lüğət tərkibindəki sözlərin qrammatik formalarını, quruluşunu, mənalarını öyrənən sahə morfologiya adlanır. Morfologiyanın tədqiqat obyekti söz, onun formaları və nitq hissələridir.

Область языкознания, изучающая грамматические формы, структуру, значения слов, входящих в словарный состав языка, называется морфологией. Объектом изучения морфологии является слово, формы слова и части речи.

KÖK VƏ ŞƏKİLÇİ
(КОРЕНЬ И АФФИКС)

Sözün dəyişməyən, şəkilçisiz, ayrıca işlənən, müstəqil mənası olan hissəsinə kök deyilir.

Корнем называется неизменяемая, безаффиксальная, отдельно употребляемая часть слова, имеющая **самостоятельное значение.**

Məsələn: göz, qaş, ev, at, bal, çörək, qar, üç, beş, sabah.

Sözün əsasını təşkil edən kökə bir və ya bir neçə şəkilçi birləşə bilər.

К корню, составляющему основу слова, могут присоединяться один или несколько аффиксов.

Məsələn: qapı-çı, dəmir-çi-lər, uşaq-lar, tələbə-lər-imiz-in, yataq-xana-lar-ı- mız-dan, vətən-daş-lıq.

Sözün dəyişən, ayrıca işlənməyən, leksik mənası olmayan hissəsinə şəkilçi deyilir.

Изменяемая часть слова, которая не употребляется самостоятельно и не обладает лексическим значением называется аффиксом.

Şəkilçilər dildəki roluna görə iki növə ayrılır:

1) sözdüzəldici, yəni leksik;

2) sozdəyişdirici, yəni qrammatik

По своей роли в языке аффиксы делятся на два вида:

1) словообразующие, т.е. лексические;

2) формообразующие, т.е. грамматические.

Əlavə olunduğu sözün forma və mənasını dəyişən şəkilçilər sözdüzəldici şəkilçilər adlanır.

Аффиксы, которые присоединяясь к слову изменяют его форму и значение, называются словообразующими аффиксами.

Məsələn: duz (соль), **duzlu** (солёный), **dəmir** (железо), **dəmirçi** (кузнец), **iş** (работа), **işçi** (работник), **gül** (цветок), **güllük** (цветник), **at** (конь), **atçılıq** (коневодство), **ağıl** (ум), **ağıllı** (умный).

Aşağıdakı şəkilçilər sözdüzəldici şəkilçilərdir.

Нижеследующие аффиксы являются словообразующими аффиксами:

Məsələn: -çı,-çi,- çu,-çü; -lı,-li,-lu,-lü; -lıq,-lik,-luq,-lük; - ış,-iş,-uş,-üş; -ar,-ər; -lan,-lən; -ım,-im,-um,-üm və s.

Cümlədə sözlər arasında əlaqə yaratmağa xidmət edən şəkilçilər sözdəyişdirici şəkilçilər adlanır.

Аффиксы, служащие для связи слов в предложении, называются формообразующими.

Məsələn: şagird (ученик), **şagirdlər** (ученики), **qələm** (ручка), **qələmim** (моя ручка), **silah** (оружие), **silahın** (твое оружие).

Aşağıdakı şəkilçilər sözdəyişdırici şəkilçilərdir.

Нижеследующие аффиксы являются формообразующими аффиксами.

-ın, -in, -un, -ün; -a, -ə, -ı, -i, -u, -ü; - dan, -dən; -mız, -miz, -muz, -müz; -nız, -niz, -nuz, -nüz; -am, -əm; -san. -sən; -dır, -dir, -dur, -dür.

Sözdəyişdirici şəkilçilərdən sözlərin morfoloji strukturunu dəyişmək və sözlər arasında əlaqə yaratmaq üçün istifadə olunur.

Формообразующие аффиксы используются для изменения морфологической структуры слова, так и для связи между словами.

Məsələn: dəftər (тетрадь) - **dəftərlər** (тетради); **ev** (дом), **-evlər** (дома); **kağız** (бумага) - **kağızlar** (бумаги); **gəl** (иди), **gəlir** (идет), **gəlirəm** (иду)- **gəlirik** (идем).

Azərbaycan dilində söz eyni zamanda bir neçə sözdüzəldici və sözdəyişdirici şəkilçi qəbul edə bilər.

В азербайджанском языке слово может одновременно принимать несколько словообразовательных и формообразующих аффиксов.

Məsələn: dəmir-çi-lik (**dəmir** «железо», **dəmirçi** «кузнец», **dəmirçilik** «кузнечное дело»); **kitaba-lar-ım-dan** (**kitab** «книга», **kitablar** «книги», **kitablarım** «мои книги», **kitablarımdan «**из моих книг**».**

Azərbaycan dilində hal, mənsubiyyət, kəmiyyət, xəbərlik, inkarlıq, şəxs, zaman kateqoriyalarının şəkilçiləri sözdəyişdirici şəkilçilərdlr.

В азербайджанском языке аффиксы категорий падежа, принадлежности, числа, сказуемости, отрицания, лица и времени являются формообразующими.

Məsələn: şəhər (город), **şəhərlər** (города), **şəhərə** (в город), **şəhərdən** (из города); **mühəndis** (инженер), **mühəndisin** (инженера), **mühəndisdir** (он инженер).

Bu sözlərdə **-ə, -dən, -in, -dir** sözdəyişdirici şəkilçilərdir.

В этих словах -ə, -dən, **-in, -dir** являются формообразующими.

Azərbaycan dilində şəkilçilər sözlərin sonuna artırılır, yalnız bəzi alınma sözdüzəldici şəkilçilər sözün əvvəlinə və sonuna əlavə edilir **(na-, bi-, a-, anti-, -izm, -ist** və s.).

В азербайджанском языке аффиксы присоединяются к концу слова. Лишь некоторые заимствованные словообразовательные аффиксы присоединяются к началу и концу слов **(на-, би-, анти-, -изм, -ист** и др.**)**

Məsələn: məlum (известный), **naməlum** (неизвестный)**, savadlı** (грамотный) - **bisavad** (неграмотный), **faşist** (фашист)**, antifaşist** (антифашист), **xoş** (благоприятный, здоровый) -**naxoş** (больной), **xəbər** (весть) - **bixəbər** (неосведомленный).

■**Tapşırıq.** *Sözləri kök və şəkilçiyə ayırın, sözdüzəldici şəkilçilərin altından bir, sözdəyişdirici şəkilçilərin altından iki xətt çəkin:*

dilçi, müəllimlik, məktəbli, gənclər, məhsulsuz, vətənə, gəmiçi, ölkəni, canlı, sənətkar, tələbəyəm, masanın, güllük, xəstədən, bərəkətli, duzsuz, təyyarəçi, ovçu, neftçi, maşinist, bakılı, küləksiz, yağlı, ətli.

■**Tapşırıq.** *Aşağıdakı şəkilçilər vasitəsilə yeni mənalı sözlər düzəldin və rus dilinə tərcümə edin:*

1. - çı, -çı, -çu, -çü;
2. -lı, -li, -lu, -lü;
3. - daş.

Nümunə: məktəb - li, vətən - daş.

NİTQ HİSSƏLƏRİ
(ЧАСТИ РЕЧИ)

Qrammatik əlamətlərinə, kateqoriyalarına görə bir-birindən fərqlənən söz qruplarına nitq hissələri deyilir.

Группы слов, различающиеся по грамматическим признакам, категориям, называются частями речи.

Azərbaycan dilində on bir nitq hissəsi vardır. Onlardan altısı əsas, dördü köməkçi, biri isə xüsusi nitq hissəsidir.

В азербайджанском языке имеется одиннадцать частей речи. Из них шесть – знаменательные, четыре служебные и одна особая часть речи.

ƏSAS NİTQ HİSSƏLƏRİ
(ЗНАМЕНАТЕЛЬНЫЕ ЧАСТИ РЕЧИ)

Əsas nitq hissələrinə aid sözlərin leksik və qrammatik mənaları, sintaktik vəzifələri vardır.

Слова, относящиеся к знаменательным частям речи, обладают лексическим и грамматическим значениям, а также синтаксическими функциями.

İSİM
(ИМЯ СУЩЕСТВИТЕЛЬНОЕ)

ana - мать **müharibə -** война
ata - отец **yağış -** дождь
alma - яблоко **üsyan** - восстание
armud - груша **fikir -** мысль
daş - камень **arı** - пчела
dil - язык **şəhər** - город
diş - зуб **kənd** - деревня, село
bacı - сестра **masa -** стол
qardaş - брат **döşəmə -** пол
vergi - налог **əmtəə** - товар

Əşya, hadisə, mücərrəd anlayış, bütün varlıqların adını bildirən sözlərə isim deyilir.

Слова обозначающие наименование предметов, событий, абстрактных понятий, всех живых существ, называются существительными.

Azərbaycan dilində isimlər rus dilindən fərqli olaraq iki (kim? nə?) deyil, üç suala cavab verir: **kim? nə? hara?**

İnsana aid isimlər **kim?** sualına, məkan bildirən isimlər **hara?** sualına, qalan isimlər **nə?** sualına cavab olur. Rus dilində yeri bildirən isimlər adlıq halda **nə? (что?)** sualına, Azərbaycan dilində isə **hara?** sualına cavab verir.

В отличие от русского языка в азербайджанском языке существительные отвечают не на два (**кто? что?),** а три вопроса (kim? nə?). Имена существитьельные обозначающие лицо, отвечают на вопрос kim?, имена существительные обозначающие место **hara?**, остальные существительные отвечают на вопрос nə?.

Məsələn:

Azərbaycan dilində	Rus dilində
hara? Bakı	что? Баку
hara? Sumqayıt	что? Сумгаит
hara? Təbriz	что? Тебриз
hara? Gəncə	что? Гянджа

■**Tapşırıq 78.** *Verilmiş sözləri üç cərgədə yazın, qarşısında suallarını qeyd edin:*

adam, tələbə, dəniz, şəhər, vertolyot, musiqi, Bakı, Özbəkistan, qartal, ceyran, maral, Sona, məktub, telefon, Şuşa, Xankəndi, Cəfər, Şirvan, Əzim, nar, gəlir, investisiya, mühasibat, özəlləşdirmə, xəzinə.

■**Tapşırıq 79.** *Mətni Azərbaycan dilinə tərcümə edin, isimlərin altından xətt çəkin.*

TƏŞKİLATİ STRUKTURUN FORMALAŞMASI PRİNSİPLƏRİ

İdarəetmə strukturunu müəyyənləşdirərkən hər şeydən əvvəl onun müəssisənin işləməsi üçün lazımi olan bütün fəaliyyət növlərini təhlil etmək, onlardan ən əsaslarını seçib bloklar üzrə bölüşdürmək lazımdır. Bu prinsiplərin reallaşdırılması zamanı idarəetmənin təşkilati strukturuna olan tələbləri nəzərə almaq lazımdır. Bu tələblər aşağıdakılardır:

Optimallıq. Əgər bütün səviyyələrdə idarəetmə həlqələri və pillələri arasında rasional əlaqə yaradılarsa, onda idarəetmənin təşkilati strukturu optimal hesab edilə bilər.

Operativlik. Bu tələbin mahiyyəti ondan ibarətdir ki, idarəetmə sistemində qərarın qəbulundan onun icrasınadək olan vaxt ərzində qəbul edilən qərarın reallaşdırılmasını lüzumsuz edən mənfi dəyişikliklər baş verməməlidir.
Etibarlılıq. İdarəetmə aparatının strukturu informasiyanın ötürülməsinin doğruluğuna təminat verməlidir, idarəedici komandada və ötürülən digər məlumatlarda səhvlərə yol verməməlidir.
Qənaətçillik. Vəzifə ondan ibarətdir ki, idarəetmə aparatına minimum xərc sərf etməklə, təşkilati strukturun tətbiqində lazımi effekt əldə edilir.
Çeviklik. Xarici mühitin dəyişilməsinə idarəetmənin təşkilati strukturu tez uyğunlaşa bilir.
İdarəetmə strukturunun dayanıqlığı. Müxtəlif xarici təsirlər nəticəsində idarəetmənin təşkilati strukturunun əsas xassələri dəyişilmir. İdarəetmənin bürokratik modeli müəyyən üstünlüklərə malikdir. Lakin bu modelin tətbiqi prosesində onun elementlərinin tam dəqiqliyi ilə işlənməsi və təkmilləşdirilməsi hökmən nəzərə alınmalıdır.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.220

■**Tapşırıq.** *Mətnin məzmununu öyrənin.*

İmadəddin Nəsimi
(1369-1417)

Beş əsrdən artıqdır ki, böyük Azərbaycan şairi Nəsiminin adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir.

Şairin əsl adı Əlidir. O, 1369-cu ildə Şamaxıda anadan olmuşdur. Şairin atası Seyid Məhəmməd dövrünün tanınmış adamlarından olmuşdur. Seyid Əli ilk təhsilini Şamaxı şəhərində almış, kiçik yaşlarından mükəmməl təhsil görmüş, xüsusən fəlsəfi və dini cərəyanları öyrənməyə daha çox həvəs göstərmişdir. O, Nizami, Xaqani, Məhsəti, Fələki Zülfüqar Şirvani, Arif Ərdəbili, Mahmud Şəbüstəri və Marağalı Əvhəddinin əsərləri ilə tərbiyələnmişdir. Gənc şair hələ mədrəsə tələbəsi olarkən X əsrdə Bağdad şəhərində yaşamış və dara çəkilmiş Mənsur Hüseynin təriqətini daha çox bəyənmiş, ona rəğbət bəsləmişdir. Məhz buna görə də, o, ilk şeirlərini Hüseyni təxəllüsü ilə yazmışdır.

Gənc yaşlarından şair hürufi təbliğatçısı Fəzlullah Nəimi ilə şəxsən görüşmüş, onun hürufi görüşlərini qəbul etmiş və çox ehtimal ki, bu dövrdən etibarən şeirlərini də Nəsimi təxəllüsu ilə yazmışdır.

Hürufizmdə allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssümü fikri əsasdır. Buna görə hürufilər Allahın, ümumiyyətlə, insanda,

xüsusi halda isə kamil insan kimi Fəzlullahda təcəssüm etdiyinə inanırlar. Bu təlimə əsasən insan öz varlığında allah dərəcəsinə yüksəlir, allah olur, onunla eyniyyət təşkil edir.

Nəsimi Fəzlullahın qızı ilə evlənmiş, ilk əvvəl İraqa, sonra Türkiyəyə getmiş, uzun müddət Anadolu şəhərlərini gəzərək fikirlərini təbliğ etmiş və nəhayət, Hələb şəhərində məskən salmışdır.

O, öz şeirlərini Azərbaycan, fars və ərəb dillərində yazmışdır. O, islam dini əleyhinə şeirlər yazmışdır. Bu şeirlərində insana, onun ağlına yüksək qiymət verirdi. Bu fikirlərinə görə ruhanilər onu dinin düşməni hesab etmişlər.

Nəsiminin ideyası onun yaradıcılıq qayəsi ilə çox səsləşir. «Məndə sığar iki cahan...» qəzəlində şair «iki cahan» sözlərilə hürufilik təliminə görə dünyanın iki olduğunu deyir: biri - kainat, ikincisi - insan. Demək, kainatda nə varsa, bunların hamısı insanda da vardır.

Buna görə də, insan hər iki cahanı özündə sığışdıra bilməsinə baxmayaraq, özü bu cahana sığmayan ali bir varlıqdır, yer üzünün əşrəfidir. Bu dünyaya sığmayan insanın cismi, bədəni deyil, ağıl və idrakıdır.

Nəsimi Azərbaycan dilində yaranmış fəlsəfi qəzəlin banisidir. O, Teymur istilası dövründə yaşamış, 1417-ci ildə Hələb şəhərində edam edilmişdir. Nəsiminin ölümünə fitva verən ruhanilər onun diri-diri dərisini soymuşlar. Hazırcavab və möhkəm iradəli bir insan olan Nəsimi öldürüldüyü zaman da öz fikirlərindən dönməmiş və «ənəlhəq», yəni («mənəm Allah») demişdir. Şairin bu məntiqi qarşısında özünü itirən ruhanilər istehza ilə soruşmuşlar:

- Sən ki, həqsən, bəs niyə qanın axdıqca saralırsan?

Hazırcavab sənətkar belə cavab vermişdir:

- Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş batanda saralar.

Bu rəvayətdə belə bir qeyd də vardır ki, guya şairin ölümünə fitva verən ruhani demişdir:

- Bu o qədər məlundur ki, onun qanından hara düşsə, kəsib atmaq lazımdır.

Təsadüfən şairin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır, camaat ondan barmağının kəsilməsini tələb edir. O, isə: «Mən söz məsəli demişəm» cavabını verib barmağını qoruyur. Bu zaman al qan içində olan şair:

- «Zahidin bir barmağın kəssən, dönüb haqdan qaçar, gör bu miskin aşiqi sərpa soyarlar, ağlamaz», - deyə öz mübariz səsini ucaldır. Nəsimi düşmənləri üzərində mənəvi qələbə qazanaraq mərdliklə ölür.

Uzun müddət Nəsimi mürtəce ruhanilər tərəfindən allahsızlıqda ittiham olunmuş, onun panteist (allahı təbiətlə eyniləşdirən dini - fəlsəfi dünyagörüşü) fikirləri yanlış izah edilmişdir.

Son dövrlərdə Nəsiminin əsərləri bütün türkdilli xalqlar tərəfindən dərindən oxunur və tədqiq edilir.

QURAN MÖCÜZƏSI

Allah-Taala 14 əsr bundan əvvəl insanlara yol göstərən Qurani-Kərim kitabını göndərmişdir. Bu kitabla Tanrı bəşər övladını qurtuluşa dəvət edir.

Kitab göndərildiyi gündən qiyamət gününədək bəşərin yeganə rəhbəri olacaq axırıncı ilahi kitabdır.

Quran hər bir əsrdə yaşayan insanların başa düşəcəyi asan və aydın üsluba malikdir. Həmçinin Quranın ədəbi yönünün ecazkarlığı, bənzərsiz üslub xüsusiyyətləri, hikmətləri onun Allahın sözü olmasını sübut edən mütləq dəlillərdəndir. Kitabda əsas məqsəd onu bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı barədə düşünməyi hər kəsə başa salmaqdır.

Quran kitabı insanları əmin-amanlığa, barışığa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitədir.

Quranın bu xüsusiyyətlərilə yanaşı onun Allahın sözü olması ilə bərabər müxtəlif möcüzələri, yönləri də var, onun bu yönlərindən biri yalnız XX və XXI əsrlərin texnologiyası ilə aydınlaşdırılan bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda xəbər verilməsidir. Əlbəttə, Quran sırf elmi kitab deyil. Ancaq müxtəlif ayələrində yığcam, dolğun və hikmətli üsulla qeyd edilən bəzi elmi həqiqətlər yalnız XX əsrin texnologiyası ilə kəşf edilib. Quranın göndərildiyi dövrdə elmi izahı mümkün olmayan bu məlumatlar Quranın Allah sözü olmasını insanlara bir dəfə də isbat edir. Quranın elmi möcüzəsini başa düşmək üçün ilk növbədə, bu ilahi kitabın göndərildiyi dövrdəki insanların elmi səviyyəsinə nəzər salmaq lazımdır.

Quranın nazil edildiyi VII əsrdə ərəblər elmi məsələlərlə bağlı cürbəcür xürafata və batil inanclara sahib idi. Kainatı və təbiəti tədqiq etmək üçün heç bir texnologiyaya malik olmayan ərəblər nəsildən-nəslə ötürülən əfsanələrə inanırdılar. Məsələn, onlar göyün yuxarıda dayanmasını dağların yerdə olması ilə əlaqələndirirdi. Bu inanca görə dünya düz idi və hər iki tərəfindən yüksək dağlar olduğu üçün onlar göyü saxlaya bilirdi.

Ancaq ərəblərin bu batil inancları Quran tərəfindən alt-üst olundu. Məsələn, «göyləri, gördüyümüz kimi dayaqsız olaraq, yüksəltdi» (Rədd, 13/2) ayəsi dağların göyü yuxarıda saxlaması barədəki yanlış fikri alt-üst etdi. Həmin dövrün insanlarının heç birinin bilmədiyi əksər məsələlər Quranda öz izahını tapdı. İnsanların astronomiya, fizika və ya biologiya elmləri haqqında çox az məlumatları olduğu bir dövrdə göndərilən Quran kainatın yaradılmasından insanın əmələ gəlməsinə, atmosferin quruluşundan Yer kürəsindəki nizama qədər ən müxtəlif mövzularda əsas məlumatları xəbər vermişdir.

Quranda incələnən bütün məlumatlar bizə açıq bir həqiqəti göstərir. Quran elə bir kitabdır ki, onun içərisində qeyd edilən xəbərlərin hamısı doğru çıxmış və çıxmaqdadır.

Elmi mövzularda keçmişdən və gələcəkdən verilən xəbərlərdə ya da riyazi şifrələrdə o dövrdə heç bir insan tərəfindən bilinməyəcək həqiqətlər ayələrdə xəbər verilir. Bu məlumatların həmin dövrün elmi səviyyəsi və texnologiyası ilə əldə edilməsi mümkün deyil. Əlbəttə, bu vəziyyət Quranın insan sözü ola bilməsinin çox aydın sübutudur.

Quran hər şeyi yoxdan yaradan və elmi bütün varlıqları əhatə edən uca Allahın sözüdür. Allah bir ayəsində Quranla bağlı olaraq, «… əgər o Allah-dan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar» (Nisa, 4/82) deyə buyurur. Quranda heç bir ziddiyyət olmadığı kimi içində olan hər məlumat gün ötdükcə bu ilahi kitabın yeni möcüzələrini ortaya çıxarmaqdadır» (Nisa, 4/82) deyə buyurur. İnsanın üzərinə düşən vəzifə isə Allahın göndərdiyi bu ilahi kitaba sarılmaq və onu özünə yol göstərən olaraq, qəbul etməkdir. Alah-Taala Quranda bizə belə buyurur: «Bu Quran Allahdan başqasına yalandan aid edilə bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiq və kitabı ətraflı izah edər. Onun aləmlərin Rəbbi tərəfindən nazil edilməsinə heç bir şübhə yoxdur! Yoxsa, «Onu özündən uydurur!» deyirlər. De: «Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa kimə gücünüz çatırsa, onu çağırın!»» (Yunus, 10/ 37-38).

«Bu, nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə sizə rəhm edilsin!» (Ənam, 6/155).

XÜSUSİ VƏ ÜMUMİ İSİMLƏR (СОБСТВЕННЫЕ И НАРИЦАТЕЛЬНЫЕ СУЩЕСТВИТЕЛЬНЫЕ)

İsimlər leksik mənasına və əşyaları bir-birindən fərqləndirmələrinə görə iki qrupa ayrılır: **xüsusi** və **ümumi** isimlər.

По своему лексическому значению и способности различать предметы существительные делятся на две группы: **собственные и нарицательные.**

Xüsusi isimlər fərdi əşya və hadisələrin adını bildirir, böyük hərflə yazılır.

Собственные существительные служат для обозначения именуемого им объекта из ряда подобных, т.е. называют конкретный предмет или событие и пишутся с большой буквы.

Məsələn:

1. İnsan adları, soyadları və təxəllüsləri (личные имена, фамилии, прозвища людей): Nail, Ceyhun, Eldar, Əlizadə, Axundzadə, Vaqif, Nəbati, Nizami, Xaqani, Nəsimi, Xətai.

2. Coğrafi adlar (географические названия). Bakı, Dərbənd, Quba, Qaraməryəm, Volqa, Kür, Zəngi, Desna.

3. Tarixi hadisələrin adları (названия исторических событий): Çaldıran döyüşü, Türkmənçay müqaviləsi, Gülüstan sülhü.

4. Elm, bədii əsərlərin, qəzet və jurnalların, təşkilat və cəmiyyətlərin adları (названия научных, художественных произведений, газет, журналов, предприятий и обществ и т.д.): «İqtisadi nəzəriyyə», «Babək», «Azərbaycan qadını», «Azərnəşr», «Qobustan», «Ədəbiyyat».

5. Astronomik adlar (астрономические названия):
Yer, Mars, Yupiter, Ay.

Ümumi isimlər eynicinsli əşyaların ümumi adları, ümumi mənalı sözlərdir. Ümumi isimlər həm konkret, həm də mücərrəd məfhumları bildirir, cümlə içərisində kiçik hərflə yazılır.

Нарицательные существительные являются обобщенными наименованиями однородных предметов. Они выражают как конкретные, так и абстрактные понятия. В предложении они пишутся с маленькой буквы.

Məsələn: çörək, insan, paltar, kədər, qəm, qayğı, ümid, qoşun, kənd, şəhər, ölkə, müəllim, oğlan, qız, gəlin, külək, yağış, qar, çovğun, boran.

Azərbaycan dilində ümumi isimlərin xüsusi isimlərə və əksinə, xüsusi isimlərin ümumi isimlərə keçməsi prosesi də özünü göstərir.

В азербайджанском языке нарицательные имена существительные могут переходить в разряд собственных и наоборот.

Məsələn: cənub-Cənub, qərb-Qərb, şərq-Şərq, yaqut-Yaqut, brilyant-Brilyant, aslan-Aslan, ceyran-Ceyran, tufan-Tufan, murad-Murad.

■**Tapşırıq 81**. *Aşağıdakı sözləri cümlə içərisində işlədin və rus dilinə tərcümə edin:*

Azərbaycan, Araz, Kür, insan, əmtəə, iqtisad, marketinq, büdcə, xəzinə, kapital, qızıl, gümüş, dəyər, tədavül, rüsum.

KƏMİYYƏT KATEQORİYASI
(КАТЕГОРИЯ ЧИСЛА)

TƏK VƏ CƏM İSİMLƏR
(ЕДИНСТВЕННОЕ И МНОЖЕСТВЕННОЕ ЧИСЛО СУЩЕСТВИТЕЛЬНЫХ)

İsimlər kəmiyyətcə **tək** və **cəm** olur. Tək isimlər eynicinsli əşyanın vahidliyini, cəm isimlər isə çoxluğunu bildirir. İsimlər cəmdə olarkən –lar/-lər şəkilçisi qəbul edir.

Обозначая количество существительные выступают в **единственном** и **множественном** числе. Существительные в единственном числе указывают на единичность, а во множественном числе – на множественность однородных предметов. Существительные во множественном числе принимают аффикс – lar/-lər.

Məsələn: tələbə-tələbələr; kitab-kitablar; dəftər- dəftərlər; əsər-əsərlər; həkim-həkimlər; yol-yollar; fakültə- fakültələr.

Bəzi sözlər xüsusi morfoloji əlaməti olmadan cəmlik bildirir. Belə isimlər topluluq isimləri adlanır.

Некоторые слова обозначают множественность без специальных морфологических показателей. Такие существительные называются собирательными.

Məsələn: el, xalq, kütlə, bəşər, camaat, qoşun, sürü, ilxı.

■**Tapşırıq 82**. *Tək və cəm isimləri göstərin, onları rus dilinə tərcümə edin.*

İqtisadçı, maliyyəçi, məhsuldar, əmtəələr, xərc, birja, dövriyyə, sərvət, yonca, məclislər, qələbə, gəlir, smeta, bank, mühasib.

■**Tapşırıq 83.** *Şeri əzbərləyin.*

Cabir Novruz

Nəsimi taleyi gərəkdir mənə
(ixtisarla)

Nəsimi taleyi gərəkdir mənə,
Adımı vüqarla daşımaq üçün.
Nəsimi taleyi gərəkdir mənə,
Həyatda mərdanə yaşamaq üçün.
Özümü, sözümü böyük sanmağa,
Əslimlə, nəslimlə qürurlanmağa,
Ən ağır saatda, ən çətin gündə,

Əsl qoçaqlıqla yerimək üçün,
Şairlər yanında, ərlər içində,
Başı ucalıqla yerimək üçün...
Nəsimi taleyi, Nəsimi yası,
Doğma dilim qədər gərəkdir mənə.
Deyirəm: - bu ölməz ölümə alqış,
Heç zaman basılmaz bir ordudur o.
Əsrlər köksünə qanla yazılmış,
İlkin vəsiqəmdir, pasportumdur o...
Nəsimi taleyi gərəkdir mənə,
O ölüm xalqımın ucalığıdır,
O ölüm xalqımın bacarığıdır,
Ən uca, ən yüksək zirvəmdir mənim.
Qorxaq adamlara zərbəmdir mənim.
Milli qürurumdur, məhəbbətimdir,
Bu ulu faciə səadətimdir.
Nəsimi taleyi gərəkdir mənə,
Şerimin, sözümün qüdrəti üçün,
Şairlə mərdliyin vəhdəti üçün.

MƏNSUBİYYƏT KATEQORİYASI (КАТЕГОРИЯ ПРИНАДЛЕЖНОСТИ)

Mənsubiyyət kateqoriyası bir varlıq, əşya və hadisənin digər varlıq, əşya və hadisəyə münasibətini, aidliyini bildirir.

Категория принадлежности указывает на отношение принадлежности между лицами и предметами.

Azərbaycan dilində isimlər əşyanın şəxsə (kimə və nəyə) mənsub olmasına görə dəyişir. Bu dəyişmə mənsubiyyət şəkilçilərinin köməyi ilə yaranır. Əşyanın hansı şəxsə mənsubluğunu bildirən şəkilçilərə mənsubiyyət şəkilçiləri deyilir. Mənsubiyyət şəkilçiləri əşyanın I, II və III şəxslərə mənsub olduğunu bildirir. Bunu aşağıdakı cədvəldə görmək olar.

В азербайджанском языке существительные изменяются в зависимости от принадлежности предмета к тому или иному лицу, предмету. Эти изменения выражаются при помощи аффиксов. Аффиксами принадлежности называются те аффиксы, которые указывают на принадлежность предмета I, II, III грамматическим лицам. Это видно из следующей таблицы.

Tək		**Cəm**	
Şəxslər	Şəkilçilər və nümunələr	Şəxslər	Şəkilçilər və nümunələr
I şəxs mənim	**-m,-ım[4];** ata-m,ütü-m, bağ-ım, ev-im, top-um, üzüm-üm	**bizim**	**-mız[4], -ımız[4];** ata-mız, ütü-müz. bağ-ımız, ev-imiz, top-umuz, üzüm-ümüz
II şəxs sənin	**-n,-ın[4];** ata-n,ütü-n, bağ-ın, ev-in, top-un, üzüm-ün	**sizin**	**-nız[4],-ınız[4];** ata-nız, ütü-nüz, bağ-ınız, ev-iniz, top-unuz, üzüm-ünüz
III şəxs onun	**-ı[4],-sı[4];** bağ-ı. ev-ı, top-u, üzüm-ü, zəmi-si, ordu-su, ütü-sü	**onların**	**-ı[4],-sı[4];** bağ-ı, ev-i, top-u, üzüm-ü, ata-sı, zəmi-si, ordu-su, ütü-sü

III şəxsdə kəmiyyət bildirən şəkilçi yoxdur. Ona görə də, əşyanın üçüncü şəxsin təkinə və cəminə aidliyini bildirmək üçün sintaktik vasitədən istifadə olunur.

Для указания множественного числа III лица нет специального аффикса. В этих целях используются синтаксические средства выражения единичности и множественности.

Məsələn: onun kitabı - onların kitabı, onun dəftəri, onların dəftəri və s.

Rus dilində mənsubiyyət kateqoriyası yoxdur. Bu münasibəti ifadə etmək üçün leksik vasitələrdən istifadə olunur.

В русском языке нет грамматической категории принадлежности. Для выражения этих отношений используются лексические средства:

Məsələn: **kitabım** – моя книга, **kitabın** – твоя книга, **kitabı** - его (ее) книга, **kitabımız** – наша книга, **kitabınız** – ваша книга.

HAL KATEQORİYASI
(КАТЕГОРИЯ ПАДЕЖА)

Hal kateqoriyası qrammatik kateqoriya olub, cümlədə isimlərin başqa səxslərlə sintaktik əlaqəsini göstərir. Azərbaycan dilində 6 hal vardır. Halların forma-şəkilciləri və sualları belədir.

Падеж – это грамматическая категория, показывающая синтактическую связь существительного с другими словами в предложении. В азербайджанском языке имеется шесть падежей. Вопросы и формальные показатели падежей следующие.

1. Adlıq hal (Именительный падеж): **kim? nə? hara?** (кто? что?).

2.Yiyəlik hal (Родительный падеж): **kimin? nəyin? haranın?** (кого? чего?) **(-ın, -in, -un, - ün)**.

3. Yönlük hal (Дательный падеж): **kimə? nəyə? haraya?** (кому? чему?) **(-a, -ə)**.

4. Təsirlik hal (Винительный падеж): **kimi? nəyi? haranı**? (кого? что?) **(-ı, -i, -u, -ü)**.

5. Yerlik hal (Творительный падеж): **kimdə? nədə? harada?** (кем? чем?) **(-da, -də),**

6. Çıxışlıq hal (Предложный падеж): **kimdən? nədən? haradan**? (о ком? о чем?) **(-dan, -dən).**

Adlıq hal əşyanın adını, yiyəlik hal mənsubluq, sahiblik və ya aidliyini, yönlük hal iş və ya hərəkətin istiqamətini, təsirlik hal iş və ya hərəkətin obyektini, yerlik hal iş və ya hərəkətin icra olunduğu yerı, çıxışlıq hal hərəkətin çıxış nöqtəsini bildirir.

Существительное в именительном падеже употребляется для наименования, названия лица, предмета, явления: родительный падеж указывает на принадлежность, отношение предмета лицу или предмету; дательный падеж употребляется для обозначения направления действия; винительный падеж выражает объект действия; местный падеж употребляется для указания места совершения действия; исходный падеж обозначает исходное место действия.

Məsələn:

A. **daş** (камень), **küləк** (ветер)
Y. daşın (камня), **küləyin** (ветра)
Yn. daşa (камню), **küləyə** (ветру)
T. daşı (камень), **küləyi** (ветер)
Yer. **daşda** (в камне), **küləkdə** (в ветре)
Ç. daşdan (из камня), **küləkdən** (от ветра)

Azərbaycan dilində tək və cəm isimlərin hallanmasında fərq olmur.

В азербайджанском языке нет различия при склонении форм единственного и множественного числа имен существительных.

Müqayisə et:

Azərbaycan dilində

Tək	**Cəm**
A. şəhər, kitab	şəhərlər, kitablar
Y. şəhərin, kitabın	şəhərlərin, kilabların
Yn. şəhərə, kitaba	şəhərlərə, kitablara
T. şəhəri, kitabı	şəhərləri, kitabları
Yer. şəhərdə, kitabda	şəhərlərdə, kilablarda
Ç. şəhərdən, kitabdan	şəhərlərdən, kitablardan

Rus dilində

Единственное число	**Множественное число**
И. город, книга	города, книги
Р. города, книги	городов, книг
Д. городу, книге	городам, книгам
В. город, книгу	города, книги
Т. городом, книгой	городами, книгами
П. о городе, о книге	о городах, о книгах

■**Tapşırıq 85.** *Vətən, ana, həyat, göz, qələm sözlərinə I, II, III şəxsin tək və cəminin mənsubiyyət şəkilçilərini artırın, onları cümlələrdə işlədərək dəftərinizə yazın.*

■**Tapşırıq 86**. *Ölkə, sülh, ana, qatar, mühasıb sözlərini hallandırın, rus dilinə tərcümə edin.*

■**Tapşırıq 87**. *Özünüzə və ailə üzvlərinizə məxsus əşyalardan bəhs edən inşa yazın.*

■**Tapşırıq 88.** *Aşağıdakı mətnin məzmununu öyrənin.*

Xarici iqtisadi əlaqələr

Respublikamızın bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar son dövrlərdə xarici ölkələrlə iqtisadi, ticarət əlaqələri ildən-ilə genişlənməkdədir. Artıq ölkəmizdə iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri təmsil

edən dünyanın tanınmış firmalarının, şirkətlərinin nümayəndəlikləri, filialları fəaliyyət göstərir. Eyni zamanda, respublikamızda təsisçisi xarici hüquqi və fiziki şəxslər olan, yaxud müştərək müəssisə kimi iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən xeyli firma və şirkət vardır. Bütün bu göstərilənlərlə yanaşı, yerli müəssisələrin də əksəriyyəti xarici ticarətlə məşğul olur. Hər gün respublikamızın gömrük sərhədindən müvafiq müəssisələr tərəfindən böyük həcmdə mal-material idxal (ixrac) olunur. Diqqət yetirdiyimiz bütün bu iqtisadi proseslər AR Gömrük Məcəlləsi və idxal-ixrac əməliyyatlarının tənzimlənmasi qaydalarına uyğun şəkildə həyata keçirilir.

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilmə qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsi gömrük işi adlanır. Gömrük orqanlarının əsas funksiyaları bunlardır: gömrük siyasətini işləyib hazırlamaq, icrasına nəzarət etmək, gömrük işində müəssisə və sahibkarlara kömək etmək, ölkənin iqtisadi təhlükəsizliyini və mənafeyini qorumaq, gömruk sərhədində olan pozuntuların qarşısını almaq, xarici iqtisadi fəaliyyətin gömrük statistikasını, mal nomenklaturasını aparmaq, öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçirmək, gömrük sahəsində beynəlxalq öhdəlikləri yerinə yetirmək, bu sahədə elmi-tədqiqat işləri aparmaq və s.

Müvafıq sahədə çox işlənən bəzi terminlərin izahı:

Deklarant (bəyannaməçi) - gömrük rəsmiləşdirilməsi məqsədilə malları və nəqliyyat vasitələrini bəyan edən, göstərən hüquqi şəxs;

Gömrük ödənişləri - müəyyən olunmuş qaydada AR gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, hüquqi və fiziki şəxslərə gömrük fəaliyyəti üçün lisenziyaların verilməsinə görə alınan yığımlar, haqlar və digər ödənişlər;

Gömrük rüsumları - AR gömrük orqanları tərəfindən AR-nın gömrük ərazisində malların idxalı və ixracı zamanı alınan ödənişlər;

Daşıyıcı - faktiki olaraq malları keçirən şəxs və ya nəqliyyat vasitələrinin istifadəsi üçün məsul olan şəxs;

Gömrük brokeri - qanunvericiliyə uyğun olaraq yaradılan və gömrük işi sahəsində müəyyən haqq almaqla vasitəçilik edən hüquqi şəxs;

Kvota - müəyyən dövlətlərə idxal və ixrac olunan mallara dəyər və kəmiyyət hallarının tətbiq edilməsi;

Rüsumsuz ticarət mağazası - mallardan gömrük rüsumları, vergilər alınmadan respublikanın gömrük ərazisində həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimi.

Azərbaycan Respublikasında bütün şəxslər (rezidentlər) tərəfindən idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi müvafiq qaydalarla tənzimlənir.

İdxal-ixrac əməliyyatlarının müvafiq qaydalarda nəzərdə tutulmayan digər formaları bütün rezidentlər tərəfindən sərbəst surətdə həyata keçirilir.

(A.Kazımov «Mühasibat uçotu, vergilər». Bakı, 2001, s. 142)

TƏŞKİLATİ STRUKTURUN ƏSAS NÖVLƏRİ

Təşkilati struktur sxemi bölmələrin və vəzifələrin, onların arasında əlaqənin xarakterinin statistik vəziyyətini əks etdirir.

Xətti-funksional struktur. Müəssisənin təşkilati strukturunda funksional elementlərin mövcudluğu rəhbərlərin yüksək idarəetmə və lider keyfiyyətlərindən istifadə olunmasına və dar ixtisaslaşmış sahələrdə savadlı, əsaslandırılmış qərarların qəbulunu daim zəruri edir.

Divizional struktur. Keçid iqtisadiyyatında müəssisələrin təşkilati yenidən qurulmasının nəzərəçarpan meyillərindən biri idarəetmə strukturunun ayrı-ayrı həlqələrinin müstəqilliyinin əhəmiyyətli dərəcədə artırılması və onun əsasında qız firmaların yaradılmasıdır. İri şirkətlərin ətrafında dəyişən tələbə daha tez uyğunlaşan kiçik mobil firmalar şəbəkəsi formalaşır. Bunun sayəsində məhsul istehsal edən müəssisələrin istehlakçılara yaxınlaşması prosesi gedir və məhsulun realizasiyası genişlənir.

Ərazi strukturu - iri diferensiallaşmış firmalar üçün xüsusilə cəlbedicidir. Coğrafi regionlarda anoloji işgüzar əməliyyətların aparıldığı hallarda bu forma tətbiq edilir. Ərazi strukturlaşması o hallarda effektiv hesab edilir ki, onun məqsədi təkcə qərarların qəbulu prosesində deyil, həm də müəssisənin kommersiya əməliyyatlarının lokallaşdırılması hesabına vəsaitlərin qənaətində lokal həlqələrin iştirakçılarını stimullaşdırmaqdan ibarətdir. Bu strukturun seçilməsi zamanı xərclərin azaldılması amili əsas götürülür. Müəssisənin yerləşdiyi rayonun seçilməsi nəqliyyat xərclərinin azaldılmasına edilən cəhd əsasında həyata keçirilə bilər. Yerli amillər nöqteyi- nəzərindən ərazi təşkilati strukturdan istifadə edilməsi bəzi əlavə üstünlüklərə səbəb olur. Daha doğrusu, yerli əhali üçün yeni iş yerləri yaradılmasına, nəqliyyat xərclərinin azaldılmasına və tələbatın öyrənilməsinə imkan verir.

"Biznesin təşkili və idarə edilməsi" kitabından, s.224

XƏBƏRLİK KATEQORİYASI
(КАТЕГОРИЯ СКАЗУЕМОСТИ)

Azərbaycan dilində isimlər xəbər vəzifəsində işlənə, xəbər məzmunu ifadə edə bilir.

Rus dilindən fərqli olaraq, Azərbaycan dilində isim (başqa adlar, eləcə də əvəzlik, hətta məsdər, feli sifət) xüsıısi şəkilçilər vasitəsilə (felin köməyi olmadan) qrammatik cəhətdən formalaşmış xəbər kimi çıxış edir.

Существительные в азербайджанском языке могут употребляться в роли сказуемого, могут выражать значение сказуемого.

В отличие от русского языка, в азербайджанском языке имя существительное (другие именные части речи, а также местоимение, даже неопределенная форма глагола и причастие) посредством специальных аффиксов (без участия глагола) выступает как грамматически оформление сказуемое.

Məsələn: Mən mühəndisəm. Sən mühəndissən. O mühəndisdir. Biz mühəndisik. Siz mühəndissiniz. Onlar mühəndisdirlər.

Xəbərlik şəkilçiləri aşağıdakılardır:

Tək

I ş. **-am, -əm**: müəlliməm *(*я учитель), tələbəyəm (я студент);

II ş. **- san, -sən**: müəllimsən (ты учитель), tələbəsən (ты студент);

III ş. **–dır, -dir, - dur, -dür:** müəllimdir (он учитель), tələbədir (он студент)

Cəm

I **ş. -ıq, -ik, -uq, -ük: müəllimik** (мы учителья), tələbəyik (мы студенты);

II **ş. -sınız, -siniz, -sunuz, -sünüz: müəllimsiniz** (вы учителя), tələbəsiniz (вы студенты);

III ş. **-dır(lar), -dir(lər), -dur(lar), -dür(lər); müəllimdirlər** (они учителя), tələbədirlər (они студенты);

■**Tapşırıq 89.** *Xəbərlik şəkilçisi qəbul etmiş sözləri seçin:*

qəsəbə, iqtisadçıdır, şagirdsiniz, həkim, sahibkar, anayam, mühasibdir, maliyyəçidirlər, müstəntiq, menecer.

■**Tapşırıq 90.** *Bir neçə sözü xəbərlik kateqoriyasına görə dəyişin.*

■**Tapşırıq 91.** *Aşağıdakı mətnin məzmununu öyrənin.*

TƏŞKILATİ STRUKTURUN SEÇİLMƏSİNİ MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR

...Müasir dövrdə idarəetmənin təşkilati strukturunun seçilməsi problemi müəssisə, firma və şirkətlər üçün aktualdır. Bu gün müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətindəki uyğunsuzluqların böyük əksəriyyəti, ilk növbədə onların təşkilati strukturlarının təkmil olmaması ilə izah edilir. İdarəetmənin təşkilati strukturunun formalaşmasının elmi əsaslandırılması təsərrüfat subyektlərinin bazar iqtisadiyyatına uyğunlaşdırılmasının ən aktual məsələsidir. Müasir bazar münasibətləri şəraitində sistemli yanaşma əsasında müəssisənin təşkilati strukturunun formalaşması prinsipi və metodlarından geniş istifadə edilməsi vacibdir.

Təşkilati layihələndirmə prosesi rasional idarəetmə struktur modelinə ardıcıl yaxınlaşmadan ibarətdir. Burada layihələndirmə metodları təşkilati qərarların ən effektiv variantlarının qiymətləndirilməsi və praktiki reallaşdırılması zamanı ikinci dərəcəli rol oynayırlar. Eyni zamanda, bir-birini qarşılıqlı tamamlayan metodlar mövcuddur:

Dövlət əmlakının özəlləşdirilməsi prosesində Azərbaycan Respublikasında müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektləri, o cümlədən biznesin təşkilinin effektiv forması kimi səhmdar cəmiyyətləri və holdinq şirkətləri yaradılmışdır.

Müəssisənin məqsədlərinə yüksək dərəcədə cavab verən və konkret fəaliyyət şəraitini nəzərə alan idarəetmənin təşkilati strukturunun seçilməsi ona təsir edən bütün amillərin ətraflı təhlili, təşkilati strukturun müxtəlif tiplərinin üstün və nöqsan cəhətlərinin aşkara çıxarılması əsasında həyata keçirilməlidir.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.234

İSİMLƏRİN QURULUŞCA NÖVLƏRİ (ВИДЫ ИМЕН СУЩЕСТВИТЕЛЬНЫХ ПО СОСТАВУ)

Azərbaycan dilində isimlərin quruluşca üç növü vardır: sadə, düzəltmə, mürəkkəb.

По структуре существительные в азербайджанском языке бывают трех видов: простые, составные, сложные.

1. Sözdüzəldici şəkilçi qəbul etməyən isimlər sadə isimlərdir.

Существительные, не имеющие словообразовательных аффиксов, называются простыми.

Məsələn: əmtəə, iş, su, böhran, veksel, ticarət.

2. Düzəltmə isimlər müvafıq sözdüzəldici şəkilçilər artırmaqla isim, sifət, say, əvəzlik və feldən düzəlir. Düzəltmə isimlərin məhsuldar sözdüzəldici şəkilçiləri aşağıdakılardır:

Производные существительные образуются от существительных, прилагательных, числительных, местоимений и глоаголов путем прибавления соответствующих словообразовательных аффиксов. Нижеследующие аффиксы являются наиболее продуктивными аффиксами производных существительных:

-çı, -çi, -çu, -çü: iqtisadçı (экономист), üzgüçü (плавец), **nağaraçı** (барабанщик), **dulusçu** (гончар);

-lı, -li, -lu, -lü: moskvalı (москвич), **evli** (женатый), **Sultanlı** (Султанлы), **könüllü** (доброволец), **duzlu** (соленый);

-lıq, -lik, -luq, -lük: daşlıq (каменистая местность), **çeviklik** (ловкость), **bolluq** (обилие), **güllük** (цветник);

-daş: sirdaş (задушевный друг), **əməkdaş** (сотрудник);

-stan: Özbəkistan (Узбекистан), **Türkmənistan** (Туркменистан);

-ış, -iş, -uş, -üş: baxış (взгляд), **düzəliş** (поправка), **uduş** (выигрыш), **dönüş** (поворот);

- qın, -ğın, -qun, -ğun; -kin, -gin, -kün, -gün: qaçqın (беженец), **köçkün** (переселенец), **uyğun** (схожий, соответствующий);

-acaq, -əcək: dayanacaq (остановка), **gələcək** (будущее).

Mürəkkəb isimlər iki və daha artıq sözün birləşməsindən düzəlir.

Сложные существительные образуются от двух или более слов.

Məsələn: Şah dağı, Azərbaycan Dövlət İqtisad Universiteti, Çənlibel, çobanyastığı, tozsoran, yelqovan, alış-veriş, ələzyuyan, ayrıseçkilik.

■**Tapşırıq 92.** *Düzəltmə və mürəkkəb isimlər düzəldib dəftərinizə yazın.*

■**Tapşırıq 93.** *Mətni köçürün, düzəltmə və mürəkkəb isimləri seçib ayrıca yazın.*

Azərbaycan

Azəzbaycan – təbiətin zər qarışıq nur damlası,
Nə gözəldir yurdumuzun Azərbaycan adlanması.

Qoca Şərqin qapısı olan Azərbaycan qədim diyardır. Elə qədimdir ki, onun yarandığı tarixi hələ də bilən yoxdur. Tarixi mənbələrdə deyilir ki, Azərbaycanın ərazisi Həmədan - Zəncan şəhərlərindən başlayır, Dərbəndə qədər uzanırmış. Belə rəvayət edirlər ki, «Azərbaycan» sözü Nuh peyğəmbərin övladlarından olan Azarbaycanın adı ilə bağlıdır. Başqa bir mənbədə deyilir ki, məmləkətimizin adı «Atrobatan» sözündən

əmələ gəlibdir. «Atrobatan» sözünün mənası isə «Atəşlər vilayəti» deməkdir.

Qədim zamanlarda Azəri xalqı, yəni bu torpaqda yaşamış bizim əcdadlarımız atəşə inanan, atəşpərəst olmuşlar. Hələ çox-çox qədim zamanlarda Zərdüştün vətəni - Azərbaycan bütün şərq atəşpərəstlərinə bir məbəd olmuşdur. Azərbaycan torpağı qədim insan məskənlərindən biri olmuşdur. Azıx mağarasında tapılan əşyalar sübut edir ki, dünyada dördüncü qədim insan məskəni Azərbaycan torpağında olmuşdur.

Qədimdə Azərhaycan torpağının cənub hissəsi Manna -Midiya, şimal hissəsi Ağvan - Arran, indi Şirvan deyilən bölgə isə Albaniya adlanırdı.

Şərq və qərbin qapısında yerləşən Azərbaycan torpağı bütün əsrlər boyu müharibələr nəticəsində əldən-ələ keçmiş, çapılıb talanmış, şəhərləri viran edilmişdir. Bütün bu müharibələr dövründə Azərbaycanın qəhrəman övladları və şir ürəkli qızları öz torpaqlarını qanları, canları bahasına müdafiə etmiş, xalqımızı azadlığa çıxarmağa çalışmışlar. Dünyada Amazonka adı ilə məşhur olan Tomris nənəmiz, Girdman dövlətinin başçısı Cavanşir, Xürrəmilər qəbiləsinin başçısı Babək, Atabəy Məhəmməd Cahan pəhləvan, tarixdə Uzun Həsən adı ilə şöhrət tapmış Uzun Həsən, Şah İsmayıl Xətai, Koroğlu, Qaçaq Nəbi, Səttarxan, Seyid Cəfər Pişəvəri, Məhəmməd Əmin Rəsulzadə və başqa xalq qəhrəmanlarımız zaman-zaman öz xalqını və Azərbaycan torpağını azad və müstəqil görmək istəmişlər.

Azad və müstəqil Azərbaycan!

Belə bir dövlət 1501-1525-ci ildə xalqımızın qəhrəman oğlu Şah İsmayıl Xətai tərəfindən yaradılmışdı. Böyük sərkərdə və istedadlı şair Şah İsmayıl Xətai öz ağlı, cəsarəti, siyasəti və xalqımızın birliyi nəticəsində qısa bir müddətdə Azərbaycan torpaqlarını - Ərdəbili, Şirvanı, Qazaxı, Naxçıvanı, İrəvanı, Urmiyanı, Dərbəndi yağı düşmən əlindən xilas edib, paytaxtı Təbriz şəhəri olan vahid Azərbaycan dövlətini yaratdı. Azərbaycan dilini dövlət dili elan etdi.

Şah İsmayıl Xətainin dövründə Təbriz şəhəri dünyada məşhur mədəniyyət mərkəzlərindən birinə çevrildi.

Azərbaycan dövlətinin başçısı görkəmli sərkərdə və şair Şah İsmayıl Xətai Azərbaycanda olan bütün görkəmli alim, şair, filosof və rəssamları Təbrizə toplamışdı. Məşhur rəssam Kəmaləddin Behzadı sarayda olan kitabxanaya rəis təyin etmişdi. Kitabxana 1826-28-ci illərdə Rus-İran müharibəsi zamanı rus generalı Suxtelin, yazıçı və səfir Qriboyedov tərəfindən məhv edildi. Həmin illərdə onlar Peterburqdan məxfi məktub alırlar. Bu məxfi məktubda onlara göstəriş verilir ki, nə yolla olursa-olsun kitab və əlyazmaları Peterburqa göndərsinlər. Göndərmək müm-

kün olmadıqda isə məhv etsinlər, yandırsınlar. 1828-ci ildə Qriboyedov və general Suxtelinin rəhbərliyi ilə əmr yerinə yetirilir. Azərbaycanın qədim tarixinə aid olan kitab və əlyazmaların çoxu Peterburqa göndərilir. Bir qismini ermənilər ələ keçirir. Qalan hissəsi isə yandırılıb məhv edilir.

Bəli, 1828-ci ildə qədim Azərbaycanın qədim tarixi beləcə məhv edildi.

1828-ci il. Bu tarix biz azəri türkləri üçün acı bir tarixdir. Daima yad ediləcək və unudulmayacaq bir tarix. Çünki bu tarixdə vahid Azərbaycan torpağını rus imperialistləri və farslar öz istədikləri kimi rəsmən iki yerə bölmüşlər. Araz çayı sərhəd olmaqla cənub torpaqlarımız farsların caynağına, şimal torpaqlarımız isə rus imperiyasının caynağına keçdi.

Əsrlər boyu tariximizə edilən qəsdə baxmayaraq, qədim şəhərlərimiz tariximizi sinəsində, köksündə qoruyub saxlaya bilmişdir. Bərdə, Gəncə, Təbriz, Marağa, İrəvan, Ərdəbil, Naxçıvan, Şirvan, Urmiya, Beyləqan, Dərbənd, Şəmkir - qədim tariximizin yadigar şəhərləridir. Bütün bu qədim şəhərlərimiz haqqında ən qədım kitablarda - Strabonun, tarixin atası sayılan Heredotun, Venetsiya səyyahı Marko Polonun kitablarında dönə-dönə məlumat verilir.

Hər bir xalqın həyatında ona sevinc və kədər bəxş edən günlər, tarixlər mövcuddur. Azərbaycan xalqının sevincli günlərindən biri də 1918-ci il may ayının 28-də olmuşdur. Şah İsmayıl Xətainın yaratdığı müstəqil dövlətdən 370 il sonra iki yerə bölünmüş Azərbaycanın şimal hissəsində Məhəmnıəd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyi və suverenliyi elan edildi. Azərbaycan Demokratik Cümhuriyyəti yarandı.

Bu cümhuriyyətin başlıca vəzifəsi Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun bir qarışını da heç kimə verməmək idi, həmin il respublikada rəsmi dil azəri türkcəsi elan edildi. İctimai həyatın bəzi sahələrində xeyli iş görüldü.

Azərbaycan Demokratik Cümhuriyyətinin 23 aylıq ömrü çox ağır şəraitdə keçdi. Duşmənlər - rus imperializmi, ermənilər xalqımızın azadlığı və xoşbəxtliyi uğrunda çalışan Azərbaycan Demokratik Cümhuriyyətinin yaşamasına imkan vermədilər. Həmin bu tarixdə Azərbaycan torpağı Leninin göstərişi ilə XI Qızıl Ordu tərəfindən işğal edildi.

1920-ci il 28 aprel azəri türklərinin taleyində kədərli bir tarixdir. Həmin bu tarixdə Azərbaycan torpağı Rusiyanın xammal bazasına çevrildi. Azərbaycan torpaqlarının bir hissəsindən və öz sərvətlərindən məhrum edildi. Keçən 82 il ərzində ayrı-ayrı sahələrdə bəzi nailiyyətlər qazansaq da, xalqımız həmişə başıqapazlı olmuş və torpaqlarımız hissə-hissə əlimizdən alınıb ermənilərə peşkəş verilmişdir.

1920-ci il. Xalqımızın tarixində kədərli bir tarix. Həmin bu ildə erməni dığaları Mikoyanın, Şaumyanın təklifi ilə Naxçıvanı Azərbaycandan ayrı saldılar. Rus imperiyası Azərbaycanın Zəngəzur və Göyçə mahalını camaatı ilə birlikdə ermənilərə verdi. Həmin vaxtdan Azərbaycan

torpaqları ermənilər tərəfindən zəbt edilir, tutulur. Bugünkü müsibətimizin təməli həmin illərdə qoyulmuş və ildən-ilə inkişaf edib bu mərhələyə çatmışdır.

Bəli, dönüb keçmişə nəzər salsaq, görərik ki, tarix təkrar olunur. 84 il bundan qabaq 1918-ci ildə ermənilər və ruslar tərəfindən xalqımızın və torpaqlarımızın başına gətirilən hadisələr eyni ilə təkrar olunur. 1918-ci ildə ermənilər Şamaxıda, Kürdəmirdə, Lənkəranda, Salyanda, Qubada, Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. 1918-ci il 11 mart ayının 31-də ermənilər 17 min günahsız azərbaycanlını öldürdülər. Tarix təkrar olunur...

1990-cı il 20 Yanvar qırğını, 1993-cü il Xocalı faciəsi, Laçın, Zəngilan, Kəlbəcər müsibəti. Budur, tarixin təkrarı.

Bəli, tarixə nəzər salsaq, görərik ki, Azərbaycan bütün əsrlərdə öz gözəl təbiəti və münbit torpaqları ilə yadellilərin diqqətini cəlb etmiş, başı çox bəlalar çəkmiş və çəkməkdədir. SSRİ dağılandan sonra Azərbaycan özünün müstəqilliyini elan etdi. Azərbaycan torpağının - neftinin, pambığının əldən çıxdığını görən rus imperiyası 12 ildir kı, nankor ermənіləri üstümüzə qısqırdır. 12 ildir ki, mərd oğul və qızlarımız Azərbaycanın azadlıq və müstəqilliyini öz canları və qanları bahasına qoruyur. 12 ildir ki, Azərbaycan xalqı öz yerindən, yuvasından didərgin düşüb. Didərgin düşmüş qeyrətli qız-gəlinlərimiz vətən oğullarını düşməndən qisas almağa çağırır.

(Mətn S.Zamanlının «Sinifdənxaric oxu materialları» kitabından götürülnüşdür. Bakı, 2000, s. 73-77)

SİFƏT
(ИМЯ ПРИЛАГАТЕЛЬНОЕ)

Əşyanın əlaməti və keyfiyyətini bildirən nitq hissəsi sifət adlanır. Sifət necə? nə cür? hansı? suallarından birinə cavab verir və həmişə ismə aid olur.

Часть речи, обозначающая признак и качество предмета, называется прилагательным. Прилагательное отвечает на вопросы necə? nə cür? hansı? и всегда относится к существительному.

Məsələn: yaşıl yarpaq, uzun dəhliz, dəyirmi masa, ağ kağız, gözəl qız, yaxşı oğlan, şirin çay yə s.

Azərbaycan dilində sifətlər iki yerə bölünür:

В азербайджанском языке прилагательные в зависимости от того какой признак ими обозначается делятся на два разряда, раздела:

I. Əsli sifətlər (Качественные прилагательные)

Əsli sifətlər əşyanın əlamətini bildirir. Əşyanın əlamətini bildirmək bu sözlərin kökündə olur.

Качественными прилагательными называются такие прилагательные, которые обозначают признак, свойства и качества предметов, воспринимаемых нами по преимуществу непосредственно, т.е. являются прямыми наименованиями признаков.

Əsli sifətlərin bir sıra məna növləri var:

Качественные прилагательные обозначают:

a) rəng bildirənlər (цвет): ağ, qırmızı, göy, qara, çəhrayı, qəhvəyi və s.;

b) əşyanın fiziki cəhətdən xüsusiyyətini büdirənlər (внешние признаки предметов по их физическим признакам): şirin, acı, turş, yüngül və s.;

c) məkan və həcm cəhətdən əlamət bildirənlər (признаки пространства и объема): hündür, gödək, uzaq, alçaq, qısa, böyük, uca, gen, dar və s.;

ç) əşyaların zahiri əlamətlərini göstərənlər (внешние признаки предметов): gənc, cavan, qoca, kök, arıq, yumru, yastı-yapalaq və s.;

d) insanların (bəzən də heyvanların) daxili, psixoloji keyfiyyətini göstərənlər (психологические качества людей, животных): məzəli, şirindilli, uzunömürlü, mehriban, mədəni, zərif (insan), bəd (it) və s.;

II. Nisbi sifətlər (Относительные прилагательные)

Nisbi sifətlər əşyanın əlamətini birbaşa deyil, aid olduğu əşyaya görə bildirir:

Относительными называются прилагательные, которые обозначают признак не прямо, а через его отношение к другому предмету, явлению или действию т.е. опосредованно.

Məsələn: dadlı, dadsız, duzlu, duzsuz, qumluq, daşlıq, dünənki, bildirki və s.

■**Tapşırıq 94.** ***Çəhrayı, xurmayı, qısa, böyük, gənc, cavan, yumru, şirindilli, uzunömürlü, mehriban*** *sözlərini cümlələrdə işlədin və rus dilinə tərcümə edin.*

■**Tapşırıq 95.** *Əsli və nisbi sifətlərə aid nümunələr yazın, həmin nümunələri cümlələrdə işlədin.*

SİFƏTİN QURULUŞCA NÖVLƏRİ
(СТРУКТУРНИЕ ВИДЫ ПРИЛАГАТЕЛЬНЫХ)

Sifətin quruluşca üç növü var: sadə, düzəltmə, mürəkkəb.

По структуре прилагательные бывают трех видов: простые, составные и сложные.

Sözdüzəldici şəkilçi qəbul etməyən sifətlər sadə sifətlərdir.

Прилагательные, не имеющие словообразовательных аффиксов, являются простыми.

Düzəltmə sifətlər aşağıdakı sözdüzəldici şəkilçilər vasitəsilə isim və fellərdən əmələ gəlir.

Производные прилагательные образуются от существительных и глаголов с помощью следующих аффиксов.

a) **-lı, -li, -lu, -lü: dad** (вкус) - **dadlı meyvə** (вкусный фрукт), **en** (ширина) - **enli küçə** (широкая улица); **duz** (соль) -**duzlu balıq** (соленая рыба), **gül** (цветок) - **güllü çit** (цветной ситец);

b) **-sız, -siz, - suz, -süz: yağ** (масло) - **yağsız ət** (нежирное мясо), **ət** (мясо) - **ətsiz şorba** (суп без мяса), **su** (вода) – **susuz səhra** (безводная пустыня), **sümük** (кость) - **sümüksüz ət** (мясо без костей) və s.;

c) **-ıq, -ik, -uq, -ük: aç**-(открыть) - **açıq qapı** (открытая дверь), əz-(мять) - **əzik paltar** (помятая одежда) və s.;

ç) **-ağan, -əyən: qaç** (беги) - **qaçağan uşaq** (бегущий ребенок) və s.;

d) **-qın, -kin, -qun, -gün, -ğın, -gin, -ğun, -gün: satqın** (düşmən) – враг, изменник, **azğın** (adam) – заносчивый (человек), **kəskin** (soyuq) - резкий (холод), **gərgin** (iş) – напряженная (работа), **tutqun** (hava) - мрачная (погода), **küsgün** (baxışlar) - обидные (взгляды), **solğun** (bəniz) – бледное (лицо), **süzgün** (baxışlar) – ласковые, нежные (взгляды) və s.;

e) **-qan, -kən: çalışqan** (tələbə) – прилежный (студент), **sürüşkən** (yer) - скользская (местность) və s.;

ə) **-unc, -ünc: qorxunc** (hadisə) – опасное (происшествие), **gülünc** (vəziyyət) - смешное (положение) və s.;

Mürəkkəb sifətlər iki sözün birləşməsindən düzəlir. Bu sözlər müxləlif nitq hissəsinə aid ola bilər.

Сложные прилагательные образуются путем объединения двух слов. Эти слова могут принадлежать разным частям речи.

Məsələn: hazırcavab (oğlan) - остроумный (мальчик), **beşmərtəbəli** (ev) - пятиэтажный (дом), **soyuqqanlı** (adam) –хлоднокровный (человек), **ölkələrarası** (saziş) - (контракт) между странами, **dağüstü** (park) - нагорный (парк), **əyri-üyrü** (yol) - неровная (дорога), **uzunsaç** (qız) – длинноволосая (девочка).

■**Tapşırıq 98.** *Sifətləri quruluşuna görə təyin edin və cümlə daxilində işlədin:*

maraqlı, xurmayı, dadsız, biliksiz, şirin, uca, duzlu, acı, sulu, ütülü, azğın, gərgin, şirindilli, uzunsaçlı, mübahisəli, güllü-çiçəkli, daşlı-kəsəkli, irili-xırdalı, üzunömürlü, duru, göy, qəhvəyi.

■**Tapşırıq 99.** *Aşağıdakı sifətlərə əks mənalı sifətlər (antonimlər) tapıb, qarsısından yazın:*

şirin, böyük, uzun, isti, ağ, dadlı, hündür, yaxşı, geniş, qoca, balaca, qısa, pis, dar, ağır, alçaq, dadsız, qara, acı, yüngül, soyuq, cavan.
Nümunə: şirin - acı.

■**Tapşırıq 100.** *Aşağıdakı sözləri müqayisə edin, aralarındakı fərqi müəyyənləşdirmək ücün suallardan istifadə edin:*

maraqlı Sultanlı
tərbiyəli Ələkbərli
ütülü Məmmədli
dözümlü qarabağlı
istedadlı dağıstanlı
şüurlıı qafqazlı
istəkli sirvanlı

■**Tapşırıq 101.** *Asağıdakı sözlərə* ***-lı, -li, -lu, -lü*** *şəkilcisinin uyğun variantını artırın və alınmış sözlərin hansı suallara cavab verdiklərini gostərin.*

dad + məzə +
yağ + qoxu +
bağ + gülmə +
aynabənd + kədər +
ütü + güc +
söz + maraq +

■**Tapşırıq 102.** *Aşağıdakı sözləri müqayisə edin, aralarındakı fərqi müəyyənləşdirmək üçün suallardan istifadə edin*

qanacaqlı Aləmşah
bacarıqlı Xanımana
süurlu Abasqulu ağa Bakıxanov
dözümlü Şah Abbas Cənnətməkan
qiymətli Məhsəti xanım Gəncəvi
istedadlı Maralgöl

■**Tapşırıq 103.** ***İxtisas, israf, maya dəyəri, əmək birjası, investisiya, dövriyyə pulu*** *söz və söz birləşmələrini cümlə daxilində işlədin və rus dillnə tərcümə edin.*

Xəlil Rza (Ulutürk)
(1932-1994)

Çıxdım Şuşa yaylağına,
Çeşmələrdə gözüm qaldı.
Endim İsa bulağına,
Çığırlarda izim qaldı.

Lap kiçik yaşlarından bədii ədəbiyyata böyük maraq göstərən Xəlil Rza ədəbiyyat müəllimi olmağı qarşısına məqsəd qoyur. Ali məktəbi bitirdikdən sonra uzun müddət müəllim işləyir. Gənc yaşlarından istedadlı şair kimi tanınır. Əsərlərində isə ən çox xalqımızın müstəqilliyi, vətənimizin azadlığı ideyaları əks olunur.

Rus sovet imperiyasına qarşı çıxan insanlarımız onun aşağıdakı misralarını oxuya-oxuya tankların üzərinə yeridilər:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi.
İstəyirəm səma kimi, günəş kimi, cahan kimi!

Vətənimizin müstəqilliyi uğrunda ön cərgədə gedən Xəlil Rza 1990-cı ilin 20 yanvar hadisəsindən sonra həbs edilərək Moskvaya aparıldı. Zindana salınan, işgəncələr verilən şairin iradəsini qırmaq, səsini batırmaq mümkün olmadı. Elə zindandaca azadlığı, müstəqilliyi təbliğ edən onlarla şeir yazdı.

O, oğlu Təbrizə bir neçə şeir həsr etmişdir. Bu əsərlərdə övladını vətənpərvər, qeyrətli görmək istəyən namuslu atanın məsləhətləri, öyüdləri əks olunub.

Oğlu Təbriz vətəninə və atasına layiq övlad oldu. Qarabağ uğrunda döyüşlərdə igidlik göstərdi, qəhrəmanlıqla həlak oldu. Ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

«Oğlum Təbrizə» şerini oxuyarkən diqqətli olun, sanki ata oğlunun gələcək taleyini – vətən uğrunda döyüşəcəyini əvvəlcədən duyubmuş:

Oğlum Təbrizə
(İxtisarla)

Qoy sənə doğulan günəş deyim ki,
Nurunla açılan al səhərəm mən.
Yeddi il yol gələn ay mənim ilkim,
Gəldiyin yollara gül düzərəm mən.
Bir evin qeyb olmuş səadətini,
Min evə qaytaran balamsan mənim.

Ən böyük sevincsən, ən müqəddəs qəm,
Məni od içinə atan Təbrizim.
Üzünə baxanda balam deyirəm,
Adını çəkəndə, babam Təbrizim!

Anan süd veribdir, fəqət mən sənə,
Köksümdə közərən odu vermişəm.
Seçib milyon-milyon adın içindən,
Dünyada ən gözəl adı vermişəm.

Bu gün yağış yağır…Qorxma yağışdan,
Tufanda, şimşəkdə bərkisin canın.
Sən mənim balamsan, mən sənin atan,
Biz bir cüt oğluyuq Azərbaycanın.

■**Tapşırıq 104.** *Şeri ifadəli oxuyun, oradakı sifətləri tapın və onların növünü gostərin:*

Xəlil Rza Ulutürk
Sual-cavab

Kimdir ən böyük şair?
Mənim babam Nizami.
Ən qəhrəman sənətkar?
İmadəddin Nəsimi.

İldırım sürətli at?
Koroğlunun Qıratı.
Qısa, qaynar bir həyat?
Cabbarlının həyatı.

Dünyada ən gözəl səs?
Xanın, Bülbülün səsi.

Ən doğma, gözəl ölkə?
Azərbaycan ölkəsi.

■**Tapşırıq 105.** *Mətnin məzmununu danışın.*

Şah İsmayıl Xətai
(1486 -1524)

Şah İsmayıl Xətai Azərbaycan xalqının qəhrəmanlıq rəmzidir. O, 1487-ci ildə Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Atası Şeyx Heydər, anası isə Uzun Həsənin qızı Aləmşah bəyimdir (Aləmşah bəyimin əsl adı Martadır. Martanın anası Trabzon imperatoru xristian IV İsanın qızı Dispinə xatundur. Şeyx Heydər Marta ilə evlənəndən sonra onun adını dəyişib Aləmşah bəyim qoymuş və onu xristianlıqdan döndərib müsəlman etmişdir).

Şah İsmayıl Xətai 2 yaşında olanda atası qızılbaş Şeyx Heydər Dərbənd yaxınlığındakı döyüşdə məğlub olur və onu öldürürlər. Hakimiyyətə gələn Ş.İ.Xətainin dayısı Sultan Yaqub Şeyx Heydərin ailəsini - öz bacısı Aləmşah bəyimi və onun oğlanları Sultanəlini, İbrahimi və iki yaşlı İsmayılı zindana saldırır. 1494-cü ildə İsmayılı ailəsi ilə birlikdə azadlığa buraxırlar. Ancaq bu azadlıq uzun çəkmir. İsmayılın digər dayısı Rüstəm Mirzə hakimiyyəti ələ keçirmək üçün döyüşdə İsmayılın qardaşlarını öldürür. Anası isə yad əllərə düşməmək üçün özünü zəhərləyib öldürür. Şeyx Heydərin dostları -qızılbaşlar yeddi yaşlı İsmayılı qaçıra bilirlər. Dayısı İsmayılı çox axtarır ki, öldürsün, ancaq tapa bilmir. Atasının dostu Hüseyn Lələ bəy İsmayılı 1499-cu ilə qədər gizlədir. Bu illərdə İsmayıl hərbi hazırlıq keçir, elm öyrənir, cəngavərlik və döyüş sirlərinə, babası Şeyx Səfinin hərbi təliminə yiyələnir.

1499-cu ildə İsmayıl yeddiminlik qızılbaş ordusu ilə əvvəlcə Ərdəbili, sonra Şamaxını və Bakını, daha sonra isə Naxçıvanı, Qazaxı, Qarabağı, Dərbəndi, Urmiyanı və başqa şəhərləri birləşdirib vahid Azərbaycan dövləti yaradır. 1501-ci ildə Təbrizə gəlib özünü şah elan edir. Beləliklə, böyük ərazisi, güclü qoşunu, xəzinəsi, müxtəlif ölkələrdə elçiləri olan vahid Azərbaycan - Səfəvilər dövlətini yaradır.

Şah İsmayıl Xətainin dövründə Təbriz şəhəri dünyada məşhur mədəniyyət mərkəzlərindən birinə çevrilir. Azərbaycanın iqtisadi gücü və siyasi nüfuzu artır. Azərbaycanın belə inkişaf edib güclənməsi kökü bizdən olan Osmanlı imperiyasının (türklərin) xoşuna gəlmir. Odur ki, 1514-cü ildə Osmanlı hökmdarı Sultan Səlim Azərbaycana hücum edir. Azərbaycanın Maku şəhəri yaxınlığında baş vermiş bu toqquşma tarixə «Çaldıran döyüşü» adı ilə daxil olmuşdur. Həmin döyüş üç gün davam etmiş, Şah İsmayıl Xətainin qoşunu məğlub olub geri çəkilmişdir. 1515-ci

ildə hər iki dövlət arasında sülh imzalanmışdır. Bu döyüş Şah İsmayıl Xətainin son döyüşü olur. Sonralar o bütün qüvvəsini Azərbaycan dövlətinin güclənməsinə, ölkənin abadlığına sərf edir. Şah İsmayıl Xətai Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafı üçün çox işlər görmüşdür. Belə deyirlər ki, Şah İsmayıl Xətai «Çaldıran döyüşü» zamanı sarayda olan məşhur rəssam Kəmaləddin Behzadla, usta Sultan Məhəmmədi gizlədibmiş ki, düşmən əlinə keçməsin.

Şah İsmayıl Xətai Azərbaycan dilində Xətai təxəllüsü ilə şeirlər yazmışdır. O, 38 il ömür sürmüş, 14 il hakimiyyət başında olmuşdur. Bu 14 il ərzində 14 əyalət (ölkə) fəth etmişdir. O, tarixə ədalətli şah, fateh, Azərbaycan xalqının milli qəhrəmanı və görkəmli şairi kimi daxil olmuş, xalqımızın qəlbində daim yaşayıb və yaşayacaqdır.

■**Tapşırıq 106.** *Aşağıdakı şeirləri əzbərləyin.*

Sah İsmayıl Xətai

Yalan söylər

Şu dünyanın ötəsinə,
Vardım deyən, yalan söylər.
Başdan-başa səfasını,
Sürdüm deyən, yalan söylər.

Arx qazarlar ağrın-ağrın,
Fələk çevirməkdə çarxın.
Bu dünyada malı-mülküm,
Vardır deyən, yalan söylər.

Quru ağacdan olur xəzəl,
Kəndi oxur, kəndi yazar.
Əhdi bütün, hüsnü gözəl,
Vardır deyən, yalan söylər.

Avçılar, avlarlar bazı,
Haqqa eylərlər niyazı.
Daim beş vaxt namazı,
Qıldım deyən, yalan söylər.

Şah Xətaim der-varılmaz,
Varılsa da gəlinməz.
Rəhbərsiz heç yol bulunmaz,

Buldum deyən, yalan söylər.

Deyin - şah mənəm

Allah-Allah, deyin, qazilər,
Qazilər, deyin şah mənəm.
Qarşu gəlin, səcdə qılın,
Qazilər, deyin, şah mənəm.

Uçmaqda tuti quşuyam,
Ağır ləşgər ər başıyam,
Mən sufilər yoldaşıyam,
Qazilər, deyin, şah mənəm.

Nə yerdə əkərsən bitərəm,
Xan da çağırsan yetərəm,
Sufılər, əlin tutaram.
Qazilər, deyin, şah mənəm.

Mənsur ilə darda idim,
Xəlil ilə narda idim,
Musa ilə Turda idim,
Qazilər, deyin, şah mənəm.

Qırmızı taclı, boz atlı,
Ağır ləşkər nisbətli,
Yusif peyğəmbər sifətli,
Qazilər, deyin, şah mənəm.

Xətaiyəm al atlıyam,
Sözü şakərdən tatlıyam,
Murtəza Əli zatlıyam,
Qazilər, deyın, şah mənəm.

SİFƏTLƏRİN DƏRƏCƏLƏRİ
(СТЕПЕНИ СРАВНЕНИЯ ПРИЛАГАТЕЛЬНЫХ)

Əşyaların əlamət və keyfiyyətlərini təyin etməsinə görə sifətlər dərəcələrə ayrılır. Sifətin üç dərəcəsi var: adi dərəcə, azaltma dərəcəsi, çoxaltma dərəcəsi.

Прилагательные различаются по степени выраженности признака и качества. Прилагательные имеют три степени: положительную, уменьшительную и превосходную.

1. **Adi dərəcəli** (положительная степень).

Adi dərəcəli sifətlər əlamət və keyfiyyətin normallığını bildirir, yəni morfoloji əlamətsiz, şəkilçisiz işlənir.

Прилагательные в положительной степени обозначают признак и качества безотносительно к степени, и выражаются без морфологического показателя, без аффикса.

Məsələn: **ağıllı** (uşaq) - умный (ребенок), **qırmızı** (qələm)- красный (карандаш), **hündür** (ağac) – высокое (дерево).

2. Azaltma dərəcəsi (уменшительная степень).

Azaltma dərəcəsində sifətlər əlamət və keyfiyyətin adi dərəcəyə nisbətən azlığını bildirir. Azaltma dərəcəsinin morfoloji əlamətləri aşağıdakılardır:

-ımtıl, -umtul, -ümtül, -mtıl, -raq, -rək, -mtraq, -ımtıraq, -sov, -şın.

Уменьшительная степень прилагательных обозначает недостаточность признака и качества по сравнению с положительной степенью. Морфологические показатели уменьшительной степени нижеследующие:

-ımtıl, -umtul, -ümtül, -mtıl, -raq, -rək, -mtraq, -ımtıraq, -sov, -şın.

Məsələn: qırmızımtıl (parça) – красноватая (ткань), **bozumtul** (köynək) - сероватая (рубашка), **göyümtül** (палтар) -голубоватая (одежда), **uzunsov** (taxta) - длинноватая (палка), **gödərək** (adam) - низковатый (человек), **yaxsıraq** (rəng) – приятный (цвет), **sarışın** (светлая) - светловатая (девочка) və s.

Bəzən azaltma dərəcəsi sintaktik yolla sifətlərin sonuna **təhər** sözü artırılmaqla düzəlir.

Иногда уменьшительная степень образуется синтактическим путем прибавления к прилагательному слова **təhər**.

Məsələn: sarı (rəng) – желтый (цвет), **sarı təhər** (rəng) – желтоватый (цвет).

Azaltma dərəcəsi sifətlərin əvvəlınə **açıq, ala** sözlərinin artırılması ilə də düzəlir.

Уменьшительная степень образуется также путем прибавления к началу слова **açıq, ala.**

Məsələn: göy (rəng) – голубой цвет, **açıq-göy** (rəng) – светло-голубой (цвет), **çiy** (çörək) - сырой (хлеб), **ala-çiy** (çö-rək) – недопеченный (хлеб) və s.

3. Çoxaltma dərəcəsi (превосходная степень).

Çoxaltma dərəcəsi əlamət və keyfiyyətin adi dərəcədəkindən çoxluğunu bildirir. Bu dərəcə morfoloji və sintaktik yolla yaranır.

Превосходная степень обозначает высокую степень признака или качества по сравнению с положительной степенью.

Çoxaltma dərəcəsinin morfoloji əlaməti aşağıdakılardır: sifətlərin birinci hecasına **p, m, r** səsləri əlavə olunaraq morfoloji yolla sifətin çoxaltma dərəcəsi düzəlir.

Морфологические показатели превосходной степени нижеследующие: к первому слогу прилагательного прибавляются звуки **p, m, r** и морфологическим путем образуется превосходная степень прилагательных.

Məsələn: qırmızı - qıpqırmızı (parça), - красная-яркокрасная (ткань); **yaşıl - yamyaşıl** (meşə) – зеленый – призеленый (лес); **təmiz - tərtəmiz** (su) – чистая-причистая (вода).

Çoxaltma dərəcəsi sintaktik yolla yaranarkən sifətlərin əvvəlinə **daha, ən, lap, çox** ədatları artırılır.

Синтактически превосходная степень образуется посредством частиц **daha, ən, lap, çox**.

Məsələn: ən gözəl (şəhər) – самый красивый (город); **lap geniş** (küçə) – совсем широкая (улица); **çox maraqlı** (kitab) –очень интересная (книга); **daha qiymətli** (hədiyyə) – более ценный (подарок).

■**Tapsırıq 107.** *Sifətin adi, azaltma və çoxaltma dərəcələrinə aid nümunələr yazın, həmin nümunələri quruluşuna görə müəyyənləşdirin.*

■**Tapşırıq 108.** *Aşagıdakı sifətləri dərəcələrinə görə qruplaşdırın:*

qapqara (parça), dümdüz (yol), çürük (meyvə), iti (bıçaq), şirintəhər (çay), ağıllı (uşaq), uzunsov (üz), gömgöy (dəniz), qırmızımtıl (çiçək), yamyaşıl (meşə), duru (su), ən böyük (çay), yaşıl (yarpaq), uzun (ip), qupquru (ot), tanış (adam), lap balaca (ağac), ən gözəl (saray), çox maraqlı (əsər).

Nümunə:

Adi dərəcə	**Azaltma dərəcəsi**	**Çoxaltma dərəcəsi**
Sarı (paltar)	Sarımtıl (paltar)	Sapsarı (paltar)

■**Tapşırıq 109.** *Aşağıdakı sifətləri cümlə içərisində işlədin:*

göy, gömgöy, yaşıl, yamyaşıl, yaşıltəhər.

■**Tapşırıq 110.** *Mətnin məzmununu öyrənin.*

Şah İsmayıl Xətai dövründə
Azərbaycan mədəniyyəti

XV əsrin ikinci yarısında Azərbaycan mədəniyyəti əvvəlcə Qaraqoyunlular və sonra Agqoyunlular hakimiyyəti dovründə canlanmağa başlamışdı. Təbriz şəhəri bütün Yaxın Şərqdə məşhur olan mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi.

Bu dövrdə Azərbaycan dilinin ədəbi dil kimi əhəmiyyəti artdı. Şah İsmayıl hakimiyyəti zamanı doğma dilimiz rəsmi dövlət dili səviyyəsinə qaldırıldı.

Səfəvilər zamanı Təbriz şəhərində çox məşhur alim, şair və rəssamlar toplaşmışdı.

Şah İsmayıl 1522-ci ildə rəssam Kəmaləddin Behzadı saray kitabxanasına rəis təyin etmişdi, «Şeyx Səfı kitabxanası» adı ilə məşhur olan bu kitabxananın əsası Şeyx Səfiəddin tərəfindən qoyulmuşdu (1300-1328). Şah İsmayıl Xətai və oğlu Şah Təhmasib (1587-1629) külli miqdarda kitab toplamış, kitabxananı misilsiz əlyazmalarla zənginləşdirmişdilər.

Səfəvilərin ənənəsinə görə hakimiyyət başına gələn bir şah kitabxananın qayğısına qalmalı idi. Buna görə də bu kitabxana hər il Şərq ədəbiyyatının ən gözəl, ən yaxşı əsərləri, nadir kitablarıyla zənginləşirdi. Şeyx Səfi kitabxanasında ərəb, fars, türk və başqa dillərdə, Azərbaycanın, həmçinin Şərqin ən görkəmli alim, şair, filosof və tarixçilərinin on minlərlə məşhur əsərləri saxlanılırdı. Burada Şeyx Sədi Şirazinin Şeyx Səfiyə avtoqrafla bağışladığı «Divan»ı da olmuşdur.

Axırıncı Səfəvi şahı Sultan Hüseyn (1694-1722) vəfat edəndən sonra ruhanilər kitabxanaya pis münasibət bəsləyir. Onlar dini kitablardan istifadə edir, başqa kitablara fıkir vermirdilər.

1826-cı ildə İran-Rusiya müharibəsi başlayanda İranda olan rus səfıri A.S.Qriboyedova məxfi məktub gəlir. Məktubda deyilir ki, nə yolla olursa-olsun Şeyx Səfi kitabxanasını tapıb, xüsusən Azərbaycanın tarixinə aid olan əlyazma və kitabları seçsin və Peterburqa göndərsin. Beləliklə, rus generalı Suxtelin Şeyx Səfi türbəsində yerləşən kitabları ələ keçirir. İranlılar elə bilirlər ki, ruslar əlyazmalarının üzünü çıxardıqdan sonra, onları geri qaytaracaqlar.

Beləliklə**,** Azərbaycanın qədim tarixi kitablarının bir hissəsi Peterburqa göndərilir, bir hissəsi yandırılır, qalan hissəsi isə Qriboyedovun vasitəsilə ermənilərin əlinə keçir. Beləcə məhv edildi qədim Azərbaycanın qədim tarixi.

Bundan başqa, Şeyx Səfi türbəsində Şah İsmayıl Xətainin məzarına qoyulmuş fil sümüyündən boyük sənətkarlıqla işlənmiş bir sandıq vardı. Ruslar bunu da aparmaq istəmişlər. Sandıq çox böyük olduğundan onu türbənin qapısından çıxarmaq mümkün olmamışdır. Ancaq sandığın içindəki qiymətli əşyaları aparmışlar.

XVI əsrdə Azərbaycan ustalarının Ərdəbildə toxuduqları 10,5 x 5,5 metr ölçüdə nadir «Şeyx Səfı» xalçası eksponat kimi Londonda Viktoriya və Alberto kral muzeyində saxlanılır.

(S.Zamanlı. Sinifdənxaric oxu materialları. *Bakı, 2000, s. 41-42)*

SAY
(ЧИСЛИТЕЛЬНОЕ)

Əşyanın miqdarını və sırasını bildirən nitq hissəsinə say deyilir. Say **neçə? nə qədər? neçənci?** suallarından birinə cavab verir, birləşmə daxilində isimdən əvvəl gəlir, hal, kəmiyyət, mənsubiyyət kateqoriyasının şəkilçilərini qəbul edir. Sayın mənaca dörd növü vardır:

Часть речи, обозначающая количество и порядок предметов при счете, называется числительным. Числительное отвечает на один из вопросов **neçə? nə qədər? neçənci?** В составе словосочетания числительное предшествует существительному, принимает аффиксы категории числа, принадлежности, падежа. По значению числительные бывают четырех видов.

1. Miqdar sayları (количественные числительные).

Bu saylar əşyanın konkret miqdarını bildirir, **neçə? nə qədər?** suallarına cavab verir. Heç bir morfoloji əlaməti yoxdur. Azərbaycan dilində miqdar sayları onluq sistemə əsaslanır.

Количественные числительные обозначают конкретное количество предметов, отвечают на вопросы **neçə? nə qədər?** Они не имеют никаких морфологических показателей. В азербайджанском языке количественные числительные опираются на десятичную систему:

Məsələn: bir, iki, doqquz, on, on bir, on yeddi, iyirmi, otuz, qırx, əlli, altmış, yüz, yüz on, yüz on iki, iki yüz, iki yüz əlli, doqquz, doqquz yüz, min, iki min, iki min bir.

Miqdar sayları **«nəfər», «ədəd», «cüt», «dost»,** və s. numerativ sözlərlə də işlənir.

Количественные числительные употребляются и с нумеративными словами **«nəfər», «ədəd», «cüt», «dəst», «dənə»** и др.

Məsələn: iki nəfər tələbə, iki cüt ayaqqabı, bir tikə çörək, iki dəstə şüyüt, üç dənə qələm.

2. **Sıra sayları** (порядковые числительные).

Sıra sayları miqdar saylarından düzəlir, əşyanın sırasını bildirir, **neçənci? hansı?** suallarına cavab verir. Sıra sayının morfoloji əlaməti **-ıncı, -inci, -uncu, -üncü, -ncı, -nci** şəkilçiləridir.

Порядковые числительные обозначают порядок предметов при счете, отвечают на вопросы **neçənci? hansı?** и образуются от количественных числительных. Морфологическими показателями порядковых числительных являются аффиксы **-ıncı,-inci, -uncu, -üncü, -ncı, -nci.**

Məsələn: birinci, üçüncü, beşinci, on doqquzuncu, yüzüncü, mininci.

Rum rəqəmləri ancaq sıra sayını bildirir, şəkilçisiz işlənir:

Римскими цифрами обозначаются только порядковые числительные. Они употребляются без аффиксов.

Məsələn: I- birinci, V - beşinci, VIII- səkkizinci,

X -onuncu.

Sıra bildirmək üçün ərəb rəqəmlərindən sonra defis qoyulur, müvafiq olaraq **-cı, -ci, -cu, -cü** şəkilçisindən biri artırılır.

После арабских цифр, употребляющихся для обозначения порядка предметов, ставится дефис, добавляется один из соответствующих вариантов аффикса **-cı, -ci, -cu, -cü**:

Məsələn: 1-ci, 3-cü, 6-cı, 9-cu.

3.Qeyri-müəyyən saylar (неопределенные числительные).

Qeyri-müəyyən saylar əşyanın qeyri-müəyyən, təxmini miqdarını bildirir, **nə qədər?** sualına cavab verir: **«az», «çox», «xeyli», «bir qədər», «bir neçə»**, **«bir az»** leksik vahidlər və **-lu, -ca, -acıq, -larla, -lərlə, -larca, -lərcə** şəkilçiləri artırmaqla, eləcə də eyni sayın təkrarı ilə əmələ gəlir.

Неопределенно-количественные числительные обозначают неопределенное, приблизительное количество предметов, отвечают на вопрос nə qədər? и образуются с помощью лексических единиц **«az», «çox», «xeyli», «bir qədər», «bir neçə», «bir az»** и аффиксов **-lu, -ca, -acıq, -larla, -lərlə, -larca, -lərcə,** а также повторением числительных.

Məsələn: xeyli uşaq, bir qədər meyvə, bir neçə ağac, çoxluca, yüzlərlə, minlərlə, onlarla, on-on, min-min, milyon-milyon.

4. Kəsr sayları (дробные числительные).

Kəsr sayı əşyanın miqdarının müəyyən hissəsini bildirir, **nə qədər? neçə hissə?** suallarına cavab verir. Kəsr saylarında məxrəc bildirən sözə **-da,-də** və ya **-dan,-dən** şəkilçisi artırılır, surət bildirən sözə isə heç bir şəkilçi artırılmır.

Дробные числительные обозначают определенную часть количества предмета, отвечают на вопросы **nə qədər? neçə hissə?** К слову, обозначающему знаменатель дробных числительных присоедин-

яется аффикс **-da, -də** ili **-dan, -dən**, а к слову, обозначающему числитель дробных числительных, аффиксы не присоединяются.

Məsələn: beşdə bir, üçdə iki, beşdən üç, ondan iki, altıdan dörd.

Qeyd 1. *Rus dilindən fərqli olaraq, Azərbaycan dilində say isimlə işləndikdə hallanmır.*

Примечание 1. *В отличие от русского языка, в азербайджанском языке числительные в сочетании с существительным не склоняются.*

Müqayisə et:

Azərbaycan dilində Rus dilində

A. beş kitab И. пять книг
Y. beş kitabın Р. пяти книг
Yön. beş kitaba Д. пяти книгам
T. beş kitabı В. пять книг
Yer. beş kitabda Т. пятью книгами
Ç. beş kitabdan П. о пяти книгах

Qeyd 2. *Azərbaycan dilində bir sıra miqdar sayları yazıldığı kimi tələffüz olunmur.*

Примечание 2. *В азербайджанском языке некоторые количественные числительные произносятся не так как пишутся..*

Məsələn:

Yazılır Tələffüz edilir

dörd / dört/
səkkiz /səkgiz/
doqquz /dokquz/

Qeyd 3. *Azərbaycan dilində mürəkkəb miqdar sayları ayrı yazılır.*

Примечание 3. *В азербайджанском языке сложные количественные числительные пишутся раздельно.*

Məsələn: on bir (одиннадцать), on altı (шестнадцать), on doqquz (девятнадцать), iki yüz doxsan səkkiz (двести девяносто восемь), min beş yüz on doqquz (тысяча пятьсот девятнадцать).

■**Tapşırıq 112.** *Rəqəmləri yazı ilə yazın.*

35, 86, 260, 1550, 1938, 2855, 2001, 188888.

■**Tapşırıq 113.** *Mürəkkəb sayları köçürün və ucadan tələffüz edin:*

on doqquz, yetmiş dörd, altı yüz on bir, min doqquz yüz altmış dörd, üç yüz qırx altı, bir milyon iki yüz altmış min, min doqquz yüz yetmiş iki.

■**Tapşırıq 114.** *Miqdar, sıra, qeyri-müəyyən, kəsr saylarını cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq 115.** *Aşağıdakı mətndə sayların növlərini müəyyənləşdirin.*

Deportasiya
(Tarixin acı ibrət dərsləri)

.

Üzdəniraq qonşularımız Azərbaycan türkünə qarşı genosid siyasətini bir əsrdə dəfələrlə həyata keçirmişlər. Bu siyasət nəticəsində yüz minlərlə ailə məhvə, sonsuz məhrumiyyətlərə düçar olmuşdur. Əzəli Azərbaycan torpaqları üzərində rus süngüsünün köməyi ilə Ermənistan dövləti yaradanlar zaman-zaman azərbaycanlıları dədə-baba yurdlarından didərgin salmaq planını həyata keçirdilər.

1813-1828-ci ilə qədər Azərbaycanın sahəsi təxminən 410 min kv. km idı.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan sahəsi təxminən 230 min kv.km idi.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan sahəsi təxm. 130 min kv. km.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığının sahəsi 9 min kv. km.

Rusiya əsarəti altındakı Dərbənd xanlığının sahəsi 7 min kv.km.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi təxminən 114 min kv. km.

1920-ci ildə ADR-i işğal edən rus Sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı-birlikdə sahəsi təxminən 27,4 min kv. km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi - 86,6 min kv.km.

ƏVƏZLİK
(МЕСТОИМЕНИЕ)

Əşyanın adını, əlamətini, miqdarını ümumi şəkildə bildirən nitq hissəsinə əvəzlik deyilir. Əvəzlik isim, sifət, say və zərfin funksiyasını əvəz edə bilir. Məsələn, əgər əvəzlik ismi əvəz edirsə, isim kimi hallanır, cümlədə mübtəda olur və s. Əvəzliyin fərqləndirici sualı yoxdur, əvəz etdiyi nitq hissəsinin sualını daşıyır. Əvəzliklər mətn daxilində konkretləşir.

Местоимением называется часть речи, которая в общих чертах указывает на наименование предмета, его признак, количество. Местоимение может выполнить функцию существительного, прилагательного, числительного, наречия. Например, если местоимение заменяет существительное, то склоняется как существительное, а в предложении бывает подлежащим и т.д. У местоимения нет различительного вопроса, он носит вопрос заменяемой части речи. Местоимение конкретизируется в тексте.

Azərbaycan dilində əvəzliyin 7 növü vardır:

В азербайджанском языке имеется 7 видов местоимений:

1. **Şəxs əvəzlikləri** (личное местоимение)

Şəxs əvəzlikləri ümumi şəkildə şəxs məfhumu bildirir. Şəxs əvəzlikləri aşağıdakılardır:

Личное местоимения указывает на лицо. Личные местоимение следующие:

tək	**cəm**
I ş. mən (я)	**biz** (мы)
II ş. sən (ты)	**siz** (вы)
III ş. o (он, она, оно)	**onlar** (они)

Şəxs əvəzlikləri isim kimi hallanır:

Личные местоимение склоняются как существительные:

mən	siz	o
mənim	sizin	onun
mənə	sizə	ona
məni	sizi	onu
məndə	sizdə	onda
məndən	sizdən	ondan

■**Tapşırıq 120**. *Bir neçə şəxs əvəzliyini cümlədə işlədin və rus dilinə tərcürmə edin.*

2. İşarə əvəzlikləri (указательные местоимение)

İşarə məqsədi ilə işlənən əvəzliklər işarə əvazlikləri adlanır. İşarə əvəzlikləri bunlardır: **o, bu, elə, belə, həmin.**

Местоимения, употребляемые с целью указания, называются указательными местоимениями. Указательные местоимения следующие: **o, bu, elə, belə, həmin.**

İsimdən əvvəl gələn işarə əvəzlikləri həmin ismi təyin edir, lakin hallanmır, cəmlənmir. Substantivləşdikdə işarə əvəzliklərindən bəzisi hal, cəm və xəbərlik şəkilçilərini qəbul edir.

Находясь перед существительным, указательные местоимения определяют это существительное. Они не склоняются, не принимают показателей множественного числа. Субстантивируясь, некоторые из указательных местоимений принимают аффиксы падежа, числа, сказуемости.

Məsələn: onlar, bunlar, odur, budur, elədir.

bu o
bunun onun
buna ona
bunu onu
bunda onda
bundan ondan

■**Tapşırıq 121.** *Cümlələri rus dilinə tərcümə edin.*

Bu xalçadır. O, ağıllı oğlandır. Bu maraqlı kitabdır. Bu oğlan tələbədir. O, zavodun direktorudur. Bu avtobus dayanacağıdır. Həmin qadın həkimdir. Elə paltar dəbdədir.

■**Tapşırıq 122**. *Cümlələri Azərbaycan dilinə tərcümə edin.*

Он охотник. Это хлеб. Та книга интересна. Этот парк красивый. Это здание выше. Та женщина преподаватель.

3. Sual əvəzlikləri (вопросительное местоимение)

Səxs, əşya, əlamət və kəmiyyəti ümumi halda sual tərzində bildirən və cavab tələb edən əvəzliklər sual əvəzlikləri adlanır. Sual əvəzlikləri bunlardır: **kim? nə? hara? necə? nə cür? hansı? neçə? nə qədər? neçənci?**

Местоимения, обозначающие лицо, предмет, признак, количество в виде вопроса, требующего ответа, называются вопросительными

местоимениями. Вопросительные местоимения следующие: **kim? nə? hara? necə? nə cür? hansı? neçə? nə qədər? neçənci?**

Sual əvəzlikləri əvəz etdiyi nitq hissəsinin qrammatik xüsusiyyətlərini özündə daşıyır.

Вопросительные местоимения носят в себе грамматические особенности частей речи, которые они занимают

«Kim?» sual əvəzliyi insan təsəvvürü verir, cəm şəkilçisi qəbul edır, hallanır.

Местоимения **«kim?»** дает представление о человеке, принимает аффикс множественного числа и склоняется.

I

kim?	nə?	hara?
kimin?	nəyin?	haranın?
kimə?	nəyə?	haraya?
kimi?	nəyi?	haranı?
kimdə?	nədə?	harada?
kimdən?	nədən?	haradan?

II

kimlər?	nələr?	haralar?

■**Tapşırıq 123.** *Bir necə sual əvəzliyini cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

4.Qeyri-müəyyən əvəzlik (неопределенное местоимение)

Konkretləşməyən, naməlum şəxs, əşya, əlamət və kəmiyyət bildirən əvəzliklər qeyri-müəyyən əvəzliklər adlanır.

Местоимения, обозначающие неконкретное, неизвестное лицо, предмет, признак, количество, называются неопределенными местоимениями.

Məsələn: kimi, kimisi, kimsə, kim isə, hər kim, nəsə, nə isə, hansısa, hansı isə, haradasa, harada isə, nə qədərsə, nə təhərsə, biri, birisi, bəzisi.

Bəzi qeyri-müəyyən əvəzliklər isimlər kimi hallanır, cəmlənir, mənsubiyyət şəkilçisi qəbul edir.

Некоторые неопределенные местоимения подобно существительным склоняются, принимают аффиксы множественного числа и принадлежности.

Məsələn: kimlərsə, nələrsə, hərəmiz, hərəniz.

hərə kimi
hərənin kiminin
hərəyə kimiyə
hərəni kimini
hərədə kimidə
hərədən kimidən

■**Tapşırıq 124.** *Bir neçə qeyri-müəyyən əvəzliyi cümlələrdə işlədin, cümlələri rus dilinə tərcünə edin.*

5. Təyini əvəzliklər (определительные местоимения)

İsimlərdən əvvəl gəlib, onları təyin edən əvəzliklər təyini əvəzliklərdir. Təyini əvəzliklər aşağıdakılardır: **öz, hər, bütün, hər bir, filan, eyni, bəzi** və s.

Местоимения, употребляющиеся в позиции перед существительными и определяющие их, называются определительными. Определительные местоимения следующие: **öz, hər, bütün, hər bir, fllan, eyni, bəzi və s.**

Mənsubiyyət şəkilçisi qəbul etmədikdə və vurğu ilə işləndikdə öz əvəzliyi qayıdış yox, təyini əvəzlik olur.

Местоимение «öz», употребляясь без аффикса принадлежности и с ударением, выступает не как возвратное, а как определительное местоимение.

Məsələn: Öz dostu kimi qarşıladı. Öz tələbələrimizdir.

■**Tapşırıq 125.** *Bir neçə təyini əvəzliyi cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

6. Qayıdış əvəzliyi (возвратные местоимения)

Danışana, dinləyənə və haqqında danışılan şəxsə işarə məqsədi ilə işlənən əvəzliklər qayıdış əvəzlikləri adlanır. Qayıdış əvəzliyi **öz** təyini əvəzliyinin mənsubiyyət şəkilçisi qəbul etməsi ilə əmələ gəlir.

Местоимения, употребляющиеся с целью указания на говорящего, слушащего и лицо, о котором идет речь, называются возвратными. Возвратное местоимение образуется от определительного местоимения **öz** при помощи аффиксов принадлежности:

Məsələn: öz-özüm, özün, özü, özümüz, özünüz, özləri.

■**Tapşırıq 126**. *«Öz» qayıdış əvəzliyini cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

7. İnkar əvəzliyi (отрицательные местоимения)

İnkar əvəzliyi **heç** inkar ədatının əvəzliklərə və müvafiq sözlərə qoşulmasından yaranır.

Отрицательные местоимения образуются путем прибавления к местоимениям и соответствующим словам отрицательной частицы **«heç».**

Məsələn: heç kim, heç kəs, heç nə, heç kimsə, heç hara, heç bir şey, heç bir kimsə.

İnkar əvəzlikləri isim kimi hallanır.

Отрицательные местоимения склоняются как существительные.

Məsələn:

Heç kim	hec hara	heç bir kim
Heç kimin	heç haranın	heç bir kimin
Heç kimə	heç haraya	heç bir kimə
Heç kimi	heç haranı	heç bir kimi
Heç kimdə	heç harada	heç bir kimdə
Heç kimdən	heç haradan	heç bir kimdən

■**Tapşırıq 127.** *Yuxarıdakı inkar əvəzliklərini cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq 128.** *Mətni oxuyun, məzmununu danısın.*

BİZNESİN RESTRUKTURİZASİYASI PROSESİNİN TƏNZİMLƏNMƏSİ

Bazar mexanizmi əsasında ölkə iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsi üçün təkcə təsərrüfat fəaliyyətinin liberallaşdırılması kifayət deyildir. Bu sahədə əhəmiyyətli məsələ bazarın tələblərinə cavab verə bilən biznes subyektlərinin formalaşdırılmasıdır.

Fikrimizcə, ölkədə biznes subyektlərinin restrukturizasiyasının tənzimlənməsi istiqamətində dövlətin həyata keçirəcəyi mühüm addımlardan biri bu prosesin hüquqi bazasının təkmilləşdirilməsidir. Bu tədbir, ilk növbədə, biznes subyektlərinin fəaliyyətinin yenidən təşkilinə aiddir. Belə ki, biznes subyektlərinin yenidən təşkili formaları olan birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə şəklində restrukturizasiyanın həyata keçirilməsinin qanunvericilik bazasının yaradılması və onların həyata keçirilməsi mexanizminin dəqiqləşdirilməsinin mühüm əhəmiyyəti vardır.

Biznesin yenidən təşkilinin həyata keçirilməsi mexanizminin hüquqi bazasının yaradılması antiinhisar tənzimlənməsi baxımından mühüm əhəmiyyətə malikdir. Belə ki, ölkədə inhisarçılıq fəaliyyətinin qarşısının alınması,

məhdudlaşdırılması və aradan qaldırılması üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinin iqtisadi inkişaf baxımından çox böyük əhəmiyyəti vardır. Rəqabət - bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyətləri hər birinin bazarda əmtəə dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan malların istehsalını stimullaşdırır.

Beləliklə, yuxarıda qeyd edilən tədbirlərin həyata keçirilməsi ölkədə biznesin restrukturizasiyasının dövlət tənzimlənməsinin təkmilləşməsinə səbəb olacaqdır.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.312

F E L
(ГЛАГОЛ)

Fel iş, hal və ya hərəkət bildirir. Fellər **nə etmək? nə etdi? nə edir? nə edəcək?** və s. suallardan birinə cavab verir. Fel kateqoriya və formalarına görə çox zəngindir:

Глагол обозначает действие или состояние. Глагол отвечает на вопросы **nə etmək? nə etdi? nə edir? nə edəcək?** i.t.d. Глагол богат категориями и формами.

1. İnkarlıq kateqoriyası(категория отрицания).
2. Zaman kateqoriyası (категория времени).
3. Şəxs kateqoriyası (категория лица).
4. Təsirlilik və təsirsizlik kateqoriyası (категория переходности и непереходности).
5. Növ kateqoriyası (категория залога).
6. Tərz kateqoriyası (категория вида).
7. Felin şəkilləri (наклонения глагола).
8. Məsdər (неопределенная форма глагола).
9. Feli sifət (причастие).
10. Feli bağlama (деепричастие).

Sifətdən, saydan fərqli olaraq fel isimdən asılı olmur, cümlədə müstəqildir, zaman və şəxs şəkilçiləri qəbul etdikdə bitmiş bir fikir ifadə edə bilir. Fel cümlədə, əsasən, xəbər olsa da mübtəda, təyin, tamamlıq, zərflik vəzifəsində də işlənə bilər.

В отличие от прилагательного и числительного глагол не зависит от существительного, он самостоятелен в предложении. Принимая аффиксы времени и лица, глагол выражает законченную мысль. В предложении глагол в основном бывает сказуемым, но может употребляться и в качестве подлежащего, определения, дополнения, обстоятельства.

İSTEHSAL VƏ İSTEHSAL PROSESİ

Biznes-planın "istehsal planı" bölməsində (bu bölmə yalnız istehsal sahələrində biznes fəaliyyəti ücün nəzərdə tutulur) sahibkar əsas tərəfdaşlarına sübut etməlidir ki, onun müəssisəsi tələb olunan dövr ərzində lazımi miqdarda və məhsul istehsal edə bilər. İstehsal – ehtiyaclarımızı ödəyəcək mal və xidmətlərin miqdarını və ya faydasını artırmağa yönəldilən bütün fəaliyyətlərin məcmusudur. İstehsal ona görə lazımdır ki, bizi əhatə edən mühitdə ehtiyaclarımızı ödəyən mal və xidmətlər kifayət qədər deyildir. Bunların miqdarını artırmaq məqsədi ilə, insan hökmən hər hansı bir müəssisənin gücünə arxalanaraq onları çoxaltmalı və istifadəsinə ən çox ehtiyac duyulan yerlərə verməlidir. Bu prosesin hamısı iqtisadda "istehsal etmək" kimi adlandırılır.

İstehsal prosesi xammal, materiallar, yarımfabrikatlar və komplektləşdirici məmulatlardan istifadə edilməsini nəzərdə tutmaqla ayrı-ayrı proseslərin məcmusudur. İstehsal həm də təkrar istehsal prosesinə elmi layihələrin nəticələrinin tətbiq edilməsini də nəzərdə tutur. Məhsul istehsalı daha çox insanın tələbatının ödənilməsində və cəmiyyətin yüksək keyfiyyətli istehsal vasitələri, istehlak predmetləri və digər yaşayış təminatlı iqtisadi nemətlərlə təchiz edilməsində mühüm rol oynayır. İstehsalın normal inkişafı xalqın maddi rifah halının yüksəldilməsində əsas amildir. İstehsal məhsul buraxılışı problemini və sosial sferanın inkişafını da təmin edir.

İstehsal prosesləri bəzi əlamətlərinə görə təsnif edilir:

- Məhsulun hazırlanmasındakı roluna görə - istehsal prosesləri

üç qrupa: əsas, köməkçi və xidmətedici istehsal proseslərinə;

- Mürəkkəblik dərəcəsinə görə - sintetik, analitik və birbaşa istehsal prosesləri fərqləndirilir.

dos. E.R. Səmədova
"Biznesin təşkili və idarə edilməsi" kitabından, s.316

FELİN MƏNA NÖVLƏRİ
(ВИДЫ ГЛАГОЛА ПО ЗНАЧЕНИЮ)

Fellərin aşağıdakı məna növləri var:
Выделяют следующие значения глаголов:

1. İş bildirən fellər (глаголы, обозначающие действие): qazmaq, kəsmək, yonmaq, doğramaq.

2. Hərəkət bildirən fellər (глаголы, обозначающие движение): **qaçmaq, getmək, gəlmək, qalxmaq, enmək və s.**

3. Nitq bildirən fellər (речевые глаголы): **danışmaq, demək, çıxış etmək, pıçıldamaq, qulaq asmaq və s.**

4. Təfəkkür fəaliyyəti bildirən fellər (глаголы, обозначающие мыслительную деятельность): **düşünmək, xatırlamaq, yada salmaq** və s.

5. Hal-vəziyyət bildirən fellər (глаголы, обозначающие состояние): **gülmək, sevinmək, ağlamaq, qızarmaq, utanmaq və s.**

Bütün fellərdə hərəkət vardır, lakin onların bəzilərində iş və hərəkət, digərində isə təfəkkür, hal-vəziyyət və s. daha açıq şəkildə özünü göstərir.

Все глаголы обозначают действие, но в некоторых из них более отчетливо выражено действие, движение, в других же – процессы мышления, состояние.

■**Tapşırıq 129.** *Mətnin məzmununu öyrənin.*

Aşıq Qurbani

Aşıq Qurbani tərcümeyi-halı haqqında məlumatımız olan və şeirləri əlimizə gəlib çatan ilk aşıqlarımızdandır. Dogum və ölüm tarixi dəqiq bəlli deyildir. Şah İsmayıl Xətainin hakimiyyəti illərində (1502-1524) yaşamış və bir müddət onun sarayında olmuşdur.

Ehtimalən, Cəbrayıl rayonunun Dirili kəndində doğulmuşdur və Dirili Qurbani kimi də aşıqlar arasında məşhur olmuşdur. Onun zəngin ədəbi irsi vardır. O, məharətli, lirik bir sənətkardır. Aşıq Qurbaninin xalq aşıqları tərəfindən oxunan əsərləri və özünün dastanında olan şeirləri onun kamil bir sənətkar olduğunu göstərir.

Aşıq Qurbaninin gözəl lirik qoşmaları ilə yanaşı, ictimai məzmunlu şeirləri də vardır. İctimai şeirlərindən Şah İsmayıla yazdığı qoşmaları çox cazibdir. O, özbaşınalığa, təhqirlərə dözə bilməyib, «mürşidi-kamil» dediyi Şah İsmayıla xitab edir və ondan yardım istəyir:

Şair olan dərsin alar pirindən,
Qəvvas olan dürr gətirər dərindən.

Gözü yaşlı keçdim Xüdafərindən,
Üzüm gülməz, heç açılmaz, ah, mənim.

Dərin-dərin dəryalara boyladı,
Xəncər alıb qara bağrım teylədi.
Oğlu ölmüş vəzir qəza eylədi,
Getməz dimağımdan dudi ah mənim.

Başqa bir qoşmasında vəzirdən Şah İsmayıla şikayət edərək deyir:

Qurbaniyəm, Qara vəzir əlindən
Şeyx oğluna şikayətə gəlmişəm.

Bəzi qoşmalarında yarın ayrılığından və zəmanədən şikayət edir:

Gecə-gündüz, vaxt-bivaxt ağlaram,
Çeşmim yaşı Ceyhun olur, sellənir.
Yaz mövsümü bülbül dil-dil ötəndə,
Bağ-bağçalar nərgizlənir, güllənir.

Könlüm tələb edir, axtarır yarın,
Xalq içrə hifz edər namusun, arın,
Yar yarına gündə olsa muğarin,
Könlü şən olur, ruhu tellərin.

Lakın Qurbani heç vaxt bədbinliyə qapılmamışdır. Ona görə, bir zaman zimistan gedib, bahar gələcək və hər kəs haqqına və muradına yetişəcəkdir.

Qəm çəkmə bu qədər, viranə könlüm,
Həmişə ruzigar belə dar olmaz.
On bir ay çəksən zimistan qəhrin,
Necə güldür çöhrəsində xar olmaz?!

Lirik qoşmalarından «Bənövşə» rədifli şeir çox maraqlıdır.

Bənövşə

Başına döndüyüm, ay qəşəng Pəri,
Adətdir, dərərlər yaz bənövşəni,
Ağ, nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altında düz bənövşəni!

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşiq əqlin itirmiş,
Mələklərmi dərmiş, göydən gətirmiş?

Heyif ki, dəriblər az bənövşəni.

Qurbani der: könlüm bundan sayrıdır,
Nə etmişəm yarım məndən ayrıdır?
Ayrılıqmı çəkib, boynun əyridir?
Heç yerdə görmədim düz bənövşəni!

Qurbaninin təcnisləri və gəraylıları da məşhurdur. Gəraylılarından bir nümunə veririk:

Ay ağalar, ay qazılar,
Yar yaman aldatdı məni.
Əl atdım yar ətəyinə,
O, kənara atdı məni...

Qurbani yalnız öz əsrində deyil, sonrakı dövrlərdə də ustad sənətkar sayılmış və bir sıra aşıqların yaradıcılığına təsir etmişdir.

FELİN QURULUŞCA NÖVLƏRİ (СТРУКТУРНЫЕ ТИПЫ ГЛАГОЛА)

Felin quruluşca üç növü vardır: sadə, düzəltmə, mürəkkəb.

По структуре глаголы делятся на три вида: простые, составные, сложные.

Heç bir sözdüzəldici şəkilçi qəbul elməyən fellər sadə fellərdir.

Глаголы, которые не принимают словообразовательных аффиксов, являются простыми.

Məsələn: qaç(maq), get(mək), yaz(mışam), oxu(du), gəl(ir), gəz(mək), kəs(mək); yat(maq).

Düzəltmə fellər isim, sifət, say, əvəzlik və fel köklərinin üzərinə aşağıdakı sözdüzəldici şəkilçiləri əlavə etməklə əmələ gəlir:

Производные глаголы образуются путем присоединения к корням существительных, прилагательных, числительных, местоимений и глаголов нижеследующих словообразовательных аффиксов:

-la, -lə: baş-la(maq), yağ-la(maq), göz-lə(mək), iti-lə(mək), təmiz-lə(mək), gecə-lə(mək) və s.

-lan, -lən: ağıl-lan(maq), alov-lan(maq), dil-lən(mək), at-lan(maq) və s.

-ıl, -il, -ul, -ül: aç-ıl(maq), yaz-ıl(maq), biç-il(mək), əz-il(mək), vur-ul(maq), süz-ül(mək), döy-ül(mək), dağ-ıl(maq) və s.

-ış, -iş, -uş, -üş: yaz-ış (maq), çək-iş (mək), de(y)-iş (mək), vur-uş (maq), sürü-ş (mək) v. s.

Mürəkkəb fellər müxtəlif üsullarla yaranır:

Сложные глаголы образуются различными способами:

a) fellərin isim, sifət və əvəzliklərə qoşulması ilə (присоединением глаголов к существительным, прилагательным и местоимениям).

Məsələn: həyat sürmək, başa salmaq, iz qoymaq, yaxın olmaq, kömək etmək, elə olmaq.

b) ol(maq), et(mək), elə(mək) yarımmüstəqil fellərin başqa nitq hissəsinə qoşulması ilə (присоединением к другим частям речи полусамостоятельных глаголов ol(maq), et(mək); elə(mək).

Məsələn: yoldaş ol(maq), yaxın ol(maq), kömək et(mək), məsləhət et(mək), təbrik elə(mək), xarab ol (maq);

c) frazeoloji feli birləşmələrdən ibarət olan mürəkkəb fellərlə (из глаголов в составе фразеологических сочетаний):

Məsələn: başa düş(mək), qulaq as(maq), bel bağla(maq), əldən düş(mək), fikir çək(mək), qol çək(mək), gözdən düş(mək).

■**Tapşırıq.** *Fellərin quruluşca növünü müəyyənləşdirin:*

oxumaq, yazmaq, işləmək, gözləmək, irəliləmək, vidalaşmaq, tamaşa etmək, müşahidə etmək, yetişdirmək, baxmaq, görüşmək, laxlamaq, nurlanmaq, qulaq asmaq, fikir çəkmək, yol çəkmək.

■**Tapşırıq.** *Mətnin məzmununu öyrənin.*

Məhəmməd Füzuli
(1494-1556)

Məhəmməd Füzulinin «Leyli və Məcnun» əsəri dünya ədəbiyyatı xəzinəsində ən qiymətli incilərdən biridir. Bu incinin işığı bütün başqa şairlərin «Leyli və Məcnun»unu kölgədə qoydu.

Dövrünün böyük şairi olmasına baxmayaraq, onun həyatı xoş keçməmişdir. O dövrdə hakimlərin qəddarlığı, məmurların rüşvətxorluğu baş alıb gedirdi. Şair böyük türk hökmdarı Sultan Süleymana bir neçə şeir həsr etmişdi. Dövrünün böyük hökmdarlarından olan Sultan Süleyman şairə ayda 9 axça məvacib təyin etmişdi, lakin hökmdar gedəndən sonra şair bu pulu ala bilməmişdir. Onu get-gələ salırlar. Odur ki, Füzuli «Şikayətnamə» əsərində məmurların süründürməçiliyini, rüşvətxorluğunu, sadə və yığcam dildə təsvir etmişdi. Füzuli «Salam verdim, rüşvət deyildir deyə, almadılar» ifadəsi ilə rüşvətxorluğa əbədi bir damğa vurmuşdu. Buna görə də, «Şikayətnamə» əsəri öz qiymətini indi də saxlamaqdadır.

Füzuli yaşadığı dövrün eyiblərinə göz yuma bilməyən şair idi. O dövrdə cəmiyyətin nöqsanlarını tənqid etmək isə asan iş deyildi. Axı hakimlər təzyiq göstərir, onu təqib edirdilər. Buna görə də, şair öz böyük əsərlərində meyvələri, bostan bitkilərini, heyvanları danışdırır, onların dili ilə dövrünün eyiblərini, yaramazlıqlarını ifşa edir.

Şairin «Meyvələrin söhbəti» əsərində könlünü açmaq üçün bağa gəzməyə gələn adamın gördükləri təsvir olunur. Bu şəxs bağda meyvələrin bir-biri ilə mübahisəsindən dilxor olur və buranı tərk edir. O, pərişan halda bostana gəlir. Burada da eyni vəziyyətlə qarşılaşır. Əgər bağda meyvələrin mübahisəsi dava-dalaşla nəticələnirsə, bostanda bu dava-dalaş faciə ilə qurtarır. Burada qovun şahdır. O vəzifə bölgüsü aparır. Qarpızı vəzir təyin edir. Vəzifə alanlar hörmət sahibidirlər. Hamı qovuna tabedir. Axı o şahdır. Vəzifə sahiblərinin təkəbbürlülüyü, lovğalığı onların özlərinin ölümü ilə nəticələnir. Saray xadimlərinin lovğalığından hiddətlənən, qeyzlənən qovun hamını cəzalandırır. Birini şaqqalatdırır, digərlərinin dərisini soydurur, üçüncüsünü vəzifəsindən qovur və sairə. Lakin bu da onun hikkəsini soyutmur. Qudurğan padşah yerindən qəzəblə qalxaraq öz başını vurub paralayır. Necə deyərlər, çanaq onun başında çatlayır. Saray adamlarının lovğalığından, onların bir-biri ilə çəkişməsindən danışan şair bu didişmənin dövlətin, sarayın dağılmasına gətirib çıxardığını göstərir.

Füzuli ayrı-ayrı hökmdarlara, hakimlərə, sərkərdələrə şeirlər yazmışdır. Şair bu əsərlərində onları ədalətli olmağa çağırmış, düzlüyə, dövrün hadisələrinə açıq gözlə baxmağa dəvət etmişdir.

Şair qürbətdə yaşasa da, ürəyi doğma Azərbaycandan ayrılmamış, həmişə vətən məhəbbəti, vətən sevgisi ilə döyünmüşdü. O, hər şeydən əvvəl vətən aşiqi idi. Onun şeirləri vətən məhəbbətindən doğmuş, vətən sevgisilə yoğrulmuşdu. Şair üçün vətən hər şey idi.

Füzulinin əsərləri musiqimizin də inkişafına böyük təkan vermişdi. Onun qəzəlləri muğam sənətimizin də inkişafına, yüksəlişinə güclü kömək etmişdir. Məşhur bəstəkarlarımız şairin əsərlərinə musiqi yazmışdır.

Füzulini xalqlara sevdirən, əsrlərlə yaşadan onun əsərlərinin gözəlliyi, dərinliyi, Vətənə, xalqa olan məhəbbətinin böyüklüyüdür. Şairin əsərləri insanları ədalətli, xeyirxah olmağa, bir-birinə qayğı və məhəbbətlə yanaşmağa, Vətəni, xalqı sevməyə, onu qorumağa çağırır.

Şair qəzəllərinin lirik qəhrəmanı vəfalı və sədaqətli aşiqdir. Şair eşqdə, məhəbbətdə Məcnundan da üstün olduğunu deyir:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Sürdü Məcnun növbətin, indi mənəm rüsvayı-eşq,
Doğru derlər: «Hər zaman bir aşiqin dövranıdır».

Füzuli qəzəllərindəki eşq, məhəbbət çoxşaxəlidir. Bu eşq gözələ bəslənən saf sevgi duyğuları, həm həyatla, bəşərə olan vurğunluqdur, həm də ilahi məhəbbətdir. Şairin qəzəllərində bir çox hallarda «canan», «yar», «dilbər» sözləri təkcə sevdiyinə yox, eyni zamanda Allaha müraciətlə işlənmişdir.

Eləcə də sufi ədəbiyyatındakı və Füzuli qəzəllərindəki meyxanə sözü «Allaha ibadət edilən yer», şərab «Allaha qovuşmaq üçün vasitə» mənalarını daşıyır.

«Bəngü-Badə» («Tiryək və Şərab») poemasında şair müxtəlif içki növlərini şəxsləndirmə yolu ilə, qardaş qırğınına səbəb olan Çaldıran döyüşünə qarşı öz nifrət və qəzəbini ifadə edir. «Söhbətül-Əsmar» əsərində isə bağ və bostan bitkilərinin nümunəsində lovğa və dikbaş adamlar tənqid olunur.

Füzuli yaşadığı illərdə Kərbəla, Bağdad şəhərləri əvvəlcə Ağqoyunluların, sonra isə Səfəvilərin (1508-1553) və Osmanlıların (1534-cü ildən başlayaraq) hakimiyyəti altında olmuşdur. Şair heç bir sarayda yaşamamışdır. Bununla belə o, «Bəngü-Badə» poemasını Şah İsmayıl Xətaiyə, bir sıra əsərlərini isə Sultan Süleyman Qanuniyə həsr etmişdir.

Füzuli 1556-cı ildə indiki İraq ərazisində olan Kərbəlada vəfat etmişdi.

Dahi şair Kərbəlada İmam Hüseynin məqbərəsində dəfn olunmuşdur. Onun adına ölkəmizdə şəhər, meydanlar, küçələr, bağlar və s. vardır. Bakının mərkəzində Füzuliyə əzəmətli abidə ucaldılmışdır.

Şairin yubileyləri dünya miqyasında onun sənətinə böyük məhəbbətlə qeyd olunur.

■**Tapşırıq.** *M.Füzulinin qəzəllərini əzbər öyrənin.*

Vətənimdir, Vətənimdir, Vətənim

Pənbeyi-dağü-cünun içrə nihandır bədənim[1],
Diri olduqca libasım budur, ölsəm kəfənim.

Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza[2] eyləyəlim, ol nə sənindir, nə mənim.

Daş dələr ahum oxu şəhdi-ləbin şövqündən,

[1] Bədənim dəlilik dağının pambığı ilə örtülmüşdür.
[2] Mübahisə, dava.

Nola zənbur evinə bənzəsə beytül-həzənim[1].
Qövqi-zəncürü-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim[2].

Eşq sərgəştəsiyəm, seyli-sirişk- içrə yerim,
Bir hübabəm ki, həvalədən doludur pirəhənim[3].
Bülbülü-ğəmzədəyəm, bağü-baharım sənsən,
Dəhənü qəddü rüxün qönçəvü şərvü səmənim.

Edəməm tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, Vətənimdir, Vətənim.

Məni candan usandırdı

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?
Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Neçün qılmaz mənə dərman, məni bimar sanmazmı?
Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən,
Desəm ol bivəfa, bilməm, inanarmı, inanmazmı?
Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?
Güli-rüxsarına qarşu, gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?
Deyildim mən sənə mail, sən etdin əqlimi zail.
Mənə tən eyləyən qafil, səni görcək utanmazmı?
Füzuli rindü-şeydadır, həmişə xəlqə rüsvadir,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?

İNKARLIQ KATEQORİYASI
(КАТЕГОРИЯ ОТРИЦАНИЯ)

Fellər mənaca ya təsdiq, ya da inkar olur. İnkar mənanın ifadəsi üçün fel kökünə, əgər düzəltmə feldirsə, sözdüzəldici şəkilçidən sonra **-ma, -mə** şəkilçisi artırılır.

---

[1] Ahımın oxu dodağının balının şövqü ilə daşı dələr. Mənim hüzn evim (ürəyim) arı şanına bənzəsə, nə olar.
[2] Dəliləri bağlayan zəncir mənim dövlətimdir. Layiq deyil ki, zəif vücudum məni ondan çıxarsın (məşhur etsin).
[3] Eşq dəlisiyəm, yerim göz yaşı selinin içərisindədir. Bir su qabarcığıyam ki, köynəyim hava ilə (eşq ilə) doludur.

По значению глаголы бывают утвердительными или отрицательными. Для выражения отрицательного значения к корню глагола, либо к словообразовательному аффиксу прибавляется аффикс **-ma, -mə:**

Məsələn: oxu-oxuma, yaz-yazma, görəcək-görməyəcək, alacaq – almayacaq.

■**Tapşırıq.** *Aşağıdakı fellərin həm təsdiq, həm də inkar formalarını cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin:*

tanı, biç, bit, bük, bərki, böl, bax, bəzə, yağ, yax, inan, əri, əy, yan, yalvar, yay, kövrəl, ləkələ, köklə, düzəlt.

■**Tapşırıq.** *Mətni rus dilinə tərcümə edin:*

Kərpickəsən qoca

Keçmiş zamanlarda Şam şəhərində bir qoca kişi yaşayırdı. O, kərpic kəsər, bununla da gündəlik çörək pulunu qazanardı. Bir gün qoca yenə də kərpic kəsirdi. Bu zaman onun yanına bir cavan oğlan gəldi. Qocaya salam verib dedi:

- Ey qoca, nə üçün bu qədər zəhmət çəkirsən? Bu ağır iş qoca işi deyildir. Özünə başqa bir iş tap. Heç kim səndən bir tikə çörək əsirgəməz.

Qoca kişi cavan oğlana cavab verdi:

- Oğlum, mən bu sənəti ona görə öyrənmişəm ki, heç kimdən çörək pulu istəməyim. Öz əməyim ilə dolanım. Əlimin zəhməti ilə gözüm tox, könlüm şad olsun.

Bu sözləri eşidib cavan oğlan çox utandı və qocadan üzr istədi.

N.Gəncəvi

Atalar sözü
İş insanın cövhəridir.
(Труд облагораживает человека)

■**Tapşırıq**. *«Koroğlu» mətninin məzmununu öyrənin.*

«Koroğlu» dastanı

«Koroğlu» qəhrəmanlıq dastanıdır. Dastanın qısa məzmunu belədir: Rövşən Alı kişinin oğludur. Alı kişi Həsən xanın mehtəridir, at saxlayanıdır. Bir gün Türk paşası Həsən xana qonaq gəlir. Həsən xan Alı

kişiyə deyir ki, paşaya hədiyyə vermək üçün ilxıdan iki yaxşı at gətirsin. Alı kişi ilxıdan iki dayça gətirir. Dayçalar paşanın xoşuna gəlmir. Həsən xan Alı kişini öldürmək istəyir. Ancaq paşa buna razı olmayıb deyir:

-Alı kişini öldürmə. Hər atın əvəzinə bir gözünü çıxart!

Cəllad Alı kişinin gözlərini çıxarır. Həsən xan atları Alı kişinin qollarına bağlayıb onu qovur.

Bu faciəli hadisəni öz gözləri ilə görən Rövşən Həsən xandan atasının intiqamını almaq uçün and içir və Çənlibelə qalxır. Rövşən - Koroğlu yalnız öz atasının deyil, bütün məzlum, zəhmətkeş xalqın intiqamını almaq üçün igid və vətənpərvər oğulları əlrafına toplayır. Koroğlu nəinki xanlara, bəylərə qarşı, həm də yadelli, xarici düşmənlərə qarşı mübarizə aparır. Dastanda adı çəkilən Çənlibel Azərbaycan rəmzidir.

Bu dastanda olan hadisələr XVI-XVII əsrdə Azərbaycan xalqının həm yerli xanlara və bəylərə, həm də xarici düşmənlərə qarşı apardığı mübarizələri əks etdirir.

Dastanın qəhrəmanı Koroğlu - Rövşən həssas, qayğıkeş və tədbirli bir igid olduğu kimi, həm də məharətli bir nəğməkardır. O, yeri gəldikcə həm qılıncdan, həm də sazdan istifadə edir. Sazla qılınc onun əsas silahıdır. Onun sözü də qılınc kimi itidir:

Haydı igidlərim, haydı,
Yeriyin düşmən üstünə,
Mən özüm Aslan paşanın,
Hərəniz bir xan üstünə.

deyərək igidlərini döyüş meydanında qəhrəmanlığa çağırır.

Koroğlunun yaxın silahdaşları eposda «dəlilər» (igidlər) adlanırlar. Dəli Həsən, Dəmirçioğlu, Topdağıdan, Bəlli Əhməd, Eyvaz və b. Koroğlunun mərd və yenilməz döyüş yoldaşlarıdır. Dəlilər içərisində ən cavanı Eyvazdır. O, Koroğludan sonra dəlilərin ən sevimlisidir. Koroğlunun həyat yoldaşı Nigar onu oğulluğa götürür və doğma övladı kimi sevir. Eposda Koroğlunun dəlilərinin sayı 7777 göstərilir ki, bu rəqəm də sonsuzluğa işarədir.

«Koroğlu» eposundakı hadisələr, əsasən, indiki Turkiyə və Azərbaycan ərazisində baş verir. Dastan Yaxın və Orta Şərqin bir sıra xalqlarının şifahi xalq ədəbiyyatına güclü təsir göstərmiş və nəticədə onun türk, özbək, türkmən, tacik variantları yaranmışdır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov epos əsasında 1937-ci ildə «Koroğlu» operasını yaratmışdır. «Koroğlu» eposu ədəbiyyatımızda qəhrəmanlıq, vətənpərvərlik və azadlıq ideyalarında mühüm rol oynamışdır.

TƏSİRLİLİK VƏ TƏSİRSİZLİK KATEQORİYASI (КАТЕГОРИЯ ПЕРЕХОДНОСТИ И НЕПЕРЕХОДНОСТИ)

Subyektin icra etdiyi işin obyekt üzərində təsirini bildirən fellər təsirli fellərdir. Təsirli fellər **kimi? nəyi? nə? haranı?** suallarından birinə cavab verən müstəqil obyekt tələb edir.

Глаголы, обозначающие действие субъекта, направленное на какой-либо предмет, называются переходными глаголами. Переходные глаголы требуют независимый объект, отвечающий на один из вопросов **kimi? nəyi? nə? haranı?**

Məsələn: bağladım (nəyi?), düzəltdim (nə?), gəzdim (haranı?).

Subyektin icra etdiyi işin obyektini tələb etməyən fellər təsirsiz fellərdir.

Глаголы, не требующие объекта, на который воздействует субъект, называются непереходными глаголами.

Məsələn: qaç, qəmlən, qatlaş, qarış, döz, diksin, yaşın, yeniləş.

Təsirli və təsirsiz fellər bir-birinə keçə bilər. Переходные и неперходные глаголы могут переходить друг в друга:

Məsələn: qaç - qaçırt, qəmlən - qəmləndir, qarış -qarışdır.

■**Tapşırıq**. *Təsirli və təsirsiz felləri ayırın, təsirsiz fellərdən təsirli fellər düzəldin:*

oyan, qaz, qala, bərki, birləşdir, boya, bitir, pus, rənglə, oxu, savadlan, coş, şöhrətlən.

■**Tapşırıq.** *Oxuyun. Mətndəki sadə və mürəkkəb cümlələrin nisbətinə fikir verin. Tabeli mürəkkəb cümlələrdə budaq cümlələrin tipini müəyyənləşdirin. İntonasiyaya görə cümlələrin tipini göstərin.*

Görürsünüzmü: elmi məlumatdır, riyazi fəlsəfi təfəkkür söhbətidir, ancaq məzmun asan qavranır. Diqqət edin, sıfırla vahid arasındakı mövcudluq necə asan təşbehlərlə başa salınır:…ağ ilə ağımtıl, al qırmızı ilə qırmızının …

Hələ orada belə izahlar var: Aristotelin məntiqinə görə hər hansı bir hadisə ya mütləq doğru, ya mütləq yalan ola bilər. Amma real dünya tamam başqadır. Onu mütləq qiymətlərlə təsvir etmək, yalnız ağ və qara rəngdə olduğunu iddia etmək ağlasığmazdır… Aristotel məntiqində isə yalnız sıfır (mütləq yalan) və vahid (mütləq doğru), eləcə də klassik çoxluq nəzəriyyəsində sıfır (ağlar çoxluğu) və vahid (qaralar çoxluğu) istifadə olunmuşdur. Mürəkkəb problem sadə dillə, məhz mütəxəssis olmayanların anlayacağı şəkildə izah olunur. Elmi-kütləvi dilin

mahiyyəti budur. Bu cəhət elmi-kütləvi dili müəllim danışığına bənzədir: axı müəllim ən çətin mövzuları asan, şagirdlərin başa düşəcəyi şəkildə izah edir. Bəli, elmi-kütləvi üslub müasir elmin böyük məzmununu geniş kütləyə izah edir.

xxx

Nyuton deyir: «Dünya riyaziyyat dilində yazılmış bir romandır. Bu mənada həmin kəlam hansı cümlədə əksini tapıb? Diqqət edin: X əsrdə yaşamış böyük özbək türkü Əl-Xərəzmin riyazi kəşfini XX əsrdə azərbaycanlı Lütvi-zadə yeniləşdirdi. Bu tarixləri də yadınıza salın: şərəflə loğman adını daşıyan özbək türkü İbn Sinanın XI əsrdəki tibb yaradıcılığı orta əsrlər Avropa təbabətinin əsası olmuşdur; XIII əsr Azərbaycan alimi Nəsrəddin Tusinin həndəsə və astronomiya sahəsindəki kəşfləri sonrakı əsrlərdə həmin sahələrdəki yeni kəşflərə meydan açmışdır. XIX əsr rus riyaziyyatçısı Lobarevskin sözlərini bir daha yadınıza salıram: «Dostum Kazım bəy Nəsrəddin Tusidən etdiyi tərcümələri ilə mənim riyazi kəşflərimi sürətləndirdi.

Bunları və başqa elm adamlarımızın haqqında bildiklərinizi yadınıza salın. «Dünya dahilərsiz yaşaya bilmir» adlı bir inşa yazın.

■**Tapşırıq.** *Mətni öyrənin.*

Aşıq Alı
(1809-1911)

Aşıq Alı və ya Əli Mirzə oğlu 1809-cu ildə Göyçə mahalının Çiçəkli kəndində anadan olmuşdur. Aşıq Alı, əsasən, ustadnamələri ilə məşhur olmuş, onun qoşma, gəraylı, müxəmməs, divani və sair şəkildə qoşduğu şeirlərdə vətən sevgisi, insanpərvərlik motivləri, məhəbbət və gözəlliyin tərənnümü əsas yer tutur. O, yeni saz havaları yaratmış və Azərbaycanın böyük aşıq-şairi Ələsgərin ustadı olmuşdur. Aşıq Alı 1911-ci ildə öz kəndində vəfat etmisdir.

■**Tapşırıq.** *"Nə qaldı", "İçəcək" və "Düzəlmir, baba" şeirlərini əzbərləyin.*

Aşıq Alı
Nə qaldı

Gəşt elədim, bu dünyanı dolandım,
Əllini aşırdım, yüzə nə qaldı.
Ayax getdi, əl gətirdi, diş yedi,

Baxmaqdan savayı gözə nə qaldı.

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora həlqə salma dəmirdən.
Aydı, gündü gəlib keçir ömürdən,
Tələsirik, görən yaza nə qaldı.

Havaya baxıram hava məxşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü.
Bir gün eşidərsiz, Alı da köçdü,
Sındı telli sazı, təzanə qaldı.

İçəcək

Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək,
Qəfil içmə bu gün əcəl şərabın,
İçən içib, içməyənlər içəcək.

Heç oldu var üçün qanlar tökənlər,
Əziz canın al qumaşa bükənlər,
Unutmasın şərli-xəta əkənlər,
Biçən biçib, biçməyənlər biçəcək.

Yazıq Alı, nə tez düşdün həvəsdən,
Sərraf olan seçər qızılı misdən,
Arif olan kəslər, yaxşını pisdən
Seçən seçib, seçməyənlər seçəcək.

DÜZƏLMİR, BABA

Gedir yol davası, sümük davası
Gedir milyonların səpik davası
Dünya düzəlmir ki, düzəlmir, baba!

M.Araz

FELİN ZAMANLARI
(ВРЕМЕНА ГЛАГОЛА)

İş, hal-vəziyyət və hərəkət konkret bir zaman daxilində ya keçmişdə, ya danışılan vaxt, ya da gələcəkdə baş verir. Azərbaycan dilində felin üç zamanı vardır:

Действие или состояние происходит в пределах конкретного времени, оно может предшествовать моменту речи, совпадать с ним или происходить после него. В азербайджанском языке глагол имеет три времени:

1. **İndiki zaman** (настоящее время). İndiki zamanda iş, hal və ya hərəkətin icrası xəbər verilən zamanla eyni vaxta düşür. Bu zamanın morfoloji əlaməti **- ır, -ir, -ur, -ür, (-yır, -yir, -yur, -yür)** şəkilçisidir.

Действие, происходящее в настоящем времени, совпадает с моментом речи. Морфологическим показателем этого временияв ляется аффикс - **ır, -ir, -ur, -ür, (-yır, -yir, -yur, -yür).**

Məsələn: içir, enir, alır, danışır, yalvarır, gülür, düşür, başlayır, oynayır, işləyir, bürüyür, duyur.

Felin indiki zamanı **nə edir?** sualına cavab verir.

Глаголы в настоящем времени отвечают на вопрос **nə edir?** Məsələn: İnsan üç şeyə baxanda cavanlaşır: axar suya, yaşıllığa, gözəl qadına.

■**Tapşırıq**. *Verilmiş indiki zaman fellərini cümlələrdə işlədin. Həmin cümlələri rus dilinə tərcümə edin:*

gülür, başa düşür, söyləyir, kömək edir, baxır

■**Tapşırıq.** *Mətnin məzmununu danışın.*

Klassik iqtisad məktəbi

Klassik iqtisad elminin və onu yaradanların əsl vətəni İngiltərə olmuşdur. XVII-XVIII əsrlərdən etibarən bu ölkədə iqtisadiyyatda, nəqliyyatda, ticarətdə sıçrayışlar baş vermişdir. Burada sərbəst sahibkarlıq, azad bazar və yeni kapitalıst sistemi sürətlə inkişaf etməyə başlamışdır. Belə bir şəraitdə iqtisadiyyatın bir sistem kimi öyrənilməsinə ehtiyac duyulurdu. Belə bir ehtiyac dövrün iqtisad elmini yaradanlarını da yetişdirdi. Bunların içərisində Uilyam Petti (1623-1687), Adam Smit (1723-1790) və David Rikardo (1772-1823) ən məşhurları olmuşdur.

İqtisad elminin banilərinin xidməti ondadır ki, ilk dəfə onlar cəmiyyətin iqtisadıyyatını bütöv halda götürüb tədqiqat obyektinə çevir-

mişlər. Merkantilistlərdən fərqli olaraq, klassiklər sərbəst bazar iqtisadiyyatı nəzəriyyəsini yaratmışlar.

A.Həsənov. Qədim və orta iqtisadi fikir və təlimlər. – İqtisadi nəzəriyyə. Bakı, 2001, s.39-42

2. **Keçmiş zamanın** iki qrammatik forması vardır:

Прошедщее время имеет две грамматические формы:

1) şühudi kecmiş zaman (прошедшее категорическое время);

2) nəqli keçmiş zaman (прошедшее результативное или повествовательное время).

Şühudi keçmiş zaman iş, hal və ya hərəkətin qəti icrasını bildirir, **-dı, - di, -du, -dü** şəkilçisi ilə düzəlir, **nə etdi?** sualına cavab verir.

Прошедшее категорическое время указывает на окончательное совершение действия, состояния с помощью аффикса **-dı, -di, -du, -dü** и отвечает на вопрос **nə etdi?**

Məsələn: bağışladı, şənləndi, toxudu, gördü, üşüdü, boyadı, güldü və s.

Nəqli keçmiş zaman is, hal və ya hərəkətin nəticəsi haqqında icraçı, şahid olmadan xəbər verir: n**ə etmiş? nə edib?** suallarına cavab verir və **-mış, -miş, -muş, -müş, -ıb, -ib, -ub, -üb** şəkilçiləri ilə düzəlir.

Прошедшее результативное время сообщает о результате действия без участия исполнителя, свидетеля. Оно отвечает на вопросы **nə etmiş? nə edib?** и образуется с помощью аффикса - **mış, -mış, -muş, -müş; -ıb,-ib,-ub,-üb**

Məsələn: almış, ağrımış, gəlmiş, oxumuş, görmüş, alışıb, bitişib, gəlib, durub, görüb, alovlanıb, qürrələnib.

■**Tapşırıq.** *Yuxarıda verilmiş şühudi və nəqli keçmiş zaman fellərini cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Mətni öyrənin.*

İSTEHSALIN TƏŞKİLİ PRİNSİPLƏRİ VƏ TİPLƏRİ

İstehsalın təşkili dedikdə istehsal proseslərinin və bütünlükdə sahibkarlıq fəaliyyətinin səmərəli formada həyata keçirmək məqsədi ilə əmək predmeti və əmək vasitələrindən məqsədəuyğun istifadəsini təmin edən metodların məcmusu nəzərdə tutulur. Təcrübə göstərir ki, istehsalın

xarakteri və strukturu, ilk növbədə, buraxılan məhsulun xüsusiyyətindən, istehsalın predmetindən və texnologı proseslərdən daha çox asılıdır.

Bu prinsiplər əsasında qurulan istehsal səmərəli hesab edilir. Müasir şəraitdə istehsal ixtisaslaşdırma, təmərküzləşmə, kompleks mexanikləşmə, istehsal prosesinin və idarəetmənin avtomatlaşdırılması istiqamətində həyata keçirilir. İstehsalın təşkilinin müasir metodlarına yerli tələbata uyğun məhsulların kütləvi buraxılışı aiddir. İstehsalın təşkilinin bu cür yüksək formasını avtomatlaşdırılmış axın xətti də adlandırırlar. Kütləvi axın xətləri iki sistem – fasiləli fəaliyyət göstərən xüsusi dəzgah – avtomat sistemi və fasiləsiz fəaliyyət göstərən motor sistemi əsasında qurulur. Bu baxımdan köməkçi əməliyyatları da yetinə yetirmək üçün robot texniki qurguya malik proqramla idarə olunan dəzgahdan da istifadə edilir.

İstehsalın təşkili tipləri dedikdə istehsalın təşkili və texniki səviyyəsinin xüsusiyyətlərinin kompleks xarakteristikası başa düşülür. İstehsalın təşkili tipinə bir sıra amillər təsir edir: ixtisaslaşma səviyyəsi, istehsalın miqyası, buraxılan məhsulun mürəkkəbliyi və davamlılığı. İstehsalın üç tipi fərqləndirilir: fərdi, seriyalı, kütləvi.

Fərdi istehsal məhdud istehlakı olan müxtəlif cür və daimi çeşiddə məmulatın ədədi buraxılışını nəzərə tutur. Seriyalı istehsal eynicins məhsulların geniş nomenklaturada eyni zamanda seriyalı hazırlanmasını nəzərdə tutur, hansı ki, istehsalı uzun müddət ərzində təkrarlanır...

"Biznesin təşkili və idarə edilməsi kitabından, s.317

3. **Gələcək zaman** (будущее время)

Gələcək zaman iş, hal və ya hərəkətin gələcəkdə icra olunub-olunmaması haqqında xəbər verir. Bu zamanın da iki növü var:

Будущее время сообщает о будущем промежутке времени, который следует за временем сообщения. Будущее время имеет два вида:

a) qəti gələcək zaman (категорическое будущее время)

b) qeyri-qəti gələcək zaman (некатегорическое, предположительное будущее время).

-acaq, -əcək, -yacaq, -yəcək şəkilçisi ilə düzələn qəti gələcək zaman iş, hal və ya hərəkətin icra olunacağını qətiyyətlə bildirir, nə edəcək? sualına cavab verir.

Категорическое будущее время, образующееся с помощью аффикса **-acaq, -əcək, -yacaq, -yəcək,** сообщает о категоричности

совершения действия, состояния в будущем и отвечает на вопрос **nə edəcək?**

Məsələn: olacaq, tikiləcək, görüşəcək, öyrənəcək, gedəcək, parçalayacaq, bəzəyəcək, çiməcək, saxlayacaq.

-ar, -ər, -yar, -yər şəkilçisi ilə düzələn qeyri-qəti gələcək zaman iş, hal və ya hərəkətin icra olunacağını qəti təsdiqləmir, **nə edər?** sualına cavab verir.

Некатегорическое будущее время, образующееся с помощью аффикса **-ar, -ər, -yar, -yər,** выражает возможность совершения действия, состояния в будущем и отвечает на вопрос **nə edər?**

Məsələn: qalxar, durar, gələr, oynayar, işləyər, gözəlləşər, yayar, bitirər.

■**Tapşırıq**. *Yuxarıda verilmiş qəti və qeyri-qəti gələcək zaman fellərini cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Mətnin məzmununu rus dilinə tərcümə edin:*

İSTEHSAL PROQRAMININ ƏSASLANDIRILMASI

Müəssisənin biznes-planının əsas bölmələrindən biri məhsul istehsalı və realizasiyası (satışı) bölməsidir, yəni istehsal proqramıdır. Məhsul istehsalı planı müəssisənin inkişaf strategiyasına uyğun olaraq mövcud potensial, materialların göndərilməsi üzrə müqavilələr və məhsul satışının həcmi proqnozu haqqında məlumatlar əsasında tərtib edilir. İstehsal planı müəyyən nomenklatura və çeşid üzrə məhsul istehsalının imkanlarını əsaslandırır, istehsal proqramının yerinə yetirilməsinin reallığını təsdiq edir.

Məhsul istehsalının optimal həcminin planlaşdırılması məhsulun hər bir növü üzrə ayrıca həyata keçirilməlidir. Bu zaman məhsulun həcminin dəyişilməsi ilə əlaqədar istehsal xərclərinin daimi və dəyişən xərclərə bölünməsi nəzərə alınmalıdır. Əsas fondların amortizasiyası, xidmət və reklam xərcləri məhsulun həcmindən asılı olmayaraq dəyişməz qalır, yəni daimi xərclər adlanır. Material xərcləri, işçilərin əməkhaqqı və başqa xərclər məhsulun həcmindən asılı olaraq dəyişilir, yəni dəyişən xərclər hesab edilir. Beləliklə, müəssisənin ümumi istehsal xərcləri daimi və dəyişən xərclərin cəmindən ibarətdir.

Daha çox mənfəət gətirən məhsul emala və avadanlıqların yüklənməsinə daha çox vaxt tələb edə bilər. Ona görə də, istehsal proqramının seçilməsi

optimal şəraitin seçilməsi ilə əlaqədar çətinliklər yaradır. Belə şəraitdə istehsal proqramını xətti proqramlaşdırmanın köməyilə işləyib hazırlamaq lazımdır.

Beləliklə, müəssisədə məhsulun keyfiyyətinin optimal səviyyəsinin planlaşdırılması vacibdir, yəni məmulatın elə xassələrini seçmək lazımdır ki, onlar təkcə istehlakçı tələbatını deyil, həm də istehsalçının razı qaldığı xərclərin səviyyəsini ödəyə bilsin. Başqa sözlə desək, bütün xassələrin məcmusundan istehsalçı elələrini seçməyə cəhd edir ki, onlar məhsulun təyinatına maksimum uyğun gəlsin və seçilən bazar seqmentində maksimum mənfəətin alınmasını təmin etsin.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.320

■**Tapşırıq.** *Mətnin məzmununu danışın.*

İSTEHSAL GÜCLƏRİNİN PLANLAŞDIRILMASI

İstehsal gücləri müəssisənin istehsal proqramının planlaşdırılmasının çıxış nöqtəsidir. Əsas fondların aktiv hissəsi olan istehsal gücləri müəssisənin məhsul buraxılışı üzrə potensial imkanlarını əks etdirir.

İstehsal gücləri – yeni texnologiyanın və əməyin elmi təşkilinin tətbiqi üzrə tədbirləri nəzərə almaqla istehsal avadanlıqlarından tam istifadə etməklə müəssisənin müəyyən edilmiş nomenklaturada və çeşiddə maksimum məhsul istehsal etmək qabiliyyətidir. İstehsal gücləri məhsul istehsalı həcminin hesablandığı eyni ölçü vahidi ilə müəyyən edilir. Əgər müəssisədə geniş nomenklaturada məhsul istehsal edilirsə, onda həmin nomenklatura bir, yaxud eynicins məhsulların bir neçə növlərinə çevrilir. Məsələn, traktor zavodunun istehsal gücü traktorların sayı ilə müəyyən edilir.

Müəssisənin istehsal gücü aparıcı sexlərin, sahələrin və aqreqatların gücləri üzrə müəyyən edilir. Məmulatın, yaxud yarımfabrikatların istehsalı üzrə əsas, daha əməktutumlu texnoloji prosesləri və əməliyyatları yerinə yetirən sex, sahə və aqreqat aparıcı sayılır. Müəssisənin istehsal gücü aşağıdakı ardıcıllıqla hesablanır: əvvəlcə aparıcı avadanlıqların istehsal gücü, sonra onun vasitəsilə aparıcı istehsal sahəsinin istehsal gücü müəyyən edilir. Aparıcı sexin istehsal gücü müəssisənin istehsal gücü kimi qəbul edilir.

Müəssisənin istehsal güclərini hesablayarkən əsas istehsal sexlərinə təhkim olan bütün avadanlıqlar, mövcud avadanlıqlar və sahələr, istehsalın effektiv təşkili, keyfiyyətli xammalın və təkmil alətlərin tətbiqi, müəssisənin iş rejimi mütləq nəzərə alınmalıdır. Mövcud gücləri genişləndirmək və yeni gücləri işə salmaq, yenidənqurma, istehsalın texniki silahlanması, təşkilati-

texniki tədbirlər hesabına müəssisənin istehsal güclərini artırmaq mümkündür...

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.322

FELİN QRAMMATİK MƏNA NÖVLƏRİ (ЗАЛОГИ ГЛАГОЛА)

Hərəkət, obyekt (əşya) və subyekt (iş görən) arasındakı müxtəlif münasibətlər felin məna növlərini əmələ gətirir. Felin mənaca 5 növü vardır:

Различные взаимоотношения между действием, объектом и субъектом выражаются залогами глагола. Глаголы имеют пять залогов:

1. Məlum növ (действительный залог),
2. Məchul növ (страдательный залог),
3. Qayıdış növ (возвратный залог),
4. Qarşılıq-birgəlik növ (взаимно-совместный залог),
5. İcbar növ (понудительный залог).

1. Məlum növdə iş görən məlum olur. Bu növün şəkilçisi yoxdır. Məlum növ həm təsirli, həm təsirsiz olur.

В основном залоге действие известно. Этот залог не имеет аффиксов. Глаголы основного залога бывают переходными и непереходными.

Məsələn: Mən məktub yazıram. Dostum qayıtdı. Biz çox sevindik. O yatmışdı.

■**Tapşırıq.** *Bükmək, bəzəmək, dolamaq, duymaq, döymək, baxmaq, qaçmaq, qalmaq, yatmaq məlum növ fellərini cümlələrdə işlədin və rus dilinə tərcümə edin.*

■**Tapşırıq**. *Mətni oxuyun və məzmununu danışın.*

Şah Abbas («Cənnətməkan») (-1629)

1501-ci ildə Şah İsmayıl Xətainin yaratdığı vahid və müstəqil Azərbaycan dövləti XVI əsrin ortalarında zəifləməyə başladı. O dövrdə Azərbaycana Şah İsmayıl Xətainin nəvəsi Məhəmməd Xudabəndi başçılıq edirdi. Onun verdiyi bəxşişlər nəticəsində dövlət xəzinəsi

boşalmış, ölkədə hərc-mərclik başlamışdı. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Şah qocalmışdı, onu heç kəs eşitmirdi. Buna görə şəhər əyanları şahın (Şah İsmayılın nəticəsi) oğlu Abbası paytaxta çağırdılar. Şahzadə Abbas Məşhəddən Qəzvinə gəldi. (O vaxt İranın paytaxtı Qəzvin şəhəri idi). Onun gəlişi ilə bütün narazılıqlara son qoyuldu, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Sonra şahzadə Abbas Mirzə «Şah» titulunu qəbul etdi. Ölkənin bəzi yerlərində Şah Abbası dövlətin düşməni adlandırırdılar. Uzaq əyalətlərdə qiyam baş verirdi. Bu qiyamları yatırtmaq üçün şah Abbas qonşu Türkiyə ilə işini nizama salmalı idi ki, ölkə daxilindəki qiyamları yatıra bilsin. Bu məqsədlə Türkiyə sultanı ilə sülh imzalandı. Bundan sonra Şah Abbas otuzminlik piyada qoşun toplayıb qıyamçıları susdurdu. Elə bu illərdə Xorasana hücum edən Abdulla xan Özbəyə qarşı səkkiz il müharibə apardı. Atasının dövründə itirilmiş torpaqları yavaş-yavaş geri qaytarmağa başladı. Hakimiyyəti möhkəmləndirdi. Ölkədə abadlıq işləri apardı, dövlətin maliyyə işlərini yaxşılaşdırdı. Atasının dövründə boşalmış xəzinəsini doldurdu. Bu işdə vəziri Hatəmbəy Ordubadinin böyük xidməti olmuşdur.

Şah Abbas həm də ordunun möhkəmlənməsinə fikir vermişdi. O, ulu babası Şah İsmayıl Xətainin yolu ilə getmiş, nizamlı və güclü ordu yaratmışdı. Bu ordu zəmanəsinə görə müasır silahlarla tez-tez hərbi təlim keçirdi. Elə bu ordunun köməyi ilə Şah Abbas Təbrizi Osmanlı qoşunlarından, İrəvanı, Gəncəni və Bakını işğalçılardan təmizlədi. Şah Abbas Azərbaycanın bütövlüyü uğrunda apardığı bu uzun sürən müharibələr zamanı da abadlıq və tikinti işlərini davam etdirirdi. O, Azərbaycan dövlətinin paytaxtını Qəzvindən İsfahana köçürdü. Burada məscidlər, qalalar, karvansaralar tikdirdi. Şah Abbas ölkədə o qədər abadlıq işləri aparmışdı ki, xalq ona «Cənnətməkan» ləqəbi vermişdi.

Şah Abbas ulu babaları Şeyx Səfi və Şah İsmayıl Xətai kimi Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafına da xüsusi fikir verirdi. Həmin dövrdə xalq artıq öz qəhrəmanlıq dastanı olan «Koroğlu» nu yaratmışdı.

42 il hakimiyyətdə olan Şah Abbas Cənnətməkan 1629-cu ildə vəfat eimişdir.

(S.Zamanlı. «Sinifdənxaric oxu materialları V-XI siniflər üçün vəsait. Bakı, 2000, s. 42-43)

2. Məchul növdə olan fellərdə iş görən məlum olmur. Felin bu növdə işləndiyi cümlələrdə məntiqi subyekt tamamlıq, məntiqi obyekt isə mübtəda vəzifəsində işlənir. Məchul növ **-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün** şəkilçilərinin köməyi ilə yaranır.

Глаголы в страдательном залоге не называют исполнителя действия. В предложениях с глаголом в страдательном залоге логический субъект выражен дополнением, а логический объект подлежащим. Страдательный залог образуется при помощи аффиксов **-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün**.

Məsələn;: ip çəkildi, çadır quruldu, iş görüldü, zəng ça-lındı, kitab oxundu, otaq bəzəndi və s.

■**Tapşırıq.** *Qatılmaq, dağılmaq, vurulmaq, çəkilmək, bükülmək, kəsilmək fellərini cümlələrdə işlədin və cümlələri rus dilinə tərcümə edin.*

3. Qayıdış növ. Qayıdış növdə olan fellərdə iş onu görənə aid olur, yənı iş subyektin öz üzərində görülür. Qayıdış növ **-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün, -lan, -lən, -laş, -ləş** şəkilçiləri ilə düzəlir.

Глаголы в возвратном залоге обозначают действие, proiz-vedennoe над исполнением этого действия. Возвратный залог образуется с помощью аффиксов **-ıl, -il, -ul, -ül, -ın, -in, -un, - ün, -lan, -lən, -laş.**

Məsələn. Gül açıldı. Duman çəkilir. Uşaq daranır. Quş qanadlandı. Şagird ruhlandı. Qoca gileyləndi.

■**Tapşırıq.** *Qayıdış növdə olan asağıdakı felləri cümlələrdə işlədin və cümlələri rus dilinə tərcümə edin:*

açılmaq, yuyunmaq, yellənmək, yıxılmaq, daranmaq, geyinmək, çiçəklənmək, gecikmək, nişanlanmaq.

4. Qarşılıq-birgəlik növ. Bu növdə olan fellər iş, hal və ya hərəkətin iki subyekt tərəfindən qarşılıqlı şəkildə, birgə icrasını bildirir. Qarşılıq-birgəlik növ **-ış, -iş, -uş, -üş, -aş, -əş, -ş, -laş, -ləş** şəkilçiləri vasitəsilə əmələ gəlir.

Взаимно-совместный залог глаголов обозначает взаимное совместное исполнение действия. Взаимно-совместный залог глагола образуется посредством аффиксов
-ış, -iş, -uş, -üş, -aş, -əş, -ş, -laş, -ləş.

Məsələn: Biz gülüşdük. Siz yazışırsınız. İnəklər mələşir. İtlər hürüşür. Uşaqlar oynaşır.

■**Tapşırıq.** *Qarşılıq - birgəlik növdə olan aşağıdakı felləri cümlələrdə işlədin, cümlələri rus dilimə tərcümə edin:*

tutuşmaq, komalaşmaq, görüşmək, yazışmaq, sözləşmək, uyuşmaq, vuruşmaq, gözləşmək, şərtləşmək.

5. İcbar nov. İcbar növdə olan fellərdə iş və hərəkət danışan subyekt tərəfindən deyil, başqası tərəfindən icra edilir. İcbar növ **-dır, -dir, -dur, -dür** şəkilçiləri ilə düzəlir.

Глаголы в понудительном залоге выражают действие субъекта, совершаемое по понуждению другого аффикса **-dır, -dir, -dur, -dür**

Felin icbar növü -t və **-dır** şəkilçiləri vasiləsilə də əmələ gəlir.

Понудительный залог глагола образуется с помощью аффиксов –**t** i **-dır**.

Məsələn: yazmaq (писать) - **yazdırmaq** (принудить писать), **tikmək** (строить), - **tikdirmək** (заставить строить), **oxumaq –** (читать), **oxutmaq** (заставить учиться).

Əgər felin sonu sait səslə və ya «r» samiti ilə bitirsə, icbar növ «t» şəkilçisi ilə düzəlir.

Если глагол оканчивается на гласный или на согласный «р», то понудительный залог образуется посредством аффикса **«t»**.

Məsələn: tullatmaq (заставить бросить), **gətirtmək** (заставить принести).

ŞƏXS KATEQORİYASI
(КАТЕГОРИЯ ЛИЦА)

Felin şəxs kateqoriyası müəyyən zaman daxilində iş, hal və ya hərəkətin müəyyən şəxs tərəfindən icrasını bildirir. Şəxs kateqoriyasının şəkilçiləri aşağıdakılardır:

Категория лица глагола обозначает совершение действия, состояния в определенное время со стороны определенного лица. Аффиксы категории лица нижеследующие:

tək

I ş. - am, -əm; -yam, -yəm, -m, -ım, -im, -um, -üm, -yım, -yim, -yum, -yüm: yazım, bilim, işləyim, gələm, eşidəm.

II ş. -n, -san, -sən: yazdırsan, bilirsən, işləyirsən, gələsən, eşidəsən.

III ş. -sın, -sin, -sun, -sün yazsın, bilsin, işləsin, gəlsin, eşitsin.

I ş. **-ıq, -ik, -uq, - ük, -yıq, -yik, -yuk, -yük, -aq, -ək, -q, -k:** yazaq, bilək, işləyək, gələk, eşidək.

II ş. -sınız, -siniz, -sunuz, -sünüz, -nız, -niz, -nuz, -nüz,

-ın, -in, -un, -ün, -yın, -yin, -yun, -yün: yazasınız, biləsiniz, işləyəsiniz, gələsiniz, eşidin.

III ş. -sınlar, -sinlər, -sunlar, -sünlar: yazsınlar, bilsinlər, işləsinlər, eşitsinlər.

Fellər şəxs şəkilçılərini zaman şəkilçilərindən sonra qəbul edir. Аффиксы категории лица следуют после аффиксов времени

Məsələn:

Mən oxuyuram. Biz oxuyuruq. Mən yazmışdım. Biz yazmışdıq. Sən oxuyursan. Siz oxuyursunuz. Sən yazmışdın. Siz yazmışdınız. O oxuyur. Onlar oxuyurlar. O yazmışdı. Onlar yazmışdılar.

■**Tapşırıq.** *Ucalmaq, getmək, işləmək, yemək, qalxmaq, ütüləmək fellərini bütün zamanlarda səxslər üzrə dəyişin.*

KƏMİYYƏT KATEQORİYASI (КАТЕГОРИЯ ЧИСЛА)

Fellərdə kəmiyyət kateqoriyası şəxs kateqoriyası ilə birlikdə çıxış edir. Odur ki, şəxs şəkilçiləri, xüsusən **-ımız, -imiz, -umuz, -ümüz, -iniz, -ınız, -unuz, -ünüz** şəkilçiləri əslində şəxs-kəmiyyət şəkilçiləri adlanır.

Категория числа глагола выражается одновременно с категорией лица. Поэтому аффиксы, лица, особенно **-ımız, -imiz, -umuz, -ümüz, -iniz, -ınız, -unuz, -ünüz** называются также аффиксами лица-числа.

Kəmiyyət kateqoriyasına uyğun olaraq, şəxs şəkilçiləri iki qrupa ayrılır:

Как и категория числа, аффиксы категории лица делятся на две группы:

Tək: I ş. -am,-əm,-ım,-im,-um,-üm
II ş. -san,-sən,-ın,-in,-un,-ün
III ş. -sın,-sin,-sun,-sün

Cəm: I ş. -aq,-ək, -ıq, -ik, -uq, -ük;
II ş. -ın,-in,-un,-ün,- sınız, -siniz,-sunuz,-sünüz;
III ş. -lar,-lər.

Məsələn:
Mən gəldim. Biz gəldık. Gedirəm. Gedirik.
Sən gəldin. Siz gəldiniz. Gedirsən. Gedirsiniz.
O gəldi. Onlar gəldilər. Gedir. Gedirlər.

İşləyəcəyəm. Biz işləyəcəyik.
İşləyəcəksən. Siz işləyəcəksiniz.
İşləyəcək. Onlar işləyəcəklər.

■**Tapşırıq.** ***Biçmək, içmək, şumlamaq, sulamaq, belləmək, mürgüləmək, çiləmək*** *fellərini şəxsə və kəmiyyətə görə dəyişin.*

■**Tapşırıq.** *Mətni öyrənin.*

Molla Pənah Vaqif
(1717-1797)

Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biri də Molla Pənah Vaqifdir.

O, 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində yoxsul bir kəndli ailəsində doğulmuşdur. Şairin gəncliyi Qazax mahalında keçmişdir. Vaqif kiçik yaşlarında yaxşı mədrəsə təhsili görmüş, savadlı alim və müəllim Şəfi Əfəndinin yanında dərs almışdı.

1759-cu ildə Vaqifin ailəsi Qarabağa, Cavanşir mahalının Tərtərbasar kəndinə köçür. Vaqif burada müəllimliklə məşğul olur. Həmin illərdə o, maddi cəhətdən əziyyət çəkirdi. Vaqifın müəllimlik məharəti, şairlik istedadı haqqında hər yerdə söhbət gedir. Onun yazdığı şeirlər əldən-ələ gəzməyə başlayır. Bunu eşidən Qarabağ hökmdarı İbrahim xan onu saraya dəvət edir və eşikağası, yəni xarici işlər vəziri təyin edir.

Ağa Məhəmməd Şah Qacarın 1795-ci ildə Şuşa üzərinə hücumu zamanı Vaqif qalanın müdafiəsində böyük fəaliyyət göstərir. 1797-ci ildə Qacar Qarabağa ikinci yürüşü zamanı Şuşanı tutur və Vaqifı zindana saldırır. Lakin Qacar öldürülür və Vaqif həbsdən azad edilir. Hakimiyyət İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşirin əlinə keçir. Vaqif bu zaman sıxıntı keçirir, təqib edilir. Az sonra Məhəmməd bəyin əmri ilə Vaqif və oğlu Əlağa Şuşada öldürülür.

Vaqifin faciəli ölümü zamanı şairin əsərləri itib-batmışdır. Onun əldə olan əsərləri şeir həvəskarlarının yaddaşında və şeir dəftərində qorunıb saxlanmışdır.

Vaqifin şeirlərini ilk dəfə 1828-ci ildə Mirzə Yusif Qarabağı toplamışdır. Həmin şeirlər 1858-ci ildə çap olunmuşdur. Vaqif yaradıcılığına yüksək qiymət verən Mirzə Fətəli Axundzadə də Vaqifın əsərlərini toplayıb çap etdirmək istəyir. Alman şərqşünası Adolf Berje M.F.Axundzadənin topladığı materiallar əsasında 1868-ci ildə Vaqifın və müasirlərinin şeirlərini Leypsiq şəhərində toplu şəklində nəşr etdirir. Vaqifın şeirləri

ayrıca kitab şəklində 1908-ci ildə Haşım bəy Vəzirov tərəfindən nəşr edilmişdir. Sonralar Vaqif ədəbi irsini görkəmli ədəbiyyatşünaslar Salman Mümtaz, Həmid Araslı nəşr etdirmişlər.

Yusif Vəzir Çəmənzəminlinin «İki od arasında» romanında və Səməd Vurğunun «Vaqif» mənzum dramında Vaqifin bədii obrazı yaradılmışdır.

Vaqif həm klassik üslubda qəzəl və müxəmməs, həm də xalq şeiri tərzində qoşma və təcnis yazmışdır. Şairin yalnız lirik şeirləri məlumdur. Onun şeirlərinin çoxu qoşma janrındadır. Sələflərindən, xüsusilə Füzulidən fərqli olaraq, Vaqifin şeirlərindəki məhəbbət romantik yox, real məzmun daşıyır. Vaqif qoşmalarını məzmunca iki əsas yerə bölmək olar: gözəllərin təsviri (gözəlləmə), saf məhəbbət hisslərinin tərənnümü.

Vaqif yaradıcılığının ən səciyyəvi xüsusiyyətlərindən biri nikbinlik, həyatsevərlik, şadlıq və sevinc hisslərinin bədii ifadəsidır. Vaqifin dostu Vidadi ilə deyişməsində iki cür münasibətin şahidi oluruq. Qoca Vidadi ağlayır, sızlayır, həyatın əzabından ah-nalə edir. Vaqif isə bu dünyanın əzabını da toy-bayram kimi qarşılamağı üstün tutur.

Vaqif «Görmədim» müxəmməsini Məhəmməd bəy Cavanşirin hakimiyyəti zamanı yazmışdır. Şair bu şerində cəmiyyətdə baş verən haqsızlığa, ədalətsizliyə qarşı çıxır və güclü bir ittihamçı kimi çıxış edir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü-iqrarü-imanü dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili-hacət görmədim.

Vaqifin son şeirləri həyatın ziddiyyətlərindən doğan şikayət hissləri ilə səciyyəvidir. Onun son şeirlərində əvvəlki qoşmalarındakı həyat eşqi və nikbinliyi görmürük. Şair ilk dəfə həyatı və gözəlliyi, məhəbbəti və sevgi duyğularını olduqca real və bədii şəkildə təsvir edərək yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Vaqif XVII əsrdən başlanan xəlqiliyi -xalq şerinin yazılı ədəbiyyata gəlişini yeni bir zirvəyə qaldıran sənətkardır. Vaqifin sadə və təbii deyimi ilə seçilən qoşmaları ilə xalq şeri ədəbiyyatda öz mövqeyini daha da gücləndirir. Vaqif yaradıcılığının bu cəhətini ilk dəfə M.F.Axundzadə hiss etmiş və onu yüksək qiymətləndirmişdi. O, Vaqif və Qasım bəy Zakir yaradıcılığında realizmin daha güclü olduğunu qeyd etsə də, bu işin banisinin, yaradıcısının Vaqif olduğunu vurğulayır.

Vaqif ədəbiyyatımızda novator, yenilikçi sənətkar kimi tanınır. Qasım bəy Zakir, Seyid Əbülqasım Nəbati, Mirzə Mehdi Şükuhi kimi yazılı ədəbiyyatın görkəmli nümayəndələri, eləcə də Aşıq Pəri, Aşıq Alı, Aşıq Ələsgər və başqa xalq aşıqları Vaqif ədəbi məktəbinin davamçılarıdır.

■**Tapşırıq.** *Şerləri əzbərləyin.*

M.P.Vaqif

Bayram oldu

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdıır.
Düyülə yağ, hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desən, dəxi qoymazlar kəndə,
Xalq batıb, noğula, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizım bu dünyada nə malımız var,
Nə də evdə sahib camalımız var,
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

Görmədim

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü-iqrarü-imanü dəyanət görmədim.
Bivəfadan lacərəm təhsili-hacət görmədim.

Xah sultan, xah dərvişü gəda bilittifaq,
Özlərin qılmış giriftari-qəmü dərdü fəraq,
Cifeyi -dünyayədır hər ehtiyacü iştiyaq,
Munca kim, etdim tamaşa sözlərə asdım qulaq,
Gizbü böhtandan savayı bir hekayət görmədim.

Hər sədavü səs ki, dünyaya dolub əksər əgəl,
Cümlə məkrü alü fənnü fitnədir, cəngü cədəl,
Dirhəmü dinar üçündür hər şeyə yapışsa əl,
Müqtədilərdə itaət, müqtədalardə əməl,
Bəndələrdə simü, bəylərdə ədalət görmədim.

Xəlqi-aləm bir əcəb düstur tutmuş hər zaman,

Hansı qəmli könlü kimi, sən edər olsan şadiman,
O sənə, əlbəttə ki, bədguluq eylər, biguman,
Hər kəsə hər kəs ki, etsə yaxşılıq, olur yaman,
Bulmadım bir dost ki, ondan bir ədavət görmədim.

Alimü cahil, müridü mürşidü şagirdü pir,
Nəfsi-əmarə əlində sərbəsər olmuş əsir,
Həqqi batil eyləmişlər, işlənir cürmü-kəbir,
Şeyxlər şeyyad, abidlər abusən qəmtərir,
Hiç kəsdə həqqə layiq bir ibadət görmədim.

Hər kişi hər şey ki sevdi, onu behtər istədi,
Kimi təxti, kimi tacir, kimi əfsər istədi.
Padşahlar dəmbədəm təxxiri-kişvər istədi,
Eşqə həm çox kimsə düşdü vəsli-dilbər istədi,
Heç birində aqibət, bir zövqü rahət görmədim.

Mən özüm çox kuzəkarı kimyagər eylədim,
Sikkələndirdim qübari-tirani zər eylədim,
Qara daşı döndərib yaquti-əhmər eylədim,
Daneyi-xərmöhrəni dürrə bərabər eylədim,
Qədrü-qiymət istəyib, qeyri əz xəsarət görmədim.

Eyləyən viranə Cəmşidi-Cəmin eyvanını,
Yola salmış, bir ki, bəzmi-işrətin cəndanını,
Kim qalıbdır ki, onun qəm tökməyibdir qanını.
Dönə-dönə imtahan etdim fələk dövranını,
Onda mən bərəkslikdən özgə adət görmədim.

Gün kimi bir şəxsə gündə xeyr versən, səd həzar.
Zərrəcə etməz ədai-şükri-neymət aşikar.
Qalmayıbdır qeyrətü şərmü həya namusu ar,
Dedilər ki, etibarü etiqad aləmdə var.
Ondan ötrü mən də çox gəzdim, nəhayət, görmədim.

Müxtəsər kim, böylə dünyadə gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər,
Alilər xaki, məzəllətdə, dənilər mötəbər,
Şahibi-zərdə kərəm yoxdur, gərəm əhlində zər,
İşlənən işlərdə əhkamü ləyaqət görmədim.

Dövlətü iqbalü malın axırın gördüm tamam,
Həşmətü cahü cəlalın axırın gördüm tamam,

Zülfü ruyu xəttü xalın axırın gördüm tamam,
Həmdəmi-sahibcəmalın axırın gördüm tamam.
Başəkdən bir hüsnü surət, qəddü qamət görmədim.

Ya imam- əl-insü vəlcinnü şahənşahi-umur,
Getdi din əldən, bu gündən böylə sən eynə zühur,
Qoyma kim, şeytani-məlun eyləyə imanə zur,
Şöleyi-hüsnünlə bəxş et tazədən dünyaya nur,
Kim, şəriət məşəlində istiqamət görmədim.

Baş ağardı, rüzigarım oldu gün-gündən siyah,
Etmədim, səd heyf kim, bir mahi rüxsarə nigah.
Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah,
Vaqifə, ya rəbbəna, öz lütfünü eylə pənah.
Səndən özgə kimsədə lütfü inayət görmədim.

FELİN ŞƏKİLLƏRİ
(НАКЛОНЕНИЕ ГЛАГОЛА)

Felin şəkilləri danışanın iş, hal və ya hərəkətə münasibətini bildirir; bu münasibət danışan tərəfindən müəyyənləşdirilir. Şəkillər arasında fərq modal fərqdir, bu da xüsusi morfoloji əlamətlərlə müəyyənləşir. Felin 6 şəkli vardır:

Наклонение глагола – это грамматическая категория, обозначающая отношение говорящего к действию или состоянию. Это отношение определяется говорящим. Различия между наклонениями носят модальный характер, выраженный специальными морфологическими показателями. Модальность – это оценка говорящим совего высказывания с точки зрения отношения сообщаемого к действительности. Глагол имеет шесть наклонений:

1. Əmr şəkli (повелительное наклонение)
2. Xəbər şəkli (изъявительное наклонение)
3. Arzu şəkli (наклонение желательности)
4. Vacib şəkli (долженствовательное наклонение)
5. Lazım şəkli (наклонение обязательности)
6. Şərt şəkli (условное наклонение)

ƏMR ŞƏKLİ
(ПОВЕЛИТЕЛЬНОЕ НАКЛОНЕНИЕ)

Felin əmr şəkli əmr, xahiş, öyüd, nəsihət bıldirir. Xüsusi şəkli əlaməti yoxdur.

Повелительное наклонение выражает приказ, просьбу, поучение, наставление. Специальных формальных показателей у данного наклонения нет.

Məsələn: oxu, yaz, get, qaz, iç, oyna, dur, qalx.

Əmr şəklinin məzmunu gələcək zamanı bildirir. Felin bu şəkli şəxsə görə dəyişə bilir.

Содержание повелительного наклонения обозначает будущее время. Это наклонение глагола может изменяться по лицам.

Məsələn:

Tək	**cəm**	**tək**	**cəm**
I ş. Mən gəlim	Biz gələk	Mən unudum	Biz unudaq
II ş. Sən gəl	Siz gəlin	Sən unut	Siz unudun
III ş. O gəlsin	Onlar gəlsin	O unutsun	Onlar unutsun

■**Tapşırıq.** *Danışmaq, gülmək, bilmək, düzmək fellərini əmr şəklində şəxslər üzrə dəyişin və cümlədə işlədin.*

■**Tapşırıq.** *Mətnin məzmununu danışın.*

Nadir şah Əfşar
(1688-1747)

Azərbaycan xalqının qeyrətli oğullarından biri də Nadir şah Əfşardır. Nadir 1688-ci ildə Xorasanda anadan olub. O, mənşəcə türk tayfası olan əfşarlardandır. 1729-cu ildə hakimiyyətdə olan Şah Təhmasib Nadiri sərkərdə təyin edir. İgid sərkərdə Nadir öz qoşunları ilə tezliklə Xorasanı, Həmədanı, Təbrizi, İran Kürdüstanını, Dağıstanı, Zaqafqaziyanı və Azərbaycanın başqa şəhərlərini xarici işğalçılardan təmizlədi.

Nadir 1733-cü ildə Osmanlı imperiyasının və Rusiyanın zəbt etdiyi (tutduğu) torpaqları geri aldı.

1736-cı ildə Nadir Muğanda şah seçilir. Nadır şah hakimiyyətdə olarkən çalışmışdır ki, islam dininin müxtəlif məzhəblərini (sünni və şiə) birləşdirib düşmənçiliyi aradan qaldırsın. Bu məqsədlə Nadir şah yeni bir

məzhəb - cəfəri məzhəbi yaratdı. O çalışırdı ki, bu məzhəbi hamı qəbul etsin. Lakin buna nail ola bilmirdi.

Nadir şahın etdiyi fasiləsiz müharibələr artıq dövləti zəiflətmiş və aclıq başlamışdı. Dövləti belə vəziyyətdən çıxarmaq üçün Nadir şah 1739-cu ildə böyük qoşunla Hindistana hücum edib az bir zamanda çoxlu qənimət əldə etdi. O, 1741-ci ildə Məşhəd şəhərinə qayıtdı. O yaratdığı cəfəri məzhəbi (təriqəti) vasitəsilə bütün müsəlmanları birləşdirib vahid müsəlman dövləti yaratmaq istəyirdi (Bu birlik o vaxt çox vacib idi. Çünki Qərb dövlətləri hər hansı bir müsəlman dövlətinin hərb və iqtisadi cəhətdən qüvvətləndiyini görən kimi onu zəiflətmək üçün müsəlmanların sünni, şiə məzhəbi məsələsindən istifadə edib onları birbiri ilə savaşdırırdılar. Qərb ölkələri sünni-şiə məsələsindən elə məharətlə istifadə edirdilər ki, çox vaxt bunu başa düşmək çətin olurdu. Məs: müxtəlif illərdə baş vermiş İran-İraq, İran-Türkiyə müharibələri buna misal ola bilər).

Nadir şah 1742-ci ildə öz dövlətinə cəfəri məzhəbini qəbul etdirdi. Nadir şah hakimiyyətdə olduğu illərdə həm dövlətini hərbi cəhətdən qüvvətləndirir, həm də dənizçilik işinə çox fıkir verirdi. O, Hollandiyadan, İngiltərədən gəmilər alır və gəmi tərsanəsi yaradır. Nadir şah Xəzərdə gəmiqayırma işinə başlamağı əmr edir. Bütün bu işləri görmək üçün çoxlu vəsait lazım idi. Dövlətin xəzinəsi isə boş idi. Şah vergiləri çoxaltsa da, bu ona kömək etmədi. Çunki bu, xalqın narazılığına səbəb oldu. Ölkə daxilində üsyanlar baş qaldırdı. Tağı xan fars əyalətindəki, Ağaməhəmməd Qacar isə Azərbaycandakı üsyanlara başçılıq edirdi.

Hakimiyyətdə olduğu illər ərzində Nadir şahın yaratmış olduğu böyük Azərbaycan dövləti artıq dağılmağa başlamışdı.

1747-ci ildə qiyamı yatırmağa gedərkən Nadir şahı Xorasanda öz çadırında öldürdülər. Oğlunun gözünü çıxartdırır, atasını dustaqxanaya salırlar. Atası zindanda ölür.

XƏBƏR ŞƏKLİ (НАКЛОНЕНИЕ)

Xəbər şəkli iş, hal və ya hərəkətin müəyyən zaman daxilində müəyyən şəxs tərəfindən icrasını bildirir. Xüsusi şəkilçisi yoxdur. Zaman və şəxs şəkilçisini qəbul edən fel xəbər şəklində olur.

Изъявительное наклонение указывает, что действие, состояние совершается в определенное время определенным лицом. Специальных аффиксов не имеет. Глагол, присоединяющий аффиксы времени и лица, бывает в форме изъявительного наклонения.

Məsələn: oxuyur, oxuyuram, oxudu, oxudum, oxuyaram, oxuyacaq, oxuyacağam; istəyir, istəyirəm, istədi, istədim, istəyəcək, istəyəcəyəm.

■**Tapşırıq.** *Yumaq, geymək, yıxmaq, daramaq, yormaq fellərini zamana və şəxsə görə dəyişin.*

■**Tapşırıq.** *Mətnin məzmununu danışın.*

Günəşlə Ay

Öz gözəlliyi ilə öyünən Günəş çox məğrur bir qız idi. Göy üzündə səpələnən ulduzlar onun pişvazında durardılar, onun yolunu həsrətlə gözləyərdilər. Lakin bu məğrur qız yolunu gözləyənlərin çox olduğunu gördükcə daha da məğrurlaşır, gözlərindən sevinc, məğrurluq alovu saçırdı. Bu alova dözməyən ulduzlar yanıb kül olar, Günəşin çıxması ilə yox olardılar. Lakin məhəbbət onları ölməyə qoymazdı, onlar yenidən dirilib dünyaya gələrdilər. Günəşi ulduzlardan daha çox Ay maraqlandırırdı. Çünki o, tək idi, bəzən də öz məhəbbətini Günəşə bildirmək üçün ikiyə bölünür, bədənini parça-parça edərdi. Bəzən də həsrətdən o qədər nazilərdi ki, Günəşin özü də onu görəndə xəcalət çəkib üzünə pərdə (bulud) tutub gizlənərdi. Bir gün Ay Günəşin görüşünə gəlir. Günəş Ayın gözəlliyini görərkən qəlbi çırpınır, onu sevən oğlanın daha gözəl olduğunu görüb xəyala dalır, axırda deyir: «Əgər məni ürəkdən sevirsənsə, üzündəki qara xalı dırnağınla qoparıb mənə ver, mən onu öz ovcumda görmək istəyirəm...». Ay heç nə düşünmədən sevgilisinin əmrini yerinə yetirir. Ayın üzünü qan bürüyür. Bu zaman Günəş qəhqəhə çəkib gülür, Ayın fədakarlığına cavab olaraq deyır: «...Sənin gözəlliyin o xalda idi, onu da qopartdın, indi dünyanın ən gözəli mənəm». Günəşin bu sözü Ayı təəccübləndirir, onun üzünə tökülən qanı sifətindəcə donub qalır. Elə o vaxtdan Ayın üzündə ləkə qalır. Ay Günəşdən uzaqlaşır, bir daha onu görmək istəmir. Günəş tutduğu işə peşman olur, nə qədər Ayı çağırırsa, cavab almır. Odur ki, Günəş çıxarkən Ay üzünə pərdə çəkir, onun sifəti solğunlaşır. Ay istəmir ki, Günəş onun üzündə olan ləkəni görsün.

LAZİM ŞƏKLİ
(НАКЛОНЕНИЕ ОБЯЗАТЕЛЬНОСТИ)

Lazım şəkli iş, hal və ya hərəkətin icrasının lazım oldugunu bildirir. Bu şəklin sadə forması **-ası, -əsi, -yası, -yəsi** şəkilçisi, mürəkkəb forması **«idi», «imiş», «isə»** ədatı vasiləsilə əmələ gəlir. Zaman şəkilçisi qəbul etmir, sadə forması mənaca gələcək zamana, mürəkkəb forması keçmiş zamana aid olur.

Наклонение обязательности показывает необходимость совершения действия, состояния. Простая форма этого наклонения образуется с помощью аффиксов **-asi, -əsi, -yası, -yəsi,** а сложная форма – при помощи частиц **«иди», «imiş»,** и частицы **«isə».** Аффиксов времени данное наклонение не принимает; простая форма соотносится по значению с будущим, сложная форма – с прошедшим временем.

Məsələn: oxuyası, gələsi, oynayası, aşası, işləyəsi, oxuyası idi, gələsi idi, oynayası imiş, aşası imiş, uçası isə və s.

■**Tapşırıq.** *Görmək, getmək, işləmək, qovuşmaq, düşmək fellərini lazımi şəkildə şəxsə görə dəyişin.*

■**Tapşırıq.** *Mətnin məzmununu nəql edin.*

Pənahəli xan Cavanşir

Pənahəli xan Cavanşir Qarabağda məşhur Cavanşirlər ailəsində anadan olmuşdur. Pənah xanın döyüşkənliyi, qəhrəmanlığı Nadir şahın xoşuna gəlmişdi. Pənahəli bir müddət Nadir şahın ordusunda xidmət etmişdi. Sonralar vətəni Qarabağa qayıtmışdı.

1747-ci ildə Nadir şahın ölümündən sonra böyük Səfəvilər dövləti parçalanır. Azərbaycanda 20-yə qədər müstəqil xanlıq yaranır. Bu xanlıqlardan biri də Qarabağ xanlığıdır ki, onun da başında Pənah xan dururdu.

Pənah xan Qarabağ xanlığını müdafiə etmək məqsədilə Qarabağ düzündə Bayat qalasını tikdirir. Bir çox Qarabağ məliklərini özünə tabe edir. Pənah xanın nüfuzunun artdığını görən Şəki və Şirvan xanlığı onu öldürmək qərarına gəlirlər. Lakin Pənah xana qalib gələ bilməyib geri qayıdırlar.

Bir tərəfdən qonşu xanlıqların hücumlarını, digər tərəfdən Bayat qalasının əlverişsiz yerdə yerləşdiyini nəzərə alan Pənah xan xanlığın mərkəzini Pənahabada (Şuşaya) köçürmək qərarına gəlir. Strateji cəhətcə möhkəm olan Şuşa qalasına 1757-ci ildə hücum edən Məmməd Həsən xan, 1759-cu ildə hücum edən Urmiya xanı Fətəli xan və bir çox başqa xanlar qalanı ala bilməyib geri qayıdırlar. Bu hücumların birində Fətəli xan hiyləyə əl atır. O, Pənah xanı aldadıb onunla qohum olmaq arzusunda olduğunu bildirir. Pənah xan böyük oğlu İbrahimxəlili Fətəli xanın düşərgəsinə göndərir. Fətəli xan İbrahimxəlil xanı girov götürüb Urmiyaya qayıdır. Bundan istifadə edən Fətəli xanın düşməni Kərim xan Şimali Azərbaycan xanlıqlarını Fətəli xana qarşı müharibəyə qaldırır. Pənah xan öz yerində oğlu Mehrəli xanı qoyub bu çağırışa qoşulur. Bu döyüşdə

Fətəli xanı öldürürlər. Pənah xanın oğlu İbrahimxəlil xan Qarabağa qayıdır. Müharibəni qələbə ilə başa vuran Kərim xan Pənah xanı aldadıb Şiraza aparır və Şirazda onu əsir kimi saxlayır. Bəzi mənbələrdə göstərilir ki, Pənah xan 1760-cı ildə əsirlikdə özünü öldürmüş, bəzilərində isə deyilir ki, onu zəhərləyib öldürmüşlər. Hər iki variantın nəticəsi eynidir. 1760-cı ildə Şirazda vəfat etmiş Pənahəlı xanın cənazəsi Ağdama gətirilmiş və böyük hörmətlə dəfn edilmişdir.

Hakimiyyətdə olduğu illərdə Pənah xan həmişə çalışırdı ki, heç olmasa Şimali Azərbaycan xanlıqları birləşib, ümumi düşmənə cavab versinlər. Ancaq buna nail ola bilməmişdir.

ARZU ŞƏKLİ
(НАКЛОНЕНИЕ ЖЕЛАТЕЛЬНОСТИ)

Arzu şəkli iş, hal və ya hərəkətin icrasında arzu, istək, gərəklik bildirir, fel kökünə **-a, -ə, -ya, -yə** şəkilçisi artırmaqla düzəlir. Arzu şəkli zaman şəkilcisi qəbul etmir, məzmunca gələcək zamana aid olur. Arzu mənasını qüvvətləndirmək üçün feldən əvvəl **«kaş», «kaş ki», «barı», «təki», «bircə», «gərək»** ədatlarını artırmaq lazımdır.

Наклонение желательности выражает желание, намерение совершения действия, образуется прибавлением к корню глагола аффикса **-a, -ə, -ya, -yə.** Наклонение желательности принимает аффиксы времени, по содержанию относится к будущему времени. Для усиления значения желательности перед глаголом используются частицы **«kaş», «kaş ki», «barı», «təki», «bircə», «gərək».**

Məsələn: yaza, gələ, oynaya, işləyə, kaş bilə, bircə düzələ, barı otura, kaş bilsən, gərək deyəsiniz və s.

■**Tapsırıq.** *Mürgüləmək, oxumaq, yazmaq, şumlamaq, kəsmək, belləmək fellərini arzu şəklində şəxsə görə dəyişin.*

■**Tapşırıq.** *Şeri əzbərləyin.*

Aşıq Ələsgər

Düşdü

Çərşənbə günündə, çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Cadu qəmzələri qanıma düşdü.

İşarat eylədim, dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi.
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam
Dedim: Sən təbibsən, mən yaralıyam,
Dedi: Nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü

VACİB ŞƏKLİ
(ДОЛЖЕНСТВОВАТЕЛЬНОЕ НАКЛОНЕНИЕ)

Felin vacib şəkli gələcəkdə icra ediləcək işin zəruriliyini, vacibliyini bildirir, -malı, -məli şəkilçisi ilə düzəlir. Vacib şəkli zaman şəkilçisi qəbul etmir, məzmunca gələcək zamanı bildirir. «İdi» və «imiş» ədatları ilə işləndikdə isə keçmiş zamana aid olur.

Долженствовательное наклонение выражает необходимость, обязательность совершения действия в будущем времени и образуется при помощи аффиксы **-malı,-məli.** Долженствовательное содержание выражает будущее время, а при употреблении с частиц «idi», «imiş» относится k прошедшему времени.

Məsələn: almalı, gəlməli, oxumalı, çıxmalı, düşməli, yığışmalı idi, işləməli idi, yumşalmalı imiş.

■**Tapşırıq.** *Mətni Azərbaycan dilinə tərcümə edin, vacib şəklində olan felləri göstərin.*

Человек должен с детства помнить, на какой земле он родился. Он должен помнить, что у него есть обязанности перед этой великой, самой красивой в мире землей, которую зовут Родиной. Если ей будет угрожать смертельная опасность, он должен встать на ее защиту и стоять, если нужно, насмерть.

Он должен помнить и чтить память своих предков, которые не щадили жизни, защищая родную страну, родной язык, родной дом.

(Н. Тихонов)

■**Tapşırıq**. *Aşağıdakı vacib şəklində olan felləri şəxslərə görə dəyişin:*

Oxumalı, öyrənməli, diqqət etməli, sevinməli, başa düşməli, hazırlaşmalı.

■**Tapşırıq**. ***«Şah İsmayıl»*** *dastanı haqqındakı məlumatı oxuyun.*

«Şah İsmayıl» dastanı

«Şah İsmayıl» dastanı xalq arasında çox yayılmış, qəhrəmanlıq və məhəbbət motivlərini bir yerə toplayan xalq romanıdır. Bu dastanda eyni zamanda xalqın ədalətli bir hökmdar arzusu da öz əksini tapmışdır. Dastanın yaranması və qəhrəmanı Şah İsmayıl haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. H.Araslının fikrinə görə, bu dastan Səfəvi dövlətinin təşəkkülü dövründə Şah İsmayıl Xətai adına həsr olunmuşdur.

M.Təhmasibin fikrinə görə, dastanın qəhrəmanı Xətainin nəvəsi olan Şah İsmayıldır. M.Təhmasib fikrini sübut etmək üçün tarixdən və dastandan dəlillər gətirir. Məsələn, dastan qəhrəmanının atası şah idi. İkinci Şah İsmayılın da atası şah olmuşdur və öz atası tərəfindən cəzalanaraq iyirmi ildən artıq qalada əsir edilmişdir. İkinci Şah İsmayılın zindandan qurtulmasında onun Pəri xanım adlı bacısı əsas rol oynamışdır. Dastanda da rəhmdar Pəri Şah İsmayıla mühüm kömək göstərmişdir.

Bütün bunlara rəğmən belə düşünmək olar ki, dastan birinci Şah İsmayılın adı və fəaliyyətilə əlaqədar yaranmışdır. Fəqət sonradan ikinci Şah İsmayıl ilə əlaqədar hadisələr dastana əlavə olunmuşdur.

Dastanın əsas qəhrəmanı Şah İsmayıldır. O, hökmdar oğludur. Dastanda ifadə edilən əsas fikir ədalətli hökmdar və haqqın, ədalətin zülm və özbaşınalıq qarşısında təntənəli təcəssümüdür. Ömründə bunu görməyən xalq, heç olmasa, nağıllarda, dastanlarda ədalətin qələbəsini arzulayırdı. Əsrlər boyu hökmdar və padşah məsələsi xalq kütlələrini düşündürmüşdür. Nizami Gəncəvi də öz əsərlərində xalqın bu mövzuda yaratdığı bir çox nağıl və əfsanələrdən istifadə etmişdir.

Şah İsmayıl da belə hökmdarın bir surətidir. Ancaq xalq dastanı, əsasən onun hökmranlığını deyil, sevgisini, eşq yolunda göstərdiyi qəhrəmanlığını daha çox təsvir edir. Burada Şah İsmayıl hər şeydən əvvəl sonsuz sevgi ilə sevən bir aşiqdir. Atası ölkənin bütün gözəllərini toplayır və oğluna «hansını sevirsən söylə, onu sənə alım» deyir, «O da ki...» beyti ilə başlanan qoşmalarla cavab verir:

O da ki...

Kimisi al geyib, kimi qırmızı,
Kimisi gözəldir, kimi nərgizi.
Hamıdan göyçəkdir vəzirin qızı,

O da ki, heç Gülzara bənzəməz.

Şah İsmayıl Gülzarı gətirməyə gedir. Yolda ona iki gözəl rast gəlir. Biri Pəri və digəri Ərəb Zəngi. Lakin o, Gülzara verdiyi sözünə sadiq qalır və hər iki gözəlin qarşısında etiraf edir ki, onun nişanlısı var. Sah İsmayıl eyni zamanda döyüş qəhrəmanıdır və bu vasitə ilə qələbə çalır və sevgilisinə qovuşur. Ərəb Zəngi ilə döyüşlərinin birində buna işarə edərək belə deyir:

Çox danışma, ərəb, doymuşam cana,
Dava istəyirsən, girək meydana.
Sıyırram qılıncı, boyanar qana,
Yol ver, ərəb, yol ver, incitmə məni.

Şah İsmayıl qəddar və zalım Ədil şaha qarşı mübarizə edərkən tamamilə dəyişir və haqq, ədalət, doğruluq üçün çalışan və çarpışan bir şahzadəyə çevrilir və mübarizəsi ictimai xarakter alır.

Ədil şah dastanda tamamilə oğluna zidd bir mövqedədir. Dastanın başında oğlunun həsrətilə qəlbi çırpınan bu hökmdar sonralar azğınlaşır və şəhvani hissləri oğluna olan məhəbbətinə üstün gəlir və oğlunu qonaq çağırıb zəhərləmək istəyir, müvəffəq olmayınca Şah İsmayılın öz oxunun kirişilə qollarını bağlayır və gözlərini çıxartdırır.

Şah İsmayıl dastanında Ərəb Zəngi surəti də cox caizdir. O, həyatından incimiş və «namussuz kişilərə ibrət olmaq üçün harada kişi tapsam öldürəcəyəm» - demişdir. Ərəb Zəngi yol kənarında məskən salıb, gəlib-gedən karvanları soyur, kimi məğlub etsə, öldürür, lakin əgər birisi ona qalib gələrsə, onunla evlənəcəyinə də söz vermişdir. Şah İsmayıl Ərəb Zəngi ilə üz-üzə gəlir və birinci gün heç biri digərinə üstün gələ bilmir. Ərəb Zəngi ona deyir:

Oğlan, mey içmisənmi, ya da bəngi,
Qorxudan saralıb üzünün rəngi,
Hələ eşitmədinmi Ərəb Zəngi,
Çox sənin kimi kişilər baş verib gedər.

Şah İsmayıl da cavabında belə deyir:

Bir sən gəl bax qaynağıma, cuşuma,
Əl vura bilməzsən tərlan quşuma.
Bax Şah İsmayılın tər savaşına,
Yol ver, ərəb, yol ver, incitmə məni.

Şah İsmayıl qalib olduqdan sonra Ərəb Zəngi ömrü boyu ona dost, sirdaş olacağına söz verir və doğrudan da belə olur. Dastanın sonuna qədər Ərəb Zəngi onu bütün çətinliklərdən qoruyur, hətta Gülzarı qəddar atasının əlindən alan da odur. Ərəb Zəngi dastanda dostluq simvolu kimi təsvir edilmişdir.

ŞƏRT ŞƏKLİ
(УСЛОВНОЕ НАКЛОНЕНИЕ)

Felin şərt şəkli iş, hal, hərəkətin müəyyən şərtlə bağlılığını bildirir, **-sa, -sə** şəkilçisi ilə düzəlir; məzmunca gələcək zamana, **«idi», «imiş»** ədatlarının qoşulması ilə keçmiş zamana aid olur.

Условное наклонение связывает совершение действия, состояния с определенным условием и образуется при помощи аффикса **-sa, -sə;** по содержанию оно относится к будущему времени, а при присоединении связок, **«idi», «imiş»** - к прошедшему времени.

Məsələn: atsa, alsa, bərkisə, dirçəlsə, oynasa, getsə, ağarsa idi, gözləsə idi, gəlsə imiş, getsə imiş.

■**Tapşırıq.** *Baxmaq, getmək, mühazirə dinləmək fellərinin şərt şəklini düzəldin, onları şəxslər üzrə dəyisin və cümlədə işlədin.*

■**Tapşırıq.** *Mətnləri oxuyun, məzmununu nəql edin.*

Cavad xan

Sisyanov 1803-cü ilin aprelində I Aleksandra göndərdiyi raportda bildirirdi ki, «Samux bəylərini itaətə gətirdikdən sonra Kür çayını keçməkdən ötrü keçid düzəldəcək, özüm ən əvvəl Gəncəni fəth etmək üçün gedəcəyəm.

Rus qoşunu Gəncəni işğal etmək üçün ciddi hazırlıq işləri görürdü. Yürüşə çıxmaq üçün Sisyanov Gürcüstana göndərdiyi iki yeni alayı gözləyirdi.

Gəncə yürüşündə iştirak edəcək 6 batalyon və 12 topdan ibarət qoşun 1803-cü il noyabrın 20-də Tiflis yaxınlığındakı Soğanlıq kəndində toplaşmışdı. Yürüş noyabrın 22-nə nəzərdə tutulmuşdu.

Noyabrın 29-da rus qoşunları Şəmkirə soxuldular. Sisyianov Cavad xana hədə-qorxu ilə məktub göndərib qalanı təslim etməyi ondan tələb etmişdir.

Cavad xan Gəncənin Gürcüstana məxsus olmasını nəinki inkar edir, hətta bildirirdi ki, Gürcüstanın özü hələ vaxtilə Gəncə bəyləri tərəfindən idarə olunmuşdur: «Məktubunu aldım. Yazırsan ki, 6 il əvvəl mən Gəncə qalasını rus qoşunlarına vermişəm. Bu doğrudur. Onda sizin padşah mənə fərman göndərmişdi və mən onun təklifini qəbul etdim. Əgər indi belə fərman varsa, mənə göstər…götür-qoy edim. Bir də yazırsan ki, guya mən əvvəllər Gürcüstanın tabeliyində olmuşam. Sənin padşahının fərmanı indi də əlimdədir. Bir gör orada mən Gəncə bəylərbəyi, yoxsa Gürcüstan vassalı adlanıram? Buradan aydın olur ki, sözlərin tam yalandır…»

Təslim olmağı ağlına belə gətirməyən igid Cavad xan mübarizəyə hazır olduğunu bildirdi: «Mənimlə müharibə etmək fikrinə düşmüsənsə, mən hazır. Uğur isə Allahın əlindədir».

Tarixçi Mirzə Adıgözəl bəy yazırdı ki, rus qoşunları Gəncə torpağına girib, ətrafı tutdular. Cavad xan adamlarını və qoşununu götürüb onların qabağına gəldi. Gəncənin iki verstliyində Quru qobu adlanan yerdə iki ordu üz-üzə gəldi və hərbi atəş alovlandı.

Tarixən satqınlıqla məşğul olan ermənilərin yerli nümayəndələri qoşunların xanlığı tutması üçün əllərindən gələni əsirgəmirdilər. Hələ 1803-cü ilin yanvarında Lazarevin Sisiyanova raportunda göstərilirdi ki, «Kazaklar tərəfindən tutulmuş iki erməni sorğu zamanı bildirmişlər ki, bütün Gəncə ermənilər rus qoşunlarının Gəncəyə gəlməsini səbirsizliklə gözləyirdilər».

O dövr mənbələri Cavad xanın qəhrəmancasına müdafiə olunduğunu göstərir. Bir ay mühasirə müddətində Sisiyanov beş dəfə hədələyici məktubla Cavad xandan qalanı təslim etməyi tələb etmişdi. Buna cavab olaraq Cavad xan bildirirdi ki, təslim olmaq haqqında söhbət belə gedə bilməz və mən son damla qanıma qədər vuruşacağam. Qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək. Gəncəyə yalnız meyidimin üstündən keçə bilərsən. Bildin? Mən öləndən sonra, özgə yolla yox.

Sisiyanov dekabrın 29-da yazdığı axırıncı məktubda tabe olmaq şərtlərini də göstərirdi. Bu şərtlərə görə Cavad xan bütün əhali ilə Rusiya təbəəliyinə keçməli, ildə 20 min manat xərac verməli, Gürcüstandakı rus qoşunlarını ərzaqla təchiz etməli, oğlu Hüseynqulu ağanı girov göndərməli idi.

Cavad xan düşmənin bütün tələblərini rədd edib son döyüşə, ölümdirim müharibəsinə hazırlaşırdı.

Sisiyanovun hazırladığı bütün hiylələr, hədə-qorxular heç bir nəticə vermədi. Gəncəni döyüşsüz təslim etmək üçün artıq diplomatik üsullar tükənmişdi. Qış ayı olduğu üçün xəstələrin sayı xeyli artmış, təchizat çətinləşmişdi. Belə vəziyyətdə müharibəni davam etdirmək məğlubiyyətə düçar olmaq demək idi.

Sisiyanov 1803-cü il dekabrın 29-da hərbi Şura çağırmağı qərara aldı. Şura iki yoldan birini seçməli idi: ya geri çəkilməli, ya da hücum etməli. Birinci yol rus qoşunları üçün rüsvayçılıq demək olardı. Bu onları Qafqazda hörmətdən salar və rusların işğalçılıq planlarının puç olmasına gətirib çıxara bilərdi. Ona görə də hərbi Şura yanvarın 2-dən 3-nə keçən gecə hücum etməyi qərara aldı. Sisyianov qoşunları iki hissəyə bölərək onların hücum istiqamətlərini təyin etdi. Birinci bölük əvvəlcə gəncəlilərin müdafiəsini yarıb keçmək istəsə də, məqsədə nail ola bilmədi. Sonra nərdivanlarla qala divarlarına hücuma keçdilər. Müqavimət o qədər güclü oldu ki, rus qoşunları hər iki hücumda böyük itki verərək geri çəkildilər. Bu vaxt ikinci dəfə hücuma qoşularaq əsas qüvvələri tutdu.

Əhməd bəy Cavanşir Cavad xanın son döyüşünü belə təsvir edir: «Orucluq bayramı gecəsi nərdivanla bir neçə tərəfdən bayıra çıxmağa çalışdılar. Cavad xan bayıra çıxanları igidlik və qoçaqlıqla dəf edirdi. Axırda, mayor Lisaneviçin bir gülləsinə həyət barısından yıxılıb, ölü diyarına düşdü. Saldatlar dərhal dörd tərəfdən hücum edib şəhərə daxil oldular.

Qanlı döyüşlərdən sonra qala rus qoşunları tərəfindən tutuldu. Böyük rəşadətlə qeyri-bərabər döyüşə girişən Cavad xan və onun oğlu Hüseynqulu ağa qəhrəmancasına həlak oldular. Ermənilər son anda da öz rəzilliklərini göstərdilər».

Tarixçi N.Dubrovin qeyd edirdi ki, «500-ə qədər tatar (azərbaycanlı) məscidə dolmuşdu: bir erməni bizim əsgərlərə dedi ki, onların arasında bir neçə Dağıstan ləzgisi var. Ləzgi adının çəkilməsi bütün məsciddəkilərin məhvinə işarə oldu».

Cavad xandan nümunə götürən qala müdafiəçiləri axıra qədər vuruşdular, döyüş meydanını tərk etmədilər. Şəhərin içi meyidlərlə örtülmüşdü. Ölənlərin sayı 1500, əsirlərin sayı isə 17224 nəfər olmuşdu.

Gəncənin işğalı Rusiyada böyük sevinclə qarşılandı. Çar Aleksandr Sisiyanova göndərdiyi məktubda qələbəyə çox sevindiyini və ona vətən xeyrinə gördüyü işlərə görə təşəkkürünü bildirdi. Hətta o, Gəncəni öz arvadının şərəfinə Yelizavetpol adlandırmaq haqqında fərman da vermişdi. Bundan sonra yazılarda «Yelizavetpol» sözünü əksinə, «Gəncə» işlədənlər 1 manat gümüş pula cərimə edilirdi. Gəncənin alınmasında iştirak edənlərə xüsusi təsis edilmiş gümüş medallar təqdim edilmişdi.

(Bax: «Azərbaycan tarixi»
IX sinif. Bakı, 2002)

Gəncənin işğal edilməsində iştirak etmiş
general Koryaginin gündəliyindən
SƏNƏD

«…Əgər Pavel Dmitriyeviçin yanında yaveri olmasaydı, o, qəhrəman tatar (azərbaycanlı) xanın qəhrəman zövcəsinin qılıncından salamat qalmayacaqdı. Əsgər araya girmiş, endirilmiş qılınc ona dəymişdir... bu hadisədən sonra Sisiyanov dərhal çölə çıxmış, lakin rəngi qaçmışdı. Mən tatar xanının arvadının əynində çərkəzi paltar, belində xəncər və əlində ərinin qılıncını gördüm. Qılınc tanış idi. Onun zəhmləri o qılınclar mənə zərbələr endirmişdir, xanın zövcəsi qılıncı attraksionerlər kimi oynadırdı, daha doğrusu, elə bil rəqs edirdi. Mən onun «oyununa» dözə bilmədiyimi hər dəqiqə hiss edirdim və buna görə də, əsgərlərdən birini məni əvəz etməyə çağırdım, özüm «oyundan» çıxdım...

...İgid xanın dəfnindən bir gün sonra biz onun zövcəsinə başsağlığı verməyə getdik. O, başdan-ayağa qara paltar içində idi, bizə qatil kimi baxırdı. Buna onun haqqı vardı. Biz ona pul təklif etdik. O, cavab verməyə tələsmədi, yanındakı qızı çağırıb nəsə dedi. Qız dərhal yan otağa keçdi. Əlində bir kisə ilə qayıdıb gəldi. Bu, pul kisəsi idi. Xanın arvadı kisəni götürüb generalın qarşısında dayandı və düz onun gözlərinin içinə baxıb tatarca nəsə dedi. Birdən dəhşət baş verdi, o, gözlənilmədən pul kisəsini generalın üzünə çırpdı. Qızıl onluqlar Pavel Dmitriyeviçin alnına, burnuna və ağzına dəyib ayaqlarının altına töküldü. General başını aşağı əyib yerə tökülmüş qızıl pullara acgözlüklə baxanda, xanım mənalı bir tərzdə nifrətlə gülümsədi. General azdan-çoxdan qafqazlı adətinə bələd olduğu üçün Bəyim xanıma cavab vermədi, əlindəki pulu qaytarıb cibinə qoydu, qapıdan çıxanda nə isə fikirləşib geri qayıtdı, astanada dayanıb həmin pulları cibindən çıxartdı, hələ də ayaq üstə dayanan xan arvadının ayaqları altına 600 çervonu səpdi, qadın pullara baxmadı, onları ayaqladı...»

«Gəncənin səsi» qəzeti, 23 fevral 1990
(Bax: «Azərbaycan tarixi». Bakı, 2002)

FELİN TƏSRİFLƏNƏN VƏ TƏSRİFLƏNMƏYƏN FORMALARI (СПРЯГАЕМЫЕ И НЕСПРЯГАЕМЫЕ ФОРМЫ ГЛАГОЛА)

1. Təsriflənən formalar

Təsriflənən formalarda subyektin müəyyən əlamətləri öz əksini feldə tapır, həmin fellər zaman şəkilçiləri qəbul edib-etməməsindən asılı olmayaraq şəxsə, kəmiyyətə və şəklə görə dəyişə bilirlər.

В спрягаемых формах глаголы находят свое отражение в определенных признаках субъекта. Эти глаголы независимо от наличия или отсутствия аффиксов времени могут изменяться по лицам, числам и наклонениям.

2. Felin təsriflənməyən formaları

Felin təsriflənməyən formaları şəxsə, kəmiyyətə və şəkillərə, bəzisi zamana görə dəyişmir.

Неспрягаемые формы глагола не изменяются по лицам, числам, наклонениям, а некоторые и по временам.

Felin təsriflənməyən formaları fellə yanaşı, ikinci nitq hissəsinin də xüsusiyyətlərini daşıyır. Məsələn, məsdərdə həm felə, həm də ismə, feli sifətdə həm felə, həm də sifətə, feli bağlamada isə həm felə, həm də zərfə aid xüsusiyyətlər vardır. Felin təsriflənməyən formalarına məsdər, feli sifət və feli bağlama daxildir.

Неспрягаемые формы глагола наряду с особенностями глагола обладают и особенностями другой части речи. Например, в неопределенной форме глагола мы обнаруживаем признаки глагола и существительного, в причастии – глагола и прилагательного, а в деепричастии –глагола и наречия. К неспрягаемым глагольным формам относятся неопределенная форма глагола, причастие и деепричастие.

■**Tapşırıq.** *Mətni oxuyun və məzmununu danışın.*

İqtisadi nəzəriyyə iqtisad elmləri sistemində

XVIII əsrdən başlayaraq iqtisad elmi bir elm sahəsi kimi fəaliyyət göstərir. Bu elmin tədrisinə XIX əsrin əvvəllərindən, xüsusilə onun ikinci yarısındın başlanmışdır.

XIX əsrin yarısından başlayan va XX əsrdə davam edən iqtisadi, texniki və mədəni yüksəliş iqtisad elminin ayrı-ayrı elm sahələrinin

bölgüsünə səbəb olmuşdur. Bu dövrdə iqtisadiyyatda əmək bölgüsünün, ixtisaslaşmanın genişlənməsi baş vermiş, iqtisadiyyat daha mürəkkəb xarakter almışdır. Bu səbəbdən indi iqtisadiyyatın müxtəlif sahələrini, hissələrini öyrənən çoxsaylı iqtisad elmləri fəaliyyət göstərməkdədir. Bunların içərisində sənayeni, kənd təsərrüfatını, tikintini, xidmət və sosial fəaliyyət dairəsini öyrənən elmləri göstərmək olar. Bu elmlərlə yanaşı onun kəmiyyət və keyfiyyət tərəflərini, idarə edilməsinin vasitələrini öyrənən elmlər də mövcuddur. Həmin elmlərdən əməyin iqtisadiyyatı və təşkili, iqtisadiyyatın tənzimlənməsi, idarəetmə, maliyyə, kredit, statistika, marketinq, iqtisadi kibernetika kimi elmlər geniş fəaliyyət göstərməkdədir. Bütün bu iqtisad elmlərinin hər birinin predmeti və konkret funksiyaları mövcuddur. Buna baxmayaraq, onların hamısı bir sistem səklində, bir-biri ilə qarşılıqlı münasibətdə inkişaf edir və təkmilləşir.

Bütün bu elm sahələrinin tədqiqat obyekti iqtisadiyyatdır.

Sovet sosialist sistemi dağıldıqdan sonra iqtisad elmlərinin adı, məzmunu və funksiyaları da dəyişilməyə başlamışdır.

Keçmiş cəmiyyətdə ideoloji don geyindirilmiş «kapitalizm» və «sosializm» anlayışları iqtisad elmlərini də qəlibə salmış, onların yaradıcılıq imkanını xeyli daraltmışdı. Belə bir şəraitdə iqtisadi nəzəriyyə, onunla yanaşı fəaliyyət göstərən və tədris olunan konkret iqtisad elmləri dünya iqtisadi nəzəri fikrindən təcrid olunmuşdu. Hazırda iqtisad elmlərinin inkişafı üçün sərbəst yaradıcılıq, obyektiv və tərəfsiz fikir söyləmək imkanı yaranmışdır. İndi dünya iqtisadiyyatını, milli iqtisadiyyatı yeni baxımdan öyrənən elm sahələri də iqtisad elmləri sırasında fəaliyyət göstərir.

İqtisadi nəzəriyyə ilə digər iqtisad elmləri arasında fərqlər və vəhdət mövcuddur. Burada iqtisadi nəzəriyyə ən çox nəzəri-metodoloji funksiyalarla çıxış edir. Bu baxımdan iqtisad elmlərini iki yerə - nəzəri və tətbiqi elmlərə bölmək daha düzgün olardı.

İqtisadi nəzəriyyə tətbiqi iqtisad elmlərilə qarşılıqlı əlaqə şəklində inkişaf edir, bu elmlərlə birlikdə cəmiyyətin ümumiqtisad problemlərinin araşdırılmasında və tövsiyələr verilməsində iştirak edir.

Biz iqtisad elmindən, nəzəriyyələrdən iqtisadi fəaliyyətimizdə faydalanmaq üçün istifadə edirik. Məlumdur ki, həyatda əhəmiyyəti olmayan elm boş və mənasız biliklər yığımından ibarət ola bilər. Şərqin bir müdriki demişdir: «Elmsiz iş (əməl) şoranlığa səpilən toxuma bənzər, əməlsiz elm isə qəbirdəki diriyə bənzər».

Yaşadığımız iqtisadi mühiti düzgün dərk edib qiymətləndirmək üçün ən yaxşı yol iqtisad elmini öyrənməkdir. İndi yaşadığımız dövrün bütün çətinliklərinin, ziddiyyətlərinin kökü iqtisadiyyatla bağlıdır. Bu çətin və böhranlı illərdən çıxmağın yolu, milli iqtisadiyyatımızı, onun

əsasında da elmimizi, təhsilimizi, mədəniyyət və mənəviyyatımızı dirçəldib inkişaf etdirməkdir. Bununla bağlı gənclər, yaşlılar qarşıya belə bir sual qoyurlar ki, biz hansı ictimai quruluşa, hansı iqtisadi sistemə keçirik? Bu sualın cavabını məşhur iqtisadçı C.Helbreytin özünün «İqtisadi nəzəriyyə və cəmiyyətin məqsədi» əsərində aydın şəkildə ifadə etmişdir. O yazır ki, «ən yaxşı iqtisadi sistem insanların çox ehtiyac duyduğu şeylərlə onların maksimum tələbatını ödəməyə qadir olan sistemdir». Beləliklə, iqtisadi, sosial, mədəni və mənəvi problemlərin həllində insan azadlığı və qayğısını öz üzərinə götürən, onun bu gününü və gələcəyini təmin edən cəmiyyətə nə ad qoyulmasından asılı olmayaraq, o, sağlam və demokratik bir cəmiyyətdir.

(«İqtisadi nəzəriyyə» kitabından)

MƏSDƏR
(НЕОПРЕДЕЛЕННАЯ ФОРМА ГЛАГОЛА)

Felin təsriflənməyən forması olan məsdər iş, hal və hərəkətin adını bildirir. Fel kökünə **-maq (-mək)** şəkilçisi əlavə etməklə düzəlir, nə etmək? sualına cavab verir. Məsdərləri isimlərə yaxınlaşdıran bir sıra xüsusiyyət vardır.

Неопределенная форма глагола, являющаяся неспрягаемой формой, называет имя действия. Она образуется добавлением к корням глаголов аффикса **-maq, -mək.** Неопределенная форма глагола отвечает на вопрос **nə etmək?** Инфинитив имеет ряд особенностей, которые сближивают её с существительными:

1. Məsdər mənsubiyyət şəkilçisi qəbul edə bilər (инфинитив может принимать аффиксы принадлежности).

Məsələn: oturmağım, oturmağın, oturmağı, oturmağımız, oturmağınız, olurmaqları.

2. Məsdər hallanır (неопределенная форма глагола склоняется).

Məsələn: yazmaq, yazmağın, yazmağa, yazmağı, yazmaqda, yazmaqdan.

3. Məsdər qoşmalarla, köməkçi fellərlə işlənir (неопределенная форма глагола употребляется с **послелогами, связками**)

Məsələn: əkmək üçün, vurmaq üçün, yuxulamaq üçün, küsmək idi, bilmək imiş və s.

4. Məsdər cümlədə mübtəda və tamamlıq ola bilir (инфинитив в предложении может быть и подлежащим, и дополнением).

Məsələn: Həyatı qiymətləndirməyi (nəyi?) bacarmaq lazımdır. Danışmaq (nə?) gümüşdürsə, susmaq (nə?) qızıldır.

■**Tapşırıq.** *Almaq, satmaq, gülmək, danışmaq, ucaltmaq, enmək, yumaq, ütüləmək, asmaq məsdərlərini təsirli-təsirysizliyə, növə və inkara görə dəyişin.*

■**Tapşırıq.** *Mətnin məzmununu öyrənin.*

MÜƏSSİSƏ MALİYYƏSİNİN MAHİYYƏTİ VƏ FUNKSİYALARI

"Maliyyə" termini ilk dəfə XV əsrdə İtaliyanın ticarət şəhərlərində meydana gəlmişdi. O vaxtlar artıq əmtəə-pul münasibətləri və dövlətçilik mövcud idi. Sonradan bu termin beynəlxalq miqyasda yayıldı, dövlət pul vəsaitləri fondunun yaradılmasına dair əhali və dövlət arasında pul münasibətlərinin qurulması ilə əlaqədar iqtisadi anlayış kimi işlədildi.

Milli iqtisadiyyatın dinamik və effektiv inkişafı maliyyə resurslarından məqsədyönlü və peşəkarcasına istifadə edilməsi əsasında mümkündür. Maliyyə vəsaitlərindən düzgün və savadlı istifadə olunması iqtisadi artım tempinin sürətlənməsinə, təsərrüfat subyektlərinin fəaliyyətinin səmərəli təşkilinə, büdcə sisteminin balanslaşdırılmasına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və sosial mühafizəsinə, inflyasiyanın cilovlanmasına və maliyyə sabitliyinin təmin edilməsinə imkan verir. Ölkənin maliyyə sistemi əsas və təminedici elementlərdən ibarətdir. Maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə görə məsuliyyət prinsipi müəssisə zərərlə işləyən zaman, kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirmək və istehsalın maliyyələşdirilməsini təmin etmək imkanına malik olmadığı halda reallaşdırılır. Bu məqsədlə müəssisənin maliyyə vəziyyəti dərindən təhlil edilir, ödəməqabiliyyətinin itirilməsinin və kreditorlar qarşısında öhdəliklərin yerinə yetirilməməsinin səbəbləri aşkara çıxarılır.

Sivil bazar iqtisadiyyatı şəraitinin formalaşması təsərrüfat subyektlərinin: müəssisə, firma və şirkətlərin maliyyəsinin idarəetmə mexanizminin daim təkmilləşdirilməsini, maliyyənin idarə olunmasının yeni, daha müasir metodlarının işlənib hazırlanmasını zəruri edir. Təkmilləşdirmə üzrə görüləcək tədbirlər təsərrüfat subyektlərinin maliyyə dayanıqlığına və maliyyə aktivliyinə, milli iqtisadiyyatın davamlı inkişafı üçün əlverişli biznes mühitinin yaradılmasına yönəldilməlidir.

"Biznesin təşkili və idarə edilməsi"
kitabından, s.36

FELİ SİFƏT
(ПРИЧАСТИЕ)

Feli sifət felin və sifətin əlamətlərini daşıyır.

Feli sifət **nə edən? nə etmiş? nə edəcək? nə etməli? nə edəsı? hansı?** suallarından birinə cavab verir.

Причастие имеет особенности, присущие как глаголу, так и прилагательному. Причастие отвечает на один из нижеследующих вопросов: **nə edən? nə etmiş? nə edər? nə edəcək? nə etməli? nə edəsi? hansı?**

Felə aid xüsusiyyətləri (особенности, присущие глаголу):

1. Hərəkət bildirir (обозначает действие).

2. Təsdiq və inkar formada işlənə bilir (может употребляться в утвердительной и отрицательной формах): **gələsi-gəlməyəsi, uçası-uçmayası, yazası-yazmayası, gələn-gəlməyən.**

3. Təsirli və təsirsiz olur (бывает переходным и непереходным): **alan, yazan, bilən, alqışlayan, görən, batan və s.**

4. Zaman anlayışı bildirir (выражает понятие времени): **yazılan (indıki zaman), yazılmış (keçmiş zaman), yazılacaq, yazılmalı, yazılası (gələcək zaman), yazdığım (keçmiş zaman).**

5. Növ şəkilçisi qəbul edir (принимает аффиксы залога): **görüşən, görüşəsi, üzülüşməli, bilməli və s.**

6. Şəxsə görə dəyişə bilir (может изменяться по лицам): **yazdığım, yazdığın, yazdığı; yazdığımız, yazdığınız, yazdıqları və s.**

Sifətə aid xüsusiyyətlər (особенности, присущие прилагательному):

1. Əlamət və keyfiyyət bildirir (обозначает признак и качество): **yazılmış (vərəqlər), əkilmiş (şitillər), oxunan (mühazirə), dartılmış (sim) və s.**

2. Substantivləsir, kəmiyyət, mənsubiyyət və hal şəkilçiləri qəbul edir (субстантивируется и принимает аффиксы числа, принадлежности и падежа): **gələn, gələnlər, oxuyanım, oxuyanın, oxuyanı; oxuyanımız, oxuyanınız, oxuyanları; vuruşan, vuruşanın, vuruşana, vuruşanı, vuruşanda, vuruşandan.**

3. Cümlədə təyin olur (в предложении может выступать в качестве определения): **Oxunan** mühazirələr qədim insanların həyatından xəbər verirdi.

■**Tapşırıq.** *Gorüşmək, yaymaq, tərpənmək, təzələmək, azalmaq, döyüşmək fellərindən feli sifətlər düzəldib cümlələrdə işlədin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Mətni köçürün, feli sifətlərin altından xətt çəkin, mətni nağıl edin.*

Nağıllar

Şifahi ədəbiyyatın çox sevilən və yayılan növlərindən biri də nağıllardır. Burada xalqın mənəvi dünyası, həyatı və mübarizəsi canlı lövhələrlə təsvir olunur. Nağıllarda el içərisindən çıxmış cəsur qəhrəmanlar bütün şər qüvvələrə qalib gəlirlər. Onlar acgöz tacirlərə, qaniçən hökmdarlara, hiyləgər ruhanilərə diz çökdürür, öz ağıl və bacarıqları ilə «işıqlı dünyanı» fəth edir, zülmət dünyasından nura yol açırlar.

Azərbaycan nağılları bədii keyfiyyətlərinə görə çox maraqlıdır. Nağıllarda bəzi şeir parçaları, atalar sözləri və mükalimələrdən də istifadə olunur.

FELİ BAĞLAMA
(ДЕЕПРИЧАСТИЕ)

Feli bağlama həm felin, həm də zərfin xüsusiyyətlərini daşıyır. Feli bağlama şəkilçiləri aşağıdakılardır:

Деепричастие несет в себе особенности, присущие как глаголу, так и наречию. Аффиксы деепричастия нижеследующие:

- **ıb, -ib, -ub, -üb:** uzaqlaş+ıb, bitir+ib, dur+ub, gör+üb,
- **araq, -ərək:** yar+araq, dur+araq, gəl+ərək,
- **madan, -mədən:** yaz+madan, dayan+madan, gəl+mədən,
- **andə, -əndə:** al+anda, gəl+əndə, oxu+(y)anda, işlə+(y)əndə,
- **dıqda, -dikdə, -duqda, -dükdə:** qur+duqda, sarı+dıqda, ö(y)rəş+dikdə,
- **ınca, -incə, -unca, -üncə:** alışma+yınca, yükləmə+(y)incə, dur+unca, düzəltmə+(y)incə,
- **alı, -əli:** məhdudlaş+alı, çəkil+əli,
- **ar... -maz, -ər...-məz:** qaç+ar-qaçmaz, gör+ər-gör+məz,
- **andən, -əndən:** oyan+andan, yeri+(y)əndən, qalx+andan.

Feli bağlamanın felə aid xüsusiyyətləri (особенности деепричастия, свойственные глаголу):

1) hərəkət bildirir (обозначает действие).

2) təsdiq və inkar olur (бывает утвердительным и отрицательным).

3) təsirli və təsirsiz olur (бывает переходным и неперходным).

4) növ şəkilçisi qəbul edir (принимает аффикс залога).

Feli bağlamanın zərfə aid xüsusiyyətləri (особенности деепричастия, присущие наречию):

1) sözdəyişdirici şəkilçi qəbul etmir (не принимает словоизменительного аффикса).

2) aid olduğu felə mənaca bağlanır (по значению связан с глоголом, к которому оно относится).

3) cümlədə zərflik olur (в предложении выступает в качестве обстоятельства)

■**Tapşırıq.** ***Gələrək, oxuyanda, aldıqda, gəldikdə, oxuduqca, gördükcə, yazmadan, gəlmədən*** *feli bağlamalarını cümlədə işlədin və rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Şeri ifadəli oxuyun və feli bağlamaların altından xətt çəkin.*

M.Seyidzadə

Səməni

Səmənisən, yaşılsan,
Süfrəyə yaraşırsan.
Boşqabda göyərəndə,
Sən aşırsan, daşırsan,
Günəş göydə güləndə,
Gözəl Novruz gələndə,
Hər süfrədə olursan,
Məclislər düzələndə.
Səməni, ay səməni,
Səməni, saxla məni,
İldə becərdərəm səni.

■**Tapşırıq.** *Mətni oxuyun, məzmununu nəql edin.*

Hüseynqulu xan

Azərbaycan - Səfəvilər dövlətinin tərkibində olan İrəvan əyaləti 1747-ci ildə Şimali Azərbaycanda yaranmış doqquz xanlıqdan biri idi. Bu xanlığın başında Hüseynqulu xan dururdu. O, İrəvanın sonuncu hökmdarı olmuşdur. Hüseynqulu xanın torpaqlarında daim müharibə gedirdi. Çünki Azərbaycanın İrəvan xanlığı Rusiya ilə İran imperiyası

arasında yerləşirdi. Rus qoşunları 1805-ci ildə İrəvanı tutmaq istəyirlər. Ancaq ruslar Naxçıvan və başqa xanlıqların müqavimətinə rast gəlir. Hər iki tərəf çoxlu tələfat verir. Hüseynqulu xana köməyə gələn Abbas Mirzə qızılbaş qoşunlarını Üçkilsə yaxınlığında yığıb yeni qüvvə toplayır və yenidən hücuma keçir. Yenə də heç bir nəticə əldə edilmir. Rus qoşunları Sisiyanovun rəhbərliyi ilə İrəvanı alır. Satqın ermənilər qaçıb gizlənirlər. Hüseynqulu xan qalanı əldən vermir. O, şəhər əhalisinin 85%-ni təşkil edən azərbaycanlıları başına yığıb igidliklə vuruşur.

İrəvan qalasını ala bilməyən Sisiyanov qoşunu Qarakilsəyə qaytarıb onlara dinclik verir.

Hadisələrlə əlaqədar Bakıya gələn Sisiyanov burada öldürülür. Onun yerinə gələn qraf Qudoviç Naxcıvanı tutur. İrəvanı mühasirəyə alır. Hücuma keçən rus ordusu ağır itki verdikdən sonra məğlub olub geri çəkilir, çar məğlub olan Qudoviçi Tormosov ilə əvəz edır. Tormosov da irəvanlıların müdafiəsini qıra bilmir. Çünki Hüseynqulu xan yaxşı müdafiə olunurdu. Gecə gözlənilmədən Tormosov hücuma keçir. Hüseynqulu xan Koroğlu qalasında gizlənir. Sonra əsas qoşunla birləşib müdafiəni davam etdirir.

Çar daha bir generalı - Yermakovu köməyə göndərir. İrəvan təslim olmur. Axırda çar öz şəxsi qoşununu Qafqaza göndərir. Bu zaman İran qoşunu Abbas Mirzənin rəhbərliyi ilə Huseynqulu xana köməyə gəlir. 1827-ci ildə rus qoşunu ilə İrəvan yaxınlığında şiddətli döyüş olur. Ruslar məğlub edilir. Qəzəblənmiş rus generalı Paskeviç rusların butün qüvvəsini toplayıb İrəvan qalasını dəhşətli atəşə tutur. İrəvan əhli nə qədər igidliklə müdafiə olunsa da, qala alınır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinə əsasən İrəvan xanlığı Rusiyanın tərkibinə qatılır.

Qafqazda azərbaycanlıların mövqeyini zəiflətmək üçün ruslar İrandan və Türkiyədən 200 min erməni ailəsini köçürüb Azərbaycan torpaqlarında yerləşdirirlər.

(S.Zamanlı. «Oxu materialları». Bakı, 2000, s.207)

■**Tapşırıq.** *Şeri əzbərləyin.*

Qaçaq Nəbi
(İxtisarla)

Qazamat istidir, yata bilmirəm,
Qubernat güclüdür, bata bilmirəm,
Ayaqda qandallar, qaça bilmirəm,
Mənim bu günümdə gələsən, Nəbi.

Qazamat dalını dələsən, Nəbi.

Dağlar uca idi, aşa bilmədim,
Atım yaralandı, qaça bilmədim,
Bu vuruşdan heç baş açа bilmədim,
İndi aparırlar həbsə, yar, məni,
Bu çılpaq zindanlar edər xar məni.

ZƏRF
(НАРЕЧИЕ)

İş, hal və ya hərəkətin tərzini, zamanını, yerini, kəmiyyətini bildirən nitq hissəsinə zərf deyilir. Zərf sifət, say, hətta qoşma vəzifəsində çıxış edə bilir. Zərf cümlədə felə aid olur.

Наречием называется часть речи, обозначающая образ, время, место, количество действия. Наречие может выступать в роли прилагательного, числительного и даже послелога. Наречие в предложении относится к глаголу.

Rus dilində zərflər dəyişilmir. Azərbaycan dilində isə zərflərin yalnız bir qismi dəyişir - hallanır.

В русском языке наречия не изменяются. В азербайджанском же языке наречий изменяется, т.е. склоняется.

Məsələn: geri, gerinin, geriyə, geridə, geridən, aşağı, aşağının, aşağıya, aşağını, aşağıda, aşağıdan.

Zərflər fellərə aid olduğu kimi, feli sifət və feli bağlamalara da aid ola bilər.

Наречие относится как глаголам, так и причастиям и деепричастиям.

Məsələn: Qəflətən atılan güllə səsi hamını təşvişə saldı. Bu cümlədə qəflətən sözü atılan feli sifətinin necəliyini bildirdiyinə görə zərfdir. O, yerindən yavaş-yavaş qalxanda ağrı hiss etdi. Bu cümlədə isə yavaş-yavaş zərfi qalxanda feli bağlamasına aiddir.

ZƏRFİN MƏNACA NÖVLƏRİ
(ВИДЫ НАРЕЧИЙ ПО ЗНАЧЕНИЮ)

Zərflər hərəkəti müxtəlif cəhətdən müəyyənləşdirir. Buna görə də, zərflərin mənaca 4 növü vardır:

Наречие определяет глагол по различным признакам. По значению наречия имеют пять видов:

1. Tərzi-hərəkət zərfləri (наречия образа действия).
2. Zaman zərfləri (наречия времени).
3. Yer zərfləri (наречия места).
4. Kəmiyyət zərfləri (количественные наречия).

1. Tərzi hərəkət zərfi iş, hal və hərəkətin icra tərzini bildirir və **necə? nə cür? nə tərzdə?** suallarına cavab olur.

Наречия образа действия обозначают образ совершения действия, состояния и отвечают на вопросы **necə? nə cür? nə tərzdə?**

Məsələn: asta, yaxşı, təmiz, pis, diqqətəlayiq, gözəl, ucadan, tələsik, sürətlə, dinməzcə, birdən-birə, göz-gözə, taybatay; Qatar dayandı, adamlar tələm-tələsik düşdülər. Arzu yaxşı qızdır. Maşın sürətlə şütüyürdü.

■**Tapşırıq.** *Oxuyun, zərfləri müəyyənləşdirin.*

l.Yox, aşna, sən də dil pəhləvanına oxşayırsan, işin irəli getməyini istəyən oğul bir dəfə çıxar meydana. İşə mane olanlara deyər, çəkil kənara, əl-ayağımıza dolaşma.

2. O, acından ağır-ağır danışırdı.

3. Ay Yarməmməd, qalx yuxarı, keç içəri.

4. Qoşunlanmız şəhərin girəcəyində xeyli dayandıqdan sonra gecə hücuma keçdilər.

■**Tapşırıq.** *Verilmiş sözləri müxtəlif şəkildə təkrar etməklə tərzi-hərəkət zərfləri düzəldin və müvafiq fellərlə işlədin.*

tez, ağır, yavaş, heyran, acı, bərk, tərs, çiyin, əyri, təkrar, sakit, mehriban, məyus, diri, boş, asta, yan.

Nümunə: yan-yana oturmaq.

■**Tapşırıq.** *Tərzi-hərəkət zərflərini cümlədə işlədərək dəftərinizə yazın.*

asta-asta, sürətlə, cəld, dinməzcə, yavaş-yavaş, inamla, qəflətən, birdən-birə, qoçaqcasına.

2. Zaman zərfləri iş, hal və ya hərəkətin icra zamanını bildirir, **haçan? nə vaxt? nə zaman?** suallarına cavab olur.

Наречия времени обозначают время исполнения действия, состояния и отвечают на вопросы **haçan? nə vaxt? nə zaman?**

Məsələn: dünən, sabah, srağagün, sonra, indi, təzəcə, əvvəlcə, səhər-səhər, gecə-gündüz, bu gün, gec-tez, əvvəl-axır, sonralar, hərdən, sübh tezdən.

■**Tapşırıq.** *Zaman zərflərini cümlə içərisində işlədin və cümlələri rus dilinə tərcümə edin.*

təzəcə, gündüz, gec-tez, səhər-səhər, bu gün, sübh, hərdən.

■**Tapşırıq.** *Cümlələri köçürün, tərzi-hərəkət zərflərinin altından bir, zaman zərflərinin altından iki xətt çəkin.*

1. Bu gün birdən-birə xəbər verdilər ki, sabah ekskursiyaya gedəcəyik.
2. İçəri keç, çayımız indicə hazır olacaq.
3. Küçədəki səs-küy axşam kəsildi.
4. Qara Kərəm sakit hərəkətlə və yavaş-yavaş danışdı, özü də söhbəti çox uzaqdan başladı.
5. Uşaq sırıqlı pencəyini çıxarıb cəld qapıdan çıxdı.
6. Dünən qrupumuzun tələbələri meydançada xeyli işlədilər.

3. Yer zərfləri hərəkətin yerini bildirir və **hara? haraya? harada? haradan?** suallarından birinə cavab verir.

Наречия места обозначают место совершения действия и отвечает на вопросы **hara? haraya? harada? haradan?**

Məsələn: içəri, uzaq, yaxın, irəli, yuxarı, yuxarıda, geri, geriyə, geridən, bura, buradan, ora, oraya, ora-bura, yan-yörə, o tərəfə, hər yana, qabaq və s.

■**Tapşırıq.** *Zərfləri tapıb yazın.*

Qatar-qatar olub, qalxıb havaya,
Nə axıbsız asimana, durnalar.
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar.

xxx

Əzəl başda Bəsrə, Bağdad eliniz,
Bəylər üçün ərmağanlar teliniz,
Oxuduqca şirin-şirin diliniz,
Bağrım olur şana-şana, durnalar!

(Molla Vəli Vidadi)

■**Tapşırıq.** *Yuxarıda qeyd olunan yer zərflərini cümlələrdə işlədin və rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Tərkibində yer zərfi olan on cümlə qurun.*

4. Kəmiyyət zərfləri. Kəmiyyət zərfləri iş, hal və ya hərəkətin kəmiyyətini bildirir, **neçə? nə qədər? neçə-neçə?** sualına cavab verir.

Количественные наречия обозначают количество действия, состояния и отвечает на вопросы **neçə? nə qədər? neçə-neçə?**

Məsələn: xeyli, qismən, az, çox, az-çox, tamamilə, təkrarən, dəfələrlə, bir-bır, beş-üç, bir-iki, bir az, bir tikə, bir çimdik, az-maz, təkrar-təkrar.

■**Tapşırıq.** *Tərkibində kəmiyyət zərfi olan on cümlə düzəldin, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Yuxarıda qeyd olunan kəmiyyət zərflərini cümlələrdə işlədin.*

■**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edin. Tərcümə olunmuş mətndəki zəifləri müəyyənləşdirib orijinal mətn ilə müqayisə aparın.*

Звезды еще сверкали остро и холодно, по небе на востоке уже стало светлеть… Лес сразу ожил, зашумел полнозвучно и звонко.

Ветер стих внезапно, как и налетел…

…Сразу стали слышны все предутренние лесные звуки.. еще неуверенные удары проснувшегося дятла, раздававшиеся в тишине леса так музыкально, будто долбил он не древесный ствол, а полное тело скрипки.

Снова поровысто шумнул ветер в тяжелой хвое сосновых вершин. Последние звезды тихо погасли в посветлевшем небе.

…Старый лес зашумел ровно, неумолчно.

…Тревожно хрустели сучья (**Б.Полевой**).

■**Tapşırıq.** *Aşağıdakı məlumatı oxuyun.*

TARİXDƏN GƏLƏN SƏSLƏR
Ermənilər barədə demişlər...

Bu xalq istər xasiyyətinə, istərsə də coğrafı vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır. Bunlar daim romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırlar.

Tasit

Ermənilərin eybi: bədfel gündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyuş söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan-ayağa müsbətdən çox mənfiyə yaxındırlar.

«Qabusnamə» (XII əsr)

Ermənilər ağ dərili qulların ən pisidir. Onların abırları yoxdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər.

Adam Mets
İsveçrə şərqşünası

Ləzgilər Şilda kəndinə basqın edərkən kəndin başçısı Dodayevin evinə soxulurlar. Bu adamın Yefrem Sukyazov adlı bir erməni katibi varmış. Döyüşün şiddətli yerində o xilas olmaq arzusu ilə özünü ölülüyə vurub yerə yıxılır. Ləzgilərdən biri ona ilişir və onun sol qolunu kəsir. Erməni qorxusundan cınqırını da çıxarmır. Ləzgi çölə çıxarkən səhvini başa düşür, sol əli kəsdiyi üçün xəcalət çəkir. Qayıdıb ermənin sağ əlini də kəsir.

Aleksandr Düma
«Qafqaza səyahət» əsərindən

Kürd xaqanı demişdir: «Mən əsir düşmüş ermənilərə Bisütun qayalarını çapdırıb əbədiqalar məskənlər saldırdım. Ermənilər taqətdən düşənə qədər işlədib, sonra öldürmək lazımdır».

Bisütun rəvayətlərindən

Sultan bəy deyərmiş: «Ermənilər Qafqazlı deyillər. Onlar dünya ölkələrindən qovularkən bu yerlərdə özlərinə sığınacaq tapmışlar. Onlar Qafqaza gələndən bəri Qafqaz xalqları narahatdır. Biz ermənilərin Qafqazda qalıb-qalmamalarını Qafqaz xalqları ilə birlikdə müzakirə elməliyik».

ZƏRFİN QURULUŞCA NÖVLƏRİ (СТРУКТУРНЫЕ ТИПЫ НАРЕЧИЙ)

Başqa nitq hissələri kimi zərflərin də quruluşca üç növü vardır.

Как и другие части речи наречия по структуре бывают трех видов:

1 . Sadə zərflər (простые наречия)

2. Düzəltmə zərflər (производные наречия)

3. Mürəkkəb zərflər (сложные наречия)

1. Tərkib hissələrinə parçalanmayan, kök söz kimi formalaşan zərflər sadə zərflərdir.

Наречия, неделимые на составные части и сформированные как корневые слова, являются простыми:

Məsələn: gec, tez, cəld, bərk, asta, yavaş, həmişə, hələ, erkən, indi, içəri, bayır, sonra, bayaq, dünən, axşam, səhər.

2. Sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn zərflərə düzəltmə zərflər deyilir.

Производными называются наречия, которые образуются при помощи словообразовательных аффиксов.

Düzəltmə zərfləri əmələ gətirmək üçün aşağıdakı şəkilçilər işlənir.

Производные наречия образуются при помощи следующих аффиксов:

1. **-ca, -cə:** -yavaşca, indicə, astaca, sakitcə, yenicə;

2. **-la, -lə:** -inamla, təbəssümlə, zorla, diqqətlə, ehtiyatla, sürətlə;

3. **-ına, -inə, -una, -ünə:** -tərsinə, düzünə, uzununa, eninə;

4. **-dan, -dən:** ucadan, bərkdən, qorxudan, birdən, çoxdan, axşamdan, bürküdən;

5. **-yana:** ərkyana, zarafatyana, ağayana, saymazyana.

3. Mürəkkəb zərflər aşağıdakı qayda üzrə yaranır:

Сложные наречия образуются согласно нижеследующим правилам:

а) **eynimənalı sözlərin və sadə zərflərin təkrarı ilə** (повторением одинаковых по значению слов и простых наречий); **tez-tez, üç-üç, asta-asta, yungül-yüngül, əyri-üyrü.**

b) **sinonim sözlərin təkrarı ilə** (повторением слов-синонимов): **dinməz-söyləməz, mat-məəttəl, qabaq-qarşı.**

c) **antonim sözlərin iştirakı ilə** (с помощью слов-антонимов): **gecə-gündüz, azdan-çoxdan, gec-tez, səhər-axşam, əvvəl-axır.**

ç) **təqlidi sözlərin təkrarı il**ə (повторением подражательных слов): **hönkür-hönkür, şır-şır, ding-ding.**

d) **isimlərin təkrarı ilə** (повторением существительных) **baş-başa, qol-qola, göz-gözə, əl-ələ, üz-üzə.**

e) **müxtəlif mənalı sözlərin birləşməsi ilə** (сложением слов, выражающих различные значения): **dilucu, dodaqaltı, əlüstü, addımbaşı.**

■**Tapşırıq 195.** *Zərflərin quruluşca növünün hər birinə aid nümunə yazın, onları cümlələrdə işlədib rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Mətni oxuyun, məzmununu danışın.*

Saib Təbrizi
(1601-1676)

XVII əsrin ən görkəmli şairi Saib Təbrizidir. Əsrin Füzulisi sayılan Saibin şeirləri yüz min beytdən çoxdur. Saibin əsərlərinin çoxu fars dilindədir, ana dilində yazdığı cəmi 17 şeri məlumdur. Saib daha çox qəzəl ustadı kimi tanınır. Şeirlərində insana məhəbbət, mənəvi gözəllik tərənnüm olunur. Şairin zəmanədən şikayət ifadə edən şeirləri də vardır (məsələn, «Könlümü» rədifli qəzəli). «Bilin», «Qardaşlar» rədifli qəzəllərində isə şair insanları xeyirxahlığa, bir-birinə əl tutmağa, qocalara hörmət etməyə çağırır.

S.Təbrızi tez bir zamanda tanınmışdır. Şeirləri ədəbi məclislərin bəzəyi olmuşdur. Qəzəlləri müğənnilərin ağzından düşməmişdir. Xalq onu böyük sənətkar kimi sevmişdir, şahlar ona hörmət etmiş, saraylara dəvət etmişlər.

Onun şeirləri olduqca bədii və məzmunlu idi. Həyat, dünya, insan haqqında fəlsəfi düşüncələr bu şeirlərin məzmununu təşkil edir. Saib öz poeziyasında təkcə şair kimi deyil, həm də bir alim kimi çıxış edir.

Saib gənc yaşlarından səyahət etməyi xoşlamış, bir sıra Şərq ölkələrini gəzmiş, xeyli vaxt Hindistanda yaşamışdır. Hər yerdə o, sənətkarlarla əhatə olunmuş, böyük ehtiram görmüşdür. Şairlər ondan öyrənmiş, ondan təsirlənmişlər. Altı illik Hindistan həyatı onda dərin izlər buraxmışdır. Hind ədəbi ictimaiyyəti indiyə kimi Saibin şəxsiyyətinə və sənətinə böyük ehtiramı qoruyub saxlamışdır.

S.Təbrizinin beytləri dərin mənalı aforizmlər kimi səslənir:

Ürəyi qəm bürüsə, dünyada matəm görünər.
Qəmi qəlbdən çıxarıb qovmağı sanma asan.

Torpaqdan ayrılanlar bir gün düşər torpağa,
Xalqa söykən hər zaman, düşməyəsən ayağa.

Dünya mənim gözümdə bir otaqlı xanədir,
İnsan həmin xanədə qiymətli dürdanədir.

Eşq dərdiylə əgər şölələnib yanmır ürək,
Faydası yoxdur, həyatda olasan, olmayasan.

Şimşəyə mane olarmı buludun gur yağışı,
Göz yaşı axsa əgər, qəlb evi asan sevinər.

Kim paxıllıq tozunu silsə ürəyindən əyər,
Gözlərində yer üzü təzə gülüstanə dönər.

S.Təbrizi

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ
(СЛУЖЕБНЫЕ ЧАСТИ РЕЧИ)

Köməkçi nitq hissələrinə aid sözlərin leksik mənası, özünəməxsus sualları olmur. Onlar cümlənin müstəqil üzvü kimi işlənmir, yalnız sözlər, cümlələr arasında qrammatik əlaqə yaradır, münasibət, məna çalarlığı bildirir.

Слова, относящиеся к служебным частям речи, не имеют лексического значения и свойственных им вопросов. Они не употребляются как самостоятельные члены предложения, а лишь создают грамматические связи между словами, предложениями, обозначают оттенки значений отношений.

Azərbaycan dilində bu nitq hissələrinə aşağıdakılar aiddir:

В азербайджанском языке к таким частям речи относятся:

qoşma (послелог), **bağlayıcı** (союз), **ədat** (частица), **modal sözlər** (модальные слова).

QOŞMA
(ПОСЛЕЛОГ)

Nitq hissələrinə qoşulub, sözlər arasında əlaqə yaradan köməkçi sözlərə qoşma deyilir.

Послелогом называются служебные слова, которые присоединяются к частям речи для создания их связи с другими словами.

Rus dilində qoşmalar yoxdur, onların vəzifəsini sözönülər yerinə yetirir.

В русском языке нет функции послелогов, их выполняют предлоги.

Məsələn:

1) Rəşid balaca dostu Nəsiri bağçaya**dək** ötürdü.

Рашид проводил маленького друга Насира **до** садика.

2) Mən İsmayıl Şıxlının «Dəli Kür» romanını axıra **qədər** oxudum.

Я **до** конца прочитал роман Исмаила Шыхлы «Кура неукратимая».

3) Gənc səyyahlar dağa**can** piyada getmişdilər.

Молодые путешественники пошли пешком **до** горы.

4) Sabah dərsdən **sonra** teatra gedəcəyik.

Завтра **после** урока пойдем в театр.

5) Fəhlələr üçün sanatoriya tikildi.

Для рабочих был построен санаторий.

Qoşmalar məkan, məqsəd, məsafə, bənzətmə, nıüqayisə, istisna, zaman, iştirak, kəmiyyət və sair mənalar ifadə edə bilir.

Послелоги могут выражать значения места, цели, расстояния, употребления, сравнения, причины, исключения, времени, участия, количества и т.д.

Müasir Azərbaycan dilində işlənən qoşmalar bunlardır: Послелоги, употребляющиеся в современном азербайджанском языке, нижеследующие:

bəri, doğru, qədər, -dək, -can (-cən), kimi, üçün, ötrü, görə, tək, qeyri, başqa, özgə, savayı, qabaq, ilə, haqda, haqqında, barədə, barəsində, üstə, üstündə, ilə, görə, nisbətən, qarşı, doğru, sarı, tərəf, aid, dair, bəri, əvvəl, sonra, əlavə və s.

■**Tapşırıq.** *Müxtəlif qoşmaların iştirakı ilə on beş cümlə qurun, cümlələri rus dilinə tərcümə edin.*

BAĞLAYICI
(СОЮЗ)

Həmcins üzvlər, söz birləşmələri, mürəkkəb cümlənin tərkib hissələri arasında qrammatik əlaqə yaradan köməkçi sözlərə bağlayıcı deyilir. Bağlayıcılar quruluşca sadə (**gah, ki, və, əgər, lakin və s.) və mürəkkəb (həm də, hərçənd ki, bir halda ki** və s.) olur.

Союзами называются служебные слова, которые служат для грамматической связи между однородными членами, словосочетаниями, составными частями сложного предложения. По составу союзы бывают простыми (**gah, ki, və, əgər, lakin** i.t.d.) и сложными (**həm də, hərçənd ki, bir halda ki** və s.).

Bağlayıcılar mürəkkəb cümlənin tərkib hissələri və cümlə üzvləri arasında sintaktik əlaqə yaradır.

Союзы создают синтактические связи между членами предложения и составными частями сложного предложения.

Məsələn:

1) Atalar yaxşı demişlər **ki**, işləməyən dişləməz.

Хорошо сказали наши отцы, **что** кто не работает, тот не ест.

2) Tamaşadan aktyorlar və tamaşaçılar razı qaldılar.

Актеры **и** зрители остались довольны представлением.

3) Sona **həm** fabrikdə işləyir, **həm də** institutda qiyabi oxuyur.

Сона **и** на фабрике работает, **и** заочно учится в институте.

1) Salonda çox adam var idi, **amma** heç kim danışmırdı.

В салоне было много народу, **но** никто не говорил.

2) Arzu sevincdən **gah** ağlayır, **gah da** gülurdü.

Арзу от радости **то** плакала, **то** смеялась.

3) Axşam sizə gələ bilmədim, **çünki** yorulmuşdum.

Вечером я не смог зайти к вам, **потому что** устал.

4) Hava tululdu, **lakin** yağış yağmadı.

Погода испортилась, **однако** дождь так и не пошел.

Yuxarıdakı cümlələrdə işlədilən **ki, və, həm, həm də, amma, gah, gah da, çünki, lakin** bağlayıcılardır.

Используемые в вышеприведенных предложениях **ki, və, həm, həm də, amma, gah, gah da, çünki, lakin** являются союзами.

Azərbaycan dilində bağlayıcılar iki qrupa bölünür:

Союзы в азербайджанском языке делятся на две группы:

1.Tabesizlik bağlayıcıları (сочинительные союзы);

2.Tabelilik bağlayıcıları (подчинительные союзы).

ƏDAT
(ЧАСТИЦА)

Sözlərin və cümlələrin təsir gücünü qüvvətləndirən köməkçi nitq hissəsinə ədat deyilir.

Частицы – это служебные слова, которые придают предложению или отдельным словам различные смысловые оттенки.

Məsələn:

1) Qatarın gəlməsinə **lap** az qalmışdı.

До прибытия поезда оставалось **совсем** мало.

2) **Qoy** əvvəlcə ağsaqqalları dinləyək.

Давай сперва послушаем старейший.

3) **İndi** axı aşkarlıqdır, hər şeyi açıq söyləmək olar.

Сейчас **ведь,** гласность, все можно говорить открыто.

4) **Təki** sülh olsun.

Лишь бы был мир.

5) **Məgər** bu zəhərli zavodu şəhərdən uzaq yerdə tikmək olmazmı?

Разве нельзя построить этот отравляющий завод далеко от города?

6) Bəli, səni görmək **üçün** gəlmişəm.

Да, я пришел **чтобы** увидеть тебя.

ƏDATIN MƏNACA NÖVLƏRİ
(СЕМАНТИЧЕСКИЕ РАЗРЯДЫ ЧАСТИЦ)

Nitqə verdiyi məna çalarına görə ədatları aşağıdakı növlərə ayırmaq olar:

По значению частицы можно разделить на следующие разряды:

1) Şiddətləndirici ədatlar (усилительные частицы): **lap, hətta, ki, nə** (же, совсем, даже, то, и, ни, ведь).

Məsələn: Mən ki, bu haqda sənə demişdim. **Ведь** я же об этом тебе говорил.

Əhməd **lap** yaxına gəldi. Ахмед подошел **совсем** близко.

2) Məhdudlaşdırıcı ədatlar (ограничительные частицы): **yalnız, bircə, tək, təkcə** *(*лишь, только, один).

Məsələn: Təkcə bundan xəbərim yoxdur (**Только** об этом я не знаю); Kollektivin adından **yalnız** mənə söz verildi. (От имени коллектива дали слово **только** мне).

1) Sual ədatları (вопросительные частицы): **məgər,-mı,-mi,-mu,-mü** (разве, неужели, ли).

Məsələn: Məgər bu işdən rəisin xəbəri yoxdur? – **Разве** начальник не знает об этом деле?

Adam **da** yaxşılığı unudarmı? - **Неужели** человек может забыть доброту?

3) Əmr ədatları (побудительные частицы); **bax, qoy, qoyun, gərək, di, gəl, gəlin** (посмотри-ка, пусть, да, ну, же, давай).

Məsələn: Qoy var olsun ana vətən – **Да** здравствует Родина – мать.. **Di** danış görək – **Ну**, говори же….

4) Təsdiq ədatları - (утвердительные частицы): **bəli, hə (da).**

Məsələn: **Bəli...** Bakılıyam, öz şöhrətim var – **Да**, я бакинец, имею свою славу; Hə, elə mən **də** onu düşünürdüm. Да, я **тоже** о нем думал.

5) İnkar ədatları (отрицательные частицы): **yox, xeyr, heç** (нет, ни, совсем, не).

Məsələn: Atam bu işə **heç** razı olmazdı. – Отец **совсем** не согласился **бы** с этим делом.. **Yox**, biz bu işi belə qoymarıq. – **Нет**, мы так не оставим это дело.

Qeyd: -mı, -mi, -mu, -mü ədatlarından başqa bütün ədatlar ayrı yazılır.

Примечание: кроме **–mı, -mi, -mu, -mü** все частицы пишутся раздельно.

Göz yaşımı silərsən**mi**?
Özün durub gələrsən**mi**?
Bir insafa gələrsən**mi**?
Bilsən necə darıxmış**am**.
Nuridə Atəş

ƏDATIN QURULUŞCA NÖVLƏRİ (СТРУКТУРНЫЕ ТИПЫ ЧАСТИЦ)

Ədatlar quruluşca üç yerə bölünür:

По структуре частицы делятся на три вида:

Yalnız söz köklərindən ibarət sadə ədatlar (простые частицы, состоящие только из корней слов): **əsl, məhz, bir, di, gör, xeyr, hə** və s.

Məsələn:

Xeyr, yanıldınız, ona dil verən,
Gözilə dünyada alovlar görən,
Kəndistan yeridir,
Bəzən tanrıya **da** ağ olur insan...
S. Vurğun

Di ver cavabını, nə durmusan?
Din. Hə...yenə böyüyür sarsaq gözlərin.
S. Vurğun

Düzəltmə ədatlar sadə ədatlara **–ca (-cə)** şəkilçisinin qoşulması ilə amələ gəlir.

Производные частицы образуются присоединением к простым частицам аффикса **- ca(-cə).**

Məsələn: bun**ca**, bir**cə**, tək**cə**, belə**cə**, elə**cə**.

Mürəkkəb ədatlar iki və daha artıq sadə ədatın birləşməsi ilə əmələ gəlir (Сложные частицы, образуются из двух или более частиц) **bəli də, kaş ki, bəli a, heç də, bir də** və s.

■**Tapşırıq.** *Ədatları müəyyənləşdirin və növlərini göstərin.*

1. Bu işin öhdəsindən ancaq sən gələ bilər**sən**.
2. **Kaş** bu işlərin hamısını bizə tapşıra idilər.
3. **Qoy** həmişə günəş olsun.
4. **Məgər** sizin bu məsələdən xəbəriniz yox idi?
5. Dünən uşaqlarla gəzməyə getmişdin**mi**?
6. Nərmin kursumuzun **ən** intizamlı tələbələrindəndir.

■**Tapşırıq.** *Aşağıdakı sözləri qeyd olunan mənalarda cümlələrdə işlədin və müqayisə edin.*

Ancaq- bağlayıcı, ədat;
Nə - əvəzlik, ədat;
Bir - say, qeyri-müəyyənlik artikl, ədat;
Qoy - fel, ədat;
Elə - əvəzlik, ədat;
Ki - bağlayıcı, ədat.

■**Tapşırıq.** *1)Aşağıdakı cümlələrdə ədatları müəyyənləsdirin. 2) Cümlələri Azərbaycan dilinə tərcümə edib yazın və hər iki mətndəki ədatların spesifik xüsusiyyətlərini şifahi aydınlaşdırın.*

1. А, ландышевые капли…, разве ты больна? (Л.Л.)
2. Что, проезжал тут вчера Варламов или нет? (А.Ч.)
3. В начале, якобы, успех склонялся на сторону мужиков. (Л.Л.)
4. Вот и я, мое почтение…, - как бы сказал Матвей…(Л.Л.)
5. Больше мальчики не сказали друг другу ни слова (А.Ч.)

6. Как это от мог угадать, о чем говорил студент с мужиками. (Ф.Г.)

7. Басаргину хотелось ударить этого человека. Но это было как раз то, чего он не имел права делать.

8. Я только вечерами ему сподручничаю. (Ф.Г.)

9. Выяснилось, что до совершеннолетия осталось всего два часа десять минут… (Л.Л.)

10. Я молчал и отворачивался в сторону, чтобы изморозь от моего дыханья не попадала мне в лицо. (Кор.)

11. Яков, подними-ка, братец, занавес. (Ч.)

■**Tapşırıq.** *Şeri əzbərləyin və ifadəli söyləyin.*

Cəfər Cabbarlı

Tellər oynadı

Bir mən idim, bir sən idin, bir də yamaclar...
Meşə yolu, yarpaq dolu yaşıl ağaclar,
Onda ki, ağ çiyinlərə töküldü saçlar,
Əsdi yarpaq, coşdu irmaq, güllər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

Bir biz idik, bir düz idi, bir də al boya...
Dağ başında uçan quşlar, endilər çaya,
Sən dedin ki, «bütün dünya qoy dönsün toya»,
Çaldı qaval, uzaq kənddə ellər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

AZƏRBAYCAN VƏ BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR

Azərbaycan bir sıra beynəlxalq iqtisadi təşkilatların üzvüdür. Bu təşkilatlardan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını (BYİB) və Beynəlxalq Valyuta Fondunu (BVF) xüsusi qeyd etmək lazımdır.

BYİB yə BVF 1944-cü ildə Amerikanın Bretton-Vuds şəhərində təsis olunub. Bretton-Vuds əkizləri adlanan bu təşkilatların təsisçiləri ABŞ, İngiltərə, Fransa və digər ölkələr olmuşdur. BYİB və BVF Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşdırılmış müəssisələridir. Onların yaradılmasında məqsəd İkinci Dünya müharibəsindən sonra dağılmış iqtisadiyyat və maliyyə sistemi şəraitində fondun üzvü olan ölkələr

arasında valyuta ittifaqı yaratmaq idi. Bretton-Vuds əkizlərinin əsas vəzifəsi isə beynəlxalq ticarət və valyuta əməkdaşlığına kömək etməkdir. Bu təşkilatlara istənilən dövlət daxil ola bilər. Burada üstünlük ondan ibarətdir ki, verilən kreditin faizi başqa beynəlxalq təşkilatlara nisbətən aşağıdır. Bu təşkilatlarda yüksəkixtisaslı mütəxəssislər çalışırlar. Onlar kredit almaq üçün müraciət edən ölkələrə lazımi tövsiyələr verirlər.

İlk dövrlərdə BYİB və BVF-nun cəmi 148 üzvü var idi. 1991-ci ilin oktyabrında onların sayı 155-ə çatdı. Hazırda isə bu beynəlxalq təşkilatların 170-dən artıq üzvü vardır.

BVF-nun fəaliyyətində inkişaf etmiş 10 kapitalist ölkəsi, o cümlədən ABŞ əsas rol oynayır. Qeyd edək ki, ABŞ-ın bu təşkilatda kvotası, yəni payı fondun təxminən 20%-ni təşkil edir.

Azərbaycan 1992-ci ilin sentyabr ayından BYİB və BVF-nun üzvüdür. BVF-da Azərbaycanın kvotası 306 milyon 860 min dollar müəyyən edilmişdir. Fonda daxıl olmaq ücün üzvlük haqqı bu kvotaya bərabərdir. Üzvlük haqqının 22,8 faizi möhkəm valyuta ilə, qalanı isə milli valyuta ilə ödənilməlidir.

Azərbaycan müsəlman respublikası olduğu üçün bir neçə beynəlxalq islam təşkilatına da üzv olmuşdur. Bunlardan biri Ümumdünya İslam Konqresidir. Bu təşkilat 1926-cı ildə Səudiyyə Ərəbistanında təsis edilib.

Ən nüfuzlu müsəlman təşkilatlarından biri də İslam Konfransı Təşkilatıdır (İKT). Bu təşkilat 1969-cu ildə Mərakeşin Rabat şəhərində yaradılmışdır. 1991-ci ildə Azərbaycan İKT-na üzv qəbul olunub. Azərbaycan bu təşkilatın 47-ci üzvüdür. Azərbaycan İKT-nın bir sıra ixtisaslaşdırılmış köməkçi idarələrinin, o cümlədən İslam İnkişaf Bankının (İİB) da üzvlüyünə qəbul edilmişdir. Bu təşkilat respublikamıza aşağı faizlə kreditlər verir, əvəzsiz köməkliklər göstərir. Məsələn, İİB Bakı və Sumqayıt şəhərlərinin su təminatında misilsiz əhəmiyyəti olan Samur-Abşeron kanalının yenidən qurulması layihəsinin hazırlanması üçün əvəzsiz olaraq 280 milyon ABŞ dolları ayırmışdır.

MODAL SÖZLƏR
(МОДАЛЬНЫЕ СЛОВА)

Danışanın söylənilən fıkrə münasibətini ifadə edən sözlərə modal sözlər deyilir.

Модальными называются слово, которые выражают отношение говорящего к высказанной мысли.

Modal sözlərin müxtəlif növləri vardır. (Модальные слова имеют следующие семантические разряды):

1. Təsdiq bildirənlər (выражают утверждение): **əlbəttə, doğrudan, həqiqətən, əslində, doğrusu, şəksiz, şübhəsiz, mütləq, yəqin, yəqin ki.**

Məsələn: Doğrudan da, dostluq böyük qüvvədir. Действительно, дружба-большая сила.

2. Güman, ehtimal bildirənlər (выражают предложение, вероятность): **bəlkə, bəlkə də, guman ki, ehtimal ki, zənnimcə, ola bilsin ki, yəqin, gərək, görünür.**

Məsələn: Görünür, bu il qış sərt olacaqdır. – Видимо, в этом году зима будет суровая.

3. Nəticə, ümumiləşdirmə bildirənlər (выражают результат, обобщение): **demək, deməli, ümumiyyətlə, beləliklə, xülasə, bir sözlə, müxtəsər, nəhayət.**

Məsələn: Deməli, sabah tezdən ova gedəcəyik. – Значит, завтра рано утром пойдем на охоту.

4. Emosional münasibət bildirənlər (выражают эмоциональное отношение): **təəssüf ki, hayıf (ki), demə, qəribədir.**

Məsələn: Təəssüf ki, hər şey gözlədiyimiz kimi olmadı. К сожалению, не все было так как мы ожидали.

Azərbaycan dilində ən çox işlənən modal sözlər bunlardır:

Наиболее употребительными в азербайджанском языке являются следующие модальные слова:

doğrudan da (и в правду, действительно, на самом деле), **əlbəttə** (конечно), **şübhəsiz** (несомненно), **görünür** (очевидно, видно, по-видимому), **beləliklə** (таким образом), **məsələn** (например), **demək** (значит), **ümumiyyətlə** (в общем), **məncə** (по-моему), **deyəsən** (наверно) və s.

Modal sözlər əsasən cümlənin əvvəlində və ortasında işlənir.

В большинстве случаев модальные слова употребляются в начале и середине предложения.

Cümlənin əvvəlində modal sözdən sonra vergül işarəsi qoyulur:

В начале предложения после модальных слов ставится запятая:

Məsələn: Nəhayət, həkim gəlib çıxdı. - **Наконец,** пришел врач.

Modal sözlər cümlənin ortasında işləndikdə hər iki tərəfdə vergül işarəsi qoyulur:

В середине предложения модальные слова отделяются запятыми с обеих сторон:

Məsələn: Onun bu işdə, **şübhəsiz,** təcrübəsi çoxdur – В этом деле он, несомненно, имеет большой опыт.

■**Tapşırıq.** *Şeri ifadəli oxuyun və modal sözləri göstərin.*

Məmməd Aslan

İpək paltar

- Bel sapı kəs, ay baba...
- Bel nəyinə gərəkdir?
- Bağda quyu qazıram,
- Bəlkə bir çəkil əkdim.
- Neyləyirsən çəkili?
- Qoy çəkil budaqlansın...
- Neyləyirsən budağı?
- İpəkqurdu saxlaram,
Yemlərəm, yarpaqlaram.
Yaxşı bəsləsəm əgər,
Qurd mənə ipək verər,
Geyərəm ipək paltar,
Gün dəydikcə parıldar.

■**Tapşırıq.** *Mətni köçürün, modal sözləri göstərin. Mətnin məzmununu nəql edin və rus dilinə tərcümə edin.*

Ən böyük dövlət

Bir cavan oğlan öz kasıblığından şikayətlənirdi:

- Görəsən, mən nə üçün yoxsulam? Mən necə varlı ola bilərəm?

- Sən çox varlı adamsan. Ancaq nahaq yerə şikayətlənirsən, - deyə qoca ona nəsihət verdi.

- Necə, mən varlıyam? Bəs, görəsən, o var-dövlət haradadır?

- Bax, elə sənin gözlərin. Onları neçəyə satarsan?

- Nə qədər pul versən də, gözlərimi satmaram.

- Bəlkə əllərini satasan? Mən əvəzində sənə nə qədər istəsən qızıl verərəm.

- Dağ hündürlükdə qızıl versən də, şübhəsiz, əllərimi vermərəm.

- Bax, indi görürsənmi sən nə qədər varlısan? Deməli, dünyada ən böyük dövlət bədənin sağlamlığıdır.

Nizami Gəncəvi

■**Tapşırıq.** *Tərkibində modal söz olan on cümlə yazın, cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq.** *Cümlələri Azərbaycan dilinə tərcümə edib yazın və modal sözlərin altından xətt çəkin.*

1. В твоем докладе мало живых примеров. Едва ли он понравится слушателям.
2. В докладе ты нескромно говоришь о себе и своих успехах. Вряд ли ребята одобрят это.
3. Читателя надо подготовить к восприятию темы. Как раз поэтому сочинение обычно начинают с введения.
4. В этом предложении тебе удалось четко сформулировать вывода. Как раз оно больше всего подходит для концовки сочинения.
5. Мальчики исключительно все заинтересовались схемой работы. Почти все остальное не привлекло их внимания.
6. Почти все слушатели без возражений согласились с докладчиком.
7. Все-таки ты не посчитался с моим советом.

Tapşırıq. *Mətni köçürün. Köməkçi nitq hissəsini tapıb qruplaşdırın.*

22 Mart gündüzlə gecənin tarazlaşdığı gün, ötüb-keçən qışla son vida günü – baharın doğum günü. Min illərin dibindən qaynayıb gələn bir ənənəylə xalqımız bu günü bayram edir. Şərəfli və məşəqqətli tarixi-mizin, keşməkeşli keçmişimizin ən ağır, dözülməz iztirablı çağlarında belə bu gün xalq ruhunda, xalq yaddaşında, xalq məişətində ilıq bir fərəhlə, kövrək bir ümidlə, ürkək bir gümanla bağlı yaşayıb. Kasıbların ən kasıbı da ayından-oyundan bir şey düzəldib süfrə açıb. Küsülülərin ən tərsi, inadcılı da bəhanə tapıb barışıb, bu çağacan üzünə bağlı qapıları açıb görüb, «xoş gəldin», «xoş gördük», «xoş günün olsun» eşidib. Gəlin-lərin ən pintisi belə bayır-bacanı səliqə-sahmana salıb, silib-süpürüb, kişilərin ən tənbəli belə «qeyrətə gəlib» divarını, bacasını əhəngləyib, ağardıb.

Bu gün qonşu qonşuya damından pay göndərib, tanıyan tanıyanı, tanımayan tanımayanı təbəssümlə salamlayıb, itkisi, dərdi olan bir gün-lüyə də olsa, ağrısını-acısını ovudub. Bu gün hamı bir-birinə «bayramın mübarək», «neçə belə bayramlara çıxasan» deyib.

XÜSUSİ NİTQ HİSSƏSİ
(ОСОБАЯ ЧАСТЬ РЕЧИ)

NİDA
(МЕЖДОМЕТИЕ)

Xüsusi nitq hissəsi olan nida emosionallıq bildirir.

Междометие – это особая часть речи, которая обозначает эмоциональность.

Nidaların müsləqil leksik mənası, morfoloji əlamətləri olmadığı üçün cümlədə qrammatik vəzifə daşımır.

Так как междометия не имеют самостоятельного лексического значения и специальных морфологических показателей, они не выполняют в предложении никакой грамматической функции.

Nidalar təəccüb, qorxu, təəssüf, hiddət, sevinc, kinayə, narahatlıq, həyəcan, qəmginlik və s. kimi hissləri ifadə edə bilir. Onların konkret mənası intonasiya və aid olduqları mənası ilə reallaşır.

Междометия выражают чувства удивления, страха, сожаления, гнева, радости, иронии, беспокойства, тревоги, грусти и т.п. Их конкретные значения реализуются при помощи интонации и смысла предложения, в котором междометие употребляется.

Qorxu, vahimə, təlaş, əzab, təəssüf, nifrət, qüssə bildirən nidalar (междометия, выражающие страх, ужас, волнение, страдание, сожаление, презрение, огорчение): vay, vay-vay, oy, uy, oh. **Məsələn:** oy, qorxdum a!...

Arzu, razılıq, həsrət bildirən nidalar (междометия выражающие желание, согласие, тоска): ah, vay, oy. **Məsələn**: Ah, kaş o günlər qayıdardı!

Heyrət, təəccüb bildirən nidalar (междометие выражающие удивление, изумление) oho, pəh, pəh-pəh, paho, pah-pah, bəh-bəh, ox, can, ay can-ay can, bıy, boy, paho, heyhat. **Məsələn**: oho, lap qiyamətsən! Paho, bu nə işdir, belə də adam aldatmaq olar!

Qəzəb, imdad bildirən нидалар (междометия выражающие гнев, содействие) aman, ay aman, haray, ay haray, hey. **Məsələn**: Haray, mənə bir imdad!

Etiraz, təsəlli bildirən nidalar (междометия выражающие возражение, утешение) eh, əh. **Məsələn:** Eh, keçənə güzəşt deyərlər.

İşlənmə məqamından və yerindən asılı olaraq, nidalardan sonra ya nida işarəsi, ya da vergül qoyulur.

В зависимости от места употребления после междометий ставится восклицательный знак или запятая.

Nidalar işlənmə yerinə görə sərbəst olub cümlənin əvvə-lində, ortasında, axırında işlənə bilər. Cümlənin əvvəlində işlənən nida yüksək tonla deyilirsə, ondan sonra nida, adi tonla deyilirsə, vergül qoyulur. Cümlənin ortasında işlənən nidanın hər iki tərəfində, sonunda işlənən nidadan əvvəl vergül işarəsi qoyulur.

Место междометия в предложении свободно: оно может употребляться в начале, середине и в конце предложения. Если междометие стоит в начале предложения и произносится с особой интонацией, то после него ставится восклицательный знак; если же произносится с обычной интонацией, то запятая. Если междометие находится в середине предложения, то с двух сторон оно обособляется запятыми. Запятая ставится и перед междометием, если им завершается предложение.

■**Tapşırıq.** *Mətnin məzmununu öyrənin.*

Almas İldırım
(1907-1952)

Almas İldırım 1907-ci ildə Bakının Qala kəndində Əbdülməhəmməd və Nisə xanımın ailəsində dünyaya göz açmışdır. O, dərinmənalı və təfəkkürləri oyadan şeirlərinə görə hələ cavan ikən vətənindən didərgin düşən və bu ayrılığa, bu həsrətə dözməyərək həyatını çox erkən başa vurmuşdur. İlk təhsilini «İntihab» məktəbində və gimnaziyada alan Almas 1927-ci ildə universitetə daxil olmuşdur. Lakin bir neçə aydan sonra onu «tacir oğlu» olduğu üçün universitetdən xaric etmişlər. A.İldırım bu zaman Vətənin dərdləri haqqında bir sıra **qəmli şeirlər** yazmışdır. Buna görə də gənc şair dövrün tənqidçiləri tərəfindən «müsavatçıların aşiqi», «Əhməd Cavad və Hüseyn Cavid»in ardıcılı adlandırılmış və mənəvi təzyiqlərlə üzləşmişdir.

Bir müddətdən sonra A.İldırım əvvəlcə Dağıstana, sonra isə Türkmənistana sürgün edilmişdir. A.İldırım onu gözləyən daha dəhşətli təhlükəni hiss edərək, gizli yollarla İrana getmış və orada həbs edilmişdir. Həbsdən çıxdıqdan sonra o, 1934-cü ildə Türkiyəyə getmiş və ömrünün sonunadək bu qonşu ölkədə yaşamışdır. A.İldırım 1952-ci ildə Türkiyədə vəfat etmişdir.

Şairin şeirləri Türkiyədə və Bakıda çap olunmuş aşağıdakı kitablarda toplanmışdır; **«Boğulmayan bir səs», «Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şeirlərilə», «İgidlərə səsləniş», «Qara dastan».**

Sonuncu kitab daha əhatəlidir. Burada müəllifin şeirlərinin çoxu nəşr olunmuşdur.

A.İldırımın şeirlərinin çoxu doğma yurdunda şəxsən özünün sahidi olduğu faciə və müsibətlər mövzusundadır.

Şairin ən məşhur şeirlərindən biri «Əsir Azərbaycanım» adlanır.

Hanı məni gül qoynunda doğuran?
Xamırımı göz yaşıyla yoğuran,
Beşiyimdə «layla balam» çağıran,
Azərbaycan, mənim baxtsız anam, oy!
Neçə ildir həsrətinlə yanam, oy!

«Qara dastan» şeri. A.İldırımın «Qara dastan» şeri türkçülük və türk xalqlarının taleyi ilə bağlı məsələlərə həsr olunmuşdur. Şeirdə Sovet imperiyasının müsəlman-türk xalqlarına qarşı yeritdiyi zorakılıq siyasətindən danışılır. Sovet imperiyası Azərbaycan, qazax, qırğız, türkmən, özbək, başqırd kimi türkdilli xalqlara, Krım və Qazan tatarlarına ağır zərbə vurmuşdur. İmperiya «Parçala, hökm sür» prinsipinə əsaslanaraq bu xalqları bir-birindən ayırmaq, bir-birinə yadlaşdırmaq siyasəti aparır. Türkdilli xalqların ən yaxşı say-seçmə oğulları ağır repressiyaya məruz qalmışdır. Onların bir coxu güllələnmiş, sürgün edilmişdir:

Azərbaycan dərd içində boğulmuş,
Sevənləri diyar-diyar qovulmuş,
Ağla şair, ağla, yurdun dağılmış,
Harda qopuz, harda qırıq kaman hey?!
Harda böyük Vətən, harda Turan hey?!

Şeri **«Qara daştan»** adlandırmaqla şair türk xalqlarının qara günlər içində yaşamasına işarə edir. Şeir oxunduqca oxucuda qəm-kədər dolu hiss-həyəcan oyadır.

■**Tapşırıq.** *Auditoriyada «Əsir Azərbaycanım» şerini ucadan oxuyun və nidaları göstərin.*

Almas İldırım
Əsir Azərbaycanım

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi goz yaşıyla yoğuran,
Beşiyimdə, «layla balam» çağıran...
Azərbaycan, mənim baxtsız anam, oy...
Neçə ildir həsrətinlə yanam, oy...

Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa, oy...
Hökm etsə bu sərsəm gediş dursa, oy...

Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adı dilimdən,
Azərbaycan, mənim eşqsiz yurdum, oy,
Ölməz eşqim, içimdəki dərdim, oy!...

Könlümə tək Kəbə etdim səni mən,
Sənsiz neylim qürbət eldə güni mən,
Sənsiz neylim Allahı mən, dini mən,
Azərbaycan, mənim tacım, taxtım, oy!...
Oyanmazmı kor olası baxtım, oy!...

■**Tapşırıq.** *Tərkibində nida olan on cümlə qurun, cümlələri rus dilinə tərcümə edin.*

SİNTAKSİS
СИНТАКСИС

SİNTAKTİK ƏLAQƏLƏR
(СИНТАКСИЧЕСКИЕ СВЯЗИ)

Sintaktik əlaqələr iki cür olur (Синтаксические связи имеют два типа):

1) tabesizlik (сочинительный) **və 2) tabelilik** (подчинительный)

TABESİZLİK ƏLAQƏSİ

Bərabərhüquqlu sözlər arasındakı əlaqəyə tabesizlik əlaqəsi deyilir. Cümlədə həmcins üzvlər arasındakı əlaqə tabesizlik əlaqəsidir.

Связь между равноправными словами называется сочинительной связью. Однородные члены предложения связываются сочинительной связью.

Məsələn:

Atlar, öküzlər kotana güc vurur, gah yeriyir, gah yıxılır, gah durur (Sabir). Qarşımda **sənmisən**, xəyalınmıdır (R.Rza). Afrikadan, Hindistandan qonaq gəlir bizə quşlar (S.Vurğun). Keçək Kür çayını, Araz çayını (S.Vurğun).

■**Tapşırıq.** *Mətni oxuyun. Tabesizlik əlaqəsində olan sözləri dəftərinizə köcürün. Mətni öyrənin.*

Nizami Gəncəvinin yaradıcılığında iqtisadi fikirlər

Nizami öz əsərlərində qarşısına ayrıca iqtisadi fıkir söyləmək, yaxud xüsusi iqtisadi təlim yaratmaq məqsədi qoyma-mışdır. Lakin o, dövrünün ictimai hadisələrinə və ziddiyyətlərinə də biganə qalmamışdır. Nizami dövründə iqtisadiyyat xüsusi bir elm sahəsi kimi inkişaf etməmişdi. Lakin dövrün iqtisadi həyat şəraitini, ondan doğan fıkirlər zamanın fılosoflarının, tarixçilərının, yazıçı və şairlərinin əsərlərində müxtəlif şəkildə öz ifadəsini tapmışdır. Bu baxımdan Nizaminin əsərləri də iqtisadi ideyalarla zəngindir.

Nizaminin iqtisadi görüşlərində mühüm yer tutan məsələlərdən biri əmək və sərvət, onların daxili bağlılığıdır. O, bütün əsərlərində əmək

adamlarına yüksək qiymət vermiş, əsl zəhmətkeş insan surətləri yaratmışdır.

Nizami keyfə, əyləncəyə uyan, tüfeyli həyat sürənləri ifşa edir və həyatın mənasını əməkdə, çalışmaqda, yaratmaqda görürdü. O yazırdı:

Bədənini keyfə, əyləncəyə, tənbəlliyə öyrətmə...
Cünki işsizliyin nəticəsi qanıqaralıqdır,
Özgənin əli ilə gövhər mədəni qazdırma,
Əgər dirisənsə, əl-ayağın işdə olsun.
(«İskəndərnamə», s.534)

Böyük mütəfəkkir açıq-aşkar bildirir ki, insan dünyaya yalnız yemək, özünü bəsləmək üçün gəlməmişdir. O, «İnsan yem dalınca qaçmasın gərək, Quşdan ayıq olsun, zirəkdən zirək»- və ya «Biz buraya zəhmət çəkmək üçün gəlmişik, deyib eşitməkdən (boş söhbətdən) ötrü gəlməmişik» («Sirlər xəzinəsi» s. 125) yazırdı.

Nizami «Sirlər xəzinəsi»ndə və başqa poemalarında əməyin ancaq insana xas olan bir fəaliyyət olduğunu göstərir, insanın başqa canlılardan fərqini və üstünlüyünü onun şüurlu əmək fəaliyyətində, çalışmasında görürdü. O, yeməyi, içməyi, yatmağı özünə vərdiş edən insanları məzəmmət edərək yazırdı:

Nə şəhvət, nə yuxu, nə də ki, yemək,
Həyatın mənası olmasın gərək.

Nizami insanı anlamağa, düşünməyə, həyatın «hər sirrini açmaqda hünər göstərməyə» çağırırdı. Böyük mütəfəkkir insan əməyinin hər şeyə qadir olduğuna, onun dəyişdirici qüdrətinə dərindən inanır və deyirdi ki:

Polad yüz dağ olsa, yenə də inan,
Vurub parça-parça dağıdar insan
(«Xosrov və Şirin», s.149)

Nizami əməyi insan həyatının əsası hesab edirdi. O, «hər halda sən çalış, həyat əməkdir» («**Yeddi gözəl**», s.44) deyirdi. O göstərirdi ki, «islehsalatda son məqsəd, yemək və geyməkdən başqa bir şey deyildir» («**İskəndərnamə**» s.530). Nizami əməyin insanla insan arasında bağlılığını da özünəməxsus bir tərzdə ifadə etmişdir. Ona görə əmək prosesi ictimai məna daşıyır, burada hər kəs həm özü üçün, həm də başqaları üçün çalışır, «hər kəsin hamıdan, hamının isə hər kəsdən asılılığı mövcuddur: Dünya tarlasına diqqət yetirsən, hamımız bir-birimiz üçün əkinçiyik» («**İskəndərnamə**» s.372). O göstərir ki, ölkədə sənətə, sənətkarlığa, əkinçi əməyinə qayğı göstərilməsə, hər kəsın öz peşəsinə görə işləməsi üçün

şərait yaradılmasa, «hər kəs öz peşəsindən bəhrə götürə bilməz» sərvət azalar, vergilər ödənməz və şah xəzinələri də boş qalar. Nizami bunu əsas götürürdü ki, ölkədə «hər peşəkar ancaq öz peşəsini tutmalıdır. Başqa cür olsa, yaxşılıq edən də pislik edər». O vaxt ki, «hər kəs öz peşəsindən əl çəkər, cahanda abadlıq heçə uğrayar» («**İskəndərnamə**» s.168).

Nizami əmək qabiliyyəti olmayan şəxslərdən başqa ha-mının işlə təmin olunmasını, onların faydalı əməyin bu və ya digər növu ilə məşğul olması ideyasını irəli sürürdü. Nizami göstərdi ki, «dilsiz və çarəsiz» adamlardan başqa hamı öz bacarığına görə işləməlidir. O, İskəndərin dili ilə deyirdi ki, «Əgər sağlam adam iş bilən olsa, qoymaram ki, o, işsiz xəzinəmdən ona yardım edəm. Müftəxor kəslərdən də döndərərəm... məzlumu əzizləyər, zalımı öldürərəm»...(«**İskəndərnamə**» s.185). Bu Nizaminin idealı idi.

Nizami demək olar kı, bütün əsərlərində dövrün yararsız həyat tərzindən, tacirlərin, sələmçilərin, saray əyanlarının tüfeyli istehlakından danışır və «istehlak meyarı» haqqında öz fikir və düşüncələrini bildirir. Nizaminin maddi nemətlər istehsalına, bölgüsünə və istehlakına dair görüşləri bu gün də öz əhəmiyyətini saxlayır. Böyük humanist şairin iqtisadi fikirlərindən belə bir nəticə də çıxır ki, o, yaşadığı quruluşla, onun ziddiyyətləri və ədalətsizlikləri ilə razılaşmamış, onu «tazələmək», «yenidən qurmaq» ideyaları ilə yaşamışdır. O, yaşadığı cəmiyyəti belə görürdü:

Bu dünya eyləyər qarət hər yeri,
Birisi gətirir, alır o biri.
(«Şərəfnamə» s. 156)

Nizami Gəncəvinin idealında elə bir cəmiyyət nəzərdə tutulurdu ki, orada hakim və məhkum, zalım və məzlum, varlı və yoxsul olmasın, orada ancaq bərabərlik və ədalət hökm sürsün. O, bütün insanlara üz tutaraq öz arzusunu qəti bildirdi:

Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə.

TABELİLİK ƏLAQƏSİ
(ПОДЧИНИТЕЛЬНАЯ СВЯЗЬ)

Bir sözün başqa sözdən asılı olması, onu izah etməsi tabelilik əlaqəsi adlanır. Tabelilik əlaqəsinin üç tipi vardır:

1) Uzlaşma
2) İdarə
3) Yanaşma

Зависимая связь между словами называется подчинительной связью. Подчинительная связь имеет три типа:

1) Согласование
2) Управление
3) Примыкание

UZLAŞMA ƏLAQƏSİ
(СОГЛАСОВАНИЕ)

Tabe sözün əsas sözlə şəxsə və kəmiyyətə görə uyğunlaşmasına uzlaşma əlaqəsi deyilir. (Уподобление зависимого слова главному по лицам и числам называется согласованием).

Azərbaycan dilində: 1) mübtəda və xəbər, 2) ikinci və üçüncü növ təyini söz birləşmələrinin tərəfləri, 3) mən (mənim) öyrəndiyim, sən (sənin) öyrəndiyirı tipli birləşmələrin tərəfləri arasında uzlaşma əlaqəsi olur.

В азербайджанском языке согласование наблюдается между: 1) подлежащим и сказуемым, 2) компонентами второго и третьего определительных сочетаний и 3) компонентами глагольных сочетаниями типа mən öyrəndiyim, sən öyrəndiyin.

■**Tapşırıq.** *Cümlələri oxuyun. Uzlaşma əlaqəsində olan sözləri dəftərinizə köçürün.*

Mən azad diləklərimi bütün dünyanın gözəlliklərinə dəyişmərəm (C.Cabbarlı).

Bayram şoferin yanında oturdu (Ə.Vəliyev).

Sən böyük və igid qəhrəmansan, Toğrul (C.Cabbarlı).

Mən hiss edirəm ki, cəmiyyətimizdə belə adamlar çoxdur (M.İbrahimov).

Biz qələm ordusuyuq (S.Rüstəm).

Siz işıqlı, yaraşıqlı binalarda yarandınız (S.Vurğun).

Mən əzəldən həqiqəti, ədaləti sevmişəm. Qardaşlığı, hürriyyəti, səadəti sevmişəm (S.Rüstəm).

Günəş öz şüalarını hər tərəfə yayırdı (M.İbrahimov).

Tüfəng səsi eşidərkən qulaqlarını şəkləyən atlar da qorxu içində öz sahiblərinə baxıb titrək səslə kişnədilər (H.Mehdi).

Qayınana-gəlin uşağın bu sözlərinə ürəkdən güldülər (Y.Əzimzadə).

Hazırda Bakıda iyirmi iki min fəhlə çalışır (M.S.Ordubadi).

Hamı sükut içində Cəmildən cavab gözləyirdi (H.Mehdi).

Sən də, mən də, Leyla da bu ağacın barıyıq, torpaqdan atəş alan eşqin övladlarıyıq (B.Vahabzadə).

Əsas sözün tələbi ilə tabe sözün ismin müəyyən halında işlənməsinə **idarə əlaqəsi** deyilir.

Управлением называется такая связь, когда по требованию основного слово зависимое слова употребляется в том или ином падеже.

Məsələn: məktəbin direktoru, müəllimin dəfləri, kitabı oxumaq, evə getmək, evə gəlmək, şəhərdə yaşamaq, dərsdən qayıtmaq, kinoya baxmaq, zamanla ayaqlaşmaq, imtahana hazırlaşmaq.

■**Tapşırıq.** *Aşağıdakı cümlələrdə idarə əlaqəsi ilə bağlanan sözləri seçib dəftərinizə yazın.*

Anketov qırmızı qələmi əlinə alıb, anketlərin kənarında öz əmrlərini yazdı (Mir Cəlal).

Qızxanım balaca güzgünü pəncərəyə qoyub tellərini düzəldirdi (Y.V.Çəmənzəmənli).

Firəngül çevrilib yana baxanda furqon sürəni tanıdı (M.İbrahimov).

Darvaza yanında dayanıb öz qapısına, gündə sərbəst ayaq basdığı pilləkəninə, ötüb keçən, onu dindirmək istəməyən qonşulara, uşağa, böyüyə dərin bir həsrətlə baxdı (Mir Cəlal).

Ana, gəl öz əllərinlə məni boğ, məni öldür (M.İbrahimov).

Qollarını çırmamış fəhlələrlə trest rəhbərləri bir ailə üzvü kimi mehriban görüşdülər (M.İbrahimov).

Evi yıxmaq asandır, tikmək isə çətin (M.İbrahimov).

Əntərzadə yanıldığını anladı (Mir Cəlal).

Mədəni yandıran adamın kim olduğunu bilmədi (M.Hüseyn).

O zaman Tehranda Qacar xanədanı son günlərini yaşayırdı. (M.İbrahimov).

Axırda sel bunları bir böyük daşa çırpdı (S.S.Axundov).

■**Tapşırıq**. *Mətnin məzmununu öyrənin.*

Məhəmməd Peyğəmbər
(570 - Məkkə, 632 – Mədinə)

İslam dininin banisi Məhəmməd təqribən 570-ci ildə Məkkə şəhərində qureyşilər qəbiləsinin Bəni Haşim nəslindən olan Abdullahın ailəsində doğulmuşdur. Uşaq təzəcə olmuşdu ki, atası səfərdə vəfat edir. 6 yaşa çatmamış anası Əminə də ölür. Yetim qalmış Məhəmmədi babası Əbdül Mütalib, 2 ildən sonra o öldükdə isə Əbu Talib adı ilə tanınan əmisi Əbumanaf hamiliyə götürür. Haşimilər nəslinin bütün nümayəndələri kimi ticarətlə məşğul olan Əbu Talib yeniyetmə Məhəmmədi də özü ilə Suriyaya aparır. 15 yaşından Məhəmməd özü-özünü dolandırmağa başlayır, məkkəlilərin qoyunlarını otarır, karvanların təchizatında iştirak edirdi. 595-ci ildə Əbu Talibin məsləhətilə o, zəngin dul qadın Xədicənin yanında qulluğa girərək, onun Suriyaya göndərdiyi karvanı müşayiət edir. Gəlir və mənfəətlə qayıdan Məhəmməd az sonra qarşılıqlı məhəbbət əsasında Xədicə ilə ailə həyatı qurur. 25 illik mehriban ailə həyatı ərzində onların 2 oğlu, 4 qızı olur. Oğlanları Qasım və Abdulla biri 2 yaşında, o biri isə lap körpəlikdə ölmüş, Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm və Fatimə adlı 4 qızından yalnız sonuncusu peyğəmbər nəslini davam etdirmişdir.

Xədicə ilə izdivac Məhəmmədi maddi çətinlikdən qurtarmış, asudə vaxtının çoxunu din haqqında düşüncələrə sərf etməyə imkan vermişdir.

O, yəhudi və xristianlarla dini məsələlərdən danışmağı çox xoşlayırdı. Məhəmməd Ərəbistanda və getdiyi başqa yerlərdə yəhudi-xristian dini təlimlərilə tanış olurdu.

Daxilində baş verən həyəcan nəticəsində vəcdə gələn Məhəmmədin gözünə tədricən anlaşılmaz surətlər görünür, qulağına səslər gəlirdi. Belə məqamların birində Məhəmıməd haqq sözünü - Allahın sozünü insanlara «oxumağı» ondan tələb edən mələyi - Cəbrayılı aydın görə bilmişdi.

Rəvayətə görə, 609/610-cu ildə dini təbliğata başlayan Məhəmmədi Allahın elçisi - Rəsulullah kimi birinci tanıyanlar arvadı Xədicə, əmisi oğlu, qızı Fatimənin əri Əli, oğulluğa götürdüyü Zeyd olmuşdur.

Allahdan Məhəmmədə mələk Cəbrayıl vasitəsilə vəhy verilməsi onun peyğəmbərliyinin və İslamın başlanğıc tarixi hesab olunur. Həmin vaxtdan o, islam dinini təbliğ etməyə başlamışdır. Dini fəaliyyətinin ilk dövründə Məhəmməd Məkkədə etimad qazana bilməmiş və güclü müqavimətə rast gələrək öz tərəfdarları ilə 622-ci ilin iyulun 24-də

Mədinəyə köçməyə məcbur olmuşdur. Tarixə hicrət-köçmə kimi daxil olmuş bu gün (24 iyul 622-ci il) yeni müsəlman erasının (hicri tarixin) başlanğıcı hesab olunur.

İlk vaxtlar, Məhəmmədin Məkkədəki tərəfdarlarının sayı 50 nəfərə yaxın idi. Məkkə əyanlarının çoxu Məhəmmədin vahid Allahlıq təliminin özlərinin ticarət əlaqələrinə ziyan verəcəyini, Məkkənin siyasi nüfuzunun aşağı düşəcəyini zənn edirdilər və buna görə də onun arxasınca getmək istəmirdilər.

Məhəniməd Mədinəyə köçdükdən sonra müsəlman icmasını yaradır, ətrafına çoxlu tərəfdar toplayır. O, bütpərəstlərin bir sıra hücumlarını («Bədr döyüşü», «Xəndək döyüşü» və s.) məğlub edir, 630-cu ildə Məkkəni, sonra Ərəbistanın xeyli hissəsini tutur və müsəlman dövlətini yaradır.

Beləliklə, Məhəmməd Peyğəmbər islamın hakim din kimi qəbul edilməsinə nail olur. O, müsəlmanlara Kəbəni ziyarət etməyə icazə verir. Kəbə onların baş məbədinə çevrilir.

Məhəmməd Peyğəmbər Mədinədə ilk məscid tikdirir, gündəlik dua üçün vaxt ayırır. Məhəmməd Peyğəmbərin iqamətgahı Mədinədə qalır.

620-ci ildə Xədicə öləndən sonra Məhəmməd Peyğəmbər özündən sonra heç bir vəsiyyətnamə qoymamış, vərəsə təyin etməmişdir. O, Mədinədə dəfn edilmişdir. Məhəmməd Peyğəmbərin qəbri islam dünyasının ikinci (Kəbədən sonra) müqəddəs yeri, müsəlmanların ziyarətgah yeri olmuşdur.

VII əsrin 30-cu illərinin başlanğıcında Məhəmməd Peyğəmbərin yaratdığı islam ərəblərin rəsmi dininə çevrildi.

Sonralar islam Asiya və Afrikada geniş, Avropada da qismən yayılmışdır. Hazırda Banqladeş, Əlcəzair, Əfqanıstan, İndoneziya, İraq, İran, Liviya, Mavritaniya, Malayziya, MƏR, Mərakeş, Pakistan, Suriya, Tunis, Türkiyə və s. ölkələrdə əhalinin əksəriyyəti, Hindistanda, Efiopiyada isə xeyli hissəsi islam dininə etiqad edir.

İslam dini hələ VII əsrin sonundan Orta Asiya və Zaqafqaziyada (xüsusilə Azərbaycanda), IX-XI əsrlərdə isə Şimali Qafqaz, Volqa-Kama hövzəsi və Ural ətrafında yayılmağa başlamışdır.

Hal-hazırda islama inananların sayı 1 milyard 360 milyona qədərdir.

Məhəmməd Peyğəmbərin kəlamları

Behişt anaların ayaqları altındadır.
Fəhlənin alnının təri qurumamış, onun muzdunu verin.
Ömrünü elmə sərf edən adam heç vaxt ölmür.
Bir saat yaradıcı düşünmək altmış il ibadətdən üstündür.

Elmindən fayda gələn alim min abiddən üstündür.
Elmi beşikdən məzara qədər öyrənmək lazımdır.
Elmin ayağı dünyadan kəsildiyi vaxt savaşma başlanacaqdır.
İnsanın gözəlliyindən biri də onun aydın və gözəl danışmasıdır.
Bəşəriyyət düz yolu tapdıqdan sonra dağılıb məhv olmaz.
Yalnız münaqişə və mübahisə yolu ilə dağıla bilər.
Təkəbbür insanı alçaldır və kiçildir.
Qocaya hörmət, Allaha hörmət deməkdir.

■**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edin və məzmununu danışın.*

Огонь внутри нас или
шаманское заклинание

Прежде чем отправиться в больницу, навстречу с доктором филологических наук, профессором, заслуженным деятелем наук Азербайджана Мирали Сеидовым, я оживил в памяти заслуги видного ученого в области исследования истоков происхождения нашего народа, волей-неволей заново перелистал его труды, хорошо знакомые нам со студенческих лет. И снова, как прежде, книги Мирали муаллима «Саят Нова». «Азербайджанско-армянские литературные связи», «Судьба красного бойца», «Источники азербайджанского мифического мышления». «Говси Тебризи» и, наконец «Размышляя о корнях происхождения азербайджанского народа» заворожил меня магической силой воздействия. Книги эти возвращают нас к нашим первоначальным истокам, прослеживают неразрывную связь нашего народа со своими корнями, призывают, заклинают сохранить, уберечь свою колыбельную песню, свое слово, свой дух, бдительно охранять свою историю, богатейшую культуру от вражеских посягательств. Они приобшают нас к могущественной силе Бабека, Кероглу, Деде Горгуда. И чем глубже вникаешь в названия Гашгай, Саг, Арсаг, Синаг-Шираг, Гун, Басил, Булгар, Хазар, Варсаг, Огуз, Савир, Оногур, Газах и др., «составляющие большинство тюркоязычных корней, сформировавших азербайджанский народ», тем больше надежды и веры в светлое будущее – пробуждается в душе. Внутри нас просыпаются огненные силы, сплачивающие нас в одно неделимое целое. И ясно видится наш путь, мы сплачиваемся, чтобы сохранить целостность и неделимость нашей земли, полагаясь при этом только и только на свои силы, на внутренние потенциональные возможности.

С этими чувствами он и отправился навстречу с Мирали Сеидовым. Всю дорогу мы с другом Сафаром Камаловым обсуждали заслуги видного ученого, его исследования в области истории и богатейшего фольклора азербайджанского народа. Слово за словом, ненароком коснулись и проблемы беженцев. Сафар рассказал о плачевном положении тысяч беженцев, хлынувших в Агдам, обвинив в случившейся трагедии нас самих же. На протежении многих лет мы ни разу не поинтересовались, побеспокоились за судьбу наших соплеменников, проживавших в соседней республике. Лишили их своей моральной поддержки, чувства духовного единеним.

- Беда в том, что мы безучастны также и к самим бе-женцам. - продолжая мысли Сафара, сказал я. - Награждаем их различными прозвищами. Становимся врагами самим себе.

- А враги ловко используют это. Сперва в Аскеране на глазах у всех нас армяне убили двух молодых парней. Виноватыми в итоге оказались мы. Более двухсот тысяч наших кровных братьев были изгнаны из Армении, они бежали в Азербайджан, испытав тысячи мук и страданий, бесчеловечных пыток от рук дашнакских палачей, а об обратной реакции никто и не подумал. К их трагическому положению остались равнодушны и центр, и средства массовой информации. И опять нас посчитали виноватыми.

Учинили программы в Сумгаите - снова мы оказались виноватые... Эх, чего только не пришлось пережить вашему народу.

-Сафар, наша вина в том, что уж слишком доверчивы,-чистосердечны, великодушны и радушны мы были. Поступились своими землями, создавая республику для соседей. Переселившихся из Ирана и других мест армян разместили в райском уголке - нашем родном Карабахе, душе и сердце азербайджанского народа... И в результате, Ханкенди превратился в керт. Все азербайджанцы были в массовом порядке изгнаны оттуда.

-Разрушен очаг Алескера, отвернулся от нас Агры даг. С молниеносной быстротой переименованы все названия наших краев и областей, поселении. Присвоены все наши родники, исторические памятники, доставшиеся от предков. А мы продолжали оставаться ко всему этому равнодушными (да и только ли к этому?!)

И вся наша беда в нашем равнодушии. Именно поэтому 40-миллионный народ, терзаемый и раздираемый на части, не сумел создать духовного единства, сплочения.

Mətn Tofiq Əbdülhəsənlinin
«Azərbaycan dili»kitabından götürülmüşdür.

YANAŞMA ƏLAQƏSİ
(ПРИМЫКАНИЕ)

Tabelilik əlaqəsində sözlər heç bir morfoloji əlamət (şəkilçi) qəbul etmədən bağlanırsa, buna yanaşma əlaqəsi deyilir.

Если в подчинительной связи слова, не принимая морфологические признаки (аффиксы) связываются, такая связь называется примыканием.

Məsələn: Gözəl qız, igid oğlan, hündür bina, yaşıl çəmən, yaxşı oxumaq, durub baxmaq, yavaş yerimək, asta qaçmaq, nadan olmaq.

■**Tapşırıq.** *Verilmiş cümlələrdə yanasma əlaqəsi ilə bağlanan sözləri seçib yazın.*

Qızıl üzük laxladı, anam onu saxladı, atama qurban olum məni subay saxladı. Züleyxa qızıl saatı göstərdi (S.Rəhimov).

O, bu il ali məktəbə gedəcək (M İbrahimov).

İki uşaq bizim atlarımızı apardı (S.Şamilov).

İndi mən səni gözəl anlayıram (C.Cabbarlı).

Birinci qatar hələ getməmişdir (M.S.Ordubadi).

Ağ mərmər pilləkənlər köpüklü bir dağ kimi dordüncü mərtəbədən üzü aşağı axırdı (Ə.Məmmədxanlı).

Yerə üç ağ çiçək sancılmışdı (M.Cəlal).

Dördmərtəbəli qəşəng binanın qarşısında bir dəstə adam dayanmışdı (Y.Əzimzadə).

Əziz bərkdən güldü (Ə.Vəliyev).

Səməd eyni sözləri dönə-dönə təkrar edirdi (M.Mehdi).

Birdən kənd küçəsində at ayaqlarının tappıltısı eşidildi (Ə.Məmmədxanlı).

Üç nəfər gənc gülə-gülə onlara yaxınlaşdı (M.İbrahimov).

Şərqiyyə uzun danışdı (M.İbrahimov).

Biz bayıra çıxanda gün xeyli qalxmışdı (İ.Şıxlı).

■**Tapşrıq**. *Aşağıdakı mətnin məzmununu öyrənin.*

Xurşudbanu Natəvan
(1832-1897)

Xurşudbanu Natəvan 1832-ci ildə Şuşada xan ailəsində anadan olmuşdur. O, məşhur İbrahim xan Cavanşirin nəvəsi idi. 1845-ci ildə atası Mehdiqulu öldükdən sonra xanlıq onun əlinə keçmiş və Qarabağda «Xan qızı» adı ilə məşhur olmuşdur.

Natəvan xan qızı olduğundan sarayda böyümüş, təhsilini ruhanilərdən almış, fars və ərəb dilini mükəmməl öyrənmiş, Şərq poeziyasına böyük maraq göstərmişdir. O, Xaqani, Ömər Xəyyam, Nizami, Firdovsi, Sədi, Hafız, Füzuli kimi böyük klassiklərin əsərləri ilə tanış olmuş və onların təsiri altında bədii yaradıcılığa başlamışdır.

Natəvan yaradıclığa XIX əsrin 80-ci illərindən başlamışdır. İlk illər onun «Xurşud» imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib batmış, yalnız cüzi hissəsi gəlib çatmışdır. 1870-ci ildən etibarən şair özünə «Natəvan» (köməksiz, zəif, xəstə) təxəllüsü götürərək, dərin məzmunlu qəzəllərini yaratmışdır.

Xurşudbanu Natəvan bir şairə və ictimai xadim kimi XIX əsrdə Azərbaycanın həm siyasi, həm də ədəbi-mədəni həyatında böyük rol oynamışdır. O, yoxsullara maddı köməklik göstərmiş, öz xərci ilə məktəblər açmış, uzaq məsafədən şəhərə su kəməri çəkdirərək, əhalini içməli su ilə təmin etmişdir.

Bir sıra vilayət və şəhərlərə həyat yoldaşı Xasay xan Usmiyevlə səyahətə çıxması Xurşudbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına kömək etmişdir. 1850-ci ildə xoşbəxt bir təsadüf Bakıda fransız yazıçısı A.Düma ilə onu rastlaşdırmışdır. Onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim etmişlər. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumatı da A.Düma özünün «Qafqaza səyahət» kitabında vermişdir.

İncə təbə malik olan şairə, şeir sənətkarlığından başqa, şəkil çəkmək qabiliyyətinə də malik idi. O, yazdığı mövzuya dair şerin ətrafında şəkillər çəkərmiş. Natəvanın 1886-cı ildə tərtib etdiyi və hal-hazırda Respublika Əlyazmalar Fondunda saxlanılan 227 səhifədən ibarət «Gül dəftəri» adlı məşhur albomunda on üç şeri, naturadan çəkdiyi təsvirlər və müasirlərinin lirik parçaları toplanmışdır.

Bütün bunlarla bərabər, Natəvan Azərbaycan tarixində bir şair kimi yaşamaqdadır. O, klassik Azərbaycan poeziyasının inkişafında və zənginləşməsində xeyli iş görmüşdür. 1892-ci ildə şairə öz evində ədəbi məclis yaratmış və dövrünün bir çox şairlərini ora cəlb etmişdir. Bu məclis Şuşa ziyalılarının bir növ yaradıcılıq məktəbi idi. Natəvan məclisin rəhbəri və əsas ədəbi siması hesab olunurdu.

Natəvan yaradıcılığının bir hissəsini də şairin şəxsi faciəsi ilə əlaqədar olaraq 1885-1886-cı illərdə yazdığı silsilə şeirləri təşkil edir. Bu əsərlərində oğlu Mir Abbasın ölümü ilə ağır matəmə batan və göz yaşları içərisində boğulan bədbəxt ananın ah-naləsi eşidilir.

Şairənin şeirləri dərin ictimai və əxlaqi keyfiyyətlərə malikdir. Bunlar, əsasən qadınların acınacaqlı həyatına, dövrdən, zəmanədən şikayətə, kədərli ana qəlbinin döyüntülərinə həsr olunmuşdur.

Ömrünün son beş ili Natəvan üçün həm həyatda, həm də sənətdə ağır və böhranlı keçmişdir. Yaşı altmışı haqlayan şairənin xəstəliyi günbəgün şiddətlənmiş və 1897-ci il sentyabr ayının 1-də Şuşada vəfat etmişdir.

Natəvanın ölümü təkcə Azərbaycanın yox, Qafqazın qabaqcıl maarifpərvər adamlarını kədərləndirmişdir.

■**Tapşırıq.** *Şeri əzbərləyin.*

Natəvan

Qərənfil

Səni kimdir sevən bica, qərənfil?
Sənə mən aşiqi-şeyda qərənfil.
Səni gülşən əra aşüftə gördüm,
Yəqin bildim, tutub sevda qərənfil.
Belə pəjmürdə hal ilə durubsan,
Düşər güllər əra qovğa, qərənfil.
Heyif ki, vəfasızdır bu gülşən,
Gedər bu tələti-ziba, qərənfıl.
Üzündən pərdeyi-nazın kənar et.
Unutma aşiqi, haşa qərənfıl.

SÖZ BİRLƏŞMƏLƏRİ
(СЛОВОСОЧЕТАНИЕ)

Söz birləşməsi iki və daha artıq sozün məna və qrammatik baxımdan birləşməsidir. Onlar əşya və hadisələrin mürəkkəb adlarını bildirir.

Словосочетание образуется от двух или более самостоятельных слов, которые соединяются и по смыслу, и по грамматически. Они выражают сложное наименование предмета и явления.

Məsələn: Zavodun qapısı, məktəb direktoru, odlar yurdu, böyük insan, oxumaq həvəsi, kinoya baxmaq, dərsə getmək, həyat eşqi, nadinc uşaq, atasının gül balası.

Söz birləşmələri quruluşuna görə iki qrupa bölünür:

1) sadə söz birləşmələri,

2) mürəkkəb söz birləşmələri.

Словосочетания по структуре делятся на две группы:

1) простые словосочетания,

2) сложные словосочетания.

Sadə söz birləşmələri iki sözdən ibarət olur.

Простые словосочетания состоят из двух слов.

Məsələn: məkləbin direktoru, inqilab şairi, hündür bina, kitab oxumaq, televizora baxmaq, müğənni qız.

Üç və daha artıq sözdən ibarət olan söz birləşmələrinə mürəkkəb söz birləşmələri deyilir.

Сложные словосочетания состоят из трех или более слов.

Məsələn: məktəb direktorunun kabineti, xalq şairinin yeni kitabı, idman yarışmalarının nəticələri.

Aparıcı sözün səciyyəsinə görə söz birləşmələri iki qrupa bolünür:

1) ismi söz birləşmələri,

2) feli söz birləşmələri.

По структуре ведущего слова словосочетания деляться на:

1) именные словообразования;
2) глагольные словообразования.

İSMİ SÖZ BİRLƏŞMƏLƏRİ (ИМЕННЫЕ СЛОВООБРАЗОВАНИЯ)

İsmi birləşmələrin bir sıra növləri var. Onlardan üçü birlikdə «təyini söz birləşmələri» adlanır, qalanı isə ayrı-ayrılıqda qeyd edilir.

Именные словосочетания имеют ряд видов. Три из них называются «определительными словосочетаниями», остальные представляются в отдельности, под собственными именами.

Azərbaycan dilində ən geniş yayılmış ismi söz birləşmələri təyini söz birləşmələridir. Təyini söz birləşmələrinin 3 növü vardır:

В азербайджанском языке самыми распространенными именными словосочетаниями являются определительные словосочетания.

1. Birinci növ təyini söz birləşmələrinin tərəfləri heç bir formal morfoloji əlamət (şəkilçi) qəbul etmir.

Məsələn: gözəl qız, qızıl üzük, daş bina, beş mərtəbə, həmin adam, qırmızı işıq.

■**Tapşırıq.** *10 dənə birinci növ təyini söz birləşməsini cümlədə işlədin və dəftərə yazın.*

■**Tapşırıq**. *Verilmiş cümlələrdən birinci növ təyini söz birləşmələrini seçib dəftərinizə yazın.*

Hüseynqulu əminin qoca arvadı Səriyyə xala samovarı təzəcə gətirib masanın üzərinə qoymuşdu ki, qapı açıldı (M.S.Ordubadi). İkitaylı geniş dəmir qapısı var idi (M.İbrahimov). Onda bu bağlar qırmızı-sarılı yaxşı cins alma-armudla örtülsə, iki göz gərəkdir ki, o vaxt tamaşaya çıxa (S.Rəhimov). Ağ xalatlı adam söz demədən şkafı örtdü (Y.Əzimzadə). Qızıl bayraqlı fəhlələr təzə binanı əhatə edib, şənlik keçirdilər (M.Cəlal). Gənc müəllim bir an fikrə getdi (S.Rəhimov). Daşdəmirin qapısına xeyli adam yığışmışdı (Ə.Vəliyev). Kürd Əhməd ağlayan uşağa yaxınlaşdı (M.İbrahimov). Həmin söhbətdən iki gün sonra istehsalat müşavirəsi keçirildi (Y.Əzimzadə).

2. İkinci növ təyini söz birləşmələrinin birinci tərəfi heç bir şəkilçi qəbul etmir, ikinci tərəfi isə üçüncü şəxs mənsubiyyət şəkilçisi ilə işlənir.

Первый компонент второго определительного словосочетания никакого аффикса не принимает, а второй компонент употребляется аффиксом принадлежности третьего лица.

Məsələn: məktəb direktoru, zavod qapısı, qələbə meydanı, hökumət evi, qadın isməti, kişi mətanəti, xalq qəzəbi, intiqam hissi.

■**Tapşırıq.** *10 dənə ikinci növ təyini söz birləşməsini işlədib dəftərinizə yazın.*

■**Tapşınq.** *Aşağıdakı cümlələri dəftərinizə köçürün, ikinci növ təyini söz birləşmələrinin altından xətt çəkin.*

Bahadur ev yiyəsi ilə hesablaşıb, şeylərini gədəyə tapşırdı və özü də Sonagilə getdi (N.Nərimanov).

Qızmaqda olan yay günəşi çölləri, bağları getdikcə daha artıq qızdırır, bitkilərə can və həyat verirdi (M.İbrahimov).

Həmin küçədə təzə açılan uşaq bağçasına əsgər uşaqlarını hökumət hesabına qəbul elədilər (Mir Cəlal).

Kənd uşaqları əllərində badya, mis kasa dərəyə endilər (A.Şaiq).

Reyhan həyət qapısında Davudu gözləyirdi (M.Cəlal).

O, qapını qıfıllayıb, kolxoz idarəsinə getdi (Ə.Vəliyev).

Konül ayrılmayır öz baharından, İlham baharından, söz baharından (N.Xəzri).

3. Üçuncu növ təyini söz birləşməsinin birinci tərəfi ismin yiyəlik halı, ikinci tərəfi isə hər üç şəxsin mənsubiyyət çəkilçisi ilə işlənir.

Первый компонент третьего определительного словосочетания употребляется аффиксом родительного падежа, а второй компонент – притяжательными аффиксами всех трех лиц.

Məsələn: mənim kitabım, sənin kitabın, onun kitabı, bizim kitabımız, sizin kitabınız, onların kitabı, zavodun qapısı, evlərin damları, sozün qüdrəti, alimin şöhrəti, Azərbaycanın sərvəti, Aslanın igidliyi.

■**Tapşırıq**. *Üçüncü növ təyini söz birləşmələri işlənən on cümlə düzəldib dəftərinizə yazın.*

■**Tapşırıq**. *Mətnin məzmununu öyrənin.*

İbn Sina
(980-1037)

Atasının adı Sino olduğu üçün İbn Sina (Sinanın oğlu) deyə anılan bu türk alimi, böyük filosof, tibb, riyaziyyat, fızika və fəlsəfə sahələrində hələ də təsirini itirməyən böyük əsərlər yazmışdır. Hələ on yaşındaykən Quranı və o zaman keçilən fənlərə bağlı bütün mətnləri heyrət ediləcək dərəcədə hafızəsində yerləşdirmişdi. 15-16 yaşlarında tanınmış həkim idi. Xəstələri müalicə edirdi. İbn Sina o dövrdə dərdinə çarə bulunmayan Buxara əmiri İbn Yəhyanı sağaldıb ölümün ağzından qurtarmışdı.

Bu bacarığına görə hökmdar çox zəngin kitabxanasında çalışmaq üçün İbn Sinaya icazə vermişdi. İbn Sinanı məşhur edən, sonralar latıncaya çevrilib Avropa məktəblərində öyrədilən «Qanun» adlı əsəri olmuşdur.

Böyük filosof həmçinin Həmədana dəvət edilmiş, orada mədəsi ağrıyan Həmədan hakimi Şəmsüddövləni sağaltmışdır. Bu xidmətinə görə vəzarətlə mükafatlandırılmışdır. İbn Sina fəlsəfi əsərlər üçün bir ekspedisiya mahiyyətində olan «Şəfa» adlı böyük əsərini də bu illərdə yazmışdır. Bir yandan da mədrəsələrdə tibb, riyaziyyat, astronomiya, məntiq, kəlam üzrə də dərslər demişdir.

Həmədan hakimi Tacüddövlə İbn Sinaya vəzirlik təklif etmişdi. Böyük alim əsərləri ilə məşğul olduğunu bildirib, bu təklifə razı olmamışdır.

Böyük Loğman
(Əbu Əli İbn Sina)

Naməlum torpaqlara ilkin qədəm basanlar,
Mətin inqilabçılar-o qüdrətli insanlar,
Haqqındadır bu kitab.

Dünyamızı daha şux etmək üçün dünyaya
Xoş qədəmlə gələnlər,
Elmə, incəsənətə yol açaraq, onları candan əziz bilənlər,
Haqqındadır bu kitab.

Hələ lap uşaqlıqdan müqəddəs bir arzunu,
Ürəyində tutanlar,
Öz ali məqsədinə çatmaq üçün sidq ilə, qədəmini atanlar,
Haqqındadır bu kitab.

Min il bundan əvvəl Buxarada Əli İbn Sina adlı dahi bir şəxs yaşayırdı.

Bu uzun ad o vaxtdan bir çox şərq adları kimi qəribə görünür. Halbuki əslində bu adamlarda hər şey sadədir. Bir qədər sonra onun adının mənası aydın olar.

Həmin şəxs-İbn Sina kimdir? Həkimlər deyərlər ki, o, dahi loğmandır.

Riyaziyyatçılar isə:

-Yox, o, məşhur astronom və riyaziyyatçıdır, - deyərlər.

-Bir də böyük şair və yazıçıdır, - deyə ədiblər təsdiq edərlər.

-Axı, o, geologiya nəzəriyyəçisidir, - deyə geoloqlar bildirərlər.

-Həm də musiqi nəzəriyyəçisidir, - deyə musiqiçilər dillənərlər.

-Həm də filosofdur, - deyə filosoflar təsdiq edərlər. Onların hamısı da haqlı olar.

Bəs gah bir nazir təyin edilən, gah vəzirlik edən, gah da məhbəsə salınan bu ədəbi sərgərdan adam kimdir?

Nə üçün ölümündən yüz il keçəndən sonra dindar fanatiklərin əmrinə əsasən İbn Sinanın fəlsəfi əsərləri Bağdadın baş meydanında yandırılır?

Daha bir neçə yüz il keçəndən, Avropada çap dəzgahı ixtira edilən-dən sonra isə Bibliya çap edilən kimi «Təbabət elminin qanunları» adlı iri beşcildliyi nəşr edilmişdir. Bu kitabların müəllifi İbn Sina olmuşdur. Avropada isə onu «Avestenna» adlandırırlar.

Müsəlman kitabxanaları onun kitablarını qayğı ilə qoruyub saxlayırlar. Nadir adamlara bu kitablara toxunmağa icazə verilir. Biz onun bir çox kitabları haqqında, ancaq ağızdan-ağıza eşitmişik. Surətçıxaranlar İbn Sinanın kitablarının surətini səliqə ilə çıxartmışlar.

Avropanın müxtəlif ölkələrində bu kitabların nüsxələri çap dəzgahlarında çoxaldılmış, onlar neçə-neçə dilə tərcümə edilmişdir.

Orta Asiyada İbn Sinanın haqqında rəvayətlər danışılır və dastanlar oxuyurlar.

Ümumdünya Sülh Şurasının çağırışı ilə yer üzünün bütün adamları onun anadan olmasının minilliyini bayram etmişlər[1].

Valeri Boskoboynikov. «Böyük Loğman».
Əbu Əli İbn Sina (tərcümeyi-hal),
Bakı, «Gənclik». 1984, s.3-4.

■**Tapşırıq**. *Mətni oxuyun.*

Qurban bayramı - əqidə sınağı

...Həzrəti-İbrahim gördüyü yuxuya o qədər də əhəmiyyət vermir. Növbəti gecə yenə də yuxuda görür ki, oğlu İsmayılı qurban kəsir. Nəhayət, üçüncü gecə də eyni yuxunu gördükdən sonra bu işin bir ilahi əmr olduğunu başa düşüb, bu əmri yerinə yetirmək üçün oğlu İsmayılı da götürüb yola çıxır. Səfərə çıxmazdan əvvəl İsmayıla ip və bıçaq götürməyi tapşırır. Bu an şeytan gah Həzrəti-İbrahimin, İsmayılın anasının, gah da İsmayılın öz qəlbinə girərək onları bu yoldan daşındırmağa çalışır. Onlar isə "əgər onları Allah buyurmuşdursa, yerinə yetirilməlidir» deyirdilər.

Həzrəti-İbrahim itilənmiş bıçağı oğlu İsmayılın boğazına çəkmək istəyəndə bıçaq kəsmir ki, kəsmir, bu vaxt «Allahu-Əkbər» sədaları eşidilir. İbrahim peyğəmbər başını qaldıranda görür ki, Həzrəti-Cəbrayıl iri bir qoç gətirib gəlmişdir. Və o mübarək mələk deyir ki, ey İbrahim, sən Allah-taalanın bu sınağından da üzü ağ çıxdın, artıq bu uşağı incitmə, Allah-taalanın göndərdiyi bu qoçu qurban kəs. Bayaq İsmayılın boğazını çızmağa belə kəsəri olmayan bıçaq bir anın içində qoçun başını üzüb atır...

Tarixini dəqiq bilmədiyimiz bu hadisədən sonra hər il hicri qəməri təqvimi ilə Zilhiccə ayının 10-cu günündə Qurban bayramını keçirmək biz müsəlmanlara ilahi bir tapşırıq kimi buyrulmuşdur. Bu rəvayətin tarixi dəyəri təkcə İsmayılla qoyunun müqayisəsidirmi? Əlbəttə yox! Burada Allah-taala öz yaratdığının əqidəsini imtahana çəkir, yaratdığının ona sadiqliyini sınayır. Sonralar Həzrəti-İbrahim «Xəlilullah»,

[1] İbn Sinanın minilliyi müsəlman tarixi (hicri) ilə bayram edilmişdir. Xristian tarixiləsə İbn Sinanın anadan olmasının minilliyi 1980-ci ildə tamam olmuşdur.

yəni «Allah-taalanın dostu» adlanır. Çünki o, oğlunun boğazına dirədiyi iti biçağı ilə əqidəsinin möhkəmliyini, Allaha etiqadını sübut etmişdir.

Neçə əsrdir ki, İbrahim sədaqətinə, İbrahim inamına biz də sahib olduğumuzu sübut etmək üçün hər il Allah yolunda təmənnasız, niyyətsiz qurban kəsirik. Elə Qurban bayramının mahiyyəti, dəyəri də bundadır. Heç olmasa ildə bir dəfə o böyük Yaradandan heç nə arzulamadan, əvəzini gözləmədən malımızdan keçirik...

Müqəddəs kitablar buyurur ki, heç bir quş heyvanlarından qurban kəsmək olmaz. Qurban qoyun, keçi, inək, camış və dəvədən kəsilir. Qurban kəsiləcək heyvanın bəzi əlamətlərinə ciddi fikir verilməlidir. Yeni kəsiləcək qoyun və keçi ən azı bir yaşında, inək, camış isə iki yaşında olmalıdır. Kəsiləcək heyvanlar kor və ya xəstə olmamalıdır. Müqəddəslərimiz onu da buyurur ki, qurbanlıq kəsiləcək heyvanlar üç yerə bölünməlidir. Bir hissəsi yaxın qonşulara, qohumlara, bir hissəsi kasıblara, kimsəsizlərə paylanmalı, bir hissəsi evdə saxlanılmalıdır. Yaxud da qurban ətini bütövlükdə yoxsullara paylamaq olar. Qurbanlıq bax bu zaman böyük Yaradanın hüzurunda ofsanata keçir. «Qurban» sözünün mənası yaxınlıq deməkdir, bir-birinə qurban olmaq sözünün mənası da buradan götürülüb. Qurban bayramında heyvan qanı ona görə axıdılır ki, insan qanı axıdılmasın.

Bu bayramda məmləkətimizin hər yerində paytaxtımız Bakıda, digər şəhər və kəndlərimizdə qurbanlar kəsiləcək, kasıblar, kimsəsizlər anılacaq. Əlbəttə, bayaq dediyimiz kimi belə bir gündə Allah-taaladan heç nə arzulanmamalı, niyyət edilməməlidir. Çünki bu bayram təmənnasızdır. Sonrakı günlərimizi təmənnasız kainat sahibimizdən diləyirik. Dini bayramlarımızın hamısı insan əqidəsi, insan mənəviyyatı, ləyaqəti ilə bağlıdır.

(«Azərbaycan» qəzeti, 1998, 8 aprel)

FELİ BİRLƏŞMƏLƏR
(ГЛАГОЛЬНЫЕ СЛОВОСОЧЕТАНИЯ)

İkinci tərəfi feli bağlama, feli sifət və ya məsdərlə ifadə olunan söz birləşmələri feli söz birləşmələri adlanır.

Второй компонент глагольных словосочетаний выражается деепричастием, причастием или инфинитивом.

Birinci tərəfinin ifadə vasitəsinə görə feli söz birləşmələrini üc tipə ayırmaq olar (по средствам выражения можно виделить три типа глагольных словосочетаний):

İ. Ad - fel (имя-глагол).

2. Fel - fel (глагол-глагол).

3. Zərf - fel (наречие-глагол).

1. Ad - fel. Bu tip feli birləşmələrin birinci tərəfi isim və ya substantivləşmiş (isimləşmiş) digər nitq hissələri ilə ifadə olunur, ismin bu və ya digər halında işlənir. Belə feli birləşmələrin beş növü vardır.

Первый компонент глагольного словосочетания типа «имя-глагол» выражается именем существительным или другими субстантивированными частями речи и употребляются в том или ином падеже. Таких глагольных словосочетаний пять.

a) Adlıq hallı feli birləşmələr (глагольные словосочетания с именительным падежом): sən güləndə, atam danışdıqca, böyük danışarkən, qapı açan (adam), qum göyərən (vaxt).

b) Təsirlik hallı feli birləşmələr (глагольные словосочетания с винительным падежом): kitab (kitabı) oxumaq, kosmosu öyrənmək, natiqi dinləmək, şəhəri gəzmək, imtahanı vermək, filmi görmək.

c) Yönlük hallı feli birləşmələr (глагольные словосочетания с направительным падежом). Belə birləşmələr bu mənaları ifadə edir (такие словосочетания выражают)

a) hərəkətin obyektini (объект действия) - kinoya baxmaq; b) hərəkətin istiqamətini (направление) - evə getmək; c) hərəkətın zamanını (время) - sabaha saxlamaq;

ç) hərəkətin məqsədini (цель) – işləməyə getmək.

Belə feli birləşmələrin birinci tərəfi hərəkətin yerini (universitetdə oxumaq), obyektini (kitabda yazılanlar), zamanını (yayda istirahət) bildirir.

ç) Yerlik hallı feli birləşmələr (глагольные словосочетания с местными падежами). Belə feli birləşmələrin birinci tərəfi hərəkətin yerini (universitetdə oxumaq), obyektini (kitabda yazılanlar), zamanını (yayda istirahət) bildirir.

d) Çıxışlıq hallı feli birləşmələr (глагольные словосочетания с исходным падежом). Bu tip feli birləşmələrin birinci tərəfi hərəkətin yerini (şəhərdən gələn), obyektini (kitabdan oxumaq), səbəbini (xəcalətdən ölmək), zamanını (səhərdən yağan) bildirir.

■**Tapşırıq.** *Ad-fel tipli feli birləşmələrin hər növünün işlənməsinə aid beş cümlə düzəldib dəftərinizə yazın.*

■**Tapşırıq.** *Aşağıdakı mətnin məzmununu öyrənin.*

Nəsirəddin Tusi

Dahi Azərbaycan alimi və dövlət xadimi Nəsirəddin Tusi 1201-ci ildə Tus şəhərində anadan olmuşdur. Bu dövrdə müsəlman şərqi dünya

təfəkkürü və elminin mərkəzı sayılırdı. Tusi mükəmməl təhsil almış, dini elmləri, məntiqi, metafızikanı, cəbri, həndəsəni, dilçiliyi, təbabəti... mükəmməl öyrənmişdir. İbn Sinanın elmi məktəbinin davamçıları olan alim-müəllimlərdən dərs almışdır.

Nəsirəddin Tusinin elmi fəaliyyətinin ilk dövrü Şimali İranın Nişapur şəhərində keçmişdir. O, burada görkəmli alim kimi tanınmışdır. Alim özünün əxlaq, məntiq, fəlsəfə və riyaziyyata dair bir çox əsərlərini bu şəhərdə yazmışdır. Məşhur «Əxlaqi-Nasiri» dərsliyini də burada hazırlamışdır. Bu kitab əsrlər boyu İran, Qafqaz, Hindistan müsəlmanları arasında əxlaq dərsliyi kimi geniş yayılmışdır.

1256-cı ildə Çıngiz xanın nəvəsi, monqol hökmdarı Hülakünün qoşunları bu yerləri tutur, Hülakü Tusini şəxsi müşavir kimi öz yanında saxlayır. Tusinin elmi fəaliyyəti üçün daha yaxşı şərait yaradır.

Tusi Azərbaycanın Marağa şəhərində rəsədxana açır. Rəsədxanın binası da onun layihəsi əsasında tikilir və dəqiq cihazlarla təchiz edilir. Bu cihazlar sonralar dünyanın bir çox rəsədxanalarında tətbiq olunur. Tusi dünyanın müxtəlif ölkələrindən rəsədxanada işləmək üçün astronomlar və riyaziyyatcıları dəvət edir. Marağa rəsədxanası bütün dünyada elmin inkişafına böyük təsir göstərmişdir.

Göy cisimlərinin hərəkəti üzərində müşahidələr əsasında Marağa rəsədxanasında məşhur Əlxan cədvəlləri -«Zidis əl-xani» tərtib edilmişdir. Bu astronomik cədvəllər astronomlar, riyaziyyatçılar və coğrafıyaçılar - bütün sonrakı nəsillər tərəfindən yüksək qiymətləndirilmişdir. Əvvəllər Qərbi Avropanın elmi dairələrində geniş məlum olmuş bu cədvəllər latın dilinə tərcümə olunaraq 1652-ci ildə Londonda, 1711-ci ildə Oksfordda nəşr edilmişdir. Bu cədvəllər Xristofor Kolumbun müəllimi, görkəmli coğrafıyaçı Toskanelliyə də məlum idi.

Qərbdə Nəsirəddin Tusi dahi astronom və riyaziyyatçı kimi tanınmışdır. Məhz onun sayəsində Evklidin məşhur «Başlanğıc» kitabı adi həndəsə fənnindən orta əsr universitetlərində ciddi tədqiqat məxəzinə çevrildi. Bu ideyalar Tusinin «Kəsən xətlər qanunları haqqında» əsərində şərh olunmuşdur. Kitab latın dilinə tərcümə edilmişdir.

XVIII yüzilliyin məşhur riyaziyyatçısı Vallis özünün Oksford Universitetindəki Tusi teoreminin isbatını açıqlamışdır. Ptolomey astrologiyasının nöqsanlarının və planetlərin hərəkətinin yeni nəzəriyyəsinin layihəsinin, bəlkə də, ən mükəmməl şərhi Tusinin əsərlərində öz əksini tapmışdır. Bu layihədə səyyarələrin hərəkətinin yeni riyazi modeli verilmişdir. Tusi ideyaları Kopernikə də təsir göstərmişdir. Heliosentrik tezis istisna olmaqla, Kopernik astronomiyasının müddəaları Tusinin və onun davamçılarının əsərlərində var idi.

Tusiyə görə, planetlərin modelı bir cüt çevrədən ibarətdir. Özü də belə çevrələrin biri o birinin daxilində fırlanır. Daxili çevrənin sürəti və radiusu xarici çevrədəkindən iki dəfə azdır. Kopernik Tusinin təmas

nöqtəsinin hərəkəti trayektoriyası haqqında teoremindən istifadə etmişdir.

Ən maraqlı cəhətlərdən biri də budur ki, Kopernikin əlyazmalarında Tusinin ərəb əlifbasının hərfləri şəklindəki işarələri saxlanmışdır.

Şərqdə Nəsirəddin Tusi şəxsiyyətinə həmişə nüfuzedici analitik zəkaya və ilahi ədalət hisslərinə malik bir hakim - müdrikliyin görkəmli timsalı kimi baxılmışdır.

Tusi demişdir: «Müharibəsiz keçinmək mümkün olan yerdə qan tökülməsindən çəkinmək lazımdır».

Tusinin qəbirdaşında yazılmışdır: «Millətin və dinin müdafiəçisi, elm sənətinin padşahı - belə oğulu zaman - ana hələ doğmamışdır».

Oksford elmi bioqrafiyalar lüğətində oxuyuruq: «Özünün çox istedadlı şəxsiyyətləri ilə tanınan islam tarixində, bir tərəfdən, dahi münəccim və riyaziyyatcı, digər tərəfdən, islamın ən mühüm sahəsi olan şiəlik üzrə ən nüfuzlu ilahiyyatçı Tusiyə bənzər ayrı bir sima tapmaq, çətin ki, mümkün olsun».

2. Fel-fel. Bu feli birləşmələrin birinci **tərəfi feli bağlama ilə ifadə olunur** (первый компонент таких глагольных словосочетаний выражается деепричастием): və ikinci tərəfin ifadə etdiyi bu mənaları bildirir (и выражает следующих значений, выраженных вторым компонентом) a) hərəkətin tərzini (образа действия) – gülə-gülə danışmaq, fikirləşib yazmaq, qaçaraq gəlmək; b) hərəkətin zamanını (время) - görəndə tanımaq, gələndə yıxılmaq; c) hərəkətin səbəbini (причину) - yeyib doymaq, sevinib ağlamaq.

■**Tapşırıq.** *Fel - fel tipli birləşmələrin işlənməsinə aid on cümlə yazın.*

3. Zərf-fel. Bu tip feli birləşmələrin birincı tərəfi zərflə ifadə edilir (первый компонент таких глагольных словосочетаний выражается наречием). Bu birləşmələr aşağıdakı mənaları ifadə edir (такие словосочетания выражают следующие значения): a) zaman (время) - səhərə gəlmək, axşam çatmaq; b) məkan (место) - irəli getmək, geri çəkilmək; c) kəmiyyət (количество) - xeyli yubanmaq, çox yemək; ç) hərəkətin tərzini (образа действия) - asta danışmaq, yavaş-yavaş yerimək.

■**Tapşırıq.** *Zərf - fel tipli feli birləşmələri olan on cümlə düzəldin və dəftərinizə yazın.*

■**Tapşırıq.** *Mətni öyrənin.*

Çingiz xan
(1167-1227)

Çingiz xan Monqol imperatorluğunun təməlini qoymuş böyük türk hökmdarıdır.

Bir çox qaynaqlar Çingizin mənsub olduğu qıyatların əski bir türk ailəsi olduğunu irəli sürmüşlər. O çağlarda onlarda dərəbəylik idi. Hələ dövlətləri yox idi. Çingiz ətrafına bir neçə qəbilə topladı. Ona qoşulmayanları və rəqiblərini qısa zamanda məğlub edərək itaət altına almışdı. Cənubi Monqolustana hakim oldu və Çingiz adıyla imperatorluğunu elan etdi.

Qüvvətli bir intizam altına aldığı ordusuyla Çinə girərək Pekini ələ keçirmişdi. Xarəzm şahlarını məğlub etmiş, torpaqlarını öz dövlətinə qatmışdı. Beləliklə, bütün Türküstanı ələ keçirmiş oldu. Bu böyük zəfər dünyada qorxu və həyəcan yaratdı. Çünki Çingiz xan girdiyi şəhərlərdə qorxunc hərəkətlər edirdi. Ona görə də bir çox şəhərlər qorxusundan müqavimət göstərmədən təslim olmuşdu.

Bu dövrdə Qızıl Orda xanları arasında Azərbaycan ərazisi uğrunda müharibələr gedirdi. Qızıl Orda xanları Azərbaycan ərazisinin Çingiz xanın vəsiyyətinə görə Batı xanın payına düşdüyünü iddia edirdilər.

Ömrünün axırlarında Çingiz xan Çinə son səfərə çıxdı, fəqət səfəri tamamlanmadan 1227-ci ildə Kansuda öldü. Əski türk-monqol adətincə öldüyü yer gizli saxlanılmışdır.

CÜMLƏ ÜZVLƏRİ
(ЧЛЕНЫ ПРЕДЛОЖЕНИЯ)

BAŞ ÜZVLƏR
(Главные члены)

Cümlənin iki baş üzvləri vardır: mübtəda və xəbər.

В предложении два главных члена: подлежащее и сказуемое.

MÜBTƏDA
(ПОДЛЕЖАЩЕЕ)

Mübtəda cümlənin əsas baş üzvüdür, ismin adlıq halında olur, kim?, nə?, hara? suallarına cavab verir, qrammatik cəhətdən müstəqil olur, xəbərlə aydınlaşdırılır, canlı və cansız varlıqların, konkret və mücərrəd əşya və hadisələrin adlarını bildirir.

Подлежащее – главный член предложения, стоит в именительном падеже, отвечает на вопросы kim?, nə?, hara? Поясняется сказуемым, обозначает имена одущевленных и неодущевленных, конкретных и абстрактных предметов и явлений.

Mübtəda isim, sifət, say, əvəzlik, söz birləşməsi, feli sifət, məsdər, substantiv köməkçi nitq hissələri ilə ifadə olunur.

Подлежащее выражается существительным, прилагательным, числительным, местоимением, словосочетаниями причастием, субстантированными вспомогательными частями речи.

Məsələn: Zemfira gözəldir. Ağlı başında. Biz ev sahibiydik onun yaşında (Z.Xəlil). O dedi, bu dandı, bu dedi, o rədd elədi (Mir Cəlal). Payız ötdü, qış girdi, atam sözünə əməl etmədi (Ə.Vəliyev). Onun qapısına atlı gələnlər, tarix yaxşı bilir qayıdıb geri (S.Rüstəm). Nigarançılıq uzun sürmədi (Ə.Vəliyev). Gülqız bir qədər duruxdu (Ə.Vəliyev). Doğrudur, bildirki cavan idi (Ə.Vəliyev). Qansızlar yanında çəkməsin nəfəs (S.Rüstəm). Bəs on ikinci hardadır? (S.Rəhman). Tutan kimi gələr on altı (R.Rza). Muştəridən çox satan vardı (Ə.Vəliyev). Bu, Mədinə həsrəti idi (Y.V.Çəmənzəminli). Hansı məni həmişəlik xoşbəxt eləyir (Ə.Vəliyev). Bəs bu gözəllikdə otaqları üç-beş manata alanda demədinmi bunun əmması var? (Mir Cəlal).

XƏBƏR
(СКАЗУЕМОЕ)

Xəbər qrammatik cəhətdən mübtədadan asılı olan baş üzvdür, mübtədaya aid olan iş, hal, hərəkət və əlaməti bildirir. İfadə vasitələrinə görə xəbər iki cür olur: feli xəbər və ismi xəbər. Felin şəxsli formaları ilə ifadə olunmuş xəbərə feli xəbər deyilir. İsmi xəbərlər isim və substantivləşmiş digər nitq hissələri, habelə söz birləşmələri ilə ifadə olunur.

Сказуемое – это грамматически зависимое от подлежащего главный член предложения, оно обозначает состояние, действие и признак, относящиеся к подлежащему. По средствам выражения сказуемое выражается личными формами глагола. Именное сказуемое выражается существительными или другими субстантированными частями речи, а также словосочетаниями.

Məsələn: Bunu qızım Qətibəyə də, sənə də tapşırıram (M.S.Ordubadi). O, heç vaxt Rüstəm kişini qızışacaq hala gətirmir, tez güzəştə gedirdi (M.İbrahimov). Mehmanxanaya girdiyi zaman Qriqor ağa qızımın məni tez-tez soruşduğunu xəbər verdi (M.S.Ordubadi). Zeynəb pərt oldu (M.İbrahimov). Mən də bu məsələlər haqqında

müşavirə fasilələrində çox düşünüb-daşınırdım (S.Rəhimov). Gecədən başlamış kəskin yağış kəsmək bilmir (Ə.Vəliyev). Nəsrulla kişi dönüb geri qaçmağa başladı (S.Rəhimov). Sən oxumaq bilmirsən (C.Cabbarlı). Bəri gəl, Tahir, buralara nabələdsən, birdən azıb-elərsən (H.Mehdi). İndi mənim bütün fəaliyyətim qabaqdadır (S.Qədirzadə). Mahmud kişi bağbandır. Çox mehriban insandır (M.Rahim) Gündəlik məsələmiz ikidir (M.İbrahimov). Təbiət belədir (M.İbrahimov). Bu, qadın səsidir (M.S.Ordubadi). İgidlər vurğunu idilər (İ.Əfəndiyev). Evimiz yol üstündədir (T.Şahbazi). Bu körpü cəbhəmizin mühüm keçidlərindəndir (M.Cəlal).

■**Tapşırıq.** *Xəbəri feli xəbər olan beş cümlə düzəldib dəftərinizə yazın.*

■**Tapşırıq.** *İsmi xəbərli beş cümlə düzəldib dəftərinizə yazın.*

■**Tapşırıq.** *Mətni oxuyun. Şerin baş üzvlərini seçib dəftərinizə yazın və şeri əzbərləyin.*

Məmməd Araz
(1933-2004)

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub, qayasında bitərdim…

Məmməd İnfil oğlu İbrahimov (Məmməd Araz) 1933-cü ildə Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. Orta təhsilini kəndlərində başa vuran Məmməd Araz Bakıya gəlmiş və Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olmuşdur (1950). Hələ tələbəlik illərindən şeir yazmağa başlayan Məmməd Arazın «Yanın, işıqlarım» adlı ilk şeiri 1952-ci ildə çap olunmuşdur.

M.Arazın şeirlərindən yurdumuzdan axan çayların gurultusu, gülçiçəkli torpaqlarımızın ətri duyulur.

İnsan vətəndaş kimi böyüməli, doğma torpağını, vətənini canından da artıq sevməlidir. Azərbaycan xalq şairi M.Arazın şeirlərində məhz bu hiss daha güclüdür.

M.Arazın «Sevgi nəğməsi» (1959), «Üç oğul atası» (1961), «Araz axır» (1964), «Anamdan yadigar nəğmələr» (1966), «Ömür karvanı» (1967), «Qanadlı qayalar» (1973), «Atamın kitabı» (1974), «Dünya sənin, dünya mənim» (1983), «Dünya düzəlmir» (1992), «Dağ harayı» (1993), «Qayalara yazılan səs» (1993) və s. kitablarında başlıca mövzu vətəndir.

Məmməd Araz 1 dekabr 2004-cü ildə vəfat etmişdir.

Azərbaycan

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.
Azərbaycan – mayası nur, qayəsi nur ki…
Hər daşından alov dilli ox ola bilər.
«Azərbaycan» deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər…

xxx

Tariximə qara xətlə hicri, miladi
Qılıncların qan ağzıyla yazılmadımı?!
İllər olub – kürələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od gölündə, buz çölündə gəmi olmuşuq…

xxx

Azərbaycan mayası nur, qayəsi nur ki…
Hər daşından alov dilli ox ola bilər.
«Azərbaycan» deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

(Məmməd Araz)

Ayağa dur, Azərbaycan,
Səninləyəm…

Nə yatmısan, qoca vulkan, Səninləyəm!
Ayağa dur Azərbaycan, Səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik,
Səndən qeyri biz hamımız ölə billik.
Bu, Şəhriyar harayıdır,
Bu, Bəxtiyar harayıdır,
Ayağa dur Azərbaycan!
Bunu sənə zaman deyir,
Məzarından baş qaldıran baban deyir:
-Nər oğlu nər, Səninləyəm!

Səninləyəm, silah tutan,
Külüng tutan, yava tutan,
Kösöy tutan, nişanlı ər, səninləyəm!
Səninləyəm, qız atası,
Hanı nərən, hanı səsin?
Hanı andın?
Yoxsa sən də yatmışlara, batmışlara,
Qeyrətini satmışlara xırdalandın?
Gözünü sil vətən oğlu, ayağa qalx!
Üfüqünə bir yaxşı bax,
Sərhədinə bir yaxşı bax,
Sərhədinin kəməndinə bir yaxşı bax!
Dur, içində qorxunu boğ,
Ölümünlə qalımını ayırd elə!
Dur, içində dovşanı qov,
Dur, özünü bozqurd elə!
Varım-yoxum, Səninləyəm,
Azım-çoxum, Səninləyəm,
Şirin yuxum, Səninləyəm.
Yıxın məni söz atından,
Atın məni tank altına.
Əzin məni xıncım-xıncım,
Kəsmir əgər söz qılıncım,
Didin məni didim-didim.
Atın məni tank altına,
Qabaqdakı bir körpəni xilas edim,
Necə səni, necə məni xilas edim?
Səninləyəm, sözü qəmli,
Özü qəmli rəhbər adam!
1918-də vuruşurdu,
Danışmırdı rəncbər atan,
Rəncbər atam.
Oyat bizi, ey yaradan: Səninləyəm!
Ya bilməzsə oyat bizi,
Ya yenidən yarat bizi!
Ey yaradan, Səninləyəm!
Səninləyəm, yatmış vulkan,
Ayağa dur, Azərbaycan,
Səninləyəm!...

Sən tələsmədin

Xalq şairi S.Vurğuna həsr olunub

Qoy nəğmə deməyə bülbül tələssin,
Gəzdiyin, gördüyün üç aydır, şair.
Sənin ki, kükrəyən ilhamın, səsin,
Məcraya sığmayan bir çaydır, şair.

Könlü qar gəzənlər tələssin dağa,
Dağın tələsməsi, məncə, əbəsdir.
Dənizlər can atsın ümman olmağa,
Ümmanın öz suyu özünə bəsdir.

Qəlbin od gəzmədi şaxta kəsəndə,
Söylədin hər fəslin öz aləmi var.
Dedin tələssən də, tələsməsən də,
Yenə öz vaxtında gələcək bahar.

Gah oldu oylağın Göyəzən dağı,
Sözünlə açıldı ayın qabağı.
Əsl bayramını bayramqabağı -
Elədi görəndə gözəllər səni.

Sazına Vaqifin səsimi gəldi?
Səsindən baharın nəsimi gəldi.
Alqışa Füzuli, Nəsimi gəldi,
Eşqə gətirəndə qəzəllər səni.

Gah sinən Kür oldu Kür qırağında,
Qafqazla tən durdun Qafqaz dağında.
Muğandan qayıdıb iş otağında,
«Muğan»ı yazanda tələsmədin sən.

Tələsən atlılar yolda qalacaq,
Aramla gedənlər çox getdi ancaq.
Görməyə tələsdi səni bağça-bağ,
Bənövşə üzəndə tələsmədin sən!

Sənətin ağ günü üzünə düşdü,
Ellər söhbətinə, sözünə düşdü.
Ceyranlar mələşib izinə düşdü,
Ceyranı gəzəndə tələsmədin sən.

Bu gün əlli yaşa qoyursan qədəm,
Mənalı keçərsə yaş, keçsin nə qəm.
Bir vaxt da gələcək, deyəcək qələm:
Ömrünün yüzündə tələsmədin sən.

■**Tapşırıq.** *Mətni Azərbaycan dilinə tərcümə edin.*

Ашук Алескер
(1821-1926)

У каждого народа по-своему приятно чтить своих великих сынов. В Милане, на площади театра Ла Скала, у подножия памятника гениальному Леонардо да Винчи, висечена лаконичная надпись. Имя - и все.

Человека, широко известного, можно назвать и просто по фамилии, скажем: Ломоносов или Менделеев, и всем понятно, о ком идет речь.

Он просто Ашуг Алескер. Единственный. Достаточно одного слова, обозначающего его звание, чтобы он отличался от всех других Алескеров на земле. И это слово - Ашуг стало частью его имени и пишется с большой буквы как почетное звание, ибо Алескер был поистине Ашугом с большой буквы.

Ашугское искусство, уходящее своими корнями в далекое прошлое, синкретично. В нем поэзия, музыка отчасти хореография и элементы драмы; авторские и исполнительские начала, такие как и стихотворный экспромт, и музыкальная импровизация.

Ашуг Алескер занимал высшую ступень в неписанном табеле о рангах, в единственном числе олицетворяя целый коллектив, слаженный и полнокровный, состоящий из поэта, композитора, певца, виртуоза игры на сазе, рассказчика и танцора. Индивидуальное творчество Ашуга Алескера - классическое воплощение лучших традиции ашугского искусства.

Он родился, рос и жил в горах. Для него символ жизни, высоких чувств и дум, символ родины и ее истории - горы.

Устадом - учителем, наставником Алескера был пер-востатейный мастер народного искусства - Ашуг Алы. Его имя - Ашуг Алы. Его имя - надежная гарантия фундамен-тальности знаний и прочной закалки выпускника.

И вот парадокс: завершив учение ашуг зачастую оста-валса неграмотным. Великий Алескер не мог писать, но был судья по всему,

основательно начитан. Видимо читать он всетаки мог. Опираясь на устную и письменную поэзию Ашуг всю жизнь сетовал на свою однокрылость. Но что поделать, если даже к концу его жизни в Азербайджане было не так уж много грамотных, а еще раньше и то меньше.

Тайна в том, что Ашуг Алескер, зная разве, что азбуку, имел высшее образование по избранной им специальности, которая потому и называется устным народным творчеством, что создаваемое и перенимаемое наизусть распространялось из уст в уста, а будучи записанным и изданным, составляет многотомное собрание - энциклопедию жизни азербайджанского народа. В образе Ашуга Алескера много черт, свойственных идеальному образу человека. Есть родственники Ашуга Алескера, что живут и поныне. Но и он немало с двадцать первого года прошлого по двадцать шестой год нашего века. Завидное долголетие, завидное здоровье-телесное и духовное. Человек недюжинного роста и большой физической силы, этот богатырь обладал такими чувствами, не только многое понимал и чувствовал, но и мог передать свое мировосприятие и миропонимание в таких художествснных образцах, на которых учатся современные художники.

İKİNCİ DƏRƏCƏLİ ÜZVLƏR
(Второстепенные члены предложения)

Cümlənin ikinci dərəcəli üzvləri üçdür: tamamlıq, təyin, zərflik. Onlar baş üzvləri izah edir.

Второстепенные члены предложения – три: дополнение, определение, обстоятельство. Они поясняют главные члены предложения.

TAMAMLIQ
(ДОПОЛНЕНИЕ)

Tamamlıq obyekt bildirən ikinci dərəcəli üzvdür. O, yönlük, təsirlik, yerlik və çıxışlıq hallarda, habelə qoşma ilə işlənən yiyəlik halda olan isim və əvəzlik, habelə substantivləşmiş sifət, say, feli sifət, məsdər və söz olur.

Дополнение –второстепенный член предложения, обозначающий объект. Он выражается существительным и местоимением, а также субстантированными прилагательными, числительными, причастиями, инфинитивами и словосочетаниями, употребляемые в дательном, вини-

тельном, местном и исходном падежах, а также при послеложном родительном падеже.

Məsələn: Kitabı oxudum. Tahirəni yeni vəzifəyə qoyublar. Səməni, saxla məni, hər il göyərdərəm səni. Aparın Eldarı salın zindana. Göz dağı çəkdirin Azərbaycana (S.Vurğun). Səndə ədalət də, fəzilət də var (S.Vurğun).

■**Tapşırıq.** *Tamamlıq iştirak edən on cümlə yazın.*

Tamamlığın iki növü vardır: vasitəsiz tamamlıq və vasitəli tamamlıq.

Дополнение имеет два типа: прямое дополнение и косвенное дополнение.

Vasitəsiz tamamlıq ismin təsirlik halı ilə ifadə olunur və kimi? nəyi? nə? və haranı? suallarına cavab verir. Vasitəsiz tamamlıq təsirli fellərlə idarə olunur. Vasitəsiz tamamlığın da iki növü vardır: müəyyən vasitəsiz tamamlıq və qeyri-müəyyən vasitəsiz tamamlıq. Müəyyən vasitəsiz tamamlıq şəkilçili təsirlik halla ifadə olunur və kimi? nəyi? haranı? suallarına cavab verir. Qeyri-müəyyən vasitəsiz tamamlıq şəkilçisiz təsirlik halla ifadə olunur və nə? sualına cavab verir.

Прямое дополнение выражается винительным падежом и отвечает на вопросы: kimi?, nəyi?, nə? haranı? Прямое дополнение управляется переходными глаголами. Прямое дополнение тоже имеет два типа: определенное прямое дополнение и неопределенное прямое дополнение. Определенное прямое дополнение выражается аффиксальным винительным падежом и отвечает на вопросы kimi?, nəyi?, haranı? Неопределенное прямое дополнение выражается безаффиксальным винительным падежом и отвечает на вопрос nə?

Məsələn: Bir təmiz ad ilə ellər dolandım (Aşıq Ələsgər). İbrahim məsələni bilib, tələsik şkafı açdı (Mir Cəlal). Həsən kişi bu sözləri deyib aşağı dolandı (M.İbrahimov). Portfelli oğlan əlini uzatdı (Mir Cəlal). Cavad tamam qışı xəstə yatdı (Ə.Haqverdiyev). Bu dərmanları verərsən içər (Mir Cəlal).

■**Tapşırıq.** *Mətni köçürün. Müəyyən vasitəsiz tamamlıqların altından bir, qeyri-müəyyən vasitəsiz tamamlıqların altından iki xətt çəkin.*

Mən dinmədim. Mən ikiüzlülük eləmək istəmirdim... Çöllər.,. meşələr buz bağlamış qar altında idi. Hava bomboz və biganə idi. Mən ağlamaq istəyirdim. Mən özümü bu uzaqlarda, bu saymaz dağlar arasında itib-batmış yazıq bir qız kimi hiss edirdim. Mən artıq yanımda oturan oğlan haqqında da düşünmürdüm. Birdən sanki dünya lərzəyə

gəldi. Maşın çuxura düşərək bizi elə bərk silkələdi ki, mən yerimdə dayana bilməyib onun dizləri üstünə yıxıldım və o məni tutdu. Mən altdan yuxarı ona baxdım. Onun gözləri eyni ilə təmiz, aydın yaz səmasına bənzədi. Mən nəzərlərimi çəkə bilmədim. O gülümsündü və birdən sanki o, bahar səması altdan mənim üzərimə endi. Mən bu dünyada hər şeyi... hər şeyi unudaraq hövlnak bir hərəkətlə əllərimi altdan yuxarı uzadıb onun başını üzümə daha da yaxınlaşdırdım... və gözlərimi qapayaraq xeyli zaman buraxmadım... mən onu yana-yana və qəzəblə öpürdüm. Sanki kimdən isə qisas alırdım. .. o mənim ürəyim... canımciyərim idi. Heç kəs məni qınaya bilməz! Heç kəs! (İ.Əfəndiyev).

Vasitəli tamamlıq ismin yönlük və çıxışlıq halları, habelə qoşmalı yiyəlik halla ifadə edilir və onların suallarına cavab verir.

Косвенные дополнение выражается дательным, местным и исходным падежами, а также припослеложным родительным падежом и отвечает на их вопросы.

Məsələn: Mənim Aybənizim, mənim qız balam. Hünərdə, namusda, Aygün olaydı (S.Vıırğun). Partizanlar bütün düzənliyə yayılaraq əməliyyata hazırlaşmağa başladılar (İ.Qasımov, H.Seyidbəyli). Firudin qəzetləri gözdən keçirə-keçirə dostuna qulaq asırdı (M.İbrahimov). Onları ikinci otağa, çaya dəvət etdi (M.İbrahimov). Gördün bir doğru ki, yalana oxşadı, onu demə (Ə.Haqverdiyev). Dağ boyda gövdəsi döndü yumağa (S.Vurğun). Artıq Firudinin gözlərində həyatın ağır əzablı səhnələri canlanırdı (M.İbrahimov).

■**Tapşırıq.** *Mətni köçürün. Vasitəli tamamlıqların altından xətt çəkin.*

Ərəboğlu yoldaşlarını ətrafda qaravulçu qoyub evin arxa tərəfindəki divarı aşdı, həyətə düşdü.

Həyətdə heç kim yox idi. Evdən səs-səmir gəlmirdi. Cümə günü olduğu üçün blok bağlı idi. Yalnız uzaqdan, qoruq tərəfdən aktyorların səsi eşidilirdi. Kim isə ucadan çığırırdı. Ərəboğlu öz-özünə «heç mən elə böyürə-boyürə danışıram?» - deyə düşünüb gülümsədi. O, bir ağacın dibinə qısılıb xeyli gözlədi, nəhayət, uzaqdan güllə səsləri və bunun dalınca camaatın qışqır-bağırtısı eşidildi. Bu tərəfdən cavab olaraq tüfənglər açıldı. Ərəboğlu bunu eşidib evə yaxınlaşdı, ancaq pilləkənlə yuxarı çıxmadı, zirzəminin qapısına yaxınlaşdı. Qapıda balaca bir qıfıl vardı. Ərəboğlu bıcağını salıb bir dəqiqədə qıfılı qırdı.

Zirzəmi qaranlıq idi, indicə açılmış qapıdan az-maz işıq düşürdü. O, bir dəqiqə itirmədən əli ilə divarları yoxlamağa başladı. Nəhayət böyük bir daş bələdlədi, ətrafını bıçaqla qazıb divardan çıxartdı. Onun əlləri əsirdi, tər dabanından süzülürdü. Daşı ehtiyatla yumşaq torpağın üstünə

qoydu, yerinə əlini saldı. Gizlətdiyi şeylər yerində idi. Ərəboğlu arxayın nəfəs aldı (S.Rəhman)

TƏYİN
(ОПРЕДЕЛЕНИЕ)

Təyin cümlənin ikinci dərəcəli üzvlərindən biridir. O, isimlə və ya substantivləşmiş hər bir sözlə ifadə edilmiş cümlə üzvünə aid olur, onun əlamət və ya keyfiyyətini bildirir. Təyin isim, sifət, say, əvəzlik, feli sifət və söz birləşmələri ilə ifadə olunur və necə?, nə cür?, hansı? suallarına cavab verir.

Определение – второстепенный член предложения. Оно относится к любому члену предложения, выраженный существительными или к любым субстантированным словом, обозначает его признак или качество. Определение выражается существительным, прилагательным, числительным, местоимением, причастием и словосочетанием и отвечает на вопросы necə?, nə cür?, hansı?

Məsələn: Toz basmış, əl boyda bir pəncərədən zəif işıq düşürdü (S.Rəhman). Rayon miqyasında ən mahir və bacarıqlı müəllimlərdən sayılırdı (İ.Hüseynov). Bu gün, sabah al geyəcək təbiətin ilk baharı, yenə qönçə tutacaqdır könüllərin arzuları (S.Vurğun). Qara geyimli kök bir qadın əllərini belinə qoyub dayanmışdı (İ.Hüseynov). Ulduzlar sayrışır mavi göylərdə, insanlar çalışır, yaradır yerdə (S.Vurğun). Əli çəlikli, balacaboy bir qoca irəli çıxdı (İ.Hüseynov). Salxım-salxım olacaqdır ağ üzümün tənəkləri, yeniləri sağacaqdır yeni sağlam inəkləri (S.Vurğun). Böyük yerlərdən dəstə-dəstə qonaqlar gəldi (Mir Cəlal). Yüz Züleyxa, yüz min Yusifi-Kənan, qul olmağa meydanıına tökülmüşdü (M.P.Vaqif). Biz bütün tarlaları yoxlayıb, ancaq bu tarlanı yarışa qoşduq (C.Cabbarlı).

■**Tapşırıq.** *Köçürün. Təyinlərin altından xətt çəkin.*

Dostlar, badələri qaldırın içək!
Gecə ulduzludur, hava da sərin.
Demirəm məst olub dünyadan köçək...
Deyirəm mehriban düşüncələrin
İsti qucağında qızınaq bir az.
Qoy uzansın gecə, geciksin səhər.
Yuxuya getməsin məclisdəkilər -

Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üstündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən...
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümüzdən...
Bu aylı gecədə, bu dağ döşündə,
Bu sazlı-söhbətli bulaq başında
Bu saat, bu dəm
Heç yana, heç yerə mən tələsmirəm.

(S. Vurğun)

■**Tapşırıq.** *Aşağıdakı parçadan təyinləri və onların aid olduqları sözləri dəftərinizə yazın.*

Məktəbin həyəti balaca idi. Ortasında çox kiçik bir idman meydançası vardı. Meydançanın axırındakı tikan çəpər üç tərəfdən yaşıl qələmələrlə hasarlanmış bağçanı ayırırdı. Bu bağça və onun yanındakı iki hektarlıq yer məktəbin təcrübə sahəsi idi. Sahə şumlanmış, alaqdan təmizlənmiş olduğundan oradakı müxtəlif bitkilər uzaqdan gözə dəyirdi.

Fasilədə uşaqlar hamısı idman meydançasına səpələnib oynadığı halda, on üç yaşlı bəstəboy, qarabuğdayı, irigözlü Rövşən hiss olunmadan bağçaya keçdı.

■**Tapşırıq.** *Aşağıdakı mətnin məzmununu danışın.*

Cəlil Məmmədquluzadə
(1866-1932)

Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. Bundan başqa, o, heç bir xüsusi təhsil görməmişdir, lakin böyük bir nəsil Azərbaycan ziyalısını tərbiyə edib yetişdirmiş, ədəbiyyata yeni istiqamət vermiş, xalqın mədəni və siyasi inkişafında çox böyük rol oynamışdır.

«Poçt qutusu», «Usta Zeynal», «Danabaş kəndinin əhvalatları», «Qurbanəli bəy», «Zırrama», «Bəlkə də, qaytardılar» kimi hekayələr, «Ölülər», «Anamın kitabı», «Kamança» kimi dram əsərləri, külli miqdarda felyeton və məqalələr yazmış, Azərbaycan ədəbiyyatını ölməz əsərlərlə zənginləşdirmişdir.

C.Məmmədquluzadə 1906-cı ildən başlayaraq 1931-ci ilə qədər məşhur «Molla Nəsrəddin» jurnalını əvvəlcə Tiflisdə, sonra Təbrizdə,

nəhayət, Bakıda nəşr etdirmiş, dövrün əsas ədəbi qüvvələrini bu jurnal ətrafında toplamışdır.

Ömrünün sonlarında Mirzə Cəlil mənəvi təzyiqlərə məruz qalmışdır. Sənətkara burjua yazıçısı damğası vurulmuş, «Molla Nəsrəddin» jurnalının adı dəyişdirilərək «Allahsız» adlandırılmışdır.

Cəlil Məmmədquluzadə 1932-ci ilin yanvar ayının 4-də Bakıda vəfat etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatını C.Məmmədquluzadəsiz təsəvvür etmək mümkün deyildir. Onun ölməz adı bizim mübarizə tariximizdə ədəbi həkk olunmuşdur.

ZƏRFLİK
(ОБСТОЯТЕЛЬСТВО)

Zərflik hal və ya hərəkətin əlamətini bildirir.

Обстоятельство обозначает признак действия или признака.

Məsələn: Müzəffər ordular vüqarla keçir (S.Vurğun). Onlar ağır bir köç kimi yorğun-yorğun yeriyir, dumanlı və anlaşılmaz bir gələcəyə doğru irəliləyirdilər (M.İbrahimov). Gözəl durub, gözəl gəzib, gözəl bax. Gözəl deyil, etmə gözəl, ah sən (M.P.Vaqif). Bir həftədən çoxdur, geri qayıdıblar (S.Rəhman). Əsgər sağa-sola yırğalanaraq düşünürdü (Mir Cəlal). Vəli onun göstərdiyi səmtə doğru addımladı. (H.Mehdi). Sonradan bunu ətraflı danışmaq olar (C.Cabbarlı). İndiyə kimi geriyə getmişdim (Ə.Abbasov). O, planı birə-beş yerinə yetirərdi (Ə.Vəliyev). Natahatlıqdan sabaha kimi yata bilmədim (S.Rəhimov). Onlar vətən uğrunda vuruşurdular (Ə.Vəliyev).

■**Tapşırıq.** *Mətni nəql edin.*

Mirzə Ələkbər Sabir
(1862-1911)

«Bənzərəm bir qocaman dağa ki, dəryada durar» deyən əzəmətli sənətkar - M.Ə.Sabir Azərbaycanın ilk proletar şairi, fəhlə və kəndlilərin alovlu nəğməkarıdır. Sabir «Molla Nəsrəddin» jurnalının əsas müəlliflərindən biri idi. Onun satiraları o zamankı ictimai quruluşa, hakim sinfin, din xadimlərinin törətdikləri cinayətlərə, cəmiyyətin bütün eyiblərinə qarşı yönəldilmişdir. İnqilabçılar, xüsusən İran inqilabçıları onun satiralarından bir silah kimi istifadə edirdilər. İran inqilabının iştirakçıları göstərdilər ki, Sabirin şeirləri «İran məşrutəsinə bir ordudan ziyada xidmət etmişdir».

Dövr bu böyük sənətkarı əzablara düçar etdi, onu cismən məhv etdi. Lakin Sabir yaşadı, bir sənətkar kimi yaşadı, xalqımızın, minlərlə insanların mənəvi sərvətinə çevrildi, Sabir özü də bunu bilirdi. Bilirdi ki, keçmiş həyat onu məhv etsə də, onun arzu və istəkləri bir zaman həyata keçəcəkdir. O yazırdı:

Nə qəm uğratsa da bir məni ifnayə zaman,
Mən gedərəmsə, məramım yenə dünyada qalar.

■**Tapşırıq.** *Şeri oxuyun, hər beytin mənasını ayrı- ayrılıqda izah edin.*

Dindirir əsr bizi, dinməyiriz,
Açılan toplara diksinməyiriz...
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ avtomobil minməyiriz...
Quş kimi göydə uçar yerdəkilər,
Bizi gömmüş yerə minbərdəkilər.

■**Tapşırıq.** *Şeri əzbərləyin.*

M.Ə.Sabir

Oxutmuram, əl çəkin!
(İxtisarla)

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Gərçi bu bədbəxt özü elmə həvəskardır,
Kəsbi-kəmal etməyə səyi dəxi vardır.
Məncə, bu işlər bütün şiveyi-küffardır.
Dinə zərərdir, zərər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Bəs ki, uşaqdır hələ, yaxşı-yaman sanmayır,
Elmin əbəs olduğun anlamayır, qanmayır,
Sair uşaqlar kimi hər sözə aldanmayır,
Eyləyir ömrün hədər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Eyləmərəm rəhm onun gözdən axan yaşına,
Baxsın özündən böyük öz qoçu qardaşına,
Ölsə də verməm riza şapka qoya başına,
Kafir ola bir nəfər, oxutmuram, əl cəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Uşaq mənimdir, baba, dəxli nədir sizlərə?
Kim sizi qəyyum edib hökm edəsiz bizlərə?

Yatmaram əsla belə dinə dəyər sözlərə!
Bir kərə qan, müxtəsər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Bəsdi, cəhənnəm olun, bunca ki, aldatmısız,
İndi beş ildir tamam dinimə əl qatmısız,
Sevgili övladımı kafirə oxşatmısız.
Duydum, işin sərbəsər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!

İnsan olanın cahü-cəlali gərək olsun,
İnsan olanın dövləti, mali gərək olsun,
Hümmət demirəm, evləri ali gərək olsun;
Alcaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Hər məclisi-alidə soxulma tez arayə,
Sən dur ayaq üstə, demə bir söz ümərayə,
Caiz deyil insanca danışmaq füqərayə.
Dövlətlilərə kəndini yeksanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Fəqr ilə ğina əhlinə kim verdi müsavat?
Mənadə də, surətdə də var bunda münafat,
Öz fəzlini pulsuz edəməz kimsənə isbat,
Bu mümtənəi qalibi-imkanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Gec vur çəkicin, işlə işin, çıxma zeyindən,
Məqsud müsavat isə ayrılma ceyindən,
Var nisbətin ərbabi-ğinayə nə şeyindən?
Bir abbasi gün muzdunu milyanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Dövlətliyik, əlbəttə, şərafət də bizimdir,
Əmlak bizimdirsə, əyalət də bizimdir,
Divan bizim, ərbabi-hökumət də bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

ZƏRFLİYİN MƏNACA NÖVLƏRİ
(ТИПЫ ОБСТОЯТЕЛЬСТВА ПО ЗНАЧЕНИЮ)

Qrammatik mənasına görə zərfliyin bu növləri vardır:

По грамматическому значению обстоятельство имеет следующие типы.

1. Tərzi-hərəkət zərfliyi hərəkətin icra tərzini və hərəkət və əlamətin keyfiyyətini bildirir: **necə?, nə cür?** suallarına cavab verir.

Обстоятельство образа действия обозначает: образа действия и качества действия и признака; отвечает на вопросы **necə?, nə cür?**

Məsələn: Pəncərədən baxır gözlər, şütüyərək keçir qatar (B.Azəroğlu). Əjdər gah piyada, gah da maşınla səhər gün doğmamışdan çıxıb yola, Xan Arazboyunda gəzir dolanır (B.Azəroğlu). Sınaq kürsüsünə qalxan Nəriman Həsənzadə demək olar ki, bütün şeirlərini əzbər dedi, sinədən söylədi («Kommunist» qəzeti). Ancaq Mirzə Abbasoğlu dostunu yaxşı tanıyırdı (Mir Cəlal).

■**Tapşırıq**. *Tərkibində tərzi-hərəkət zərfliyi işlənən beş cümlə yazın.*

■**Tapşırıq.** *Hüseyn Cavid haqqında məlumatı öyrənin.*

Hüseyn Cavid
(1882-1941)

Şair və dramaturq Hüseyn Cavid XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. O, bir çox romantik, lirik-epik şeirlərin və «Ana», «Maral», «Şeyx Sənan», «İblis», «Şeyda», «Uçurum», «Səyavuş», «Xəyyam» kimi faciələrin müəllifi kimi tanınır.

Hüseyn Cavid Rasizadə 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində anadan olmuşdur. Atası Hüseyn balaca Cavidi ruhani etmək üçün mollaxana məktəbinə qoyur. Lakin 1896-cı ildə 15 yaşlı Cavid mollaxanadan çıxıb şəhərlərində açılmış yeni tipli «Rus-tatar» məktəbində oxumağa başlayır və dörd ildən sonra həmin məktəbi bitirir. O, təhsilini davam etdirmək istəyirsə də, ağır göz xəstəliyinə tutulması buna mane olur. Cavid müalicə üçün Təbrizə gedir. O, burada Şərq ədəbiyyatı və fəlsəfəsi ilə yaxından tanış olur.

1905-cı ildə 23 yaşlı Hüseyn Cavid ali təhsil almaq üçün İstanbula gedir. O, dörd il darülfünunun dil-ədəbiyyat şöbəsində oxuyur. Hələ molla yanında oxuyarkən «Gülçin» imzası ilə şeirlər yazan Cavid İstanbulda təhsil aldığı müddətdə «Şeir məftunu», «Dəniz pərisi», «Son baharda», «Kiçik bir lövhə» kimi lirik şeirlərini yazır.

Təhsilini qurtardıqdan sonra Cavid Naxçıvana qayıdıb müəllimliyə başlayır. 1910-cu ildən o, dramaturgiya ilə məşğul olur. Onun yazdığı «Ana» (1910), «Maral» (1912), «Şeyx Sənan» (1914) faciələri müəllifin şöhrətini artırır.

1912-ci ildə Hüseyn Cavid Tiflisdə «Keçmiş günlər», 1917-ci ildə Bakıda «Bahar şəbnəmi» adlı məcmuələrini nəşr etdirir, 1916-1918-ci illərdə o, «Şeyda», «Uçurum» və «İblis» səhnə əsərlərini və bir sıra lirik şeirlərini yazır.

Bir-birinin ardınca «Telli saz», «Knyaz», «Səyavuş», «Şəhla», «Xəyyam» pyeslərini və «Araz» poemasını yazır.

Ümumbəşəri problemlər, insanın daxili aləmi, mənəvi sarsıntıları və həyəcanları, beynəlmiləlçilik, şər qüvvələrə, dini ehkamlara qarşı mübarizə Cavid yaradıcılığının məzmununu, əsas ideya istiqamətini təşkil edir.

Böyük şair Hüseyn Cavidin «Azər» poemasında Səlma adlı bir qız surəti var. İnqilabdan əvvəl yoxsul həyat keçirən, əzablar içində böyüyən, qəmli mahnıları oxuyan Səlmanın sonralar şən mahnıları səslənir.

Şərq nəğməsi

Vəfalı bir yar ikən, bir düşmən kimi,
Qıydı mənə heyran olduğum gözəl,
Saldı gözdən illərlə Sənan kimi,
Qapısında çoban olduğum gözəl.

Dedim «Öldür məni», sallanıb keçdi,
Süzgün baxışları qəlbimi deşdi,
Bir kəpənək kimi qanımı içdi,
Dərdindən pərişan olduğum gözəl.

Ah, nə çıxılmaz yol imiş sevda,
Tən etdi hər görən, güldü hər gəda,
Xəstə bir quş ikən məni yuvamda,
Dustaq etdi qurban olduğum gözəl.

■**Tapşırıq.** *Mətni öyrənin.*

Əhməd Cavad
(1892-1937)

Torpağına can demişəm,
Suyuna mərcan demişəm,
Canımı qurban demişəm,
Canım-gözüm, gözüm-canım,
Can-can, can Azərbaycan!

Bu şeri yazan Əhməd Cavaddır. Amma bu gözəl şair haqqında məlumatımız çox azdır. O, uzun müddət müəllim işləyib. Canından əziz bildiyi vətən övladlarına Azərbaycan dilindən dərs deyib. Müəllimliyi xalqı üçün daha faydalı sayıb…

Əhməd Cavadı tanıyanların, onun haqqında yazanların hamısının fikri belədir: Əhməd Cavad azadlıq carçısıdır. Yəni vətənimizin azadlığını və müstəqilliyini hər şeydən uca tutub, bu barədə çoxlu əsərlər yazıb.

1918-ci ildə ölkəmizdə milli dövlətin yaranmasını şair böyük sevinclə qarşıladı. Üçrəngli bayrağımız, azad vətənimiz və xalqımız haqqında bir-birindən gözəl şeirlər yaratdı. Milli himnimizin sözlərini yazdı. Bütün bunlar milli dövlətimizi yıxıb yerində qurulan sovet hökumətinin gözündən yayınmadı. Əhməd Cavadı həbs etdilər, günahsız şairə əzab verdilər və 1937-ci ildə güllələdilər.

■**Tapşırıq.** *Mirzə Fətəli Axundov haqqında məlumatı öyrənin.*

Mirzə Fətəli Axundov
(1812-1878)

XIX əsr Azərbaycan mədəniyyətinin ən böyük nümayəndəsidir. Fəaliyyəti, yaradıcılığı çoxşaxəli, çoxcəhətlidir.

M.F.Axundov şairdir. Yaradıcılığa şeirlə başlamış və şeir yaradıcılığını həmişə davam etdirmişdir. Ən görkəmli poetik əsəri «A.S.Puşkinin ölümü haqqında Şərq poeması»dır. Bu poemanı 1837-ci ildə yazmışdır. Poema bu sözlərlə bitir:

Get, əziz şairim, ey dərdə salan dünyanı,
Sənə gül göndərəcək Baxçasaray fantanı!
Ey Səbuhi, qoca Qafqazda bitən gülləri dər,
Gülləri şerinə qat, Puşkinə göndər, göndər!

Mirzə Fələli dramaturqdur. 1850-55-ci illər arasında yazdığı altı komediyası ilə Azərbaycan ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur.

M.F.Axundov naşirdir. 1857-ci ildə yazdığı «Aldanmış kəvakib» povesti ilə Azərbaycan ədəbiyyatında realist nəsrin əsasını qoymuşdur.

M.F.Axundov filosofdur. Onun «Kəmalüddövlə məktubları» hələ də qiymətini itirməyən ciddi fəlsəfi traktatdır.

M.F.Axundov dilçidir. Ayrı-ayrı məqalələrində ümumən dil, ayrı-ayrı dillər, əlifba, imla, lüğət, qrammatika, bədii dil, tərcümə dili və s. haqqında qiymətli fikirlər irəli sürmüşdür. Ərəb əlifbasını islah etmək, bu əlifbanı latın qrafikalı yeni əlifba ilə əvəz etmək üçün çox çalışmış, yeni əlifba layihələri tərtib etmişdir.

M.F.Axundov güclü qələmə malik publisistdir. Məqalə və məktublarında ədəbiyyatın, ictimai həyatın çox mühüm problemlərinə toxunur, münasibət bildirir, yol göstərir.

M.F.Axundov tənqidçidir. Məqalələrində dövrün ədəbi mühitinə müdaxilə edir, onun tənqidini və təhlilini verir.

M.F.Axundov ədəbiyyatşünasdır. Ədəbiyyat tariximizə nəzər salır, yazıçıların yaradıcılığına münasibətini bildirir, təhlil və tədqiq edir.

M.F.Axundov ictimai xadimdir. Dövlət idarələrində işləyirdi. Lakin bu işdə də xalqa xidməti əsas vəzifə hesab edirdi.

M.F.Axundov Azərbaycan ədəbiyyatı tarixinə yenilikçi, novator bir sənətkar kimi daxil olmuşdur. Milli dramaturgiyanın yeni realist bədii nəsrinin yaranması bu böyük sənətkarın adı ilə bağlıdır. Məhz buna görə də, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi Mirzə Fətəli dövru kimi məşhurdur. XIX əsr Azərbaycan ədəbiyyatı tarixində xalqın ictimai və ədəbi-mədəni həyatında M.F.Axundov qədər müstəsna rol oynayan ikinci bir böyük sənətkar yoxdur. M.F.Axundov milli ədəbiyyatımızda, eyni zamanda fəlsəfi publisistikanın («Kəmalüddövlə məktubları») və ədəbi tənqidin görkəmli nümayəndəsi kimi də tanınır. Azərbaycanda milli teatrın yaranması və inkişafı da bilavasitə Axundovun adı ilə bağlıdır. M.F.Axundzadə yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı yeni ideyalarla, yeni insan xarakterləri və orijinal bədii surətlərlə zənginləşir. Bütövlükdə M.F.Axundovun yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələni təşkil edir.

2. Yer zərfliyi hərəkətin icra yerini **bildirir** və **haraya?, harada?, haradan?** nadir hallarda **haranı?** suallarına cavab verir.

Обстоятельство места выражает место совершения действия и отвечает на вопросы: **haraya?, harada?, haradan?** И редко **haranı?**

Məsələn: Toğrul qalın kirpiklərini aşağı endirdi (Ə.Vəliyev). Yaxşı, Şahbaz kiminlə xaricə gedir? (M.F.Axundov). Həlimə, get Şölə xanımın otağına (M.F.Axundov). Mən hamısını orada açıq deyəcəyəm

(C.Cabbarlı). Ağaclardan buz sallanıb lülə-lülə (R.Rza). Həkimlə Tərlanın dayandığı yerdən aşağı ilə bir atlı gedirdi (M.Hüseyn).

■**Tapşırıq.** *Tərkibində yer zərfliyi işlənən beş cümlə yazın.*

3. Zaman zərfliyi bərəkətin icra zamanını bildirir və **nə vaxt?, nə zaman? haçan?** suallarına çayab verir.

Обстоятельство времени указывает на время совершения действия и отвечает на вопросы **nə vaxt?, nə zaman?, haçan?**

Məsələn: İşi bərkə düşəndə başını qaşıyaraq düşünür (C.Cabbarlı). Məşədi bəydən ayrılanı qaş-qabağı açılmırdı (H.Mehdi). O vaxt bütün qaranlıqlar əriyəcək başdan-başa, ömür abad olacaqdır, könül mülkü bir tamaşa (S.Vurğun). Axı o, dünyada gəzdiyi zamandan xoş bir gün görməmişdi (M.İbrahimov).

■**Tapşırıq.** *Tərkibində zaman zərfliyi işlənən beş cümlə yazın.*

■**Tapşırıq.** *N.Nərimanov haqqında məlumatı öyrənin.*

Nəriman Nərimanov
(1870-1925)

N.Nərimanovun fəaliyyət dairəsi çox geniş olmuşdur. O, insanlara həm həkim, müəllim, yazıçı, alim kimi, həm də böyük inqilabçı və ictimai xadim kimi xidmət etmişdir. Bakıda ilk kütləvi qiraətxana açmış, rus və Azərbaycan dillərinə aid dərsliklər hazırlamış, ədəbiyyata və dilçiliyə aid çoxlu məqalələr, əsərlər yazmışdır. Onun çoxlu bədii əsərləri - hekayələri, romanı və pyesləri var.

N.Nərimanov Qori müəllimlər seminariyasını, sonra isə Odessa Universitetinin tibb fakültəsini bitirmişdir. Ali məktəbdə oxuyarkən inqilabi fəaliyyətə başlayır, tələbələrin tətillərinə rəhbərlik edir. Universiteti bitirdikdən sonra həkim kimi Bakıya dəvət olunur. 1907-ci ildə partiyanın tapşırığı ilə Tiflisə gedərkən tutulub Metex qalasına salınır. Həbs müddətini çəkdikdən sonra yenə Bakıya qayıdır.

1918-ci ildə Bakıda Xalq Komissarları Soveti yaranandan sonra N.Nərimanov şəhər təsərrüfatı komissarı vəzifəsində çalışır. 1919-cu ildə V.İ.Leninin təklifi ilə Xalq Xarici İşlər Komissarlığının Şərq şöbəsinin müdiri, sonra isə Xalq Milli Komissarının müavini vəzifəsinə təyin edilir.

1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin və Azərbaycan Xalq Komissarları Sovetinın sədri vəzifəsinə seçilir. Bakıda Şərq xalqlarının,

Azərbaycan qadınları qurultaylarının çağrılması, qadınlar klubunun təşkili, yeni əlifba tədbirləri və s. onun adı ilə bağlıdır.

N.Nərimanov sonralar Zaqafqaziya Sovet Respublikaları İttifaqının sədri, 1922-ci ildən SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilir və ömrünün sonuna qədər bu vəzifədə çalışır.

1925-ci ildə Moskvada Nərimanovun ədəbi və ictimai fəaliyyətinin 30 illiyi münasibəti ilə xatirə gecəsi keçirilir. Gecədə müxtəlif respublika, vilayət və şəhərlərdən çoxlu nümayəndələr iştirak edirdi.

N.Nərimanov 1925-ci ilin mart ayında qəflətən vəfat etmişdir. "Azad olunan Şərqin rəmzi" olan Nərimanovun vəfatı münasibətilə dəfn günü kinoteatrlar, teatrlar işləməmiş, müəssisələr işlərini dayandırmış, bayraqlar beş dəqiqəliyə endirilmişdi.

O, Moskvada Kreml divarları yanında dəfn edilmişdir.

4. Kəmiyyət zərfliyi hərəkətin və ya əlamətin kəmiyyətini bildirir və **nə qədər?** sualına cavab verir.

Обстоятельство меры выражает количественную характеристику действия или признака и отвечает на вопросы **nə qədər?**

Məsələn: Arazın bu sözləri Günəşi lap çox maraqlandırırdı (A.Şaiq). O, rəfiqələrinin içərisində çox gözəl sayılırdı (S.Rəhman). Üç saata qədər gəmi sahildə qaldı (Ə.Haqverdiyev).

Zərfliyin ifadə vasitələri

1. Zərflə: Yaxşı deyil, bəri gəl (H.Mehdi). Dünən dövran sürən bu gün can verir (S.Vurğun). Gülyaz qaşlarını çatıb, qara gözlərini irəliyə zillədi (H.Mehdi). Mehriban xala şirin-şirin söhbət edirdi.

2. Feli bağlama ilə: Bülbül öpə-öpə oyatsın gülü (S.Vurğun). Əsgər sağa-sola yırğalanaraq düşünürdü (Mir Cəlal).

3. İsimlə:

Keç bu dağdan, bu arandan,
Astaradan, Lənkərandan,
Afrikadan, Hindistandan,
Qonaq gəlir bizə quşlar
S.Vurğun

4. Məsdərlə: Vasya ilə Anjelika dəstənin yaxınlaşmasını gözləmək üçün qüllənin daş məhəccəri üzərində oturdular (İ.Qasımov, H.Seyid-

bəyli). O, Vasyanın Mehdidən nə ilə fərqləndiyini təyin etmək üçün onu xeyli süzdü (İ.Qasımov, H.Seyidbəyli).

5. Feli sifətlə: Təhqir olduğu üçün daha da qəzəblənmişdi (H.Mehdi). Oğlum, həm öz qoca ananı və həm də xalqını sevindirdiyin üçün sağ ol («Kommunist» qəzeti).

6. Əvəzliklə: Axşam elçilər bizə gəldi. Hamı sizin kimi düşünsəydi, dünya abad olardı.

7. Söz birləşmələri ilə: Həmişə get Şölə xanımın otağına (M.F.Axundov). Onlar artıq çoxdan boşalmış və sakitləşmiş, Tehran küçələrində susaraq gedirdilər (M.İbrahimov).

■**Tapşırıq.** *Mətni köçürün. Zərfliklərin altından xətt çəkin.*

Əvvəlcə onun çatma qaşları, sonra kimisə xatırladan tanış səsi müəllimi diksindirdi. Qələmi yerə qoyub biletin suallarına cavab verməyə hazırlaşan tələbənin üzünə diqqətlə baxdı. Deyəsən, hiss etmişdi ki, müəllim həyəcanlanmışdı, nəyisə xatırlamağa çalışır, amma yadına hec nə sala bilmir.

Uşaq özünü toxtatdı. Dilinin ucuna gələn sözləri demədi. Sifətindəki ifadə dəyişdi. Ciddiləşdi və suallara cavab verməyə başladı. Onun səsindəki oxşarlıq müəllimin fıkrini dağıtdı, nə qədər çalışsa da diqqətini cəmləşdirib bir yerə mərkəzləşdirə bilmədi. Xəyalı harayasa, lap uzaqlara getdi. Gözü cavab verənin üzünə zillənsə də, onun dediklərini eşitmirdi. Bircə onu görürdü ki, uşağın dodaqları tərpənir, fıkrini izah etdikcə əl-qolunu oynadır (İ.Şıxlı).

■**Tapşırıq.** *Mətnin məzmununu öyrənin.*

Şəmsəddin Eldəgiz

Azərbaycanın görkəmli dövlət başçılarından biri də hökmdar Şəmsəddın Eldəgiz olmuşdur.

Səlcuq sultanının vəziri Sümeyrəm qul alverçisindən 40 qul alır. O zaman belə bir qayda var idi ki, 39 qulun pulunu alıb axırıncı qulu pulsuz verirdilər. Qul satan qulların arasında olan arıq, balaca və xəstə bir qulu vəzirə verir.

1122-ci ildə həmin vəziri Həmədan şəhərində öldürürlər. Qaydaya görə vəzirin bütün var-dövləti və 40 qulu sultanın ixtıyarına keçir. Həmin 40-cı qul (Şəmsəddin Eldəgiz) öz diribaşlığı, ağlı və bacarığı ilə başqa qullardan seçildiyi üçün onu sultan mətbəxinin başçısı təyin edirlər.

1132-ci ildə Sultan Mahmud vəfat etdi. Onun yerinə gələn sultan II Toğrul 40-cı qulu (Şəmsəddin Eldəgiz) öz məmlükləri (əsgərləri) sırasına

qəbul edir, ona torpaq payı verir. Şəmsəddin Eldəgiz sultanın həyat yoldaşı Mömünə xatunun da hörmətini qazanır. Bunun nəticəsində əmir rütbəsi alır. O, sultanın oğlu Arslanın tərbiyəçisi (atabəyli) təyin edilir. 10-15 il bundan qabaq heç kəs inanmazdı ki, arıq və xəstə bir qul bu dərəcəyə yüksələcək və Azərbaycanı idarə edən Eldəgizlər sülaləsinin banisi olacaq.

1335-ci ildə II Toğrul ölür. Hakimiyyətə gələn sultan Məsud Şəmsəddin Eldəgizi Mömünə xatunla evləndirir. Aranı-Şimali Azərbaycanı da onlara verir. Atabəy Şəmsəddin Eldəgiz Bərdəyə gəlir. Aranda olan əmirləri öz tərəfinə çəkir. 1160-cı ilə qədər Şimali Azərbaycanda hakimlik edir. Həmin müddətdə Şəmsəddin Eldəgizin iki oğlu olur: Məhəmməd Cahan pəhləvan və Qızıl Arslan.

1160-cı ildə Həmədanda sultan Məsudu öldürürlər. Sonra Həmədan əmirləri Şəmsəddin Eldəgizi və II Toğrulun oğlu taxt-tac varisi Arslan şahı Həmədana çağırırlar. Onlar Həmədana gəlir və Arslan sultan taxtında əyləşir. Arslanın sultan taxtında oturmasına baxmayaraq dövləti Şəmsəddin Eldəgiz idarə edir.

O dövrdə Səlcuq dövlətinin iki əsas düşməni vardı. Biri gürcü çarlığı, ikincisi Xarəzmşah dövləti. 1160-75-ci illər ərzində gürcülər dörd dəfə Azərbaycana hücum etmiş, şəhərlərimizi çapıb-talamış, qırğınlar törətmiş, axırda açıq döyüşdə məğlub olmuşlar. Həmin illərdə Atabəy Eldəgiz ermənilərə arxa durmuş, həmişə onları müdafiə etmişdir. Ermənilər həmişə azərbaycanlıların himayəsi altında yaşamış, özlərinə firavan həyat qurmuşlar. Bu gün isə ermənilər həqiqəti danıb torpaqlarımıza sahib çıxmaq istəyirlər.

Atabəy – Səlcuq dövlətinin ikinci düşməni olan Xarəzmşah dövləti arasında 1169-cu ildə böyük müharibə oldu. Bu müharibədə Şəmsəddin Eldəgiz qalib gəlib.

100 ilə qədər ömrü olmuş Azərbaycan Atabəylər dövlətinin əsasını qoymuş Böyük Atabəy 1175-ci ilin noyabr ayında vəfat etmişdir.

Atabəy ömrü boyu çalışmış, Azərbaycanın cənub və şimal torpaqlarını birləşdirib qüdrətli Azərbaycan dövləti yaratmışdı. Onun vəfatından sonra Eldəgizlər sülaləsi 1225-ci ilə qədər, yəni monqol hücumuna qədər davam etmişdir.

Azərbaycan – Atabəylər dövlətinin əsasını qoymuş 40-cı qul Şəmsəddin Eldəgiz türk olmuş, onun damarlarından türk qanı axmışdı. Hansısa namərdin varlanmaq istəyi nəticəsində qul kimi bazara çıxarılan türk oğlu Şəmsəddin Eldəgiz yenidən türk mərdliyi, türk cəsarəti və türk ağlı nəticəsində öz yerini tutmuş, Azərbaycan türk dövlətini yenidən möhkəmlətmişdı. Burada türk xalqlarının gözəl misrası yada düşür.

«Ot kökü üstə bitər».
«Ununda olan, urvasında bildirər».
«Çətini türk ata minənəcəndir».

CÜMLƏNİN HƏMCİNS ÜZVLƏRİ (ОДНОРОДНЫЕ ЧЛЕНИ ПРЕДЛОЖЕНИЯ)

Aşağıdakı tələblərə cavab verən üzvlər həmcins hesab edilir:

1. Həmcins üzvlər sintaktik baxımdan eynicinsli olmalıdır.
2. həmcins üzvlər bir-biri ilə tabesizlik əlaqəsində olur.
3. Həmcins üzvlər ya tabesizlik bağlayıcıları, ya da intonasiya ilə bağlanır.
4. Həmcins üzvlər bir cümlə üzvü ilə əlaqədar olur.
5. Həmcins üzvlər eyni bir suala cavab verir.
6. Həmcins üzvlər sadalama intonasiyası ilə tələffüz olunur.
7. Cümlənin bütün üzvləri həmcins ola bilər.

Однородные члены предложения отвечают следующим критериям:
1. Однородные члены предложения синтактически однородны.
2. Однородные члены предложения связываются друг с другом сочинительной связью.
3. Связь между однородными членами предложения выражается или сочинительными союзами, или интонацией.
4. Однородные члены предложения относятся к одному и тому же члену предложения.
5. Однородные члены предложения отвечают на один и тот же вопрос.
6. Однородные члены предложения произносятся интонацией перечисления.
7. Все члены предложения могут быть однородными.

Məsələn:
a) həmcins mübtədalar: Yaşar, Oqtay, Baxşı sükut içində dayandılar (S.Rəhman). Sən, azad ilhamım, nə bəxtiyarsan! Taleyim, hünərim güvənir sənə (S.Vurğun). Nə Puşkin, nə Nizami, nə Şevçenko, Bədbin gözlə baxmadı gələcək xoş həyata (S.Rüstəm).
b) həmcins xəbərlər: Atlar, öküzlər kotana güc vurur, gah yeriyir, gah yıxılır, gah durur (Sabir). Canlıcadır, zorbacadır baldırım, Sındıra bilməz onu heç ildırım (Sabir).
c) həmcins tamamlıqlar: Qoca oturanları yaxşılığa, mülayimliyə, dostluğa, qardaşlığa çağırır (M.İbrahimov). Hümmət kimin Qarabağ

səfəri üçün hazırlaşmaqla Bakı komitəsinə dəyməyi, komitəni mütləq xəbərdar etməyi lazım bilirdi (S.Rəhimov).

ç) həmcins təyinlər: Ağaclar yetişmiş sarı, dolu, şirin armudu ehmalca yerə buraxırdı (Mir Cəlal). Bir az yuxarıda, az qala torpaqdan üzülmüş, üstünü xəzəl başmış, lakin nazik budaqlarını göyə uzadan, yaşamaq istəyən sısqa kollar görünür (Mir Cəlal).

d) həmcins zərfliklər: Adi sözlər Mayanın dodaqlarından xüsusi bir gözəlliklə, ruhu oxşayan və ürəyi yumşaldan bir ahənglə çıxırdı (M.İbrahimov).

Keç bu dağdan, bu arandan,
Afrikadan, Hindistandan
Qonaq gəlir bizə quşlar.
S.Vurğun

Nə sabah, nə birisi gün o mənzərə təkrar olmayacaqdır (M.İbrahimov).

Bir cümlədə bir neçə həmcins üzv cərgəsi ola bilər (В одном предложении может быть несколько рядов однородных членов предложения).

HƏMCİNS ÜZVLƏRDƏ ÜMUMİLƏŞDİRİCİ SÖZLƏR (ОБОБЩАЮЩИЕ СЛОВА ПРИ ОДНОРОДНЫХ ЧЛЕНОВ)

Bəzən cümlələrdə elə sözlər işlənir ki, bunlar cümlənin bütün həmcins üzvlərinə aid olur, mənaca onların hamısını əhatə edir, ümumiləşdirir.

Иногда в предложении употребляются такие слова, которые относятся ко всем однородным членам предложения, по значению охватывают их всех, обобщают их.

Məsələn: uşaqlar da, yaşlılar da, gənclər də, kişilər də, qadınlar da ona hörmət edirdi.

■**Tapşırıq.** *Hər həmcins cümlə üzvünə aid cümlə yazın.*

■**Tapşırıq.** *Şeri köçürün. Həmcins mübtədaların altından bir, xəbərlərin altından iki, tamamlıqların altından qırıq-qırıq, təyinlərin altından dalğalı, zərfliklərin altından düz* və *dalğalı xətt çəkin. Şeri əzbərləyin.*

S.Vurğun

Ürək

Bir incik dost kimi gileylənərək,
Bir axşam dil açdı sinəmdə ürək;
İyirmi ildir ki, qələm çalırsan,
Yerdən də, göydən də ilham alırsan;
Başında rəqs edir od da, şimşək də,
Şeirinə ruh verir gül də, çiçək də;
Baxıb təbiətin min nemətinə,
Dağlardan tökülən şəffaf sulara,
Dalğın xəyallara, saf duyğulara,
İnsan qayğısına, qəmə, möhnətə,
Şərəfə, izzətə, eşqə, hörmətə,
Min bir xatirənin sirli səsinə,
Keçən tarixlərin faciəsinə,
Gələcək günlərə şeir demisən,
Dövran da sürmüsən, qəm də yemisən.
Bir söylə, şairim, söylə bir görək,
Gecə də, gündüz də hey döyünərək
Ömründə rahatlıq görmədən bir an
Köksün qəfəsində dustaq yaşayan,
Dünyada gözünə yuxu gəlməyən,
Bircə an dayanıb heç dincəlməyən,
Sənin bədəninə qızıl qan verən,
Şair varlığına həyəcan verən,
Vəfalı bir dostu unutdunmu sən?

İKİNCİ DƏRƏCƏLİ ÜZVLƏRİN XÜSUSİLƏŞMƏSİ (ОБОСОБЛЕНИЕ ВТОРОСТЕПЕННЫХ ЧЛЕНОВ ПРЕДЛОЖЕНИЯ)

Cümlədə ikinci dərəcəli üzvlərin (tamamlıq və zərflik) məna və informasiyaca nisbi müstəqillik kəsb etməsinə **xüsusiləşmə** deyilir.

Смысловые и интонационное выделение и овладение относительной самостоятельности второстепенных членов (дополнения и обстоятельства) предложения называется обособлением.

Məsələn:

1. Tamamlığın xüsusiləşməsi (обособление дополнения)

Fars, ingilis və firəng dillərindən əlavə Azərbaycan və erməni dillərini də mükəmməl bilirdi (M.İbrahimov). Pəncərədə titrəşən kölgələrdən başqa, seminariyanın binasında canlılıq əlaməti yox idi (İ.Şıxlı).

2. Zərfliyin xüsusiləşməsi (обособление обстоятельства).

Usta, Fərmanı dinləməyə lüzum görmədən, onu dülgərlər briqadasına göndərdi (Ə.Sadıq). Dəmirov iti nəzərlərlə otaqdakıları nəzərdən keçirdi və həmişə yığıncaqlardan fərqli olaraq özü birinci danışmağa başladı (Ə.Sadıx). Burada yüngül iş olmadığı kimi, ağır və çətin iş də yoxdur (Ə.Vəliyev). Mehman düşündüyü zaman katibə xala əlini yavaşça Mehmanın çiyninə qoydu (S.Rəhimov). O, bu xəbəri gətirdiyi üçün özünü dünyanın ən bədbəxt insanı sayırdı (H.Mehdi).

■**Tapsırıq.** *İkinci dərəcəli üzvlərin xüsusiləşməsinə aid beş cümlə yazın.*

QRAMMATİK CƏHƏTDƏN CÜMLƏ ÜZVLƏRİ İLƏ ƏLAQƏDAR OLMAYAN SÖZLƏR
(СЛОВА ГРАММАТИЧЕСКИ НЕ СВЯЗАННЫЕ С ЧЛЕНАМИ ПРЕДЛОЖЕНИЯ)

XİTAB
(ОБРАЩЕНИЕ)

Xitab müraciət olunanı bildirir, adlıq halda olan isim, substantivləşmiş başqa nitq hissələri və söz birləşmələri ilə ifadə olunur. Xitab şəkilcə üçüncü, məzmunca ikinci şəxsi göstərir.

Обращение обозначает лицо, к которому обращается речь, выражается существительным, другими субстантивированными частями речи и словосочетаниями в именительном падеже. Обращение имеет форму третьего лица, по значению выражает второе лицо.

Məsələn: qardaşlar, narahat olmayın, bu adam həmin söylədiyim Mirzə Rzadır (C.Cabbarlı). Qardaş oğlu! Hansı obadansan, səhərin gözü açılmamış haradan gəlib, haraya gedirsən (Ə.Vəliyev). Dünyada ləl var, kaşı var, dəniz! Hər adamın neçə yaşı var, dəniz! Könül dediklərin bir dəryadır ki, onun da incisi var, qaşı var dəniz! (M.Rahim).

Xitab ikinci şəxsin tək və cəm şəxs əvəzliyi ilə də ifadə oluna bilər (Обращение может выражено и личным местоимением второго лица единственного и множественного числа).

Məsələn: Siz, ey Avropanın cahangirləri, tarixin məhvərı dönəndən bəri quldur paltarına büründünüz siz (S.Vurğun). Sən, ey obanın ən gözəl qızı, çələng hör saçına lalə, nərgizi.

Xitabdan bədii dildə ifadəliliyi və emosionallığı artırmaq üçün istifadə olunur (Обращение используется для повышения выразительности и эмоциальности в художественной речи).

Məsələn: Moskva, basılmaz sənin qüdrətin, canlı beşiyisən əbədiyyətin (S.Vurğun). Bəsti, qələm çəkdik o günlərə biz (S.Vurğun). Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan! (S.Vurğun). Xəzər, Xəzər, fırtınalı dəli Xəzər. Neçə yelkən qərq etmiş, neçə qayıq (S.Vurğun). Ölüm, Ölüm! De qarşında kimin rəngi saralmamış (S.Vurğun). Bakı, Bakı, gözəl diyar! Qəhrəmanlıq şöhrətin var (S.Vurğun). Ah, mehriban ana! Ah, əziz ana! O gündən bəridir həsrətim sana (S.Vurğun).

Xitab cümlədə bütün mövqelərdə (əvvəldə, ortada, sonda) işlənə bilir.

Обращение в предложении употребляется во всех позициях. Məsələn,

Zaman, belə tələsmə,
Zaman, mənə zaman ver.
(B.Vahabzadə)

Tapşırıq. *Şeri əzbərləyin.*

S.Vurğun

Şair, nə tez qocaldın sən!

Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir.
Omrü keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal...
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:
Şair, nə tez qocaldın sən!

Ovçuluğa meyil saldım,
Gecə-gündüz çöldə qaldım.
Dağ başından enib düzə,
Bir ox kimi süzə-süzə
Neçə ceyran nişan aldım;
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən!

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə.
Andı yalan, eşqi yalan,
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvari deyir hərdən:
Şair, nə tez qocaldın sən!

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, amma nə qəm!
Əlimdədir hələ qələm...
Bilirəm ki, deməyəcək
Bir sevgilim, bir də Vətən:
Şair, nə tez qocaldın sən!

■**Tapşırıq.** *Şeri dəftərinizə köcürün, xitabların altından xətt çəkin. Seri əzbərləyin.*

Məmməd Araz

Salamat qal

Ey dəvə yal, düşdüm daha belindən,
Ovsar cığır, çıxdın daha əlimdən,
Balam çiçək, bir də öpüm telindən,
Salamat qal,
Salamat!
Duz axtaran körpə cüyür balası,
Ağ daşlara körpə cığır salası...
Qayaların su saxlayan çalası,
Salamat qal,
Salamat!

İldırımlar buludların pələngi,
Paslanacaq mənsiz şimşək üzəngim.
Ey, ya qismət, a Şələləm, a cəngim,
Salamat qal,
Salamat!

Bulaq gördüm- uşaq kimi ərköyün,
Məni gəzər məndən qaçan ürkəyim.
Salamat qal bu bağlarda, ürəyim.
Salamat qal,
Salamat!

■**Tapşırıq.** *Şeri sinifdə ucadan oxuyun.*

Əlvida, dağlar!

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman salamat qal, dağ, salamat qal!
Dalımca su səpir yoxsa buludlar?
Leysan, salamat qal, yağ, salamat qal!

Qıy vuran qartallar yox oldu çəndə,
Nərgizlər saraldı şehli çəməndə.
Ey qaragöz pəri, dalımca sən də,
Boylan, salamat qal, bax, salamal qal!

Gəldim, qarşıladı güllər-çiçəklər,
Gedirəm, əl edir boz biçənəklər.
Nidamı çaylara dedi küləklər:
Bulaq, salamat qal, arx, salamat qal...

Dağların pələngi, şiri də sənsən,
Şairi də sənsən, şeri də sənsən;
Barı, bərəkəti, xeyri də sənsən,
Çoban salamat qal, sağ-salamat qal...

ARA SÖZLƏR
(ВВОДНЫЕ СЛОВА)

Ara sözlər danışanın fikrə münasibətini və fikrin ifadə tərzini göstərir, cümlə üzvlərindən şifahi nitqdə fasilə və xüsusi informasiya ilə, yazıda isə vergüllə ayrılır.

Вводные слова выражают отношение к мысли и способу ее выражения, выделяются от членов предложения в речи паузной и особой интонацией, на письме запятой.

Məsələn: İki partizanın şahidliyi, əlbəttə, ona kömək edə bilər (Ə.Əbülhəsən). Bəlkə kənardan elə görünür (M.İbrahimov). Qəribədir, iki həflənin ərzində üçüncü dəfədir ki, Kərim bu buruğa gəlir (M.İbrahimov). Kim bilir, o əyriburun Qəmər yazıq qızın başına nə oyun açacaq (A.Şaiq).

Ara sözlər əsas nitq hissələrindən törəmişdir. İndi onların bir qismi leksik mənasını itirmiş, təkcə ara söz kimi işlənir, bir qismi isə həm öz leksik mənasında, həm də ara söz kimi işlənir.

Вводные слова происходят от основных частей речи. Теперь части из них, теряя свои лексические значения, употребляется только как вводное слово, а часть употребляется и в своем лексическом значении, и как вводное слово.

Morfoloji baxımdan ara sözlər ismi və feli deyə iki qrupa bölünür. (Морфологические вводные слова делятся на именные и глагольные).

İsmi ara sözlər mənşəcə isim, sifət, say, əvəzlik və zərflə əlaqədar olur (Именные слова по происхождению связанные с существительными, прилагательными, числительными, местоимениями и наречиями).

Məsələn:

a) təəssüf, adətə görə, xoşbəxtlikdən, məlumata görə və s.

b) təbii kı, düzü, doğrusu, aydındır ki, və s.

c) əvvələn, birinci, ikinci, saniyə və s.

ç) məncə, səncə, bizcə, sizcə və s.

d) əlbəttə, həqiqətən, hərfən, adətən və s.

İsmi ara sözlərin bir qismi qoşmalarla, bir qismi tək, bir qismi həm bağlayıcılı, həm də bağlayıcısız işlənir (Часть вводных слов употребляется самостоятельно, часть с послелогами, часть с союзом, а часть без союза).

Feli ara sözlər mənşəcə fellə bağlı olur. Onlar felin xəbər (deyirlər, deyirəm), əmr (tulaq ki, fərz edək ki), vacib (deməli) şəkilləri, məsdər ilə (demək) ifadə edilir.

Глагольные вводные слова по происхождению связаны с глаголом, они выражаются изъявительным (deyirlər, deyirəm), повелительным (tutaq ki, fərz edək ki), объязательным (deməli) наклонениями глагола и инфинитивом.

Azərbaycan dilində ara sözlərlə yanaşı həmin vəzifədə ara birləşmələr və ara cümlələr də işlənilir.

Наряду с вводными словами в азербайджанском языке в той же функции употребляются и вводные словосочетания, и вводные предложения.

Məsələn: mənim fıkrimcə, mənə belə gəlir ki, hər şeydən əvvəl, elə bilirəm ki, bununla yanaşı və s.

SADƏ CÜMLƏ
(ПРОСТОЕ ПРЕДЛОЖЕНИЕ)

Cümlənin məqsəd və intonasiyaya görə növləri.

(Виды предложения по цели и интонации).

Məqsəd və intonasiyaya görə cümlənin dörd növü vardır (по цели и интонации предложения имеют четыре вида):

1. Nəqli cümlə (повествовательное предложение).
2. Sual cümləsi (вопросительное предложение).
3. Əmr cümləsi (побудительное предложение).
4. Nida cümləsi (восклицательное предложение).

NƏQLİ CÜMLƏ
(ПОВЕСТВОВАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ)

Nəqli cümlələrdə müəyyən iş, hadisə, hal, vəziyyət və s. haqqında məlumat verilir (в повествовательных предложениях сообщается о каком-то событии, явлении, факте и др).

Məsələn: MTS İnci kəndində iki kilometrlik bir məsafədə dörd tərəfi hasarlı, geniş həyəti olan bir yerdə idi (S.Rəhimov). Duman ətrafı bürümüş, göz-gözü görmürdü (Y.V.Çəmənzəminli). Qayıqlar, gəmilər üzməyə çıxdı. Uzaqdan özünə çəkib hər kəsi (H.Arif). Gülqız bir qədər duruxdu, sonra düz gözümün içinə baxdı (Ə.Vəliyev).

Nəqli cümlələr adi tonla tələffüz edilir: cümlənin əvvəli yüksək, sonu aşağı tonla deyilir.

Повествовательные предложения произносятся обычным тоном, к концу предложения тон понижается.

Felin bütün növ, şəkil (əmr şəklindən başqa) və zamanları, məsdər, feli sifət, isim, sifət, say, əvəzlik, zərf, söz birləşmələri, hətta qoşmalı birləşmələr nəqli cümlənin xəbəri kimi işlənir.

Все залоги, наклонения (кроме повелительного) и времена глагола, инфинитив, причастие, существительное, числительное, местоимение, наречие, словосочетания, даже послесложные сочетания могут употребляться как сказумое повествовательного предложения.

■**Tapşırıq.** *Nəqli cümləyə aid olan on cümlə yazın.*

■**Tapşırıq.** *Mətni köçürün, nəqli cümlələrin altından xətt çəkin.*

Bu xəbərdən Piri kişi məyus olub dedi:

- Həkim, öz balasını ölümdən xilas etmək üçün başqa bir balanı ölümə verən qadına nə deyərlər?

- Sus, qoca köpək, mənim qızımı bu qaraçı qızına taymı edirsən? – deyə Hüseynqulu ağa bağırdı.

Həkim onları sakit edib, gətirdiyi dərmanı Qaraca qıza içirtdi və kişiyə tapşırdı ki, bundan xəstəyə tez-tez versin.

- Baba, məyus olma, Qız çox sağlamdır. Ümidvaram ki, sağalar, - deyə həkım ağalar ilə bərabər getdi.

Piri baba daxmanın qapısını açıb Qaraca qızın başı tərəfində oturdu. Sonsuz qoca Qaraca qıza artıq dərəcədə məhəbbət bağlamışdı. Qaraca qız onun əski komasına yeni bir həyat, yeni bir şölə gətirmişdi. İndi o şölə sönür... Ona da səbəb tam uşaqlığından zülmünü çəkdiyi ağaları olmuşdu.

Qaraca qız qan ilə dolmuş gözlərini açdı, axır nəfəsində günəşin şəfəqinə bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu. Qaraca qız öldü!

-Daxmanın bülbülü uçub getdi, -deyə Piri baba göz yaşı tökdü.

(S.S.Axundov)

SUAL CÜMLƏSİ
(ВОПРОСИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ)

Bir məlumat almaq ücün işlədilən cümləyə sual cümləsi deyilir.

Предложение, употребляемое с целью получения сведений о чем-nibudğ называется вопросительным предложением.

Məsələn: Məhsulu boldurmu? (M.İbrahimov). Kim gəlmişdi bura? (M.Əlizadə). Bəs onda onlar harada ola, hara gedələr; (M.Əlizadə). Təkcə adına bax, gör yaxşımı ad seçmişəm? (S.Rəhman). Bəlkə Rasim Mədinəyə meyil etmiş və soyuq qarşılanmışdır? (M.İbrahimov). Nə üçün yaxın gəlim? Nə olubdur məgər? (N.Vəzirov).

Sual cümlələri müxtəlif vasitələrlə düzəlir (Вопросительные предложения образуются разными средствами)**.**

1. İntonasiya vasitəsilə düzələn sual cümlələri (вопросительные предложения образуются с помощью интонации)**.**

Məsələn: Tanıyırsan onu? (İ.Hüseynov). Bərpa dövrünün məktəbini bizə müvəffəqiyyət hesab edirsiniz? (Mir Cəlal). Yoxsa qısqanırdın? (İ.Əfəndiyev). Yəni elektriklə işlətmək mümkündür? (İ.Əfəndiyev). Mən cuvar ola bilmərəm? (İ.Əfəndiyev). Keçən gecə, deyəsən, bədxab olmuşdunuz? (İ.Əfəndiyev).

2. -mı, -mi, mu, -mü ədatı ilə düzələn sual cümlələri (вопросительные предложения образуются с помощью частиц - **mı, -mi, -mu, -mü**).

Məsələn: Unutmaq olarmı o zamanları? O şərəfli günlər unudularmı? (R.Rza). O gəncin qəlbini sənmi ovladın? İndi də o səni unutmamışdır (Z.Xəlil). Biz ayrılan zaman demişdin ki, sən bir də bu yerlərə gələcəkmisən? (S.Vurğun).

Sual intonasiyası və ədatla düzələn sual cümlələri bəli, xeyir, hə, yox kimi qısa cavablar tələb edir.

Вопросительные предложения, образуемые с помощью интонации требуют краткие ответы, типа bəli, xeyir, hə, yox .

Məsələn:

- Sən dərsə hazırsanmı? -Bəli.
- Siz qardaşsınız? -Yox.

3. Sual əvəzlikləri ilə düzələn sual cümlələri (Вопросительные предложения образуются с помощью вопросительных местоимений).

Məsələn: Mənim Sara bacım indi hardadır? İyirmi ildir ki, uzaqlardadır (S.Vurğun). Səni çağırırlar, niyə getmirsən? (Ə.Vəliyev). Nə üçün mən bu ilboyu mötədil əsən aran yelindən üz çevirib, tanımadığım, görmədiyim yerlərə üz cevirmək fikrindəyəm? (Ə.Vəliyev). Bu gecə niyə yatmırdın? (İ.Əfəndiyev). Bu gecə artırmanızda gəzən kim idi? (İ.Əfəndiyev).

Sual mənasını qüvvətləndirmək üçün sual cümlələrindəki bəs, axı, məgər ədatları da işlədilir.

Для усиления вопросительного значения в вопросительных предложениях употребляются частицы ki, bəs, axı, məgər.

Məsələn:

Sadıq, çalışaram, niyə çalışmaram ki? (S.Rəhman). Şeyda, necə qalım axı? (S.Rəhman). Nə olubdur məgər? (N.Vəzirov). Siz kimsiniz axı? (S.Rəhman). Bəs Aydın nələr düşünür? (S.Rəhimov). Daha bəs dəyirmək nə uçündür? (İ.Əfəndiyev).

Cavab tələb etməyən sual cümlələrinə ritorik sual cümlələrı deyilir.

Вопросительные предложения, не требующие ответа, называются риторическими.

Məsələn: Ayrılarmı könül candan? (S.Vurğun). Kim bilir neçədir dünyanın yaşı? (S.Vurğun). Bu cür gözəl ürəkaçıcı mənzərəyə, bu gündən-günə böyüyən və əzəmətli şəkil alan neft səltənətinə baxanda hansı cəbhələrdə gəzmiş əsgərin ürəyi fərəhlə dolmaz? (S.Rəhman). Kəklik, kəklik daşda nə gəzər? Qələm, qələm qaşda nə gəzər? Gözəl, göyçək yarı olanın ağlı, huşu başda nə gəzər? (Mahnı).

■**Tapşırıq 265.** *Sual cümlələrinin hər növünə aid üç cümlə yazın.*

■**Tapşırıq 266.** *Mətni köçürün. Sual cümlələrinin altından xətt çəkin.*

Camaat bir-birinin üzünə baxdı. Məşədi Kərim birdən yerindən qalxıb dedi:

- Ay camaat, Kərim ilə Misir sizin yanınızda öz bacıları Sərvinazı mənə vermədilər?

- Hamı bir səslə: Bəli, verdilər.

- Əvəzində də məndən bir çəpiş, bir qoyun və iki yüz manat da pul almadılar?

- Bəli aldılar.

- Mən də filan qədər xərc çəkib, həmin bu aşxanada sizə qonaqlıq vermədim?

- Bəli, verdin.

- Siz də mübarəkbad etmədiniz?

- Bəli, elədik.

- Bir nəfər də orada demədimi: ay Kərim kişi, meymuna oxşayırsan, yaşın altmışı keçib, evdə arvad-uşağın ola-ola qızı neynəyirsən?

- Bəli, dedi.

ƏMR CÜMLƏSİ
(ПОБУДИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ)

Əmr cümlələri əmr, xahiş, arzu, yalvarış, nəsihət və s. ifadə edir.

Побудительные предложения выражают: приказ, просьбы, желание, увещивание, правоучение и пр.

Məsələn:

1. Əmr bildirənlər (Выражающие приказ): Yoldaş, sən də danışma (C.Cabbarlı). Sus, ey külək, sus, ey tufan (Z.Xəlil). Gülverdi, yoldaş Bayram, yoldaş Aftil, dillənsənə (C.Cabbarlı). Tez olun, tez olun, tutun Eldarı (S.Vurğun). Mən səndən tələb edirəm, söylə uşaq kimdir (C.Cabbarlı).

2. İstək, arzu bildirənlər (Выражающие желание):

Gəl, gəl a yaz günləri.
İlin əziz günləri (Sabir).
Gün o gün olsun ki, qurtarsın dava,
Dağılsın buludlar, açılsın hava.
Alınsın düşməndən intiqam, qisas,
Torpaq nəfəs alıb dincəlsin bir az (S.Rüstəm).

3. Xahiş bildirənlər (Выражающие просьбу): Əyləşin, əyləşin, bir az meyvə yeyək (M.Süleymanov). Qapı döyüldi. Giriniz, dedim (C.Cabbarlı). Mehdi, sən allah, evə çatan kimi atana deginən, mənim çeşməyimi göndərsin (Ə.Haqverdiyev). Zəhmət olmasa, gəl, onun başından, qıçından yapış, qoyaq yerə (Ə.Haqverdiyev).

4. Öyüd, nəsihət, təskinlik bildirənlər (Выражающие увещение, правоучение, утешение):

Darıxma oğlum, allah qoysa, bir neçə günə sağalıb duracaqsan və səni gəzməyə aparacağam (S.S.Axundov). Səbr elə, kişi, nahaq qan yerdə qalmaz (C.Cabbarlı). Öyrənin balalarım, bilin ki, o yoldaşlar sizin xoşbəxtliyinizdən ötrü qurban gediblər (H.Mehdi). Osmanlılar, aldanmayın, allahı sevərsiz (Sabir). Sən, Almaz xanım, heç qorxma (C.Cabbarlı).

5. Yalvarış bildirənlər (Выражающие мольбу):

Xandostu, amandı, qoyma gəldi (Sabir). Sevil, diz çöküb bir cocuq kimi yalvarıram, məni öldür, rədd etmə (C.Cabbarlı). Əl mənim, ətək sənin; əlimi kəs, ələyimi kəsmə (Atalar sözü). Balaş, oğlum, sən olasan o allahın, qoy mən gedim (C.Cabbarlı). Amanın günüdür, Sultan ağa, bizə rəhmin gəlsin (C.Cabbarlı).

Məni yalqız qoyub hara gedirsən?
Acı göz yaşıma, amandır, getmə.
Dərdli könlümdəki xoş arzuları,
Mübarək əlinlə oyandır, getmə.
S.Rüstəm

Misallardan göründüyü kimi, əmr cümlələrinin xəbəri, əsasən, felin əmr forması ilə ifadə olunur (как видно из примеров, сказуемое побудительных предложений выражается, в основном, повелительных наклонением глагола).

Əmr cümlələri məsdər və yarımçıq cümlə şəklində də ola bilər. (Побудительные предложения могут быть в форме инфинитивных и неполных предложениях).

Mənasından asılı olaraq, əmr cümlələri ya yüksək, ya da adi tonla deyilir.

В зависимости от значений побудительные предложения произносится или высоким, или обычным тоном.

■**Tapşırıq 267.** *Birinci, ikinci və üçüncü şəxslərin tək və cəminin hərəsinə aid bir cümlə (cəmi altı) yazın.*

■**Tapşırıq 268.** *Şeri köçürün. Əmr cümlələrinin altından xətt çəkin. Şeri əzbərləyin.*

S.Vurğun

Azərbaycan

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr...
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin!
Aranın, yaylağın sənin!

Keç bu dağdan, bu arandan,
Astaradan, Lənkərandan,
Afrikadan, Hindistandan,
Qonaq gəlir bizə quşlar,
Zülm əlindən qurtulmuşlar.

Bu yerlərdə limon sarı,
Əyir, salır budaqları;
Dağlarının düm ağ qarı,
Yaranmışdır qarlı qışdan,
Bir səngərdir yaranışdan.

Lənkəranın gülü rəng-rəng,
Yurdumuzun qızları tək,
Dəmlə çayı, tök ver içək,
Anamın dilbər gəlini!
Yadlara açma əlini.

Sarı sünbül bizim çörək,
Pambığımız çiçək-çiçək,
Hər üzümdən bir şirə çək,
Səhər-səhər acqarnına,
Qüvvət olsun qollarına.

Min Qazaxdan köhlən ata,
Yalmanına yata-yata,
At qan-tərə bata-bata,
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göygölə bax.

Ey azad gün, azad insan,
Doyunca iç bu bahardan!
Bizim xalı-xalçalardan,
Sər çinarlar kölgəsinə,
Alqış günəş ölkəsinə.

NİDA CÜMLƏSİ
(ВОСКЛИЦАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ)

Nəqli, sual və əmr cümlələrinin yüksək tonla, emosiya ilə tələffüzü nida cümləsi adlanır (Произношение повествовательных, вопросительных и побудительных предложений высоким тоном, эмоцией называется восклицательным предложением).

Məsələn: Sən nə yamansan a buz! Adam yıxansan a buz (Sabir). Of, nə iş tuturam? Yatmışammı mən, Gör bir nələr çıxdı mənim dilimdən (S.Vurğun). Ox, səndən sonra mən nələr çəkdim, nələr (C.Cabbarlı). Ah! Necə keyf çəkməli əyyam idi, Onda ki, övladi-vətən xam idi (Sabir). Eşitsin, bilsin hamı, Sən hamıdan gözəlsən, sevgilim! Sən hamıdan qəşəngsən, sevgilim! (R.Rza).

Nida cümlələri təəccüb, istehza, nifrət, qüssə, kədər, qəm, sevgi, qəzəb, şadlıq, mərhəmət, mehribanlıq və s. bildirə bilər.

Восклицательные предложения могут выражать удивление, страх, отвращение, восторг, иронию, сомнение, презрение, ужас, гнев, радость, приветливость, печаль, тоску, грусть, милость и пр.

Məsələn:

Vətən torpağının qəhrəman oğlu,
Sənin vicdanın da, qüdrətin də var!
S. Vurğun

Vəfasızın, müxənnətin,
Kor vicdanı dönsün daşa! (S.Vurğun).
Salam sənə bağban! Salam sənə böyük rəhbər!
S. Vurğun

Torpağa düşməsin havayı bir dən, -
Çörək bol olarsa, basılmaz Vətən!
S.Vurğun

Get, düşmənə aman vermə davada,
Batır suda, vur quruda, havada!
S. Vurğun

■**Tapşırıq 269.** *Nida cümləsinə aid beş misal yazın.*

■**Tapşırıq 270.** *Eyni bir cümləni mətn daxilində həm nəqli, həm sual, həm də nida cümləsi kimi işlədin.*

■**Tapsırıq 271.** *Şeri köçürün. Nida cümlələrinin altından xətt çəkin.*

Gəlin dostlar! Qələmdaşlar! Fərhad kimı külüng vuraq
Biz yaradaq dünyamızın qəhrəmanlıq dastanını!
Gələcəyin şərəfinə qoy indidən məclis quraq,
Sabah üçün alqışlayaq biz bugünün insanını!

Çiçək fəsli deyil indi! Barıt vardır havalarda...
Şair qəlbi xumarlanıb nazlanmasın sevda deyə.
Yurdumuzun taleyi var gedən qanlı davalarda,
Qan-tər tökək -«zəfər»-deyə, şöhrət olaq yerə, göyə!

Qəhrəmanlıq qanad verər şerin, sözün qüvvətinə,
Qoy hər sözün ciyərilə bir qəhrəman nəfəs alsın!
Alqış bizim ana yurdun şanlı həyat qüdrətinə!
Oğul gərək bu meydanda baş sındırıb, qələm çalsın.

Əfsanələr vaxtı deyil... hər sözün öz məqamı var,
Bəzən bizi uzaqlara aparmasın səyyar xəyal...
İnsan oğlu öz günüylə, öz dövrüylə şöhrət tapa,
Şair könlüm! Sən özün də bu sözlərdən bir ibrət al!

Zaman bizə bir anadır! Biz zamanın övladıyıq!
Mən həyatın bu hökmünü ömrüm boyu alqışladım!
Dastan yazın! - deyir ellər, bizsə sənət ustadıyıq!
Qoy var olsun sözlə hünər, gəlin dostlar! Mən başladım!

Tapşırıq. *Mətni köçürün. Cümlələrin məqsəd və intonasiyaya görə növlərini göstərin:*

Azərbaycan oğuzlarının tarixi

Azərbaycan oğuzlarının tarixi reputasiyasını həqiqətdə olduğu kimi bərpa etməkdən ötrü onlar haqqında yazılmış şübhəli, qərəzli və təəssübkeş mənbələrə deyil, ilk növbədə, bu xalqın özünün yaratdığı ölməz «Dədə Qorqud» kitabına müraciət etmək lazımdır.

Dədə Qorqud kimi müdrik bilici, Qazan, Beyrək, Basat, Qanturalı kimi mərd, qeyrətli igidləri, Qara Çoban kimi xalq qəhrəmanlarını, Burlaxatun, Banuçiçək kimi nəcib, namuslu qadınları, dəli Domrul kimi ölümün özünə belə üsyan etmiş qorxmazı olan xalqı vəhşi, işğalçı, basqınçı adlandırmaq olarmı? Dədə Qorquddakı ailə, sevgi, dostluq münasibətləri vəhşiliyinmi nümunəsidir? Öz evini belə talayıb elə paylayan Qazan, 16 il əsirlikdə qalan və sonralar öz qohumları tərəfindən namərdcəsinə öldürülən Beyrək, əfsanəvi Təpəgözü məhv edib, yurdunu xilas edən Basat, hünəri, şücaəti ilə yad eldən qız alıb evlənən Qanturalı hansı əsasla adlandırmalıdırlar? Ən qədim dinc peşə sahibi Qaraca Çobanı kim qarət edir? Və hansı əsasa görə öz dədə-baba torpaqlarında həyat sürən, ac görsə doyuran, yalıncıq görsə, donatan, ov ovlayan, quş quşlayan, öz yurdlarını sərhədlərdə, uc yerlərdə gözətçi qoyub qoruyan, lazım gələrsə, silahla müdafiə etməyi bacaran Dədə Qorqud bahadırları gəlmə sayılmalıdırmı?

CÜMLƏ ÜZVLƏRİNİN İŞTİRAKINA GÖRƏ SADƏ CÜMLƏNİN NÖVLƏRİ (ВИДЫ ПРОСТЫХ ПРЕДЛОЖЕНИЙ ПО УЧАСТИИ ЧЛЕНОВ ПРЕДЛОЖЕНИЯ)

Cümlə üzvlərinin iştirakına görə sadə cümlənin aşağıdakı növləri var:

По участии членов предложения простые предложения имеют следующие типы.

1. Müxtəsər və geniş cümlə (нераспространенные и распространенные).

2.Yarımçıq cümlə (неполное предложение)

3. Cüttərkibli və təktərkibli cümlələr (двусоставные и односоставные предложения)

4. Müəyyən şəxsli cümlələr (определенно-личные предложения)

5. Qeyri-müəyyən şəxsli cümlələr (неопределенно-личные предложения)
6. Ümumi şəxsli cümlələr (обобщенно-личные предложения)
7. Şəxssiz cümlələr (безличные предложения)
8. Adlıq cümlələr (назывные предложения)
9. Məsdər cümlələr (инфинитивные предложения)

MÜXTƏSƏR VƏ GENİŞ CÜMLƏ (НЕРАСПРОСТРАНЕННОЕ И РАСПРОСТРАНЕННОЕ ПРЕДЛОЖЕНИЕ)

Təkcə mübtəda və xəbərdən ibarət olan cümlələrə müxtəsər cümlələr deyilir (Нераспространенные предложения состоят только из подлежащего и сказуемого).

Məsələn: Dərələr uğuldadı. Muğan titrədi (İ.Əfəndiyev). Qapı döyüldü (B.Bayramov). Atlılar Həmidənin dayısıgildə idilər (B.Bayramov). Qaraş dayandı (M.İbrahimov). Keçər qüssə, keçər qəm (N.Xəzri). Göl gülümsəyirdi (İ.Əfəndiyev). Onların hər ikisi bəxtiyar idi (İ.Əfəndiyev). Görüşdülər (Y.V.Çəmənzəminli).

Geniş cümlələrin tərkibində ikinci dərəcəli üzvlərdən heç olmasa, biri iştirak edir (В состав распространенных предложений входит хотя бы один из второстепенных членов предложения).

Məsələn: Otağa xəstə daxil oldu (İ.Əfəndiyev). Bu ağacları anam özü əkib? (İ.Əfəndiyev). Ağaca çıxar adamla. Bir nəlbəki badamla; Nə dili var, nə ağzı; Hey danışar adamla (Tapmaca).

■**Tapşırıq.** *Beş müxtəsər, beş geniş cümlə yazın.*

YARIMÇIQ CÜMLƏ (НЕПОЛНОЕ ПРЕДЛОЖЕНИЕ)

Baş üzvlərindən biri və ya ikisi buraxılmış cümləyə yarımçıq cümlə deyilir (В неполных предложениях один или оба главного члена предложения опускаются). Yarımçıq cümlənin aşağıdakı növləri var (Имеется следующие типы неполных предложений):

1. Mübtədası buraxılmış yarımçıq cümlələr (Неполное предложение, в котором опущено подлежащее):

Məsələn: Qulu birnəfəsə çəpəri aşdı. Qapının ağzındakı ocağa yaxınlaşıb, papirosunu yandırdı (S.Rəhman). Əmir İnanc onun nə demək istədiyini çox gözəl bilirdi. Lakin ona söz verməyə cəsarət etmədi

(M.S.Ordubadi). Mədinəgil onu sakit etmək üçün səy göstərdilər. Nəhayət, gecə yarısı evinə yola saldılar (M.İbrahimov). Mir Əliməmmədov ağa uzaqdan görüb qabağına çıxdı. Görüşdülər (Y.V.Çəmənzəminli).

2. Xəbəri buraxılmış yarımçıq cümlələr (неполное предложение, в котором опущено сказуемого).

Məsələn: Kim eşidib balıqların səsini? Heç kim (R.Rza). Şirəli. Kim oynayacaq? Surəqay. Mən (S.Rəhman). Heybət, qonaq gəlir, qapıya çıx, - Tükəz onun yanından tələsik ötüb içəri girdi. Qonaq? (İ.Hüseynov). Mən onu sevmişəın, o da məni (S.Rəhman). Arvadı ahıl gözüylə, atı cavan gözüylə (Atalar sözü). Ağın adı, qaranın dadı (Atalar sozü). Birlik harada, dirilik orada (Atalar sözü). Varlının atı, kasıbın övladı (Atalar sözü).

3. Həm mübtədası, həm də xəbəri buraxılan yarımçıq cümlələr (неполные предложения, в которых опущены и подлежащее, и сказуемое). Yarımçıq cümlələrin bir növü yalnız ikinci dərəcəli üzvlərdən ibarət olıır. Belə cümlələrin bir neçə növünü göstərmək olur (Такой вид неполных предложений состоит только из второстепенных членов. Можно указать на следующие виды таких предложений).

a) Tamamlıqdan ibarət yarımçıq cümlə (неполное предложение, состоящее только из дополнения).

Məsələn: Qədim dayı Zülqədərin gözünün içinə baxdı. Mirzə ərizəni çıxarıb, onu yaxına çağırdı: - Bu sənin ərizəndir? Qədim boğazını uzatdı: - Hə, elə cızıqlı kağız idi. - Kimə yazmışdın? - Qibleyi-aləmə! - Nə istəyirsən? - Su. - Cavab gəlmişdır! - Mənim ərizəmə?! Padşahdan? Qibleyi-aləmin özündən? Nə yazmışdır? (S.Rəhimov). Bu pilləkənin ayağında kimi gözləyirsən?- Qardaşımı (S.Rəhimov).

b) Zərflikdən ibarət yarımçıq cümlə (неполное предложение, состоящее из обстоятельства).

Məsələn: -Sən bu qalaya çoxmu gedib-gəlmisən? -Beş, ya da altı dəfə (F.Kərimzadə). -Kəndə nə vaxt qayıdarsan? – Elə bu dəqiqə (İ.Məlikzadə). Valentina:- Sonra, sonra? (C.Cabbarlı). Hara gedirsən? - Cəhənnəmə.

c) Təyindən ibarət yarımçıq cümlə (неполное предложение, состоящее из определения).

Məsələn: - Müəllim necə adamdır?

- Hündürboy, qarayanız, zarafatcıl, amma tələbkar.
- Sən hansı rəngi xoşlayırsan?
- Yaşıl.
- Hansı rəng məhəbbət rəmzidir?
- Qırmızı.

Yarımçıq cümlələrdən daha çox dialoqda istifadə edilir (неполные предложения чаще используются в диалоге).

■**Tapşırıq.** *Yarımçıq cümləyə aid beş misal yazın.*

■**Tapşırıq.** *Dialoq tərtib edin. Orada yarımçıq cümlə işlədin.*

■**Tapşırıq.** *Aşağıdakı yarımçıq cümlələrin altından xətt çəkin.*

- Ağa, şikayətim var.
- Kimə?
- Ağa, pristava.
- Mən özüm də onun yolunu bir həftədır gözləyirəm.
- Bəs hara gedib, ağa?
- Qaçaq qovmağa.
- Bəs sən kimsən, ağa?
- Mən - pristavın pomoşniki.
- Yaxşı, sən su şikayətinə baxa bilərsənmi?
- Yox !
- Niyə?
- Başım ağrayır... (S.Rəhimov).
- Nə var, nə yox, Mirzə?
- Sağlığın, ağa pristav, ancaq bir kağız var.
- Bir kağız? Biz yazırıq, ya bizə yazırlar?
- Bu dəfə biz yazırıq.
- Bizmi yazırıq?
- Bəli, biz yazırıq.
- Nə yazırıq?
- Şikayət yazırıq.
- Kimdən, Mirzə?
- Özümüzdən (S.Rəhimov).

CÜTTƏRKİBLİ VƏ TƏKTƏRKİBLİ CÜMLƏLƏR (ДВУСОСТАВНЫЕ И ОДНОСОСТАВНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Baş üzvlərin işlənib-işlənməməsinə görə cümlələr iki tipə bölünür:

1) cüttərkibli cümlələr və 2) təktərkibli cümlələr.

В связи с наличием/неналичием главных членов предложения делятся на два типа: 1) двусоставные и 2) односоставные.

Cüttərkibli cümlələrdə baş üzvlərin mübtəda və xəbərin hər ikisi iştirak edir, ya da asan bərpa edilir. Bu tip cümlələr cümlənin ən çox işlənən növüdür.

Двусоставные предложения имеют два состава – состав подлежащего и состав сказуемого, т.е. в них подлежащее и сказуемое участвуют, или если опущены, легко восстанавливаются. Этот тип предложения – наиболее употребителен.

Məsələn: Göytəpə dağları dil açıb mənə lənət oxuyur (Ə.Məmmədxanlı). Mən ad tapa bilmirəm (Ə.Məmmədxanlı). Bəli, gərək elə bu il o qaratikan qolunu Göytəpə kəndinin xəritəsindən silək (Ə.Məmmədxanlı). Biz evlənən zaman mən növbəti məzuniyyəti götürdüm və düz iyirmi gün, demək olar ki, evdən çıxmadım (İ.Əfəndiyev). Mən onu ilk dəfə texnikumun buraxılış imtahanında görmüşdüm (İ.Əfəndiyev).

Təktərkibli cümlədə baş üzvlərdən təkcə biri ya mübtəda, ya da xəbər işlənir: digəri işlənmir və onu bərpa etmək də mümkün olmur.

В односоставных предложениях присутствует только один из главных членов – или подлежащее, или сказуемое; другой отсутствует и восстановить его невозможно.

Məsələn: Bir doğru ki, yalana oxşadı, onu söyləmə (C.Cabbarlı). Özümə yer eyləyim, gör sənə nə eyləyim (Atalar sözü). Bağa baxarsan, bağ olar, baxmazsan dağ olar (Atalar sözü). Mənə Zərnigar deyərlər (Ə.Haqverdiyev). Yazığı sabahdan axşamadək işlədirdilər (T.Şahbazi). Payızın ilk günləri (T.Şahbazi). Sonradan qohum və qonşu qızların məktəbdə təhsil etməsini görüncə mənə izin verildi (T.Şahbazi) Gecədir. Ay gəlib gəzir otaqda. Qulağım səsdədir, fikrim uzaqda (R.Rza).

Təktərkibli cümlələrə qeyri-müəyyən şəxsli cümlələr, umumi şəxsli cümlələr, şəxssiz cümlələr, adlıq cümlələr, məsdər cümləsi daxildir.

К односоставным предложениям относятся: неопределенно-личные, обобщенно-личные, безличные, назывные предложения, слова-предложения, инфинитивные предложения.

■**Tapşırıq 276**. *Cüttərkibli və təktərkibli cümlələrin hərəsinə beş misal yazın.*

■**Tapşırıq 277.** *Mətnin məzmununu danısın.*

Xarəzmi
(IX əsr)

Xarəzmi elm dünyasından çığır açan böyük türk alimidir. «Cəbr» kəlməsi bütün dünyaya onun əsərlərindən sonra yayılmışdır. Bu əsərin adı «Kitab-ül Cəbr və Sükabelə»dir. Qərbdəki «alqebra» adları da eyni kökdən yaranmışdır.

Xərazmi bu böyük əsəri ilə Deskartesə qədər ən böyük riyaziyyat dühası olaraq qəbul edilmişdir. Alim Qərb elm dünyasını yüz illər boyu heyran qoymuşdur.

Triqonometriyanın da yaradıcısı Xarəzmidir. Astronomiya sahəsində də çox görkəmli əsərlər yazmışdır. Onun «Kitabi Surət-il Ərz» adındakı göy üzünün atlası da elm aləmində irəli addım sayılmaqdadır. Bu əsər xəlifə Məmunun əmriylə tərtıb edilmişdir.

■**Tapşırıq 299.** *Oxuyun və tərcümə edin.*

QURAN - MÖCÜZƏDİR

Quran - Allah kəlamı, Onun ilahi kitabları sırasında sonuncu kitabıdır və bundan sonra başqa bir kitab olmayacaq. Quranda insanlar üçün Axirət gününə qədər lazım olan bütün informasiya var.

Quran-Uca Allahın nazil etdiyi şəkildə bizə gəlib çatan yeganə kitabıdır, yəni Quran yeganə kitabdır ki, insan tərəfindən yazılmamış və onun intellektual imkanlarının məhdudluğu ucbatından təhrif olunmamışdır. Buna görə də Quran xüsusi Kitabdır. O, nə məzmun, nə də ifadə forması baxımından başqa kitablara bənzəmir və onu başqa kitablar kimi oxumaq olmaz.

Quranın bəzi ayələrinin mənası müxtəlif elmlərin inkişafı ilə açıqlanır.

Müqəddəs Quranın ayələrində son onilliklərin elmi kəşfləri öz əksini tapır. Belə bir vəziyyət bir çox dünya şöhrətli qeyri-müsəlman alimləri təəccübləndirir və onları İslamı qəbul etməyə təhrik edir.

Quran insanın elmi biliklərə yiyələnmək tələbatını ödəyən sonsuz, tükənməz mənbəyə bənzəyir. Son zamanlar dünyanın inkişaf etmiş ölkələrindən elmin bir çox sahələrini təmsil edən görkəmli alimlərin iştirakı ilə «Quranda elmi nişanələr» mövzusunda beynəxalq elmi konfranslar keçirilir.

Quran - Uca Allahın mövcudluğunu və Məhəmmədin Onun elçisi olduğunu sübut edən ən inandırıcı dəlil, əsl möcüzədir. Quran – Məhəmməd Peyğəmbərin (s.ə.s.) möcüzəsidir. (Möcüzə - Allahın peyğəmbərlərə bəxş etdiyi qabiliyyətidir).

ALLAH-TAALANIN 99 GÖZƏL ADLARI VƏ MƏNALARI

Quranın bir çox surələrində (fəsillərində) Allah özü haqqında deyir: «Allah birdir, vahiddir, Allah əbədidir. Ondan heç kəs törəməmişdir və özü də heç kəsdən törənməmişdir».

Allahın surəti Quranda bütün kitab boyu xeyirxah, mərhəmətli, hər şeyi görən, hər şeyi bilən, ümid verən və qisas alan və s. və i. Allah «99 gözəl ad»la müxtəlif söz birləşmələrində vəsf olunur. Mömin bəndə bu adları mümkün qədər tez-tez və islamın əsas ehkamı olan birallahlılığın təsdiq olunduğu «la ilahə illa-llah», «Allahdan başqa məbud yoxdur» deyib gündə bir neçə dəfə, hökmən təkrar etməlidir.

Quranın demək olar bütün surələri Allahın iki mühüm adı ilə bağlıdır: «Bismillahir-Rəhmanir-rəhim» - «Şəfqətli və mərhəmətli Allahın adı ilə».

Ənənəyə görə dualar, moizələr müsəlmanlar qarşısındakı çıxışlar, rəsmi və şəxsi məktublar və s. bu sözlərlə başlanır. Allahın adları haqqında təlim islam ilahiyyatının mühüm hissəsini təşkil edir. Budur, düz 1400 ildir ki, müsəlman alimləri və islamşünaslar müsəlmanlığın bünövrəsinə fəlsəfə daşı qoymaq üçün Allahın 100-cü adını – söz birləşməsini tapmaq ümidlərini itirməmişlər.

Mətn «Məhəmməd Peyğəmbərin həyatı» kitabından götürülmüşdür. Bakı, 1990, s. 125.

Huvəllahulləzi la ilahə illa hu - o elə Allahdır ki, ondan başqa heç bir ibadət ediləcək ilahi yoxdur.

1. **Allah** - Cənabi haqqın özəl adıdır.

- Gündə min dəfə «Ya Allah» deyən övliyalar sırasına daxil olar.
- Cümə günləri yüz dəfə «Ya Allah» deyən muradına çatar.
- Əcəli çatmamış xəstəyə iki yüz dəfə «Ya Allah» oxunsa, şəfa tapar.

2. **Rəhman** - dünyada hamıya rəhmət edən, acıyan.

- Gündə yüz dəfə «Ya Rəhman» deyən mərhəmətli bir insan olar.
- 298 dəfə «Ya Rəhman» yazıb bir kağızı yanında saxlasa bütün bəla və xəstəliklərdən uzaq olar.
- Bir kağıza zəfəranla ayrıca «Ya Rəhman» yazılıb, evdə asılsa, o evin sahibi gözəl əxlaq içində yaşar.

3. **Rəhim** - axirətdə möminlərə rəhmət edən.

- Gündə 258 dəfə «Ya Rəhim» zikr eləsə, bütün təhlükələrdən uzaq olar.
- «Ya Rəhim» bir kağıza yazılıb ağacın dibinə basdırılsa, o ağacın meyvəsi bol olar.

4**. Məlik** - mülkü davamlı olan.

- Vaxtaşırı «Ya məlik» zikr etsə, dünya və axirət nemətlərinə nail olar.

- Sıxıntı vaxtı 100 dəfə «Ya Məlik» zikr etsə, sıxıntıdan çıxar.

5. **Quddus** - hər eyb və qüsurlardan uzaq.

- Hər gün 174 dəfə «Ya Quddus» zikr etsə, gözəl əxlaqlı olar, mələklər kimi olar.

6. **Səlam** - Salamətlik verən.

- Əcəli çatmamış xəstəyə 160 dəfə «Ya Səlam» zikr edilsə, şəfa tapar.

- Çox-çox zikr edilsə, dünya və axirətdə salamat olar.

7. **Mumin** - əmin-amanlıq verən.

- Hər gün 136 dəfə «Ya Muminu» zikr edən, özünü, mülkünü, ailəsini əmniyyət altına almış olar.

8. **Muheymin** - həmişəlik hamıyla himayəlik edən.

- Kim 135 dəfə tam bir təmizliklə «Ya Muheyminu» zikr etsə, dərəcəsi yüksəlib muradına çatar.

- Çox-çox zikr edənin izzət və şərəfi, zəka və anlayışı çox olar.

9. **Əziz** - məğlubiyyət bilməyən güclü və tək qalib.

40 gün sübh namazından sonra 40 dəfə «Ya Əziz» zikr edən biehtiyac olar, şərəfli, qüvvət və mətanətli olar.

10. **Cəbbar** - hər yerə hökm edən.

- Hər gün 21 dəfə «Ya Cəbbar» zikr etsə, bütün müsibətlərdən qorunar.

- 211 dəfə oxuyan muradına çatar və zalimin zülmündən xilas olar.

11. **Mutəkəbbir** - yaratdıqlarının ən gözəl vəsflərindən uca.

- Zifaf və cimadan əvvəl on dəfə «Ya Musəvviru» oxusa çox xeyirli övladı olar və bərəkət içində yaşar.

12. **Xalik** - yoxdan var edən.

- Gecələri «Ya Xaliku» zikr etsə maddi və mənəvi nurlara qərq edilər.

- Hər gün bir həftə 100 dəfə «Ya Bariu» zikr etsə, bəla və müsibətlərdən uzaq olar.

- Uşağı olmayan qadın bir həftə oruc tutmalı və hər iftarını özü üçün «Ya Xaliku, Ya Bariu, Ya Musavviru!» 21 dəfə oxuyub su ilə iftar etməlidir.

14. **Musavvir** - bütün varlıqlara surət verən.

- Hər gün 100 dəfə «Ya Musavviru» zikr etsə, bütün müsibətlərdən qorunmuş olar.

- Uşağı olmayan qadın bir həftə oruc tutub 21 dəfə «Ya Musavviru» zikr etsə övlada qovuşar, kişi üç gün oruc tutub 21 dəfə «Ya Musavviru» oxuyub suya üfləyib içsə, zurriyyət sahibi olar.

15. **Qaffar** - günahları bağışlayan.

- Cümə namazından sonra 100 dəfə «Ya Qaffaru» zikr etsə, Allah-taala onun bütün günahlarını bağışlayar.

16. **Qahhar** - ən güclü, qalib və hakimdir.

- «Ya Qahharu» zikr edən, nəfsindən, şeytandan, dünyadan əmin olar, qəlbi təmiz olar.

- Gecə yarısından sonra və sübh tezdən zikr etsə düşmənlərinə qalib olar.

17. **Vəhhab** - əvəzsiz bağışlayan.

- «Ya Vəhhab» zikr edən muradına çatar, ruzusu bol olar.

18. **Rəzzaq** - ruzi verən.

- Hər gün yeməkdən əvvəl 21 dəfə «Ya Rəzzaq» zikr etsə, zehni açıq, anlayışı dəqiq olar.

- Gündə 100 dəfə zikr edən dünyada darlıq görməz.

19. **Fəttah** - rəhmət və ruzi qapıların açan.

- Kim sübh namazından sonra 15 dəfə «Ya Fəttah» zikr etsə, qəlbi nurlanar, ruzisi bol olar, işləri düzələr.

20. **Alim** - hər şeyi yaxşı bilən.

- Hər gün bir şəxs «Ya Alim» zikr etsə, elmi artar, yaddaşı möhkəmlənər.

- Gündə 150 dəfə oxusa, mərifət sahibi olar.

21. **Qabid** - canları alan, sıxan, daraldan.

- 40 gün hər yeyəcəyi loxmaya «Ya Qabidu» oxusa, yediyi bərəkətli olar.

22. **Basit** - həyat verən, ruzi yağdıran, açan, genişləndirən.

- Kim 71 dəfə «Ya Basitu» zikr edib sonra əllərini üzünə sürtsə, biehtiyac olar, ruzili, elmli və şərəfli olar.

23. **Hafid** - alçaldan, yuxarıdan aşağı endirən.

- 3 gün oruc tulub 70 dəfə «Ya hafıdu!» zikr etsə, bütün düşmənlərini məğlub edər, Allah-taalanın himayəsində olar.

24. **Rafi** - yüksəldən, yuxarıya qaldıran.

- Gündə 100 dəfə «Ya Rafıu!» zikr etsə, şərəfi artar, dərəcəsi yüksələr.

Zülmündən qorxduğu zalımın şərindən qorunar.

25. **Muizz** - güclü, qalib, şərəfləndirən.

- Hər cümə gecəsi 140 dəfə «Ya Muizzu!» zikr etsə, bütün insanların şərindən uzaq olar, hörmət görər.

26. **Muzill** - zəlil edən, alçaldan.

- Kim 75 dəfə «Ya Muzillu!» zikr etsə və səcdəyə gedib «Ya Rəbbim, məni fılan kimsənin şərindən qoru» desə, Allah-taala onu mühafizə edər.

27. **Səmi** - hər şeyi yaxşı eşidən.

- Kim 100 dəfə «Ya Səmmu!» zikr etsə, bütün istəkləri qəbul olunar.

28. **Basir** - hər şeyi çox yaxşı görən.

- Kim 100 dəfə cümə namazından əvvəl «Ya Basiru!» zikr etsə, bəsirət gözləri açılar, imanı artar.

29. **Hakəm** - hökmü rədd edilməyən, haqqı yerinə gətirən.

- Kim yuxuqabağı «Ya Hakəmu!» zikr etsə, ilahi hikmətə nail olar.

30**. Ədl** - ədalətsizliyə yol verməyən, adil.

- Kim «Ya Ədlu!» zikr etsə, insanların hörmət və etibarını görər.

31. **Lətif**- işlərin incəliklərini bilən.

- Xəstə hər gün 100 dəfə «Ya Lətifu!» zikr etsə, şəfa tapar, fağırlıqdan qurtarar.

32. **Xabir** - hər şeydən xəbərdar.

- Pis xasiyyətli «Ya Xabiru!» zikr etsə, əxlaqlı olar.

33. **Halim** - helm sahibi, günahkarları cəzalandırmağa səbr edən.

- Kim «Ya Halimu!» zikr etsə, bəlalardan uzaq olar, məhsula oxusa, bərəkətli olar.

34. **Azim** - ağlı yüksək dərəcədə olan.

- Kim «Ya Azimu!» zikr etsə, insanlar arasında şərafətli olar, xəstəyə oxunsa şəfa tapar.

35. **Qafur** - çox bağışlayan.

- Kim «Ya Qafuru!» zikr etsə, baş ağrısı gedər.

- Cümə namazından sonra 100 dəfə zikr etsə, günahları bağışlanar.

36. **Şəkur** - yaxşı mükafatlandıran.

- Kim 41 dəfə «Ya Şəkuru!» suya zikr etsə, o suyu gözünə sürtsə, gözünün nuru artar.

37. **Əliyy** - çox uca, lap yüksək.

- Kim hər gün «Ya Əliyyu!» zikr etsə, ruzisi bol olar, qəriblikdən qurtarar.

38. **Kəbir** - çox ulu, böyük.

- Kim hər gün 100 dəfə «Ya Kəbiru» zikr etsə, bütün xalq yanında şərəf sahibi olar.

- Borclu olana Allah-taala pul yetirər ki, borcunu versin: rütbədən endirilən, rütbəsinə qayıdar.

39. **Hafız** - qoruyan, mühafizə edən.

- Kim hər gün 16 dəfə «Ya Hafız» zikr etsə, bütün zərərlərdən və qorxulardan qurtarar.

40. **Mukit** - geyindirən, bar və ruzi verən.

- Kimin pis əxlaqı var, yeddi dəfə «Ya Mukit» zikr etsə, suya üfürüb içsə, yaxşı əxlaqlı olar.

- Çox ağlayan uşağa bu suyu versə, ağlamaz.

41. **Hasib** - hamının ehtiyacının qədərini bilən.

- Kim 70 dəfə «Ya Hasib» zikr etsə, düşmən qorxusundan, şərdən, bədnəzərdən, həsəddən qurtarar.

42. **Cəlil** - yüksək, böyük, ulu.

- Kim «Ya Cəlil» yazıb suya atsa və bu suyu içsə, ya zikr etməyə davam etsə, Allah-taala yanında qiymətli olar.

43. **Kərim** - çox comərd, kəraməti bol olan.

- Kim «Ya Kərim» zikr etsə, dünya və axirət səadətinə yetər, insanlar arasında şərəfli olar.

44. **Raqib** - bütün varlıqlara göz qoyan.

- Kim 7 dəfə «Ya Raqib» malına ya özünə zikr etsə, bütün bəlalardan qorunar.

- Hamilə qadın 312 dəfə zikr etsə, zəhmət çəkməz, malın itirən tapar.

45. **Mucib** - duaları qəbul edən.

- Kim 60 dəfə «Ya Mucib» zikr etsə, bütün duaları qəbul olunar.

46. **Vəsi** - neməti bol olan.

- Kim «Ya Vəsi» zikr etsə, ruzisi geniş olar, zəngin xəzinələrə sahib olar.

47. **Hakim** - hikmət sahibi, hər işin öz yerini bilən.

- Kim «Ya Hakim» zikr etsə, qəlbi nurla dolar, böyük mərtəbəyə nail olar.

48. **Vədud** - sevən və sevilməyə layiq olan.

- Kim yeməkdən qabaq çox-çox «Ya Vədud» zikr etsə, məhəbbətə layiq olar.

49. **Məcid**-yüksək şan-şöhrət sahibi.

- Kim sübh namazından sonra 9 dəfə «Ya Məcid» zikr etsə, həmyaşıdları arasında böyük hörməti olar.

50. **Bais** - peyğəmbərlər göndərən, ölümdən sonra dirilən.

- Kim 100 dəfə «Ya Bais» zikr etsə, ruzisi bol olar.

51. **Şahid** - gözündən heç bir şey qaçmayan, hər yerdə hazır və nazir olan.

- Kim şəhadət barmağını itaətsiz övladının alnına qoyub, çox-çox «Ya Şahid» zikr etsə, ya da itaətsiz qadınına itaət edərlər.

52. **Haqq** - var olan, varlığı dəyişməyən.

- Kim çox-çox «Ya Haqq» zikr etsə, gələcəyi yaxşı olar, fağırlıqdan qurtarar, pisliklərdən qorunar.

53. **Vəkil** - hamının işlərini görən, mənfəətli edən.

- Kim 76 dəfə «Ya Vəkil» zikr etsə, zəlzələdən, dənizdə boğulmaqdan, yanğından qorunar, bütün bəlalardan hifz olunar.

54. **Qaviyy** - çox güclü, zəifliyə uğrayan.

- Kim 114 dəfə «Ya Qaviyy» zikr etsə, düşmənlərinə qarşı çox güclü olar, istəkləri yerinə yetər.

55. **Mətin** - çox sağlam, sarsılmayan.

- Kim çox-çox «Ya Mətin» zikr etsə, qüvvətli olar, ibadətindən zövq alar.

- Südü olmayan ana zikr edib desə, uşağını öz südü ilə böyüdər.

56. **Vəliyy** - yaxşı dostlarına yardımçı.

- Kim «Ya Vəliyy» zikr etsə, evinə girib çıxanda, söhbət əsnasında, gözəl ailə həyatı sürər.

57. **Hamid** - hər yerdə bəyənilən.

- Kim 62 dəfə «Ya Hamid» zikr etsə pak əxlaqlı olar.

58. **Muhsi** - hər şeyi qavrayan, yaratdığı hər şeyin sayın bilən.

- Kim cümə gecələri 100 dəfə «Ya Muhsi» zikr etsə, qiyamət günü sorğu-sualı qolay olar.

59. **Mubdi** - hər şeyi heç bir maddəsiz yaradan.

- Kişi hamilə arvadının göbəyini şəhadət barmağı ilə tutub, «Ya Mubdi» 99 dəfə zikr etsə, uşaqdüşməsi olmaz, arvad sağ-salamat doğar.

60. **Muid** - ölümə və ölümdən sonra təkrar həyata qaytaran.

- Kim 124 dəfə «Ya Muid» zikr etsə, unutqanlıqdan xilas olar.

61. **Muhyi** - həyat verən, can bağışlayan.

- Kim yeddi gün «Ya Muhyi» zikr etsə, ağrıyan yerlərinə üfürsə, ağrıları keçər.

62. **Mumit** - öldürən, can alan.

- Kim «Ya mumit» zikr etsə, nəfəsin qoruyar.

63. **Hayy** - daima diri olan.

- Kim hər gün «Ya Hayy» zikr etsə, uzun və bərəkətli ömür sürər.

64. **Qayyum** - hər şeyi, yeri-göyü yaradan.

- Kim hər gün 41 dəfə «Ya Qayyum» zikr etsə, qəlbi nurla dolar.

65. **Vacid** - həmişə zəngin, niyyətinə çatan.

- Kim «Ya Vacid» zikr etsə, qəlbi nurlanar.

66. **Macid** - şan-şərəf sahibi.

- Kim «Ya Macid» zikr etsə, qəlbi mərifət nuru ilə dolar.

67. **Vahid** - zatında, sifətində, işlərində tək olan.

- Kim çox-çox «Ya Vahidu» zikr etsə, muradına çatar.

68. **Saməd** - ehtiyacsız.

- Kim «Ya Saməd» zikr etsə, muradına yetişər, şərəfli olar.

- Sübh namazından qabaq 115 dəfə zikr etsə, düşmənlərinə qələbə çalar.

69. **Qadir** - qüdrətli, istədiyinə gücü çatan.

- Kim dəstəmazda hər hərəkətdə «Ya Qadir» zikr etsə, düşmən şərindən uzaq olar, məqsədinə çatar.

70. **Muktədir** - iqtidarlı, hər şeyə qüdrəti çatan.

- Kim «Ya Muktədir» zikr etsə, acizlikdən qurtarar, xeyirlərə qovuşar.

71. **Mukaddim** - qabaqcıl, istədiyini yeridən.

- Kim hər gün 100 dəfə «Ya Mukaddim» zikr etsə, qəlbində ilahi məhəbbət yerləşər.

72. **Muahhir** - istədiyini geri alan.

- Kim «Ya Muahhir» zikr etsə, şeytan vəsvəsəsindən uzaq olar.

73. **Əvvəl** - başlanğıcı olmayan, ilk övladı olmayan çox-çox «Ya Əvvəl» zikr etsə, övlad sahibi olar.

74. **Axir** - nəhayəti olmayan son.

- Kim hər gün 100 dəfə «Ya Axiru» zikr etsə, qəlbində ilahi məhəbbət yaranar.

75. **Zahir** - varlığı günəş kimi açıq.

- Kim «Ya Zahir» zikr etsə, qəlbində mərifət nuru yaranar.

76. Batin - gizli olan; insanlar onu tam bilməməlidir.

- Kim hər gün 33 dəfə «Ya Batinu» zikr etsə bütün sirlər açılar, həqiqətlər ona görünər.

77. Vali - təkbaşına idarə edən.

- Kim çox-çox «ya Vali» zikr etsə, bütün işlərində qolaylıq olar.

47 dəfə zikr etsə, şərəf sahibi olar, müsibətlərdən uzaq olar.

78. Mutəali - uca, yüksək.

- Kim «Ya Mutəali» zikr etsə, həmyaşıdları yanında şərəfli olar.
- Qadın oxusa, əxlaqı gözəlləşər.

79. Bərr - yaxşılıq və xeyir verən.

- Nəzər dəymiş uşağa 70 dəfə «Ya Bərr» zikr edilsə, nəzər keçər.
- Kim çoxlu zikr etsə, Rəbbin lütf və ehsanına nail olar.

80. Təvvab - tövbələri qəbul edən, bağışlayan.

- Kim «Ya Təvvab» zikr etsə, günahları bağışlanar.

81. Muntəqim - günahlıları ədalətlə cəzalandıran.

- Haqsızlığa uğrayan «Ya Muntəqim» zikr etsə, zalımın haqsızlığından qurtarar.

82. Əfuvv - əfvi, bağışlanması bol olan.

- Kim «Ya Əfuvv» zikr etsə, cəhənnəm əzabından qurtarar.

83. Rauf - mərhəməti, şəfqəti bol olan.

- Kim «Ya Raufu» zikr etsə, qəzəbi keçər, Rəbbin lütfünə nail olar.

84. Malikul-mulk - mülkün yeganə və davamlı sahibi.

- Kim çox zikr etsə - halal mal ilə zənginliyə qovuşar.

85. Zul-Cəlali vəl İkram - ululuq və kərəm sahibi.

- Kim «ya malikül-mülki, ya Zul-Cəlali vəl-ikram» zikr etsə, mətləbinə çatar, izzət və kərəm sahibi olar.

86. Muksit - ədalətli, işlərində çaşmayan.

- Kim «Ya Muksitu» zikr etsə, şeytanın vəsvəsəsindən uzaq olar.

87. Cəmi – toplayan, birləşdirən.

- Kim «Cəmiənnasi liyəvmin la rəybə fihi icmaələyyə daaliəti» duasını oxusa, itirdiyini tapar, qürbətdəki övladına qovuşar.

88. Qaniyy - zəngin.

- Kim «Ya Qaniyy» zikr etsə, zənginliyə qovuşar.
- Xəstə oxuyub, əlinə üfürsə, əlini ağrıyan yerə sürtsə, şəfa tapar.

89. Muqni - zənginlik verən.

- Kim «Ya Muqni» zikr etsə, şəfa tapar.
- Cima vaxtı oxuyan məhəbbət tapar.

90. Mani - bir şeyin olmasını istəməyəndə mane olan.

- Kim hər gün 16 dəfə «Ya Mani» zikr etsə, zərər çəkməz, muradına çatar.

91. Darr - zərərə uğradan.

- Kim cümə gecəsi 100 dəfə «Ya Darr» zikr etsə, dərd və fağırlıqdan qurtarar.

92. Nafi - mənfəət verən, yararlı şeylər yaradan.

- Kim çox-cox «Ya Nafi» zikr etsə, zərər və ziyandan qurtarar.

93. Nur - işıq verən, nur yağdıran.

- Xəstə hər yediyinə «Ya Nur» zikr etsə, əcəli gəlməyibsə, şəfa tapar.

- Çox-çox oxusa, nurlanar.

94. Hadi - yol göstərən, yol açan.

- Kim 21 dəfə «Ya Hadi» zikr etsə, hidayətə qovuşar.

- Göz ağrısına tutulan oxuyub barmaqlarına üfürüb gözlərinə sürtsə, şəfa tapar.

95. Bədi - nümunəsi olmayan, heyrətverici şeylər yaradan.

- Kim çox-çox «Ya Bədi» zikr eisə, ehtiyacı hasil olar.

96. Baqi - davamlı olan, fani olmayan, sonsuz.

- Kim «Ya Baqi» zikr etsə, bərəkətli, uzun ömürlü olar, qorxudan qorunar.

97. Varis - davam edən, sərvətlərin sahibi.

- Xəstə çox-çox «Ya Varisu» zikr etsə, şəfa tapar və daha xəstəlik görməz.

98. Rəşid - mənfəət yollarını göstərən, doğru yolda olan.

- Kim işlərində aciz qalar, yatmaqqabağı çox-cox «Ya Rəşid» zikr etsə, işlərinə müvəffəq olar, bacarıqlı olar.

99. Səbur - çox səbirli olan.

- Kim hər gün 33 dəfə «Ya Səbur» zikr etsə, şəfa tapar, səbirli və soyuqqanlı olar.

Ислам

Азия является частью света, где зародились все крупнейшие религии земного шара. Однако судьба этих религий была различной. Одни из них широко распространились и в других частях света (христианство, ислам, иудаизм), другие же остались, в основном, азиатскими религиями (индуизм, буддизм...).

Ислам является одной из трех мировых религий. Он распространен в странах Азии и Африки. В некоторых странах, таких как Афганистан, Иран, Ирак, Пакистан, Саудовская Аравия, АРЕ, Ливия, Тунис, Алжир, Марокко, Судан и др., ислам является государственной религией. Более одного миллиарда населения мира придерживается ислама. Только в немусульманской Индии их более 100 миллионов.

Ислам оформился в ВИИ в. н. э. Он возник в силу ряда обьективных исторических причин, обусловивших социально-экономические и культурные изменения в жизни населения Аравии. Интересы всего населения требовали прочного и длительного объединения страны, стабилизации ее политического и экономического положения, отпора чужеземным агрессиям, поисков новых торговых путей. Для этих целей нужно было знамя, под которые шла бы консолидация сил народа. Таким знаменем стал ислам.

В основе мусульманского вероучения лежит вера в Бога - Аллаха. Вера в Аллаха являетсм первым к освовным догматом в исламской вере. Аллах един, всемогущ. Он создатель вселенной земли и неба, всех форм жизни. Аллах управляет миром единолично, без его ведома не совершается ничего, подобно тому, как одним повелением, выраженным словом «будь», он сотворил весь мир и жизнь в мире.

Ислам имел огромное воздействие на цивилизацию многих народов мира. Ислам развивается и увеличивает число людей, исповедующих мусульманскую веру. Множество людей из неисламских народов, принимая мусульманскую веру, соответственно принимают мусульманские имена.

■**Tapşırıq 278.** *Mətni Azərbaycan dilinə tərcümə edin.*

Коран

Коран - священная книга ислама. Она служит основой мусульманского законодательства как религиозного, так и гражданского. Название ее происходит от слова «кара а», что значит (читать)ю согласно мусульманской мифологии, она была передана Аллахом пророку Мухаммеду через ангела Джебраила. А в действительности, как установлено наукой, Коран в окончательной редакции был составлен и утвержден при халифе Османе (644-656 гг.)

По преданию, Мухаммед не записывал свои проповеди, наставления и изречения. Первые попытки собрать воедино все высказывания Мухаммеда предприняты при первом халифе Абу-Бекире (632-634 гг.) . При халифе Османе была создана специальная редакционная комиссия, которая составила Коран.

Коран разделен на 114 глав (сур). Каждая сура состоит из стихов (аятов). Слово «аят» означает «знамение», «судо».

Коран представляет собой собрание законов, установ-лений и традиций, а также изложение различных мифических сказаний.

Коран учит, что Бог сотворил мир в шесть дней: в первый день были сотворены небеса: во второй -звезды и ветер: в третий –твари, живушие на земле и в морях, а также ангелы, обитающие на семи небесах и воздух; в четвертый день Бог сотворил воду и всем тварям назначил пищу, в этот же день по его повелению потекли реки; в пятый день бог соизволил создать рай и обитающих в нем чернооких дев (гурий); в шестой день сотворил Бог Адама и Еву. К субботе все дела были завершены, а нового творения не было, в мире парил порядок и ничем не нарушаемая гармония.

Небо и земля, по Корану, первоначально представляли собой одну и неразделенную массу, вроде пара и дыма. Затем Бог взошел на небо, которое было как дым, и сказал, обращаясь к земле и небесам; «Приходите добровольно или невольно», на что те ответили: «Мы приходим добровольно».

Человек рассматривается как венец творения. «Бог сотворил все прекрасное и потом приступил к сотворению человека».

Коран вызывает огромный литературный и исторический интерес, о чем свидетельствует его многократное переиздание большим тиражом.

QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏR (НЕОПРЕДЕЛЕННО-ЛИЧНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Mübtədası olmayan və işgörəni qeyri-müəyyən şəxs kimi təsəvvür edilən cümləyə qeyri-müəyyən şəxsli cümlə deyilir. Belə cümlələrin xəbəri üçüncü şəxsin cəmində olur.

Неопределенно-личными предложениями называются такие предложения, в которых подлежащее отсутствует, а десять воображается как неопределенное лицо. Сказумое в таких предложениях употребляется в третьем лице множественного числа.

Məsələn: Sənə deyirlər qulaq as (M.İbrahimov). Hər gün, deyəsən, məni cəbrən gətirirlər buraya (Mir Cəlal). Rayondan gəldim, soruşdum, dedilər, burada işləyir (S.Rəhmov). Xanların ölümünü eşidəndə, elə bil, mənim ürəyimə güllə vurdular (H.Mehdi). Elə bil ki, Kamalın başına bir vedrə su tökdülər (M.İbrahimov).

Qeyri-müəyyən şəxsli cümlələr o zaman işlədilir ki, diqqət işgörənə deyil, hərəkətə və ya hadisəyə yönəldilsin, işin icrasının və ya əşyanın göstərilməsi danışan və dinləyən üçün əhəmiyyətsiz olsun.

Неопределенно-личные предложения употребляются тогда, когда внимание обращается не на производителя действия, а само действие или явление, производитель действия или предмет действия ни для говорящего, ни для слушающего значения не имеет.

Qeyri-müəyyən şəxsli cümlələr bu məqamlarda işlənir (Неопределенно-личные предложения употребляются в следующих ситуациях):

1. İş görən nə danışana, nə də dinləyənə məlum deyildir (производитель действия неизвестен ни говорящему, ни слушающему).

Məsələn: Elə bu vaxt Kərimovu rayonda işdən götürüb göndərdilər kəndə (S.Rəhimov). Havaxtdan-havaxta öyrəndim ki, Gülsəhəri qaçırıblar (Ə.Vəliyev). Bu yaxınlarda məni bir yerə çağırmışdılar (N.Vəzirov). İki gündür ki, məktəbdə dərslər qurtarıb uşaqları yay tətilinə buraxıblar (S.Rəhimov). Telefona çağırırlar, yoldaş Cəlal (S.Rəhman). Sizi,

doğrudan da, əsir alsalar, qaranlıq zindana tutub salsalar, İnsan boğazlaram düz otuz nəfər (S.Vurğun).

2. İş görən danışana məlumdur (производитель действия известен говорящему).

Məsələn: Sizə dedilər ki, adımı deyin (S.Rəhman). Məni çağırırlar, Qəmər (S.Rəhman). Mənim ruhumu qırdılar, həvəsimi öldürdülər.

Var-yoxdan qalmışdı bircə inəyim,
Oydu göz diktiyim, oydu köməyim.
Onu da bu gecə zorla aldılar,
Məni diri gözlü oda saldılar
S.Vurğun

3. İş görən həm danışana, həm dinləyənə məlumdur (производитель действия известен и говорящему, и слушающему).

Məsələn: Adına özü olanda Əbdüləli bəy, olmayanda Əbdüləli deyirlər (C.Cabbarlı). Bizlərdə qonağa çox hörmət edirlər, qulluğunda dururlar.

■**Tapşırıq 279.** *Qeyri-müəyyən şəxsli cümləyə aid beş misal yazın.*

■**Tapşırıq 280.** *Verilən cümlələri qeyri-müəyyən şəxsli cümləyə cevirın.*

Əflatun Moskvaya oxumağa göndərildi. Pambıq planı artıqlaması ilə dolduruldu.

■**Tapşırıq 281.** *Köcürün. Qeyri-müəyyən şəxsli cümlələrin altından xətt çəkin.*

- Kolxoz sədrliyindən məni götürdülər.
- Necə yəni götürdülər ?

Mədəd başını yırğalayıb dərin bir ah çəkdi.

- Tərpətdilər... Dağ nədir, köklü-göməcli çinar ağacını da kökündən qopardılar.
- Bircə məni başa sal görüm, axı səni nə üstündə işdən çıxartdılar?

Mədəd başını qaldırmadan cavab verdi:

- Heç zaddan ötrü.
- Sən boyda məsul işçini heç zaddan ötrü işdən götürməzlər. Yenə də de görüm, adını nə qoydular?
- Adını qoydular ki, fermadan 100 dənə qoyunu siyahı üzrə camaata paylamışam.

- Bekara işdir, bundan ötrü məsul işçini işdən çıxarmazlar («Kirpi» jurnalı).

■**Tapşırıq 282.** *Mətni öyrənin.*

Fərabi
(870-950)

Böyük Qərb filosofları Fərabinin təsiri altında olmuşlar. Onun əsərləri butün dünyaya elm və işıq saçmışdır. Aristoteldən sonra ikinci ustad o sayılmalıdır. İnsanlığın yetişdirdiyi ən dahi adamlardan biri kimi qəbul edilmişdir. İbn Sina Fərabinin əsərlərini oxuyaraq «Kamal» mərtəbəsinə ucalmışdır. O, yunan fəlsəfəsini Avropaya tanıtmaqla da ad çıxarmışdır. Bütün əsərləri tapmacaya çevirmişdir. Aristoteli şərh edərək özündən əlavələr də etmişdir. Beləcə, Aristotel ideyalarının həyata qovuşmasında və anlaşıqlı olmasında böyük rolu olmuşdur. O, Aristoteldən sonra məntiq elminin yaradıcısıdır. Bu əsərdəki təsnifatla Aristoteli arxada qoyduğu da bəzi elm adamları tərəfindən qəbul edilmişdir.

Fərabi Türküstanın Fərab şəhərində doğulmuşdur. Təhsilini yurdunda, İranda və Bağdadda almışdır. Hələbdə Həmədan hökmdarı Seyfiddövlə tərəfindən himayə olunmuşdur.

Ərəb ölkələrində belə ömrünün sonuna qədər türk olduğunu unutmamışdır.

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
M.Araz

ÜMUMİ ŞƏXSLİ CÜMLƏLƏR
(ОБОБЩЕННО-ЛИЧНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Ümumi şəxsli cümlələrin də mübtədası olur, xəbəri ikinci şəxsin cəmindən başqa, bütün şəxslərdə (tək və cəm) işlənə bilir, lakin ifadə olunan fıkir müəyyən bir şəxsə yox, ümumiyyətlə, necə deyərlər, bütün şəxslərə, hamıya aid olur.

Обобщенно-личные предложения тоже не имеют подлежащего, а сказуемое, за исключением формы второго множественного числа, выражается лицами единственного и множественного числа, но высказываемая мысль относится не какому-нибудь определенному лицу, а всем лицам, всем.

Məsələn: yüz ölç, bir biç (Atalar sözü). Nə tökərsən aşına, o da çıxar qaşığına (Atalar sözü). Kəttanı gör, kəndi çap (Atalar sözü). Yeməyənin

payını yeyərlər (Atalar sözü). Yıxılana gülməzlər, tutub qolundan qaldırarlar (S.Rəhman). Onu öz briqadirindən soruş, hər iş uçün kolxoz sədrinin üstünə qaçmazlar (S.Rəhman).

Ümumi şəxsli cümlələrin xəbəri fellə ifadə olunur və (yuxarıda deyildiyi kimi) ikinci şəxsin cəmindən başqa bütün şəxslərdə işlənir.

Сказуемое обобщенно-личных предложений выражается глаголом и (выше сказано) употребляется во всех лицах кроме второго лица множественного числа.

Birinci şəxsin təki (первое лицо единственное число): Adımı sənə qoyum, səni də yana-yana qoyum (Atalar sözü). Ozümə yer eylərəm, gör sənə nə eylərəm (Atalar sözü).

Birinci şəxsin cəmi (первое лицо множественное число): Başlayırıq qızmağa yay gəlməmiş, Çirmənirik keçməyə çay gəlməmiş (Sabir).

İkinci şəxsin təki (второе лицо единственное число): Nə əkərsən, onu biçərsən (Atalar sözü). Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar (Atalar sözü). Adama birini vurasan qoltuğuna, basasan faytona, düz sürəsən Nardaran bağlarına (M.S.Ordubadi).

Üçüncü şəxsin təki (третье лицо единственное число): Ağıllı adam sel gəldiyi zaman evdən çıxmaz (M.S.Ordubadi). Adam ayağını yorğanına görə uzadar (Atalar sözü). Öz gözündə tiri görmür, özgənin gözündə qıl axtarır (Atalar sözü).

Üçüncü şəxsin cəmi (тертье лицо множественное число): Olan yerdən umarlar (Atalar sözü). İşləməyənə tənbəl deyərlər (Atalar sözü). Cavan olanda bəyəm sözə baxmazlar (M.İbrahimov). Ancaq ziyafətə gələn düşməndən də heyf almazlar (F.Kərimzadə).

■**Tapşırıq 283.** *«Atalar sözləri» kitabından hər şəxsə aid iki ümumi şəxsli cümlə seçib dəftərinizə yazın.*

■**Tapşırıq 284.** *Mətnin məzmununu danışın.*

Abbasqulu ağa Bakıxanov Qüdsi
(1794-1847)

Bakıxanov XIX əsrin birinci yarısında yeni tarixi şəraitdə inkişafa başlayan Azərbaycan ədəbiyyatının banilərindən biridir. O, mədəniyyətimiz tarixinə məşhur alim, mütəfəkkir və şair kimi daxil olmuşdur.

A.Bakıxanovun tarixə, astronomiyaya, əxlaq məsələlərinə və s. aid elmi əsərləri, qrammatika kitabı, çoxlu satirik, lirik şeirləri, mənzum məktubları, tərcümələri var. Onun «Kitabı-Əsgəriyyə» novellasında qarşılıqlı məhəbbət əsasında yeni ailə qurmaq ideyası tərənnüm olunur.

A.Bakıxanov Azərbaycan, Gürcüstan və Dağıstanın bir çox vilayətlərini gəzib dolaşmış, Ukraynaya, Polşaya və Pribaltika ölkələrinə səyahətə çıxmışdır. O, getdiyi yerlərin xalqları ilə tanış olur, onların tarixi ilə maraqlanır, mədəni cəmiyyətlərdə iştirak edirdi. Abbasqulu ağa səfərdən Peterburqa qayıtdığı zaman A.S.Puşkinlə görüşüb dostlaşmış, onun ailəsi ilə tanış olmuşdur.

A.Bakıxanov Qudsi qalan ömrünü ədəbiyyata, elmə sərf etmək məqsədi ilə iki aya yaxın Peterburqda qalaraq ordu sırasından tərxis olunmaq üçün Çar I Nikolaydan icazə alır. Polkovnik rütbəsində ikən hərbi qulluqdan çıxıb həmişəlik olaraq Qubada «Gülüstani-İrəm» əsərini bitirib çapa hazırlayır və başqa əsərlərini yazır.

«Katibi-nəsihətdən» parçalar:

1. Bikarlıqdan qorx ki, hamı eyblərdən pisdir. Bunu bilməlisən ki, heç bir şey bikar deyil.

2. Elmi-kalamın təhsilini hamı işlərdən əziz say, ondan ötrü ki, hamı şeylər onlar vasitəsi ilə müyəssər olur.

3. Yaxşı əməldən iki dəfə ləzzət apararsan: birini o işi edən vaxtda, birini də o işin səmərəsi sənə yetişən zamanda.

4. Bədbəxt o şəxsdir ki, bir kəsin haqqında yaxşılıq etmək fürsəti olduqda etmir.

A.Bakıxanov həm elmi əsərlərin, həm də bədii əsərlərin müəllifidir. Alimin, əsasən, fars dilində yazdığı elmi əsərləri bunlardır:

«Qanuni-Qüdsi» - ilk elmi əsərdir, fars dilinin qramatikasıdır.

«Kəşkül-qəraib» («Qəribə kəşflər») - Amerikanın kəşfi mövzusundadır. Əsərdə Amerikanın fiziki, iqtisadi və siyasi xəritəsindən bəhs edir.

«Əsrarül məlaküt» («Göy cisimlərinin sirləri») - Astronomiyadan bəhs edir. Əsər Sultan İ Əbdülməcidin göstərişi ilə türkcəyə çevrilmiş və 1846-cı ildə İstanbulda nəşr edilmişdir.

«Gülüstani-İrəm» - həcmcə ən böyük elmi əsərdir. Dağıstan və Azərbaycan tarixindən bəhs edilir.

«Təhzibi-əxlaq» («Əxlaqın təmizlənməsi») - əxlaq, tərbiyə mövzusundadır.

«Eynül-mizan» («Tərəzi gözü») - fəlsəfədən, məntiqdən bəhs edilir.

A.Bakıxanov bədii əsərlərini həm ana dilində, həm də farsca yazmışdır. Sənətkarın bədii əsərlərinə aşağıdakılar daxildir.

Azərbaycan, fars və ərəb dillərində yazdığı şeirlər «Divanı».

Farsca yazdığı «Miratül» («Gözəlliyin güzgüsü»).

Ana dilində yazdığı «Riyazül-qüds» və «Kitabi Əşgəriyyə» adlı nəsr əsərləri.

Farsca yazdığı «Nəsihətlər» adlı nəsr əsəri.

ŞƏXSSİZ CÜMLƏLƏR
(БЕЗЛИЧНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Mübtədası olmayan və təsəvvürə də gətirilməyən cümlələrə şəxssiz cümlə deyilir. Ümumi şəxsli və qeyri-müəyyən şəxsli cümlələrdə işin icraçısı ümumi və qeyri-müəyyən şəkildə özünü göstərirsə, şəxssiz cümlələrdə işin icraçısı, ümumiyyətlə olmur və onu şərti də olsa, bərpa etmək mümkün deyildir.

В безличных предложениях подлежащее не бывает и не представляется. Если в обобщенно-личных и неопределенно-личных предложениях производитель, действия представляется обобщенно и неопределенно и их можно восстановить условно, то в безличных предложениях производитель действия вообще не бывает и восстановить его, даже условно, невозможно.

Şəxssiz cümlələrin xəbəri üçüncü şəxsin təkində olur (сказуемое безличных предложений употребляется в третьем лице).

Məsələn: Payızın ilk günləri idi (T.Şahbazi). Günortaya az qalmışdı (T.Şahbazi). Bir neçə gündən sonra Ağa Muradbəyin işinə vilayət məhkəməsində baxılırdı (T.Şahbazi). Sonradan qohum və qonşu məktəbdə təhsil etməsini görüncə mənə izn verdi (T.Şahbazi). Tələsmə, oğlum, hələ lap tezdir (S.Rəhman).

Ümumi şəxsli və qeyri-müəyyən şəxsli cümlələrin xəbəri təkcə fellə ifadə olunursa, şəxssiz cümlələrin xəbəri həm fel, həm də isim və substantivləşmiş digər nitq hissələri ilə ifadə olunur.

Если сказуемое в обобщенно-личных и неопределенных предложениях выражается только глаголом, то сказуемое безличных предложений выражается и глаголом, и существительным, и другими субстантированными частями речи.

1. Xəbəri fellə ifadə olunur (сказуемое выражается глаголом).

Məsələn: Şirəlinin evləndiyi zamandan çox keçir (S.Rəhman). Belələrinə tələbələr arasında çox rast gəlinir (T.Şahbazi). Məhkəmədə böyük və maraqlı bir işə baxılır (T.Şahbazi). Orada isə Püşgah Qasımın qızı barəsində az danışılmayırdı (T.Şahbazi). Bəs hara getməli? Gecənin bu vaxtı kimin qapısını döyüb «məni Arazdan keçir» deyə yalvarmalı? (M.Əlizadə). Padşahın əlacı kəsildi («Azərbaycan nağılları») Niyə qaşqabağın yerlə gedir? (H.Mehdi).

2. Xəbər isimlə ifadə olunur (сказуемое выражается существительными).

Məsələn: Zil qaranlıq idi (T.Şahbazi). Payızın ilk günləri idi (M.İbrahimov). Qaydadır, övlad fərasətsiz olanda onu ata-ana tənbeh edir ("Kirpi"' jurnalı) Evdə nə var, nə yox? Salamatlıqdır, hamı səni gözləyir (Mir Cəlal). Keçir arabalar yenə boş, dolu. Hardasa toydu,

hardasa yasdı (N.Xəzri). Söyləyir, ax, nə gözəl çağ idi. Onda ki, rəhmətlik atam sağ idi (Sabir).

3. Xəbər başqa nitq hissələri ilə ifadə olunur (сказуемое выражается другими частями речи).

Məsələn: İyul ayının iyirmi ikisidir. Axşamdır. Başımızın üstündə duru göy var (M.İbrahiinov). Tələsmə, oğlum, hələ lap tezdəndır (S.Rəhman). Daha gecdir (Ə.Vəliyev). Get-gedə xarab oluram. Heç seçə bilmirəm. Qocalıqdır da (S.Rəhman) .

■**Tapşırıq 285.** *Şəxssiz cümləyə aid bes misal yazın.*

ADLIQ CÜMLƏLƏR
(НАЗЫВНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Adlıq cümlələr ismin adlıq halında olan söz və ya söz birləşmələrindən ibarət olur, lakin bitmiş intonasiyaya malik olur, bitmiş fikir ifadə edir, həmişə substantıv xüsusiyyət daşıyır.

Назывное предложение состоит из слов или словосочетаний, которые употребляются в именительном падеже, но имеют законченную интонацию и выражаеют законченный мысль. Назывное предложение всегда носит субстантивный характер.

Məsələn: Balaşın evi. Köhnə qayda ilə döşənmiş bir ev (C.Cabbarlı). Dilbərin otağı. Balaşın evində bir hovuz (C.Cabbarlı).

Adlıq cümlələr xəbəri olan cümlələrlə müşayiət edilir (назывные предложения сопровождаются предложениями, имеющими сказуемое).

Məsələn: Kolxoz idarəsinin həyəti. Kiçik bağça. Pərdə açıldıqda qabaq tərəfdən tələsik gələn Xanmurad Nəcəflə qarşılaşır (İ.Əfəndiyev). Bərdə yaylaqları. Səhər açılmaq üzrədir. Azərbaycan göylərinə məxsus bir təravət. Turaclar ötüşür (S.Vurğun). Ağalarovun evi. Aynalı pəncərədən Qız qalasının qara gövdəsi görünür (Ə.Məmmədxanlı).

Tərkibinə görə adlıq cümlələr iki cür olur (по составу назывные предложения имеют два типа).

1. Müxtəsər adlıq cümlələr - təkcə bir bas üzvlərdən ibarət olur (нераспространенные назывные предложения состоят только из главных членов).

Məsələn: Tehran, Dərbar (Ə.Məmmədxanlı). Şuşa qalası. Xan sarayı. Vaqifin evi. Toy məclisi, oyun (S.Vurğun).

2. Geniş adlıq cümlələr - baş üzvdən və ona aid ikinci dərəcəli üzvlərdən ibarət olur. İkinci dərəcəli üzvlər kimi təyin, yer və zaman zərflikləri işlənir (Распространенные назывные предложения состоят из главного члена и относящихся к нему второстепенных членов. В

качестве второстепенных членов употребляются определение и обстоятельства места и времени).

Məsələn: Divarlarda saqqalları qırçınlı qədim İran şahlarının ipək üzərində toxunmuş xəyali rəsmləri (Ə.Məmmədxanlı). Böyük bir parkın içində avtopansionat (İ.Əfəndiyev). Bina, taxta bir bina, sadə təmiz həyət (H.Arif). Ölkənin ən böyük adamları, vilayət və qəza komitələri sədrləri, köhnə fırqənçiləri, mühəndisləri, fəhlələri (Mir Cəlal).

Adlıq cümlələrin əsas üzvü müxtəlif qrammatik məna bildirir (Основной член назывных предложений выражает различные грамматические значения).

1. Şəxs bildirir (означает лицо): Ay işıqlı, bulaq başı, göy çəmən. Bir dünyamız, bir sən özün, bir də mən (S.Vurğun).

Aparata sarı çapan beş atlı. Qabaqda Qıratının üstündə Rövşən, onun ətrafında Eyvaz və Səfər (S.Rəhman). Böyük salon. Həsən xan və kəndlilər (S.Rəhman).

2. Əşya bildirir (означает предмет): Divarın içində iki dolab. Birisi qab-qacaq üçün. O biri yorğan-döşək üçün. Rəf üstündə istəkan, nəlbəki, qəndqabı, piyalə, çaynik və qeyri (S.S.Axundov).

3. Yer bildirir (означает место) Şuşa qalası. Cıdır düzü (S.Vurğun). Bağça. Ceyran xalanın evinin qabağı (S.Rəhman). Cənubi Azərbaycan. Təbrizdə yoxsul Musanın evi (S.Rüstəm). Kənd həyəti. Səliməgilin evinin eyvanı. Üzüm çardağı. Üstü ağ cunalı beşik (A.Məmmədov).

4. Zaman bildirir (означает время): On iki sentyabr min doqquz yüz on səkkiz. Bu şərəfli anları anır nəsillərimiz (H.Arif). Səksən yeddinci il, mayın əvvəli... yer tutqun, göylər də qaşını çatmış (H.Arif). 1907-ci il Bakı, Bibiheybət mədənləri. Xanların evi (S.Vurğun).

5. Hadisə və proses bildirir (означает явление и процесс): Bir may. Moskva. Qızıl meydan. Aşıb-daşan izdiham. Çalan kim, oynayan kim... Cəbhə xətti.Topların, tankların gurultusu, güllələrin vıyıltısı, yaralıların zarıltısı. Xaosun hay-küyü...

■**Tapşırıq 286.** *Dram əsərlərinin remarkalarından adlıq cümləyə aid on misal seçib dəftərinizə yazın.*

MƏSDƏR CÜMLƏLƏR (ИНФИНИТИВНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Məsdərdən və ya məsdər tərkibindən ibarət olan cümlələr məsdər cümlələr adlanır. Belə cümlələri təşkil edən məsdərlər ismin adlıq halında olur və xəbərlik əlamətləri (şəkilçiləri) qəbul etmir, təkcə intonasiyanın köməyi ilə bitmiş fikir ifadə edir.

Инфинитивные предложения состоят только из инфинитива или инфинитивного оборота. В таких предложениях инфинитив употребляется в именительном падеже и никаких признаков (аффикса) сказуемого не принимает, только при помощи интонации выражает законченную мысль.

Məsələn:

Bir qumardan, bir atdan,
Bir də gözəl arvaddan,
Ehtiyatlı dolanmaq,
Ehtiyatlı dolanmaq.

S.Vurğun

Lenin demişdir: «Oxumaq, oxumaq, yenə də oxumaq». Papiros çəkməmək.

■**Tapşırıq 287.** *Məsdər cümlələrə beş misal yazın.*

■**Tapşırıq 288.** *Mətni oxuyun.*

Səməd Vurğun
(1906-1956)

Səməd Vurğun ilk təhsilini doğulduğu kənddə almış, sonra isə Qori Müəllimlər Seminariyasının Qazax şöbəsini bitirmişdir. Onun müəllimi Firudin bəy Köçərli olmuşdur. Daha sonra təhsilini Bakıda və Moskvada davam etdirmişdir. Bir müddət müəllim işləyən S.Vurğun gənc yaşlarından şeir yazmağa başlamışdır. Onun şeirlərində aşıq yaradıcılığının, ümumiyyətlə, şifahi xalq ədəbiyyatının təsiri aydınca duyulur. Bu şeirlər dilinin şirinliyi, aydınlığı ilə hamının fikrini cəlb edir. O, vətənimizin təbiətindən ilham almış, onun gözəlliyinə xeyli əsər həsr etmişdir. Azərbaycanın bütün bölgələrini, onun nemətlərini sevə-sevə təsvir edən şair xalqımızın keçmişini, taleyini əsərlərində geniş əks etdirmişdir.

İlk şeirlər kitabı «Şairin andı» olmuşdur.

İlk poeması «Komsomol» adlanır. Məşhur şeirlərindən biri «Azərbaycan»dır, 1935-ci ildə yazılıb. Ümumiyyətlə, o, 30 poemadan ibarət «Azərbaycan»a namə yazmaq istəyib. Onun «Dalğa», «Anamın öyüdü», «Şəfqət bacısı», «Muğan», «Aygün», «Ayın əfsanəsi», «Aslan qayası», «Bakının dövranı», «Talıstan», «Zəncinin arzuları» və s.

poemaları, «Vaqif», «Xanlar», «Fərhad və Şirin», «İnsan» adlı dram əsərləri var.

O, Azərbaycanın ilk Xalq şairi fəxri adını almış şairimizdir.

Səməd Vurğun 1956-cı ildə Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Ceyran
(İxtisarla)

Yerdən ayağanı quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürüsün nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə,
O qara gözlərin düşdü dillərə,
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran.
Bir mən deyiləm ki, hüsnünə heyran,
Söhbətin yayılıb hər yana, ceyran!

On addım kənarda yatmayır təkə,
Gəzinir oylağa baş çəkə-çəkə.
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran.

Ovçu, insaf eylə, keçmə bu düzdən,
O çöllər qızını ayırma bizdən,
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran,
Nə gözəl yaraşır Muğana ceyran!..

■ **Tapşırıq 289.** *Şeri hissə-hissə əzbərləyin.*

Səməd Vurğun

Dünya

Ulduzlar havanın bağrını dəlir,
Qayalı dağlardan duman yüksəlir,

Xəyalım gecəni salama gəlir,
Çapdırır atını birbaşa dünya.

Yerlərə baxıram – bağçalı, bağlı,
Göylərə baxıram-qapısı bağlı,
Kainat ixtiyar, sirli, soraqlı,
Əzəldən yaranıb tamaşa dünya.

Bır də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

Əzəldən belədir çünki kainat,
Cahan daimidir, ömür amanat.
Əldən-ələ keçir vəfasız həyat,
Biz gəldi-gedərik, sən yaşa dünya.

Buludlar dağılır uzaqda lay-lay,
Yenə öz yerində yuvarlanır ay.
Fəqət nə Cəlal var, nə də ki, Humay,
Nə ömrə acıyır, nə yaşa dünya.

SÖZ - CÜMLƏ
(СЛОВА - ПРЕДЛОЖЕНИЯ)

Azərbaycan dilində **bəli, xeyir, hə, yox** kimi təsdiq və inkar bildirən sözlər söz-cümlə adlanır. Onlar dialoqla fikrin təsdiq və ya inkarını bildirmək üçün işlədilir.

В азербайджанском языке слова-предложения состоят, в основном, из таких слов как, **bəli, xeyir, hə, yox** которые выражают утверждение и отрицание. Слова-предложения употребляются в диалогической речи для утверждения или отрицания предшествующего высказывания.

Məsələn: Bilirsən, bu nə mahnı idi, Zaur? - **Yox** (Anar). - Sən bu mövzunu qəsdən seçmisən? – **Xeyr!** (E.Əhmədov). «Xeyir işiniz mübarək» - dedilər, hələ qollarını qaldırıb oynadılar da. **Bəli**, oynadılar (İ.Şıxlı). Hə, budur, yoldaşlar, bu saat açın təftiş edin (S.Rəhman). Müdirin yanına getdim. Məni görcək: - **Hə**, gəldiniz, hara düşmüsünüz? (T.Şahbazi). **Yox**, sən xəbər vermə, özləri deyəcəklər (S.Rəhman). **Yox**, dayan dedim, qurtardı (S.Rəhman). Havaxtdır səfərin? - Saat 8-də vağzalda yığışmalıyıq. - Bu axşam?-**Bəli** (Mir Cəlal).

Bunlardan başqa, **yaxşı, baş üstə, qətiyyən, əlbəttə, əlbəttə ki, şübhəsiz, əsla, afərin, mərhəba, yəqin, sükut, əlvida, xüdahafiz, çox gözəl, heç, çox pakizə, çox yaxşı, vəssalam, heç də yox** və s. sözlər də, situasiyalardan asılı olaraq, söz-cümlə kimi işlənə bilir.

Кроме этих слов, **baş üstə, qətiyyən, əlbəttə, əlbəttə ki, şübhəsiz, əsla, afərin, mərhəba, yəqin, sükut, əlvida, xudahafız, çox gözəl, heç, çox pakizə, çox yaxşı**, **vəssalam, heç də yox** др. слова и словосочетания, в зависимости от ситуации, могут употреблять как слова-предложения.

Məsələn: Çox nahaq, düş bu saat aşağı (S.Rəhman). Heç də yox, - deyə Aydın etiraz elədi (S.Rəhman). Mənim gözlərim üstə, hələlik çıxartmaram, sizin xatirinizə (S.Rəhman). Çox pakizə, allah razı olsun (N.Vəzirov). Baş üstə yoldaş Kərimov (S.Rəhman). Çox yaxşı. Mədaxildən bir şey vermisən? (N.Vəzirov). Necə olsa, bunlarla çalışmaq yara bağlamaqdan yaxşıdır. -Əlbət ki (Mir Cəlal). Əlbəttə, yoldaş Kərəmov (S.Rəhman).

■**Tapşırıq 290.** *Söz-cümləyə aid on misal yazın.*

■**Tapşırıq 291.** *Mətnin məzmununu öyrənin.*

Hacı Zeynalabdin Tağıyev

Hacı Zeynalabdin Tağıyevin anadan olduğu il dəqiq deyildir. Bir mənbədə 1821-ci il, başqa bir mənbədə isə 1838-ci il yazılıb. Hacı Zeynalabdin Tağıyev Bakıda anadan olmuşdur. O, uşaq ikən anası vəfat etmişdir. Atası ikinci dəfə evlənmiş və beş qızı olmuşdur. Böyük ailəni saxlamaq başmaqçı Tağı üçün çox çətin idi. Odur ki, 9 yaşlı Zeynalabdin atasına kömək etmək məqsədi ilə bənna yanında palçıqdaşıyan işləyir. Bir dəfə Zeynalabdin evə qayıdanda ilk qazancı olan 6 qəpik pulu atasına verir. Həmin gün atasnıın çörək almağa pulu yox idi. Ata həmin pulla bazara gedib çörək və başqa şeylər alıb gətirir. Bütün ailə oturub bir yerdə yeyirlər.

Azyaşlı Zeynalabdin tikintidə palçıq daşıyır. İş çox olsa da, o, canla-başla çalışır ki, onun işindən razı qalsınlar. Zeynalabdin işə hamıdan tez gəlir, hamıdan gec gedirmiş. Hacı Zeynalabdin 15 yaşında daşyonan, 18 yaşında bənna, sonra da memar-podratçı olur.

1873-cü ildə Hacı Zeynalabdin Tağıyev iki nəfərlə şərik olub Bibiheybətdə icarəyə yer götürür, quyu qazmağa başlayırlar. Ancaq neft çıxmır. Şəriklər ümidlərini itirib öz paylarını satmaq istəyirlər. Zeynalabdin onların pulunu verib buruğun və yerin tam yiyəsi olur. Bundan sonra Hacı Zeynalabdin Tağıyevin işi daha da çətinləşir. Ancaq o, hər seyə dozür, özü də fəhlələrlə birlikdə işləyir. Nəhayət, neft quyusu

gözlənilmədən fontan vurur. Başmaqçı Tağının oğlu-palçıqçı Zeynalabdin dönüb olur milyonçu Tağıyev.

Buruq ustaları və fəhlələr Hacı Zeynalabdin haqqında deyirdilər: «O, xoş rəftar, həlim bir adam idi. Hacı Zeynalabdin heç vaxt tabeliyində olan adamla pis danışmaz, səhv edən adamın təqsirindən keçərdi. Sağlam adama havayı pul verməz, xəstə, əlil, yetim uşağa, dul qadınlara kömək edərdi.

Hacı Zeynalabdin Tağıyev 1895-97-ci illərdə öz ailəsi üçün çox gözəl bir ev, saray tikdirir. Həmin binada indiki Tarix muzeyi yerləşir.

Hacı Zeynalabdin Tağıyev neftxuda, dəyirman sahibi, fabrikant, böyük balıq sənayeçisi, həm də ticarət və yük gəmiləri sahibi idi. Hacı Zeynalabdin Tağıyevin Qubada, Yevlaxda, Ənzəli və Rəşt ərazisində meşələri, böyük malikanəsi və nümayəndələri var idi. Moskvada 4 mərtəbəli iri sarayı, İranda karvansaraları, Kür çayı ətrafında kürü zavodu vardı. Kürünü Rusiyaya və Avropaya ixrac edirdi. O, istedadlı gəncləri Rusiyaya və Avropanın başqa şəhərlərinə öz hesabına oxumağa göndərirdi. Ş.Şirvaninin oğlu Seyid Cəfər deyirdi ki, Tağıyev atamın ilk kitabını Bakıda çap etdirmək istəyəndə ruslar buna icazə vermədi. Belə olduqda Tağıyev əlyazmanı Tehrana göndərir və öz hesabına çap etdirir. Bakıda Tağıyevin öz mətbəəsi var idi. Burada həm rus, həm də Azərbaycan dilində qəzet və jurnallar çap edilirdi. Hacı Zeynalabdin Tağıyev 1893-cü ildə dram teatrı üçün bina tikdirir (keçmiş Musiqili Komediya Teatrı).

Bundan başqa, Hacı Zeynalabdin müsəlman qızlarının öz ana dillərində oxumaları üçün məktəb açmaq istəyir. O, çar III Aleksandrdan icazə istəyir. Hacı Zeynalabdin rüşvət vermədiyinə görə çar məktəbi açmağa razılıq vermır. III Aleksandr ölür, onun yerinə II Nikolay taxta çıxır. Tacqoyma mərasimi zamanı Tağıyev bir senatorun vasitəçiliyi ilə II Nikolayın arvadı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə göndərir ki, Bakıda qız məktəbi açmaq üçün icazə versin. Tağıyev vəd edir ki, məktəbə onun adı veriləcək. Nəhayət, Bakıda müsəlman qızları üçün məktəb açmağa icazə alır. Tağıyev 1898-1900-cü illərdə indiki İstiqlaliyyət küçəsində qız məktəbi üçün bina tikdirir, (indi Azərbaycan Elmlər Akademiyası Əlyazmalar Fondu həmin binada yerləşir). Bu bina şəhərimizin memarlıq cəhətdən ən gözəl binalarından biridir.

Məktəbə 58 qız qəbul edilmişdi. Bunlardan 35 nəfəri kasıb ailədən idi. Onların təhsil haqqını Tağıyev özü verirdi. Bu məktəb pansion idi. Qızlara həftədə bir dəfə evə getməyə icazə verirdilər.

Hacı Zeynalabdin Tağıyev öz qızları - Sara və Leylanı Peterburqa Smolnı qız İnstitutuna oxumağa göndərmək istəyir. Ora ancaq xan, bəy, əsilzadə, zadəgan uşaqlarını götürürdülər. Hacı Zeynalabdin Tağıyev isə başmaqçı oğlu idi. Hacı Zeynalabdin Tağıyevin arvadı Sona xanımın

atası Ərəblinski çar qoşununun generalı idi. Elə buna görə də Tağıyevin qızlarını Smolnı İnstitutuna qəbul edirlər.

Hacı Zeynalabdin Tağıyevə messenantlıq fəaliyyətində arvadı Sona xanım böyük kömək göstərirdi. O, xeyriyyə gecələrinin əvəzsiz təşkilatçısı, yetim və məzlumların himayədarı idi.

O vaxtlar Bakıda içməli su çox az, demək olar ki, yox dərəcəsində idi. Bakını su ilə təmin etmək üçün Hacı Zeynalabdin Tağıyev çox zəhmət çəkmiş və çoxlu pul xərcləmişdi. 1899-cu ildə Hacı Zeynalabdin Tağıyev xarici şirkətlə 25.000 man. müqavilə bağlayır. Fransız mühəndisi Vilyam Lendileyi Bakıya dəvət edir. Çox axtarışdan sonra Lendiley Qubanın Şollar su mənbəyini tapır. Çox adam bu su mənbəyinin daimi olmasına şübhə ilə baxır. Hacı Zeynalabdin Tağıyev isə deyir ki, Şahdağı əbədi və daimi olduğu kimi, Şollar suyu da əbədidir. Şəhər camaatını su ilə təmin etmək üçün pulumu və zəhmətimi əsirgəməyəcəyəm. Nəhayət, Hacı Zeynalabdin Tağıyevin 25 illik zəhməti və pulu hədər getmir. «Bakı-Şollar» su kəməri 1917-ci ilin yanvar ayında sona yetir.

Xalqımızın qayğıkeş milyonçu oğlu Hacı Zeynalabdin Tağıyev 1924-cü ildə sentyabr ayının 1-də Mərdəkandakı bağ evində vəfat etmişdir. Vəsiyyətinə görə onu müəllimi Axund Əbu Talibin ayağı altında dəfn edirlər. Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanım isə 1992-ci ildə yoxsul və səfil bir vəziyyətdə vəfat etmişdir.

Azərbaycan milyonçusu Musa Nağıyev

Azərbaycanın əfsanəvi milyonçularından biri də Ağa Musa Nağıyevdir. O, adi bir saman satanın oğlu olmuşdur. Sonralar varlanan Ağa Musa var-dövlətdə Zeynalabdin Tağiyevdən heç də geri qalmırdı. Hətta ondan zəngin idi. Milyonçu Ağa Musa «əfsanəvi» bir şəxsiyyətə dönmüşdü. «Cəmiyyəti-xeyriyyə» üçün şəhərin mərkəzində əzəmətli «İsmailiyyə» sarayı ucaltmışdı. Şəhər kənarında, keçmiş Semaşko, indiki Musa Nağıyev xəstəxanasını tikdirmişdi. Bakıya su kəməri çəkilməsi üçün xeyli pul xərcləmişdi.

Ağa Musa cavanlığında dalında biri üç qəpiyə, beş qəpiyə şələ daşıyarmış. Zəhmət hesabına pul yığıb Balaxanıda neft sahəsi əldə etmişdi. Tale onun üzünə gülür, quyu fontan vurur, şələçi Musa dönüb olur milyonçu Ağa Musa Nağıyev. Özü də get-gedə bacarıqlı bir iqtisadçı olur. Sərvət artdıqca, tamah, həvəs, ehtiras da artır, gecə-gündüz işləyir, iş artdıqca isə qüvvə, arzu da böyüyür. Ağa Musa Sabunçuda, Ramanıda mədən ələ keçirir. İnsan tamahının hüdudu yoxdur. Çox keçmir ki, Ağa Musa Suraxanıda da mədən salır. O, XIX əsrin lap sonlarında «Neftçıxarma firması» yaradır. Şəhərdə çoxlu mülk tikdirir və alır, 98 əzəmətli bina və neçə-neçə gəmi sahibi olur.

Ağa Musa təmtərağı, dəbdəbəni sevməzdi. Tərifi milçək vızıltısı hesab edirdi. Təbiətdə, cəmiyyətdə, insanların özündə bəzən dabandabana bir-birinə zidd cəhətlər olur. Qənaətçilikdə ad çıxaran Ağa Musa bəzən elə səxavət göstərirdi ki, hamı heyrətlənirdi. Bir dəfə Ağa Musa mədənə gələndə görür ki, kontorun yanında divar hörən bənna və fəhlələr nahar fasiləsinə çıxıb, işə yaramayan taxtalardan tonqal qalayıb qızınır, söhbət edirlər. İş icraçısı papiros bükür, kibriti alışdırıb yandırır.

Ağa Musa deyir: «Bala, sabahdan işə çıxma, get kontora, pasportunu al!».

İş icraçısı çaşır. «Nəyə xeyrim?»

Ağa Musa: «Ona görə ki, qabağında o boyda tonqal, papirosu yandırmırsan, nahaq yerə kibriti zay edirsən, mənim malımın qədrini heç bilmirsən». Qoçular iki dəfə Ağa Musanı oğurlayıb öldürməklə hədələmişlər. Birinci dəfə, faytona basaraq gözlərini bağlayıb aradan çıxardırlar, gizli mənzilə gətirib on iki min manat tələb edirlər. Ağa Musa özünü itirməyib deyir: «Min manat verə bilərəm, bir qəpik də artıq yox». Ölümlə təhdid edəndə halını pozmayıb deyir: «Atam-atam, öldürün, bir mini də ala bilməzsiniz, o da əlinizdən çıxar».

Nə qədər qənaətcil, təmkinli, səbirli olmaq lazımdır ki, belə bir ayaqda qorxub təşvişə düşməyəsən. Qoçular üç gün girov saxlayıb, yedirib-içirib, kart oynamışdılarsa da, boynuna min manatdan artıq qoya bilməmişdilər.

Ağa Musanın Bibiheybətdəki mədənlərindən birində bir quyu güclü fantan vurur. Fəhlələrə yalvarıb deyir ki, «başınıza dönüm, qoymayın neft hədər yerə axsın, sizə xələt verəcəyəm».

Ağa Musa dövrünün milyonçuları arasında bir qəpiyin də israfçılığına yol verməyən güclü bir iqtisadçı idi. Bakıdakı ən gözəl, yaraşıqlı binalar onun xərci ilə ucaldılmışdır.

MÜRƏKKƏB CÜMLƏ
(СЛОЖНОЕ ПРЕДЛОЖЕНИЕ)

Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin məna, intonasiya və qrammatlik cəhətdən birləşməsindən əmələ gəlir.

Сложное предложение образуется путем смыслового, интонационного и грамматического соединения двух или более простых предложений.

Məsələn: Ay ana, ildə bircə gecə çillə çıxır, onu da deyə-gülə keçirməyəsən, doyunca oynamayasan... heç olarmı (Y.V.Çəmənzəminli). Son vaxtlar əmim arvadı mənə çox iş tapşırdı, mən isə bundan razı qalırdım (B.Bayramov). Amma onu da bil ki, hələ dünyada heç kəs eləsindən xeyir görməyib (M.İbrahimov). Ay saf göydə öz gediş sürətini

artırmış, ağ pambıq kimi seyrək buludlar onu gəlin aparan kimi əhatə etmişdir (H.Nəzərli).

■**Tapşırıq 292.** *Mətnin məzmununu öyrənin.*

Mustafa Kamal Atatürk
(1881-1938)

Atatürk görkəmli hərbi və siyasi xadim olmuşdur.

Sultan hökumətinin xalqa xəyanətini aydın başa düşən Mustafa Kamal türk xalqını milli azadlıq hərəkatına qaldırıb. 1923-cü il aprelin 23-dən ömrünün sonuna qədər Türkiyə Respublikasının prezidenti olub. Onu bu şərəfli vəzifəyə xalq dörd dəfə (1923, 1927, 1931, 1935) seçib.

Mustafa Kamal türk xalqını əsarət altına düşməkdən, dövlət müstəqilliyini itirməkdən qurtarıb. O, Qərb dövlətlərinin Türkiyəni parçalamaq planlarını puça çıxarıb. Atatürkün türk xalqına ən böyük tarixi xidməti Türkiyə Respublikasıdır.

Atatürk Şərq və Qərbin mədəniyyətinə yaxından bələd idi. Avropa dövlətlərinin keçdiyi təkamül yollarını və orada özünü göstərən siyasi fikir cərəyanlarını dərindən bilən Mustafa Kamalın düşüncə sistemi bir yandan Qərb dünyasının təsiri altında formalaşır, digər tərəfdən də, türkçülük ideyaları və sevgisi içində yoğrulurdu. Türk cəmiyyətinin tarixi xüsusiyyətləri və o dövrdə mövcud olan ümumbəşəri sivilizasiya şərtləri onun düşüncə sistemini formalaşdıran başlıca amillər idi. Bu amilləri nəzərə alaraq Atatürk özünün ictimai-siyasi fəaliyyətində türk-islam sintezindən daha çox Türk - Qərb sintezini əsas tuturdu, ilahiyyatçı dövlət aparatını dünyəvi siyasi quruluşla əvəz edirdi. Ölkədə yeni tipli siyasi institutların yaradılmasında, ümumən ölkənin gələcək inkişaf yolunun müəyyən edilməsində Qərb sivilizasiyası, Qərbin keçdiyi tarixi inkişaf yolu bir örnək yolunu oynadı. Bununla yanaşı, Mustafa Kamal dönə-dönə bildirdi ki, biz Qərbi kor-koranə yamsılamaq fikrində deyilik.

Dinə dərin hörmət bəsləyən Atatürkün fikrincə, din dövlət işlərinə qarışmamalı, ancaq vicdanlardakı yüksək və müqəddəs yerini qorumalıdır, dünyəvilik-dinsizlik, din düşmənçiliyi, dinə hörmətsizlik demək deyildir.

Şübhəsiz, bugünkü Türkiyə məhz Qazi Mustafa Kamal Atatürk ənənələri üzərində yüksəlib, dünyanın ən qabaqcıl demokratik dövlətlərindən birinə çevrilib.

Atatürkün dediklərindən: MİLLİ MƏNLİYİNİ tapa bilməmiş millətlər başqa millətlərin ovu olurlar.

MİLLƏTİN İSTİQLALI -təhlükədə olduğu zaman millət ordusunu özü yaradır və qurtuluş uğrunda axıra qədər qan tökmək yolunu qəbul edir.

ƏMƏKÇİNİN ZƏHMƏTİNİN haqqını alın təri qurumadan veriniz.

MƏTBUAT heç bir yolla zorakılığa və nüfuza tabe edilə bilməz.

TƏNQİD VƏ MÜBAHİSƏ tamamilə sərbəstdir. Hökuməti və məclisi diqqətli edən tənqid sərbəstliyidir.

Tarix yazmaq, yaratmaq qədər mühümdür. Yazanın yaradana sadiq qalması, tarixi insanlığı çaşdıracaq bir mahiyyət alır. Bir millətin ruhu zəbt olunmadıqca, bir millətin əzm və iradəsi qırılmadıqca o millətə hakim olmaq imkan xaricindədir.

MÜRƏKKƏB CÜMLƏDƏ ƏLAQƏ VASİTƏLƏRİ (СПОСОБЫ ВЫРАЖЕНИЯ ОТНОШЕНИЙ В СЛОЖНОМ ПРЕДЛОЖЕНИИ)

Mürəkkəb cümlənin tərəfləri arasında məna və qrammatik əlaqələr yaratmaq üçün bu vasitələrdən istifadə olunur (для образования смысловой и грамматической связи между частями сложного предложения используются следующие средства):

1. İntonasiya (интонация): Məsələn: Bir neçə dəqiqədən sonra bayırdan maşın səsi gəldi. Pirməmməd pillələrlə aşağı enib küçəyə çıxdı (Y.Əzimzadə). Yazıçı üçün bir şey lazımdır: o, ilhamını və mövzusunu yaşadığı xalqın həyatından almalıdır (M.S.Ordubadi). Sən bir yer nişan ver, mən bu saatda yola düşüm (M.F.Axundov). Dünya qarışdı, Sonanın uşaqları yetim qaldı (Mir Cəlal). Bir azdan sonra işıqlar söndü, salonu bürümüş gurultu yavaş-yavaş, pərdələr açılarkən tamamilə kəsildi (H.Mehdi).

2. Bağlayıcılar (союзы): **Məsələn:** Elə bil **gah** ayaqlarım yerdən üzülürdü, **gah da** torpaq məni çəkirdi, aparmaq istəyirdi (B.Bayramov). Onu öz bölüyünə göndərdilər və bir neçə gün sonra bölük qabaq mövqelərə getməli oldu (Mir Cəlal). Axşamdan kəndin üstünə çökən duman çəkilmiş, səhərə yaxın yağış **da** çiləmişdi (İ.Şıxlı). Mənim təklifim budur **ki**, elə bu ildən çarpaz becərmə üsuluna keçək (İ.Şıxlı).

3. -sa, -sə, -mı, -mi, -mu, -mü ədatları (частицы:- **sa, -sə, -mı, -mi, -mu, -mü): Məsələn:** Müəllim, həkim öz kəndimizdən ol**sa**, bütün baş ağrısından birdəfəlik qurtararıq (M.İbrahimov). Səsini çıxart**san**, özünü ölmüş bil (S.Rəhman). Yadındadır**mı**, bir dəfə səni adamların yanında, necə pərt etdim (O.Salmanzadə).

4. Kim, hara, nə, necə, hansı, haçan və s. əvəzlikləri **(местоимение kim, hara, nə, necə, hansı, haçan** и др.) **Məsələn: Kim** xalqın mənafeyinə zidd getsə, məndən aman gözləməsin (M.İbrahimov). **Nə** soruşsanız, söylərəm (C.Cabbarlı). Bakıda **haçan** xəzri olsa, onda qışdır (M.Süleymanov). Məni hökumət **hara** göndərsə, orada işləyəcəyəm (H.Mehdi). Burada bir söz danışa bilmədi, çünki Mehman orada idi (S.Rəhman).

■**Tapşırıq 293.** *Verilən mürəkkəb cümlələrdə tərəflərin əlaqə vasitələrini göstərin.*

Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün (S.S.Axundov). Bir az gözləyək ay çıxsın (Ə.Məmmədxanlı).Sən necə göstərmisən, mən də elə yazmışam (S.Rəhimov). Nə dedim xatirinə dəydi, üzün məndən niyə dondü (Aşıq Ələsgər). Abır istəsən, çox demə, sağlıq istəsən, çox yemə (Atalar sözü). Sözlər bu ağızlardan elə çıxır ki, elə bil Pəri xala muncuğu ipək sapa düzür (M.İbrahimov). Bahar döyülməyə də dözürdü, çünki gedəsi yeri yoxdu (Mir Cəlal). Dəmir islanmaz, dəli utanmaz (Atalar sözü). Qapı açıldı və ev sahibinin qulluq-çusu otağa girdi (H.Nəzərli). Özümü pis hiss eləyirəm, ürəyim yaman darıxır (B.Bayramov). Telefon nömrəsini ver, özüm zəng çalım (B.Bayramov). Nə pişik, nə toyuq, nə də dumanlı hava qarının giley-güzarına cavab vermir, hər şey sükutunda davam edir (Mir Cəlal).

TABESİZ MÜRƏKKƏB CÜMLƏ (СЛОЖНОСОЧИНЕННОЕ ПРЕДЛОЖЕНИЕ)

İki və daha çox nisbi müstəqil sadə cümlənin birləşməsindən əmələ gələn mürəkkəb cümləyə tabesiz mürəkkəb cümlə deyilir.

Сложное предложение, образованное объединением двух или более относительно свободных простых предложений называется сложносочинительным предложением).

Tərəfləri arasındakı əlaqə vasitələrinə görə tabesiz mürəkkəb cümlənin iki tipi vardır: a) bağlayıcısız və b) bağlayıcılı tabesiz mürəkkəb cümlə.

По средствам выражения отношений между компонентами сложносочиненные предложения имеют два типа: а) безсоюзные сложносочиненные предложения и б) сложносочиненные предложения с союзом.

l. Bağlayıcısız tabesiz mürəkkəb cümlələr intonasiya vasitəsilə bir-birinə bağlanır (Безсоюзные сложносочиненные предложения

связываются при помощи интонации). **Məsələn**: Bəyin dizləri titrəyir, əli əsir, ürəyi döyünür, gözünə müxtəlif şeylər görünürdü (Mir Cəlal). Qonşu otaqda zəng səsləri, Firuzənin gülüşləri və mahnısı eşidilirdi (C.Cabbarlı). Əriyir yaz günü qüzeydəki qar, Gəzir dağ döşünü gəlinlər, qızlar, Hər bulaq başında bir qeybət olur (S.Vurğun). Zəngin səsi kəsildi, dərs başlandı. Yəhya, Kamal oxuyur, sarı qız hesablayır, Zahidov balaca qara dəftərinə qeyd edirdi (Mir Cəlal). Torpağı duz basmış, kəndlilər köçüb getmişlər (Ə.Vəliyev). Pətəkdə arı qalmadı: yananı yandı, yanmayanı çərdək kimi çölə süzdü (C.Bərgüşad).

2. Bağlayıcılı tabesiz cümlənin tərəfləri tabesizlik bağlayıcıları ilə əlaqələnir (Компоненту сложносочиненных предложений союзом связываются при помощи сочинительных союзов)**.**

a) və bağlayıcısı ilə (при помощи союза **və** «и»);

Məsələn:

Ağa, sən mənim atamsan **və** sənə hörmət eləmək mənim borcumdur (Ə.Haqverdiyev). Birdən barakın qapısı taqqıltı ilə açıldı **və** içəriyə güclü bir işıq şöləsi axdı (M.Hüseyn). Şərqiyyə içəri otağa keçdi **və** atası ilə Həkimoğlunun söhbəti qapı arxasında qalıb eşidilməz oldu (B.Bayramov).

b) amma, ancaq, lakin, fəqət bağlayıcıları ilə (при помощи союзов **amma, ancaq, lakin, fəqət):**

Məsələn:

Kaman dilə gəldi, **amma** çaldığı romans kədərdən çox məhəbbət, həyat eşqi, hörmət, ləyaqət ifadə edirdi (B.Bayramov). Sən yaratdığın Firəngiz indi yoxdur, **fəqət** mən yaratdığım Firəngiz əbədidir (C.Cabbarlı). Əbdül udqundu, nəsə demək istədi, **ancaq** xoşbəxtlikdən Elməddin daha ona əhəmiyyət verməyib ayağa durdu (Ə.Hacızadə). Rafilə qala qapısını çoxdan tərk etmişdi, **lakin** hələ də ikiqat qalmış keşikçilər razılıq etməkdə idilər (Y.V.Çəmənzəminli).

c) ya-ya da bağlayıcısı ilə (при помощи союза **ya-ya da**);

Məsələn:

Ya burada irəli sürülmüş tələblərə razı olmalısınız, **ya da** bir adam belə işə çıxmayacaq (M.Hüseyn). Dünənki hadisədən sonra ya onu milis idarəsinə çağırırdılar, **ya da** gəlib evdə sorğu-suala tuturdular (A.Babayev).

ç) da-də bağlayıcısı ilə (при помощи союза **da-də**);

Məsələn: Dolu **da** ötüşdü, külək **də** keçdi (B.Bayramov). Divarı sökmək üçün dəmir-dümür tapa bilmişdik, finkalar **da** kara gəlirdi (B.Bayramov). Xalq **da** arvad alıb yaşayıb, mən **də** evlənib bəxtəvər olmuşam (Ə.Vəliyev). Baban Məhəmmədin qəbri **də** o məzarıstandadı, əmilərin Ağ Əmirnən Boz Əmirin qəbirləri **də** (İ.Hüseynov).

d) nə-nə də bağlayıcısı ilə (при помощи союза **nə-nə də);**

Məsələn:

Nə anam dillənir, **nə də** mən düşüncələrimi dağıtmaq istəyirdim (B.Bayramov). **Nə** işıq azalıb-çoxalır, **nə** kişi azacıq qımıldanırdı (S.Əhmədov). **Nə** siz bu sözü dilinizə gətirmisinız, **nə də** biz eşitmişik (S.Əhmədov). **Nə** o mənə bir söz deyir, **nə də** mən onun niyyətini soruşmağa cəsarət edirdim (B.Bayramov).

e) isə bağlayıcısı ilə (при помощи союза **isə**);

Məsələn:

Şamxal evdən gedəndən sonra Zərnigar xanım küncün birinə çəkilib ağlayır, Salatın **isə** qorxudan gözə görünmürdü (İ.Şıxlı). Məşədi gülür, arvad **isə** yarası ağrıyan bir adam kimi sir-sifətini turşudur, tez-tez başını bulayıb narazılığını bildirirdi (M.Hüseyn). Çərkəz kəndirdən tutub var gücü ilə dartır, balıq **isə** onu sürüyüb aparırdı (İ.Şıxlı). Axşamdan evin ortasında yandırdığı manqal gecəyarısı sönmüşdü, səhər **isə** otaq buz kimi soyuq idi (Ə.Hacıyev).

ə) yəni bağlayıcısı ilə (союзом **yəni**);

Məsələn:

Polis nəfərlərinin vəziyyəti bir qədər yaxşı idi; **yəni** onlar özlərini qoruyub sağ qala bilərdilər (M.Hüseyn). Ara qarışan kimi oldu; **yəni** elə bil Şərəf ananın özü də, ona verilən sual da arada itdi (B.Bayramov). Bugünkü hücum müvəffəqiyyətlə başa çatmalıdır, **yəni** düşmən əlində olan körpü geri alınmalıdır (M.Qocayev). Təlim vaxtı bir qədər sustalırdı; **yəni** onu bir qədər sakit görmək olurdu (B.Bayramov).

f) gah-gah da bağlayıcısı ilə (союзом **gah-gah da**);

Məsələn:

Buludlar karvan-karvan lap aşağıdan ötür, **gah** iri damcılar çadırları səsləndirib xal-xal naxışlayır, **gah da** çiskin yağış asta-asta yağır, şeh kimi yerə yatırdı (B.Bayramov). Arxada oturanlar dünyadan xəbərsiz söhbət edirdilər: **gah** Rəşid öz sevgisinin əbədiliyindən danışır, **gah da** Süsən onu sonsuz məhəbbətlə sevdiyini bildirirdi (M.Hüseyn). Payız girəndən havalar da sərinləşmişdi, tez-tez yağışlar yağır, **gah** şiddətli küləklər əsirdi (Ə.Əbdülhəsən). Gah prokuror onun sözünü kəsirdi, **gah da** izdihamdan doğan həyəcan ona danışmağa imkan vermirdi (M.Qocayev).

h) həm-həm də baglayıcısı ilə (союзом **həm-həm də**):

Məsələn:

Qız **həm** qorxudan sərsəmləmişdi, **həm də** soyuqdəymə ciyərlərinə işləmişdi (B.Bayramov). Bayram **həm** inqilabın taleyini düşünürdü, **həm də** kənddə qoyub gəldiyi ailəsinin vəziyyəti onu narahat edirdi (M.Hüseyn). Bu **həm** sizi əzab-əziyyətdən xilas edər, **həm də** biz istədiyimizə nail olarıq (M.Qocayev). Xanım, ağama zəng edin gəlsin, **həm** siz barışın, **həm də** o, düşbərə yesin (Ə.Hacızadə).

x) yoxsa bağlayıcısı (союзом **yoxsa**):

Məsələn:

Anasının xətrinə keçib divanda oturdu, **yoxsa** qarını qapıdan qovardılar (B.Bayramov). Üç-dörd günə hücum əməliyyatı keçirməli idi, **yoxsa** düşmən duyuq düşə bilərdi (M.Qocayev).

i) nəinki-hətta bağlayıcısı ilə (союзом **nəinki-hətta**);

Məsələn:

Nəinki bu ecaskar aləmə gözü dolusu baxa bilmirdi, **hətta** kipriklərini qaldırmağa da iqtidarı qalmamışdı (B.Bayramov). Mingəçevir sularında **nəinki** qayıq və gəmi işləyəcək, **hətta** külək əsəndə iki metr yarım hündürlüyündə dalğalar oynaşacaqdır (Ə.Sadıq).

j) bununla (da) bağlayıcısı ilə (союзом **bununla (da)**):

Məsələn:

O, bir papiros eşib çəkdi, **bununla da** istirahəti bitmiş hesab edib, çaya doğru getdi (B.Bayramov).

■**Tapşırıq 294.** *Verilən tabesiz mürəkkəb cümlələrin tərəfləri arasındakı əlaqə vasitələrini göstərin.*

Malımız orada ilişib qalıb, ərbab onu göndərməyi lazım gördü (M.İbrahimov). Mehdinin gözlərində qəzəb qığılcımları parladı və o, yumruqlarını bərk-bərk sıxdı (İ.Qasımov, H.Seyidbəyli). Bilsəm ki, götürüb getsəm, bu bəladan xilas ola bilərəm, vallah elə bu saat itərəm: amma bilirəm ki, bu gün gedib, sabah geri qayıdacam (N.Vəzirov). Saat çıqqıldayır, əqrəb astaca hərəkət edir, həkim öz böyüyünün xəstələndiyindən guya iztirablı bir xəyala gedir (S.Rəhimov). Maya kitabı aldı, lakin oturduğu yerdə işıq az oldugu yadından çıxmışdı (Ə.Ələkbərzadə). O, səhərdən yol gedirdi, yol isə hələ də qurtarmaq bilmirdi (Ə.Ələkbərzadə). Əzizbəyov evə gedəndə anası yemək hazırlayır, arvadı uşağı yatırırdı (M.Hüseyn). Bu işdə sədr komsomol katibini günahlandıra bilirdi, bütün kolxozçular isə kolxoz sədrini (M.İbrahimov). Həm mən qurtararam, həm sənin cibin dolar, özün də günahsız qalarsan (M.İbrahimov). Nəriman oxudu, acıqlı-acıqlı həkimin üzünə baxdı, həkim də suallı nəzərlə ona göz yetirdi (Mir Cəlal).

TABESİZ MÜRƏKKƏB CÜMLƏNİN TƏRƏFLƏRİ ARASINDA MƏNA ƏLAQƏLƏRİ (СМЫСЛОВЫЕ ОТНОШЕНИЯ МЕЖДУ КОМПОНЕНТАМИ СЛОЖНОСОЧИНЕННОГО ПРЕДЛОЖЕНИЯ)

1. Zaman əlaqəsi (временное отношение):

a) Eynizamanlıq (одновременность); **Məsələn**:

Nə Minəvvər razı oldu, nə də Olqa xanım Minəvvərsiz getmək istədi (M.S.Ordubadi). Ətrafa çökmüş qaranlıq içərisində ildırımlar şığıyır, göy qurultusu lap yaxında partlayan qorxunc top gillələri kimi

qulaqları batırırdı (Ə.Sadıq). Həyət-bacalarda ocaq tüstülənir, mallar hallanıb Kürə tökülür, qız-gəlinlər suya enirlər (İ.Şixlı). Qadınlar corab, əlcək toxuyur, yun darayır, yorğan sırıyır, kişilər qəzet oxuyur, nərd atır, bəzən hansı evdənsə həyətə çıxarılmış radiodan konsert dinləyirdilər. Kənd itləri səs-səsə verib hürüşür, at kişnəməsi və mal-qara səsi ətrafa yayılırdı (İ.Şıxlı).

b) ardıcıllıq (последовательность); **Məsələn**:

Bütün kənd evlərinin qapıları və pəncərələri açılır, adamlar yola tökülür (Ə.Məmmədxanlı). Arson gəldi, görünüb ötüşdü, heç bir müqəddimə başlamadan məsələni ona tapşırdım (M.S.Ordubadi). Səriyyə xala «sağ olun» deyib, boğçanı qoltuğuna vurdu, Alması qucağına almaq istədi, Gülnaz ondan qabaq uşağı yerdən qapdı (M.İbrahimov). Qanıqara halda çarpayısına uzandı, ağ xalatlı, çeşməkli həkim gülümsəyərək ona bir qəzet göstərdi (Mir Cəlal).

2. Səbəb-nəticə əlaqəsi (причинно-следовательное отношение); **Məsələn**:

Bayram Dünyamalıyev savadlıdır, onu göndərmək lazımdır. Palıd ağaclarının altından keçərkən birdən odlu bir külək onun üzünə vurdu, onun nəfəsi daraldı, ayaqları büküldü, o yıxıldı (Ə.Məmmədxanlı). Qoy onlar mənə də atalıq, analıq eləsinlər, bəlkə mən nakam-binəsib valideynlərimin ağır dərdini bir qədər unuda bildim (B.Bayramov). Yolu buradan düşüb, mübaşir Məmməd çəkib gətirib kəndə (M.İbrahimov).

3. Qarşılaşdırma, ziddiyyət əlaqəsi (отношение противопоставления и сопоставления); **Məsələn:**

İki məktub yazdım, hələ cavab yox idi (B.Bayramov). Hidayət ona doğru yeridi, qız üzünü yana tutdu (B.Bayramov). Üç ildir ki, pulu vermirəm, bir söz demirəm (M.İbrahimov). Gözüm yenidən yaşardı, özümü sındırmamaq üçün gülümsündüm (B.Bayramov). Mən qocalmamışam, o elə hamandır ki, var (M.İbrahimov). Kasıblıq eyib deyil, nadanlıq eyibdir (Mir Cəlal). Güzgü hərəkətsizdir, bulaq hərəkət edir «canlıdır» (B.Bayramov).

4. Aydınlaşdırma əlaqəsi (пояснительное отношение); **Məsələn**:

Kəndin hekayəti uzundur, oğul, xırmanda hazırlanmış taxıla kəndlinin əl vurmağa haqqı yoxdur (M.İbrahimov). Belə bir vəziyyətdə gözlənilməyən bir hadisə baş verdi: Kazımgilin sahəsindəki dərəyə tərəf baxan Cavad nə gördüsə, birdən diksinmiş kimi oldu (Ə.Əbdülhəsən). Cəbhədə onların xətri çox əzizdir: biz onları maşınlarda, təyyarələrdə özümüzə lazım olan yerdə aparırıq (Mir Cəlal). Mənim bəxtim belədir: həmişə sənin lə söhbəti bişirib hazır eləyəndə kim isə gəlib mane olur (S.Rəhman). Vağzal od içində idi, alov, tüstü gözə dirəklənmişdi (B.Bayramov).

■**Tapşırıq 295.** *Tabesiz mürəkkəb cümlələri köçürün, tərəfləri arasındakı əlaqələri göstərin.*

Qapını aç, çıxan kimi istədiyini verərəm (M.İbrahimov) Şaxta şiddətlənir, küçələr şüşəyə dönürdü (B.Bayramov). Yol çox uzaqdır, yəqin gecəni harada isə yatmalı olublar (M.İbrahimov). Şaxta bizi doğrayırdı, əlimiz, ayağımız elə bil özümüzünkü deyildi (B.Bayramov). Bu məktubu görəndə Mahrunun varlığı dəyişdi, o, Tornünçüoğlunu bu məsələ ilə xəbərdar etməyə tələsdi; lakin gec idi, bu, mümkün deyildi (M.S.Ordubadi). Cənab Linney onu altıncı dərəcədə fərz edir, cənab Tureprort beşinci dərəcədə fərz edir; amma mən onu dördüncü dərəcədə fərz edirəm (M.F.Axundov). Bu, doğrudan da, maraqlı bir söhbət idi, ancaq Kərimzadə bunu nəinki Haşımlıya, heç kəsə danışmamışdı və danışmazdı da (Mir Cəlal). Aslan kişi qaloşun çıxarmaq istədi, İsa kişi qoymadı, onu skamyaya qaldırıb dedi ... (Ə.Əbdülhəsən). Atların ayaqlarının altından çəyirtkələr atılır, cırcıramaların səsi artır, kəklikotu qoxusu insanı məst edirdi (Y.V.Çəmənzəminli). Ocaq çatıldıqca qığılcımlar ətrafa sıçrayır, yavaş-yavaş köz düşürdü (İ.Şıxlı).

TABELİ MÜRƏKKƏB CÜMLƏ (СЛОЖНОПОДЧИНЕННЫЕ ПРЕДЛОЖЕНИЯ)

Mürəkkəb cümləni təşkil edən cümlələrdən biri müsləqil, əsas, digəri (digərləri) ondan asılı olursa, onu izah edirsə, belə mürəkkəb cümlə tabeli mürəkkəb cümlə adlanır. Tabeli mürəkkəb cümlədə əsas cümlə baş cümlə, ona tabe olan cümlə (cümlələr) budaq cümlə adlanır.

Если один из компонентов сложного предложения является относительно самостоятельным, основным, другой (другие) зависимым от него и поясняет его, такое сложное предложение называется сложноподчиненным предложением. Основное предложение сложноподчиненного предложения называется главным, а зависимое предложение – придаточным предложением.

1. İntonasiya ilə (интонацией); **Məsələn**:

Deyirlər, çox yaşayan ilanın ziyanı da çox olar (C.Bərgüşad). Oğul, mən bilirəm, sevdaya düşən insanlar ömrünü çürüdür bəzən (S.Vurğun). Məsləhət görürəm, əvvəlcə ali təhsili başa vur, sonra mənimlə qohum ol (Ə.Vəliyev). Kim deyir, ana dilimiz şeir deyildir (M.S.Ordubadi). Nə təhər getdilər, bilmirik.

2. Bağlayıcılarla (союзами):

a)kı (кто-что): **Məsələn**:

Mən bunu demək istəyirəm **ki**, hələ varlığına tamamilə inanmadığım bu sevgilinin gələcəyi qorxuludur (M.S.Ordubadi). O

bilirdi **ki**, bu cür bükülüb atılmış qəzetlərin içində adətən heç bir şey olmur (Elçin). Samovar elə şiddətlə qaynayırdı **ki**, guya buğ maşını kimi hərəkət edəcək (C.Məmmədquluzadə). Uzun Həsən öləndə vəsiyyət eləmişdi **ki**, onun oğlanları sədaqətli, ağıllı vəzirin sözünü eşitsin (F.Kərimzadə). Mən hələ bir dəfə görməmişəm **ki**, bu camaat deyən söz yalan ola (M.İbrahimov).

b) çünki –потому-что; **Məsələn:**

Ayağı o qədər ağrımırdı, **çünki** qılçasını dizdən yuxarı kəsmişdilər (C.Cabbarlı). Qüdrətin böyükdür, **çünki** insansan (S.Vurğun). Bahar döyülməyə də dözürdü, **çünki** gedəsi yeri yoxdu (Mir Cəlal). Bu fikrini başqalarının yanında demə, **çünki** yanlış fikirdir (M.S.Ordubadi). Burada bir söz danışa bilmədi, **çünki** Mehman burada idi (S.Rəhimov).

c) hərçənd - хотя; **Məsələn:**

Hərçənd kişinin alnında qırışlar çoxdur, ancaq sözləri sərrast, fikri aydındır (Ə.Vəliyev). **Hərçənd** Sitarə oxumuş qız olduğu üçün özünü dolandıra bilərdi, amma Həsən imkan verməyib gedəndə qapını üzünə qıfıllayır, gələndə isə içəri girib yenə örtərdi (C.Cabbarlı). **Hərçənd** zəhmət sənə düşür, gərək bağışlayasan (M.Süleymanov).

3. Ədatlarla

a) -sa, -sə; Məsələn:

Məndən sonra bir qətrə göz yaşı tök**sən**, ruhum səndən inciyəcəkdir (Ə.Əbülhəsən). Sənin söylədiyin bu töhmətləri eşidə bil**sə**ydi, əriyərdi dağ (S.Vurğun). Ozün heç olmasa, ayağını yerə balaca basa bil**sə**ydin, Kərimlə hərəmiz bir qoluna girib, aradan çıxardıq (H.Abbaszadə). Ağzını təmiz saxla**sa**n, dilini itirər**sə**n (F.Kərimzadə).

b) -mı, -nıi, -mu, -mü: Məsələn:

Birinin ayağı dolaşdı**mı,** hamı ətrafda dastan açır (C.Cabbarlı). Kəndə təzə bir müəllimə gəldi**mi**, mən təsadüfən bir qadınla danışdım**mı**, həftələrlə evimizdən dava-şava qurtarmır (İ.Əfəndiyev). Bahar açıldı**mı**, kəpənək kimi güllərin arasında itəcəkdir (M.İbrahimov).

Gün doğdu**mu** Şüvəlanda yay çağı,
Təndir kimi qızdırdı**mı** torpağı,
Dəli xəzri hay-küyünü kəsdi**mi**,
On-on beş gün gilavar da əsdi**mi**,
Yavaş-yavaş üzümlərə dən düşür.

S.Rüstəm

4. Başqa-başqa vasitələrlə: ayrı-ayrı sözlər, ifadəfər, söz birləşmələri vasitəsilə (другими средствами – отдельными словами, выражениями, словосочетаниями); **Məsələn:**

Biz zəhməti ona görə çəkirik ki, əsl insan kimi yaşayaq (İ.Əfəndiyev). Ondan ötrü qəşəng əhvalatdır ki, adam gülür (C.Məmmədquluzadə). Onunçun əlimi bu sənətə öyrətdim ki, bir gün sənə əl açıb düşməyim xəcalətə (Nizami). Bu ona görə qiymətlidir ki, onu Əmir Teymur özü Təbriz ustalarına düzəltdirib (F.Kərimzadə). Kərəm o məqsədlə gəlmişdi ki, qiyabi instituta daxil olsun (N.Nağıyev). Axırda uşaqlar bir-bir başladılar dağılışmağa o səbəbə ki, uşağın biri dərsini bilməyəndə Məşədi Molla Həsən tüpürürdü uşağın üzünə (C.Məmmədquluzadə). Xudayar bəy eşşəyi o səbəbə satdı ki, ona beş-altı manat pul lazım idi (C.Məmmədquluzadə).

5. Tabeli mürəkkəb cümlənin tərtibində kim?, nə?, hara?, hansı?, haçan? sual əvəzlikləri, o, elə, belə, həmin işarə əvəzlikləri və s. sözlərdən istifadə olunur. Lakin bu sözlər tabeli mürəkkəb cümlənin komponentləri arasında əlaqə yaradılmasında bilavasitə iştirak etmir.

В составлении сложноподчиненных предложений используются вопросительные местоимения kim?, nə?, hara?, hansı?, haçan? указательные местоимения o, elə, belə, həmin и некоторые слова. Но эти слова в установлении связи компонентов сложноподчиненных предложений непосредственно ни участвуют.

Məsələn: Uzun Həsən nə qədər ucaboy, ağır idisə, bir o qədər yüngül, cəld idi (F.Kərimzadə). Nə qədər insanlardan aralı yaşasaq, xata-bəladan, söz-sovdan, böhtan və iftiradan bir o qədər uzaq olarıq (Ə.Vəliyev). Nə qədər mən səndə etibar gördüm, bir elə də Mürtəzaqulu xan görər (Ə.Haqverdiyev). Kim bu məsələnin tərəfdarıdırsa, əlini qaldırsın (Mir Cəlal). Kim ki bu yolu asanlıqla getmək istəyir, qorxuram o, yarı yolda qala (M.Hüseyn). Nə tökərsən aşına, o çıxar qaşığına (Atalar sözü). Hər nə ki vardı, hamısını apardılar (Y.Əzimzadə). Nə soruşsanız, söylərəm (C.Cabbarlı). Məni hökumət hara göndərsə, orada işləyəcəm (H.Mehdi). Haraya mıx çalıram, zənbilini alır (Atalar sözü). Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm (Füzuli).

■**Tapşırıq 296.** *Verilmiş tabeli mürəkkəb cümlələrdə əlaqə vasitələrini göstərin.*

Deyirlər, dünyadan qocadır yaşın,
Qüvvətdən quruldu torpağın, daşın,
Deyirlər, səndədir xeyir, bərəkət,
Deyirlər, səndədir həyat, hərəkət.

S.Vurğun

Çaypur elə köhnə deyil
Demək olar, köhnə Dehli
Onun ulu nənəsidir.
Çaypur küçəsində
gedir fil.
Baxırsan,
sallaqxanaya da aparsa,
onu bu yol,
nə dönəsi,
nə dirənəsidir.

R.Rza

Mənə elə gəlirdi ki, yuxu görürəm, əgər etiraz etsən, ya ona bir söz desən, hər şey yox olacaq (İ.Şıxlı). Hadisə Qədiri elə çaşdırmış, ruhunu və qəlbini elə sıxmışdı ki, elə bil o gözəl qıza olan duyğuları da yadından çıxmışdı (Ə.Əbülhəsən). O, elə durmuşdu ki, sanki sıxılırdı, adamlardan utanırdı, özünü gizlətməyə çalışırdı (M.İbrahimov). Mən demədimmi, Dumada dəf olur ehtiyacımız? (Sabir). Arvad inanmadı, ona görə ki, o hələ oxuyacaqdı (İ.Şıxlı). Alışın oğlu daha da təşvişə düşdü, qapını bərk çəkdi və qapı ağzında dayandı, ondan ötrü ki, Sona içəri girməsin (M.Cəlal). Madam ki, Kamran sizin də, mənim də dostumdur, içək onun sağlığına (İ.Əfəndiyev). Hava küləkli olduğu və qar yağdığı üçün, o, vaxtında gələ bilməmişdi (M.S.Ordubadi).

■**Tapşırıq 297.** *Mətnin məzmununu danışın.*

Rəsul Rza
(1910-1981)

R.Rza 1910-cu ildə Göyçayda anadan olmuşdur. İlk təhsilini əvvəlcə Göyçayda, sonra isə Tiflisdə almışdır. 1930-cu ildə Bakıya gələn R.Rza «Gənc işçi» qəzetinin redaksiyasında işləyir. Qəzetdə onunla birlikdə, dövrun bir sıra şair və yazıçıları da çalışmışdır. Şair həmin illər haqqında xatirələrini «Qızılgül olmayaydı» və «Xatirələr düzümü» poemalarında əks eldirmişdir. R.Rza Azərbaycan Elmi-Tədqiqat İnstitutunda və Moskvadakı Millətlər İnstitutunda, Kino Akademiyasında

oxumuşdur. Müharibə dövründə o Krımda cəbhə qəzeti redaksiyasında işləmişdir. R.Rza müxtəlif illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, Respublika Kinematoqrafiya naziri və uzun müddət Azərbaycan Ensiklopediyasının ilk baş redaktoru vəzifəsində çalışmışdır.

R.Rza Azərbaycanın Xalq şairi və Sosialist Əməyi Qəhrəmanı fəxri adlarına layiq görülmüşdür. R.Rza bir sıra əsərləri ana dilimizə tərcümə etmişdir.

1930-cu illər idi. Axtarışlar, mübahisələr başlanmışdı. Bu, poeziyada da görünürdü. Bəziləri əruz vəznini, digəri hecanı müdafiə edir, bəziləri isə bunların hər ikisini inkar edir, sərbəst şerin tərəfində dururdu. Hər şeyi həyat həll etdi. Hər şeir formasının mövqeyi müəyyən edildi, üçü də yaşadı və inkişaf etdi. Əruz və heca vəznli şeirlərin güclü və qədim ənənəsi var idi. Sərbəst şeir isə yenicə ayaq açırdı. Bu şerin ən görkəmli nümayəndəsi Rəsul Rza oldu. Azərbaycan poeziyasında sərbəst şerin formalaşması, inkişafı, yüksəlişi onun adı ilə bağlıdır. O, indi çoxlu istedadlı nümayəndələri olan sərbəst şeir məktəbi yaratmışdır. R.Rzanın heca vəznli şeirləri də çoxdur.

R.Rzanın şeirləri məzmun və məna dərinliyi ilə, həyata sıx bağlılıgı, orijinal forması, ifadə tərzinin yeniliyi, kəsərli dili və cəsarəti ilə bağlıdır.

R.Rzanın bir sıra poemaları var. R.Rzanın «Qızılgül olmayaydı» poeması Azərbaycan ədəbiyyatında repressiya qurbanları mövzusunda yazılmış ən dəyərli əsərlərdən biridir. Poema repressiyanın günahsız qurbanı olmuş şair Mikayıl Müşfiqə həsr olunmuşdur.

Poemanın baş qəhrəmanı Müşfiqdir, əsas mövzusu Müşfıqin həyatı və taleyidir. Bununla belə R.Rza öz qəhrəmanının nümunəsində 30-cu illər cəmiyyətinin faciəsini göstərmişdir. Müəllif həmin dövrdə şəxsiyyət azadlığının mümkün olmadığını qabarıq şəkildə təsvir etmiş və sovet rejiminin antihumanist mahiyyətini açıb göstərmişdir.

«Tənhalıq nə yamandır,
Qızılgül olmayaydı!
Ey kaş ki, olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Bir də yaralı könlüm,
Heç biri olmayaydı».

■**Tapşırıq 298.** *Şeirdə tabeli mürəkkəb cümlələrin tərəfləri arasındakı əlaqə vasitələrini göstərin. Şeri əzbərləyin.*

R.Rza

İkiqat talant

Yazmağı çoxları bacarır;
yaxşı, pis.
Kimi məktub,
kimi danos-manos,
kimi ərizə-mərizə,
kimi şeir, roman,
kimi müdir üçün
növbəti məruzə.
Yazmağı çox adam bilir;
yaxşı, pis!
Lakin işin yarısı da deyil
yazmaq;
yeritməksiz.
Başqalarında işim yox.
Bədii yaradıcılığı alaq.
Bəzi nümunələrə nəzər salaq.
Hələ mürəkkəbi qurumamış yazını,
Hələ varlığına heç kəs
qələm vurmamış yazını
bacarsan
radiodan qəzetə,
qəzetdən jurnala,
jurnaldan kitaba
yeridəsən.
Harda iki ad çəkilsə,
olasan biri də sən.
Elə bu vaxtda, bu arada,
tərcüməsini təşkil edəsən
yarısı səndən, yarısı ondan.
Elə bu vaxtda, bu arada
məktublar da gəlsin
o şəhərdən, bu rayondan.
Elə bu vaxtda, bu arada
görüşlərə də macal tapasan,
alqışlar da qapasan.

Bizim filan oğlu filan,
canlara dəyən oğlan
bu işlərdə mahirdir.
Kimi deyir reklamçı,
kimi deyir sələmçi,
kimi deyir şairdir.
Belə deyib, belə danışırlar
yazmaq bacarığı da var.

BUDAQ CÜMLƏLƏR (ПРИДАТОЧНЫЕ ПРЕДЛОЖЕНИЯ)

Azərbaycan dilində aşağıdakı budaq cümlələr var (В азербайджанском языке имеются придаточные предложения):

1. Mübtəda budaq cümləsi (придаточные предложения подлежащее).

2. Xəbər budaq cümləsi (придаточные предложения сказуемое).

3. Tamamlıq budaq cümləsi (придаточные предложения дополнительное).

4. Təyin budaq cümləsi (придаточные предложения определительное).

5. Zaman budaq cümləsi (придаточное предложение времени).

6. Yer budaq cümləsi (придаточное предложение места).

7. Səbəb budaq cümləsı (придаточное предложение причины).

8. Məqsəd budaq cümləsi (придаточное предложение цели).

9. Kəmiyyət budaq cümləsi (придаточное предложение образа количества).

10. Tərzi-hərəkət budaq cümləsi (придаточное предложение образа действия).

11. Dərəcə budaq cümləsi (придаточное предложение степени).

12. Nəticə budaq cümləsi (придаточное предложение следствия).

13. Şərt budaq cümləsi (придаточное предложение условное)

14. Qarşılıq-güzəşt budaq cümləsi (придаточное предложение сопоставительно-уступительное).

MÜBTƏDA BUDAQ CÜMLƏSİ (ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ПОДЛЕЖАЩЕЕ)

Sualları: **kim?, nə?**
Əlaqə vasitələri: İntonasiya, **ki, -sa, -sə.**

Əlavə köməkçi vasitələr: **kim, nə, eləsi...**

Məsələn: Nərimana bu da aydın idi ki, döyüş meydanı uzaqlaşmaqdadır (Mir Cəlal). Sözün düzü, ömrümdə birinci dəfədir ki, əsl plov yeyirəm (H.Abbaszadə). Bəlkə anamın könlündən keçir ki, biz də kəndə gedib onunla bir yerdə olaq? (Ə.Vəliyev). Kim ki, kimlə bir səmtdə olur, onlar elə də bir gəlib gedirlər (Anar). Kim ki bu işə biganə baxır, o, qurultayın qərarlarını ləyaqətlə həyata keçirə bilməz (M.İbrahimov). Kim planı vaxtından əvvəl yerinə yetirsə, mükafata layiq görüləcək (İ.Şıxlı). Kim Bakını göz bəbəyi kimi qorusa, o mənim oğlumdur (M.Hüseyn). Kim irəli tələsir, buyursun (M.İbrahimov). O da məlum idi ki, Nərimanın xətrinə demək istəmirdi (Mir Cəlal). Heç nə olmaz, arvad tayfasının qaydasıdır, bir az çığır-bağır salacaqlar, sonra da qapılarına çəkilib susacaqlar (İ.Şıxlı). Ancaq orası vardı ki, İmaməli bunu hansı günahınsa bağışlanması sanar, ayağını bir az irəli qoya bilərdi (S.Əhmədov). Kim ki, iş üstündə ürək əridir, gülşənə döndərir boş boz çölləri (S.Vurğun).

XƏBƏR BUDAQ CÜMLƏSİ (ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ СКАЗУЕМОЕ)

Sualları: **nədir?, nədədir?, nədəndir?, necədir:**

Əlaqə vasitələri: **intonasiya, ki.**

Əlavə köməkçi vasitələr: bu (dur), o (dur), elə (dir), belə (dir), o (ndadır).

Məsələn: Məhkəmədən xahişim budur ki, məni haqsız təhqirlərdən qorusun (Ə.Vəliyey). İndi mənim dediyim odur ki, özünə layiq bir qızla evlənsin (İ.Şıxlı). İgid odur, yaman günə dayansın (C.Cabbarlı). Arzum budur, qoşa qarıyasınız. (Ə.Vəliyev). Mənim arzum budur: qollarına yenə qüvvələr gəlsin (S.Vurğun). Pis cəhəti bircə odur ki, möhkəm fikirli deyil, çox zaman həqiqəti yox, şəraiti nəzərə alır (M.İbrahimov). Dərd ondadır ki, başa düşmək istəmirsən (İ.Şıxlı). Qəribə burası idi ki, nə Əbilin səsi çıxır, nə də canavarlar hücuma keçirdilər (Ə.Vəliyev). Bəla burasında idi ki, kapitan Tərlanov onun işində nöqsan tutanları sevmirdi (H.Seyidbəyli). Ən maraqlı yeri burasıdır ki, mən şikayət etmədən, öz taleyindən narazı olmadan oxuyurdum (İ.Əfəndiyev). İgid odur, atdan düşə atlana, igid odur, hər möhnətə qatlana (Atalar sözü). Əzəldən belədir: Geriyə dönməz atılan bir güllə, uçan bir xəyal (S.Vurğun). Gürşadın işi elədir ki, ilin yarısından çoxunu çöllərdə olur (Ə.Vəliyev). Təəccüb eləməsinə səbəb bu idi ki, Güldəstə çox məğrur idi (Ə.Vəliyev). İkinci səhvin də odur ki, böyük-kiçik bilmirsən (M.İbrahimov).

■**Tapşırıq 300.** *Bədii ədəbiyyatdan beş mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 301.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 302**. *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümləyə cevirin və dəftərinizə yazın.*

■**Tapşırıq 303.** *Mətni oxuyub rus dilinə tərcümə edin.*

Lütfi - Zadə

O, zəmanəmizin kibernetika və riyazıyyat elmi meridianlarında «L.Zadə» kimi tanınır. Əsl soyadı Ələsgərzadə olan alim milliyyətcə azərbaycanlıdır. 1921-ci ildə Bakıda anadan olmuş Lütfi Ələsgərzadənin valideynləri 8 il sonra Güney Azərbaycana köçmüşlər**.** 1942-ci ildə Tehran Universitetini bitirmiş, iki il sonra isə o, Amerika Birləşmiş Ştatlarına köçmüşdür. 1946-cı ildə Massaçusets Texnologiya İnstitutunda namizədlik dissertasiyası, üç il sonra isə Kolumbiya Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. 1959-cu ildən o, Kaliforniya ştatının Berklı Universitetində kafedra müdiri vəzifəsində çalışır. L.Zadə Amerika Elektronika Cəmiyyətinin sədridir.

L.Zadə dünya elm təcrübəsində ilk dəfə dəqiq olmayan çoxluqlar, qeyri-səlis və qərar qəbuletmə prosesinin çox səlis nəzəriyyələrini yaratmış və beləliklə, müasir riyaziyyatın və idarəetmənin əsasını qoymuşdur.

O, Amerika Birləşmiş Ştatlarında bir çox aparıcı elmi istiqamətlərdən olan riyazi statistika, riyazı məntiq, dəqiq olmayan çoxluqlar, aeronavtika, mürəkkəb idarəetmə və süni intellekt sistemlərinin inkişafına və tətbiqinə bilavasitə rəhbərlik etmişdir.

Lütfi - Zadə doqquz xarici dil bilir. Rus dilində çox təmiz danışır, Azərbaycan və türk dillərini də yaddan çıxarmamışdır.

Bir çox ölkələrin elmlər akademiyasının, elmi təşkilat və ali məktəblərinin fəxri doktoru və professoru seçilmişdir.

İndiyə qədər dünyanın müxtəlif ölkələrində 40-dan artıq fundamental əsəri nəşr olunmuş, alimin bir neçə kitabı rus dilinə də çevrilmişdir. Dünya şöhrəti qazandıran qeyri-səlis coxluqlar və qeyri-səlis nəzəriyyə kibernetika, informatika və riyaziyyat sahəsində yeni bir dövr açmışdır. Bu nəticələrin dəyərini ilk dəfə yaponlar dərk etmiş, 1989-cu ildə Lütfi-Zadəyə elm və texnologiya sahəsində ən yaxşı işlərə ayrılan Hond mükafatı verilmişdir (mükafatın məbləği 100 min dollardır).

Lütfi-Zadənin kəşflərini yeni elektron inqilabı adlandırırlar. Bu nəzəriyyə XXI əsrdə elmi-texniki inqilab üçün böyük zəmindir və dünya elmində köklü dəyişikliklərə səbəb olacaq.

Böyük alimin qeyri-səlis məntiq nəzəriyyəsinin köməyi ilə kompyuterlər insan nitqi və təfəkkürünü asanlıqla anlayacaq və beləliklə, obrazların tanınması sahəsində böyük addımlar atılacaqdır.

Qeyri-səlis məntiqin çox böyük kommersiya istiqamətli tədbirləri vardır. Yaponiyada qeyri-səlis məntiqin köməyi ilə hazırlanmış, ovuca yerləşən ingilis dilində mətni toxundurduqda, demək olar ki, həmin anda mətnin kiçik ekranda yapon dilində tərcüməsi görünür.

Lütfi-Zadə dahi Nəsirəddin Tusidən sonra Azərbaycan xalqının yetirdiyi ən böyük alimdir, bu sözləri mərhum akademik Zahid Xəlilov demişdir.

Professor Lütfi-Zadə əsrimizin elmi təfəkkür nəhənglərindən olan N.Viner, A.Kolmoqorov, M.A.Keldiş səciyyəli alimdir. O, dünya kibernetika, informatika və riyaziyyat elmi sahələrinin korifeyidir. Bunu ABŞ-da aparılmış sorğunun nəticələri təsdiq edir: anket sorğusunun təhlili göstərir ki, o, çağdaş elmin nümayəndələrindən biridir.

Əmtəə və əmtəəşünaslıq

Satış üçün istehsal olunan məhsula əmtəə deyilir. İstehsalçı məhsulu özünün tələbatını ödəmək üçün deyil, satmaq məqsədilə istehsal edir.

Əmtəə istehsalı, hər şeydən əvvəl, ictimai əmək bölgüsü ilə bağlıdır. Başqa sözlə desək, istehsalçılar bu və ya digər məhsul istehsalı üzrə ixtisaslaşmalıdırlar. Bu zaman bir əmtəə istehsalçısı başqa əmtəə istehsalçısının məhsuluna ehtiyac duyur, yəni onlar bir-birindən asılı vəziyyətə duşürlər və bir-birilə alqı-satqı yolu ilə məhsul mubadilə etməyə məcbur olurlar.

Əmtəə istehsalı hələ ibtidai icma quruluşunun axırlarında meydana gəlməyə başlamışdır. Lakin yalnız ibtidai icma quruluşunun dağılması və xüsusi mülkiyyətin yaranması əmtəə istehsalının genişlənməsinə sərait yaratdı. İnsan cəmiyyətinin yaşının bir milyon ildən çox olmasına baxmayaraq, yalnız 6-8 min il əvvəl insan əməyinin məhsulları əmtəə kimi alqı-satqıya daxil olmuşdur.

Qeyd etdiyimiz kimi, insanların hər hansı bır ehtiyacını ödəyən və satılmaq üçün nəzərdə tutulan əşya, məhsul adlanır. Əmtəəşünaslıq elmi əmtəələri islehlak predmeti kimi öyrənir. Əmtəələrin fizıki, kimyəvi və digər xüsusiyyətləri ilə yanaşı istehlak xüsusiyyətləri də olur və bu xüsusiyyətlər müxtəlifdir. Belə ki, bir qrup əmtəələrdən, məsələn: geyim və ayaqqabıdan insan bədənini qorumaq, bəzəmək üçün, başqa qrıp əmtəələrdən, yəni: meyvə, tərəvəz, yağ, ət, çörək və digər məhsullardan

insanın qidaya olan tələbatını ödəmək üçün, sement, taxta-şalban, kərpic və sair kimi üçüncü qrup əmtəələrdən isə binaların tikintisi üçün istifadə edilir.

İstehlak dəyəri əmtəənin əsas xassələrindən biridir. Əmtəənin istehlak dəyəri onun faydalılığının göstəricisidir. Belə ki, bazarda bu və ya digər tələbatı ödəməyən məhsulu heç kim almaz və heç bir şeyə yaramayan məhsulu da heç kim istehsal etməz. Əmtəəşünaslıq elmi əmtəələrin istehlak dəyərini öyrənir. Bu elmin əsas vəzifələrindən biri əmtəələrin insana faydalı olan xüsusiyyətlərini açıb göstərməkdir. Əmtəəşünaslıq əmtəələrin istifadəsi və onların saxlanma üsullarını tədqiq edir, eləcə də saxlanma zamanı əmtəələrin xarab olması və itkisinin səbəblərini və bu səbəblərin aradan qaldırılması yollarını öyrənir.

Əmtəələrin keyfiyyətı onların istifadəyə yararlılıq dərəcəsini müəyyənləşdirən xüsusiyyətlərlə ölçülür. Yararlılıq dərəcəsindən asılı olaraq əmtəələr yüksək, orta və aşağı ola bilər.

Əmtəələrın keyfiyyətinın qorunub-saxlanması onların qablaşdırılması, daşınması və saxlanma şəraitindən çox asılıdır. Buna görə də əmtəələrin yüksək keyfıyyətini qoruyub-saxlamaq üçün bütün zəruri tələblərə düzgün əməl olunmalıdır.

Hüseyn Arif
(1924-1992)

Hələ kiçik yaşlarından məclislərdə aşıqları dinləyən Hüseynin qəlbində şerə böyük maraq və məhəbbət yaranmışdır. Vaqifin, Vidadinin, Aşıq Ələsgərin, Səməd Vurğunun əsərlərini sevə-sevə oxuyan və öyrənən Hüseyn çox gənc yaşlarından şeir yazmağa başlamışdır. O, qəzetdə, jurnalda, bir sözlə, harada işləməsindən asılı olmayaraq qələmi yerə qoymamış, bir-birindən maraqlı yüzlərlə şeir yazmışdır. Vətən məhəbbəti, xeyirxahlıq, əməksevərlik, düzlük, doğruçuluq onun əsərlərində daha çox danışılan məsələlərdəndir.

H.Hüseynzadə həyata və həyat hadisələrinə müdrik nəzərlə baxmağı bacarır. Onun şeirlərində həyatın canlı nəfəsi duyulur.

O, lirik şairdir. Bununla belə yaradıcılığının ilk dövrlərindən onun müasir kənd həyatından, ölkəmizin quruculuq işlərindən bəhs edən "Mibeyba", "İbrahim körpüsü", "Daşkəsən", "O qayıtmadı", xalq şairi S.Vurğunun həyatından yazılmış "Yolda" dastanı, "Azərbaycan simfoniyası", "Lahıc duyğuları" poemaları və epik əsərləri də məlumdur.

H.Arif

Yadigar qılınc
(İxtisarla)

Şah İsmayıl Xətainin qılıncı hazırda Praqa Dövlət Muzeyində saxlanmaqdadır.

Qarşımda bir qılınc, iti bir qılınc,
Alovlu bir şimşək, qəzəbli bir sel,
Qarşımda bir qılınc, qatı bir qılınc,
Əyilməz bir oba, basılmaz bir el.

Canlı yadigardır Şah İsmayıldan,
İllərin qarından, qışından keçib.
Havada bir dəfə oynayan zaman,
Neçəsi meydanda başından keçib.

Gah sağdan, gah soldan çapdılar bizi,
Yadlar çox ev yıxıb, çox quyu qazıb.
Əfsuslar olsun ki, çox quyu qazıb,
Özgələr yazanda başqa cür yazıb.

Mən qana, qırğına düşmənəm çox vaxt,
Başqadır söhbəti, sözü könlümün.
Bu qədim qılıncın önündə ancaq,
Başımı hörmətlə əyirəm bu gün.

Dağlarda çatmışıq ocağımızı,
Duman yorğanımız, səngər evimiz.
Doğma dilimizi, torpağımızı,
Vaxt olub, qılıncla qorumuşuq biz!..

H.Arif

Şeir deyilmi?

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?
Çıxanda gəzməyə çölün, çəmənin,
Uzünə gülməsi şeir deyilmi?

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açılır aranda, dağda.
Eyvana əyilən çarpaz budaqda,
Bülbülün nəğməsi şeir deyilmi?

Seyr elə hüsnünü göydə durnanın,
Qayada kəkliyin, göldə sonanın,
Aynabənd otaqda gəlin ananın,
Şirin lay-lay səsi şeir deyilmi?

Kim deyir şerin meydanı dardır?
Sonu görünməyən o, bir bahardır.
Nə qədər həyat var, şeir də vardır,
Həyatın nəfəsi şeir deyilmi?

TAMAMLIQ BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ДОПОЛНИТЕЛЬНОЕ)

Sualları: **nəyi?, nə?, kimi?, nəyə?, kimə?, nədə?, kimdə?, nədən? kimdən?, nə ilə?, kim ilə?**

Əlaqə vasitələri: **intonasiya, ki, -sa, -sə.**

Əlavə köməkçi vasitələri: **kim?, nə?**

Məsələn: Onu bilirlər ki, xəmirimizə özgə mayası qatmamışam (Ə.Vəliyev). İndi də anlaya bilmirəm ki, bunun üçün niyə özümə beş yerdən yara vurdum (H.Mehdi). Qorxuram ki, güzgüyə baxanda da Koxanı görəm (İ.Hüseynov). O istəmirdi ki, külfət içində ikitirəlik düşsün (Ə.Vəliyev). Dedim ki, Adildən muğayət olsun (O.Salamzadə) Desəm ki, o, gecəni rahat yata bilmədim, inanmayacaqsan (T.Şahbazi). Kim ki, əvvəlcə onun yanına gəldi, məsələnin dərininə varmadan Kələntər onu müdafiə edəcək (M.İbrahimov). Kim Simanın başını kəsib gətirsə, ona bir qatar yükü qızıl verəcəyəm («Azərbaycan nağıl1arı»). O istəyirdi ki, körpə balaları işıq üzünə həsrət qalmasın (H.Mehdi). Əlacım ona qalıb ki, həmişəlık göndərim kəndə (Ə.Haqverdiyev). Deyirlər ki, qış fəslində cənnətin qapıları, Muğana tərəf açılır (M.İbrahimov). Bir orasını da fikirləşək ki, necə olsa, yetim qızdır, sənə etibar eləyib qoşulub gəlib, incidərsən, camaat nə deyər? (M.İbrahimov). Bu da ondan irəli gəlir ki, heç kəsə inanmırsan, heç kəsə etibar etmirsən (B.Bayramov). Elə bu zaman hiss etdi ki, kim isə geri yanda astadan tövşüyür (İ.Şıxlı).

■**Tapşırıq 304.** *Bədii ədəbiyyatdan tamamlıq budaq cümləsinə aid beş nümunə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 305.** *Seçdiyiniz nümunələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 306.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

■**Tapşırıq 307.** *Mahmud Kaşğari mətninin məzmununu danışın.*

Mahmud Kaşğari
(1029-1126)

Türk dünyasımn ən böyük alimlərindəndir, türkologiya elminin banisi sayılır. O, qədim Türküstanın Kaşğar elinin Azıx kəndində doğulub. Məşhur Qaraxanlılar nəslindəndir. İlk təhsilini burada alan Mahmudun sonrakı taleyi Bağdadla bağlı olub. Ömrünün son çağlarında vətənə dönüb və orada həyatdan köçüb.

Mahmud Kaşğari «Divanü-lüğət- it-türk» (1072) əsəri ilə məşhurlaşıb. Türk dünyasının ilk ensiklopediyası sayılan bu türkcə-ərəbcə lüğəti yazmaq üçün o, 10 ildən artıq türklər yaşayan bölgələri gəzərək material toplayıb. Lüğət Həzrəti-peyğəmbərin bu kəlamı ilə başlayır: «Türk dilini öyrənin, onların uzun sürən hakimiyyəti vardır». Lüğətdə 9000-dən artıq söz və ifadə toplanıb, qədim türklərin yayıldığı əraziləri göstərən xəritə verilib. «Divan» türk xalqlarının tarixini, dilini, folklorunu, etnoqrafiyasını öyrənməkdə əvəzsiz qaynaqdır. «Divanü-lüğət-it-türk» əsərinin bu günə gəlib çatan yeganə əlyazması XIII əsrdə Azərbaycanda Məhəmməd Əssari tərəfindən üzü köçürülən nüsxədir. Bu nüsxə 1915-ci ildə Türkiyədə tapılıb və orada çap olunub. «Divan» 30-cu illərdə Azərbaycan dilinə tərcümə edilsə də, indiyədək nəşr olunmayıb.

TÜRK DİLLƏRİ AİLƏSİ

Yarandığı ilk dövrlərdə dünya dilləri çox az sayda olub. Zaman keçdikcə bu dillər arasında bölünmə getmiş, bir dildən onlarla yeni dil formalaşmış və formalaşmaların da hər birindən sonralar yenə başqa dillər əmələ gəlmişdir. Beləliklə, bu gün dünyada 3.500-dən çox dil var (əlbəttə, bu törəmə prosesi ilə yanaşı, həm də onlarla dil ölmüşdür). Bir kökdən törəyən dillər qohum dillər sayılır. Qohum dillərin hamısına

birlikdə bir **dil ailəsi** deyilir. Azərbaycan dili türk dilləri ailəsinə mənsubdur.

Qohum dillərin yaranması bir ağacın qol-budağa ayrılması kimidir. Məsələn, qədim ulu türk dili bu dillərə (şaxələrə) ayrılır: oğuz dili, qıpçaq dili, qarluq dili və s. növbəti mərhələdə bu budaqlar da cavan qollara (dillərə) ayrılır.

Oğuz dilindən (budağından) türkmən dili, qaqauz dili, Azərbaycan dili və Türkiyə türkcəsi törəyir; qıpçaq dilindən (budağından) qazax, qırğız, tatar, başqırd, qumuq və s. dillər yaranır; qarluq dilindən (budağından) özbək, uyğur, salur və s. dillər meydana gəlir.

Bu bölünmə (şaxələnmə) milli dillər yaranana qədər davam edir. Dil şaxələrinə **dil qrupları** da deyilir. Yəni Azərbaycan dili, türkmən dili, qaqauz dili, Türkiyə türkcəsi oğuz qrupunu təşkil edır.

Təbii ki, ayrılma vaxtı nisbətən yaxın olduğu üçün eyni budaqdan (qrupdan) olan dillərin lüğət tərkibi, fonetik və qrammatik quruluşları bir-birinə daha yaxın olur. Ona görə də bir qrupdan (budaqdan) olan dillərdə danışanlar bir-birlərini yaxşı başa düsürlər. Əlbəttə, bir qrupun dillərinin ayrılma vaxtının yaxınlığını çox müxtəsər düşünmək olmaz. Bu vaxt minilliklərlə ölçülür. Məsələn, oğuz qrupundan olan dillərin formalaşması eramızın birinci minilliyində başa çatır.

Yəni bugünkü Azərbaycan dilinin fonetık sistemi, əsas lüğət fondu və qrammatik quruluşu artıq ilk orta əsrlərdə (birinci minillikdə) təşəkkül tapmışdı. Bu, Azərbaycan xalqının varlığı demək idi.

Bax: əlavə 8.

Etimologiya

I. Ben yürürüm yana-yana,
Aşk boyadı beni kana,
Ne akilim, ne divana,
Gel gör beni aşk neylədi?

Yunus Əmrə

II. Onu didik-didik didikledilər,
Saçlarından tutub sürüklədilər,
Götürüb yadlara "buyur" dedilər,
Beylər, bu vatana nasıl kıydınız?

Nazim Hikmət

TƏYİN BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ОПРЕДЕЛИТЕЛЬНОЕ)

Sualları: **hansı?, necə?, nə cür.**
Əlaqə vasitələri: **intonasiya, ki.**
Əlavə köməkçi vasitələr: **həmin, elə, belə və s.**

Məsələn: Mən insan o adama deyərəm ki, ömrü fırtınalar içərisində keçsin (M.İbrahimov). Bacılar var ki, yeddi qardaşının yeddisini də yola salıb (Mir Cəlal). Amma dünyada elə adamlar da var ki, düşünür. Qanır, hər şeyin fikrini eləyir (M.İbrahimov). Kimi bəyənirsən, o adama da nigah kəsdirərik («Azərbaycan nağılları»). Allah kəssin belə çörəyi ki, mən yeyirəm (B.Babayev). Mən elə bir əsər yaratmaq istəyirəm ki, məndən sonra gələn şairlər mənim təsirimdən çıxa bilməsinlər (M.S.Ordubadi). Mən haman Rüstəməm ki, topdağıtmaz Cümşüd bəyin evini xaraba qoydum (N.Vəzirov). Dağların arasında bir dəniz yaranacaq ki, heç misli bərabəri olmayıb (Ə.Sadıq). Kitab da vardır ki, onun sözləri Düzülmüş şəfəqli ulduzlar kimi (S.Vuruğun). Bir adam yoxdur ki, bu palçıq üst-başına suvaşmasın, bir ev yoxdur ki, astanasını bozardıb ağartmasın (M.İbrahimov). İnsan ki oxamağa və elmə düşmən ola, onun gələcəyi nə olmalı idi (N.Nərimanov).

ZAMAN BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ВРЕМЕНИ)

Sualları: **nə vaxt?, nə zaman?, haçan?**
Əlaqə vasitələri: intonasiya, **ki, -mı, -mi, -mu, -mü, -sa, -sə.**
Əlavə köməkçi vasitələr: **nə yaxt, nə zaman, haçan, elə ki, o zaman ki, nə zaman, nə zaman ki...**

Məsələn: Mən bu sualı yoğurub, xamır kündəsi kimi hazır etməmişdim ki, bir də gördüm, Səadət xanım məni qucaqladı (Mir Cəlal). Bir gün gələr, ürəyiniz açılar (S.Rüstəm). Sən də varsan, nə qədər varsa bəşər, varsa həyat (S.Rüstəm).

■**Tapşırıq 308.** *Zaman budaq cümləsinə aid beş misal yazın.*

YER BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ МЕСТА)

Suallar: **hara?, haraya?, harada?, haradan?**
Əlaqə vasitələri: **intonasiya, -sa, -sə.**
Əlavə köməkçi vasitələr: **haraya, harada, haradan, oraya, orada, oradan.**

Məsələn: O yerdə ki, məhəbbətimə məhəbbətlə cavab vermirlər, mən bundan sonra oraya getmərəm (Ə.Abbasov). O yerdə ki, qoyun-quzunun qədri adamdan artıq tutulur, orada adamlar ruhdan düşür (M.İbrahimov). Kim hara istəyir, ora getsin (M.İbrahimov). O yerdə ki, dalğalanır dost ellərin bayrağı, o yerdə ki, könüllərin xəzan bilməz bağça-bağı. Şerim orda çalır qanad (S.Rüstəm). Külək hansı tərəfə əsirsə, orada da əyilir (Ə.Sadıq). Haranı bəyənib seçəsi olsan, oraya, ey sənəm, sən mənimlə get (H.Arif). Sən hara, biz də ora (Ə.Vəliyev) Muzdurun yatmaq üçün müəyyən bir yeri olmadığından hara gedirsə, orada da yatırdı (S.Rəhimov).

Xanzadələr şişə taxır rəyəti,
Özlərinin deyil malı, dövləti,

Orda təpər, harda düşsə ürsəti,
Mujiki seyr elə, ayağa bir bax.
Q.Zakir

■**Tapşırıq 309.** *Bədii ədəbiyyatdan yer budaq cümləsinə aid beş cümlə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 310.** *Seçdiyiniz cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 311.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

SƏBƏB BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ПРИЧИНЫ)

Sualları: **niyə?, nə üçün?, nəyə görə?, nə səbəbə?, nədən ötrü?**
Əlaqə vasitələri: **çünki, ki, ona görə (ki), ondan ötrü (ki), - sa, -sə.**

Köməkçi əlavə vasitələr: **ona görə, ondan ötrü.**

Məsələn: Fikirləşə-fikirləşə qalacaq ki, görəsən bunu kim eləyib (İ.Şıxlı). Bunların hamısını ona görə xatırlayıram ki, sən olmayanda evimiz suyu sovurulmuş dəyirmana bənzəyirdi (M.İbrahimov). Bu səfər ona görə əlamətdar bir səfər idi ki, Əlibəyin Bakıdan getdiyi çoxlarını maraqlandırır da və bu marağın özü də müxtəlif idi (Mir Cəlal). Səfər xoşbəxtdir ki, sənin kimi qardaşı var (M.İbrahimov). O, axının uzun sürməsindən qorxdu ki, quyu tamamilə sıradan çıxa (M.Süleymanov). Bir şey yazmamışam istiqbalına. Çünki az duymuşam, az anlamışam (S.Vurğun). Eşq atəşi Bünyadı necə yandırırdısa, bu sözlər onun qulağına girmədi (H.Mehdi). Rüstəm kişi sevinirdi, çünki bunların hamısını özü tikdirmişdi (M.İbrahimov). Hümmət astadan nə dedisə, Murad bərkdən güldü (İ.Əfəndiyev). İkincisi də, mən ona görə məhz səndən kömək istəyirəm ki, sən Güldəstə Şahsuvarova ilə yaşıdsan, bir məhəllədə böyümüsən (H.Seyidbəyli). Bu çiçəklər onun üçün gözəldir ki, onları sənin kimi çiçək bəsləmiş (C.Cabbarlı). Bəndalı dağlara, meşələrə, dərələrə səmt getmədi, ona görə ki, susuzluqdan, korluqdan qorxurdu (Mir Cəlal).

Mənim irəli sürdüyüm iş həm texniki, həm də geoloji cəhətdən imkan daxilindədir, odur ki, quyunu qazmağa başlamaq lazımdır (M.Süleymanov). Məmmədəli evləndiyini bərk gizlədirdi, onlan ötrü ki, vətəndən gələndə Tükazbanın qardaşları onu qorxutmuşdular (C.Məmmədquluzadə).

■**Tapşırıq 312.** *Bədii ədəbiyyatdan səbəb budaq cümləsinə aid bes cümlə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 313.** *Seçdiyiniz cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 314.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

MƏQSƏD BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ЦЕЛИ)

Sualları: **nə məqsədlə?, nə üçün?, nədən ötrü?, niyə?**
Əlaqə vasitələri: **intonasiya, ki.**
Əlavə köməkçi vasitələr: **ona görə, ondan ötrü, o məqsədlə.**

Məsələn: Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün (S.S.Axundov). Xələti zirehin üstündən geyirdilər ki, günəş zirehi qızdırıb əziyyət verməsin (F.Kərimzadə). Ozünə də yalvardım ki, fəxri sədrlikdən imtina etməsin (İ.Hüseynov). Neron bir şəhəri birdən yaxdı ki, sönük vicdanına bir ilham gülsün (S.Vurğun). Atalar istər ki, oğlu qoyub getdiyinə sahib olsun (Mir Cəlal). Ondan ötrü səni çağırmışam ki, gedəsən qəssab Nəbinin övrətinin yanına elçilik eləyəsən (Ə.Haqverdiyev). Bəlkə elə sən qəsdən o kitabı vermisən ki, Kipianini işdən qovub tutsunlar (İ.Şıxlı). Bu yekəlikdə şəhərdə bir usta tapmadım ki, gəlib mücrünü açsın (Ə.Vəliyev). Mən özüm də o səsdə gedirəm ki, qoymayım bir adama zərər yetişə (N.Vəzirov). Arvad hazırlıq görüb ki, sabah səni qonaq çağırsın (M.Süleymanov). Ondan ötrü iki qənd verirəm ki, kəbinli övrəti mənə alasan da (C.Məmmədquluzadə). Bunları sizə ona görə deyirəm ki, mənim vəziyyətimdən xəbərdar olasınız. (C.Məmmədquluzadə).

Mən evdən ona görə köçdüm ki, sənin üçün meydan geniş olsun (H.Seyidbəyli).

■**Tapşırıq 315.** *Bədii ədəbiyyatdan məqsəd budaq cümləsinə aid beş nümunə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 316.** *Seçdiyiniz cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 317.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

KƏMİYYƏT BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ КОЛИЧЕСТВА)

Sualları: **nə qədər?**

Əlaqə vasitələri: **intonasiya, -sa, -sə.**

Əlavə köməkçi vasitələr: **nə qədər, o qədər, bir qədər...**

Məsələn: İşi o qədər uzatdınız ki, indi onlar sizi qabaqlarına qatıb qovurlar (H.Abbaszadə). Əllərini o qədər ovuşdurmuşdu ki, barmaqları qıpqırmızı olmuşdu (Ə.Vəliyev). Düşmənin qanını nə qədər içsəm, mənim qanım bir o qədər artacaqdır (S.Rəhimov). İnan ki, nə qədər can var bədəndə, Səni sevəcəyəm, sən sevməsən də (S.Rüstəm). İndi Bayramın həyəcanı o qədər artdı ki, az qala özünü itirib görüşü təxirə salacaqdı (H.Mehdi). Adam nə qədər kiçiklik eləsə, bir o qədər böyüyür (M.İbrahimov). Sən bir il bundan əvvəl nə qədər yaxın idinsə, bu gün bir

o qədər əlçatmazsan (H.Abbaszadə). Uzun Həsən nə qədər ucaboy, ağır idisə, bir o qədər də yüngül, cəld idi (E.Kazımzadə). Bu gün nə qədər ceyran vurmuşdularsa, beş o qədər Xəlil paşanın qoşunundan qırdılar («Koroğlu»). Nə qədər fəhlə lazım olsa, bağbana deyərsən gətirsin (N.Vəzirov). Nə qədər tez desəniz, o qədər tez məni nigarançılıqdan qurtarmış olarsınız (M.İbrahimov).

■**Tapşırıq 318.** *Bədii ədəbiyyatdan kəmiyyət budaq cümləsinə aid beş nümunə seçin* və *dəftərinizə yazın.*

■**Tapşırıq 319.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

■**Tapşırıq 320.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

TƏRZİ-HƏRƏKƏT BUDAQ CÜMLƏSİ (ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ ОБРАЗА ДЕЙСТВИЯ)

Sualları: **necə?**, **nə cür?**
Əlaqə vasitələri: **intonasiya, ki.**
Əlavə köməkçi vasitələr: **elə, belə, elə bil, sanki...**

Məsələn: Bu zaman Fərman özünü elə şax tutardı ki, elə bil atasına tapşırılan işin yarısını o görəcəkdir (Ə.Sadıq). Həm də bunu elə etmək istəyirdi ki, heç kəs ondan şübhələnməsin (İ.Şıxlı). Elə danışırsan ki, vicdanım haqqı, eşidənlər səni qınayır (Ə.Vəliyev). Ağca qarı birdən elə diksindi ki, əlinın kəskin hərəkətindən ip qırıldı (Ə.Əbdülhəsən). Mahmudun ürəyi elə şiddətlə döyündü ki, o, dilinin ucuna gəlmiş sözləri deməyə də özündə qüvvə tapmadı (H.Mehdi). Elə pərt oldum ki, o cür utandım ki, yol uzunu qonşumuzun üzünə baxa bilmədim (Ə.Vəliyev). Belə danış ki, bu gün şahidi olduğun ağır hadisə sədaqətli dostların arasına yeni-yeni adamlar gətirə bilsin (M.İbrahimov). Dodağını dişləyərək mənə elə baxdı ki, özümdən asılı olmayaraq gülümsündüm (İ.Qasımov). Elə intizarla baxdı ki, elə bil bütün həyatı müsbət və ya mənfi cavab verəcəyindən asılı idi (H.Mehdi). Ötən gecə Qulu necə sərilmişdisə, eləcə də qalmışdı (S.Rəhimov).

■**Tapşırıq 321.** *Bədii ədəbiyyatdan tərzi-hərəkət budaq cümləsinə aid beş cümlə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 322.** *Seçdiyiniz cümlələri rus dilinə tərcümə edin.*

■**Tapşırıq 323.** *Aşağıda verilmiş tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

Gərək elə eyləyək ki, o yaşasın (C.Bərgüşad). Yusif ayağı ilə elə bərk vurdu ki, yazıq qız dik atıldı (S.S.Axundov). Bəzən elə kinofilmlər göstərirlər ki, adam öz əri ilə, kiçik bacı-qardaşı ilə həmin filmlərə baxmağa utanır (Ə.Qasımov). Sultan özünü elə göstərdi ki, guya Səmədin bu hərəkəti tamamilə təbiidir (İ.Hüseynov). Şahlar, elə adamlar var ki, onları lap ilk görüşdə də tanımaq olur (İ.Əfəndiyev). Axı o niyə belə qərara gəlmişdi ki, bu oğlandan istifadə edə bilər ("Azərbaycan" jurnalı). Sabah elə siyasət eləyim ki, tarixlərdə deyilsin (Y.V.Çəmənzəminli). O elə adamdır ki, üz verəndə astar istəyəcək (Ə.Vəliyev). Mən elə bir şair olmaq istəyirəm ki, şeir süfrəmdən minlərcə şairlər qismət aparsınlar (M.S.Odrubadi). Papağın altında gözləri belə işarır ki, adamın canına vahimə ötürür (C.Məmmədquluzadə).

DƏRƏCƏ BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ СТЕПЕНИ)

Sualları: **nə dərəcədə?, nə dərəcəyə?**
Əlaqə vasitələri; **intonasiya, ki.**
Əlavə köməkçi vasitələr: **o dərəcə (o qədər, elə) o dərəcədə.**
Məsələn: Bacanaqlar hətta o dərəcə fərqlı idilər ki, Xıdırın oğurladıqlarının yarıdan çoxunu yeyib üstündən su içir, az bir qismini anbardara dadızdırırdılar (Ə.Vəliyev). Gənclik o qədər güclü, o qədər coşğun bir amildir ki, çox zaman nənələrin, dədələrin arzusundan, planından asılı olmur (Mir Cəlal). Qıratın şıltağı o yerə çatdı ki, çəkic nalbəndin barmağına dəyib yaraladı («Koroğlu»). İş o dərəcəyə çatdı ki, Lətifə ona təsəlli verməyə başladı (H.Mehdi). Elə məharətlə yeyib-yedirtmişdi ki, heç bir yoxlama əleyhinə bir şey tapa bilməmişdi (M.İbrahimov). Bu dostluq sizi elə bir dərəcəyə qaldırar ki, hər bir guşədən baxan göz sizi görər (M.İbrahimov).

■**Tapşırıq 324.** *Bədii ədəbiyyatdan dərəcə budaq cümləsinə aid beş nümunə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 325.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri rus dilinə tərcümə edin və dəftərinizə yazın.*

NƏTİCƏ BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ СЛЕДСТВИЯ)

Sualı yoxdur.

Əlaqə vasitələri: **intonasiya, ki, belə ki.**

Əlavə köməkçi vasitələr: **elə, elə bir, nə, kim, necə, nə cür, nə vaxt, nə zaman, bir...**

Məsələn: Görəsən bu uşağa nə oldu ki, indiyəcən gəlib çıxmır (İ.Şıxlı). Bir tikə çörək nədir ki, sən bir mücrü cavahirdən keçdin (F.Kərimzadə). Mənə nə düşüb xalqın işinə qarışam ki, axırda da yaman kişi olum? (C.Cabbarlı). Sənin nə həddin var, mənim adaxlımın adını çəkirsən (Ü.Hacıbəyov). İş belə gətirdi ki, yolumuz bura düşdü (M.Süleymanov). Ay yoldaş sədr, qara Kərəm oğlu nədir, sənin qabağında dursun! (M.İbrahimov). Elə iş düzəlt ki, özgəsi səndən nümunə götürsün (B.Bayramov). Bu yerdə elə bir iş baş verdi ki, hər üçünü heyrət aldı (S.Əhmədov). Sahibkarlarla o qədər vuruşdu ki, axırda ayaqlarına qandal vurub Sibirə sürgün etdilər (H.Mehdi). Elə ki, kino qurtardı, dərdim təzələndi (M.Süleymanov).

■**Tapşırıq 326.** *Bədii ədəbiyyatdan nəticə cümləsinə aid beş cümlə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 327.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri rus dilinə tərcümə edin.*

ŞƏRT BUDAQ CÜMLƏSİ
(ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ УСЛОВНОЕ)

Sualları: **nə şərtlə?, hansı şərtlə?**

Əlaqə vasitələri: **intonasiya, -sa, -sə.**

Əlavə köməkçi vasitələr: **əgər, hərgah, madam (ki), vaxta (ki).**

Məsələn: Bir gün bir-birimizi görməsəydik, bağrımız çatdardı (C.Cabbarlı). Su istəyirsə, vermə, güllə dəyənə su zərərdi (Ə.Haqverdiyev). Əgər Qaraş özünü itirməyib diqqətlə baxsaydı, atasının yuxudan çox yorğun və əzgin qalxdığını görərdi (M.İbrahimov). Madam bir-biriləri ilə xoşbəxt deyillər, əlbəttə, belə davam edə bilməz (İ.Şıxlı). Kişi ki, adamların gözünə şax baxa bilmədi, ölsə, yaxşıdır (İ.Şıxlı). Əgər iftira olmasa, o vaxt mən özümü ən ağır bir cəzaya layiq görərəm (Ə.Vəliyev).

İndi ki, qənaət məsələsi irəli sürülüb, deməli, harada kəssən, nə qədər kəssən, göydə qəbul edəcəklər (B.Bayramov).

■**Tapşırıq 328.** *Bədii ədəbiyyatdan şərt budaq cümləsinə aid beş nümunə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 329.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri rus dilinə çevirin və dəftərinizə yazın.*

QARŞILIQLI-GÜZƏŞT BUDAQ CÜMLƏSİ (ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ СОПОСТАВИТЕЛЬНО-УСТУПИТЕЛЬНОЕ)

Sualı yoxdur.

Əlaqə vasitələri: **intonasiya, -sa da, -sə də.**

Əlavə köməkçi vasitələr: **hərçənd, belə, nə qədər...**

Məsələn: O, gəlinin qəfildən necə diksindiyini, hətta heyrətlə içini çəkdiyini hiss etdisə də, buna məna vermədi (İ.Hüseynov). O, yüyəni nə qədər dartsa da, atların sürəti azalmadı (F.Kərimzadə). Hərçənd kişinin alnında qırışlar çoxdur, ancaq sözlər sərrast, fikri aydındır (Ə.Vəliyev). Onu yalnız axşamlar görə bilərdi ki, bu zaman da anası bayıra çıxmağa qoymurdu (İ.Şıxlı). Onların qılınc-tüfəngi məni o qədər qorxutmur ki, silisti, apar-gətiri vəlvələ salır (M.F.Axundov). Mən nə qədər qoca olsam da, dəyərəm min cavana (Ü.Hacıbəyov). Nə qədər gizlətsəm də, hər şey aşkardadır (Mir Calal). Kamil bir palancı olsa da, Şirzad səpinə razılıq verdiyini ona xatırlatmağı lazım bildi (M.İbrahimov).

■**Tapşırıq 330.** *Bədii ədəbiyyatdan qarşılıqlı-güzəşt budaq cümləsinə beş nümunə seçin və dəftərinizə yazın.*

■**Tapşırıq 331.** *Seçdiyiniz tabeli mürəkkəb cümlələri sadə cümlələrə çevirin və dəftərinizə yazın.*

■**Tapşırıq 332.** *Mətnin məzmununu öyrənin.*

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR
(1906-1988)

Əlli ildən artıq bədii yaradıcılıqla məşğul olan Şəhriyar müasir Şərqin ən görkəmli sənətkarlarındandır. O, 1906-cı ildə Təbrizdə ziyalı ailəsində doğulmuş, uşaqlıq illərini Xoşginab və Şəngiloba qəsəbələrində keçirmişdir. İlk təhsilini kənd məktəbində Molla İbrahim adlı bir axunddan almış, ibtidai və orta məktəbi Təbrizdə başa çatdırmış, sonra Tehrana gəlib darülfünun (universitetin) tibb fakültəsində oxumuşdur. Lakin ehtiyac üzündən təhsilini başa çatdıra bilmir. 1953-cü ildə şairin anası vəfat etdiyindən o, anasının əziz xatirəsinə əsərlər həsr edir. Onların biri «Heydərbabaya salam» poemasıdır. Poema sadə və şirin dildə yazılmış, burada şairin uşaqlıq və gənclık illərinin şirin və təkrarolunmaz xatirələri, milli adət və ənənələri öz əksini tapmışdır.

Şəhriyarı müasir şerin Hafızi adlandırırlar. Onun yaradıcılığında ictimai-siyasi mövzular geniş yer tutur. İkinci dünya müharibəsində Şəhriyar antifaşist cəbhədə dayanır, öz kəskin qələmi ilə bu müqəddəs mübarizədə iştirak edir. Faşizmi bəşəriyyət üçün böyük təhlükə hesab edən Şəhriyar onu əhrimənə, qaranlığa, yeddibaşlı əjdahaya oxşatmış, Stalinqrad qəhrəmanlarına xüsusi bir poema həsr etmişdir.

Böyük Vətən müharibəsində milyonlarla insan qurban verən sovet xalqına öz dərin məhəbbətini bildirmişdir. Şəhriyarın böyük alim Eynşteynə yazdığı şerində güclü beynəlmiləlçilik hissi vardır. Elmin ən böyük kəşfinin əsasını qoyan alimə şair "afərinlər" söylədikdən sonra əlavə edir ki, əfsus ki, sənin kəşfindən bomba hazırlanır, müharibə əjdahası yaranır, dünyanın ömür badəsi daşacaq, eşq və məhəbbət təbiətdən üz döndərəcək... Lakin şair gələcəyə nikbin baxır, inanmaq istəmir ki, yenə müharibə olacaq, yenə də analar oğul yolu gözləyəcəklər...

Azərbaycan şairi Şəhriyar özünün Dədə Qorqud ənənəsi əsasında sırf türk üslubunda «Heydərbabaya salam» poemasını yazdı. Bu poema ilə Şəhriyar əslində fitrətindən tüğyan eyləyən azərbaycanlılığı və tilrkçülüyü, daxilində çağlayan cənubi-şimali Vahid Azərbaycan ehtirasını fəryadla izhar edirdi:

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar.

Şəhriyar misralarla için-için ağlayırdı. Bu göz yaşlarında tələtümlü üsyan bütün dünyaya sonsuz bir etiraz, böyük bir xalqın qanı, müsibəti gizlənirdi:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydiım ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

«Heydərbabaya salam» poeması şairə böyük şöhrət qazandırmışdır. Xalqın danışıq dilində - Təbriz ləhcəsində yazılan bu poemaya saysız-hesabsız nəzirələr yazılmışdır.

■**Tapşırıq 333.** *Şeri hissə-hissə əzbərləyin.*

M.Şəhriyar

Azərbaycan

Könlümün quşu qanad çalmaz,
sənsiz bir an, Azərbaycan.
Xoş günlərim getməz müdam,
xəyalımdan, Azərbaycan.

Səndən uzaq düşsəm də mən,
eşqin ilə yaşayıram.
Yaralanmış qəlbim kimi,
qəlbi viran, Azərbaycan...

Bütün dünya bilir,
sənin qüdrətinlə, dövlətinlə
Abad olub, azad olub,
mülki - İran, Azərbaycan!

Vətən eşqi məktəbində,
can verməyi öyrənmişik.
Ustadımız deyib, heçdir.
vətənsiz can, Azərbaycan!
Yarəb, nədir bir bu qədər,
ürəkləri qan etməyin.
Qolubağlı qalacaqdır,
nə vaxtacan, Azarbaycan?

İgidlərin İran üçün şəhid olub,
əvəzində
Dərd almısan, qəm almısan,
sən İrandan, Azərbaycan.

Övladların nə vaxtadək,
tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan eylə,
oyan-oyan Azərbaycan.

Bəsdir, fərəq övladından,
kül ələndi başımıza.
Dur ayağa! Ya azad ol,
ya tamam yan, Azərbaycan!

Şəhriyarın ürəyi də,
Səninki tək yaralıdır.
Azadlıqdır mənə məlhəm,
sənə dərman, Azərbaycan!

Farscadan tərcümə edəni: Fikrət Sadıq

Heydərbabaya salam
(Poemadan parçalar)

Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətizə, elizə,
Mənim də bir adım gəlsin dilizə.

Heydərbaba, kəkliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Bağçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa yad elə,
Açılmayan ürəkləri şad elə.

Heydərbaba, yolum səndən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin necoldu.
Bilməz idim döngələr var, dönüm var,
İtkinlik var, ayrılıq var, ölüm var.

Biçin üstü sünbül biçən oraqlar,
Elə bil ki, zülfü darar daraqlar,
Şikarçılar bildirçini soraqlar,

Biçinçilər ayranların içərlər,
Bir huşlanıb, sondan durub biçərlər.

Heydərbaba, kəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda,
Ay buluddan çıxıb qaş-göz atanda,
Bizdən də bir sən onlara qüssə de,
Qüssəmizdə coxlu qəmü qüssə de.

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin şəngülüsün yeyəndə,
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sora solaydım.

Əmmacanın bal bəlləsin yeyərdim,
Sondan durub üs donumu geyərdim.
Baxçalarda tiringəni deyərdim,
Ay özümü o əzdirən günlərim,
Ağac minib at gəzdirən günlərim.

Bayram idi, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu.
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim mən də, evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı.
Xan nənəmi yada salıb ağladı.

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

Bir soruşun bir qarğanmış fələkdən,
Nə istəyir bu qurduğu kələkdən?
Deynə, keçirt ulduzları ələkdən,

Qoy tökülsün, bu yer üzü dağılsın,
Bu şeytanlıq qurğusu bir yığılsın!

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan axan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı?

Heydərbaba, gecə durna keçəndə,
Koroğlunun gözü qara seçəndə,
Qıratını minib, kəsib-biçəndə.
Mən də bundan tez mətləbə çatmaram,
Eyvaz gəlib çatmayınca yatmaram.

Heydərbaba, mərd oğullar doğginən.
Namərdlərin burunların ovginən,
Gədiklərdə qurdları tut boğginən,
Qoy quzular ayın-şayın otlasın,
Qoyunların quyruqların qatlasın.

Heydərbaba, sənin könlün şad olsun,
Dünya varkən ağzın dolu dad olsun,
Səndən keçən tanış olsun, yad olsun.
Deynə mənim şair oğlum Şəhriyar,
Bir ömürdür, qəm üstünə qəm qoyar.

NİTQ MƏDƏNİYYƏTİ

Nitq mədəniyyəti Azərbaycan dilinin qayda-qanunlarını, incəliklərini, özünəməxsus xüsusiyyətlərini öyrənmək üçün zəmin yaradır. Nitq mədəniyyəti mədəni davranmağı və nitq vərdişlərini öyrədir. Ona görə də hər bir şəxs nitqini qurarkən səslərin düzgün tələffüzünü, vurğunun, intonasiyanın işlənmə qaydalarını bilməlidir. Bu fənn tələbələrin istər yazılı, istərsə də şifahi nitqinin inkişafı üçün yollar, perspektivlər açır.

Nitq mədəniyyəti ancaq düzgün danışmaq bacarığı deyil, həm də düzgün yazmaq vərdişləri aşılayır, məlumatları rəvan bir dildə çatdırmaq bacarığına yiyələnməyə imkan verir. Bu fənnin ali məktəblərdə tədris olunmasında əsas məqsəd tələbələrin nitqinin inkişaf etdirilməsindən ibarətdir.

Nitq mədəniyyətinin əsas vəzifəsi tələbələri onun elmi əsasları ilə tanış etmək, onlara ədəbi dil normalarını öyrətmək, nitqini inkişaf etdirməkdir.

Nitq mədəniyyəti ümumi anlayışdır. Onu adi və yüksək mədəni nitq kimi, nitqlə dilin münasibəti, nitq ünsiyyətinin növləri (monoloq, dialoq, poliloq) və nitq formaları (yazılı və şifahi nitq) baxımından öyrənmək olar.

Adi nitq sadə, aydın, səlis bir nitqdir. hər bir kəs nitqini öz səviyyəsinə uyğun qurur. Adi nitqdən həm monoloq, həm dialoq, həm də poliloqda istifadə olunur.

Yüksək mədəni nitqdə isə vəziyyət bir qədər başqadır. Belə nitqdə böyük tələblər irəli sürülür. Natiq yüksək danışıq tərzi ilə bərabər, xüsusi intonasiya, dilin normalarından (fonetik, leksik, qrammatik, semantik, sintaktik və s.) ustalıqla istifadə edir. O, dinləyiciyə estetik təsir göstərir. Yüksək mədəni nitqdə hər bir natiq «seçmə və əvəzetmə» prinsipindən istifadə etməlidir. Belə nitq dialekt və şivə sözlərdən, loru danışıq dilindən, qəliz ərəb, fars, rus, Avropa mənşəli və s. sözlərdən uzaq olmalıdır. Yüksək mədəni nitqdə yüksək mədəniyyət nümayiş etdirilməlidir. Yersiz təkrarlar, jestlər mədəni nitqin təsir qüvvəsini azaldır.

Nitqlə dilin münasibəti. Dil ictimai hadisədir. Dil heç bir sinfə xidmət etmir. Daha ümumi mənada dil ünsiyyət vasitəsidir. Dil vasitəsilə insanlar bir-birini başa düşür, əlaqə saxlayır, fikir mübadiləsi aparır. O, mənəvi sərvətdir. Dilin bütün elmlərə açar olması, onun başqa elmlərlə əlaqəsi, həmin elmlərlə birlikdə tədqiq olunmasına gətirib çıxarır. Məsələn, fəlsəfə, məntiq, psixologiya, ədəbiyyat və s. elmlərlə əlaqəli olması bəllidir. Lakin bu elmlərlə əlaqəsinə baxmayaraq, dilin əsas tədqiq obyekti dilçilikdir. Məsələyə bu baxımdan yanaşsaq, onda dilin bir neçə sistemi öz quruluşunda birləşdirməsinin şahidi oluruq. Bu sistemin bəzilərini nəzərdən keçirək.

1) **Fonetik sistem**. İctimai mənalı səslərin bir -birinə birləşməsi, fonetik qanunları, səslərin, fonetik hadisələrin öyrənilməsini tədqiq edən dilçiliyin bir şöbəsidir.

2) **Semantik sistem** - dil vahidlərini məna cəhətdən tədqiq edən sahəsinə deyilir.

3) **Leksikoloji sistem**. Sözlərin təklikdə tədqiqi ilə məşğul olan dilçiliyin bir şobəsidir.

4) **Qrammatik sistem** sözlərin quruluşundan və birləşməsindən bəhs edir. Onu da qeyd edək ki, bu sistem iki sahəni əhatə edir. A) morfoloji sistem; b) sintaktik sistem.

Morfoloji sistemə daxil olan sözlər leksik və qrammatik mənasına görə on bir qrupa ayrılır. Bunlar isə nitq hissələri adlanır. Nitq hissələri iki qrupa bölünür:

1. **Əsas nitq hissələri**

   İsim
   Sifət
   Say
   Əvəzlik
   Fel
   Zərf

2. **Köməkçi nitq hissələri**

   Qoşma
   Bağlayıcı
   Ədat
   Modal sözlər.

Dilimizdə olan xüsusi bir nitq hissəsi də var ki, o nida adlanır.

Sintaktik sistem sərbəst söz birləşmələrindən, cümlələrdən, onların quruluşundan bəhs edir. Sadə və mürəkkəb cümlələri tədqiq edir.

Sintaktik sistem həm də dilimizdə olan cümlələri məqsəd və intonasiyaya görə öyrənir. Bunlar aşağıdakılardır:

1. Nəqli cümlə
2. Əmr cümləsi
3. Sual cümləsi
4. Nida cümləsi

Natiq belə cümlələri xüsusi hallarda işlədir, bu da cümlənin təsir qüvvəsini artırır.

Üslubi sistem - üslubları onların əsasını təşkil edən bədii fiqurların ifadə etdikləri xüsusiyyətləri öyrənən müstəqil elm sahəsidir. Buna da üslubiyyat deyilir.

Nitq dilin təzahür formasıdır. Nitqi dildən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun fərdi olmasıdır. Hər bir natiqin öz nitq üslubu var.

Nitqin gözəlliyi natiqin dili gözəl bilməsi, hər bir sözü yerində işlətməsi, cümlədə söz sırasını pozmaması və s. ilə şərtlənir. Nitqi dildən fərqləndirən amillərdən biri də nitqdə intonasiya və digər vasitələrdən istifadə etmək imkanlarının olmasıdır.

Nitq ünsiyyətinin növləri

İnsanlar arasında xoş münasibətin yaranmasında gözəl nitq mühüm rol oynayır. Nitq ünsiyyəti üç formada baş verir:

1) Monoloq və ya monoloji nitq,
2) Dialoq və ya dialoji nitq,
3) Poliloq və ya poliloji nitq.

Yunan mənşəli olan monoloq (*monos* bir, *logos* nitq) bir insanın, şəxsin və ya adamın nitqi deməkdir. Monoloji nitq hər yerdə ola bilər. Ailədə, idarələrdə, səhnədə, məktəbdə və s. İnsan öz-özünə monoloq söyləməz, Lakin səhnə adamlarının, müəllimlərin, tələbələrin və başqa ixtisas sahiblərinin məşqi və yaxud hər hansı bir çıxışa hazırlaşmaları (mühazirəyə, dərsə, çıxışa) zamanı işlənə bilər. Monoloji nitq müxtəlif qruplara bölünür:

1) Mühazirə
2) Məruzə
3) Çıxış
4) Nitq

Ali məktəblərdə müəyyən mövzu üzrə professor və ya dosentin şifahi şərhi mühazirə adlanır.

Əvvəlcədən işlənib hazırlanmış hər hansı mövzuya məruzə deyilir. Məruzənin üç növü qeyd olunur:

1. Hesabat məruzəsi
2. Elmi məruzə
3. Siyasi məruzə

Onu da qeyd etmək lazımdır ki, məruzəni müzakirə edirlər, mühaziréni isə yox. Mühazirədə yalnız sual verilə bilər.

Daha çox iclaslarda, yığıncaqlarda söylənilən nitqə çıxış deyilir. Çıxışda natiq irad və təkliflərini ifadə edir. Çıxış həm elmi, həm siyasi, həm də ictimai xarakterli olur.

Nitq siyasi, ictimai-siyasi və s. şəkildə olur. Bu baxımdan nitqin aşağıdakı növləri var:

1. İctimai-siyasi nitq
2. İttiham nitqi
3. Müdafiə nitqi
4. Müttəhimin son sözü

Bunlar haqqında ayrı-ayrı bölmələrdə daha ətraflı məlumat veriləcək.

Dialoq yunan sözü (*dialogos*) olub, iki nəfərin arasında olan söhbət deməkdir.

Söhbətdə bir neçə adamın iştirak etməsinə isə poliloq deyilir. Poly loqos yunanca (*poly* - çox, *loqos* - nitq) çoxlu adamın iştirak etdiyi nitq deməkdir. Belə nitq özünü daha çox dram əsərlərində göstərir.

Nitq ünsiyyətinin formaları

Nitq müxtəlif formalarda təzahür edir, Nitqin müxtəlifliyi, təzahür formaları a) ifadə yoluna görə və b) ifadə nizamına görə müəyyənləşir.

a) İfadə vasitəsinə görə nitq iki cür olur:

1. Şifahi nitq
2. Yazılı nitq

Şifahi nitqin materialı sözlər, onların ifadə olunması, tələffüz edilməsidir. Yazılı nitqin materialı hərfi işarələrdir və onların vasitəsilə yaranan yazıdır. Şifahi nitqdə səsin ahəngdarlığı, tembr, melodiya, mimika, jest, düzgün tələffüz, emosionallıq, yığcamlıq, səlistlik, aydınlıq və s. nəzərə alınır. Yazılı və şifahi nitqdə monoloqdan, dialoqdan və poliloqdan istifadə edilir. Bəzən isə məruzələr, mühazirələr, çıxışlar, hətta bədii əsərlər (pyeslər, dram əsərləri) yazılı şəkildə verilməsinə baxmayaraq, xalqa, kütləyə daha yaxşı çatdırılmaq üçün şifahi şəkildə təqdim olunur. Çünki yazılı nitqin imkanları məhduddur.

b) İfadə nizamına görə də nitq yenə də iki cür olur:

1. Mənsur nitq və ya nəsr şəklində ifadə olunan nitq;
2. Mənzum nitq və ya nəzm şəklində ifadə olunan nitq.

Nəsrlə ifadə olunan nitq roman, povest, növella, məqalə, oçerk, reportaj, nağıl, dastan və s. şəklində ola bilər.

Nəzm əsərlərində isə heca, ahəngdarlıq, qafiyə, şerin təqti forması və s. əsas götürülür. Mənzum nitq nizama salınmış nitqdir, burada kənara çıxmaq mümkün olmur. Nəsr də, nəzm də, həm yazılı, həm də şifahi ola bilir. Lakin son dövrlərdə yazılı mənzum nitq yalnız bədii ədəbiyyatda işlədilir. Əvvəllər isə bu nitqdən riyaziyyat, fəlsəfə, qrammatika və hətta lüğətlərin yazılmasında istifadə olunurdu.

Onu da qeyd edək ki, hər bir şəxsin xarakteri, ağlı, dünyagörüşü, düşünmə qabiliyyəti müxtəlif olduğu kimi, nitqi də başqalarından fərqlənir. Bu fərq isə fərdi üslubların yaranmasına səbəb olur.

Ədəbi dilin üslublar sistemi

Azərbaycan dilində işlənən normalar müxtəlif şəkildə təzahür olunur. Bu, dilin məhdudlaşmasına dəlalət etmir. Əksinə, dilin daha dəqiq və düzgün

ifadə olunmasına xidmət edir. Bu normalar dili uzunçuluqdan qurtarır. Bu cəhət ədəbi dili ümumxalq dili vahidləri kimi səciyyələndirir. Bu da öz növbəsində müxtəlif qollara bölünür və bu ümumi şəkildə üslub adlanır.

Deməli, ədəbi dil üslublar sistemindən ibarət olmaqla yanaşı, həm də funksional üslub yaradır. Bu da genişlənmə deməkdir. Yəni dilin imkanlarını artırır, fikrin daha gözəl ifadə olunmasına xidmət edir. Natiqi çətinlikdən qurtarır. Tutaq ki, eyni mövzuda nitq söyləyən və yaxud nitqə hazırlaşan hər hansı bir natiq qarşısında belə bir məqsəd qoyur:"Mən harada nitq söyləyirəm?" Zavodda, ali məktəbdə, xalq qarşısında, kiçik müəssisədə və ya alimlər qarşısında və s. Natiq nitqini qurarkən hökmən auditoriyanın səviyyəsini nəzərə almalıdır. Bu nəzərə alınma isə mütləq nitqi bir-birindən fərqləndirir. Bu isə üslubun yaranmasına şərait yaradır.

Üslub ifadə tərzi olduğu üçün nitqdə forma və məzmun əsas amillərdən biri hesab olunur. Elə ona görə də üslub müxtəlif şəkildə ifadə olunmuş, nitq anlayışı ilə eyniləşdirilmişdir. Hətta nitq, dil anlayışları üslub mənasında işlənmişdir. Beləliklə, üslublar haqqında hərc-mərclik yaradan fikirlər buradan irəli gəlmişdir. Üslub anlayışını ifadə edən müxtəlif adlar, terminlər məhz, buradan yaranıb, elmi ədəbiyyatlarda özünə yer tapmışdır. Bu göstərilən fikri nəzərə alaraq, deyə bilərik ki, üslub təfəkkür tərzinin ifadə formasıdır, burada nitqin geniş imkanlarından istifadə olunur. Ona görə də üslub ilə nitqi eyniləşdirmək olmaz. Dilçiliyin üslublar sistemini öyrənən müstəqil bir elm sahəsi var ki, buna da üslubiyyat deyilir.

«Üslubiyyat» ərəb mənşəli söz olub «düzmək», «tərz» mənalarını ifadə edir. Yunanca «stilos» sözündən (yazı ağacı, ağac qələm, qamış qələm mənalarını ifadə edir) götürülmüşdür.

Üslubiyyat ümumxalq dilinin ən yüksək forması olan ədəbi dilin dilçilikdə qəbul olunmuş normalarını və bu normaların qayda-qanunlarını tədqiq edir, dəqiqləşdirir. Həm müstəqil, həm də qeyri-müstəqil variantları öyrənib dürüstləşdirir. Ona görə üslubiyyat dilçiliyin şöbələrindən (xüsusən, fonetika, leksikologiya, morfologiya və sintaksisdən) düzgün istifadə yollarını müəyyən edib göstərir. Üslubiyyat dildə aparılan paralelliyi formalaşan üslublar sistemini, qarşılıqlı əvəzolunmanı, sinonimliyi öyrənən bir elmdir ki, bu da nitq üçün əsas şərtdir. Üslubiyyat mövzusundan bəhs edən prof. Ə.Dəmirçizadə qeyd edir: «Üslubiyyat dilin ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadəedilmə qayda və qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən bir elmdir. Bununla da üslub sahələri və müxtəlif dövrlərə məxsus üslubları fərqləndirən əlamətdar cəhətlər təyin edilmiş olur».

Üslubiyyat uzun illər dilçiliyin tərkib hissəsi kimi qeyd olunurdu, lakin ciddi mübahisələrdən sonra (1954-55-ci illər) varlığını sübut etdi. Müstəqil elm kimi tədqiq və tədris olunmağa başladı. Deməli, dil inkişaf etdikcə onun

sahələri genişlənir, lüğət tərkibi zənginləşir, üslubları artır. Üslublar da dil kimi uzun tarixə malik kateqoriyadır. Cəmiyyətin inkişafı ilə yaranır və inkişaf edir. Hər bir dilin üslublar sistemi mövcuddur. Bu sistemlər də özünəməxsus (spesifik) xüsusiyyətilə bir-birindən fərqlənir. Ona görə də üslubiyyata aid yazılmış elmi ədəbiyyatda üslublar, onların bölgüsü və fərqləndirici xüsusiyyəti müxtəlif şəkildə şərh olunmuşdur. Bir qrup alim üslubun üç növünü, digər bir qrup alim dörd növünü, başqa bir qrup alim isə beş növünü qeyd etmişdir. Onu da qeyd edək ki, bu müxtəlifliyin əsas səbəbi bir funksional üslubun bir neçə nitq üslubunu əhatə etməsilə əlaqədardır. Yəni dilin bir sahəsi (leksik, sintaktik, morfoloji vahidlər) o biri sahəsinə nisbətən daha çox nəzərə çarpır. Ədəbi dilimizdə işlənən üslublar sistemi aşağıdakılardır:

1. Bədii üslub.
2. Danışıq üslubu (buna məişət üslubu da deyilir).
3. Elmi üslub.
4. Publisistik üslub.
5. Rəsmi üslub.

Şübhəsiz ki, bu üslublar arasında fərqlər keçici (nisbi) xarakter daşıyır. Yəni bir üslubda olan ifadə vasitələri digərində işlənib başqa vəzifə daşıya bilər.

Bədii üslub. Ədəbi dilin rəngarəng, tez-tez dəyişən qollarından biri, o biri üslublara nisbətən daha qədimdir. Ədəbiyyat müxtəlif janr xüsusiyyətinə malik olduğu üçün bədii üslub da müxtəlif variantlarda özünü göstərir, bu da onu digər üslublardan fərqləndirir. Bədii üslub obrazlılığı ilə dilin leksik, qrammatik, fonetik vahidlərin geniş mənada işlənməsinə xidmət edir. Hər bir ifadə, cümlə obrazlılığa şərait yaradır və onun emosional səslənməsinə koməklik göstərir.

Biri övladına verdi nəsihət:
Ağıllı sözlərə eylə sən diqqət!
Gücsüz uşaqları incitmə, bala,
Sən də bir güclüdən çəkərsən bəla.
Olsan xalqa ziyan verən canavar,
Gün gələr səni də pələng parçalar.
Vardı uşaqlıqda qolumda qüvvət,
Acizlər çəkirdi məndən əziyyət.
Bir gün bir güclüdən yumruq yedim mən,
Bir də zəifləri incitmədim mən.
(Sədi Şirazi)

Bu kiçik nəsihətnamədə səslərin ahəngi, məna xüsusiyyəti bədii ədəbiyyatın gözəl nümunəsi kimi diqqətimizi cəlb edir.

Bədii üslubun əsas xüsusiyyətlərindən biri də odur ki, müəllif təsvir etdiyi surəti daha canlı vermək, onun bütün mənfi və müsbət keyfiyyətlərini göstərmək üçün söz və ifadəni düzgün seçməli və işlətməlidir.

Bədii üslubu digər üslublardan fərqləndirən xüsusiyyətlərdən biri də obrazlılıq yaratmaq üçün istifadə olunan bədii təsvir və ifadə vasitələridir. Bəzən elə hallar olur ki, söz və ifadə öz həqiqi mənasında işlənmir. Bu, **məcazlaşma** adlanır. Məcazlaşma söz və ifadənin təsir gücünü artırır və müxtəlif çalarlıqlar yaradır. Məcazlaşma müxtəlif məna qruplarına ayrılır: bənzətmə, epitet, metafora, metonimiya, mübaliğə, kinayə, təşbeh, şəxsləndirmə, frazeologiya, idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözü və zərbi-məsəllər, sinonimlər, antonimlər, evfemizmlər, antiteza, təkrir, litota, kinayə və s. Məcazlaşmanın bu növlərindən yalnız bir neçəsinin haqqında məlumat verməyi məqsədəuyğun hesab etdik. Ətraflı məlumat almaq üçün (bax: «Ədəbiyyatşünaslıq terminləri lüğəti» Bakı, «Maarif» nəşriyyatı, 1970. Tərtib edəni: Əziz Mirəhmədov).

Bənzətmə məçazlaşmanın ən sadə növlərindən biridir. İki əşya, məfhum qarşılaşdırılır, oxşar cəhətlərindən biri və ya bir neçəsi bənzədilir. Zəif olan obyekt, güclü olan obyektə oxşadılır. Kimi, tək, təki qoşmaları ilə yaranır.

Onun mərdliyinə qəlbən inandım.
Etdiyi hörmətdən elə utandım,
Məni qılınc kimi kəsdi ehsanı,
Kim qıyıb öldürər elə insanı!

Epitet. Buna bəzən bədii təyin də deyilir. Yunan sözü olub, mənası «əlavə» deməkdir. Məcazlaşan obyekti daha çox zənginləşdirmək üçün əlavə olunan sözlərə epitet deyilir. Epitet təsvir olunan hadisənin xarakterini daha açıq şəkildə göstərir, aydınlaşdırır. Epitetə əlavə olunan sözə bədii təyin də deyilir. Bir neçə yazıçı tərəfindən və folklorda işlənən epitetlərə isə müqəyyəd epitetlər deyilir. Məsələn, büllur buxaq, al yapaq, gül üzlü, ay üzlü, ay qabaqlı və s.

Aman fələk, dad fələk,
heç olmadın şad fələk.
İçirtdiyin şərabdan,
Bir özün də dad fələk.
(Məhsəti Gəncəvi)

Təkrir cümlədə eyni sözün və ya ifadənin bilərəkdən təkrarıdır. Yersiz təkrarlardan fərqli olaraq, təkrir fikri daha qüvvətli edir və mənasını dərinləşdirir.

Arazın
bu tayı vətənim,
o tayı vətənim,
Vətəni görməyə yox amanım mənim,
Bu necə vətəndir -
görmədim üzünü,
çatsam da bu yaşa?
(Bəxtiyar Vahabzadə)

İbarə. Sabit söz birləşmələrinin bir qismi olan ibarələr yazılı və şifahi nitqdə müəyyən yer tutur. Təmtəraq və effekt xatirinə işlənən söz quru, əsasən, ibarəli nitq və ya danışıq adlanır. Canlı danışıq dilimizdə «baş üstə», «ana vətən», «gözüm üstə» və s. ibarələr işlənməkdədir. Bədii əsərlərin dilində də özünə yer tapıb:

Çünki bir qədər yandı əmmamə,
Oldu bir tifl gərmi - həngamə.
Şeyxə xəbər verdi qiraətlə,
Mədd ilə çox uzun ibarətlə...
Mübtəda zahir oldu çox, əmma –
Xəbərə müntəzir qalıb molla,
Dedi axır o tifli - əllamə:
Şeyxanə, qoyma, yandı, əmmamə!
Ol zaman kim, o tifl verdi xəbər,
Nisfdən yapmış idi balatər.
(Seyid Əzim Şirvani)

İbarələrin müxtəlif forma və quruluşları da nitqdə fəaliyyət göstərir. Dilimizdə leksik, idiomatik, predikativ ibarələrə də rast gəlmək olur. Nitq prosesində natiqlər belə ibarələrdən ardıcıl şəkildə istifadə edirlər.

Danışıq üslubu ədəbi dilin ən qədim növlərindən biridir. Prof. Ə.Dəmirçizadə bu üslubu ictimai-siyasi üslub adı altında qeyd edir: «Üslublar silsiləsində daha kütləvi və sadə, daha aktiv və işlək üslub ictimai-siyasi üslubdur».

Danışıq üslubu, əsasən, şifahi nitq zamanı özünü göstərir. Danışıq üslubunun əsas vəzifəsi və məqsədi insanlar arasında fikir mübadiləsini yaratmaqdır. Danışıq üslubunda mimika, intonasiya, jest əsas yer tutur. Danışıq üslubunun yazılı forması isə dostların, qohumların, yoldaşların bir-birinə yazdığı qeyri-rəsmi məktublar və digər yazışmalardan ibarət olur.

Elmi üslub. Bu üslubda sözlərin dəqiq və dürüst işlədilməsi əsas şərtdir. Elmi üslubu başqa üslublardan fərqləndirən əsas xüsusiyyət ondan

ibarətdir ki, burada sözlər təkmənalı olur. Bu üslubda daha çox terminlər ifadə olunur. Elmi üslub qədim tarixə malikdir. Elmi üslubda hiss, həyəcan, ekspressivlik, emosionallıq zəruri deyil. Elmi üslubu tərifl ər, düsturlar, sübut, dəlil, nəticə və s. sistem təşkil edir. Elmi üslubda bir sahənin mütəxəssisləri digər elmdə işlədilən terminləri yaxşı başa düşə bilir və belə sözləri işlətmirlər. Bu heç vacib də deyil. Elmi üslub iki formada təzahür edir.

1. Məhdud dairədə işlədilən elmi üslub.
2. Geniş dairədə işlədilən elmi uslub.

Məhdud dairədə işlədilən elmi üslub müəyyən bir elmi və ya peşəni, sənəti əhatə edir. Bu, əsasən, bir qrup mütəxəssis tərəfindən işlədilir.

Geniş dairədə işlədilən elmi üslub isə (buna kütləvi elmi üslub da deyilir) kitabları, məqalələri, elmi rəyləri, ali məktəbdə oxunan mühazirələri, məruzələri əhatə edir. Bu üslubda terminlər az işlədilir, ya da terminlərin izahı verilir. Elm inkişaf etdikcə yeni-yeni terminlər yaradılır və onları asanlaşdırmaq, kütlələrə çatdırmaq üçün yollar axtarılır.

Publisistik üslub. Bu üslubun əsas məqsədi və vəzifəsi geniş xalq kütləsini mətbuat, televiziya, radio vasitəsilə səfərbərliyə almaqdır. Publisistik üslub mətbuat səhifələrində hər hansı bir baş məqaləni, sensasiya yaradan korrespondensiyaları, maraqlı oçerk və reportajları əhatə edir. Bu üslub uzunçuluğa, yersiz aparılan təhlillərə, geniş fikir mübadiləsinə, artıq işlənən söz və ifadələrə imkan yaratmır. Publisistik üslubda ictimai-siyasi terminlərin işlənməsi məqbul sayılır.

Rəsmi üslub. Bu üslubdan dövlət idarələri və ictimai təşkilatlarda, vətəndaşların bir-biri ilə rəsmi münasibətlərində istifadə olunur. Rəsmi üslubda peşə terminləri, idarə və müəssisə adlarının ixtisarı səciyyəvi xarakter daşıyır. Rəsmi üslub, əsasən, standartlığı ilə digər üslublardan fərqlənir. Buna bəzən rəsmi-əməli üslub da deyilir. Bu üslubda yazılan hər hansı bir sənəd rəsmi tərzdə yazılır. Məhz, standartlıq, şablonçuluq da buradan əmələ gəlir. Yazılan fərmanlar, əmr, qərar, hökm, protokol, qətnamə və s. sənəd növü rəsmi üslubun tərkib hissəsidir. Üslublar sistemini yaxşı bilməyən bir kəs gözəl natiq ola bilməz, sözlərin cümlədə işlənmə məqamlarından düzgün istifadə edə bilməz.

Üslubi normalar və nitq vasitələrindən yerli-yerində məharətlə istifadə etmək kamil nitqin yaranması üçün əsas şərt hesab olunur. Hər bir fikrin ifadə tərzi, gözəlliyi üslublar sisteminə xidmət edir. Hər bir ifadənin gözəlliyi isə üslubun tələbi ilə bağlıdır. Ümumiyyətlə, kamil nitqi xarakterizə edən əsas amillər və üslubi normalar bunlardır: aydınlıq, düzgünlük səlislik, yığcamlıq, təbiilik, təmizlik, əlvanlıq.

Aydınlıq. Fikrin aydın və sadə ifadə olunmasında əsas şərtlərdən biridir. İfadə etdiyimiz fikirdə qeyri-müəyyənlik varsa, başa düşülmürsə, deməli, aydınlığı pozmuşuq. Nitqdə sadəlik, yığcamlıq aydınlıq üçün əsas

şərtdir. Aydınlıq nitq üçün əvəzolunmaz məziyyətlərdən biridir. Natiq öz nitqində arxaizmlərdən, yerli şivəçilikdən uzaq olmalıdır.

Düzgünlük. İstər yazılı, istərsə də şifahi nitqdə qrammatik normanı gözləməyəndə, pozduqda səhvlərə yol veririk, bu da fikrin düzgün ifadə olunmasına mane olur. Belə məqamlarda üslubi norma olan düzgünlük bu qəbil səhvlərin qarşısını alır.

Səlislik hər hansı bir sözün, ifadənin, cümlənin səlisliyini qoruyur. Nitqin ahəngdarlığını, axıcılığını təmin edir və onlar üçün zəmin və şərait yaradır.

Yığcamlıq hər hansı bir fikrin ifadə edilməsində sözçülüyə, uzunçuluğa yer vermir. Fikir ifadə olunarkən heç bir söz birləşməsi, cümlə artıq görünmür. Az sözlə geniş məna ifadə olunur.

Təbiilik. Hər bir natiq nitqini qurarkən, fikrini izah edərkən səmimiliyi, məntiqi əlaqəni, inandırıcılığı, təbiiliyi əsas götürməlidir.

Təmizlik. Təmiz nitq başqa dilə məxsus yersiz söz və ifadələrin (uje, koneçna, mamıçka, brat və s.) işlədilməsinə, ədəbi nitqdə dialekt və şivə sözlərə, jarqonlara, loru sözlərə və s. yol vermir.

Əlvanlıq. Həm yazılı, həm də şifahi nitqdə uzunçuluq, fikrin dolaşıq ifadəsi oxucunu və dinləyicini yorur, fikrin yayınmasına gətirib çıxarır. Fikrin gözəl ifadəsi, əlvanlığı, zənginliyi hər kəsə ləzzət verir və qarşısındakı insanı tərəf-müqabilinə çevirir. Əlvanlıqdan uzaq olan hər bir nitqi sinonimlərdən istifadə edib aradan qaldırmaq olar. Lakin buna natiqin böyük ustalığı və məharəti lazımdır. Sinonimlər dildə əlvanlıq yaradan əsas vasitələrdən biridir. Sinonimlər sözlərdə müxtəlif məna çalarlığı yaratdığı üçün nitqin qurulmasında da mühüm rol oynayır. Sinonimlər fikrin dəqiq və asan başa düşülməsində, tələffüzü və deyilişi çətin olan sözlərin başqası ilə əvəz olunmasında dilə misilsiz xidmət göstərir. Mətn daxilində yersiz təkrarların qarşısını alan sinonimlər cümlənin ahəngdarlığını, rəngarəngliyini və onun təsir qüvvəsini artırır. Nitqin gözəl qurulmasında sinonimlər üç qrupa ayrılır.

1) Leksik sinonimlər. Yurdum-yuvam-məskənim; dünya-cahan-aləm-kainat-varlıq.

2) Frazeoloji sinonimlər. Ürəyi yanmaq- yazığı gəlmək.

3) Qrammatik sinonimlər. Bu özü də iki qrupa bölünür:

a) Morfoloji sinonimlər. İsmin halları, sifətin azaltma və çoxaltma dərəcəsi, felin zamanları və s. əlamətlərin müxtəlif yerlərdə və vaxtlarda birinin digərini əvəz etməsi zamanı morfoloji sinonimlər yaranır.

b) Sintaktik sinonimlər. Belə sinonimlər isə sadə cümlənin mürəkkəb cümləni əvəz etməsi, yaxud mürəkkəb cümlənin sadə cümləni əvəz etməsi zamanı əmələ gəlir. Məsələn, oxumaq istəyirəm (sadə); hamıya məlumdur ki, oxumaq istəyirəm (mürəkkəb) və s.

NATİQLİK SƏNƏTİNİN TARİXİNƏ DAİR

Öz tarixi keçmişinə görə çox qədim zamanları əhatə edən natiqlik sənətinin ilk rüşeymləri Misirdə, Çində, daha sonra Ərəbistanda təşəkkül tapmışdır. Qədim zamanlarda xalqın böyük hörmətini qazanmış nüfuzlu və istedadlı natiqlər Şərq bəlağətini (fikrin, aydın, incə və gözəl ifadə olunması) və fəsahətini (aydın danışma və ya fikrin aydın ifadəsi) yüksək səviyyəyə qaldırmışlar. Lakin sonralar süquta uğrayan natiqlik sənəti Avropada böyük inkişaf yoluna qədəm qoymuşdur. Öz inkişaf və mədəniyyətinə görə həmişə Şərqə borclu olan Avropa bu sənətin də ilk rüşeymlərini qoca Şərqdən əxz etmişdir.

Natiqlik sənəti Avropada, xüsusilə Qədim Yunanıstanın paytaxtı Afinada geniş şəkildə yayılmağa və inkişaf etməyə başladı. Qədim Yunanıstanda incəsənətin bir çox növlərilə yanaşı (memarlıq, poeziya, heykəltəraşlıq) ritorika sənəti də yüksəliş pilləsinə qədəm qoyurdu. Bir çox ritorlar (natiq, müəllim mənalarını ifadə edir) meydana gəlirdi. Bu sənət Afinada daha geniş vüsət almışdı. Xüsusilə, Solonun hakimiyyətə gəlməsi (B.e.ə. 594-cü il), apardığı islahatlar, borcların ləğv edilməsi, qulların azad olunması natiqlik sənətinin inkişafına güclü təkan verdi. Bu islahatlardan sonra hər kəs hüququnu müdafiə etmək imkanı əldə etdi. Lakin bunu hər adam bacarmadığı üçün məhkəmələrdə xüsusi adamlar fəaliyyət göstərməyə başlayır ki, onlar da loqoqraflar adlanırdı.

Natiqlik sənətinin atası sayılan məşhur siyasi və ictimai xadim Demosfen bu dövrdə yetişib fəaliyyətə başladı.

Natiqlik sənətini yüksəklərə qaldırmış, natiqlik məktəbi yaratmış bu şəxsiyyət neçə-neçə ritorların yetişməsinə köməklik göstərmişdir. Hətta bir çox natiqlər, müəllimlər öz nitqlərini Demosfenin təsiri ilə qurmuşdu. Təsadüfi deyil ki, vaxtı ilə M.P.Siseron «Kim Demosfen kimi olmaq istəmirsə, o, natiq deyil» fikrini irəli sürmüşdür.

Demosfen bu şan-şöhrətə birdən-birə gəlib çatmamışdı. Bu, uzun illərin, gərgin zəhmətin, mübarizə və mətin iradənin hesabına başa gəlmişdi. Həyata fiziki cəhətdən qüsurlu gələn Demosfen (o, çox əsəbiymiş, «r» səsini düzgün tələffüz edə bilmirmiş, danışan zaman çiynini çəkirmiş və s.) ilk növbədə bu qüsurları aradan qaldırır. O, dəniz qırağına gedir, ağzına xırda daş atıb, gur səslə nitq söyləyir. Çox çəkmir ki, onun nisbətən yekə dili normal hala düşür və pəltəkliyi aradan qalxır. Sonra özündən hündür olan yerdə qılınc asır və çiyni üzərində saxlayır. Çiynini atdığı zaman qılınca toxunur. Qılıncın verdiyi ağrı hesabına bu qüsurunu da aradan qaldırır. Nəhayət, dostu Satirin məsləhətilə səs tembrindən, intonasiyadan düzgün istifadə Demosfenə müvəffəqiyyət gətirir. Əvvəllər qışqıra-qışqıra danışıb

özünü yoran, hətta nitqi yarımçıq qalan, istehzalara, lağlağı gülüşlərə məruz qalan Demosfen inadkarlığı sayəsində gözəl bir natiqə çevrilir. İlk qələbəsini qohumları üzərində qazanan Demosfen beş dəfə nitq söyləyir. Bu zaman ona məşhur loqoqraf İsey yaxından köməklik göstərir. Atasının var-dövlətinə sahib çıxmış bu adamlarla mübarizə aparan Demosfen ədaləti bərpa edir. Var-dövləti geri qaytara bilməsə də, ədalətsiz qəyyumluq edən bu adamları məğlub edir. Elə həmin vaxtdan da natiqlik sənətinə dərindən bələd olmağa çalışır. Ömrünün qırx iki ilini bu sənətə həsr edir. Böyük nailiyyətlər əldə edir. Hələ gənc yaşlarında loqoqraf kimi fəaliyyət göstərən Demosfen «Malikanəyə ziyan vuran Kallik əleyhinə» və «Cehiz haqqında Spudi əleyhinə» adlı məşhur nitqlərini yazır. Elə bu dövrdə natiqlik sənətindən dərs deyib müəllimlik edir. Müəllimlik etdiyi illərdə o, ritorikanın sirlərinə dərindən bələd olur, tədqiqat aparır, əldə etdiyi nəticələri nitqində müvəffəqiyyətlə işlətməyə nail olur. Natiqliyin tələblərindən irəli gələn prinsipləri əsas götürən Demosfen onlara ciddi əməl edirdi. Bu tələblər aşağıdakılardır:

1) Materialın toplanması,

2) Məzmun və formaya uyğun plan tərtib edilməsi,

3) Ardıcıllığın gözlənilməsi

4) Üslubi çalarların işlənməsi,

5) Nitqdə intonasiyadan, orfoepiyadan, səs tembrlərindən düzgün istifadə olunması.

Demosfen bütün nitqlərində giriş, əsas hissə, nəticədən istifadə etmiş və nitqini hissələrə bolmüşdür.

Elm aləminə Demosfenin 61 nitqi və 6 məktubu məlumdur. Onlardan 9-u rus dilinə tərcümə olunmuşdur. Bu nitqlər arasında Esxinin əleyhinə yönəlmiş nitqi xüsusi yer tutur. Demosfen Esxinin çar Filipplə olan yaxın münasibətini güclü tənqid atəşinə tutur və Demosfenin «Esxin Filipplə əməkdaşlıq edirdi, bu çox dəhşətdir, ey Yer kürəsi, ey Allahlar! Məgər bu doğru deyil?» kimi müraciətləri, xitabları kütlənin qəlbinə yol tapırdı. Bundan sonra Demosfen yazır: «Mən ona görə səndən yaxşı vətəndaş olmuşam ki, hamıya fayda verən iş görmüşəm, sən isə heç bir təklif irəli sürməmisən, qərar qəbul etməmisən... Əksinə, son hadisələr aydınlaşdırdı ki, sən elə işlər görmüsən ki, onları yalnız ən yararsız adamlar, dövlətimizin qəddar düşmənləri görə bilər... Dövlətimizin qəddar düşmənləri olan Aristart, Naksosda, Aristoley, Fasosda afinalıların dostlarını məhkəməyə cəlb etdiyi kimi, Esxin də Afinada Demosfeni ittiham edir».

Doxsan səhifədən ibarət olan bu nitqdə Demosfen Esxini tam məğlub edir və Xalq Məclisi tərəfindən ona verilən «qızıl çələng» mükafatının ədalətli olduğunu sübut edir. Demosfenin bu çıxışı Siseron tərəfindən latın dilinə, daha sonra isə rus dilinə (üç dəfə 1784, 1873, 1887) tərcümə olunmuşdur. Bu məğlubiyyətin səbəblərini aydınlaşdıran Esxin, Demosfeni

«əjdaha» adlandırmışdır. Bundan əlavə, Demosfenin «Ktesifontun müdafiəsi» adlı nitqi də dövrünün nadir incilərindən sayılırdı. Esxinin nitqinin əleyhinə yazılmış bu nitq də suallarla, müraciətlərlə nəzəri cəlb edir. Filippi müdafiə edən Esxinlə mübarizədən qalib çıxmış Demosfen çarın özü ilə də mübarizə aparmaqdan çəkinmir. Onun Filippə qarşı söylədiyi nitqlər bir neçə hissədən ibarətdir. Məsələn, nitqlərinin birində «Bəli sizi gözləyən təhlükə başqa təhlükələrə bənzəmir. Axı Filipp bizi sadəcə özünə tabe etmək fikrində deyil, dövlətimizi tamamilə məhv etməyə çalışır». «Dövlətin daxilində fəaliyyət göstərən düşmənləri əzmədən, onların havadarları olan xarici düşmənləri məğlub etmək olmaz». Mən vicdanlı vətəndaşın vəzifəsini onda görürəm ki, o, dövləti xilas etməyi gözəl nitq soyləyib «şöhrət qazanmaqdan üstün tutsun». Demosfenin Filipp əleyhinə yazdığı silsilə nitqlər natiqlik sənətində əvəzolunmaz bir mənbə kimi həmişə diqqət mərkəzində durur. Yorulmaz ictimai-siyasi xadim Demosfen bir müddət dövlət işlərində çalışmış, hətta maliyyə işlərinə rəhbərlik etmişdir. Afina divarlarının bərpasına rəhbərlik edən 27 üzvdən biri olan Demosfen tikintiyə və yoxsul kəndlilərə şəxsi vəsaitindən xeyli pul xərcləmişdir.

Məhz, bu fəaliyyətinə görə Xalq Məclisi tərəfindən "Qızıl çələng"lə mükafatlandırılmışdır (onu bu mükafata təqdim edən Ktesifont olmuşdur). Esxin bu mükafatın verilməsinin əleyhinə çıxmışdır. Nəticədə isə ağır məğlubiyyətə uğramışdır. Vətəni uğrunda canını qurban verən, alovlu natiq Demosfenin ölümünə səbəb Aleksandrın hakimiyyəti illərində xəzinədar işləyən Qapralın Afinaya gəlib sığınacaq alması olur. Bu məsələ ilə əlaqədar Demosfen Hiperid ilə dostluq əlaqələrini kəsir. Antipatr və Aleksandrın anası Qapralın vətəndaşlıq qəbul etməsinə etiraz edirlər. Qapral Afinadan qaçır. Demosfen isə məsuliyyətə cəlb olunur. O, doğma vətənindən getməyə məcbur olur. Alksandrın ölümü (e.ə.323-cü il) Afinalıları yenidən üsyana qaldırır. Demosfen də üsyana qoşulur və yenidən Afinaya qayıdır. Lakin Antipatrın hakimiyyətə gəlməsi və demokratiyanı boğması, hər şeyi alt-üst edir. Hiperid öldürülür. Arki tərəfindən axtarılan Demosfen isə Kalavri adasındakı Poseydon ibadətgahında tutulur. Düşmənlər inandırmağa çalışır ki, o, əfv olunacaq, heç bir cəza çəkməyəcək. Demosfen onlara inanmır və bir məktub yazmaq üçün icazə istəyir. Ona icazə verilir. Demosfen isə qələmində gizlətdiyi zəhəri udur və e.ə. 322-ci ildə keşməkeşli həyatını sona çatdırır. Ölümündən yarım əsrə yaxın bir vaxt keçəndən sonra (42 il) Demosfenə Afinada əzəmətli heykəl qoyulur. Üzərində isə «Demosfen, qoy ağlın kimi, səndə elə bir qüdrətli güc yaransın ki, hətta Makedoniyalı Aresin özü də yunanları məğlub edə bilməsin» sözləri həkk olunur.

Ümumiyyətlə, Yunanıstanda natiqlik məktəbinin yaranmasında xalq təxəyyülü, Homerin «İliada» və «Odisseya» əsərləri, Solonun islahatları, ölkənin iqtisadi, mədəni, siyasi inkişafı mühüm rol oynamışdır.

Bu illərdə yetişən və tarixi mənbələrdə yeddi müdrik adlanan natiqlərin adı bu gün böyük hörmətlə yad edilir. Kleobu, Pittak, Biant, Periandr, Xilon, Solon, Fales. Bunların içərisində ən məşhuru Solondur. Vətənindən didərgin düşən Solon bir müddət Misirdə, sonra Kiprdə yaşayır. İlk dəfə Kiprdə Sol şəhərinin bünövrəsini qoyur. Onun beş min adda yaradıcılıq məhsulu miras qalmışdır. Səksən yaşında ikən Kiprdə vəfat edir.

Ümumiyyətlə, yunan natiqlik məktəbinin bir çox nümayəndələrindən Antifont, Andokit, Lisi, İsey, İsokrat, Demosfen, Hiperid, Likurq, Esxin, Dinarx və başqalarının əsərləri böyük maraq doğurur. Yunan natiqlik məktəbinin nümayəndələri haqqında dolğun məlumat verən dilşünas Kamil Əliyev onların həyat və yaradıcılığını geniş işıqlandırmağa nail olmuşdur. Adları qeyd olunan nümayəndələrlə yanaşı Aristotelin natiqlik sənətinin nəzəri əsaslarını elmi surətdə əlaqələndirən məşhur «Ritorika» əsəri böyük maraq doğurur.

Tisi və Koraksı «Ritorika»nın ilk müəllifləri olmuşlar. Afinaya isə «Ritorika»nı Koraksıdan dərs almış Qorki gətirmişdir. Daha sonralar «Ritorika» yazmaq, onu dərslik kimi istifadə etmək geniş vüsət almışdır. İstər Yunanıstanda, istərsə də Romada yazılan «Ritorika»lar içərisində Aristotelin, Siseronun, Kvintillianın əsərləri daha çox şöhrət qazanmışdır.

Hələ müəllimi Platon sağ olarkən natiqlik sənətindən dərs deyən Aristotel şagirdlərə mühazirənin mətnlərini köçürməyi tövsiyə edirdi. Platon öləndən sonra Aristotel Afinanı tərk edir. Bir müddət Filippin oğlu Aleksandra dərs deyir. Müəlliminin mühazirələrilə yanaşı, öz nəzəri biliyini də mühazirəyə əlavə edir. Az vaxtda Aristotel yenidən Afinaya qayıdır və oxuduğu mühazirələrin mətnlərini bir yerə toplayıb onları təkmilləşdirir. Natiqlik sənətinə yeni bir «Ritorika» qədəm qoyur. Aristotelin yazdığı «Ritorika» digərlərindən onunla fərqlənirdi ki, bu əsərdə ilk dəfə olaraq dil, üslub, nitq haqqında yeni və orijinal fikirlər söylənilirdi. Burada

1) nitqin tərtibi,

2) natiq üçün lazım olan şəxsi keyfiyyətlər,

3) nitq texnikası, tətbiq olunan vasitələr və s. kitabın əsas məziyyətlərindən biri idi.

Kitab üç hissədən ibarətdir. Birinci hissə dildən, ikinci hissə üslubdan, üçüncü hissə nitqdən bəhs edir.

Burada üsluba daha çox fikir verən müəllif üslubu nitqin predmetinə uyğun qurmağı tövsiyə edirdi. Üslubun isə əsas xüsusiyyəti onun aydın olması ilə bağlıdır.

Müəllif aydınlığı, təbii və səlis danışmağı, inandırmanı nitq üçün əsas amil hesab edirdi. Aristotel natiqlik sənətinin beş əsas prinsipini xüsusi olaraq qeyd edirdi:

1) Materialın toplanması və hazırlanması;

2) Plan tutulması, materialın məzmun və formaya uyğun tərtib edilməsi. Sübut və faktlardan düzgün istifadə olunması;

3) Materialın yadda saxlanması və ardıcıllığın gözlənilməsi;

4) Nitqdə şifahi şərhin, üslubi çalarlığın gözlənilməsi;

5) Nitqdə intonasiyadan, orfoepiyadan, səs tembrindən düzgün istifadə olunması.

Tarixin amansızlığına düçar olan Yunanıstan öz siyasi azadlığını itirməklə bərabər, natiqlik sənətini də yavaş-yavaş itirməyə başlayır. Beləliklə, Avropanın başqa bir ölkəsi estafeti ələ alıb, natiqlik sənətini uğurla davam etdirir. Qədim və ulu dünyanın başqa bir ölkəsi, Roma bu ağırlığı öz çiyinləri üzərinə alır.

Qədim Romada natiqlik məktəbi

Roma natiqlik məktəbinin yaranmasında əsas amilləri Yunanıstanın zəifləməsi və yüksək təbəqənin ondan üz döndərməsi oldu. Romanın güclü inkişafı, Yunanıstanı öz əyalətinə çevirməsi natiqlik məktəbinin yaranmasına gətirib çıxardı. Roma natiqlik məktəbi yunan natiqlik məktəbinə nisbətən daha azad və demokratik idi. Əgər Yunanıstanda yalnız qullar nitq söyləyib özünü müdafiə edirdisə, Romada hər bir vətəndaş bu hüquqa malik idi. Lakin buna baxmayaraq, nitqin priyomları, məktəblərdə tədris, yunan ritorlarının əsərləri bir mənbə kimi Roma natiqlərinə öz təsirini göstərirdi. Bu dövrdə Romada Katon, Antoni Mark, Qay Qrakx , Tiberi Qrakx və başqa natiqlər yetişmişdi. Tədqiqatçılar bu natiqlərin əsərlərini araşdırarkən bəlli olub ki, bəzi natiqlərin əsərləri tam şəkildə, bəzisinin isə yaradıcılığından kiçik, cüzi bir hissə miras qalmışdır. Roma natiqlik sənətinin ən görkəmli nümayəndəsi Mark Tulli Siseron hesab olunur. Elm aləmində yüz beş nitqinin olması haqqında məlumat olan, lakin onlardan əlli səkkizinin bizə gəlib çatması onun haqqında söz deməyə əsas verir. Mark Tulli Siseron ilk nitqini 81-ci ildə, iyirmi yeddi yaşında olarkən söyləmişdir. Bu nitq Publinin mülki işi ilə bağlı olmuşdur. İkinci nitqi isə Romada dövlətli adamlardan biri olan Sekst Rostsinin ölümü ilə əlaqədar olmuşdur. Roma küçələrinin birində qətlə yetirilən Rostsinin oğluna da sui-qəsd hazırlanır. Təsadüf nəticəsində sağ qalan oğul, qəsdçilər tərəfindən "ata qatili" kimi ittiham olunur. O dövrün adlı-sanlı natiqləri susduğu halda gənc natiq Mark Tulli Siseron müdafiə nitqi söyləyir. Sonra qədim Yunanıstana səfər edir, Antioxun mühazirələrinə qulaq asır və təcrübəsini daha da artırır.

Siseron həm də dövlət işlərində çalışıb xalqın hörmətini qazanmışdı. Dövlət xəzinəsinə nəzarətçi kimi rəhbər vəzifədə çalışan Siseron xalqa və vətəninə namusla xidmət etmişdir. Siserondan sonra bu vəzifəyə gələn Verres xalqı soyur, talayırdı. Siseron isə xalqın təkidi ilə onu məhkəməyə verir. Məhkəmə Verresi külli miqdarda pulla cərimə edir. Siseron sonra daha

böyük xalq məclislərində, yığıncaqlarında çıxışlar edib, böyük hörmət qazanır. Hətta tarixdə böyük sərkərdə kimi tanınan Qney Pompeyin baş komandan seçilməsi zamanı nitq söyləyən Siseron danışmağı özünə şərəf bilir. Xalqın ona göstərdiyi hörməti yüksək qiymətləndirir.

Siseron öz siyasi nitqlərini 64-çü ildə konsul seçiləndən sonra söyləməyə başlayır. Bu illər onun yaradıcılığının çiçəklənmə dövrü hesab olunur. Siyasi arenada isə Siseron ən böyük səhvini edir. Lutsi Katilianın təşkil etdiyi sui-qəsddə iştirak edənlərdən beş nəfəri məhkəməsiz edam etdirir. Bu onun düşmənlərinin fəallaşmasına səbəb olur. Katilianın tərəfdarı Klodi xalq tribunu seçilir və Siserona qarşı hücuma keçir. Siseron Romanı tərk edir, Yunanıstana gəlir. Onun evi, malikanəsi müsadirə olunur. Bir il yeddi aydan sonra Romaya qayıdan Siseron evini, malikanəsini məhkəmə vasitəsilə geri qaytarır. Onun Romaya qayıtmasına yaxından köməklik edən nüfuzlu şəxslərdən asılı vəziyyətə düşür. Hətta, Publi Setsi kimi şəxslər haqqında müdafiə nitqi də söyləyir. Kiligiyada prokonsul (51-ci ildə) işləyir. Vaxtı qurtaran kimi yenə Romaya qayıdır. Qalmaqallı Roma yenə Siseronu rahat buraxmır, hakimiyyət uğrunda mübarizə, xalq iğtişaşları məşhur natiqi ağuşuna alır.

Siseron Mark Antoniyə qarşı cidd-cəhdlə mübarizə aparmağa başlayır, alovlu nitqlər söyləyir. Böyük Demosfenin şərəfinə bu nitqlərini «filippika» adlandırır. Bu çıxışlar isə ona həyatı bahasına başa gəlir. Mark Antoni hakimiyyətdə nüfuzlu bir şəxs kimi məşhur olur. Bu nüfuzundan istifadə edərək alovlu natiq, vətənpərvər, dövlət xadimi Siseronun başını və yazı yazan sağ əlini kəsdirir. Bu tarixdə ən dəhşətli ölümlərdən biri idi. Onun yazdığı «Natiq haqqında», «Brut», «Natiq», məşhur «Ritorikası» natiqlik sənətində əbədi, həmişəyaşar bir həyat qazandı. Roma imperatorluğu natiqlik sənətinin süquta uğramasına səbəb oldu.

Qədim Yunanıstanda və Romada təşəkkül və tərəqqi tapmış, uzun tarixi yol keçmiş natiqlik sənəti durğunluq illərini yaşamağa başlayır. Bu durğunluq XVIII əsrə qədər davam edir. XVIII əsrdən başlayaraq, burjua zülmünə və istismara qarşı baş verən iğtişaşlar, mitinqlər natiqlik sənətinin inkişafına təkan verdi. Qərbi Avropadakı bu dirçəliş XIX əsrin əvvəllərində daha geniş şəkil almağa başlayır. Bu illəri tədqiqatçılar renessans dövrü adlandırır. «Renessans» fransız sözü olub, mədəniyyətin, ictimai-siyasi həyatın oyanması, dirçəlməsi deməkdir. Xüsusilə, Fransada, Almaniyada, İtaliyada, Avstriyada baş verən burjua-demokratik inqilabları bir çox natiqlərin yetişməsinə səbəb oldu. Məsələn, Fransada Jerbye, Koşen, Tarja, Jül, Laşo, Favr, Demanj, Düpen, Almaniyada Robert Blyum, Sikizmund, Borkheym, Vilhelm Volf kimi natiqlər yetişmişdir. Xüsusilə, Fransada Demosfenin, Lisinin, Siseronun nitqləri tərcümə olunub, öyrənilməyə başlanmışdı. Fransada fəaliyyət göstərən andlı məhkəmə prosesi daha geniş vüsət almışdı. Məsələn, Fransa ordusunun kapitanı Alfred Dreyfusu vətənə

xəyanət üstündə həbs edirlər. Məşhur yazıçı Emil Zolya buna etirazını bildirərək xalqa və prezidentə müraciət edir. On iki il davam edən bu işi üç natiq - Mornar, Labori, Mano müdafiə edir. Bu məhkəmə natiqliyində Yunanıstan natiqlik məktəbinin təsiri açıq-aşkar duyulmaqdadır. Fransızlar da Yunanlar kimi əsas diqqəti nitqin üslubuna, ardıcıllığına, aydınlığına, dəqiqliyinə, təsirliliyinə, emosionallığına verirdilər. Fransa natiqlik məktəbi bir çox ölkələrə müsbət təsirini göstərdi. Almaniyada natiqlik məktəbinin nümayəndəsi Avqust Bebel hamının sevimlisinə çevrilmişdi. Onun dərin məzmunlu nitqi xalqın rəğbətini qazanmışdı. Bu sözləri xalq seçkilərində gözəl və aydın çıxışları ilə radikalların qələbəsini təmin edən Vilhelm Volfun da ünvanına söyləmək olar.

XIX əsrdə Rusiyada natiqlik sənətinin inkişafı geniş vüsət almış, fəhlə hərəkatı natiqlik sənətinə güclü təsir göstərmişdi. Demosfenin, Siseronun, Lisinin bir neçə nitqi rus dilinə tərcümə olundu. Böyük mütəfəkkir Lomonosov natiqlik sənəti haqqında (1748-ci il, «Kratkoe rukovodstvo krasnoreçiu») yazdığı əsəri çap etdirdi. Əsərdə yunan «Ritorikası»nın təsiri özünü tam aydınlığı ilə göstərir. Müəllif, natiqin və dinləyicinin əhval-ruhiyyəsini əsas şərt kimi qəbul edir. Gertsen, Stankeviç, Xomyakovun rəhbərliyi altında bir çox dərnəklər fəaliyyətə başlayır. Rus natiqləri «Ritorika»nı əzbərləyib, kor-koranə öyrənməyin əleyhinə çıxır. Belinski yazırdı: «Əgər siz natiq olmayanlarda natiqlik sənəti haqqında təsəvvür yaratmaq, natiq olmaq istəyənlərə isə köməklik göstərmək istəyirsinizsə, «Ritorika» yazmayın, bütün xalqların müxtəlif dövrlərdə fəaliyyət göstərmiş məşhur natiqlərinin nitqlərini toplayın, bu natiqlərin hər birinin həyatı haqqında geniş məlumat verin, siz belə bir kitabla həm natiqlərə, həm də natiq olmayanlara boyük xidmət göstərirsiniz». Rus natiqlik məktəbinin xarakteri özündən əvvəlki sələflərindən onunla fərqlənirdi ki, Rusiyada nitqlər kütləvi xarakter daşıyırdı. Əvvəlkilərdə isə məhkəmə natiqliyi hakim mövqe tuturdu. Fəhlə sinfindən S.H.Xolturin, P.A.Alekseyev, Q.P.Petrovski, A.J.Badayev, İ.V.Babuşkin və digərlərinin adı tarixdə fəhlə-natiq kimi həkk olunmuşdu.

AZƏRBAYCAN NATİQLİK SƏNƏTİNİN İNKİŞAF YOLLARI

Azərbaycan natiqlik sənəti uzun bir yol keçərək günümüzə gəlib çatmışdır. Məlumdur ki, dil varsa, ünsiyyət varsa, deməli nitq də var. Lakin nitq hələ natiqlik deyil. Ona görə fikrimizi əsaslandırmaq üçün əlimizdə tutarlı mənbə canlı, emosional yaradıcılıq olan şifahi xalq ədəbiyyatıdır. Şifahi xalq ədəbiyyatının müxtəlif janr xüsusiyyətləri var. Bu növlərdə nitq, natiqlik sənəti haqqında deyilən atalar sözləri, kəlamlar, zərbi-məsəllər diqqətimizi cəlb edir. Məsələn, «Söz yarası qılınc yarasından betər olar», «Sözün doğrusu zəhərdən acı olar», «Söz qanadlı quşdur», «Söz sözü çəkər», «Sözün düzü», «Söz insanın zinətidir», «Nə qədər ki, söz ağzından çıxmayıb, o, sənin qulundur, söz ağzından çıxandan sonra sən onun qulusan», «Söz baldan şirindir», «Düz söz zəhərdən acı olar», «Söz qılıncdan pis kəsər», «Söz yarası, gor yarası», «Sözünü bilməyən, qədrini bilməz», «Danışmaq gümüşdürsə, susmaq qızıldır» və s. misallardan göründüyü kimi, belə kəlamlar insanların dil qabiliyyətlərinin yüksəlməsinə, fikrin təsirliliyinə müəyyən qədər xidmət edir.

Şifahi xalq ədəbiyyatının bütün növlərində söz haqqında, sözün ecazkar qüvvəsi haqqında müəyyən fikirlərə rast gəlirik. Şübhəsiz ki, bu da nitqin təsir qüvvəsini artırır.

Apardığımız tədqiqatın nəticəsini əsas götürərək belə bir qənaətə gəlirik ki, nitq uzun əsrlərin məhsulu olduğu üçün, natiqlik sənəti də birdən-birə yaranmamışdır. Bəzi alimlər bu sənətin yaranmasında tək-tək şəxsiyyətlərin rolunu yüksəldib, natiqliyi onların adı ilə bağlamağa çalışır. Əslində bu sənət var, sadəcə olaraq onu bir çərçivəyə, qəlibə salıb, müstəqil elm kimi təbliğ etmək lazımdır. Şifahi xalq ədəbiyyatının formalaşdığı gündən bu günümüzə qədər nitq mədəniyyəti inkişaf etmiş və etməkdədir. Söz sənətinin inkişaf etdirilməsi isə şübhəsiz ki, bu sahədə çalışan aşıqların, şairlərin, yazıçıların, dilçilərin, ədəbiyyatçıların, aktyorların, müəllimlərin, özünə hörmət edən hər bir kəsin vicdani borcudur. Xalq arasında zərbi-məsələ çevrilən «Sözünü bilməyən, özünü bilməz» kəlamı «ağır otur, batman gəl» fikrini tamamlayır.

Müxtəlif dövrlərdə hakim mövqe tutan şəxsiyyətlər haqqında yazılan mədhiyyələr təmtərağı ilə seçilirdi. Məsələn, Cavanşirin vəfatı münasibəti ilə Dəvdəkin yazdığı "Böyük Cavanşirin ölümünə ağı» adlı mərsiyədə onun igidliyi ilə yanaşı, natiqlik bacarığı da əks etdirilir:

Qollarına toplasa da min igidin qüvvətini,
Çiçəkləri asta üzər, gülü ehmal dərərdi o.
Danışarkən, dodağından mirvarilər saçılardı,
Əxlaqı saf, ruhu yüksək, könlü odlu bir həvəsdə...

Göründüyü kimi müəllif son beytdə onun gözəl natiq olduğunu qeyd edir.

Söz yaradıcılığında mühüm rol oynayan aşıqlar da dilimizin zənginləşməsinə (qədim dövrlərdə onlara ozan, yanşaq da deyiblər) əvəzsiz xidmət ediblər. Nağılların və dastanların yaranmasında, ifa olunmasında aşıqlar əsas sima kimi həmişə ön cərgədə olmuşlar. «Kitabi-Dədə-Qorqud» dastanlarından tutmuş bu günümüzə qədər yaranan dastanların hamısını məhz, aşıqlar meydana gətirmişdir. Bu dastanların özündə də qeyd olunur: Məsələn, «Dədə Qorqud» dastanlarında «Bir söz dəxi söylədi, görəlim xanım nə söylədi» ifadəsi işlənir. Yaxud hər boyun sonunda «Dədəm Qorqud boy boyladı, söy söylədi» ifadəsi işlənir. Yeri gəlmişkən onu da qeyd edək ki, soy sözü bir neçə mənaları ifadə edir. «Kitabi - Dədə - Qorqud» dastanlarının dilində həm «şeir», həm də «söyləmək» mənalarını ifadə edir. Bəzi dialektlərdə «söz» mənasında «sözdən, sovdan varsa, xəbər edim», bəzilərində «atalar sözü» mənasında, şifahi xalq ədəbiyyatında isə «nəğmə» mənasında işlənir.

Məlumdur ki, hər bir dövrün, ictimai-iqtisadi formasiyanın öz xüsusiyyəti ilə yanaşı, onun öz mədəniyyəti, ədəbiyyatı, elm və incəsənəti də inkişaf edir. Hər dövrün öz lideri olmaqla yanaşı, onun öz ətrafına topladığı həmfikirləri də olur. Əgər belə adamlar xalqı arxasınca apara bilirsə, nitq söyləyirsə, deməli, natiqlik sənəti də xalqın ictimai-siyasi həyatı ilə bərabər inkişaf edir. O adamın ki, adı tarixə düşüb, deməli, dövrünün məşhur, sayılan şəxsiyyətlərindən biri olub. Məsələn, Alban - Aran dövlətinin hökmdarı, məşhur sərkərdə Cavanşir, şair Dəvdək, (onun adı Davdağ kimi də yazılır), Cavidan, Babək, Xətib Təbrizi, Xəqani, Fələki, Nizami, Nəsimi, Nəimi, Xətai, Füzuli, M.F.Axundov, Bakıxanov, S.Ə.Şirvani, Sabir.

XX əsrin əvvəllərində yetişən inqilabi natiqlər: N.Nərimanov, Məşədi Əzizbəyov, Məmmədyarov, cənubda S.C.Pişəvari, Səid Səlmasi, Şeyx Məhəmməd Xiyabani, Məhəmməd Birya, Rahim Qazi, Cahanbaxş və başqaları.

Sovet dövründə S.Vurğun, M.İbrahimov, Şıxəli Qurbanov, Mehdi Məmmədov, tədris ocaqlarında fəaliyyət göstərən M.Rəfili, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Əbdüləzəl Dəmirçizadə, Əli Sultanlı, İsmayıl Şıxlı, A.Qurbanov, Bəkir Nəbiyev və başqa natiqlərin nitqi gənc nəsillərə örnək ola bilər. Adlarını sadaladığımız bu natiqlər müxtəlif dövrləri əhatə edir. Ona görə də hər biri xüsusi tədqiq olunmağa layiq sənətkardır. Burada onların bir neçəsinin yaradıcılığı ilə tanış olmağı məqsədəuyqün hesab etdik.

Nizami Gəncəvi Azərbaycan ədəbiyyatında ideyalar şairi kimi şöhrət qazanmış, şərqdə ilk dəfə «Xəmsə» yaratmışdır. Sözə, söz sənətinə, onun qüdrətinə həssaslıqla yanaşan böyük ustad yazırdı:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verər su da.

Əsərlərində xalqa məhəbbətlə, istəklə, arzularla yanaşan şair həmişə bərabərlik, qardaşlıq ideyalarını təbliğ etmişdir. Bu da onun «Əxilər» (qardaşlıq deməkdir) cəmiyyətinə rəğbətindən irəli gəlirdi. Yaratdığı əsərlər içərisində «Sirlər xəzinəsi»ndə sözün qüdrətinə ayrıca bir fəsil ayırmışdır.

Doğan hər fikir, xəyal, buna heç şübhə olmaz,
Etdi söz quşlarının qanadlarında pərvaz.
Yeniliklər törədən bu qoca kainatda,
Sözdən kəskin və incə bir şey tapılmaz hətta
Düşüncənin əvvəli, bütün sonların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu!
«Sirlər xəzinəsi», s.36

Daha sonra müəllif, adı çəkilən poemada şairin və şerin həyatdakı rolunu izah etməyə çalışır. Sözü, xüsusilə bədii sözü insanların həyatında, cəmiyyətin inkişafında ən əsas amillərdən biri sayır:

Qələm ki, bu həyatda tərpənərkən ilk dəfə,
Sözdən yazdı, diqqətlə baxsan birinci hərfə.
Bu xəlvət pərdəsini açan zaman əlbəəl,
Söz oldu bu həyatda cilvələnən ilk gözəl.
O zamandan ki, qələm yazı yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ilk dəfə sözlə açdı.
«Sirlər xəzinəsi», s.36

Dahi şairimiz sözü dünyanın ən böyük sərvəti sayır. Qızılla müqayisə edir. «Qızıl nə itdir? Qızıl onun adıdır ancaq» fikrini təsdiqləyir. Sözü dünyanın ən gözəl bəzəyi, incisi kimi təsvir edir:

Sordu: - köhnə qızılmı, təzə sözmü yaxşıdır?
Söz sərrafı söylədi: «söz dünyanın naxışıdır».
Söz qasidi hər yolu hey özbaşına gedər,
Sözün gördüyü işi kimsə görməz bu qədər.
Sözün yanında gümüş torpaqdır, yalnız torpaq,
Qızıl nə itdir? Qızıl onun adıdır ancaq
Sözdən başqa yuxarı başda oturan yoxdur,
Mülkün dövləti yalnız onundur, danan yoxdur.

Sözün ecazkar qüdrətindən söz açan şair, söz söyləyənləri, alimləri həmişə böyük ehtiramla yad edir: «elə natiqlər ki, dilləri atəş, heyrandı onlara səmada günəş; alim, uzaqgörən, hikmət ərbabı» kimi ifadələrlə, obrazlı şəkildə tərənnüm edirdi. Lakin şair yeni yazan, gənc şairlərə də dəyərli məsləhətlər verirdi.

Fikrini daha qüvvətli şəkildə söyləyən Nizami «İsgəndərnamə» əsərində sırf natiqlik sənətinə, nitq mədəniyyətinin əsas məsələlərinə toxunur. O, yunan natiqlik sənətinin görkəmli nümayəndələrinin adını çəkir, tarixi şəxsiyyət olan çar Filippin, onun oğlu Aleksandrın, məşhur filosof Nikomaxın, Aristotelin adlarını qeyd edir. hətta Aleksandrın Aristoteldən fəlsəfə dərsi aldığını və yaxın dost olduqlarını təsvir edir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan ədəbiyyatında söz və onun qüdrəti haqqında bir-birindən gözəl ifadələr, kəlamlar işlənsə də, natiqlik sənəti və yunan filosofları barədə heç bir fikir söylənməmişdir. Bu yalnız Nizami Gəncəvinin əsərlərində təsvir olunur.

Deyilənlərdən bu qənaətə gəlmək olar:

Birincisi, Nizami hələ gənc vaxtlarından fəlsəfə ilə maraqlanmış və bu elmi incəliklərinə qədər öyrənib, yeri gəldikcə əsərlərində ona dair fikir və mülahizələrini ifadə etmişdir. Məsələn, «Xosrov və Şirin» əsərində eşq haqqında olan mülahizələrinə fəlsəfi məzmun verən şair yazır: «Əgər daşın qəlbində eşq varsa, o gövhəri məşuqə kimi qucaqlayır. Əgər maqnit aşiq olmasaydı, dəmiri o qədər böyük bir şövq ilə özünə çəkməzdi. Əgər kəhraba aşiq olmasaydı, saman çöpünü axtarıb tapmazdı. Saysız-hesabsız cisimlər bir qanunla öz mərkəzlərinə meyl edirlər. Od yerin altında cəzbedici qüvvə tapmazsa, yeri yarar və fəzaya yüksələr. Lakin bir qədər havada qaldıqdan sonra öz təbiətinə görə aşağı enər».

Müəllif eşqi təbiətdəki cazibə qüvvəsi ilə əlaqələndirir. Dünyada ilk dəfə olaraq ümumdünya cazibə qüvvəsini, yerin öz oxu ətrafında hərəkət etməsi konsepsiyasını kəşf edir:

Maqnit olmasaydı eşqin əsiri,
Çəkməzdi özünə dəmir zənciri.
Kəhrabanın eşqə düşməsə canı,
Elə cəzb etməzdi quru samanı.

Göründüyü kimi, Nizami Gəncəvi filosof-alim olmuşdur. Nyutonun və Kopernikin etdikləri kəşfi neçə əsr əvvəl söyləmişdir.

İkincisi, Nizami əsərinə qəhrəman seçdiyi Aleksandrın həyatını, fəaliyyətini dərindən öyrənmiş çox güman ki, bir çox filosofların «Ritorikası» ilə də yaxından tanış olmuşdur. Şair bu əsəri yazarkən, ömrünün kamillik dövrünü yaşayırdı. Hikmət bulağı çağlayırdı. Məhz, bu xüsusiyyətlər «İsgəndərnamə» əsərini dünya ədəbiyyatının nadir incisinə

çevirmişdir. Müəllif bütün təsvir etdiyi hadisələrdə məzmun formaya, dilə, üsluba, bədii təsvir vasitələrinə, obrazlılığa, aydınlığa, dəqiqliyə, yığcamlığa, dürüstlüyə, təmizliyə, təsirliliyə tam riayət etmişdir.

Ədəbiyyatımızda ilk dəfə olaraq natiq obrazını yaradan Nizami həm də onu səmimiyyətlə, hörmətlə, məhəbbətlə tərənnüm edir:

Bir rumlu var idi, olduqca insan,
Natiqdi, bir neçə dildə danışan.
Alimdi hər fikri, sözü qurmaqda
Söhbəti tutini kəməndə salmış,
Özü Tuqiyanuş adını almış,
O qədər kəskindi sözü, hünəri,
Özünə çəkərdi dinləyənləri.

Şair, Tutiyanuşu natiq olmaqla bərabər, gözəl alim kimi də təsvir edir:

Sarayda nədimdi, həm də arabir,
Ay, günəş sirrindən söhbətlər edir.

Şair təsvir edir ki, qüdrətli hökmdar olan İsgəndər elmə, fəlsəfəyə, sənətə yüksək qiymət verir. Məğlub etdiyi ölkələri dağıtmır, qan tökmür, özü ilə xüsusi dəstələr aparır. Bu dəstələr onun bütün səfərlərində iştirak edir. Onların içərisində olan natiqləri qeyd edir. Pulun, qılıncın, qızılın, əfsunçuların, hakimlərin görə bilmədiyi işi natiqlər görür.

Əvvəlcə qızılı işə salardı,
Qızıl tək işləri tez həll edərdi.
Qızıl iş görməsə iş ona mahal,
Qılınca atardı əlini dərhal.
Qılınc etməsəydi bu işə çara,
İşi tapşırardı əfsunçulara.
Bir iş görməsəydi onlar da əgər,
Gələrdi köməyə onda natiqlər.

Şair yeni nitqə, sözə və söz sənəti olan natiqliyə yüksək qiymət verir.

M.Füzuli. Ədəbiyyat tarixində üç dildə yazıb yaradan, şeir, qəzəl ustadı Məhəmməd Füzuli öz sələfləri kimi (Nizamidən başqa) natiqlik sənəti haqqında bəhs etməsə də, söz haqqında dəyərli fikirlər söyləmişdir.

İlahi, feyzdən bir xəzinədir söz,
Tükənməz qıldıqca dəmadəm
Məcazi şahların gənci deyil bu,

Ki, bir həbbə götürdükdə ola kəm.

Şair sözə, sözün məzmununa, onun təsir qüvvəsinə çox böyük əhəmiyyət verir. Böyük mütəfəkkir, insanlığın, insanın qabiliyyətinin, dünyagörüşünün, mədəniyyətinin, xarakterinin açılmasında, üzə çıxmasında sözü əsas meyar götürür:

Artıran söz qədrini, sidq ilə qədrin artırır,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.
Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.
Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərir hər dəm niqabi-qeybdən ruxsar söz.

Söz üzərində ciddi işləyən, deyilənləri təkrar etməməyi əsas tutan şair, divanının müqəddiməsində (fars divanı) yazırdı: «Elə vaxtlar olmuşdur ki, səhərə qədər oyaq qalmışam, axtarıb tapdığım sözləri bağrımın qanı ilə yazmışam. Səhər yazdıqlarımın başqa şairlərin əsərinə oxşatdığımı görüb, yazdığımı pozmuşam (şeirlərin sırasına salmamışam). Elə vaxtlar olmuşdur ki, səhərdən axşama qədər düşüncə dəryasına dalıb, söz alması ilə məna gövhərini deşməklə məşğul olmuşam. Amma, oxuyanlara bu fikir anlaşılmır, bu söz xalq arasında işlənmir və xoşa gəlmir deyən kimi, yazdıqlarım gözümdən düşmüş, hətta üzünü də köçürməmişəm» (Əsərləri III cild, səh.20).

Şair orta əsrlərə məxsus olan dəbdəbəli üslubda qəsidələr, fəxriyyələr, mədhiyyələr yazanlara «Rind və Zahid» əsərində atasının nəsihətlərinə qulaq asdıqdan sonra Rindin dili ilə «səndən nə gizlədim, qarışıq sözlərin içində məna mənə aydın olmadı… Əsl məsələ mənadadır, kəlmələri bəzəməkdə deyildir. Söz odur ki, onu avam da başa düşə. Oxucuların nəsihətini eşit, hər kəs ilə onun öz əqlinin səviyyəsində danış» deyir.

Füzuli əsərin mənasını məzmun, sözü isə onun şəkli hesab edir:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-biriylə asılıdır, necə ki, cism ilə can.

Füzuli elə bir ziddiyyətli dövrdə yaşayırdı ki, sənətə, şerə, sözə, sözün hikmətinə qiymət verən yox idi. «Leyli və Məcnun» poemasının girişində bu məsələyə toxunan şair yazırdı:

Bir dövrdəyəm ki, nəzm olub xar,
Əşar bulub kəsadi-əsar.
Ol rütbədə qədri-nəzmdir dun,
Kim küfr oxunur, kəlami-mövzun.

Şair sözün, şerin hörmətini qaldırmaq üçün, tarixi şəraiti nəzərə alaraq (din hakim mövqeyə malik idi) allahı, peyğəmbəri istinad kimi təsvir edir. Şeri allahın kərəmi ilə əlaqələndirir.

Sözə xor baxmaq olmaz, hər bir söz
Ərşdəndir gəlib hədiyyə bizə
Qəlbimiz meyl edir həmişə ona,
Çünki söz nazil oldu qəlbimizə.

Şair və yazıçılar sözün qədir-qiyməti haqqında çoxlu fikirlər söyləyiblər. Belə şəxslər sözün sərkərdəsi hesab olunub, hətta dövrdən asılı olaraq, şair və yazıçı olmayan adamlar da gözəl nitq söyləyib, natiq kimi tanınıblar. Məsələn, Babək, Cavidan, Uzun Həsən, Xətai.

XX əsrin son otuz ilində dünya şöhrəti qazanmış, məşhur siyasi xadim Heydər Əlirza oğlu Əliyevin dilimizin saflığı, çiçəklənməsi və inkişafı uğrunda əvəzsiz xidmətləri olub. Dilimizin inkişafına və tərəqqisinə təkan verən silsilə çıxışları ilə onun toxunulmazlığını və qorunmasını tövsiyə edən ümummilli lider Heydər Əliyev dilçilərin və ədəbiyyatçıların qarşısında çox şərəfli vəzifələr qoymuşdur.

Dilimizin necə adlanması ilə bağlı yaranan hərc-mərcliyi, qalmaqalı məhz, ulu öndər həll etdi. Bir qrup alim «Azəri türkcəsi», bir qrupu «Azərbaycan türk dili», bir qrupu isə sadəcə olaraq «türk dili» terminini məqbul hesab edirdilər. Nə üçün qazaxlar, özbəklər, qırğızlar, türkmənlər dillərini millətin adı ilə birgə «Qazax dili», «Özbək dili», «Qırğız dili», «Türkmən dili» işlətsin, biz isə bunu bir-birindən ayıraq?!

«Azərbaycan dili» türk dilləri ailəsinə məxsusdur. «Türk dili» isə daha geniş mənanı ifadə edir.

İkincisi, «Azərbaycan dili» anlayışı millətin adı ilə bağlıdır. Üçüncüsü, əgər dilimiz «türk dili» adlansa, gələcəkdə «Azərbaycan dili» anlayışı öz-özünə aradan çıxıb, məhdud dairədə işlənəcək.

Bunlardan əlavə, Heydər Əliyevin keçirtdiyi mətbuat konfransları onun natiqliyinin əsas xüsusiyyətlərini nümayiş etdirir. Suallara tutarlı cavab və yaxud manevr etmək natiqin əsas xüsusiyyətlərindən biridir.

Heydər Əliyevin nitq və çıxışları haqqında ətraflı məlumat verən professor Nizami Xudiyev onların məna xüsusiyyətlərini ətraflı və dolğun şəkildə şərh etmişdir. Biz artıq fikir söyləməyi lazım bilmədik.

NATİQLİK SƏNƏTİNİN CƏMİYYƏTDƏ ROLU VƏ NÖVLƏRİ

Xalq yaradıcılığının incilərindən olan natiqlik sənəti cəmiyyətdə mühüm yer tutur. Natiqlik sənəti hər bir insanın qabiliyyətini, istedadını üzə çıxarır. Natiqlik sənətinin ən böyük rolu ondan ibarətdir ki, bu sənət vasitəsilə yeni natiqlər və cəmiyyətə xidmət edən təbliğatçılar yetişir. Natiqliyin əsas xüsusiyyətlərindən biri odur ki, bu sənət ilə məşğul olan hər bir adam hansı mövzuda nitq söyləyirsə, həmin elmi dərindən öyrənir və müşahidələr aparır. Bu da fikrin elmi əsaslarla ifadə olunmasına xidmət edir. Millətindən asılı olmayaraq hər bir natiq xalqına yaxından bağlı olur və həqiqətlərin üzə çıxarılmasında, kütləyə çatdırılmasında öz məharətlərindən istifadə edirlər. Bu bir danılmaz faktdır ki, XX əsr Azərbaycanda natiqlik sənəti və onun inkişafı yeni mərhələyə qədəm qoydu. Bu dövrdə natiqlik sənəti, üslub və üslubiyyat haqqında dəyərli fikirlər, elmi məqalələr, kitablar, dərsliklər yazılıb çap olunmuşdur. Dünya natiqlik sənəti, onun ən gözəl nümunələri Azərbaycan dilinə çevrilmiş və onlardan layiqincə istifadə olunmuşdur. Məhz, bu illərdə M.İbrahimov, S.Vurğun, Ə.Sultanlı, H.Araslı, Ə.Dəmirçizadə, H.Mirzəzadə, M.Cəlal, M.Quluzadə, A.Qurbanov, Y.Seyidov, A.Axundov, T.Hacıyev və başqa görkəmli dilçilər, söz ustaları, uslub və üslubi prinsiplər haqqında, ədəbi dil, dil tarixi haqqında elmi əsərlər, kitablar, məqalələr yazıb çap etdirmişlər. Natiqlik sənətini hamı bilməlidir (ziyalılar nəzərdə tutulur). Müasir dövrümüzdə xalq kütlələri arasında, idarələrdə, müxtəlif sahələrdə çalışan insanları informasiya ilə təmin etmək üçün cəmiyyətimizə savadlı natiqlər lazımdır. Natiq xalqının həm təbliğatçısı, həm də təşkilatçısı olmalıdır. Ona görə də cəmiyyətimizin qaymağı sayılan müəllimlər, mədəniyyət xadimləri, bilik cəmiyyətlərində fəaliyyət göstərən mühaziraçilər, ağsaqqallar natiqlik sənətinin əsaslarını dərindən öyrənməli və yeri gəldikcə məqsədyönlü şəkildə bundan istifadə etməlidirlər. Bu günümüzün tələblərinə cavab vermək üçün hər bir natiq dərin biliyə və müşahidə qabiliyyətinə malik olmalıdır. Natiq həmçinin dilin incəliklərini dərindən bilməlidir.

Bu gün təhsil ocaqlarımızda minlərlə müəllim natiqlik sənətinin inkişafına xidmət edir. Sual-cavablar, keçirilən ədəbi gecələr, disputlar, elmi mübahisələr natiqlik sənətinin inkişafına, yüksək nitq mədəniyyətinə yiyələnmək üçün geniş imkanlar açır.

Cəmiyyətimiz inkişaf etdikcə informasiya bolluğu yaranır. Televiziya, radio hər gün nə qədər informasiyanı əhatə edir. Dünyada baş verən hadisələrin şərhi, daxili xəbərlər, rəsmi xronika, siyasi icmalçıların təhlili və

s. natiqlik sənətinin inkişafına xeyli köməklik göstərir, xalqın dünyagörüşünü zənginləşdirir.

Natiqliyin inkişafına təsir edən amillərdən biri də demokratiyadır. Demokratiya əsasında natiqlik sənəti və nitq mədəniyyətinin təməli qoyulur. Söz azadlığı, obyektiv tənqid natiqliyin kəsərini artırır. İdarələrdə, yığıncaqlarda, təntənəli gecələrdə nitq söyləyən və ya çıxış edən hər bir şəxs qarşısında belə bir məqsəd qoymalıdır ki, söylədiyi nitq cəmiyyətə xidmət etmiş olsun. Əsl natiq nitqini cəlbedici qurmalıdır. Xalq kütləsi, kollektiv arasında natiqin nüfuzunu qaldıran, onu hörmətli edən əsas cəhətlərdən biri nitqin inandırıcı və qərəzsiz olmasıdır. Fikri sübut və faktlarla ifadə etmək üçün natiq tutarlı materiallardan istifadə etməlidir. Natiqlik sənətinin özünəməxsus xüsusiyyətlərindən biri də nitq zamanı gətirilən sitatların fikirlə bağlı olmasıdır. Fikrin dolğun şəkildə dinləyiciyə çatdırılmasında mənbədən gətirilən sitatlar aydın, düzgün və səlis ifadə olunmalıdır.

Hər bir natiqin şəxsi xüsusiyyətləri ilə bərabər fərdi üslubu olmalıdır. Onun yazdığı hər hansı mühazirə, çıxış xidmət etdiyi cəmiyyətlə güclü təmasda olmalıdır. Şairə, yazıçıya, jurnalistə, tənqidçiyə və digər şəxslərə xas olan fərdi üslub natiqlik sənətində mühüm və əsas keyfiyyətdir. Hər bir natiq nitqini qurarkən dildə işlənən sözləri saf-cürük edir, fikrini dolğun, obrazlı ifadə etmək üçün dil vahidlərini düzgün seçib işlədir. Bu xüsusiyyət natiqin səviyyəsini üzə çıxarır. Ona görə də natiq olmaq istəyən hər bir şəxs dilin incəliklərini bilməlidir, ondan düzgün istifadə etməlidir.

Söylənilən fikirlərdən aydın oldu ki, natiqlik sənəti cəmiyyətə xidmət edir. Cəmiyyət isə uzun bir tarixi yol keçmişdir. Bu tarixi yol natiqlik sənətinin müxtəlif növlərinin və şəkillərinin yaranmasına şərait yaratmışdır. Eyni zamanda cəmiyyətin inkişafına və tərəqqisinə xeyli kömək göstərmişdir. Onu da qeyd edək ki, cəmiyyətin inkişafı bir xətt üzrə getmədiyi üçün natiqlik sənətinin də təsnifi, bölgüsü müxtəlif şəkildə təzahür etmişdir. Yəni cəmiyyətin inkişafında bir sahə yüksək səviyyədə, digəri orta, başqa birisi isə durğunluq dövrü keçirərək yaşamışdır. Bu müxtəliflik şübhəsiz ki, cəmiyyətlə birgə inkişaf edən natiqlik sənətində də özünü göstərməyə bilməzdi. Ona görə natiqlik sənətinin növləri ya tam əhatə olunmamış, ya da bölgülərdə naqislik özünü göstərmişdir. Bu bölgülərin müxtəlifliyinə, tədqiqatçıların fikir ayrılığına baxmayaraq, bu, natiqlik sənətinin müvəffəqiyyəti idi. Artıq bir elm kimi mütəxəssislərin diqqətini cəlb edən natiqlik sənəti elmi mübahisələrin yaranmasına şərait yaratdı və öz varlığını sübut etdi.

Ümumiyyətlə, natiqlik sənətinin bölgüsü haqqında fikir müxtəlifliyinə Azərbaycan tədqiqatçılarının əsərlərində də rast gəlirik. Bizcə, başqa bir alimin tərtib etdiyi sxemi əsas götürən və onu qəbul edən Məmmədəli Əskərovun məqbul hesab etdiyi bölgü daha məqsədəuyğundur. Əsasən, məqbul və dolğun hesab etdiyimiz bu bölgüdə yalnız bir növün adını

dəqiqləşdirmək yerinə düşərdi: Bu növün adının ilahiyyatçı natiqlik yox, dini natiqlik adlanmasını daha düzgün hesab edirik. Yerdə qalan növləri və onların müxtəlif qollara ayrılmasını (Məmmədəli müəllim bunları şəkillər kimi ifadə edir) olduğu kimi qəbul edirik. Natiqlik sənətinin növlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar.

1. **İctimai-siyasi natiqlik**

Bu növ müxtəlif qollara, budaqlara bölünür (Bütün növlər bu bölgü üzrə aparılacaq).

a) siyasi mövzularda məruzələr;
b) iclaslarda, qurultaylarda, konfranslarda hesabat məruzələri;
c) siyasi nitq;
d) xülasə (icmal);
e) mitinqdə söylənilən nitqlər;
f) təbliğatçı və təşviqatçı nitqi;

2. **Akademik natiqlik**:

a) Ali məktəblərdə oxunan mühazirələr;
b) elmi məruzələr;
c) elmi xəbərlər;
d) birdəfəlik oxunan mühazirələr;

3. **Məhkəmə natiqliyi**:

a) prokuror nitqi və ya ittihamedici nitq;
b) vəkil və ya müdafiə nitqi;
c) müttəhimin nitqi;
d) özünü müdafiə nitqi;
e) hakimin nitqi;
f) şahidlərin nitqi;

4. **Məişət natiqliyi**:

a) yubileylərdə söylənilən nitq;
b) masa arxasında söylənilən nitq;
c) qəbirüstü nitqlər;

Onu da qeyd edək ki, Azərbaycan xalqına xas olan oxşamalar, ağılar matəm mərasimində ifa edildiyi üçün bu növün qollarına daxil olmalıdır.

5. **Dini natiqlik**:

a) moizə və xütbə nitqi;
b) baş kilsə və camedə nitq;
c) yasin oxunması, quran bağışlanması, ehsan və süfrə duaları bu növün qollarına daxildir.

Qeyd edək ki, dini natiqliyin bəzi qolları məişət natiqliyi ilə sıx şəkildə bağlıdır. Bu, hər iki növə aid edilə bilər. Məsələn, ehsan və süfrə duaları, quran bağışlanması, qəbirüstü nitqlər və s.

İctimai-siyasi natiqlik

İstər keçmişdə, istərsə də indi ictimai-siyasi natiqlik xalqın həyatında, inkişafında mühüm rol oynayır. İctimai-siyasi natiqlik mövcud quruluşun həm mənfi, həm də müsbət keyfiyyətlərini əks etdirir. Cəmiyyət inkişaf etdikcə siyasi baxışlar ictimai-siyasi natiqlikdə özünə yer tapır. Keçirilən mitinqlər, nümayişlər, yığıncaqlar isə yeni natiqlərin yetişməsinə səbəb olur.

Siyasi natiqlikdə özünə yer tapan natiqlər isə xalq ideyalarının yayılmasında əsl təbliğatçıya çevrilir. Belə nitqlərin təsiri nəticəsiz qalmır. İctimai-siyasi nitqin əsas qollarından birini təşkil edən hesabat məruzələri isə icra olunmuş işlər haqqında yekun sözü deyir, görülən işlər təhlil olunur və qiymətləndirilir. Bu mərhələdən sonra qarşıda duran yeni məqsəd və vəzifələr müəyyən olunur.

İctimai-siyasi natiqlik əsasən mövcud iqtidarı müdafiə edir. Onun siyasi fikirlərini, məqsəd və vəzifələrini təbliğ edir. Müxalifət qüvvələrinin belə fikirlərlə razılaşmaması ziddiyyətli fikirlərin meydana gəlməsinə səbəb olur. Bu isə cəmiyyətin siyasi inkişafına təkan verir. Yeni natiqlərin, liderlərin yaranmasına gətirib çıxarır. Siyasi natiqlik kütləvi xarakter daşıyır, xalqa xidmət edir.

İctimai-siyasi natiqliyin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, xalqa xidmət edir. Onun mənafeyini hər şeydən üstün tutur. İctimai-siyasi natiqliyin qədim və zəngin ənənəsi vardır. Bu növ natiqlik təbliğat və təşviqat işlərində xalqa əvəzsiz xidmət edir. Dövlətin yeritdiyi məqsəd və vəzifələri xalqa aşılayır, qarşıya çıxan problemləri aydınlaşdırır, ictimai-siyasi məsələlərin düzgün təhlil olunmasında kəsərli silah kimi nəzəri-diqqəti cəlb edir. Məhz bu xüsusiyyətlər onu digər növlərdən fərqləndirir.

AKADEMİK NATİQLİK

Ali məktəb ocaqlarında oxunan mühazirələr, elmi məruzələr, müzakirələr bu növə daxildir. Akademik natiqliyi digər növlərdən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, burada elmiliyə daha çox yer verilir. Hər bir natiq mühazirəyə hazırlaşarkən ona yaradıcı yanaşır, verilən sualları elmi əsaslarla şəhr edir.

Akademik natiqliyin əsas məziyyətlərindən biri də mövzunun əvvəlcədən dinləyicilərə məlum olmasıdır. Məsələn, hər hansı bir ixtisas sahibi hazırladığı mühaziräni dinləyicilərin səviyyəsinə uyğun qurmalı və müəyyən ümumiləşmələr aparmaq qabiliyyətinə malik olmalıdır. Mühazirə hazırlanarkən mübahisə doğuran məsələlər aradan qaldırılmalıdır. Əgər fakt, sübut, dəlil varsa, bu, nitqin təsir gücünü artırır.

Bəzi elmi məruzələrdə isə vəziyyət dəyişir. Onlarda konkretlik olmur. Bəzilərində isə fərziyələr irəli sürülür. Bu xüsusiyyət onu mühazirədən fərqləndirir. Belə məruzələrdə məsələnin həlli ümumi xarakter daşıyır, mahiyyət açılmır. Elmi məruzələr fərziyyə xarakteri daşıyırsa, onda sübut, dəlil, fakt işlənə bilmir. Məsələn, zəlzələnin nə vaxt baş verəcəyi faktı elm aləminə bəlli deyil. Şübhəsiz ki, bu barədə deyilən sözlərin, fikirlərin nə fakta, nə də sübuta ehtiyacı var. Lakin onu da yaddan çıxarmaq olmaz ki, ayrıca bir problemin həllində, mübahisələrə, dəlil və sübutlara ehtiyac duyulur. Bu zaman elmi məruzə mühazirəyə yaxınlaşır, lakin dilinə görə, ifadə vasitələrinə görə yenə də özünəməxsusluğunu saxlayır. Elmi məruzələrin dili, ifadə tərzi mühazirəyə nisbətən qəliz olur. Elmi məruzələr əsasən simpoziumlarda, konfranslarda daha çox işlənir. Akademik natiqliyin də inkişafı cəmiyyətin tərəqqisinə bağlıdır. Elm, texnika nə qədər çox inkişaf edirsə, akademik natiqlik də bir o qədər tərəqqi edir. Akademik natiqlik hər hansı bir elmi kəşf və ya tədqiqat barədə məlumat verməklə bərabər, müəyyən tezis xarakteri daşıyan müddəalardan da dinləyiciyə məlumat verir. Akademik natiqlik həm də müəyyən məcmuələrdə, jurnallarda elmi xəbərlər adı altında bir qrup adamlara çatdırılır. Bu xəbərlər isə öz növbəsində uzunçuluqdan, təkrarlardan seçilir. Elmi xəbərlərdə əsas meyar xəbərlərin şərhi hesab olunur. Akademik natiqliyin inkişafında müəllimlərin, bilik cəmiyyətində işləyən elmi işçilərin mühüm rolu vardır. Akademik natiqlikdə elmi düsturlar, tərifllər, terminlər, dəlil, sübut, fakt, izahlar əsas amil kimi özünü göstərir. Akademik natiqlik kütləvi xarakter daşımır.

Qeyd etmək lazımdır ki, elm inkişaf etdikcə, onun qolları çoxşaxələrə bölündükcə, akademik natiqlik də genişlənir, zənginləşir və daha da təkmilləşir. Akademik natiqlikdə dil vahidləri məhdud dairədə işlənir, geniş şəkildə işlədilməsi mümkün olmayan, anlaşılmayan sözlərin, ifadələrin

işlənməsi isə bu nitqin təsir qüvvəsini azaltmır, əksinə, elmi cəhətdən fikrin orijinallığına xidmət edir.

MƏHKƏMƏ NATİQLİYİ

Məhkəmə natiqliyi natiqlik sənətində ən qədim tarixə malik demokratik əsaslar üzərində qurulan bir anlayışı ifadə edir. Natiqlik sənətinin inkişafında əvəzsiz xidmətləri olan məhkəmə natiqliyi antik dövrün məhsulu kimi diqqəti cəlb edir. Solon islahatlarından sonra özünü müdafiə nitqlərinin yaranması, loqoqrafların yetişməsi məhkəmə natiqlik sənətinin bünövrəsini qoydu. Qədim Yunanıstanda Demosfen, Lisi, İsey, Romada Siseron, Fransada andlı məhkəmələrə Lemetr, Demanj, Rusiyada Aleksandrov, Plevako, Konn kimi natiqlərin yetişməsi böyük bir məktəbin yaranmasına gətirib çıxardı.

Məhkəmə natiqliyi müttəhimin müdafiəsi üzərində qurulur və ədalətin zəfər qazanması üçün vəkil nitqi kimi hüquqi əsaslarla səciyyələnir.

Bununla da məhkəmə zamanı gizli qalan hadisələr, obyektiv və subyektiv cəhətlər elmi şəkildə araşdırılır və ədalətli nəticə əldə edilir.

Məhkəmə natiqliyini digər növlərdən fərqləndirən əsas xüsusiyyətlər ondan ibarətdir ki, o, hüquq, psixologiya, məntiq, pedaqoqika, dil, ədəbiyyat və digər elmlərlə sıx şəkildə bağlıdır.

Məhkəmə natiqliyində əsas məsələlərdən biri müttəhimin son söz söyləməsidir. Bu son söz adətən ibrətamiz xarakter daşıyır. Müttəhim törətdiyi əmələ görə peşmançılığını bildirir. Bir də heç vaxt cinayət törətmədiyinə söz verir. Bəzən bu fikrin əksilə də rastlaşırıq.

Məhkəmə prosesində prokurorun nitqi əsas rol oynayır. O, dövlət nümayəndəsi kimi çıxış edir və müttəhimin törətdiyi cinayətə görə cəza almasını hakimdən tələb edir. Hakim isə müttəhimin cavanlığını və ya qocalığını, uşaqlarını, ata-anasını və digər cəhətləri nəzərə alıb işi müəyyən qədər yüngülləşdirir.

Məhkəmə natiqliyi öz məzmun və formasına görə, quruluşuna görə o biri növlərdən fərqlənir. Belə ki, bu prosesdə bir neçə adam iştirak edir. Hər birinin də nitqi bir-birindən əsaslı surətdə fərqlənir. Məsələn, prokuror ədalətin bərpası, hadisələrin düzgün təhlil və şərhini ustalıqla yerinə yetirməlidir.

Vəkil isə qanunların aliliyini gözləyərək, müttəhimin hüquqlarını müdafiə edir. Həm də şahidlərin nitqini düzgün və dəqiq izləməlidir. Üst-üstə düşməyən fikirləri təkzib etməlidir.

Məhkəmə natiqliyi əsasən rəsmi xarakter daşıyır. Hadisələrin gedişi, sübutlar, dəlillər, faktlar, əşyayi-dəlil olan hər bir şey rəsmiləşir və məhkəmə prosesində istifadə olunur. Məhkəmə natiqliyinin yaranmasında və inkişaf

etdirilməsində respublikamızda fəaliyyət göstərən hüquq işçilərinin, prokurorların əməyi yüksək qiymətləndirilməlidir.

MƏİŞƏT NATİQLİYİ

Məişət natiqliyi qədim tarixə malikdir. O, xalq həyatının, məişətinin inkişafı ilə əlaqədar yaranıbdır. Bizcə, o biri növlərə nisbətən məişət natiqliyi Azərbaycanda daha erkən yaranıb püxtələşmişdir. İlkin nümunələrinə şifahi xalq ədəbiyyatında rastlaşdığımız məişət natiqliyi fikrimizi sübut etməyə əsas verir.

Əzizim, ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir igid ölmüş,
Göy kişnər, bulud ağlar.

Məişət natiqliyi haqqında fikir söyləyən Kamil Əliyev yazır: «Eramızdan əvvəl V-IV əsrlərdə Afinada məişət natiqliyinə böyük əhəmiyyət verilirmiş. Müharibələrdə həlak olan igidlərin cəsədi sərv ağacından düzəldilmiş tabutlara qoyularmış. Həmin tabutlar üçün uca bir yer düzəldilərmiş. Təntənəli dəfn mərasimi başlanarmış. Tabutlar qəbrə endirilib üstü örtüləndən sonra matəm mitinqi olarmış. Həmin mitinqdə ən məşhur natiq - siyasi xadim nitq söyləyər, həlak olanların igidliyini yüksək qiymətləndirər və dinləyicilərə vətənpərvərlik ideyaları aşılarmış.

Analoji fikir Ə.B.Haqverdiyev tərəfindən də söylənilir. Böyük mütəfəkkir yazır: «Qədim Azərbaycanda böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya «yuq» deyirdilər. Toplananlar üçün qonaqlıq düzələrdi, xüsusi dəvət edilmiş yuqçular isə ikisimli qopuz çalıb oynardılar. Yuqçu əvvəlcə mərhum qəhrəmanın igidliklərindən danışıb, onu tərifləyərdi. Sonra isə qəmli havaya keçib şanlı qəhrəman üçün ağı deyərdi.

Belə ağılar həm nəzm, həm də nəsr formasında şifahi xalq ədəbiyyatında indi də varlığını qoruyub saxlayır. Məsələn, nəsr formasında: «Açılmayan tüfəngin, sivrilməyən xəncərin öz canına qurban! Ay kimi doğdun, gün kimi batdın! Minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın! Saydığına salam verdin. düşməninə dirsək göstərdin...ağzuvun kəsərli sözünə anan qurban!»

Nəsr forması ilə bağlı yuxarıda məlumat verdik. İlk yazılı abidələrimizdən biri Azərbaycan xalqının məişətini, qədimliyini sübut edən, ensiklopedik nümunəmiz olan «Kitabi-Dədə-Qorqud» dastanlarında məişət

natiqliyinin nümunəsi kamil şəkildə özünü göstərir. Xalq mərasimlərini, adət-ənənələri, xalq məişətini dolğun şəkildə əks etdirən bu qədim və əvəzsiz abidədə Banuçiçək başının tacı, igid, qəhrəman nişanlısı Beyrək üçün göz yaşı tökərək bu ağını deyir:

Vay, ay duvağın ayası! Vay alnım başım umuru!
Vay şah igidim, vay şahbaz igidim!
Doyunca üzünə baxmadığım, xanım igit!
Qanda getdin məni yalqız qoyub, canım igit!

Məişət natiqliyinin bu qolu indi də yaşamaqdadır. Söylənilən qəbirüstü nitqlər, yazılan nekroloqlar bu gün də davam etdirilir.

Məişət natiqdiyinin ən geniş yayılmış qollarından biri də sağlıq nitqidir. Sağlıq yubileylərdə, şənliklərdə, toylarda, mərasimlərdə söylənilir. Sağlıq nitqlərində əsas yerlərdən birini tutan təbriklər müxtəlif məzmunda olur. Burada natiqin səmimiyyəti, arzu və istəkləri nitqin əsasını təşkil edir. Maraqlı cəhətlərdən biri odur ki, məişət anlayışı bütün xalq həyatını əhatə etdiyi kimi, məişət natiqliyi də geniş və əhatəli bir sahəni əks etdirir. Natiqlik sənətinin digər növləri və onların qolları məişət natiqliyi ilə əlaqəlidir.

DİNİ NATİQLİK

Natiqlik sənətinin bu növü qismən sonrakı dövrlərdə yaranmışdır. Qədim zamanlarda təbiət qüvvələri qarşısında aciz qalan insanlar mücərrəd anlayışlara əl atır və özləri üçün çıxış yolu axtarırdı. Lakin orta əsrlərdə özünə möhkəm yer eləmiş din öz ideyaları ilə yaşayıb inkişaf edirdi. Məsələn, İranda, Əfqanıstanda, Avropada, Romada məscid və kilsələrdə fəaliyyət göstərən din xadimləri fikrimizə misal ola bilər.

Azərbaycanda dini natiqlik ərəblərin hakimiyyəti illərində geniş vüsət aldı. Aparılan ərəbizm siyasəti və islam dininin təbliği bu natiqliyin təməl daşının daha da möhkəmlənməsinə səbəb oldu. Azərbaycanın ən ucqar kəndlərində açılan dini məktəblər, mədrəsələr, xüsusilə müqəddəs Qurani-Kərimin tədrisi dini natiqliyin çiçəklənməsinə təkan verdi. Bu illərdə dini natiqlik məktəblərdə «bəlağət» adı ilə keçilməyə başladı. Məscidlərin tikilməsi, müqəddəs günlərin bayram edilməsi (bu ənənə Azərbaycan müstəqillik qazanandan sonra bizim xalqımız arasında da geniş yayılıb. Məsələn, orucluq bayramı, qurban bayramı, məhərrəmlik ayında müqəddəs aşura günü və s.) xalqın şüurunda özünə yer tapdı. Doğrudur, məscidlərdə fəaliyyət göstərən bəzi din xadimləri tənqid atəşinə tutulurdu. Amma, bütünlükdə islam dini xalqın inam yeri, müqəddəs qibləgah hesab olunurdu. İslam dininin yayılmasına əsas səbəb ərəb dilinin rəsmi dövlət dili olması idi.

Bundan sonra dini dərslər, ayinlər bu dildə tədris olunmağa başladı. Lakin xalq öz dilini və adət-ənənələrini qorudu, varlığını saxladı. Lakin din xalqın şüurunu zəbt etdi. Dini ənənələr yaşadıqca təkmilləşdi və özü ilə bərabər dini natiqliyin nümunələrini də qoruyub saxladı.

IV əsrin əvvəllərindən etibarən Arranın müəyyən hissələrində xristianlıq yayılmağa başlamışsa da, Atropatenada atəşpərəstlik VII əsrə qədər əsas hakim din olaraq yaşamış, hətta islamiyyət güclə qəbul etdirildikdən sonra uzun müddət öz təsirini davam etdirmişdir.

«İstər zərdüştlük, istərsə də bundan daha əvvəlki ibtidai tayfa-qəbilə «dini» görüşləri nağıllara, əfsanələrə də təsir etmiş və bu təsirlərlə bağlı bir sıra surətlər, hətta bəzi süjetlər əmələ gəlmişdir ki, bunların da qalıqları şifahi ənənə ilə zəmanəmizə qədər gəlmişdir. Xalq içərisində yaşamaqda olan «Fatmanın inəyi», «Taxta qılınc», «Ovçu Pirim» kimi onlarca nağıllarda totemizmin qalıqlarını görmək mümkündür.

Dini natiqlik Azərbaycanda bu gün geniş yayılıb. Bu isə xalqımızın islam dininə olan inamından irəli gəlir.

NİTQİN HAZIRLANMASI VƏ MƏRHƏLƏLƏRİ

Hər bir natiq çıxışdan əvvəl mövzusu ilə əlaqədar hazırlıq işləri görür. İlk növbədə çıxışın mövzusu onu düşündürür. Bu, ali məktəbdə aparılan mühazirələrə şamil edilmir. Çünki onların mövzusu əvvəlcədən təsdiq olunmuş proqramlarda əks olunur. Bu, əsasən, «Bilik» cəmiyyətlərində fəaliyyət göstərən natiqlərə aiddir. Hətta bəzi hallarda nitqin mövzusu gözlənilmədən bir hadisə ilə əlaqədar (yubileylərlə, əlamətdar hadisə ilə, gələn qonaqlar qarşısında çıxış etmək üçün ayrılan vaxtın azlığı və s. ilə) bağlı olaraq meydana çıxır. Natiq bu zaman nitqin mövzusunu tam qavramalı, onun əsasını təşkil edən məzmun və formanı, quruluşu dinləyicilərin səviyyəsinə uyqun qurmalıdır. Adətən, natiqlər öz mövzusuna məsuliyyətlə yanaşır. Hər bir natiq ixtisasına uyğun olan mövzu ətrafında çıxış etmişdir. Bəzən biz bunun əksini görürük. Məsələn, tarixçi fəlsəfi kateqoriyalardan, ədəbiyyatçı pedaqogikadan, riyaziyyatçı psixologiyadan, bioloq kimyadan silsilə mühazirələr oxuyur. Belə natiqlər özlərindən razı qalsalar da, tələbkar auditoriya ilə rastlaşdıqda, dinləyiciləri təmin edə bilmirlər. Natiq nitqə hazırlaşarkən, ən mühüm məsələləri düzgün təhlil etməyi və işıqlandırmağı qarşısına məqsəd qoymalıdır.

Natiq nitqini qurarkən mövzunu tam əhatə etməlidir. Çünki natiq də yazıçı kimi mövzunu ideya ilə bağlayır. Yəni mövzu fikrin ifadəsinə uyğun seçilməlidir. Söylənilən nitq, çıxış, məruzə natiqin həyatda qazandığı biliyin və dünyagörüşün ifadəsidir. Odur ki, natiq olmaq istəyən hər bir şəxs birinci növbədə dərin biliyə malik olmalıdır. Natiq həmişə özünə bu sualları verməlidir. «Mən nə haqqında danışıram?», «Kimə danışıram?» (auditoriya nəzərdə tutulur), «Dinləyicilərə yeni nə şey deyəcəyəm?», «Mövzuya hazırlaşmağa vaxt çatacaqmı?», «Mövzunu əhatə edə biləcəyəmmi?», «Qarşıya çıxan sualları düzgün təhlil edə biləcəyəmmi?» və s.

Nitqin yazılması və ya şifahi şərhi olduqca mürəkkəb bir prosesdir. Bu proses məqsədyönlü aparılmalıdır. Tələsməyə yol vermək olmaz. Bu prosesi mərhələ -mərhələ aparmaq daha düzgün və məqbul hesab olunur. Şərti olaraq bu mərhələləri belə qruplaşdıra bilərik:

1. Mövzu ətrafında düşünüb onu tam mənimsəmək.
2. Mövzuya aid ədəbiyyatın toplanması.
3. Toplanan ədəbiyyatı qruplaşdırıb nəticə əldə etmək.
4. Əldə edilmiş nəticə əsasında plan tərtib etmək.
5. Nəhayət, fikrin yekunlaşdırılması. Nəticə.

Mövzu ətrafında düşünən natiq, həm öz səviyyəsini, həm də auditoriyanın tərkibini nəzərdən qaçırmamalıdır. Natiq nitqini qurarkən, dinləyicilərin yaşını, ixtisasını, dünyagörüşünü, mövzuya aid biliklərini nəzərə almalıdır. Bu xüsusiyyətləri mövzu ilə, yerli şəraitlə, nitqin əmələ

gətirə biləcəyi reaksiya ilə, mövzunun qavranılması ilə, yaranan problem ilə, situasiya ilə əlaqələndirməyi bacarmalıdır. Bu, natiqdən böyük bacarıq və ustalıq tələb edir. Natiqin qarşısında qoyulan bu tələblər yerinə yetirilərsə, dinləyicilərdə böyük maraq oyadar.

Nitqin gözəl, dolğun, elmi çıxması üçün natiq mövzuya aid ədəbiyyat əldə etməlidir. Gündəlik mətbuatı, mövzuya aid elmi ədəbiyyatı (hətta mübahisəli olsa belə, öz fikrini, gəldiyi qənaəti bildirməlidir), məqalələri, tezisləri nəzərdən keçirib, yaradıcılıq təxəyyülü ilə əlaqələndirməlidir.

Toplanmış ədəbiyyatı nəzərdən keçirib, öz aləmində müqayisələr aparıb, gəldiyi nəticələri məqsədyönlü şəkildə mövzuya şamil edir. Natiq topladığı biliyi, faktı, sübutları, dəlilləri qruplaşdırıb, nitqi dəqiq və düzgün, ardıcıl ifadə etmək üçün plan tərtib edir. Plan əsasında da fikrini yekunlaşdırıb, gəldiyi nəticəni dinləyicilərlə bölüşür.

Nitqin hazırlanmasında natiqin biliyi ilə bərabər, təcrübəsi də mühüm rol oynayır. Bəzi natiqlər nitqlərini həddindən artıq elmi şəkildə qurur (bu bəzən bilərəkdən edilir), bəzisi isə savadlı görünmək xatirinə sadə, aydın nitq əvəzinə fikrini təmtəraqlı cumlələrlə ifadə edir. Təcrübəli natiqlər isə apardığı müşahidə ilə bərabər, dərin elmi bilikləri nitqə köçürüb sadə, lakin təsir qüvvəsi olan çıxış hazırlayırlar. Belə nitqlər nümunəvi nitq kimi dinləyicilərin rəğbətini qazanır.

Hər bir natiq ixtisasından və nitqin mövzusundan asılı olmayaraq, əldə etdiyi materialın ən kiçik sitatlarını, faktlarını, dəlillərini dəfələrlə yoxlayıb, gəldiyi nəticəni öz elmi və təcrübəsi süzgəcindən keçirib kağız üzərinə köçurməlidir. Əks təqdirdə nitq quru və yorucu olar. Faktlar yığını, yersiz sitatlar, əsaslandırılmamış dəlil və sübutlar şablon xarakteri daşıyar. Lakin natiqin yaradıcı münasibəti, nitqdə öz sözü, öz səsi hiss olunur. Natiq nitqini qurarkən hadisələrin içərisində olmalıdır. Təsvir etdiyi hadisənin iştirakçısına çevrilməlidir. Cərəyan edən hadisələr natiqin gözləri qabağından bir kino lenti kimi keçməlidir. Yalnız bu vaxt nitq inandırıcı və cəlbedici olur. Nitqin belə qurulması hər bir natiqdən böyük təcrübə və dərin elmi bilik tələb edir.

Nitqin qurulmasında natiq dinləyicilərlə necə əlaqə yarada biləcəyi haqqında düşünməlidir. Nitqin dinləyiciyə çatdırılmasında bu amil də əsas şərtlərdən biridir. O, nitqi harada söyləyir? Doğma kollektiv arasında, yoxsa tanımadığı bir idarədə, müəssisədə. Adətən, kənarda nitq söyləmək daha çətindir. Dinləyicilərlə əlaqə yaratmaq yenə də natiqdən böyük ustalıq və təcrübə tələb edir. Belə olan halda natiq nitq söyləyəcəyi yerin şəraitini, dinləyicilərin marağını nəzərə alıb, fikrini əldə etdiyi təəssüratlarla, əgər mümkün olsa, hətta suallarla ifadə etməlidir. Auditoriyanın diqqətini cəlb etmək üçün onlarla təmasda olmaq ən gözəl vasitədir.

Natiq nitqini qurarkən günün tələblərinə cavab verən informasiyalardan istifadə etməyi unutmamalıdır. Nitqin mövzusuna uyğun

olaraq kitablardan, məqalələrdən, qəzetlərdən, jurnallardan istifadə etməli və onlara yaradıcı yanaşmalıdır. Günün tələblərinə cavab verməyən nitq şübhəsiz ki, dinləyicilərdə maraq oyada bilməz. İnformasiyanın bolluğu və natiqin yaradıcı münasibəti nitqin zənginliyini artırır. Böyük Azərbaycan şairi Nizami Gəncəvi yazırdı:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım.

Natiqlik sənətinə yiyələnmək istəyən hər bir şəxs elmi xəzinə olan kitablardan bəhrələnməli və günün müəyyən hissəsini mütaliə ilə məşğul olmalıdır. Yaxşı kitab natiqə yol göstərən bələdçini xatırladır. Onu elmin çətin yollarından, enişindən-yoxuşundan keçirir.

Natiq nitqə hazırlaşarkən, əldə etdiyi materialları qruplaşdırdığı zaman qeydlər götürməyi də unutmamalıdır. Bu qeydlər gələcəkdə ona köməklik göstərir.

Bundan əlavə, natiq nitqini qurarkən konspekt, plan tərtib etməyi də unutmamalıdır. Fikrin ardıcıl və məqsədyönlü ifadə olunmasında bu prinsiplər əsas şərtlərdən biridir. Plan, konspekt toplanmış materialın sistemə salınmasında natiqə köməklik göstərir. O zaman belə bir sual ortaya çıxır:

Plan nədir? Plan nitqin yazılı növündə ardıcıllığı, şifahi növündə isə fikrin sistemli olmasını təmin edir. Hər hansı bir nitqin quruluşu plan əsasında giriş, əsas hissə, nəticədən ibarət olur. Hətta bəzi natiqlər planı bölmələrə, yarımbölmələrə, maddələrə, bəndlərə də bölür. Bu təcrübə özünü doğrultmur. Əsas fikri mətləbdən uzaqlaşdırır. Plan tərtib olunarkən natiq onu nitqin ideyası ilə bağlamalıdır. Planın tərtib olunmasında nitqin mövzusuna uyğun forma seçilməlidir. Plan nitqin ardıcıl şəkildə ifadə olunmasına köməklik göstərir.

Natiqin söylədiyi fikirlərin yadda saxlanmasına, xatırlanmasına yardım edir. Tərtib olunan plandan monoloji nitqə keçid başlanır. Təcrübəli natiqlər planı yarımbölmələrə ayırsalar da, onu vahid forma kimi qəbul edirlər. Nitq zamanı planda qoyulmuş bütün məsələlər şərh olunmaya da bilər, bunların tam əhatə olunması vacib də deyil.

Qeyd etdik ki, hazırlanan nitq üç hissəyə bölünür:

1. Giriş
2. Əsas hissə
3. Nəticə

Nitqin giriş hissəsində natiq dinləyiciləri ilk andan ələ almalı və onların diqqətini özünə cəlb etməlidir. Fikrini, mülahizələrini elə qurmalı və

nitqə başlamalıdır ki, auditoriyada maraq oyatsın. Natiq giriş hissəsində nitqin sonrakı hissələri üçün şərait yaradır. Əgər o, girişdə dinləyiciləri maraqlandırıbsa, ələ ala bilibsə, onların diqqətini cəlb edibsə, o biri hissələrdə müvəffəqiyyət qazanacağına şübhə yoxdur. Əksinə, göstərilən prinsiplərə əməl edə bilməyibsə, müvəffəqiyyətdən danışmağa dəyməz. Nitqin giriş hissəsi şablon xarakteri daşımamalıdır. Natiq düşdüyü vəziyyəti və dinləyiciləri, onların əhval-ruhiyyəsini nəzərə almalı, nitqin müqəddiməsini də bu şəraitə uyğun qurmalıdır. Nitqin giriş hissəsindən bəhs edən M.Əsgərov yazır:

«Söylənilən nitqin girişini (müqəddiməsini) nəhəng və əzəmətli bir binanın - auditoriyanın qızıl açarına bənzətmək mümkündür. Məlumdur ki, şifahi nitq söylənilən nitqdir. Natiq nitqindən isə əsas məqsəd ünsiyyət yaratmaq və əsas ideyanı, fikri, mənanı auditoriyaya çatdırmaqdan ibarətdir. Bu cəhətdən natiqlə auditoriya arasında əksər hallarda monoloji nitq formasında ünsiyyət yaranır.

Natiq nitqinin müqəddiməsi (giriş) dərin və böyük psixoloji təsir qüvvəsinə malik olmalıdır. Aristotelin nitqin müqəddiməsini poetik əsərin proloquna bənzətməsi heç də təsadüfi deyildir».

Dövrümüzün böyük şairi olmuş ictimai-siyasi xadim, filologiya elmləri doktoru, professor, alovlu natiq olmuş Bəxtiyar Vahabzadə «Müəllimlərin VI qurultayında» çıxış edərkən nitqini belə başlamışdır:

Əziz və hörmətli müəllimlər! Sizi respublika müəllimlərinin VI qurultayı münasibəti ilə yaradıcı ziyalılar adından təbrik edir, gənc nəslin tərbiyəsi kimi mühüm və şərəfli işinizdə sizə uğurlar diləyirəm.

Müəllim bizim ilk dostumuz, mənəvi atamız, anamızdır. «Müəllim» sözü dar lüğəti mənasından çıxıb daha böyük mənalar kəsb edir, misilsiz məzmuna malik olmuşdur. Məndən olsaydı, əlifbadakı sıra qanunlarını pozub «müəllim» sözünü bütün dillərin lüğətində ilk söz kimi yazardım.

Böyük yunan filosofu Əflatundan xəbər aldılar:

- Atanı çox sevirsən, ya müəllimini? Filosof cavab verdi:

- Müəllimimi!

- Nə üçün? - deyə xəbər alanda, o, belə cavab verdi:

- Atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı.

Bu, çox böyük sözdür. Yerdən göyə qalxmaq - yerin səviyyəsində duran böyük fikirlər, böyük ideyalarla yaşamaq, gələcəyə qanadlanmaq deməkdir. Bizi hələ uşaq ikən böyük fikirlər və böyük əməllərlə silahlandıran, gözümüzü dünyaya açan, əllərimizdən tutub bizi sirlər dünyasına aparan, bizə uçmaq üçün qanad verən müəllimimizdir. Müəllim beyinlərə fikir, ideya toxumu səpir, gözlərə işıq, ürəklərə od verir. Ən ümdəsi də bizə düşünmək öyrədir. Bu qədər böyük və lazımlı bir vəzifəni cəmiyyət müəllimə tapşırmışdır». Gətirilən misaldan aydın olur ki, şair -

natiq nitqin ən əsas və ciddi mərhələsi olan müqəddiməni nə qədər gözəl, cəlbedici, sadə, aydın bir şəkildə qurmuşdur.

Yaradıcı nitqin əsasını, canını təşkil edən əsas hissə natiqə məharətini göstərmək üçün geniş meydan açır. Nitqin əsas hissəsində natiq yaradıcılıq vaxtı nə müvəffəqiyyət qazanıbsa, nə bilik əldə edibsə, onu hərtərəfli dinləyicilərə (həm ümumi şəkildə, həm xüsusi şəkildə, həm konkret şəkildə, həm də təhlil etmək yolu ilə) çatdırır. Əgər natiq yazdıqlarını oxumaqla kifayətlənib, işini bitmiş hesab etsə, onda bu nitq dinləyicilər tərəfindən məqbul hesab edilmir (xüsusilə, akademik natiqlik).

Nitqin əsas hissəsində natiq üzərinə düşən bütün çətinlikləri güclü məntiqlə, dolğun və sadə fikirləri ilə aradan qaldırmağı bacarmalıdır. Fikrin və müddəaların aparıcı qüvvəsi olan əsas hissə natiqin səviyyəsini göstərir. Natiqin elmi biliyinin, dünyagörüşünün meyarı məhz əsas hissədir. Nitqin əsas hissəsi ardıcıl, inandırıcı, məntiqi fikirlərin daha möhkəm, kəsərli olması ilə fərqlənməlidir. Natiq nitqinin əsas hissəsində dinləyiciləri həm öyrətməli, həm də mövzunu onlara oxutmalıdır. Yaddan çıxarmaq olmaz ki, nitqin ideyası əsas hissədə açılır. Məhz bu hissədə nitqinin hansı ideyaya xidmət etdiyi müəyyən olur. Natiq elmi biliyini, əxlaqi sifətlərini, nə məqsədə xidmət etdiyini, əqidəsini, həyatda əxz etdiyi bütün keyfiyyətləri nitqin əsas hissəsində əks etdirir.

Nitqin ən məsuliyyətli və nisbətən çətin hissəsi olan əsas hissədə natiq bütün prinsiplərə, tələblərə əməl etməlidir. Yeri gəldikcə nitqdə ümumiləşdirmə aparmalı və ya konkretliyi üstün götürməlidir. Natiq yeri gəldikcə səsini də vəziyyətə uyğun çatdırmalıdır.

Nitqin əsas hissəsi onun süjetini, quruluşunu, məqsədini, mövzusunu, vəzifəsini təşkil edir. Yalnız bunu yadda saxlamaq lazımdır ki, nitqin əsas hissəsi əldə edilmiş bütün çoxcəhətli faktların, mülahizələrin elmi şərhini tamamlamaqla bərabər, fikrin yekunlaşdırılmasına köməklik göstərir.

Bundan sonra nəticəyə keçmək üçün yol açılır. Nəticə söylənilən nitqin yekunu və sonuncu hissəsidir. Nitqin nəticə hissəsində bitkinliyin hiss olunması, silsilə xarakteri daşıyan fikirlərin, mülahizələrin yekunu diqqəti cəlb etməlidir. Natiq nitqin nəticə hissəsində fikri uzatmamalıdır. Əks halda bu uzunçuluq auditoriyanı yorar və onlar fikri qavraya bilməzlər. Nəticə yığcam, aydın, təsirli və əsasən, bitkin olmalıdır. Nitqin sonunda məzmunun qavranılması, ideyası, məqsədi və vəzifəsi ardıcıl şəkildə bir-biri ilə əlaqələnməlidir. Burada müəyyən vaxt bölgüsünə riayət etmək lazımdır. Nitqin nəticə hissəsində müəllif irəli sürdüyü fikirlərin ümumi məcmusunu bir yerə toplayıb yekunlaşdırır. Nəticə həm natiqin, həm də auditoriyanın qarşısında duran problemlərin, sualların, mübahisəli fikirlərin həllində gəldikləri ümumi yekdil rəyin (bu rəy müxtəlif də ola bilər) yekunudur. Əgər nəticədə fikir müxtəlifliyi olarsa, (məsələn, elmi mübahisələr) deməli, bu məsələ diqqətdən kənarda dayanmamalıdır. Nəticədə natiq öz fikrini,

mülahizələrini zorla auditoriyaya qəbul etdirməməlidir. Bu yalnız elmi yolla, inandırma yolu ilə mümkün ola bilər.

Bütün bu sadaladığımız prinsiplərlə yanaşı, nitqin hazırlanmasında konspektlərdən də istifadə edilə bilər. Hətta bəzi natiqlər plandan daha çox konspektə üstünlük verir. Natiq mövzu əsasında materiallar toplayır. Bu hazırlıq mərhələsində müəyyən pərakəndəlik hökm sürür. Buna görə o ya plandan, ya da konspektdən istifadə edir (Plan haqqında məlumatımız artıq vardır). İndi isə konspektin özünəməxsus xüsusiyyətlərindən bəhs edəcəyik. Konspekt əldə edilmiş məlumatların, faktların, sitatların ardıcıllığını, şərhini əks etdirir. Bir çox natiqlər əldə etdikləri hər hansı bir məlumatı konspektə köcürur. Sonra nitqin hazırlanmasında ondan istifadə edir. Məlumat, mülahizə yığcam şəkildə kağıza köçürülür. Konspekt məzmun ilə formanın bir-biri ilə əlaqələndirilməsində, fikrin düzgün, dəqiq ifadə olunmasında natiqə köməklik göstərir. Bəzi natiqlər konspekti nitqin ideyasını dinləyicilərə çatdırmaqda vasitə kimi qəbul edir. Bəziləri onu geniş şəkildə, bəziləri isə yığcam şəkildə tərtib edir.

Konspektin yığcam növündən təcrübəli natiqlər istifadə edir. Təcrübəli natiqlər nitqini bəzən kiçik bir vərəq üzərində ardıcıl şəkildə yalnız bir cümlə, ya söz, hətta işarə qeyd etməklə nitqini qurur. Konspekt təcrübəli natiqlər tərəfindən dönə-dönə redaktə olunur, daha dəqiq və yığcam şəkilə salınır.

Geniş şəkildə konspekt nisbətən təcrübəsiz natiqlər tərəfindən tərtib olunur. Bəzən konspekt o qədər geniş yazılır ki, icmal xarakteri daşıyır. Sitatların genişliyi, fikrin uzadılması, dolayı yolla ifadəsi və s. məsələlər konspekti icmala çevirir. Geniş konspekt tərtib etmək natiqi yaddaşsızlığa, öz işinə məsuliyyətsiz yanaşmağa, laqeydliyə, savadsızlığa yuvarlayır. Bütün ümidini konspektə bağlayan natiq nitqi fərqinə varmadan oxuyur və bununla da üzərinə düşən işi bitmiş hesab edir. Belə nitqdə şəxsi fikir, mülahizə, elmi mübahisəyə yer «ayrılmır».

Konspektin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, o, təqlidçiliyin qarşısını alır və natiqin qarşısına yeni məqsədlər, yeni ideyalar qoyur. Məsələyə bu nöqteyi-nəzərdən yanaşan natiq geniş məzmun və yüksək ideyaları tərənnüm edən bir nitq hazırlayır. Nitq hazırlanarkən, natiq ona qədər elm aləminə bəlli olan materiallarla kifayətlənməməli, tamamilə yeni bir yolla gedib, orijinal fikir söyləməyi qarşısına məqsəd qoymalıdır. Məhz, belə üslubda işləyən natiqə konspekt kömək edir. Natiq konspektlərin köməyi ilə şifahi şərhə başlayır; onun hazırcavablığı, natiqlik qüvvəsi və kəskin mühakiməsi dinləyiciləri heyran edir. Natiq nitqində (şifahi nitq nəzərdə tutulur), hadisələrin şərhində dinləyicilərin xəyalını uzaq keçmişə çəkib aparır (əgər söhbət tarixi mövzudan gedirsə), onları tarixi keçmişin ənənələri ilə tanış edir.

Konspekt nitqi uzunçuluqdan qurtarmaqla bərabər, onun emosionallığını artırır. Emosionallıq isə nitqin daha zəngin, obrazlı, canlı ifadə olunmasına, qavranılmasına, ona yaradıcı yanaşılmasına şərait yaradır. Konspektdə olan ardıcıllıq, yığcamlıq prinsipləri emosionallıq üçün əsas şərtlərdən biridir. Emosional nitqdə isə «kobud» sözlər, uzunçuluq, fikir təkrarı o dəqiqə hiss olunur. Emosionallıq nitqin təsir qüvvəsini artırdığı kimi, natiqin də həyəcanını artırır. Belə hallarda natiq konspektlərdə seçdiyi misallarla, mövzunun mahiyyətini əks etdirən maraqlı faktlarla dinləyicilərin diqqətini özünə cəlb edə bilər. Tədricən emosionallıq aradan qalxır, natiq isə nitqini ardıcıl şəkildə davam etdirir. Gərgin zəhmətin və elmi biliyin vəhdəti natiqə hər zaman müvəffəqiyyət qazandırır. Belə natiqlər xalqın və dinləyicilərin sevimlisinə çevrilir.

NİTQ MƏDƏNİYYƏTİNİN BAŞQA ELMLƏRLƏ ƏLAQƏSİ

Hər bir insana bəllidir ki, yaşadığımız dünya keşməkeşli hadisələrlə dolu bir aləmdir. Maddi aləmin bu mürəkkəb proseslərini elm sahələri araşdırır, müəyyən nəticələr əldə edir. Maddi aləmin müxtəlifliyi, elmlərin də müxtəlif şaxələrə bölünməsinə gətirib çıxarır. Nitq mədəniyyəti də bu elmlərdən biridir. Başqa elm sahələrində olduğu kimi, bu sahədə də cəmiyyətin tələblərindən doğan zəruri məsələlər diqqət mərkəzində durmalıdır. Cəmiyyətin inkişafı ilə bərabər inkişaf edib bu günümüzə gəlib çatan bir çox elmlər kimi, nitq mədəniyyəti elmində də həllini gözləyən məsələlər mövcuddur. Çünki nitq mədəniyyəti uzun illər başqa elmlərin tərkibində formalaşmışdır. Qədim Yunanıstandan tutmuş bir çox dünya ölkələrində təşəkkül tapmış nitq mədəniyyəti bu gün də müxtəlif elmlərlə əlaqəli şəkildə inkişafını davam etdirir. Nitq mədəniyyətinin aşağıdakı elmlərlə əlaqəsi mövcuddur:

1. Dilçilik
2. Ədəbiyyat
3. Üslubiyyat
4. Psixologiya
5. Pedaqogika
6. Tarixlə
7. Etika
8. Estetika
9. Fiziologiya
10. Məntiq və s.

Qeyd edək ki, bu bölgü şərti xarakter daşıyır. Burada əsas elmlər nəzərdən keçirilir. Siyahıya fəlsəfəni, mətnşünaslığı, ədəbiyyatşünaslığı, fizikanı, hətta riyaziyyatı da əlavə etmək olar.

Nitq mədəniyyətinin bütün elmlərin açarı olan dillə əlaqəsi haqqında I fəsildə ətraflı məlumat vermişik.

Onun ədəbiyyatla əlaqəsindən danışanda birinci növbədə yadda saxlamalıyıq ki, ədəbiyyat həyatı bədii obrazlarla əks etdirən söz sənətidir. Deməli, həm nitqin, həm də ədəbiyyatın materialı sözdür. Ədəbiyyat xalq arasında ən geniş yayılmış elm sahələrindən biridir. Bu sənət hamının (qocaların, cavanların, ziyalıların, uşaqların, böyüklərin və başqalarının) diqqətini cəlb edib. Ədəbiyyat böyük auditoriyanı əhatə edir. Ona görə də

şair və yazıçılarımız əsəri yazarkən, hər bir söz haqqında, cümlə haqqında dərindən düşünüb, ona yeni rəng, çalar, məna verib sonra işlədirlər. Beləliklə, yazıçı özü bilmədən, natiqlik sənətinə xidmət edir. Yəni nitqin gözəlliyinə xidmət edən bu ifadələr bədii təsvir və ifadə vasitələrinin, bədii üslubun yaranmasına, inkişaf etməsinə gətirib çıxarır. Bədii ədəbiyyatda istifadə olunan məcazi mənalı sözlər, sinonimlər, cinas qafiyənin yaradılmasında işlənən omonimlər və s. nitqin qurulmasında mühüm rol oynayır. Bədii əsərlərin dilinin tədqiqində dilçi dil vahidlərini təhlil edərkən yazıçının nitq qabiliyyətini, dildən istifadə yollarını aydınlaşdırmağa çalışır. Bu da ədəbiyyatın nitq mədəniyyəti ilə əlaqəsi, elmi nailiyyətlərin qarşılıqlı istifadə olunması nəticəsində əldə edilir.

Nitq mədəniyyətinin üslubiyyatla əlaqəsi daha geniş şəkildə özünü göstərir. Belə ki, hər bir yaradıcı adam nitqini öz səviyyəsinə uyğun qurur, müvafiq funksional üsluba müraciət edir. Üslubiyyat nitqin bütün məna çalarlarını, fonetik, leksik, qrammatik cəhətlərini əhatə edir. Üslubiyyat həm də kamil nitqin prinsiplərini araşdırır, təhlil edir. Üslubiyyat elmi varlığını nə qədər gec təsdiq etsə də, müstəqil elm kimi çox geniş şəkildə təbliğ olunmaqdadır. Bu haqda alimlərin (prof. Ə. Dəmirçizadə, prof. A.Qurbanov) dəyərli tədqiqat işləri, kitabları, məqalələri diqqəti cəlb edir.

Ümumiyyətlə, üslubiyyat dilin təzahürü olan nitqi hərtərəfli öyrənib tədqiq edir.

Nitq mədəniyyətinin psixologiya ilə əlaqəsi də araşdırılmağa ehtiyacı olan problem kimi öz həllinin təhlilini gözləyir. Psixologiya insan xarakterlərini, hər bir xarakterin spesifik xüsusiyyətlərini öyrənir. Professor A.Qurbanov yazır: «Bu mexanizmlər içərisində nitq, ünsiyyət və təfəkkür proseslərinin tədqiqi dilçilik və psixologiya elmlərini hansı nöqtədə isə birləşdirir və əlaqələndirir». Fikrini davam etdirən professor A.Qurbanov daha sonra yazır: "Bu tədqiqatlarda nitq fəaliyyəti, nitq və qavrayış, nitq mexanizmi, radio verilişlərində nitqin mənimsənilmə xüsusiyyətləri, vurğunun mənimsənilməsi, danışıq səsləri etalonları, qrammatik kateqoriyaların mənimsənilməsi, qrammatik təhlillərin patologiyası, daxili nitq fasiləsinin mənimsənilməsi, nitq axınında sözün quruluşu və s. məsələlər araşdırılır. Dilçi alimlərin öz tədqiqatlarında psixolinqvistikanın əldə etdiyi nəticələrdən istifadə etməsi, şübhəsiz ki, onların işinə müsbət təsir göstərir. Nitqin daxili cəhətini öyrənən dilçi müəyyən psixoloji hadisələrdən yan keçə bilməz. Məsələn, nitqin növləri həm dilçini, həm də psixoloqu maraqlandırır».

Gətirdiyimiz sitatdan aydın olur ki, nitq insan psixologiyası ilə daim sıx əlaqədə inkişaf edir. İnsan psixologiyası onun nitqi ilə ayrılmaz tellərlə bağlıdır. Bəzən natiqlər çıxış edərkən həyəcanlanır və bir müddət özlərini ələ ala bilmirlər. Keçirilən gərginlik nitqin gözəl ifadə olunmasına (dəqiq, faktlarla, səlis, aydın, ardıcıl və s.) maneçilik törədir. Ona görə də natiq

düşdüyü vəziyyətdən çıxmaq üçün psixi cəhətdən hər hansı maneəyə qalib gəlməyi, əsəblərini cilovlamağı bacarmalıdır. İnsan psixologiyasının müxtəlifliyi onun nitqində əks olunur.

Natiq nitqini şərh edərkən, ona psixoloji cəhətdən tam hazır olmalıdır. Onun nitqinin gözəl olması üçün psixoloji hazırlıq olduqca faydalı və məqsədəuyğundur.

Nitq mədəniyyətinin pedaqogika ilə əlaqəsi uzun bir tarixə malikdir. Qədim Yunanıstanda, xüsusilə Afinada yetişən ritorlar natiqlik sənətinin sirləri ilə bərabər, təlim, tərbiyə, təhsil haqqında da məlumat verir və tədris prosesində nitqlə bərabər pedaqogika elmini də inkişaf etdirirdilər. Tədris prosesi ilə sıx şəkildə bağlı olan pedaqogika natiqlik sənəti ilə qarşılıqlı şəkildə müəyyən prinsiplərin, problemlərin həllində mühüm əhəmiyyət kəsb edir.

Pedaqogika elmi tədris prosesində, nitqin qurulmasında və şifahi şərhdə əsas rol oynayan konkretliyin, bəzən ümumiliyin rolunu müəyyənəşdirir. Pedaqogika həm də nitq zamanı natiqə özünü aparmaq qaydalarını öyrədir. Yersiz hərəkətləri, jestləri, «deməli», «mənə elə gəlir», «filan», «alimlərin dediyinə görə» və s. kimi ifadə və sözləri lüzumsuz olaraq işlətməkdən çəkindirir.

Pedaqogika natiqlik sənətinin əsas prinsiplərinin, nitqin qurulması yollarının, elmi-nəzəri biliklərin, mənbələrdən düzgün istifadə olunmasında natiqə istiqamət verir.

Ümumiyyətlə, natiqlik sənəti ilə pedaqogikanın əlaqəsi özünü həm təlim-tərbiyə prosesində, həm də tədqiqat işinin aparılmasında göstərir.

Nitq mədəniyyətinin tarixlə əlaqəsi. Tarix cəmiyyətin yaranmasını, inkişafını öyrənən bir elmdir. Tarix bütün elmlərlə əlaqəli şəkildə öyrənilir. Hər bir elm yarandığı gündən öz tarixini yaşadır. Natiqlik sənəti, nitq mədəniyyəti də belə elmlərdən biridir. Yarandığı gündən bu günümüzə qədər müəyyən inkişaf mərhələləri keçmiş cəmiyyət həyatında,məişətində baş verən hər hansı bir dəyişikliyi tarixin yaddaşına həkk edir. Bu qədim abidələrin, salnamələrin -məxəzlərin vasitəsi ilə bugünkü tədqiqatçılar xalqın keçmişinə aid mülahizələr, mühakimələr yürüdə bilir. Natiqlik sənəti də məhz, belə bir tarixi yol keçmiş, tədqiq olunmuş, müəyyən müvəffəqiyyətlər əldə etmişdir. Natiqlik sənətinin ilk rüşeymlərini araşdırmaq, tədqiq etmək üçün onun tarixinə nəzər salmaq lazımdır. Məhz, məsələyə bu baxımdan yanaşdıqda nitq mədəniyyətinin tarixi, söz yaradıcılığı, sözə verilən qiymət haqqında mütəxəssis fikirləri əsas götürülür.

Nitq mədəniyyətinin tarixlə əlaqəli inkişaf etməsinin əsas amillərindən biri budur ki, sözlərin mənasının daralmasını və ya genişlənməsini, yeni semantik məna kəsb etməsini, arxaikləşməsini müəyyənləşdirir.

Ümumiyyətlə, bu bir həqiqətdir ki, nitq mədəniyyəti ilə tarix elmi bir-biri ilə sıx şəkildə əlaqədardır. Tarixçi əldə etdiyi nəticəni nitq vasitəsi ilə

(istər yazılı, istərsə də şifahi yolla) şərh edir. Belə şərh faktlarla, mülahizələrlə, sübutlarla, dəlillərlə, əşyalarla bağlı şəkildə edilir. Bu da nitq mədəniyyətinin əsas prinsiplərini müəyyənləşdirir.

Nitq mədəniyyətinin etika ilə əlaqəsindən danışarkən birinci növbədə rus xalq məsəlini xatırlamaq yerinə düşərdi: «Ruslar qonağı geyiminə görə qəbul edir, ağlına görə yola salır». Hər bir şəxsin özünü necə maskalamasından asılı olmayaraq, nitqi ağlını əks etdirir. Natiq olmaq istəyən hər bir şəxs bütün etik normalara riayət etməlidir. Natiq danışarkən səsinə münasib tembr seçməli, jestlərdən düzgün istifadə etməli, mimika ilə mənalar ifadə etməlidir.

Natiq olmaq istəyən şəxs bütün davranış qaydalarını gözəl mənimsəməlidir. Natiqin yerişi, baxışı, hərəkəti, geyimi, nəzakəti, üzünün ifadəsi dinləyicidə ona qarşı rəğbət hissi oyatmalıdır. Bəzi natiqlər etik normalara düzgün əməl etmədiyi üçün dinləyicilərin rəğbətini qazana bilmir. Məsələn, bəzən elə olur ki, üzü tüklü, kostyumları standarta uyğun gəlməyən natiq yorğun halda tribunaya doğru yaxınlaşır. Bu hər bir dinləyicidə natiqə qarşı mənfi hisslər oyadır. Bəzən də natiq həddindən artıq bər-bəzəyə aludə olur. Belə vaxtda dinləyici onun nitqindən çox, bər-bəzəyinə diqqət edir. Natiq fikirləşməlidir ki, mən auditoriya ilə necə ünsiyyət yaradım, nitqimi necə başlayım? Olduqca həssas və tələbkar dinləyicilər natiqin səsinin titrəməsini, həyəcanlanmasını, bir an çaşıb qaldığını da duyub hiss edirlər. Təcrübəli natiqlər isə belə momentləri nitqlərində etdikləri pauza ilə az da olsa aradan qaldırırlar.

Natiqlər çıxış edərkən qalstukunu, pencəyinin düyməsini, əlindəki təbaşiri və yaxud qələmi oynada-oynada fikrini ifadə edir. Etika nitqin şərhi zamanı göstərilən bu nöqsanların aradan qaldırılmasına köməklik göstərir. Bir anlığa məşhur natiq Demosfenin natiqlik sənətinə gəlişini xatırlamağa ehtiyac duyulur. Həqiqətən, etika ilə nitq mədəniyyətinin əlaqəsi vacib məsələdir.

Nitq mədəniyyətinin estetika ilə əlaqəsi. Nitqin gözəl ifadəsi dedikdə gözəllik, ülvilik, faciəvilik, komiklik - estetikanın əsas kateqoriyaları yada düşür. Bizi əhatə edən obyektiv varlığın dərk edilməsində (estetikanın mühüm rolu vardır. Estetik kateqoriya olan gözəllik yalnız insanlara məxsusdur. Estetik gözəllik insana məxsus olduğu kimi, dil də, nitq də, nitq mədəniyyəti də insana məxsusdur. Həyatda baş verən hər bir hadisəni estetik surətdə dərk edib qavrayan insan, əsasən, bədii dil və sənətkarlıq, nitq, habelə estetik zövq, bədii obraz, bədii ustalıq kimi estetik kateqoriyaların tədqiqində özünü göstərir.

Hələ qədim yunan filosofu Aristotel «Poetika» əsərində bir sıra dil qanunauyğunluqlarını estetikanın kateqoriyaları baxımından şərh edir. «... ifadələri bir-birinə nə isə xüsusi bir tərzdə qataraq istifadə etmək lazımdır ki, qlossa, metafora, zinət və digər bu kimi başqa növlər nitqin təravət və

ucalığını aşağı endirib yıpranmış hala salmasın, ümumən işlənən sözlər isə nitqə aydınlıq gətirsin. İfadənin aydınlığına, səlisliyinə sözlərin uzadılması, qısaldılması və dəyişdirilməsi az təsir etmir, sözlər yeni şəkildə səsləndiyindən nitqi təravətləndirir».

Bu gözəllik qanununa əsaslanıb dilin ahəngdarlığına, zərifliyinə, musiqililiyinə və başqa estetik keyfiyyətlərinə dair maraqlı əsər yaradır.

Həmin əsərlərdə klassiklərimizin yaradıcılığında dilimizin gözəlliyini əks etdirən poetik ifadələr, bədii vasitələr, qanadlı sözlər, onların rəngləri, məna çalarları, zövqü oxşayan müasir şəxs adları, yer adları və s. öz əksini tapmışdır».

Gətirilən sitatlardan da aydın olur ki, natiqlik sənəti, nitq mədəniyyəti nə qədər estetikaya yaxın bir elmdir. Estetikanın əsas kateqoriyalarından biri olan gözəllik ən ümumi və geniş anlamdır. Estetik qiymətləndirmə isə insan təfəkküründün məhsuludur. Bu əsas şərtdir. Nitqin qurulmasında qeyd olunan bu prinsiplər mühüm rol oynayır. Gözəl nitq dinləyiciyə estetik zövq və ləzzət verir. Auditoriyanı məftun edir, dinləyicilərin fəallığını artırır. Estetik kateqoriya olan «gözəllik kateqoriyası daxilində qəşənglik, gözəllik, incəlik, heyranlıq kimi bölgülər», dərəcələr və ranglər tapmaq olar. Habelə komiklik kateqoriyasında gülüş, rişxənd, istehza, ifşa, yumor, satira, parodiya kimi müxtəlif münasibət dərəcələri və boyaları vardır. Bunlardan başqa fəlsəfə elminin bir sıra kateqoriyaları (mündəricə, forma, materializm, idealizm, ideyalılıq və s.) estetika elmində də işlənməkdədir. Bu elmin incəsənətə aid bəhsində sənətşünaslıq məfhumlarından, düstur və istilahlarından da istifadə olunur. Əlbəttə, canlı həyat və incəsənət hadisələri, insanların estetik fəaliyyəti bu düsturların, istilah və kateqoriyaların hamısından zəngin və rəngarəngdir. Amma, hər halda bu kateqoriyalar həyatın estetik təzahürlərinin tipik və ümumi cəhətlərini əhatə və ifadə edə bilir».

Deməli, estetika elə bir elmdir ki, onu həyatın bütün sahələrinə şamil etmək mümkündür. O ki qaldı nitq mədəniyətinə, natiqlik sənətinə və incəsənətin digər növlərinə, estetika onlarla nəinki əlaqədə, hətta birgə inkişaf edir. Nitq mədəniyyətinə xas olan müəyyən prinsiplər, qanunauyğunluqlar, mündəricə, forma və məzmun, ideyalılıq və s. məsələlər həm də estetikanın tədqiq obyektidir. Gözəlliyə, gözəllərin tərifinə yüksək qiymət verən böyük Azərbaycan şairi Nizami Gəncəvi «Leyli və Məcnun» poemasında Leyli surətini estetik bir dil zənginliyi ilə belə ifadə etmişdir:

Murad dastanının ilk səhifəsi,
Gözəllik mülkünün baş sərkərdəsi,
Yeddi ulduz kimi gözəl camallı,
O göylər duruşlu, göylər cəlallı,
Gözəl cəlalına ay həsəd çəkən,

Hüsnüylə sərvin də bağrını sökən.
Ümidi, qorxunu mat qoyan hünər,
O, aydan, günəşdən irs alan dilbər,
O, bütpərəstlərin səcdə mehrabı.
O, saray qəndili, gülşən gülabı...
Hüsnün, gözəlliyin ziynət mayəsi
Şəkər dillilərin naz sərmayəsi...

Böyük şairin bu kəlamından sonra gözəlliyi, sözü, söz sənətini ifadə etmək üçün yeni bir söz deməyə sözün qüdrəti çatmadı.

Nitq mədəniyyətinin əlaqədə olduğu elmlərdən biri də fiziologiyadır. Nitqin əmələ gəlməsində orqanizmin bir sıra üzvləri iştirak edir. Nitqin əmələ gəlməsində fiziologiyanın tədqiq obyekti olan danışıq üzvləri (ağ ciyər, boğaz, qırtlaq, ağız boşluğu, burun boşluğu, dilçək, üst damaq, alt çənə, dil, diş, dodaqlar), əsəb sistemi mühüm rol oynayır. İnsan nitqinin əmələ gəlməsində və öyrənilməsində fiziologiyanın əvəzsiz xidməti vardır. Nitq prosesində fəaliyyət göstərən səslər ictimai mənası olan səslərdir.

Əgər normal insanın «nitq prosesində fəaliyyət göstərən üzvlər»i möhkəm və mürəkkəb sistem halındadırsa, bunların birinin zədələnməsi nəticəsində nitq prosesində müəyyən çatışmazlıq, anormallıq əmələ gələ bilər. Məsələn, beyinin zədələnməsi nitq fəaliyyətinin pozulmasına səbəb olur. İnsan beyninin müəyyən hissələrinin zədələnməsi nəticəsində nitq fəaliyyətində bu və ya başqa qüsurlar yaranır. Belə ki, xəstələrin bəzisi sözləri tələffüz edə bilmir, digəri dərketmə qabiliyyətini itirir və s. Nitq fəaliyyətinin pozulmasına səbəb olan başqa faktlar da vardır. Məsələn, insanda ciddi yorğunluq, sarsıdıcı qorxu, gərgin əsəbilik nəticəsində də nitqin pozulması halları baş verə bilər.” (A.Qurbanov)

Nitqin əmələ gəlməsində iştirak edən danışıq üzvlərindən hər birinin möhkəm və sağlam olması əsas şərtdir. Bu üzvlərdən birinin anormallığı mütləq nitqə qüsur gətirir. Məsələn, dilin böyüklüyü səslərin düzgün tələffüz olunmasına (*r* səsi *l* kimi, *ş* səsi *s* kimi, *j* səsi *z* kimi tələffüz olunur) mane olur. Nitqin səlis ifadə olunmasında, səs tembrlərindən düzgün istifadə edilməsində eşitmə üzvünün də mühüm rolu vardır.

Son vaxtlar natiqlik sənəti cəmiyyətin inkişafı ilə əlaqədar bir çox nailiyyətlər əldə etmişdir. Son dövrün məhsulu olan kibernetika da nitq mədəniyyəti ilə əlaqəli xassəyə malikdir. Kibernetikada istifadə olunan rabitə və informasiya sistemi natiqlik sənətində, xüsusilə də nitqin hazırlanmasında istifadə olunur. Bundan əlavə, kibernetik maşınların köməyi ilə sözlərin işlənmə tezliyi, lüğət tərkibinə daxil olan sözlərin təhlili, səslərin və fonemlərin tədqiqi, cümlədə söz sırası, mətnlərin tərcümə olunması və s. məsələlər öz həllini tapır.

Kibernetik maşınlar həm də nitqə xidmət edən bir sıra amilləri özündə birləşdirir. Məsələn, yazılmış nitqin məzmununu olduğu kimi yaddaşına köçürür. İstənilən vaxt həmin nitqi bu maşın vasitəsi ilə əldə etmək olar. Beləliklə, natiq yazılı nitqin üzünün koçürülməsini, dinləyicilərə çatdırılmasını tezləşdirir və səliqəyə salır.

İndi kibernetik maşınlar vasitəsilə natiqlik sənətinin son nailiyyətləri tədqiq olunur, öyrənilir.

Nitq mədəniyyəti eyni zamanda fəlsəfə ilə də əlaqəlidir. Fəlsəfə insanlarda müəyyən bir dünyagörüşü yaradır, həm də obyektiv gerçəklikdə onun yerini müəyyənləşdirir. İnsan onu əhatə edən aləmdə nə qazanırsa, fəlsəfənin dialektik qanunları ilə əlaqələndirir. Bu dərketmə istər yazılı nitqlə, istərsə də şifahi nitqlə reallaşır. Hətta fəlsəfənin bəzi prinsipləri, nitqin prinsipləri ilə üst-üstə düşür.

Nitq mədəniyyəti ilə daha geniş şəkildə əlaqədə olan elmlərdən biri də məntiqdir. Məntiq təfəkkür qanunlarından bəhs edir. Ona görə də nitq mədəniyyəti ilə sıx şəkildə bağlıdır. Məntiq elminin əsas tədqiqat obyekti və predmeti təfəkkür prosesidir. Nitq mədəniyyətinin əlaqədə olduğu digər elmlərdən fərqli olaraq, məntiq bizi əhatə edən obyektiv gerçəkliyin dərk olunmasını tədqiq edir. Bu xüsusiyyət onu digər elmlərdən fərqləndirir və düzgün təfəkkürün formalarını, qanunlarını, həyatı dərk etmə yollarını öyrənir. Dil təfəkkürün maddi forması kimi fəaliyyət göstərir. Nitq isə dilin cilalanmış, rəngə, boyalara salınmış təzahür formasıdır.

Natiq dilin bütün incəliklərindən istifadə edir. Nitqini qurarkən bir çox çətinliklərlə üz-üzə qalır. Nitqimi necə qurum, fikrimi necə ifadə edim? Faktları, dəlilləri dinləyici ilə necə bölüşüm?-kimi suallar ilə qarşılaşır. Bu zaman natiqin köməyinə məntiqi qanunlar gəlir. Natiq məntiqin vasitələrindən zərgər dəqiqliyi ilə istifadə edir. Bu da təbii bir prosesdir. Çünki məntiq şüurumuzla birbaşa bağlıdır. Məntiq şüurla bağlı olduğu üçün, nitqlə də qırılmaz tellərlə bağlıdır. Əgər məntiqin qanunlarından düzgün istifadə etməsək, nitqimiz dolğunluğunu, zənginliyini, düzgünlüyünü itirər. Çünki məntiq fikrin təzahür formalarını öyrənir. Bunları vəhdət halında qəbul edən natiq dolğun və zəngin nitq yaratmağa nail olur. Hər bir məntiqi kateqoriyanın araşdırılmasında, onun mahiyyətinin açılmasında nitq xüsusi rol oynayır. Natiq nitqin gözəl aşılanması üçün düzgün təfəkkürə meyl etməlidir. Məhz, düzgün təfəkkür dəqiq nəticələr əldə etməyə imkan verir. Bura sübutları, mühakimələri, mülahizələri də əlavə etmək olar. Bundan əlavə nitqin əsas prinsinlərindən olan və onun əsasını təşkil edən fonetik (bura intonasiya, vurğu, sözlərin düzgün hecalanması), leksik, morfoloji, semantik, sintaktik sistemin öyrənilməsində də məntiqi kateqoriyalar mühüm rol oynayır. Onu da qeyd edək ki, məntiq həmişə filologiya elmləri ilə sıx əlaqədə olub və onların öyrənilməsində, araşdırılmasında, müəyyən nəticələr əldə etməyə imkan və şərait yaradıb. Çünki düzgün və məntiqi təfəkkür

olmadan elmdə heç bir nailiyyət əldə etmək olmaz. Əslində məntiq bütün elmlərin tədqiqində istifadə olunan bir üsuldur. Bütün elmlər ümumidən xüsusiyə və ya əksinə, xüsusidən ümumiyə gedən tarixi yolu aydınlaşdırır.

«Tarix çox böyük ölçüdə ümumi və təkcə, zəruri və təsadüfi, başlıca və ikinci dərəcəli və i.a. hadisələrin qəribə bir çulğaşmasıdır. Tarixi proseslər müxtəlif nöqteyi-nəzərdən, müxtəlif üsullarla öyrənilir. Bunlardan biri tarixi öyrənərkən hadisələrin bütün təfərrüatını, bütün rəngarəngliyini nəzərdə tutur. Bu tarixi tədqiqat üsuludur. Digəri tarixi prosesdə təkrarlanan ümuminin öyrənilməsini nəzərdə tutur. Bu artıq məntiqi üsuldur. Məntiqi üsul əslində tarixi üsuldur, lakin çoxlu təfərrüatdan, təsadüflərdən, təfsilatdan təmizlənmiş halda olan tarixi üsuldur.

Tarix və məntiqi tədqiqat üsulları vəhdət halındadır, axı bunların köməyi ilə eyni bir predmetin meydana gəlməsi və inkişafı öyrənilir. Bunlardan birinin unudulması və ya digərinin mütləqləşdirilməsi nəzəriyyədə və praktikada ciddi səhvlərə gətirib çıxarır. Tarixi üsula laqeydlik göstərilməsi subyektivizmə, predmetsiz nəzəriyyəbazlığa, real tarixi proseslə əlaqələndirilməyən məntiqi mülahizələrə gətirib çıxarır. Məntiqi metodun unudulması isə bu prosesi ümumilikdən, daxili əlaqədən məhrum olan emprik faktorlar yığını kimi təsəvvür etməyə gətirib çıxarır.

Predmeti onun hərəkəti və inkişafı halında, onun daxili əlaqələri halında tədqiq etmək üçün daha bir üsul abstraktdan konkretə yüksəltməkdir». (A.Afanasiyev)

Sitatdan bəlli olur ki, məntiqi və tarixi idrak üsulları nitqdə aparılan ümumiləşdirmələr və konkretləşmə fikrin ifadəsinə (istər zəif fikrin, istərsə də dolğun fikrin) xidmət edir. Ona görə də filosoflar məntiqi fikri ifadənin təzahür forması kimi qəbul edirlər (İstər formal məntiqi, istərsə də dialektik məntiqi). Fikrin dolğunluğu, zənginliyi, elmiliyi hələ nitqin qəbul olunması demək deyildir. Nitqdə qoyulan elmi məsələ (mübahisə də demək olar) əsaslı surətdə faktlarla, sübutlarla təsdiq olunmalıdır. Məhz, bu mərhələdən sonra məntiqi şəkildə dinləyiciləri razı salmaq olar.

Ümumiyyətlə, hər hansı bir elmi kəşf, irəli sürülən fikir, ixtira təcrübədən və sınaqdan keçirilir, sonra ona müəlliflik şəhadətnaməsi verilir. Bu yenə də məntiqi təfəkkürə əsaslanır. Məntiqi təfəkkür isə öz növbəsində yüksək inandırıcılıq qabiliyyətinə malik olur.

Natiq nitqini qurarkən (mövzusundan asılı olmayaraq) məntiqi təfəkkürün qanunlarını dərindən bilməli və fikrini şüurlu surətdə ifadə etməlidir. Bu nitq mədəniyyətinin əsas amillərindən biridir. Qeyd edək ki, bəzi natiqlər bu qanunauyğunluqlara məntiqin qanunlarını bilmədən əməl edirlər. Bu nitq mədəniyyətinin məntiqi təfəkkürlə nə qədər yaxın olduğunu sübut edir.

Məntiqi qanunların nitq üçün nə qədər əhəmiyyətli olduğunu aydınlaşdırmaq üçün bir anlığa fikirləşək ki, hər hansı bir mövzuda nitq

hazırlayırıq və bu nitqdə məntiqi təfəkkürə aid qanunları, normaları işlətməyib, onların üstündən sükutla keçirik. Əvvəla, nə qədər çalışsaq da, bu mümkün deyil. İmkan daxilində məntiqi təfəkkürə xas olan qanun və normalardan az istifadə edək. Sonra yazdığımız nitqi oxuyaq. Hər halda (əgər buna nitq demək mümkünsə) özümüz nitqin ilk tənqidçisinə çevriləcəyik. Deməli, nitq mədəniyyətini məntiqi təfəkkürdən ayırmaq qeyri-mümkündür.

Nitqin aydın, məntiqi olmasının xüsusi əhəmiyyəti vardır. Bunun üçün hər hansı bir obyektin, məfhumun, əşyanın hissələrini əks etdirən ən sadə, elementar anlayışdan, getdikcə daha mürəkkəb anlayışa, elmi nəzəriyyəyə, sistemə doğru hərəkət etmək lazımdır. Ona görə də məntiqi təfəkkürün müxtəlif forma və qanunları vardır. Bunlardan dörd əsas qanunu nəzərdən keçirək:

1. Eyniyyət qanunu
2. Ziddiyyət qanunu
3. Üçüncünü istisna qanunu
4. Kafi - əsas qanunu

Öz üzərində çalışan, natiq olmaq istəyən hər bir şəxs bu dörd əsas qanunu dərindən bilməlidir.

Eyniyyət qanunu əsas qanunlardan biridir. Bu qanunun xüsusiyyəti ondan ibarətdir ki, hər hansı bir predmet, əşya, məfhum, obyekt halında yürüdülən fikir (burada mübahisə də, mühakimə də ola bilər) eyni, birmənalı olmalıdır. Buradan elə bir nəticə çıxmamalıdır ki, natiqin nitqində şərh etdiyi hər hansı predmet ətalətdədir. Predmet də, həyat da inkişaf edir, dəyişir. Natiq təsvir etdiyi predmeti daha dərində öyrənir və birmənalı şəkildə mövzusunda əks etdirdiyi məfhuma münasibətini bildirir. Natiq nitqində təyin etdiyi predmeti pərakəndəlikdən qurtarır. Eyni zamanda ona birmənalı yanaşır və müəyyən nəticələr əldə edir.

Əlimizdə olan materialların bolluğundan istifadə edib belə bir nəticəyə gəlirik ki, eyniyyət lap qədim dövrlərdən, şifahi xalq ədəbiyyatından bu günümüzə qədər yazılmış hər hansı bir ədəbi növdə, məqalədə, rəydə və s. janrların yaranmasında özünə möhkəm yer tutmuşdur. Eyniyyət hər yerdə-cəmiyyətlə insanlar, təbiətlə canlılar arasında yaranıb inkişaf etmişdir. Buna görə qədim insanlar təbiətlə öz aralarında bir yaxınlıq, eynilik hiss edirdi. Ona görə də qədim xalqların yaratdığı hər hansı bir abidənin kökü eynidir, lakin bu eynilik sonralar insanların təxəyyülünə, təfəkkürünə təsir edib fərqlənmişdir. Mirali Seyidova istinad edən İ.Musayev yazır:

«Hər bir xalqın şifahi yaradıcılığı orijinaldır, doğmadır, özünəməxsusdur. Bununla belə, həmin yaradıcılıq prosesi müəyyən yad təsirlərə də məruz qalmışdır. Belə ki, xalq istilalara məruz qaldıqca onun yaddaşına hücumlar edilib, lakin onu tamamilə dağıtmaq, yox etmək heç kəsə müyəssər olmayıb.»

Təbiəti dərketmədəki oxşarlıq, bəlkə də eynilik xalqların təfəkkür tərzində, düşüncəsində oxşarlıq yaratmışdır. Bu oxşarlıq həm də xalqların həyat tərzindəki yaxınlıqla bağlıdır.

Məşhur Amerikalı türkoloq - alim (şumerşünas) S.N.Kramerə istinad edən İ.Musayev yazır: «Şumer atalar sözü ən azı üç min beş yüz il bundan əvvəl yazıya alınmışdır ki, bunların da əksəriyyəti yəqin daha qədimlərdə yaranmış, şifahi şəkildə nəsildən-nəslə keçərək yaşamışdır. Bunlar bizdən hər cəhətcə fərqli bir xalq tərəfindən yaradılmışdır. Bu xalqın öz dili, öz coğrafi mühiti, öz adət-ənənəsi, öz dini, öz siyasi və iqtisadi prinsipləri olmuşdur. Lakin bütün onlarla birlikdə qədim Şumer atalar sözü heyrətamiz dərəcədə bizimkinə yaxındır. Biz onlarda da öz arzu və ümidlərimizin, öz zəiflik və çətinliklərimizin, öz görüşlərimizin inikasını çox aydın bir şəkildə görməkdəyik».

Deməli, bütün xalqlar ayrı-ayrılıqda eyni nəticələrə gəliblər. Axı bütün xalqların bioloji kökü birdir. Bioloji kökü bir olanların düşündükləri və təsəvvürlərinin kökü də bir olmalıdır. Belə olan halda, hansısa xalq düşüncə tərzini hansısa xalqdan götürüb - konsepsiyası kökündən yanlışdır. Çünki bu cür yanaşma xalqların kökünə ayrılıq salır, bəzi xalqların qədim, bəzilərinin törəmə olduğu ideyasını yaradır və nəticədə əsassız mübahisələr və lazımsız müharibələr üçün bəhanə yaradır.

Eyniyyət qanununun əsas xüsusiyyətlərini, cəmiyyətin və təbiətin inkişafında nə kimi rol oynadığını natiq nəzərdən qaçırmamalıdır.

Ziddiyyət qanunu. Bu qanun da natiq üçün əhəmiyyət kəsb edir. Natiq bu qanunu da dərindən öyrənməli və nitqində yerli-yerində istifadə etməlidir. Bu qanun söylənilən zidd fikrə münasibəti ifadə edir. Hər hansı bir predmetə, hadisəyə münasibət bildirən şəxslərin dünyagörüşü müxtəlif olduğu üçün, onların irəli sürdüyü konsepsiya da rəngarəng olur. Yəni fikirlərin biri düzgün, o biri yanlış ola bilər. Bu, nitqin mübahisəli, canlı ifadə olunmasına şərait yaradır və düzgün yeridilən fikri müdafiə edir. Ziddiyyət qanunu irəli sürülən iki zidd fikrin birini təsdiq, o birini təkzib edir. Yəni fikirlərdən biri düzdür. Lakin onu yaddan çıxarmaq olmaz ki, bu prinsip predmetin müəyyənliyinə, onun varlığına arxalanır. Məsələn, tutaq ki, «bu gələn mənim dostum Akifdir», eyni zamanda «bu gələn mənim dostum Akif deyil» fikrini iddia edə bilərik. Ona görə ki, bu fikirlərin yalnız biri doğru ola bilər. Məntiqi ziddiyyət qanunu belə fikirlərin işlənməsinə yol vermir. Ziddiyyət qanunu elmi nəzəriyyələrin, sınaqdan çıxmış ixtiraların, düsturların, tərifl ərin ifadə olunmasında nitqə daxil edilir. Məsələn, hamı bilir ki, isim əşyanın adını bildirir, sifət əşyanın əlamət və keyfiyyətini bildirir və yaxud atalar sözü, zərbi-məsəllərin bu qanuna heç bir ehtiyacı yoxdur. «İgidin igiddən ehtiyatı artıqdır», «Saxla samanı, gələr zamanı», «Mərdi qova-qova namərd edir» və s.

Bəzən elə hallar da olur ki, yürüdülən fikirlərin heç biri düz olmur. Ziddiyyət qanunu hər iki fikrin səhv olduğunu aydınlaşdırır və düzgün hökm çixarılmasına imkan və şərait yaradır. Deməli, ziddiyyət həm həyatda, həm də sözdə özünü göstərir. Ona görə də işi ilə əməli düz gəlməyən adamlara ziddiyyətli adam kimi qiymət verirlər. Sözü ilə əməli, işi düz gəlməyən natiqlər müəyyən yığıncaqlarda, elmi-nəzəri konfranslarda, müzakirələrdə çıxış edərkən müvəffəqiyyət qazana bilmir, uğursuzluğa düçar olur. Ziddiyyət qanunu həyatın bütün sahələri kimi nitq mədəniyyəti ilə də əlaqəli şəkildə inkişaf edir və müxtəlif elmlər bu ziddiyyətlərlə məşğul olur. Ziddiyyətlər həm daxili, həm də xarici olur.

Müxtəlif elmlərin bu ziddiyyətləri müəyyən predmetin, məfhumun biri o birinə təsir göstərdiyi əks tərəflərin qarşılıqlı mübarizəsindən doğur, yaranır.

Xarici ziddiyyətlər isə müəyyən predmeti, məfhumu əhatə edən mühitlə, bu mühitin predmetlərlə ziddiyyətli münasibətlərindən irəli gəlir. Ziddiyyət qanunu əməli fəaliyyətin mühüm tələblərindən biridir. Ziddiyyət qanunu hadisələrin təhlil edilməsinə, fikirlərin sübut olumasına, idrak prosesinə də aiddir. Həyatın əsas qanunlarının şərhi məhz ziddiyyətdən başlayır.

Üçüncünü istisna qanunu iki fikrin birinin doğru, digərinin yalan olduğunu isbat edir. Üçüncü hökm və ya fikir ola bilməz. Yalnız düzgün təfəkkürdə bu qanun özünə yer tapır. Bəzi xüsusiyyətlərinə görə ziddiyyət qanununa oxşayır, lakin ondan fərqlənir. Bu fərq ondan ibarətdir ki, nitq zamanı ortaya çıxan mübahisədən aydın olur ki, fikirlərdən biri doğrudursa, şübhəsiz ki, digəri yalan olacaq, üçüncü fikir ola bilməz. Bu üçüncünü istisna qanunudur. Üçüncünü istisna qanunu həmişə zidd fikirlərə aid olur. Məsələn, Əli vaxtında gəldi. Əli vaxtında gəlmədi. Bu cümlələrdə biri doğru, o biri yanlışdır. Qıraqdan kimsə söhbətə qoşulub təkid etsə ki, vaxtında gələn Əli yox, Akifdir. Bu hökm yenə də Əlinin vaxtında gəlmədiyi hökmünü ifadə edir. Üçüncü orta bir fikir yoxdur. Üçüncünü istisna qanunu fikrin ümumi və xüsusi formalarını da ifadə edir. Bu zaman yenə də fikirlərdən biri yalan, digəri isə mütləq doğru olmalıdır. Üçüncü ola bilməz. Tutaq ki, natiq belə bir ziddiyyətli hökm irəli sürür.

1) Meydana toplaşan camaatın hamısı şairə rəğbət hissi ilə baxırdı.

2) Meydana toplaşan camaatın bəzisi şairə rəğbət hissi ilə baxırdı.

Yenə də üçüncü hökm ola bilməz.

Onu da qeyd edək ki, natiq nitqində ziddiyyətli fikir söyləyirsə, üçüncünü istisna qanunundan istifadə edirsə, təsdiq ilə inkar arasında orta bir şey olmadığını, qeyri-müəyyənliyi dəqiqləşdirməli, bu problemi aradan qaldırmalı, fikrin yalanlığını açıb göstərməlidir. Bəzi natiqlər hiss etmədən bu prinsipin üstündən sükutla keçir. Lakin dinləyicilər tələbkar olduqda natiq

çıxılmaz vəziyyətdə qalır. Belə olan halda natiqə üçüncünü istisna qanunu kömək edir.

Bəzən də elə olur ki, natiq məsələnin mahiyyətinə diqqət vermədən fikrin birinin doğru, digərinin yalan olduğunu təsdiq edir. Bu məsələnin həlli demək deyildir. Hətta dinləyicilərdə də mücərrəd bir anlayış yaradır. Buna görə natiq hökmü predmetin, məfhumun və ya hadisənin dərindən öyrənilməsi yolu ilə verə bilər. Üçüncünü istisna qanunu həm natiqin, həm də nitqin prinsipial olması, hadisənin düzgün şərhi üçün ən gözəl vasitədir. Natiq nitqini hazırlayarkən, fikrin gerçəkliyini, şəxsi biliyini, müşahidə və mülahizələrini gərgin əməyi nəticəsində başqa fikir və mülahizələrlə əlaqələndirməlidir.

Kafi əsas qanunu. Bu qanunun əsas xüsusiyyəti ondan ibarətdir ki, yürüdülən fikir dəqiq faktlara əsaslandırılmış olsun. Kafi əsas qanunu gerçəklikdə əks olunan fikirləri və müddəaları başqa bir fikirlə əsaslandırır. Kafi əsas qanunu məntiqi cəhətdən əsaslandırılmamış hər bir fikri rədd edir. Natiq nitqini qurarkən belə bir müddəa irəli sürə bilər ki, dünyada ilk yaşayış yeri, qədim insanların məskəni Azərbaycandır. Bu fikri təsdiq edən heç bir fakt, dəqiq məlumat, sübut yoxdur. Ona görə də kafi əsas qanunu pozulur, bu cümlədəki fikir başqa bir fikirlə əlaqələnə bilmir.

Yaddan çıxarmaq olmaz ki, nitq elə qurulmalıdır ki, hər bir fikrin, konsepsiyanın, müddəanın məntiqi əsaslandırılması nitqi məntiqsizliyə aparmasın, mövzunun məqsəd və vəzifəsi, məzmun və forması, ideyası müəyyən faktlara söykənmiş olsun. Məsələn, Bakı Azərbaycanın paytaxtıdır. Mən Bakı şəhərində yaşayıram. Azərbaycan şairlər diyarıdır və s. belə cümlələrdə kafi əsas qanununa heç bir ehtiyac hiss olunmur. Fikrin məntiqi cəhətdən doğruluğu heç bir şübhə yaratmır.

Deməli, nitqi qurarkən və yaxud şərh edərkən faktlara tez-tez müraciət düz deyil və buna heç ehtiyac da yoxdur. Təcrübə göstərir ki, hər bir faktı nitqə gətirmək onun şərhini çətinləşdirir. Natiq ümumi biliyi, konsepsiyanı kənarda qoyur, tək-tək predmetlər, hadisələr haqqında fikir yürüdür. Məsələn, bütün metallar qiymətlidir. Fikir belə ifadə olunur, metallar qrupuna aid olan mis, qızıl, aliminium, bürünc, gümüş və s. bu ümumi fikirdə əks olunur. Lakin qızıl qiymətli metaldır - dedikdə, xüsusi bir metaldan söhbət getdiyi oxucuya və ya dinləyiciyə dərhal aydın olur.

Kafi əsas qanunu təfəkkür prosesi ilə bağlı olduğundan, fikrin düzgünlüyü, əsaslandırılması üçün, gətirilən faktlara, dəlillərə, hökmlərə söykənir. Buna məntiqi əsas deyilir. Bu da həmişə real əsasla bağlı olur və əlaqə yaradır. Natiq kafi əsas qanunundan yerli-yerində istifadə etməlidir. Faktları əsaslandırmaq üçün natiqə həmişə müəyyən sübutlar lazımdır. Bəs sübut nədir? Sübutun xarakterinə, xüsusiyyətlərinə keçməzdən əvvəl bir məsələni nəzərdən keçirmək məqsədəuyğundur. Natiq nitqini qurarkən, hökmən sınaqdan çıxarılmış, təcrübədən keçmiş, elmi dəlillərlə ifadə

olunmuş hökmləri üstün tutmalıdır. Əgər natiq bu konvensiyanı əsas götürməsə, onda nitqin məntiqi qanunlardan kənarda qalacağı şübhə doğurmur. Məsələn, natiq heç bir elmi əsasla əlaqələnməmiş fikirləri nitqə daxil edibsə, onda o, fakt qarşısında aciz qalacaq və ya fikrini əsaslandırmağa dəlil, sübut tapa bilməyəcək. Məsələn, sağ gözün səyriməsi xoş xəbərdən, sol gözün səyriməsi pis xəbərdən məlumat verir. Qaşığın yerə düşməsi qadın, bıçağın yerə düşməsi kişi qonağın gələcəyindən xəbər verir. Faktlara söykənməyən belə fikir və mülahizələri kafi əsas qanunu rədd edir. Odur ki, natiq bir məsələdən digərinə keçərkən fikirdə qırıqlıq hiss olunmamalıdır. Nitqdə irəli sürülən fikir əsaslandırılmış şəkildə olmalıdır. Fikirdəki mülahizələr həyati faktlara əsaslanmalı, aydın, konkret, səlis olmalıdır. Nitqin hər bir müddəası düzgün və sərrast nəticə ilə qurtarmalıdır. Natiq irəli sürdüyü hər bir konsepsiyanı sübuta yetirməlidir. Fikri sübuta yetirmək üçün məntiqi priyomlarından və üsullarından düzgün istifadə etməlidir. Sübut üç hissədən ibarət olur.

1. Tezis
2. Əsas (dəlil)
3. Sübutetmə

Tezis həqiqətə uyğun olmalıdır. Tezis gələcəkdə görüləcək işlərin həqiqi yolunu təmin edir. Lakin son vaxtlar natiqlik sənətinə uyğun gəlməyən, həqiqətdən uzaq tezislər də yazılır. Onu da qeyd edək ki, tezis bütün elmləri əhatə edə bilmir. Həyat hadisələrini əks etdirən tezislər bəzən özünü doğrulda bilmir. Məsələn, uzun illər təbliğ olunan dünya sosializm sistemi, bərabərlik, qardaşlıq və s. tezislər özünü doğrultmadı.

Əsas (dəlil). Elm aləmində təsdiq olunmuş, təcrübədən, sınaqdan çıxmış hər hansı bir əsas (dəlil) sübutun tərkib hissəsidir. Əsas, obyektiv gerçəklikdə məntiqi qanunların ən düzgün ifadə olunmasında mühüm rol oynayır. Əsas tezisə məxsus olan (həqiqətdən ibarət olan tezisdən söhbət gedir) fikir və iddiaların ən düzgün və doğru əsaslarla ifadəsi deməkdir.

Sübutetmə yuxarıda söylənilən tərkib hissələrin arasında (tezis və əsas (dəlil) əlaqə yaradır. Bu anlayış məntiqi qaydaların məcmusu deməkdir. Əsasən, nitq prosesində ardıcıllığa xidmət edir. Yuxarıda belə bir iddia irəli sürdük ki, sübut nədir?

Sübut. Ədəbi dilimizin izahlı lüğətinə istinad edən K.Əliyev yazır: «Hər hansı bir şeyin həqiqiliyini, düzgünlüyünü göstərən fakt, mülahizə, müddəa, dəlil».

Natiqin nitqdə irəli sürdüyü müddəalar əsaslandırılmış olmalıdır. Nitq zamanı söylənilən nəzəri fikirlər sübutsuz qəbul edilmir. Natiq nitq prosesində bir fikrin, iddianın doğruluğunu başqa bir fikir vasitəsi ilə ifadə edir. Bu priyom sübutun bir üsuludur.

Sübutun üsulu bir sıra mərhələlərin ardıcıl əlaqəsi, hökmlərin silsiləsi olub, inandırıcı bir surətdə göstərməlidir ki, sübut edilən tezis məntiqi olaraq

müqəddimələrdən və ya doğruluğu təcrübədə yoxlanılmış dəlillərdən çıxır. Ayrı-ayrı müqəddimələrin sadəcə mexaniki olaraq cəmlənməsi heç də sübut qüvvəsinə malik deyildir.

Natiq nitq zamanı fikrini ifadə edərkən sübutun müxtəlif üsullarından istifadə edir. Bu sübutlar isə özünəməxsus xüsusiyyəti ilə fərqlənir. Əgər natiq fikrini, müddəanı birbaşa faktlarla, dəlillərlə ifadə edirsə, bu müstəqil sübut adlanır. Əksinə, fikir və müddəanın doğruluğunu inkar etməklə yaranan sübut dolayı sübut adlanır. Təqsimi (yəni hissələrə bölmək) sübut bir faktı qəbul edir, digərlərini inkar edir. Bu, natiqin nitqində, əsasən o zaman baş verir ki, natiq nitqini şərh edir. İlk baxışda bu ümumi xarakter daşıyır, sonra hiss olunur ki, o hansısa fakta üstünlük verir və həmin faktı dəlillərlə əlaqələndirib fikrini inkişaf etdirir.

Bəzən də natiq nitqini şərh edən zaman sübut fikrə zidd olan başqa bir fikri rədd edir. Sonra üçüncünü istisna qanununa əsaslanıb, sübut edilən fikrin mütləq doğru olduğu qənaətinə gəlir. Bu üsul apoqogik (dolayı) sübut adlanır.

Sübutlarda çox vaxt sübut olunmuş hökmlərdən istifadə etməklə, dəlillərdən çıxan nəticələr əldə edilməlidir. Bu, əsl nitqdir, nümunəvi sayıla bilən biliklərin şərhidir. Belə nitqi dinləyicilər qəbul edir. İrəli sürülən fikirləri təsdiq edir. Əks təqdirdə, fikirlər qəbul olunmur, faktlar əsassız olur və təkzib olunur.

Təkzib Azərbaycan dilinin izahlı lüğətində belə izah olunur: Bir məlumatın, xəbərin, şayiənin və s. yalan olduğunu məlumat, çıxış, məqalə və s. ilə sübut etmə. İzahdan aydın olur ki, nitq prosesində təkzib də mühüm əhəmiyyət kəsb edir. Təkzibdən, ən çox opponentlərlə aspirantlar və dissertantlar arasında gedən elmi mübahisədə istifadə olunur. Təkzibin tək və ya xüsusidən ümumiyə doğru inkişaf edən xətti də mövcuddur ki, buna da induksiya deyilir.

İnduksiya latınca yönəltmə mənasını verir. Nitq prosesində ayrı-ayrı hadisələrin ümumi nəticələrə doğru hərəkəti deməkdir. Məlumdur ki, qanun hadisələrdə təkrar olunan ümumi cəhətdir. Ümumi cəhət isə ayrıcadan başqa bir halda mövcud deyildir. İnduksiya əldə olunmuş bilik əsasında yeni predmetlərin, məfhumların öyrənilməsinə köməklik göstərir. İnduksiya məfhumların bir qismi haqqındakı biliyin onların daha gec olan başqa qisminə şamil edilərkən məzmununu dəyişdirmir. Buradan induksiyanın məhdudluğu meydana çıxır ki, buna da natamam induksiya deyilir. Lakin aparılan təhlil və sintez, ümumiləşdirmələr induksiyanın tamlığını təmin edir. Buna isə tam induksiya deyilir. Tam induksiyada nəzərdən keçirdiyimiz problem bütün halları ilə tədqiqatçıya məlum olmalıdır. Nitqdə düzgün ümumiləşdirmə aparmayanda induksiya pozulur. İnduksiya hadisələrin öyrənilməsində qanunauyğunluqları, səbəbi, məqsədi elmi şəkildə araşdırır və təsdiq edir. Buna da elmi induksiya deyilir.

Elmi induksiya. Hadisələri, müşahidələri, mülahizələri araşdıran natiq onu təhlil edir və faktın mühüm əlamətini üzə çıxarır. Elmi induksiya müşahidə və müqayisədən başlanıb, təcrübə apararkən səbəbin əlaqəsini təsdiq edir və müxtəlif metodların köməyi ilə fikri aydınlaşdırır. Bu metodların - a) oxşarlıq, b) təfavüt, c) qalıqlar, d) dəyişmələr tətbiq edilməsi nitq prosesində (istər yazılı, istərsə də şifahi) ayrılıqda götürülmür. Onlar tam formada götürülür və bir-birini tamamlayır. Nitq yazılarkən bir üsuldan da istifadə olunur ki, bu da deduksiya adlanır.

Deduksiya latın mənşəli olub hasiletmə deməkdir. O, fikrin ümumidən xüsusiyə doğru hərəkəti prosesidir. Bütövlükdə götürülən predmetlər haqqında olan biliyi hər hansı predmetə şamil edir. Deduksiyadan, əsasən, elmi işlərin yazılmasında daha çox istifadə olunur. Elmi nəzəriyyə qurmaq üsulu kimi tədqiqatçıların ən çox müraciət etdiyi bir üsuldur. Məsələn, deduksiya üsuluna aid aksiom metodu sübutsuz qəbul edilən müddəalardan, konsepsiyalardan ibarət olan aksiomaların məcmusundan müəyyən qaydalar və qanunlar əsasında əldə edilir.

NİTQ PROSESİNDƏ TƏLƏFFÜZ, İNTONASİYA VƏ ORFOEPİYANIN ROLU

Tələffüz nitqin şifahi qoluna aiddir. Natiq yazdığı nitqi şərh edərkən və ya nəyin isə haqqında danışarkən onun tələffüzü mühüm rol oynayır. Tələffüz nümunəvi nitqin mühüm amilidir. Hər bir nitq necə tərtib olunursa-olunsun, onun dinləyiciyə çatdırılması tələffüzün üzərinə düşür. Sözlərin düzgünlüyü, səlisliyi, aydınlığı tələffüzün əsasını təşkil edir. Nitqin gözəlliyinə xidmət edən diksiya aktyor, müəllim, diktor üçün çox mühümdür. Hər bir natiq nitqini şərh edərkən, emosionallığa ciddi riayət etməlidir. Çünki diksiya emosionallıqla bilavasitə əlaqədardır. Dinləyicilərin diqqətini cəlb edən məsələlərdən biri də nitqdə səs tembrindən düzgün istifadə olunmasıdır. Natiq nitqi şərh edərkən auditoriyanı nəzərə almalı və səsin tembrini ona uyğun şəkildə qurmalıdır. Nitqdə təsvir olunan hadisələrlə yaşayan natiq səsinin tembrində də bunu hiss etdirməlidir. Yeri gəldikcə tempi dəyişməlidir. Nitqin ümumi şərhi isə orta tempdə olmalıdır. Səsin eşidilmə dərəcəsi natiqin ustalığını nümayiş etdirir, bu diksiya üçün gözəl zəmin yaradır. Nitq zamanı tələsmədən, aramla danışmaq mühüm rol oynayır. Tez-tez danışmaq, dilin topuq vurması, ağız quruması, yersiz udqunmalar diksiyanın pozulması deməkdir. Diksiyada natiq ağ ciyərdən gələn hava axınını da düzgün tənzimləməlidir. Nitq prosesində tənəffüs sistemi pozulursa, onda diksiya da pozulur. Belə nitqin təsir qüvvəsi zəifləyir və dinləyicilərin diqqətinin yayınmasına səbəb olur. «Danışarkən cümlənin təkcə məzmunu deyil, həm də nə məqsədlə söylənilmiş olması sözlərin necə səslənməsinə təsir edir. Yəni səs bəzən ucalır, bəzən, əksinə, qısalır, daha da alçalır, bəzən uzanır, bəzən nitq axını kəsik-kəsik tələffüz olunur, bəzən isə, əksinə, qarışıq bir silsilə təşkil edir. Bununla da nitqin ritmik və melodik cərəyanı formalaşır ki, buna avazlanma (intonasiya) deyilir». Gətirdiyimiz sitatdan aydın olur ki, intonasiyadan (sitatda onu mərhum professor Ə.Dəmirçizadə avazlanma adlandırsa da, intonasiya terminindən istifadə edəcəyik) natiq öz nitqində işlətdiyi ara sözləri, sual cümlələri, xitabları, nidaları, əlavələri, xüsusiləşmələri düzgün tələffüz etmək üçün (bura vurğunu da əlavə etmək olar) istifadə edir. Həmcins üzvlər arasında cümlələrin sadalanmasında intonasiyanın təkrar olunması nitqdə hiss olunmalıdır. İntonasiya mürəkkəb bir hadisədir. Buna səs tonunun alçalıb yüksəlməsi, nitqin sürəti, tələffüzün qüvvətləndirilib zəifləndirilməsi, cümlə daxilində fasilənin olub-olmaması və s. daxildir. İntonasiya təsdiq cümlələrini sual və nida cümlələrindən, tabesizlik əlaqəsini tabelilik əlaqəsindən fərqləndirmək üçün imkan yaradır, intonasiya mənaya görə

cümlənin müəyyən hissəsini ayırmağa da imkan verir. İntonasiya vasitəsi ilə şübhə, təəccüb, şadlıq, qəmginlik, kədər və s. kimi hisslər ifadə edilir.

İntonasiyadan düzgün istifadə etmək nitqin mənasını yaxşı başa düşməyə kömək edir. Görkəmli şairlərin və bədii söz ustalarının şeir oxuyarkən intonasiyadan bacarıqla istifadə etdikləri bizə məlumdur. Onlar intonasiyadan düzgün istifadə edərək, əsərlərin məzmun və mənasını, eyni zamanda onları yaradarkən, şairlərin keçirdikləri hiss və həyəcanları məharətlə dinləyicilərin şüuruna çatdıra bilirlər. Natiq nitqi şərh etdiyi zaman çalışmalıdır ki, dinləyici onun səsindən yorulmasın, əksinə, estetik ləzzət alsın. Natiqin nitqi avazlanma vasitəsi ilə dinləyicilərdə xoş əhval-ruhiyyə yaratmalıdır. Natiq nitqini şərh edərkən sazəndələr musiqi alətlərindən hansı məharətlə istifadə edirlərsə, o da elə ustalıqla fikrini ifadə etməli və dinləyicilərin zövqünü oxşamalıdır.

Orfoepiya yunan sözü olub düzgün nitq deməkdir. Orfoepik normalar da dilimizin şifahi qoluna aiddir. Orfoepiya şifahi nitq üçün səciyyəvi nə varsa hamısını əhatə edir. Orfoepiyanın tədqiqat obyekti aşağıdakılardır:

1. Səslərin düzgün tələffüzü
2. Sözlərin, tərkiblərinin düzgün tələffüzü
3. Qrammatik normaların tələffüzü

Deməli, orfoepiya ümumi normalar əsasında yaranan fonetik qayda-qanunların bir-biri ilə bağlı məsələlərini tədqiq edir, öyrənir. Bəzən orfoepiya dar mənada tədqiq olunur. Bura yalnız tələffüz anlayışı daxil edilir. Lakin orfoepiya çox geniş bir anlayışdır ki, bu anlayışlar hər biri ayrı-ayrılıqda nitqin əsas amillərindən birini təşkil edir. Məsələn, səslərin hansı şəraitdə tələffüz olunması, sözün əvəlində, ortasında, axırında işlənməsi, məxrəc sabitliyinə görə, yanaşı işləndikdə hansı xüsusiyyətə malik olması və sair məsələlər orfoepiyanın tədqiq obyektdir. Bura intonasiya və vurğunu da əlavə etmək olar. Orfoepiya həm də alınma sözlərdə vurğunun düzgün tələffüz olunmasına da kömək edir. Orfoepiya ilə nitq sürəti məsələsinin də müəyyən dərəcədə əlaqəsi var. Hətta orfoepik üslub növlərini müəyyənləşdirən əlamətlər sırasında sürətin də nəzərə alınması zəruri sayılır. Nəhayət, belə bir cəhəti də yada salmalıyıq ki, orfoepiya, ümumiyyətlə, şifahi ədəbi dilin normalar sistemi anlayışı ilə bağlı olduğundan, şifahi ədəbi dilin müxtəlif üslubları ilə əlaqədar bir sıra əlamətdar cəhətləri də əhatə edir. Sitatdan göründüyü kimi, orfoepiya geniş bir anlayışdır. Ədəbi dilin normaları ilə, üslublar sistemi ilə qırılmaz şəkildə bağlıdır. Orfoepiya həm də yüksək mədəni nitq üçün insanın dil qabiliyətinin inkişafına, püxtələşməsinə zəmin yaradır. Natiq nitqini şərh edərkən, fonetik qanunları, fonetik hadisələri və onların tələffüzündən irəli gələn xüsusiyyətləri nəzərə almalıdır. Bəzi natiqlər nitqlərində kitab üslubuna üstünlük verir. Yəni söz

necə yazılırsa, elə də tələffüz olunur. Bu qətiyyən düz deyil, onda nitq quru çıxır və dinləyicilərin yorulmasına səbəb olur. Bəzi natiqlər nitqlərində dialekt sözlərə yer ayırır. Bunlar da öz növbəsində orfoepiyanın pozulması deməkdir. Hər bir natiq fikrini necə şərh edirsə etsin, fərqi yoxdur, orfoepik normalara riayət etməlidir. Fikir həm məzmun və forma, həm də ideya məntiqi əsaslar üzərində qurulmalıdır. Natiq nitqini qurarkən orfoepiyanın normalarını və ünsürlərini nəzərə almalıdır. Bu ünsürlər isə aşağıdakılardır:

1. Fasilə (pauza)
2. Vurğu
3. Ahəngdarlıq (buna melodiya da deyirlər)
4. Sürət (buna temp də deyirlər)

Bu dörd ünsürə riayət edən natiq nümunəvi nitqə nail ola bilir. Fasilə nitq prosesində mühüm rol oynayır. Bəzən fasilə durğu işarələri hesabına edilir. Lakin şifahi nitqdə fasilə mənaya görə edilir. Çünki şifahi nitqdə orfoqrafik işarələr görünmür. Natiq cümlənin mənasına əsasən fasilədən istifadə edir. Fasilə nitqin ikimənalılığını aradan qaldırır, xitabların, ara sözlərin, müqayisə edilən birgə sözlərin düzgün işlənməsini təmin edir. Natiq nitqində həm heca vurğusuna, həm məntiqi vurğuya, həm həyəcanlı vurğuya qarşı diqqətli olmalı, müəyyən məna çalarlığını dərindən bilməlidir. Natiq həm güclü vurğuya (ona dinamik vurğu deyilir), həm də avazlı vurğuya (buna tonik vurğu deyilir) düzgün əməl etməlidir. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dilində sabit vurğudur. Natiq onu da bilməlidir ki, dilimizdə işlənən şəkilçilər vurğunu qəbul edir və sözdə vurğunun yeri dəyişir. Burada vurğu qəbul edən şəkilçilər nəzərdə tutulur (dilimizdə vurğu qəbul etməyən şəkilçilər də var). Məsələn: Yaz-ı-çı-lıq-dan, iş-çi-lər-dən, tək-mil-ləş-dir-il-miş-lər-dən və sair. Misallardan aydın olur ki, vurğu şəkilçilərin artırılması ilə əlaqədar yerini dəyişir. Natiq vurğu qəbul etməyən şəkilçiləri də bilməlidir. Əks təqdirdə sözlərin mənasını düzgün ifadə edə bilməz. Məsələn: alma-alma, çəkmə-çəkmə, vurma-vurma və s.

Ahəngdarlıq ünsürü də nitqdə böyük rol oynayır. Nəsr dilində nitqin parçalara bölünməsi bir ahəngdarlıq yaradır. Ahəngdarlıq isə natiqin işini asanlaşdırır və müəyyən nizama salır. Ahəngdarlıq natiqin əməyini yüngülləşdirir, onun rahat işləməsi üçün yüngüllük gətirir. Ahəngdarlıq həyatın bütün sahələrində özünü göstərir. Məsələn: nəbzin vurması, əsgərlərin yerişi, quşların uçuşu və s. Ahəngdarlıq təbiətin, cəmiyyətin inkişafında da daimi yer tutur: Dildə, rəqsdə, sənətdə belə müəyyən bir ahəng var ki, bu da müəyyən bir qanuna və nizama tabedir. Biz rəqsdə dinamik hərəkətləri, dildə nitq ünsürlərini görürük. Nəzmdəki ahəng nitq ünsürlərinin müvazinətli təkrarından doğur.

Nitq də belədir. Nitq müəyyən hissələrə bölünməklə bərabər, müəyyən bir nizam ilə təkrar edilirsə, ahəng təsiri yaranacaqdır. Əgər mənzum misralar mütəmadi olaraq uzanan mənsur bir parça ilə yanaşı qoyulursa,

müvazinət, nizam, ahəng görünməyə bilər. Lakin eyni misralar bir ölçüdə olmaqla bərabər, müəyyən pauzalar (fasilələr) və durğularla davam edərsə, səslərin bu nizamlı əlaqəsindən mütləq ahəng doğacaqdır. S.Vurğunun «Şair, nə tez qocaldın sən»! şerində ahəngdarlığın, axıcılığın, hər misranın dərin məna kəsb etməsinin şahidi oluruq.

Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir,
Ömrü keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir, deyir,
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal.
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:
Şair, nə tez qocaldın sən?

Ovçuluğa meyil saldım,
Gecə-gündüz çöldə qaldım.
Dağ başından enib düzə
Bir ox kimi süzə-süzə
Neçə ceyran nişan aldım,
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən!

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə.
Andı yalan, eşqi yalan.
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvari deyir hərdən:
Şair, nə tez qocaldın sən!

Saç ağardı, ancaq ürək,
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm,
Əlimdədir hələ qələm.

Bilirəm ki, deməyəcək,
Bir sevgilim, bir də vətən:
Şair, nə tez qocaldın sən!

Bu misralardan sonra söz deməyə, ahəngdarlıqdan danışmağa heç bir natiqin haqqı yoxdur. Bu, əsl istedadın, sənətkarın, şair-natiqin qələbəsi və bu qələbənin təntənəsidir. Əsl natiq ustalıq nümayiş etdirərkən, nitqində bu cəhətləri hökmən nəzərə almalıdır. Doğrudur, bu nəsr dili ilə çox çətindir. Lakin bacarıqlı natiq bu cəhətlərdən məharətlə istifadə edir.

Ulu öndərimiz Heydər Əliyev öz nitqində bu cəhətləri layiqincə işlətmişdir.

«Heydər Əliyevin nitqləri auditoriyanın marağına, səviyyəsinə, dərketmə imkanına müvafiq gəlir - auditoriya ilə natiq arasında demək olar ki, hər dəqiqə psixoloji kontakt olur. Bunu aşağıdakı amillər təmin edir:

- çıxışın bütünlüklə auditoriyanı bilavasitə maraqlandıran faktlar, hadisələr, konkret məlumat və misallar üzərində qurulması;
- çıxışda həmin auditoriya üçün əhəmiyyətli mülahizələrin irəli sürülməsi;
- natiqin ümumən Azərbaycan cəmiyyətini narahat edən ən aktual məsələlərə, problemlərə toxunması, mövcud mülahizələrə analitik bir aydınlıq gətirməsi;
- auditoriya ilə polemikaya, fikir mübadiləsinə, əgər buna ehtiyac varsa, girilməsi və onun marağının nəzərə alınması;
- auditoriyanın anlayacağı sözlər, ifadələr, cumlələr işlədilməsi və s.

Ulu öndər Heydər Əliyev nə qədər zəngin, mürəkkəb, dərin intellektual təfəkkür sahibi olsa da heç bir çıxışında, məruzəsində, nitqində, yaxud replikasında Azərbaycan cəmiyyətinin sıravi üzvünün başa düşməyəcəyi, xüsusi şərh tələb edən fikirlər söyləmir, həmişə məzmunluluğu saxlamaqla maksimum sadə bir dillə - sadə sözlər, ifadələr, konstruksiyalarla danışır ki, bu da istənilən auditoriya ilə ən yüksək səviyyədə kontakta girməyə imkan verirdi. İkinci tərəfdən, Heydər Əliyev əzəmətli duruşu, iti baxışları, fikrin dəqiq çatmasına kömək edən təsirli səsi ilə auditoriyanın diqqətini dərhal özünə çəkməsi, əlinin bəzən asta, bəzən sərt, rəddedici hərəkəti ilə həmin auditoriyanı mahir, bir drijor kimi idarə edirdi - onu dinləyənlər özlərindən asılı olmayaraq həyəcanlanır, sözlərinə, mülahizələrinə reaksiya vermək həddində olurdular ki, bu da hər hansı bir natiq üçün böyük hünərdir.» (N.Xudiyev)

Heydər Əliyevin nitqlərinin təhlili üzərində apardığı tədqiqat işində N.Xudiyev natiqlik sənətinə, orijinal fikirlər gətirmiş və fikirlərini əsl natiq kimi əsaslandırmışdır. Şifahi nitqə verilən tələbləri dərindən şərh edən N.Xudiyev oxucunu sanki tilsimləyir, onu iclas zallarına aparır, hadisələrin şahidi edir.

Sürət şifahi nitqin dinləyiciyə çatdırılmasında mühüm rol oynayır. Natiq fikrini şərh edərkən tələsməməli, aramla çıxış etməlidir. Natiqin səsi, intonasiyası və zahiri əlamətləri haqqında fikir söyləyən K. Əliyev Siserona istinad edərək yazır:

«Natiqin fikrincə, təbiətin bağışladığı şaqraq və xoş təsir göstərən səsdən məqamına görə və məharətlə istifadə etmək lazımdır. Bir qədər sonra qeyd edir ki, səsin, nəfəsin, bədən üzvlərinin, nəhayət, dilin məşqi üçün elmi qaydaları öyrənmək yox, zəhmət çəkib öz üzərində yorulmadan çalışmaq lazımdır. Yumşaq səs, üzün təvazökar görünüşü, ruhu oxşayan nitq natiqin köməyinə çatır. Kəskin çıxış edəndə üzünün zahiri cizgilərini - mimikasını elə nəzərə çarpdırmalısan ki, tamaşaçılar sənin məcburiyyət qarşısında qaldığını dərhal hiss etsinlər.

Kim natiq olmaq istəyirsə, o, qəzəbli məqamlarda gərgin səslə, sakit axında yumşaq səslə, tərəddüd göstərəndə ona uyğun intonasiya ilə öz fikrini ifadə etməlidir.»

Zənnimcə, həmin sitat səsin nitqdə rolunu əks etdirsə də, müəyyən məqamlarda natiqə hadisələrin iştirakçısı olmağı tövsiyə edən Siseron səsin tempinin, sürətinin də hadisəyə uyğun qurulmasını məsləhət görür.

«Yüksək nitq mədəniyyəti insanın ümumi inkişafında xüsusi rol oynayır. İstər məzmun, istərsə də zahiri cəhətdən düzgün olan nitq fikrin təsirli ifadə olunmasına xidmət edir. Buna görə də «yüksək və zəngin nitq mədəniyyəti olmadan böyük fikirləri və hadisələri ifadə etmək, həm də füsunkar bir təsirlə ifadə etmək mümkün deyildir.» (S.Vurğun).

Fikir və düşüncələrin daha təsirli ifadə edilməsi üçün zəruri tələblərdən biri olan orfoepiya da nitq mədəniyyətinin ayrılmaz və vacib ünsürüdür.

Orfoepiyanın böyük əhəmiyyəti vardır. O, eyni sözün müxtəlif formalarda tələffüz olunmasına yol vermir. Ümumiyyətlə, düzgün tələffüz olunan dil vasitələri hər zaman fikrin asan və tez anlaşılmasına imkan yaradır. Bunun əsasında da insanlar bir-birini düzgün başa düşürlər. Orfoepik qaydalar poeziya üçün xüsusi əhəmiyyətə malikdir. Bu qaydalara əməl etməklə bədii nitqin estetik effekti, daha da artır. Bütün bunlara görə də orfoepiyanın nəzəri və praktik cəhətdən öyrənilməsinin böyük əhəmiyyəti vardır:

Hər bir şəxsdən ədəbi dilin qanunlarına riayət edərək danışması tələb olunur. Buna görə də ilk növbədə, müəllim, alim, diktor və aktyorlar dilimizin tələffüz qaydalarını əsaslı surətdə bilməlidir.

Orfoepik qaydaların pozulması yol verilməzdir. Lakin bəzən danışıq zamanı bu normaların pozulması halları olur. Orfoepiya normaları başlıca olaraq bir neçə səbəbdən pozula bilər: a) danışanın dialekt sözlərdən istifadəsi; b) klassik ədəbi dilin; v) alınma sözlərin; q) orfoqrafiyanın təsiri nəticəsində. Danışıq zamanı orfoepik normaların pozulması dinləyicinin fikrini əsas məsələdən uzaqlaşdıra bilir. Belə ki, «biz danışanı dinləyərkən,

onun nitqinin əsas cəhətinə bir o qədər diqqət etmirik; əsasən mənaya fikir veririk. Lakin danışan şəxs tələffüz qaydalarını pozduqda dinləyici sözün xarici cəhətinə, yəni səs cəhətinə də diqqət yetirməyə məcbur olur. Bunun nəticəsində isə onun diqqəti yayınır.» (Ə.Əfəndizadə).

«Orfoepik normalardan uzaqlaşmaq ümumi anlaşma işinə mane olur. Buna görə də orfoepik normaların pozulmasına qarşı müntəzəm mübarizə aparmaq, onu qorumaq lazımdır. Çünki bu, yüksək nitq mədəniyyəti uğrunda mübarizənin bir növüdür.» (Ə.Əfəndiyev)

Natiq orfoepiya qaydalarına riayət etməklə bərabər, orfoqrafik qaydaları da dərindən bilməlidir. Ədəbi dilin şifahi qolu ilə yazılı qolu da inkişaf edir. Yazılı qolun da öz xüsusiyyətləri, normaları, qayda-qanunları vardır. Natiq bu qayda-qanunları da dərindən bilməli və orfoepiya ilə bağlı, əlaqəli şəkildə bunlardan istifadə etməlidir.

Orfoqrafiya yunan sözü olub «düzgün yazıram» mənasını ifadə edir. Orfoqrafiya dilimizdəki sözlərin hamısının qrammatik formaları üçün vahid yazı qayda-qanunlarını müəyyən edir və onları daha da təkmilləşdirir. Sərhədlərin müəyyənləşməsini təmin edir (kök və şəkilçi nəzərdə tutulur). Orfoqrafiya qaydaları, sözlərin ayrı, bitişik, defislə, böyük hərflə yazılması, sətirdən-sətrə keçirilməsi qaydalarıdır. Orfoqrafiya dilimizin yazılı əsasını təşkil edir. Şifahi nitqi özündə əks etdirir, uzun ömürlü olur. Tarixi yaddaşımızı bu günümüzə, gənc nəsillərə çatdırır. Orfoqrafiya dialekt və məhəlli sözlərin, ədəbi dilə uyuşmayan hər bir sözün, ifadənin qarşısını alır, Orfoqrafiya hamı üçün məcburi olan vahid qaydaları sabitləşdirir və inkişaf etdirir.

Orfoqrafiyanı yaxşı bilməyən natiq nitqini hazırlayarkən (yazılı nitq nəzərdə tutulur) ciddi çətinliklərlə qarşılaşır. Məsələn, savadsız yazılan nitq oxu qaydalarını çətinləşdirir. Diktor, tələbə, aktyor, kimliyindən asılı olmayaraq hər bir kəs yazılı nitqi dinləyicilər üçün oxuyur. Ona görə də cümlənin mənasını onun durğu işarələri ilə müəyyən edir. Ədəbi dilimizdə işlənən durğu işarələrinin zənginliyi nitqin gözəl səslənməsini, pauzanı, fikir bitkinliyini, istehzanı, yarımçıq qalmış fikri, yeni fikrə keçilməsini, fikrin ümumiləşdirilməsini, defislə yazılmasını, sual cümlələrini, hiss-həyəcan ifadə edən nidaları, nəqli cümlələri, əmr, xahiş, nəsihəti, arzunu, istəyi, qarğışı, nifrəti, qorxunu, kədər ifadə edən sözlərin işlənməsində hansı durğu işarələrindən istifadə olunmasını dəqiqliyi ilə bilməlidir. Əks təqdirdə, intonasiya ilə yaranan sual cümləsi nəqli cümlə kimi və yaxud əmr cümləsi kimi oxunar. Fikrin necə ifadə olunması dolaşıqlıq yaradar. Məhz, bu qaydalar fikrin aydın və düzgün ifadə olunmasına şərait yaradır. Nitqin yazılı qolunu təşkil edən orfoqrafiya qaydaları gec dəyişir, bu da onun dərk olunmasına, hamı tərəfindən öyrənilməsinə köməklik göstərir.

Orfoqrafiya orfoepiya ilə sıx şəkildə bağlıdır. Xüsusilə, sözlərin və səslərin bir variantını qəbul edən orfoqrafiya onların bir cür yazılmasını tələb edir. Məsələn;

Ev - öy - əv;

deyil - dəgil - dögül - dəyil - döyür.

Misallardan göründüyü kimi, tələffüzdə ayrılığa, müxtəlifliyə yol verildiyi halda, morfoloji prinsipə uyğun olaraq ədəbi dildə yalnız bir variantdan istifadə olunur. Həmin sözlər ev və deyil kimi yazılır və bu sabitləşmiş (yazı nəzərdə tutulur) bir formadır.

Bəzi natiqlər sözlərin ixtisarını düzgün ifadə edə bilmirlər. Yəni onlar orfoqrafik qaydanı bilmədiyi üçün qısaldılmış sözü düz ifadə edə bilmir.

Məsələn, natiq bilməlidir ki, əgər qısaldılmış söz bütövlükdə samit səslərdən ibarətdirsə, onda hərfin adı ilə ifadə olunmur (be, ve, qe, ğe, de və s; bura sonorlar daxil edilmir, bu səslər el, em, en,er oxunur). Əgər ixtisar sait və samitlərin birləşməsindən əmələ gəlmişsə, onda hərflərin adı ilə oxunur. Fikrimizi yenə misallarla ifadə edək: APU - Azərbaycan Pedaqoji Universiteti , BDU - Bakı Dövlət Universiteti, ADİİ -Azərbaycan Dövlət İqtisad Universiteti və s. hətta natiq tanış olmadığı mətni oxuyarkən, durğu işarələrinin sonda işlənməsi cümlənin düzgün oxunmasını çətinləşdirir. Natiq cümlədəki mənanı düzgün tuta bilmir və nəticədə səhvə yol verir.

Məsələn:

Atan gəldi. (nəqli cümlə).

Atan gəldi? (sual cümləsi).

Atan gəldi! (nida cümləsi).

Ona görə də bir çox dillərdə durğu işarələrini cümlənin əvvəlində işlənməsi məsələsi bir problem kimi diqqət mərkəzinə gətirilmişdir. Məsələn, latın yazılarında sual və nida işarələri cümlənin sonunda, ispan yazılarında cümlənin (və ya sözün) hər iki tərəfində və hətta başı aşağı formada da işlənir. Bundan əlavə, müasir gürcü əlifbasında böyük hərf olmadığı üçün xüsusi isimlər də kiçik hərflərlə yazılır. Yazıların müxtəlifliyi, sağdan sola yazılması (ərəb, fars dilləri), yuxarıdan aşağı yazılması və s. durğu işarələrinin də müxtəlifliyinə səbəb olur. Natiq başqasının hazırladığı nitqi oxuyarkən əvvəlcədən mətnlə tanış olmalı, sonra auditoriya qarşısına çıxmalıdır. Bu onun həm özünə, həm də dinləyicilərə hörməti kimi qiymətləndirilməlidir.

NATİQİN ƏMƏYİ VƏ DAVRANIŞI

Hər bir natiq nitqini hazırlayarkən qarşısına məqsədlər qoyur. Öz şəxsi təcrübəsindən istifadə edib, nitqini maraq doğuran məsələlər üzərində qurmağa çalışır. Belə ki, o, natiqlik sənətinin prinsiplərinə riayət etməlidir. Odur ki, natiq nitqini hazırlayarkən aşağıdakı prinsiplərə əməl etməlidir:

1. Nitqin məzmunu
2. Nitqin forması
3. Məzmun ilə formanın vəhdəti
4. Məzmunun aydınlaşdırılmasında ənənəvi formalardan düzgün şəkildə istifadə edilməsi
5. Nitqin kompoziyasının qurulması
6. Ədəbi dilin normalarına əməl edilməsi
7. Nitqin sadə, yığcam olmasının təmin edilməsi
8. Nitqin ideyasının dinləyicilərə çatdırılması
9. Üslub

Natiq dilimizdə işlənən söz birləşmələrindən də (həm sabit, həm də sərbəst) düzgün istifadə etməlidir. Bu qəbildən olan ibarələri, atalar sözlərini, zərbi-məsəlləri, idiomatik ifadələri, hikmətli sözləri yerli-yerində işlətməyi bacarmalıdır. Məsələn, "ürəyim ağrıyır" əvəzinə, "qəlbim ağrıyır," "gözüm səndən su içmir" əvəzinə, "ağlım səndən bir şey kəsmir", "gözləri kəlləsinə çıxmaq" əvəzinə, "gözləri hədəqəsindən çıxdı" və s. kimi ifadələr düzgün işlədilməyəndə öz təsir qüvvəsini itirir.

Söz birləşmələri dilin frazeologiya şöbəsinin tədqiqat obyektidir. Natiq söz birləşmələrinin növlərini (sabit söz birləşmələrini, sərbəst söz birləşmələrini) dərindən bilməlidir. Natiq bunu dərk etməlidir ki, sərbəst söz birləşmələrinin tərəfləri onun özü tərəfindən qurulur. Bunu dəyişə bilər. Sabit söz birləşmələri isə uzun bir tarixi yol keçib, sabitləşib. Onun tərəfləri arasına söz daxil etmək olmur. Milli ruh, adət-ənənə belə birləşmələrdə daha qabarıq özünü göstərir. Məsələn, gözüm səndən su içmir; nə baxırsan, dəvə nalbəndə baxan kimi; bel bağlama; söz almaq; dərd çəkmək; yersiz gəldi, yerli qaç; igid ölər adı qalar, namərd ölər nəyi qalar? keçmə namərd körpüsündən, qoy aparsın sellər səni; dost başa baxar, düşmən ayağa və s...

Natiq onu da bilməlidir ki, frazeoloji söz birləşmələri sərbəst söz birləşmələrindən bəzi xüsusiyyətlərinə görə ciddi şəkildə fərqlənir. Məsələn, sabit söz birləşmələri dildə hazır birləşmə kimi işlədilir, buradakı sözlər müstəqil mənaya malik olmur, hamısı birlikdə bir sual tələb edir. Sabit söz birləşmələri özü də sərbəst söz birləşmələrindən əmələ gəlir. Sabit söz birləşmələri bitkinliyə malik olmur. Sərbəst birləşmələr isə bitkinliyə malik olur, tərəfləri müstəqil olur, ayrılıqda sual tələb edir, müəyyən ehtiyacla əlaqədar işlədilir və s.

Dilimizdə işlənən frazeoloji vahidlər həm çoxmənalı, həm omonim, həm sinonim, həm də antonim ola bilər. Frazeoloji vahidlər dildəki obrazlılığı, effekti, təsir qüvvəsini artırmaq üçün müəyyən üslubi çalarlıqlar, rənglər yaradır. Məsələn,

Mən aşıq qız alanda,
Yanağın qızaranda,
Oğlan murada çatar
Toy tutub qız alanda

və yaxud,

Ay dolandı, il dolandı,
Hicran odu alovlandı,
Dost-aşna, qohum-qardaş
Zərnigara çəkərdi baş.
(S.Vurğun)

Sabit birləşmələr həm də bədii təsvir vasitələri ilə işlənə bilir, sözlərin məna qüvvəsini, təsirini artırır.

Nitq prosesində diskussiya və polemika da mühüm rol oynayır. Hər hansı bir problemə, hadisəyə aid həqiqi fikrin meydana çıxmasında mübahisədən istifadə edilir. Diskussiya nisbətən geniş şəkildə dinləyicilərlə aparılan fikir mübadiləsidir. Diskussiya müəyyən ədəbi cərəyanın nümayəndələri arasında, kiçik idarə və müəssisələr arasında, müəyyən siyasi partiyalar arasında, müxalifətlə iqtidar arasında aparıla bilər. Hətta müəyyən bir kitabın, elmi məqalənin müzakirəsi də diskussiya xarakteri daşıya bilər.

Polemika isə natiqlik sənətində barışmaz mövqe anlayışını ifadə edir. Yəni burada tərəflər öz fikrini, konsepsiyasını əks tərəfə qəbul etdirməyə çalışır. Bu, əlbəttə, zorla, güclə deyil, müəyyən inandırma yolu ilə, sübutla, faktlarla həyata keçirilməlidir. Məsələn, ulu öndərimiz Heydər Əliyevin xalq yazıçısı Hüseyn Abbaszadə ilə apardığı polemikanın bir hissəsini nəzərdən keçirək. Bu polemika dilimizin necə adlanması ilə əlaqədar aparılır.

Heydər Əliyev: - Hüseyn müəllim, o vaxt sən yazdın ki, türk dili olsun?

H.Abbaszadə: - Yox, Azərbaycan dili.

Heydər Əliyev: - Bəs niyə yazmadın?

H.Abbaszadə: - O vaxt «türk dili» deyənin dilini boğazından çıxarırdılar (gülüş).

Heydər Əliyev: - Çıxaraydılar da, nə olar, yazaydın da...

Sonra həmin polemika aşağıdakı şəkildə davam etdi:

Heydər Əliyev: - Amma bilirsən nə var?.. O vaxtlar biz əməkdaşlıq eləyirdik və keçən dəfə də mən dedim, «Azərbaycan dili» yazmaq üçün mən nə qədər mübarizə apardım. Amma, mən açıq üzünüzə deyirəm, hamınıza, senə də deyirəm, Bəxtiyar müəllimə də deyirəm, biriniz də o vaxt mənə gəlib demədiniz ki, «türk dili» yazmaq lazımdır?

H.Abbaszadə: - Düzdür.

Heydər Əliyev: - Heç biriniz deməmişdiniz.

H.Abbaszadə: - O vaxt qorxurduq deməyə.

Heydər Əliyev: - «Azərbaycan dili» demişdilər, onu demişdilər, amma, «türk dili» deməmişdilər»... ("Azərbaycan" qəzeti 10 noyabr, 1995-ci il).

Göründüyü kimi, polemikada mühüm yeri əsas məntiqi fikirlər, sübutlar, faktlar tutur. Həm də polemika iki şəxs arasında gedir. Bu onu göstərir ki, polemikanın əhatə dairəsi diskussiyanın əhatə dairəsinə görə məhduddur. Polemika məhkəmə natiqliyində müttəhimlə hakim arasında, akademik natiqlikdə aspirantla opponent arasında, hətta, müəllimlə tələbə, şagird arasında da baş verə bilər.

Nitqini yüksək səviyyədə qurmaq üçün natiq öz nitqində dərin mənalı məzmunu və bitkin formaya nail olmalıdır. Həyatda nə varsa, nə inkişaf edirsə, bir qanunauyğunluq formasında təzahür edir. Deməli, məzmunu ilə forma obyektiv gerçəklikdir.

Gerçək aləmdə hər nə varsa, hamısı məzmunlu və formalıdır. Məzmun özünə müvafiq formada təzahür tapır. Məzmun və forma maddənin, həyat faktının, insan fəaliyyətinin atributu, mövcudiyyət tərzidir. Həyatın özü kimi, onun bədii inikası da məzmunsuz və formasız ola bilməz.

Əsl həqiqət... təəssüratla varlıq haqqındakı təsəvvürlərin, ideya və idealların müqayisəsindən və peyvəndindən yaranır. Həyatdakı bu inikas tərzi incəsənətdə bədii inikas kimi keçir. Həyat məzmunu da burada mütləq bədii məzmun kimi formalaşır.

İnikasın obyekti, predmeti yox, inikasın özü incəsənət əsərinin məzmununu təşkil edir. Misal üçün, C.Cabbarlının «1905-ci ildə» pyesinin məzmunu sadəcə inqilab hadisələri deyil, bu hadisələrin müəllif şüurundakı inikasından ibarətdir. Səməd Vurğun «Vaqif» dramında XVIII əsrin hadisələrini bir tarixçi kimi yox, bir sənətkar kimi inikas etdirmişdir.

Natiq nitqini qurarkən, öz təxəyyülünü də bu məzmuna köçürməli, başa düşdüyü formada fikrini ifadə etməlidir. Bu prinsipə nail olmaq üçün natiq gərgin zəhmət çəkməli və öz üzərində işləməlidir. Məzmunu aydınlaşdırmaqdan ötrü natiq induksiya metodundan istifadə etməli, onu təcrübədən keçirib fikrini ümumiləşdirməlidir. İnduksiya üsulu deduksiya ilə əlaqəli olduğu üçün natiq bu üsulu da yaddan çıxarmamalıdır.

Nitqdə forma da qorunub saxlanmalıdır. Təcrübə göstərir ki, hər bir natiq öz üslubuna müvafiq forma qurur. Bəzisi öz bildikləri kimi danışır,

bəzisi kitab dilinə üstünlük verir, bəzisi müstəqilliyə, öz sözünü deməyə can atır. Bu isə nitqin formasını təşkil edir.

«Predmetlə mündəricə arasında fərq olduğu kimi, əsərin bədii ifadə vasitələri ilə onun bədii forması arasında da mühüm fərq vardır. Bədii ifadə vasitələri (söz, dil, cümlə quruluşu, melodiya, ahəng, ritm, kompozisiya, rəng, işıq və kölgə, perspektiv və s.) müxtəlif janrlarda işlənir. Forma isə konkret əsərin ifadəsidir. Forma ümumilik qəbul etmir. O, əsərin mündəricəsindən asılıdır və ancaq bu və ya digər mündəricəni əyan edə bilər. Mündəricə mütləq özünə müvafiq formada təcəssüm tapır. Əgər belə formada realizə olunmursa, deməli, öz-özlüyündə gərəkli və zəngin olsa belə, potensiyada qalır, aşkarlanmır. Mündəricə daha mühüm və aparıcı kateqoriyadır. Forma ondan asılıdır və ona xidmət edir. Lakin bu şərt heç də formanın əhəmiyyətsizliyinə dəlalət etmir. Forma kateqoriyası da bədii yaradıcılıq prosesində mühüm rol oynayır. Böyük sənətkarlar həmişə bədii forma ustası olmuşdur. Bunsuz sənətkar olmaq və bədii əsər yaratmaq mümkün deyildir. M.Qorki yazır ki, «Sənətkar öz şəxsi, sübyektiv təəssüratının üzərində işləməyi, əsərın ümumi əhəmiyyəti olan cəhətlərini tapmalı, öz təsəvvürlərinə öz formalarını verməyi bacaran adamdır» (M.Məmmədov, "Estetika haqqında söhbət").

Nitqlərin müxtəlifliyini nəzərə alsaq, onda belə bir nəticə çıxara bilərik ki, hər bir nitqin özünəməxsus forması olur. Formadan danışarkən ənənəvi formanı da yaddan çıxartmaq olmaz. Nitqin dinləyicilərə çatdırılmasında bu prinsip mühüm rol oynayır. Məsələn, bir natiq çıxış edərkən əvvəl müvəffəqiyyətlərdən, sonra isə nöqsanlardan, daha sonra isə qarşıda duran vəzifələrdən söhbət açır və nəticə əldə edir. Digər natiq isə əvvəl nöqsanlardan, ardınca müvəffəqiyyətdən, sonra isə qarşıda duran vəzifələrdən məlumat verir və nəticə əldə edir. Bu nitq hər iki halda məqbul hesab olunur. Çünki belə nitqi dinləyicilər daha tez qavrayır. Bu ənənəvi formalardan demək olar ki, bütün natiqlər istifadə edir, faydalanır.

Natiq nitqini qurarkən məzmun ilə formanı vəhdətdə götürməlidir. Əks təqdirdə onlar bir-birindən təcrid olar və nitq istənilən nəticəni verə bilməz. Bəzən məzmun ilə forma bir-birini tamamlamır, bu zaman nitqin naqisliyi dərhal hiss olunur. Natiq nitqin ideyasını tamamlaya bilmir, ya da çətinliklə tamamlayır. Bəzi vaxtlar forma məzmuna qurban verilir. Bu daha çox nitqin nəzm formasında özünü göstərir. Şair qafiyə xatirinə formanı məzmuna qurban verir. Lakin nəsr dilində bu prinsip özünü doğrultmur. Natiqin nitqində məzmun ilə forma o zaman dolğun və səlis olur ki, mövzu elmi şəkildə qurulur, fikir məntiqi cəhətdən əsaslandırılır.

Nitqin qurulmasında kompozisiya da əsas amillərdən biri hesab olunur. Natiq nitqini necə qurmalı?- sualına özü cavab tapmalıdır. Natiq əvvəlcədən topladığı materialı ardıcıl şəkildə qruplaşdırır. Bunun əsasında plan qurur. Plan ayrı-ayrı hissələrə bölünür, məntiqi əlaqə yaradılır və son variant diqqət

mərkəzində qalır. Natiq nitqini plan əsasında şərh edir və ardıcıllığı gözləyir. Bu haqda əvvəlki fəsildə məlumat verdiyimiz üçün artıq şərhə ətraflı ehtiyac duymuruq.

Nitq ədəbi dilin normaları əsasında qurulmalıdır. Bu da natiqdən böyük zəhmət tələb edir. Ədəbi dil idarə və təşkilatlarda, ali məktəblərdə (ümumi şəkildə təhsildə), informasiya mərkəzlərində, radio və televiziyada və s. yerlərdə istifadə olunur. Ədəbi dilin forması hamı tərəfindən qorunmalıdır.

Ədəbi dil uzun bir tarixi yol keçib formalaşmışdır. Natiq dilin keçdiyi tarixi yolu və onun əsasında ədəbi dilin formalaşmasını, ədəbi dil normalarını, yazılı və şifahi qollarını, səs sistemini, lüğət tərkibini, qrammatik quruluşunu dərindən bilməli və nitqində onları yerli-yerində işlətməyi bacarmalıdır. Onu da yaddan çıxarmaq olmaz ki, natiq bu prinsiplərdən seçmə və əvəzetmə yolu ilə bəhrələnməlidir. Bu seçmə və əvəzetməni natiq təxminən belə qruplaşdırmalıdır:

1. Natiq dilimizdəki səslərin spesifik xüsusiyyətlərini, səs və fonemi, fonetik hadisə və qanunları (ədəbi dildə sabitləşənlər qanun adlanır; belə sözlər necə yazılırsa, elə də oxunur; yazıda sabitləşməyənlər isə fonetik hadisə adlanır).
2. Natiq lüğət tərkibinə yaxşı bələd olmalı, hamı üçün aydın və başa düşülən sözləri seçib işlətməlidir.
3. Natiq nitqində qrammatik qaydaları gözləməli, sözlərdə şəkilçilərin düzgün işləməsini, şəkilçilərin variantını, növlərini düzgün şəkildə müəyyənləşdirməlidir.
4. Natiq müasir dilçilik elminə aid yazılmış lüğətlərdən, ensiklopediyalardan istifadə edib nitqini əsaslandırmalıdır.
5. Dilimizdə işlənən bir sıra sözlər var ki, dialekt xarakteri daşıyır, məsələn, bajı, qərdeş, məmə (ana mənasında), qaş (hündür və yaxud havanın qaralması mənasında) və s. sözlər natiqin nitqində özünə yer tapmamalıdır.
6. Natiq çətin anlaşılan ərəb, fars sözlərindən, həmçinin rus-Avropa mənşəli sözlərdən uzaq olmalıdır. Lüzumsuz sözləri nitqə gətirmək ədəbi dil normalarının pozulması deməkdir.

Nitqə hazırlaşarkən natiq ədəbi dilin özünəməxsus normalarına riayət etməlidir. Normativlik nitq üçün əsas şərtdir. Nitqdə normativlik pozularsa, ədəbi dildən danışmağa dəyməz. Hər bir natiq ədəbi dilin bütün normalarına riayət etməli və onlardan faydalanmalıdır. Bu normaları bir daha yada salmağı lazım bildik:

1. Fonetik normalar
2. Orfoepik normalar
3. Orfoqrafik normalar
4. Qrammatik normalar
5. Üslubi normalar

6. Semantik normalar

7. Leksik normalar

Bu normalar haqqında əvvəlki fəsillərdə ətraflı məlumat vermişik.

Qeyd edək ki, «ədəbi dilin normaları daimi deyildir. Bunlar dilin inkişafı ilə bağlı zaman keçdikcə dəyişir və zənginləşir. Müasir dövrün tələblərini ödəyə bilməyən normalar sıradan çıxır. Hər bir yeni ədəbi norma xalqın ruhuna uyğun yaradılır. Qeyd etdiyimiz bütün bu normalar şifahi ədəbi dilə aiddir.

Ədəbi dilin yazılı növü isə şifahi növdən xeyli sonra təşəkkül tapmışdır. Yazılı nitq şifahi nitqdən onunla fərqlənir ki, yazılı nitq dəqiqlik, səlislik tələb edir. Yazılı nitq müəyyən çərçivə daxilində inkişaf edir. Natiq nitqini yazarkən ədəbi dilə verilən tələbləri bilməlidir. Bu tələbləri təxminən belə qruplaşdıra bilərik:

1) Nitq yazılır və oxunur. Bu nitqi həm natiq, həm də başqa bir şəxs icra edə bilər.

2) Yazılı ədəbi dildə terminlərdən daha çox istifadə edilir.

3) Yazılı ədəbi dil elmi xarakter daşıyır.

4) Yazılı nitqdə əsasən mürəkkəb fikirlər və onların izahı, nitqə ayrılan vaxt çoxluğu, yığcamlıq əsas götürülür.

5) Yazılı nitqdə qrammatik normalara daha çox diqqət yetirilir.

6) Yazılı nitq şərh olunarkən durğu işarələri fikirlərin ifadəsinə xidmət edir.

7) Natiq yazılı nitqi hazırlayarkən mənbələrə, kitablara, mətbuata, məqalələrə və s. külliyyatlara tez-tez müraciət edir və sitatlar gətirir.

Natiq nitqini qurarkən həm yazılı, həm də şifahi ədəbi dil normalarından istifadə etməlidir. Nitqin qurulmasında və dinləyicilərə çatdırılmasında sadəlik, yığcamlıq, dəqiqlik də mühüm əhəmiyyətə malikdir. Nitqin sadəliyi onun aydınlığını, dəqiqliyi isə yığcamlığını təmin edir. Sadə və təmiz nitq dinləyicilərin səviyyəsinə uyğun qurulmalıdır. Yəni nitq hazırlanarkən auditoriyanın səviyyəsi hökmən nəzərə alınmalıdır. Bəzən natiqlər elmi mövzular hazırlayarkən terminlərin izahına çalışırlar, bu isə nitqin dəqiqliyini pozur. Bu müəyyən qədər nitqin təmizliyinə də xələl gətirir. Nitqi sadə, aydın, təmiz qurmaq üçün natiq bədii təsvir vasitələrindən və bədii ifadə vasitələrindən düzgün istifadə etməlidir.

Nitq mədəniyyəti termini, sözün geniş mənasında, yalnız gözəl və aydın danışmaq qabiliyyəti, nitqi düzgün və yaxşı qura bilmək bacarığı demək deyildir. Nitq mədəniyyəti, eyni zamanda məzmunlu, ifadəli, parlaq, orijinal, həm də maraqlı nitq qurmağı bacarmaq deməkdir. Buraya qədər deyilənlərə yekun vuracaq olsaq, aşağıdakı nəticəyə gəlmək mümkündür.

Bizim dilimiz zəngin, qüdrətli və rəngarəng bir dildir. Əgər danışan adamda ümumi mədəniyyət, bilik və hərtərəfli məlumat yoxdursa, o, təkcə dili bilməklə düzgün və səlis nitqə yiyələnə bilməz. Eyni zamanda dili

sevmədən, nitqə şüurlu münasibət bəsləmədən, dilçilik və üslubiyyat sahələrinə dair müəyyən məlumata malik olmadan ən düzgün, ən məntiqi fikirləri ifadə etmək mümkün olmaz.

Dilçilik nöqteyi-nəzərindən nitq mədəniyyəti, nitqin düzgünlüyü, yəni müasir ədəbi dilin normalarını bilməyi və ona möhkəm, həm də sərbəst yiyələnməyi nəzərdə tutur. O, nitqin üslubca gözəlliyini, yəni hazırda istifadə etdiyimiz üslublara əsaslanaraq, fikri ifadə edən dil vasitələrinin xüsusiyyətini nəzərə almalıdır.

Natiq çıxışında anlaşılmazlığa, ikimənalılığa, uzunçuluğa yol verməməli, nitqin mümkün qədər sadə, aydın və yığcamlığına çalışmalıdır. Natiqin sözü məzmunlu, ifadəli, səlis, obrazlı olmalıdır.

Nitq mədəniyyətinə yiyələnmək çox gərgin əmək tələb edir. Ona hazır reseptlə yiyələnmək olmaz; hər bir adam nitqini müstəqil surətdə, dilə şüurlu münasibət bəsləməklə inkişaf etdirə bilər.

Nitq ilə təfəkkür arasında əlaqə və qarşılıqlı bir asılılıq vardır. Dinləyici və oxuculara nitqin təkmilləşməsi zərurətini başa düşməkdə, onlara dilçilik məsələlərindən baş çıxarmaqda kömək etmək mühüm bir vəzifədir. Çünki «dilin təmizliyi, məna dəqiqliyi və onun kəskinliyi uğrunda mübarizə mədəniyyət silahı uğrunda aparılan mübarizədir. Bu silah nə qədər düzgün istiqamət alsa, bir o qədər qiymətli olar». (A.Abdullayev)

Deməli, nümunəvi nitqə verilən tələblər içərisində sadəlik, dəqiqlik, yığcamlıq mühüm rol oynamaqla bərabər, natiqdən bacarıq, təcrübə və istedad tələb edir. Çünki natiqin ən böyük müvəffəqiyyəti mövzunun ideyasını dinləyicilərə çatdırmaqdır.

İdeya nədir? Cavab belədir: obyektiv gerçəklik, həyat hadisəsi. Hər hansı bir predmet haqqında insanların təsəvvürü. Yaranan təsəvvürlərə insanların münasibəti. Bu münasibətləri əks etdirən fikir məcmusu. İdeya həmişə həyatdakı hadisələrdən doğur və inkişaf edir.

Natiqin dünyagörüşü, onun mövqeyi, nitqinin zənginliyi və ideya istiqaməti əsas meyardır. Natiq nitqində həyatı nə qədər gözəl təsvir edirsə etsin, ideya zəif olarsa, nitq dinləyiciləri razı salmır, Natiqin nitqi dolğun, inandırıcı, xalqın mənafeyinə xidmət edən ideyalarla zəngin olmalıdır. Natiq xalqın mənafeyinə xidmət edən qabaqcıl ideyaları təbliğ və tərənnüm etməlidir. Məsələn, Respublikamızın müstəqilliyi, dövlətçiliyimiz, söz azadlığı, işıqlı gələcəyimiz, torpağımızın bütövlüyü və digər mütərəqqi ideyalar nəzərdən yayına bilməz. Yeri gəldikdə bu ideyalar dinləyicilərə aşılanmalıdır. Bədii əsərdə olduğu kimi, nitqdə də müəllifin təsvir etdiyi hadisələr onun ifadə etdiyi fikirlərin məcmusudur. Əsas ideya da buradan doğur. Məsələn, tutaq ki, böyük Azərbaycan dramaturqu, nasiri, tənqidçisi, akademik M.İbrahimov «Böyük dayaq» əsərini yazarkən, qarşısına belə bir məqsəd qoymuşdur ki, xalqa arxalanmayan inadkarlıq göstərən, mənəm-mənəm deyənlərin axırı fəlakətlə qurtarır. Ona görə də şəxsiyyətəpərəstiş

dövrünün məhsulu olan bu əsər Rüstəm kişi ətrafında cərəyan edir. Özündən başqa heç kəslə razılaşmayan gənclərə, ağsaqqallara, əmək qabaqcıllarına, kəndin namuslu, düz adamlarına inanmayan Rüstəm kişinin aqibəti əsərdə çox gözəl və bədii boyalarla əks olunmuşdur. Yaltaqları, əliəyriləri ətrafına toplayan Rüstəm kişi əsərin finalında tək qalır və ətrafına topladığı bu yaramaz adamlar tərəfindən ölüm təhlükəsi ilə üz-üzə qalır. Böyük yazıçı əsərin adını da ideyası ilə bağlayır. Xalq qüvvəsini cəmiyyətin aparıcı qüvvəsi kimi təsvir edir. "Yalnız xalq kütlələrinə arxalanmaqla müvəffəqiyyət qazanmaq olar"- fikrini əsərin ideyası kimi tərənnüm edir. Öz günahını, səhv mövqeyini başa düşən Rüstəm kişinin xəstəxanada yatması səhnəsi ilə müəllif fikrini və əsərin ideyasını tamamlayır. «Bayırda isə gur yağış yağırdı, hər şeyi yuyub təmizləyən yağış». Bu cümlə ilə müəllif olub-keçənləri unutdurmaq istəyir. Yeni bir həyatın başlanğıcından xəbər verir.

Həyatı bədii boyalarla əks etdirən, realizm ənənəsini əsas götürən, dolğun süjetə malik olan belə əsərlər natiqlər üçün bir məktəb, örnək olmalıdır. Görkəmli yazıçı əsərdə əsas ideyadan əlavə, ana süjet xəttindən törəyən bir sıra hadisələri də təsvir edib, onlara surətlər vasitəsi ilə münasibətini bildirmişdir. Natiq nitqində nikbin, gələcəyə inamla baxan, yeni dünya quruculuğuna xas olan duyğuları, əməlləri əks etdirən ideyaları açıb göstərməlidir.

İdeya həyatda baş verən mürəkkəb ictimai ziddiyyətləri, natiqin apardığı müşahidələri, ümumiləşdirmələri konkret şəkildə əks etdirir. İdeyanı natiq nitqinin ruhu kimi qəbul etməlidir. Çünki ideya nitqin əsasını, canını təşkil edir. Natiq apardığı müşahidələri canlı, bədii təsvir vasitələri ilə işıqlandırır. Təsvir etdiyi və yaxud haqqında danışdığı hadisəyə öz münasibətini bildirir. Bu isə ideyanın özəyini, əsasını təşkil edir. «Böyük sənətkarların öz əsərlərində yürütdüyü ideyalar bəzən mürəkkəb bir xarakter daşıya bilər, əsərlərdə bir sıra ideyalar ifadə oluna bilər. Bu, əlbəttə mümkündür. Dünya ədəbiyyatının təcrübəsi bunu aydınca sübut edir. Lakin əsərin bir əsas ideyası ola bilər, qalan ideyalar isə yardımçı xarakter daşıyır və ədəbi əsərin birliyini mühafizə etmək üçün əsas ideyaya tabe olur, əsas ideyanın təzahür etməsinə yardım edir.

Bədii əsərdə əsas yardımçı ideyalar təbii olaraq, yalnız bədii şəkildə təzahür edir. Yəni ideya mücərrəd şəkildə deyil, fikir, hiss, həyəcan vasitəsi ilə tamamilə konkret şəkildə təzahür edir. Əsas ideya əsərin bütün ideya məzmununu birləşdirir, ümumiləşdirir, əsərin təlqin etdiyi fikir, hiss və həyəcanların birliyini təşkil və təmin edir» (M.Rəfili. "Ədəbiyyat nəzəriyyəsinə giriş").

Deməli, yaradıcı olan hər bir adam ideya anlayışına ciddi yanaşmalı və ondan məqsədinə nail olmaq üçün ustalıqla istifadə etməlidir. İdeya hadisələrin inkişafında, fikrin canlandırılmasında, müəllifin hadisəyə şəxsi münasibətini ifadə edən ədəbi termindir. İdeya natiq üçün zəngin və müxtəlif

bədii vasitələrdən istifadə edərək, həyata olan münasibətini daha canlı və ifadəli, daha təsirli və mənalı ifadə etmək üçün dəyərli, kəsərli silah olmalıdır.

Natiq onu da unutmamalıdır ki, nitqin ideyasını meydana çıxarmaq üçün nitqdə aparılan təhlillər, məzmunu aydınlaşdırmaq, predmetin səciyyələndirilməsi, fikrin mahiyyətini açmaq əsas şərtlərdən biridir. İdeya həyatın bütün sahələrini əhatə edir. İdeya həyat hadisələrindən, həyatda cərəyan edən hadisələrin inkişafı və fəaliyyətindən doğan, intişar edən idealdır. Bu, natiqin yaradıcılığında əsas xətt kimi keçməli və özünü göstərməlidir.

Nitqin qurulmasında natiqin özünün şəxsi üslubu olmalıdır. Üslub nitqlə sıx şəkildə bağlıdır. Hər hansı bir natiqin yaradıcılığına, dilinə, sözlərin seçilməsinə, işlənmə qaydalarına, təkrar edilən fikirlərinə, dünyagörüşünə xas olan ümumi bir anlayışdır. Fərdi üslubda bir natiqə məxsus xüsusiyyətlər, digər natiqdə olan xüsusiyyətlərdən fərqlənir. Nitqin ideyası, məzmun və forması, özünəməxsus bədii təsvir vasitələri, mövzunun əhatə dairəsi, ən əsası şifahi şərh olunması natiqin üslubunu nümayiş etdirir. Hətta, natiqin nitqində olan orijinal fikirlər, yeniliklər də onun şəxsi üslubudur.

Azərbaycan filologiyasında fərdi üslub anlayışını ifadə edən bir neçə termin işlədilir. «Fərdi deyim tərzi», «fərdi manera», «fərdi poetik üslub», «poetik fərdiyyət», «poetik səs», «öz səsi, öz nəfəsi» və s. İşlənən terminlər içərisində «fərdi üslub» daha əhatəlidir və geniş yayılıb, «Poetik dəsti-xətt»; «poetik fərdiyyət», «fərdi poetik üslub», «poetik səs» və s. terminlər daha çox şairin, yazıçının özünəməxsus cəhətlərini əks etdirir. Axı alimin, jurnalistin, natiqin də özünəməxsus ifadə tərzi vardır! Buna görə də «fərdi üslub» termini başqa terminlərdən məqbul sayılır. XVIII əsrdə yaşayıb-yaratmış fransız alimi J.L.Buffon 1753-cü ildə «Üsluba dair mulahizələr» adlı əsərini yazmışdır. Müəllif həmin əsərdə bu qənaətə gəlmişdir ki, «Üslub eyni ilə insandır!» Həmin fikir get-gedə aforizmə çevrilmiş, həm Qərb, həm də Şərq ölkələrində geniş yayılmışdır. XX əsrin əvvəllərində bu nəzəriyyə bizim ədəbiyyatımızda da öz əksini tapmışdır».

Deməli, hər kəsin özünə məxsus nitqi var. İnsanlar bir-birinə oxşamadığı kimi (onların səsi də, bədən quruluşu da, boyu da, üzü də, dünyagörüşü də, müşahidələri də və s), nitqləri də biri-birindən fərqlənir. Hər bir natiqin özünəməxsus fikri, ifadə tərzi ən əsası isə emosionallığı və məntiqi ardıcıllığı olmalıdır. Ümumiyyətlə, natiqlər nitqlərini qurarkən iki əsas cəhətə üstünlük verirlər:

1) Bəzi natiqlər nitqlərində məntiqi ardıcıllığı, aydınlığı, elmiliyi, fikir dərinliyini, ahəngdarlığı üstün tutur.

2) Bəzi natiqlər isə obrazlılığı, emosionallığı, yığcamlılığı əsas götürür. Adətən, birinci prinsipə daha çox üstünlük verilir. İctimai yerlərdə -

idarələrdə, təhsil müəssisələrində, iclas və müşavirələrdə belə nitqlər diqqətimizi cəlb edir, Təcrübəli natiqlər çıxışlarında məntiqi ardıcıllığa üstünlük verir və dinləyicilərdə mövzuya güclü maraq oyadırlar.

Fərdi üslub haqqında mülahizələrini oxucularla bölüşən mərhum professor A.Abdullayev yazır:

«Nitqini təkmilləşdirmək istəyən hər adam oz qarşısında üç vəzifə qoymalıdır:

1. Nitqimin güclü və üstün tərəfləri hansılardır? Bunu aydınlaşdırmalı.
2. Nitqimin nöqsanları nədən ibarətdir?
3. Hansı yollarla birincini qüvvətləndirmək və ikincini zəiflətmək olar?

Nitqlərin əksəriyyəti məntiqi növə aid olduğundan və başqa nitqlərdə də mövzunun məntiqi cəhətdən aydınlaşdırılması böyük rol oynadığından, şifahi nitqin bu cəhəti üzərində bir qədər dayanmaq lazımdır.

Fikrimizcə, həmin məsələnin böyük əhəmiyyətini nəzərə alaraq, ali təhsil ocaqlarında olduğu kimi, orta məktəbin yuxarı siniflərində, pedaqoji məktəblərdə də «Nitq mədəniyyəti və üslubiyyat» fənni üzrə xüsusi kurs yaratmaq lazımdır».

İkinci prinsipi əsas tutan natiqlər əsasən müəllimlərdir. Xüsusilə dil-ədəbiyyat müəllimləri nitqlərində obrazlılığa, emosionallığa daha çox fikir verirlər.

Fərdi üslub natiqin danışıq tərzini, dil qabiliyyətini, sözə yanaşmasını, ifadə vasitəsini, şəxsi mühakiməsini, mülahizəsini əks etdirir. Fərdi üslub yazılan məqalələrin, kitabların, elmi işlərin, bədii əsərlərin orijinallığını təmin edir, onların bir-birindən fərqli xüsusiyyətlərini oxucuya çatdırır.

Natiq nitqində öz üslubi imkanlarını nümayiş etdirir. Fərdi üslub olmasa, natiqlərin, yazıçıların, alimlər və ümumiyyətlə elmin bütün sahələrində fəaliyyət göstərən ziyalıların fikri bir-birinə qarışar, elmdə bir hərc-mərclik yaranar. Fərdi üslub insanların öz dili, elmi, dünyagörüşü, fikri, zəkası, ağlı, müşahidəsi və mülahizəsi ilə sıx bağlıdır.

Natiq əməyinin əsas mərhələlərindən biri də onun çıxış edəcəyi auditoriya ilə yaxından tanış olması, onlarla əlaqə saxlamasıdır. Natiq heç vaxt təcrübəsinə və biliyinə arxalanmamalıdır. İmkanı olan kimi mütaliə ilə məşğul olmalıdır. Natiq nitqə hazırlaşarkən müşahidə apardığı mövzu əsasında (yazıya köcürülməmiş) özlüyündə təhlillər aparmalı, fikirləri dəfələrlə nəzərdən keçirməli, plan tərtib etməli, mətn üzərində redaktə aparmalı, sonra auditoriyaya daxil olmalıdır.

Natiq əməyinin əsas mərhələlərindən biri də budur ki, o, auditoriya qarşısına çıxmamış dəfələrlə mətn üzərində redaktə işi aparmalıdır. Bu, əsasən, gənc natiqlərə aiddir. Bəzən gənc natiqlər nitqi hazırlayarkən tələsir, sözlərin mənasına fikir vermir, ya da buraxdıqları səhvi düzəltməyə çalışırlar. Xalq şairi Süleyman Rüstəmə istinad edən M.Əsgərov yazır: «Səmədağa Ağamalı oğlu Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri

vəzifəsində çalışarkən, yanına gələn gənclərə belə tövsiyələr verirdi. «Sözlərimi cavan yazanlara çatdırarsan. Cavanlar bizim gələcəyimizdir, ümidimizdir, çalışın həmişə xalq içində olun, onun istədiyini yazın, elə yaxşı yazıçılarımız var ki, əsərlərini oxuyub heyfslənirsən ki, niyə elin başa düşəcəyi ana dilində yazmırlar. Biz nə farsıq, nə ərəb, özümüzün təmiz, gözəl ana dilimiz var. Ruhulla (Ruhulla Axundov nəzərdə tutulur - A.R.) dilimizin saflığı üçün böyük əmək sərf etmişdir. Dilimizi ərəb, fars, osmanlı sözlərindən təmizləmək uğrunda əlindən gələni əsirgəməmişdir. Yadımdadır, fəhlə klubunda ilk gənclik şeirlərimdən birini oxudum. Salondakılar məni yaxşı qarşıladı. Şerin son beyti belə idi:

Sarsıtmaz varlığını quduz tufan, qasırğa,
Annə, bu sözlər olsun qulaqlarımda sırğa.

Bu dəmdə Ruhulla ayağa qalxıb gülə-gülə mənə dedi:

- Bu da bizim ümid bəslədiyimiz proletar şairimiz. Sözə bax, annə, qasırğamı yapiyorsan, balam - anamıza, «annə» yox, öz dilimizdə ana desək, qiyamət qopar?... Bax, bu axırıncı olsun.

Salondakılar Ruhullanın bu sözlərini alqışladı. Mən pərtlikdən qızardım. Sonralar Ruhulla hər məni görəndə gülə-gülə soruşardı:

- Daha qasırğa yapmiyorsan ki?.

Beləliklə, inqilabın yüksəliş illərində, Azərbaycanda sovet hakimiyyətinin qələbəsi naminə aparılan mübarizələr mərhələsində və bu qələbənin ilk dövrlərində inqilabçı nəsil natiqlik sənəti və məharəti sahəsində böyük təcrübə əldə edir».

Deməli, natiqlik sənətində hər bir sözün işlənmə yeri, məqamı gözlənilməlidir. Məhz, belə olduqda natiq geniş xalq kütləsinin ürəyinə yol tapır, xalqın sevimlisinə çevrilir.

Söylənilən nitqin təsir qüvvəsini, mənasını dinləyicilərə daha yaxşı çatdırmaq üçün natiqin davranışı da az rol oynamır. Natiq nitqini şərh edərkən özünü elə aparmalıdır ki, onun sözü ilə əməli düz gəlsin. Yersiz öskürmələr, boğaz arıtlamaq, məncə, doğrudan, belə ki, deməli, filan, nəhayət və s. sözlərdən tez-tez istifadə etmək onun söz ehtiyatının zəifliyindən xəbər verir. Hətta bəzi natiqlər nitqi şərh edən zaman gözlərini kağızdan çəkə bilmir, bu da öz növbəsində nitqin təsir qüvvəsini nəinki azaldır, bəlkə də anlaşılmaz bir söz yığnağına çevirir. Natiqin ən yüksək mədəniyyəti odur ki, o, həm özünə, həm də qarşıdakı dinləyicilərə böyük hörmət göstərib nitqi başa düşdüyü şəkildə, öz sözləri ilə sadə, aydın, düzgün şəkildə şərh etsin. Belə olduqda, dinləyicilərlə öz arasında möhkəm bir əlaqə, bir növ, körpü yaradan natiq auditoriyanı ələ alır və istədiyinə nail olur. Mövzunun ideyasını dinləyicilərə təlqin edir.

Natiqin mədəniyyəti onun nitqi ilə ölçülür. Hər bir natiq nitqi hazırlayıb şərh edərkən öz xarakterini yazıya köçürür. Hətta, bəzən əsəbi adamların nitqində hövsələsizlik, tələskənlik özünü biruzə verir. Odur ki, natiq nitq söylərkən nitqə verilən tələblərdən səmərəli istifadə etməyi bacarmalıdır.

Natiqlikdə əsas amillərdən biri də danışanın səsidir. Natiq səs tembrindən düzgün istifadə etməyi bacarmalıdır. Bəzi natiqlər nitq söylərkən ucadan danışmağı üstün tutur. Nəticədə nitqin sonuna qədər boğazları quruyur, onları tər basır, həm özlərini, həm də dinləyiciləri yorub əldən salırlar. Bu, danışanın ən uğursuz cəhətidir. Natiq öz məharətini, yüksək mədəniyyətini məhz, səsi vasitəsi ilə bildirməlidir. Bəzən də əksinə, böyük auditoriya qarşısında çıxış edən natiq aşağı tonda danışır. Bu dinləyicilərin zövqlərini oxşamır. Yəni, auditoriyanın qabaqda oturan dinləyiciləri nitqi eşidir, arxadakılar isə yalnız nitqin nə vaxt qurtaracağını gözləyirlər. Natiq elə etməlidir ki, səsi bütün auditoriyanı təmin etsin, səsinin ahəngdarlığı, musiqililiyi, gözəlliyi səslənməsi dinləyiciləri valeh etsin. Yeri gəldikcə səsin tonunu yüksəltməli, aşağı tondan məharətlə istifadə olunmalıdır. Natiq səsinin tonuna uyğun olaraq mimikasını, duruşunu da nizamlamalıdır. Bu əlamətlər natiqin əldə etdiyi müvəffəqiyyətlərdəndir.

Natiqin xarici görkəmi də diqqətəlayiq olmalıdır. Natiq görkəmi ilə, səliqəsi, mədəni səviyyəsi ilə dinləyicinin diqqətini cəlb etməlidir. Çünki dinləyicilər natiqlə əlaqə yaratmamış onun xarici görkəmi ilə müəyyən təsəvvür əldə etməyə nail olur. Əgər natiq təsəvvürü (nitq başlanmamış) müsbət mənada doğruldursa, yəni gözəl davranışı ilə diqqəti cəlb edirsə, şübhəsiz ki, ilk anlarda auditoriya ilə ünsiyyət yarada biləcəkdir. Belə halda dinləyicilərin natiqi sakitliklə dinləməsi, nitqə maraqla qulaq asmaları imkan yaradır ki, natiq bütün ustalığını, bacarığını və təcrübəsini nümayiş etdirsin. Natiq xarici görkəmini elə etməlidir ki, o, dinləyicilərdə gülüş doğurmasın. Məsələn, həddindən artıq bər-bəzəyə meyl eləmək, əlini başına çəkmək, üzünə sığal çəkmək, burnunu çəkmək, tez-tez öskürmə və s. natiqə yad olmalıdır. Bəzən üzdən kobud görünən, simaları xoş təsir bağışlamayan natiqlərlə də rastlaşırıq. Dinləyicilərdə ilk baxışda mənfi emosiyalar yaradan belə natiqlər çox zaman sənətinin ustası kimi yüksək səviyyəli çıxış edir və onun haqqında olan mənfi təəssüratları alt-üst edir. O, nitqin sonunda dinləyicilərin hüsn-rəğbətini qazanır. Deməli, dərin düşüncə, ağıl, kamal, gözəl dil qabiliyyəti insanı gözəlləşdirir, mədəniyyətini, səviyyəsini artırır və onu insanların sevimlisinə çevirir.

Bəzi natiqlər isə rəsmi olmağı daha üstün tuturlar. Onlar nitqi şərh edərkən ciddi olmağa meyl göstərirlər. Tutaq ki, nitqin mövzusu M.F.Axundovun «Hacı Qara» komediyasıdır. Bu zaman natiq odla su arasında qalır. Gülüş, yoxsa ciddiyyət. Hansını qəbul etsin. Hökmən gülüşü. Çünki gülüş olan yerdə rəsmi danışmaq yersizdir. Natiq bunu yadda

saxlamalıdır ki, onun ən böyük qələbəsi auditoriya ilə xoş əhval-ruhiyyə yaratmaqdır.

Bəzən gənc natiqlər nitq zamanı özlərini aparmaq qaydasını tamam unudur. Sanki dinləyicilərdən utanır, sıxılır, həyəcanlanır, deməyə söz tapmırlar. Belə olan təqdirdə natiq gözlərini bir nöqtəyə zilləyib dinləyicilərə məhəl qoymadan danışır. Dinləyicilərlə əlaqə yaratmaq, onlarda maraq oyatmaq natiqin heç ağlına belə gəlmir. Belə nitqdə səs tembri, sürət avtomatik olaraq pozulur. Nitqini tez qurtarıb auditoriyanı tərk etməyə çalışan natiq müvəffəqiyyətin ləzzətini dadmağı qarşısına məqsəd kimi qoymur. Belə natiqlər auditoriyanı diqqət mərkəzində saxlaya bilmir, dinləyicilərə nəzarət kənarda qalır.

Belə natiqlər nitq söyləyərkən dinləyiciləri ozünə tərəfmüqabil edə bilmir. Ona görə də dinləyiciləri özünə cəlb edə bilmir.

Natiqin davranış qaydaları sırasına daxil olan məsələlərdən biri də nitq söyləyəcəyi yerlə ilk tanışlığıdır. Yəni natiq harada çıxış edəcəyi yeri əvvəlcədən müəyyən etməlidir. Hətta imkan varsa, lap auditoriyaya getməli və oradakı şəraitlə tanış olmalıdır. Zalda və ya auditoriyada nə qədər dinləyici iştirak edəcək? Audtoriyanın həcmi nə qədərdir? Auditoriyada mikrofon var, ya yox? Natiq üçün harada yer ayrılıb (öndə, ortada, yoxsa zalın qıraq hissəsində)? Bütün bunları natiq nəzərdən keçirəndən sonra şəraitə uyğun şəkildə hərəkət etməlidir. Nitqini şərh edərkən imkan varsa, əyani vəsaitdən, şəkillərdən, çertyojlardan istifadə etməlidir. hətta, mikrofonun sazlığını da yoxlamağı natiq yaddan çıxarmamalıdır.

Bəzən elə olur ki, hər hansı bir yığıncaqla, yubileylə, hadisə ilə əlaqədar natiq aşağıda, zalda oturur. Yığıncağı başqa bir rəhbər vəzifəli şəxs aparır. Sonra sözü natiqə verir. Bu vaxt natiq zalın axırında oturmamalıdır. İmkan daxilində tribunaya yaxın bir yerdə əyləşməlidir. Ona söz verilərkən dinləyicilərin fikrinin yayınmaması üçün vaxtında tribunaya çıxmalı və aramla nitqə başlamalıdır. Sonra isə nitq prosesində sürəti nizama salmalı, konspekti və ya nitqin yazılı formasını səliqə ilə tribunada yerbəyer etməlidir. Yoxsa, nitqi başlamamış ciblərini axtarmaq, gözlük çıxarmaq, qalstuk düzəltmək, alnının tərini silmək, dərindən bir ah çəkmək, sonra isə nitqə başlamaq nitq mədəniyyətinin tələblərinə və natiqin davranış qaydalarına zidd hərəkət kimi qiymətləndirilməlidir.

Natiq tribunada özünə ciddi bir yer tutmayınca nitqə başlamamalıdır. Sonra nitqini saxlayıb özünə münasib yer axtarmağa məcbur olacaq. Məsələn, işığın düşmə səmtini, xitabət kürsüsünün lazımi yerində konspektini yerləşdirməyi, əgər vaxtla çıxış edirsə, saatını səliqə ilə qoyub sonrakı mərhələyə başlamalıdır. Natiq nitqini şərh edərkən tribunaya söykənməməlidir. Bəzi natiqlər iki əli ilə tribunadan yapışıb nitqini şərh edir. Bunu bəzi natiqlər bilərəkdən, bəziləri isə bilmədən edir. Bəzi natiqlər isə tərtib etdiyi konspekti, planı dinləyicilərdən gizlətməyə çalışır. Lakin natiq

başa düşmür ki, onun bu hərəkəti auditoriya ilə onun arasında bir sədd yaradır. Əksinə, natiq konspektdən və ya tərtib etdiyi plandan açıq şəkildə istifadə etsə, bu daha məqsədəuyğun olar. Belə olan halda natiq çıxış edərkən daha sərbəst hərəkət edər. Təcrübə və araşdırmalar sübut edir ki, öz işinin mahir ustası olan natiqlər çıxış edərkən ara-bir tribunanı tərk edir, auditoriyanın arasında durub nitqlərini davam etdirirlər. Sonra isə tədricən, yavaş - yavaş yerinə qayıdır və nitqini şərh edirlər. Bəzən mütəxəssislər bunu natiqə nöqsan tutur. Lakin onu yaddan çıxarırlar ki, natiqin bu priyomu audtoriyanı ələ almaq, onlarla əlaqə yaratmaq, bir növ onları söhbətə cəlb etmək naminədir. Bu, adətən, böyük auditoriyalarda daha çox müşahidə olunur. Bu zaman natiq auditoriyanın hansı tərəfində daha çox narahatlıq varsa, o hissəni nəzarət altına alır. Dinləyicilərin diqqətini nitqə cəlb etməyənə qədər həmin yeri tərk etmir. Bu hal, əsasən, təcrübəsiz müəllimlərlə tələbələr arasında daha çox müşahidə olunur. Təcrübəsiz müəllim auditoriyanı idarə edə bilmir, çətinlik çəkir, psixoloji cəhətdən hazırlıqsız olduğunu büruzə verir. Tələbə isə əksinə, səs salmağı, yersiz replikaları, gülüşləri yağış kimi müəllimin üstünə yağdırır, özünü bu «oyunun» qalibi hesab edir. Hətta belə hadisələrə psixoloji cəhətdən hazır olmayan müəllim auditoriyanı tərk etməyə məcbur olur. Belə hallarda müəllimin imkanlarını məhdudlaşdıran tribuna lazımsız əşyaya çevrilir. Müəllim audtoriyanın, zalın müəyyən hissəsində yerini dəyişə-dəyişə dinləyiciləri idarə etməlidir. Başqa çıxış yolunu müəyyən edə bilməyən müəllim, tezliklə narahatlıq yaradan hissə ilə əlaqə yaradıb, onları ünsiyyətə cəlb etməlidir. Yeri gələrsə, bir neçə dəqiqə nitqdən kənara çıxıb, müəyyən bir tərbiyəvi mövzuya əl atmaqla dinləyicilərin diqqətini mövzuya cəlb etməlidir. Müəllim tərbiyəvi mövzunu ümumi halda şərh etməlidir. Məsələn, o qeyd edir: son dövrlərdə bizim gənclər üçün təlim-tərbiyə ocaqları, idman kompleksləri, gələcək nəsillərin dünyagörüşünü artıran informasiya mərkəzləri və s. şəraitlər yaradılır. Bəzi gənclər bunlardan səmərəli istifadə edir, bəziləri isə buna laqeydliklə yanaşır. Onu da qeyd edək ki, hər bir uşaq, gənc hər hansı bir ailənin üzvüdür, həmin ailəni təmsil edir. Yəni uşaq ailənin güzgüsüdür, onu olduğu kimi əks etdirir. Əgər o, mədəni, bir-birinə hörmət etməyi bacaran bir ailədə böyüyüb tərbiyə almışsa, özünü aparmaq qaydalarını da çox gözəl bilir. Belə uşaqlar həm də yüksək savada, mədəniyyətə malik olurlar. Kimin savadı varsa, onun mədəniyyəti, qanacağı da var. Belə adamlar özünü çox gözəl aparır, dərslərini yazır və oxuyurlar. Özünü apara bilməyən uşaq, yeniyetmə həm ailəyə, həm də qohum-qardaşa əngəldirlər. Özünü, sözünü, danışığını bilməyən şagirdlərə müəllim Mücirəddin Beyləqaninin yaradıcılığından bir parçanı misal gətirir:

Bir sıra anlamaz azğınlar da var.

Qohuma eyibdir, məhəlləyə ar...
Onların səsindən qulaqlar dəngdir.
Ancaq ki, dərmansız boş bir həvəngdir...
Uzun dilləri şam kimi gerçək,
Lakin dedikləri məna da pəltək.

Bu misallardan sonra müəllim birbaşa nitqin davamını şərh etməyə başlayır. Bu mövzunun yaratdığı sakitlikdən sonra öz məharətini tam səfərbərliyə alıb nitqi yüksək səviyyədə davam etdirmək olar. Yaranan əlaqəni, ünsiyyəti bir növ «dostluğa» çevirib, hətta bəzən yersiz hərəkətlərə, replikalara da ciddi yanaşmamalı və belə vəziyyətləri yalnız yüngül gülüşlə qəbul etməlidir. Bu natiqin davranış qaydalarının əvəz olunmaz bir qaydasıdır.

Natiqin davranış qaydalarında əsas amillərdən biri də əl-qol hərəkətlərindən düzgün istifadə edilməsidir. Bəzi natiqlər nitqlərinə uyğun gəlməyən, məzmuna uyuşmayan, daxili aləmdən gələn səslə qovuşmayan yersiz hərəkətlərdən istifadə edirlər. Sonra dinləyicilərin verdiyi reaksiya ilə müəyyən edirlər ki, yalandan, boş yerə gurultulu sözlərlə çıxış edir, əl çalmaq xatirinə danışır. Məsələn, zavodda, məktəbdə, ictimai yerlərdə «yaşasın zavodlarımız arasında olan dostluq əlaqələri», «yaşasın zavodumuzun beynəlmiləlçiliyi», «sizi həmişə gülərüz görüm», «əlləriniz var olsun», «pis adamlara bizim aramızda yer yoxdur» və s. kimi lazımsız söz birləşmələrini ironiya ilə tələffüz edən natiq bu dırnaqarası kəlamları əllərini havada oynada-oynada, qışqıraraq dinləyicilərə çatdırır. Nəticədə isə yalnız səs telləri korlanır, səsi batır, onu tər basır, ağzı quruyur. Sonra qarşısına çıxan hər bir kəsdən soruşur. «Necə çıxış etdim?» «Hamı sakit dayanıb mənə diqqətlə qulaq asırdı?» «Fikirlərim aydın idi?» «Rəhbərlik çıxışa diqqətlə qulaq asırdı?» və s. kimi inamsız suallarda özünü təhlil etməyə başlayır. Belə ümidsiz suallar natiqə inamsızlıq aşılayır. Onun inkişafına mane olur. Natiq hər şeydən əvvəl yadda saxlamalıdır ki, onun hərəkəti təbii olmalıdır. Kimisə təqlid etmək, özünü kiməsə oxşatmaq, səsin tembrini dəyişmək nitqə bayağılıq, sünilik gətirir. Bunu natiqin özü də hiss edir. Natiqin jesti nə qədər təbii olarsa, fikri bir o qədər dəqiq, sərrast və əyani olar. Çünki jest natiqin fikirlərinin hərəkətlə təsdiqi deməkdir. Natiqin jestləri də ondan asılı olmayaraq dinləyicilərlə əlaqə yaradır, danışır, fikir aşılayır. Bəzi natiqlər çıxış edərkən dinləyiciləri özü ilə birlikdə kədərləndirir, onları göz yaşı tökməyə sövq edir. Tutaq ki, natiq "Qanlı Yanvar" hadisələrindən danışır. O, nitqində, səsində, duruşunda, üzünün mimikasında kədərləndiyini bildirir. Həmin anları dinləyicilərlə birgə yaşayır. Vətən uğrunda axıdılan günahsız qanlar dinləyiciləri sarsıdır, onların daxili aləmini bir kədər bürüyür. Natiq isə nitqi şərh edərkən əl-qol hərəkətlərindən istifadə etmir, sanki mimikası ilə dinləyicilərlə danışır,

onların dərdlərinə şərik olur. Bu, natiqdən ustalıq, əsil istedad tələb edir. «İnsanlar əlləri vasitəsilə yalnız balta tutmur, ev tikmir, iş görmür, həm də əlləri vasitəsilə dostlarını salamlayırlar, düşmənlərini hədələyirlər, hər hansı varlığı nəvazişlə oxşayırlar. Axı sözlərlə birləşən jestlər nitqin emosional səslənməsini daha da qüvvətləndirərək ünsiyyət vasitəsinə çevrilir. Təsvir əsnasında və ya təqlid xatirinə, müəyyən səmti, yeri, hərəkəti göstərərkən, jestlər ifadələrə lazımi aydınlıq gətirir. Bundan əlavə, jestlər natiqin yaradıcı qüdrətinin fiziki ifadəsi kimi də qiymətlidir, dinləyicilər natiqin belə jestlərini çox diqqətlə izləyir və xoşlayırlar. Natiq fikirlərini başqalarına çatdırarkən, hisslərini müşayiət edən belə fiziki hərəkətlərindən razı qadır. Bundan əlavə natiqin pozasında (duruşunda) ahəngdarlıq əmələ gəlməsinə kömək edir. Natiq jestlərin müxtəlif şəkillərindən istifadə edə bilər. Məsələn, ifadəli jestlər daha çox geniş şəkildə işlənir və tətbiq olunur. Bu jestlər nitqin ən qüvvəli məqamlarını müşayiət edir. Məsələn, natiq dinləyicilərə iki müxtəlif kitabın həcmi barəsində əlləri ilə məlumat verərkən, jestdən təsvir məqsədilə istifadə edir. Həmçinin tərəqqi və tənəzzülün baş verməsini əllərinin sürəti ilə dinləyicilərə daha yaxşı çatdıra bilir. Jestlərin ən sadə növü (şəkli) olan göstərici jest əllər və barmaqlar vasitəsilə hər hansı bir əşyaya işarə олуһур.

… Natiqlər yeri gəldikcə təqlidi jestlərdən də istifadə edirlər. Çünki natiq də bəzi hərəkətləri ilə aktyoru xatırladır. Lakin natiq özünün xarici mimika priyomlarına və səs təqlidinə ancaq yüngül ştrixlər şəklində müraciət etməsi ilə aktyordan fərqlənir.

Natiqin davranış qaydalarından biri də sərbəst, rəvan danışmağıdır. Həm də sözə verdiyi qiymətdir. Natiq bunu yaxşı yadda saxlamalıdır ki, cümlədə işlətdiyi hər bir söz fikrin ifadəsinə yeni bir şey əlavə edir. Əgər bu tendensiya özünü doğrultmursa, deməli, fikir yersiz, əsassız görünəcək. Natiq nitqini qurarkən yalnız bir şeyi fikirləşməlidir: bu kollektiv üçün hazırlanır. Ona görə də kollektivə hörmət etmək hər bir natiqin borcudur. Sözlərə, ifadələrə, cümlələrə qayğı ilə yanaşmaq kollektivə və birinci növbədə natiqin özünə böyük hörmət gətirir. Buna görə də natiqin xüsusi lüğətləri olmalıdır. O, bu lüğətlərdən səmərəli şəkildə istifadə etməlidir. Bəzi natiqlər çıxış edərkən sözlərin sinonimlərini yerli-yerində işlədə bilmir. Hətta sinonim sözlərlə dubleti bir-birindən ayıra bilmirlər. Nəticədə, nitqləri qüsurlu və sönük görünür. Natiq onu bilməlidir ki, sinonimlər nitqdə təkrarın qarşısını alır, ona rəngarənglik gətirir, yeni məna çaları yaradır. Sinonimlər natiqin dilinə çeviklik gətirir, fikrin obrazlı ifadə olunmasına xidmət edir. Məsələn, böyük söz ustadı Səməd Vurğun sinonimlərdən məharətlə istifadə etmişdir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.

Anam doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

Bu bənddə müəllif «vətən» anlayışı ilə bərabər, yurd, yuva, məskən sözlərini işlədib fikrini xüsusiləşdirdikdən sonra Azərbaycanla bağlayıb. Əsl istedad budur.

Natiq də belə misraları qeyd etməli və yerli-yerində işlətməlidir.

NATİQLİK SƏNƏTİ

Nitqi mövcud ədəbi normalara uyğun (düzgün) olmaqla yanaşı, həm də dəqiq və gözəl (ifadəli) olan adamlar natiq adlanırlar. Natiqlik müəyyən peşəkarlıq tələb edən sənətdir.

Natiqlik sənəti dedikdə, hər şeydən əvvəl, professional fəaliyyət sahəsi başa düşülür, ikincisi isə həmin fəaliyyət sahəsindən danışan elm (buna ritorika da deyilir) nəzərdə tutulur.

Natiqlik sənətinin əsas tələbləri aşağıdakılardan ibarətdir:

1. Düzgün, dəqiq və gözəl (ifadəli) danışmaq;
2. Auditoriyanın səviyyəsini, xarakterini nəzərə almaq, yəni auditoriya üçün anlaşıqlı olmaq;
3. Nitqin informasiyasına, ritminə fikir vermək, həmin intonasiyanın, ritmin tələblərinə uyğun bədən, baş və əl-qol hərəkətləri etmək;
4. Mümkün qədər yığcam danışmaq, mətləbdən uzaqlaşaraq, dinləyiciləri yormamaq;
5. Nitqə (çıxışa, mühazirəyə və s.) əvvəlcədən hazırlaşmaq, sonra isə təhlil edib konkret nəticələr çıxarmaq.

Natiqlik həm bir sənət, həm də bir elm kimi çoxdan formalaşmışdır. Qədim dünyanın, xüsusilə, antik dövrün yetirdiyi görkəmli natiqlər natiqliyin praktikası ilə məşğul olmaqla yanaşı, bütöv bir elmi-nəzəri sistem hazırlamışlar. Platon (Əflatun), Aristotel (Ərəstun), Demofsen, Siseron və s. antik natiqliyin ən görkəmli nümayəndələri olmuşlar.

Azərbaycanın tarixi boyu böyük natiqləri fəaliyyət göstərmişlər: Xətib Təbrizi, Nizami Gəncəvi, İmaməddin Nəsimi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, Nəriman Nərimanov, Məmmədəmin Rəsulzadə, Səməd Vurğun, Mikayıl Rəfili, Əli Sultanlı, İsmayıl Şıxlı, Şıxəli Qurbanov.

Eyni zamanda Azərbaycanda əsrlər boyu natiqliyin nəzəriyyəsi ilə məşğul olmuş, bir sıra mükəmməl nitq prinsipləri müəyyənləşdirilmişdir.

Natiqliyin aşağıdakı sahələri mövcuddur:

1. Bədii natiqlik;
2. Akademik natiqlik;
3. Siyasi natiqlik;
4. İnzibati-idarə natiqliyi;
5. İşgüzar natiqlik.

■**Tapşırıq.** *Aşağıdakı nitq mətnini öyrənin.*

Hörmətli dostlar! Sizdən nə qədər xoş sözlər eşitsəm də əlbəttə, bu sözlərə görə minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, 70 yaş ömrün

qürub çağıdır və illər boyu qəlbimizi didən sözləri bu gün də deməyib, bəs haçan deyəcəyik?

Azərbaycanın başına bəlaların gəlməsinə səbəb həmişə sapı özümüzdən olan baltalar olubdur. Mənim bu barədə xalq əfsanəsi əsasında yazılmış bir hekayəm də var və yəqin ki, oxumusunuz… Əgər sapı özümüzdən olan baltalar olmasaydı, heç bir xarici düşmən millətimizin üstünə ayaq açmağa cəsarət etməzdi.

(*İsmayıl Şıxlı, öz 70 illiyi münasibətilə keçirilmiş yığıncaqdakı çıxışından*)

■**Tapşırıq.** *Nəriman Nərimanovun, ya da Məmmədəmin Rəsulzadənin məşhur nitqlərindən birini tapıb oxuyun, nitq mədəniyyətinin tələblərinə necə əməl olunduğuna, natiqlik sənətinin imkanlarından necə istifadə edildiyinə diqqət yetirin, nümunələr gətirib sərh edin.*

■**Tapşırıq.** *Mətni oxuyun, nitqin düzgünlüyünə, dəqiqliyinə və ifadəliliyinə aid misallar göstərin.*

Əziz tələbələr!

Bugünkü söhbətimiz türk xalqlarının qədim tarixi barədədir.

Türklərin ilk vətəninin hara olması mübahisəlidır, araşdırıcıların əksəriyyəti həmin vətəni Ön Asiyada axtarırlar. Güman olunur ki, türk xalqlarının ulu babaları təxminən e.ə. V minillikdə Ön Asiyada - Urmiya gölünün Cənub sahillərində yaşamış, böyük mədəniyyət yaratmışlar.

E.ə. III-II minilliklərdə türk xalqlarının ulu babaları, yaxud protoaltaylar Şimal-Şərq istiqamətində hərəkət edib Mərkəzi Asiyaya yayılmış və burada bir sıra dövlətlər qurmuşlar: Turan və ya Sak, Altay imperiyaları barədə tarixi mənbələrdə geniş məlumatlara rast gəlirik.

Əziz tələbələr! Tarixini daha yaxşı bildiyimiz türk dövlətlərindən biri də Hun dövləti, yaxud imperiyasıdır ki, e.ə. I minilliyin ortalarından bizim eranın V əsrinə qədər mövcud olmuşdur. Hun imperiyasının sərhədləri müəyyən dövrlərdə Altaydan Avropanın şərqinədək uzanıb gedirdi.

Türk xalqları tarixinin qədim dövrünü tədqiqatçılar o qədər də dərindən öyrənməmişlər, bu da bir sıra məsələlərin bu gün tam aydınlığı ilə şərhinə imkan vermir, ancaq biz fəxr edə bilərik ki, bizim ulu babalarımız tarixdə çox böyük rol oynamış, dünya mədəniyyətinin inkişafında mühüm işlər görmüşlər.

■**Tapşırıq.** *Bu nitqi natiqliyin hansı növünə aid etmək olar?*

Natiqlik sənətinin mühüm şərtlərindən biri əl-qol hərəkətlərindən - "jestlərdən" nitqin intonasiyasına, ritminə uyğun şəkildə istifadə etməkdir. Jestlər nitqin təsirliliyini artırır, ona emosional güc verir.

Ancaq əl-qol hərəkətlərindən çox istifadə etmək yeri gəldi-gəlmədi əl-qol atmaq, nəticə etibarilə nitqin təsirliliyini artırmaq əvəzinə, azalda bilər. Ona görə də görkəmli nıtq ustaları hər bir jesti ölçüb-biçir və onlardan yerli-yerində istifadə etməyə çalışırlar.

Bütün natiqlərin eyni jest sistemindən faydalanması mümkün deyil. Adətən, hər bir görkəmli natiqin özünəməxsus jest üslubu olur.

■**Tapşırıq.** *Asağıdakı nitq mətnini müvafiq jestlərlə müşayiət etməklə ucadan oxuyun.*

Cənablar! Mən Sizın nəzərinizə çaldırıram ki, Azərbaycan qədim mədəniyyət ölkəsidir, Azərbaycan xalqı isə yüksək mədəniyyətə malik bir xalqdır. Biz qonşu dövlətlərlə müasir beynəlxalq tələblərə uyğun əlaqələr qurmaq tərəfdarıyıq, heç kimin torpağında gözümüz yoxdur. Ancaq öz torpağımızın bir qarışını da heç bir qəsbkara güzəştə getmək fikrində deyilik.

Cənablar! Mən güman edirəm ki, Birləşmiş Millətlər Təşkilatı öz böyük siyasi nüfuzundan istifadə edib, Azərbaycana və Azərbaycan xalqına qarşı qeyri-sivilizasiyalı, hətta birbaşa aqressiv münasibətə son qoyulmasına çalışacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm!

■**Tapşırıq.** *Şeri ucadan oxuyun, poetik intonasiyanın tələblərindən irəli gələn jestlər edin.*

Nəbi Xəzri

Şuşanın yolları

Hər yanda bir məclis qurulub gedir,
Buz kimi bulaqlar durulub gedir,
Dağların döşüylə burulub ğedir,
Gör necə qovuşur yollara yollar,
Siz nə gözəlsiniz, yollar, a yollar.

Dağın ətəyinə qədəm qoyunca,
Qarqar uğuldayır dərə boyunca,
Durub hüsnünüzə baxım doyunca,
Baxım heyran-heyran mən sizə, yollar.

İlk dəfə gəlmişik üz-üzə, yollar,
Sərin bulaqlardan ellər su içmiş,
Dostunu düşməndən yaxşıca seçmiş,
Burdan Vaqif ötmüş, Vidadi keçmiş,
Gərək ki, onları tanıya yollar.
Onların izləri hanı, a yollar?

Sevirəm çeşməli, sulu dağları,
Vüqarlı dağları, ulu dağları,
Döysə də qar, yağış, dolu dağları,
Dolanıb aparır dağlara yollar,
Bağçalara yollar, bağlara yollar.

Dağların zirvəsi ağa bürünür,
Yaşıl quzeylərdən duman sürünür,
Qəlbimdən bu yerə yollar görünür,
Gör necə qovuşur, yollara yollar,
Siz nə gözəlsiniz, yollar, a yollar!

■**Tapşırıq.** *"Anam" şerini əzbərləyin və rus dilinə tərcümə edin.*

Nailə Yusifqızı

Anam

Əllərin məlhəmdir, sözlərin hikmət,
Bir elin fəxridir, mehriban anam.
Zəhmət hesabına ömür sürdü o,
Bu qəmli könlümün sevinci anam.

Gözəl arzularda böyütdü bizi,
Nəcib, mərhəmətli, çox sadə anam.
Mənim ürəyimin ağ işığısan,
Əbədi məhəbbət rəmzisən, anam.

Gözlərin yol çəkir, hey gecə-gündüz,
Bil ki, sevincimin təməli sənsən.
Hər yaşda inan ki, möhtacıq sənə,
Mehriban, qayğıkeş, gülərüz anam.

Sənlə cavanıq, sənlə uşaq,
Qayğın da, sözün də sanki bir bulaq.
Məhəmməd Peyğəmbər deyən anadır,
Analar anası sevimli anam!

■**Tapşırıq.** *Təsdiq, inkar, təəccüb, razılıq və s. bildirən jestlər edin, sonra həmin jestlərin təsvirini (şifahi, yaxud yazılı) verin.*

■**Tapşırıq.** *Mətni nitq mədəniyyətinin tələbləri baxımından: a/düzgünlüyünə; b/ dəqiqliyinə; c/ ifadəliyinə görə redaktə edin.*

Azərbaycan mənşəli coğrafi adlar istər aran və istərsə də dağlıq ərazinin bütün qurşaqlarında öz əksini tapmışdır. Ancaq son yarım əsr ərzində Ermənistanda olan Azərbaycan mənşəli uydurma adlarla əvəz edilmişdir. Bu cəhdlər sağlam köklər üzərində deyil, millətçilik hissləri özülündə edilmişdir. Coğrafi adlar yerin yaddaşıdır. Bu adları ona insanlar zaman və məkan daxilində vermişlər. Deməli, coğrafi adlar torpağa hopmuş, xəritələrə həkk olunmuş, yazılarda daşlaşmışdır, sinələrdə bəslənmişdir. Biz azərbaycanlıların birinci müqəddəs borcu həmin coğrafi adları yaşatmaqdır. Buna görə coğrafi adlar toplanmalı və onlar ümumiləşdirilib nəşr edilməlidir.

Əgər biz bu gün coğrafi adlarla məşğul olmasaq, gələcək nəsil ana yurdunu indi tərk etmişləri heç vaxt bağışlamayacaqdır. Coğrafi adların tədqiqinin sabaha qalması bizim üçün bağışlanılmayacaqdır. Bu, bizim üçün bağışlanılmaz səhvlərdən biri və mən deyərdim ki, ən böyüyü olardı.

■**Tapşırıq.** *Azərbaycanın görkəmli siyasi xadimlərindən birinin televiziya çıxışını yadınıza salın, onun özünəməxsus (daha çox istifadə etdiyi) jestlərini qeyd edin.*

■**Tapşırıq.** *Xoşunuza gələn artistlərin yadınızda qalmış jestlərini göstərməyə və həmin jestlərin mənasını izah etməyə çalışın.*

Nitq prosesində üz əzələlərinin mənalı hərəkəti (təəccüb, narazılıq, ehtiram, sevinc və s. müxtəlif emosiyalar ifadə etməsi) mimika adlanır. Nə isə danışıb üzü hərəkətsiz (mənasız, ifadəsiz və s.) saxlamaq mümkün deyil və təbii ki, mimika nitqin anlaşılmasında, məsələn, sözün ciddi, yaxud ironiya ilə deyilməsini başa düşməkdə mühüm rol oynayır.

Mimika vasitəsilə natiq nitqinə müəyyən emosionallıq, sözlə ifadəsi mümkün olmayan çalarlar gətirir.

Jestlə mimika mükəmməl nitqdə bir-birini tamamlayır və vahid psixoloji akt kimi çıxış edir. Şifahi ədəbi dil bunlarsız mümkün deyil.

■**Tapşırıq.** *Şeri dinləyin, diktorun mimikasına diqqət yetirin, üz hərəkəti aktlarını anlamağa çalışın.*

Əsildən, nəsildən mərd olan özün,
Mərdlər sırasında mərdana çəkər.
Laf edib daldada özün öyənlər,

Meydanda yaxasın tez yana çəkər.

Əhli-insan yalan sözdən utanar,
Əhli-ürfan həqiqətə inanar,
Əhli-nadan nə anlayar, nə qanar,
Atalar məsəlin qanana çəkər.

Arifəm, sərrafam mən də bu dəmdə,
Dürrdən, gövhərdən vardı sinəmdə.
Xındı Məmməd həqiqətdən deyəndə,
Götürüb sazına təzana çəkər.

Aşıq Xındı Məmməd

Nitq etiketləri

Hər bir xalqın dilində onun milli təfəkkürünə, etnoqrafiyasına uyğun olaraq, müraciət, görüşmə, ayrılma, təbrik və s. formaları, ifadələri olur ki, onlara **nitq etiketləri,** yaxud **yarlıqları** deyilir. Ünsiyyət prosesində həmin etiketlərə əməl etmək nitq mədəniyyətinin və ümumiyyətlə, mədəniyyətin göstəricisi sayılır.

I. Müraciət etiketləri. Müsahib yaşca böyük olduqda, yaxud ortada tanışlıq olmadıqda ona "siz" deyə müraciət olunur. Bu, çox qədim adətdir. Hələ Mahmud Kaşğari XI əsrdə "Divanü lüğətit-türk"də göstərirdi ki, türklər özlərindən yaşca böyüklərə "siz", kiçiklərə isə "sən" deyə müraciət edirlər.

Həmin qayda bütün müraciət formalarında gözlənilir; məsələn, *bağışlayın, buyurun, əyləşin, lütfən* və s.

Bundan başqa, *Xanım! Cənab! Müəllim! Oğlum! Qızım! A bala! Qardaşoğlu! Bacıoğlu! Qardaş! Əmi! Dayı! Əzizim! Qadası! Dərdin alım! Başına dönüm!* və s. kimi müraciət formaları da vardır.

Müraciət etiketləri: rəsmi (məsələn: *Cənab prezident! Vətəndaş hakim!* və s.) və qeyri-rəsmi (məsələn: Oğlum! Qadan alım! və s.) olmaqla iki yerə ayrılır.

II. Görüşmə etiketləri: Salam! Salam-əleyküm! Əleyküm-salam! Xoş gördük! Gün aydın! Sabahınız xeyir! Axşamınız xeyir! Xoş gəlmişsiniş! və s.

III. Ayrılma etiketləri: Xudahafiz! Əlvida! Salamat qalın! Sağ olun! Allah amanında! Gecəniz xeyrə qalsın! Xeyrə qənşər (qabaq, doğru) gedin! Uğur olsun! Yaxşı yol! Görüşənə qədər! və s.

IV. Təbrik etiketləri: Təbrik edirəm! Gözünüz aydın! Mübarəkdir! Mübarək olsun! və s. (hamısının cavabında: Sağ olun!).

Alqışlar (Allah sizə kömək olsun! Yastığnız yüngül olsun! Allah rəhmət eləsin! Görüm neylim, necə eliyim deməyəsiniz və s.), **qarğışlar** (Allah öldürsün! Allah evini yıxsın! Gözün tökülsün! və s.) da nitq etiketləri sırasına daxildir.

Elə nitq etiketləri vardır ki, əsrlər, minilliklər boyu sabit qalır; elələri də vardır ki, müəyyən dövrdə, mərhələdə işlənib sonra ünsiyyətdən çıxır. Məsələn, son illərə qədər fəal işlənən *Yoldaş! Vətəndaş!* müraciət formaları artıq qeyri-fəaldır. Halbuki son illərə qədər, demək olar ki, işlənməyən *cənab* sözü artıq geniş miqyasda yayılmışdır.

Nitq etiketlərindən yerli-yerində istifadə olunması ünsiyyətin normal gedişinə, anlaşmaya kömək edir, səmimi münasibət yaradır.

■ **Tapşırıq.** *Mətni oxuyun, nitq etiketlərini göstərin.*

Həmidə xala yenidən düşünməyə başladı: Görəsən, yeni il gecəsi daha kimlər evdə deyillər? Məlumat bürosunun işçiləri. Həmidə xala telefona yanaşdı və 09-u yığdı. Qadın səsi eşidildi:

- Məlumat bürosu Sizi dinləyir.
- Salam, qızım.
- Deyirəm, salam qızım.

Qadın təəccüblə dedi:

- Əleyküm-salam.
- Sizin yeni ilinizi təbrik edirəm.
- Çox sağ olun. Danışan kimdir?
- Heç, bir nəfər, tanımırsınız.

Qadın hirslə:

- Telefonu məşğul etməyin, - dedi və telefonu asdı. Həmidə xalanı gülmək tutdu. O, dəstəyi asdı və öz yerinə qayıtdı... telefonun zəngi çalındı. Danışan Rüstəm idi.

- Ana?
- Hə.
- Yeni ilın mübarək olsun!
- Sənlə belə, can bala!

■**Tapşırıq.** *Oxuyun, aşağıda nitq etiketlərindən hansının düzgün olduğunu müəyyənləşdirin.*

Sağ olun! Görüşənədək!	-Sağ olun, Allah qoysa görüşərik!
Hələlik, sağ olun!	-Sağ olun! Sağlıqla qalın!
Xoş getdiniz!	-Xoş gəldiniz!
Sizin üçün bilet götürmü-	Sizə bilet almışam, düşərsiniz!

şəm, düşərsiniz!

Toyunuzu (mənzilinizi) təbrik edirəm.	-Toyunuz (mənziliniz) mübarək olsun.
Yeni iliniz (Novruz bayramınız) mübarək olsun!	-Yeni ilinizi (Novruz bayramınızı) təbrik edirəm.
-Dəyməz!	-Xoşdur (borcumuzdur).
-Bağışlayın, üzr diləyirəm!	-Bağışlayın, üzr istəyirəm!
-Eybi yoxdur.	-Allah bağışlasın.

■**Tapşırıq.** *Görüşmə etiketlərinə aid mətn tapıb tərcümə edin.*

■**Tapşırıq.** *Ayrılma etiketlərinə aid mətn tərtib edin.*

■**Tapşırıq.** *Kəndimizin (şəhərinizin) qocalarından alqışlar toplayıb məzmununa və formasına (sintaktik quruluşuna) görə araşdırın.*

■**Tapşırıq.** *Ad günü münasibətilə təbrik zamanı hansı nitq etiketləri işlənir.*

■**Tapşırıq.** *Şeirləri əzbərləyin.*

Ramiz Rövşən

Dünya mənə tanış gəlir

Gedirəm, izim böyüyür,
Susuram, sözüm böyüyür,
Baxıram, gözüm böyüyür,
Dünya mənə tanış gəlir.

Bunun dağı-daşı tanış,
Bunun yayı-qışı tanış,
Gözlərimin yaşı tanış,
Dünya mənə tanış gəlir.

Bir dəfə də gəlmişəmmi?
Gəlmişəmmi, sevmişəmmi?
Yaşamışam-ölmüşəmmi?
Dünya mənə tanış gəlir.

Daha

İlahi, öldü bu adam,
Gözləri bağlıdır daha.

Onu nə sevmək qorxudur,
Nə ölüm qorxudur daha.

Kimi var salsın yada ki,
Bu gün, sabah dünyadakı.
Bir yaşıl otdur, ya da ki,
Bir quru qarğıdır daha.

Ağlamağa bir kəsi yox,
Ağacı var, kölgəsi yox.
Yeri-yurdu, ölkəsi yox,
Allahın oğludur daha.

■**Tapşırıq.** *Mətnləri oxuyun, öyrənin və yaddan çıxarmayın.*

TARİXİN QAN YADDAŞI -20 YANVAR FACİƏSİ

1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının tək faciəsi yox, həm də tarixin ən şərəfli səhifələrindən biri, milli azadlıq hərəkatının yüksəliş zirvəsidir. 20 Yanvar özümüzü bir millət kimi tanıyan və dərk edən gündür. Həmin gün Bakı qırmızı rəngə boyanmışdı, açılan səhər şəhid oğul və qızlarımızın qanından rəng almışdı.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan vandal hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Sovet qoşunlarının Azərbaycanda törətdikləri qırğından 20 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına dərin nifrətini bildirir.

20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Həmin gün öz ölkəsinin, xalqının azadlığı, şərəf və ləyaqətini uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır.

Biz həmişə vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsini qəlbimizdə yaşatmalıyıq.

XOCALI FACİƏSİ

Fevralın 26-sı saat 17^{00}-da Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə sükut dəqiqəsi elan edilmişdir. Həmin günün qanla yazılmış bir tarixi vardır.

Azərbaycanın müstəqilliyinə mane olmaq üçün M.Qorbaçov ermənilərdən daha fəal şəkildə istifadə etdi. Moskva onlara hərbi yardımı daha da artırdı. Yuxarı Qarabağda yerləşən sovet ordusu hissələrinin köməyi sayəsində erməni faşistləri bir çox kəndlərimizi dağıdır, əhalini qırır, evləri talan edir və yandırırlar. Bu dövrdə Yuxarı Qarabağda bütöv kəndlər yandırılaraq külə döndərildi. Min illərin yadigarı olan tarixi abidələrimiz məhv edildi.

Ermənistan vətənimizə qarşı ədalətsiz müharibəni davam etdirirdi. Rusiya hərbçiləri, xaricdəki varlı ermənilərin pulla tutduğu muzdlu qatillər ermənilərə yaxından kömək göstərirdilər. Rusiyanın hələ də Azərbaycanda qalan hərbi qüvvələri də ermənilərlə əlbir hərəkət edirdilər. Qaniçən düşmən yeni-yeni kənd və qəsəbələrimizi xarabalığa çevirirdi.

Azərbaycanın vahid nizami ordusu yox idi. Azərbaycanın ayrı-ayrı yerli özünümüdafiə dəstələri ermənilərin və Rusiya ordu hissələrinin birləşmiş hücumlarının qarşısını ala bilmirdilər. Çünki bu dəstələr çox zəif silahlanmışdılar. Həm də onların arasında əlaqə zəif idi. Könüllülük əsasında yaradılmış bu dəstələrdə nizam-intizam yox idi. Bəzi hərbi dəstələr ancaq ayrı-ayrı şəxslərə tabe olurdu. Xalq Cəbhəsinin də öz hərbi dəstələri var idi. Bütün bu dəstələr arasında əlaqə yaradıb düşmənə zərbə vurmaq çətin idi. Azərbaycanda hərb sənətini mükəmməl bilən sərkərdələr az idi. Digər tərəfdən, bu cür bacarıqlı hərbçiləri silahlı dəstələrin başçıları yaxına buraxmırdılar. Hərbi hissələrimizə satqınlar soxulmuşdu. Silah, sursat, yanacaq oğurluğu, fərarilik çox yayılmışdı. Ən böyük fəlakət isə bundan ibarət idi ki, ölkəmizə bütün xalqı öz ətrafında birləşdirərək düşmən üzərində zəfər çalmağa qadir olan bir şəxsiyyət başçılıq etmirdi. Xalqımızın böyük oğlu Heydər Əliyev o zaman hələ Naxçıvanda idi. Moskvaya satılmış daxili düşmənlər onu Azərbaycan Respublikasının idarə olunmasına yaxın buraxmırdılar.

Düşmən ölkəmizdəki bu qarmaqarışıqlıqdan asanlıqla istifadə edirdi.

…1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları Rusiya ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayı bölmələrinin yardımı və iştirakı ilə Azərbaycanın Xocalı şəhərini məhv etdilər. Xocalı Ağdam-Şuşa yolu üzərində Əsgəranla Xankəndi arasında mühüm yaşayış məntəqələrindən biri idi. Xocalının hərbi məntəqə kimi də çox böyük əhəmiyyəti vardı. Qarabağda yeganə aeroport burada yerləşirdi. Şəhər tipli bu qəsəbədə azərbaycanlılar yaşayırdılar. Bu yaşayış məntəqəsi həm də xalqımızın ən qədim məskənlərindən və mədəniyyət mərkəzlərindən biri idi. Şəhər əhalisinin sayı 7 mindən çox idi. İşğalçıların basqınından qabaq Xocalıya çoxlu qaçqın pənah gətirmişdi. Şəhər əhalisinin sayı xeyli artmış, çoxlu yaşayış binaları tikilmiş, sənaye müəssisələri işə salınmışdı. Buna görə də Xocalıya respublika əhəmiyyətli şəhər adı verilmişdi.

Fevralın 25-də axşam şəhər güclü top atəşinə tutuldu. Aeroport və ona yaxın olan evlər dağıdıldı. Təkcə aeroportun müdafiəsi zamanı rus alayının top atəşi ilə 150-yə yaxın adam öldürüldü. Güclü top atəşindən sonra quldurların şəhərə hücumu başlandı. Qabaqda rus alayının zirehli texnikası – tanklar, zirehli döyüş maşınları, onun arxasınca isə ermənilər hücum edirdi. Şəhərin müdafiə səddi zəif idi. Odur ki, zirehli texnikanın atəşi nəticəsində bu sədd asanlıqla dağıdıldı. Buna baxmayaraq, şəhərin qəhrəman müdafiəçiləri düşmənə inadlı müqavimət göstərdilər. Düşmənlər şəhərə daxil olduqdan sonra da hər küçə, məhəllə, ev uğrunda döyüşlər davam edirdi. Xocalılar hər qarış Vətən torpağını qəhrəmanlıqla qoruyurdular. Erməni quldurları məhəllə və evlərin müdafiəçilərini güllələyir, evlərdə əllərinə keçən nə varsa hamısını qarət edir, özləri ilə gətirdikləri yük maşınlarına yükləyir, Xankəndi tərəfə göndərirdilər.

Heç kimə – qocalara, uşaqlara, hətta südəmər körpələrə belə rəhm etmirdilər. Çox adamı qapıları bağlayıb, öz evlərinin içindəcə yandırırdılar. Şahidlərdən biri deyir ki, o dəhşətli gecədə diri-diri yandırılmış insan ətinin dəhşətli iyi hələ də burnumdan getməmişdir.

Təpədən-dırnağadək ən müasir silahlarla silahlanmış erməni quldurları və 366-cı rus motoatıcı alayının əsgərləri bütün gecəni Xocalıya divan tutdular. Şəhərin müdafiəçilərinin çoxu məhv edildi. Sağ qalanlar özlərini Ağdama çatdırmaq üçün yaxındakı meşəyə can atırdılar. Meşədə isə qarlı qış gecəsinin şaxtasında onların bir hissəsi soyuqdan dondu, qırıldı. Sağ qalanlar isə Ağdam yolunda düşmən pusqusuna düşdülər. Ermənilər onları vəhşicəsinə güllələdilər. Pusquya düşənlərin bir hissəsini – 200 nəfərə yaxın adamı ermənilər girov götürdülər. O dəhşətli gecədə xocalıların bir hissəsi Ağdama gəlib çıxdı. Böyük bir şəhərin əhalisindən

yalnız 1500 nəfərə yaxın adam salamat qaldı. Qalanları isə öldürülmüş, şaxtada donmuş, əsir və itkin düşmüşlər.

Xocalı şəhəri yerlə yeksan edilmişdi. Şahidlərin erməni qaniçənlərinin və rus əsgərlərinin vəhşiliklərini əks etdirən çoxlu hekayətləri, sənədli fotoşəkilləri və s. vardır. Xocalı qırğını dövründə erməni faşistlərinin bu qanlı cinayətlərinin üstünü açmaq, onu dünya xalqlarına çatdırmaq üçün xalqımızın qəhrəman oğlu Çingiz Mustafayev misilsiz hünər göstərdi. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Çingiz Mustafayev o zaman Azərbaycan televiziyasının müxbiri idi. O, hadisə yerinə ilk gedənlərdən biri oldu. Çingiz deyirdi ki, biz fevralın 28-də iki hərbi vertolyotun müşayiəti ilə faciə yerinə getdik. Hələ havada ikən böyük bir meydan gördük. Bu meydan meyitlərlə dolu idi. Yerə enəndən sonra bizimlə gələn milis işçiləri meyitləri vertolyota yığmalı idilər. Lakin onlar vertolyota cəmi dörd meyit qoya bildilər. Milis işçilərindən ikisi bu qədər adamın öldürüldüyünü və meyitlərin eybəcər hala salındığını görəndə dəhşətdən huşunu itirdi. 2 yaşından 15 yaşına kimi onlarca körpə uşaq, qadın və qoca güllələnmişdi. Onların çoxunu yaxın məsafədən, özü də başlarından güllələmişdilər. Meyitlərdə bir neçə güllə yarası vardı. Bunlardan biri mütləq başdan idi. Bu o demək idi ki, yaralıların axırına çıxmaq, onların öldüyündən xatircəm olmaq istəmişdilər.

Çingizin kamerası qulaqları kəsilmiş bir neçə uşağı çəkmişdi. Yaşlı bir qadının sol üzünün dərisini soymuşdular. Kişilərin başının dərisini çıxartmışdılar. Həm də açıq-aşkar görünürdü ki, meyitləri qarət etmişdilər.

Çingiz Mustafayevin fədakarlığı sayəsində xarici jurnalistlər də baş vermiş qırğın yerinə getmiş və ermənilərin törətdikləri vəhşilikləri öz gözləri ilə görmüşdülər. Onlardan biri – fransız jurnalisti demişdi ki, mən müharibədə alman faşistlərinin qəddarlıqları haqqında çox şey eşitmişəm. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qırmaqla ermənilər onları ötüb keçmiş, arxada qoymuşlar. Çingizin hadisə yerində çəkdiyi kadrlar bütün dünyanın televiziya ekranlarını gəzdi və Xocalı soyqırımını dünya xalqlarına nümayiş etdirdi.

Xocalı qırğınının şəhidlərindən biri başına gələnləri belə nəql edir: «…Rus əsgərlərinin dalınca erməni quldurları şəhərə daxil oldular. Mən 5 yaşlı nəvəmi və evdəki 15 min rubl pulu götürüb meşəyə tərəf qaçdım. Gecənin şaxtasında uşaq donmasın deyə öz paltarımı çıxarıb uşağı bürüdüm. Lakin bu kömək etmədi. Səhər mən başa düşdüm ki, uşaq şaxtaya dözməyəcək. Məcbur olub yaxınlıqdakı erməni kəndinə yollandım. Bizi silahlı ermənilər qarşıladılar. Mən onlara yalvardım ki, pulumu götürsünlər və uşaqla mənə Ağdama getməyə icazə versinlər. Cavabında məni söydülər, döydülər, qarət etdilər və kənddəki tövlələrdən

birinə saldılar. Burada bizdən başqa azərbaycanlı uşaqlar və qadınlar da vardı. Tövlədə bizi dörd gün saxladılar. Nə yemək, nə də su verirdilər. Dörd gündən sonra məni nəvəmlə Əsgəran rayonuna gətirdilər. Burada isə elə şeylər baş verdi ki, tövlə onun yanında cənnət idi. Xaricdən gəlmiş muzdlu erməni quldurları ayaq dırnaqlarımı çıxartdılar. Ermənilərin içərisində olan zəncilər isə yuxarıya tullanaraq təpiklə üzümə güclü zərbələr vururdular. Bir neçə saat davam edən bu işgəncələrdən sonra məni həbs edilmiş bir erməni ilə dəyişdilər. Nəvəmi isə əlimdən aldılar. Həyat yoldaşım və qızımın harada olması haqqında isə heç nə bilmirəm».

Xocalı qırğınını öz gözləri ilə görən və bu faciədən canlarını götürüb qaçanlar danışırlar ki, əsirlər içərisindən birinci olaraq milis işçilərini, könüllüləri, əsgərləri müəyyən edib ayırdılar. Elə orada – camaatın gözü qarşısında onların başlarını kəsirdilər. Qızları da ayırıb, naməlum istiqamətə göndərirdilər.

Bu hadisələri təkcə görənlər deyil, eşidənlər də dəhşətə gəlirdilər. Xüsusilə sərhəd rayonlarında yaşayan qadınlar ermənilərin qəddarlığını, alçaqlıqlarını eşitdikləri üçün düşmənə əsir düşməkdənsə, ölməyi üstün tuturdular. Ağdam yaxınlığında atışma çox şiddətləndiyi anlarda qadınlar qəfil hücumdan ehtiyat edərək özlərini yandırmağa hazırlıq görürdülər. Beş yaşlı bir qızcığaz öz atasına belə demişdi: «Ata, hücum başlansa, sən əvvəlcə anamla məni öldür, sonra özün öl».

Dünyada erməni qəddarlığı, erməni vəhşiliyi deyilən bir qorxu var. Bu faşizm qorxusundan daha dəhşətlidir.

Xocalı qırğını günü bundan sonra Azərbaycan xalqının və dünyanın bütün namuslu adamlarının yaddaşında kədərli, matəmli bir gün kimi qalacaqdır. Erməni faşistlərinin törətdiyi qanlı cinayət, xalqımıza qarşı törədilmiş dəhşətli soyqırım günü!

Professor Mirzə Kazımbəy
Dərbənddən başlanan əzablı yol
(1802-1870)

Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu Kazımbəy 1802-ci ildə anadan olmuşdur. Quba xanlığının tarixinə aid materialdan göründüyü kimi, onun üç əmisi Fətəli xanın sarayında vəzirlik etmiş, atası öz biliyi və nüfuzu sayəsində Şeyxülislam rütbəsinə yüksəlmişdi. Artıq 12 yaşında ikən M.Kazımbəy doğma ana dili ilə yanaşı ərəb və fars dillərinə də mükəmməl yiyələnmişdi. O, 17 yaşında «Ərəb dili qrammatikasına dair təcrübələr» adlı ilk elmi kitabını ərəb dilində yazıb başa çatdırmışdır.

XIX əsrin əvvəllərində Rusiya imperiyasının milli ucqarlarında baş verən bir sıra ictimai-siyasi hadisələrlə əlaqədar olaraq Kazımbəylər

ailəsi Dərbəndi tərk etməli oldu. Kazımbəyin Həştərxana gəlməsi onun həyatında mühüm rol oynadı. O, burada az bir vaxt içərisində ingilis dilini mükəmməl öyrənərək, Avropa mədəniyyəti ilə maraqlanmağa başladı, müsəlman ilahiyyatçısı olmaq fikrindən əl çəkərək, nəzərlərini dünyəvi elmlərə istiqamətləndirirdi. 1826-cı ildən başlayaraq 24 yaşlı M.Kazımbəy Kazan Universitetində Şərq ədəbiyyatı tarixindən mühazirələr oxumağa başladı. «Kazanskiy vestnik» jurnalı yazırdı ki, «Mirzə Kazımbəyin «alimliyi» ən yüksək tərifə layiqdir».

Kazan Universitetində çalışdığı illərdə M.Kazımbəy ona dünya şöhrəti qazandıran «Krım müharibəsinin tarixi», «Türk-tatar dilinin qrammatikası», «Uyğurlar haqqında», «Quranın bəzi surələrinin şərhi haqqında», «Firdovsi yaradıcılığı üzrə fars mifologiyası» və s. əsərlərini yaratmışdır. Bu tədqiqatların demək olar ki, hamısı dərhal Avropa dillərinə tərcümə olunmuş, dünya miqyasında böyük maraq və rəğbət doğurmuşdu.

1849-cu ildə M.Kazımbəy iyirmi ildən artıq çalışdığı Kazan Universiteti ilə vidalaşaraq Sankt-Peterburq Universitetinə keçdi. O, burada fars ədəbiyyatı kafedrasında öz həmyerlisi, Azərbaycan filoloqlarından biri olan Mirzə Cəfər Topçubaşovu əvəz etdi. Peterburq dövrü M.Kazımbəyin elmi-pedaqoji fəaliyyətinin ən coşğun dövrüdür. O, Peterburq Universitetində yeni fakültənin işinə rəhbərlik etməklə yanaşı «Dərbadnamə», «Müridizm və Şamil», «Bab və babilər», «İslam» və s. fundamental əsərlər yazır, şərq ədəbiyyatları tarixinə, müqayisəli dilçiliyə, etimologiyaya dair maraqlı məqalələr çap etdirir.

Müasirləri içərisində M.Kazımbəy öz ensiklopedik biliyi, maraq dairəsinin genişliyi ilə seçilirdi. Dilçilik, ədəbiyyatşünaslıq, tarix, fəlsəfə, pedaqogika, etika, etnoqrafiya, etimologiya, müsəlman hüququ, numizmatika, ədəbi tənqid, mifologiya - adların çəkdiyimiz bütün elm sahələrinə dair alimin bir-birindən sanballı tədqiqat əsərləri vardır.

Bilavasitə M.Kazımbəyin təşəbbüsü ilə Peterburq Universitetində 14 şərq dili üzrə mütəxəssis hazırlayan şərqşünaslıq fakültəsi açılmışdı. Elmə olan məhəbbət və fədakarlığı müasirləri arasında M.Kazımbəyə böyük hörmət və ehtiram qazandırmışdı.

Alim Azərbaycandan uzaqlarda yaşasa da, vətəni ilə əlaqələrini heç vaxt üzməmişdi. M.Kazımbəyin şəxsi kitabxanasında Azərbaycan ədəbiyyatının bir sıra qiymətli nümunələri bu günə qədər qorunub saxlanılmışdır. Burada Nizami «Xəmsə»sinin və Füzuli «Divan»ının müxtəlif nəşrləri və əlyazma nüsxələri, A.Bakıxanovun, M.F.Axundovun kitabları, Azərbaycan tarixinə və ədəbiyyatına dair digər əlyazmaları və çap materialları vardır. O, 1833-cü ildə yazdığı «Türk-tatar dilinin ümumi qrammatikası» əsərində Azərbaycan dili qrammatikasına, materiallarına xüsusi yer ayırmışdır. Bir çox rus və Avropa türkoloqlarından fərqli

olaraq M.Kazımbəy öz tədqiqatlarında «Azərbaycan dili» anlayışından istifadə edir, onu türk, yaxud tatar dili ilə eyniləşdirənlərə qarşı çıxırdı.

Alim Azərbaycan dilinin ifadə imkanlarının genişliyini və zənginliyini xüsusi nəzərə çarpdıraraq, onun türk dilləri içərisində ən zərif, məlahətli dil olduğunu göstərirdi. M.Kazımbəy Azərbaycanca-rusca ilk lüğətin də yaradıcısıdır. O, Şərq klassiklərinin əsərlərini, o cümlədən Sədinin məşhur «Gülüstan» poemasını rus dilinə tərcümə etməklə yanaşı, rus ədəbiyyatının bir sıra nümunələrini, o cümlədən dahi rus şairi A.S.Puşkinin məşhur «Bağçasaray fontanı» poemasını Azərbaycan dilinə çevirmişdir.

M.Kazımbəy Böyük Britaniya, İrlandiya, Fransa, Almaniya, Hollandiya, ABŞ akademiyalarının elmi üzvü, Peterburq və Kazan universitetlərinin əməkdar professoru, Rusiyanın bir çox elmi cəmiyyətlərinin fəxri üzvü seçilmişdir.

1870-ci ildə 68 yaşlı alim, Rusiya şərqşünaslığının ağsaqqalı öz dünyasını dəyişdi və Pavlovski qəbiristanlığında dəfn olundu.

İstifadə olunmuş ədəbiyyat

1. А.Эшли. Руководства по коммерческой переписке. Будапешт. 1996.
2. Azərbaycan dialektoloji lüğəti. I cild. A – L. Ankara, 1999.
3. Azərbaycanca - rusca danışıq kitabçası. Bakı, «Maarif» 1989.
4. A.Quliyeva, M.Sultanova «Məktəblinin orfoqrafiya – orfoepiya – qrammatika lüğəti. Bakı, 2006.
5. Деловая переписка на английском и русском языках. Будапешт. 1996.
6. Ф.Бориско. Бизнес-курс немецкого языка. «Логос», «Славянский дом книги», 2002.
7. Xarici iqtisadi əlaqələr. Terminlər lüğəti. Bakı. 1991.
8. И.Ж.Богацкий, Н.М.Дюканова. Бизнес-курс английского языка. Киев Логос. 2003.
9. İqtisadi təlimlər tarixi. Bakı. 2002.
10. İşgüzar Azərbaycan dili (I hissə). Bakı. 1991.
11. İşgüzar Azərbaycan dili (II hissə). Bakı. 1991.
12. İzahlı iqtisadi terminlər lüğəti. I, II hissə. Bakı «Nurlan». 2005.
13. Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu (oçerklər). Bakı, «Elm». 2004.
14. Uğurlu biznesə gedən yol. Bakı. 2000.
15. Maliyyə. Terminlər lüğəti, Bakı. 2005.
16. Müzəffər Məmmədov «Azərbaycan beynəlxalq iqtisadi münasibətlərinin bəzi məsələləri», Bakı «Nurlan» 2008.
17. Müzəffər Məmmədov, Elçin İbadov «Beynəlxalq iqtisadi təşkilatlar», Bakı, CBC nəşriyyatı, 2008.

18. Nəriman Seydəliyev. Frazeologiya lüğəti. «Çıraq» nəşriyyatı, Bakı. 2004.
19. Nəriman Seyidəliyev, Sərxan Abdullayev. Alman atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı. 2001.
20. Н.Алиев, М.Мирзоев, Е.Шахбазов «ОЭТ Баку-Тбилиси-Джейхан: от видения к реальности» Bakı, «Azərbaycan» nəşriyyatı, 2001.
21. Русский язык для менеджеров. «Чашоглу» 2005.
22. Şəmsəddin Axundov, Məcid Axundov «Bazar iqtisadiyyatının əsasları», Bakı, 2001.
23. Şahbaz Balakişiyev, İmran Namazov «Əməli yazı nümunələri». Bakı. 2008.
24. Xarici-iqtisadi əlaqələr. Terminlər lüğəti. Bakı. 1991.
25. Eynulla Musayev. Kargüzarlığın təşkili. Bakı. «Qanun» 2008.
26. Əli Əhmədov. Maliyyə və birja terminləri lüğəti. Bakı. 2006.
27. Abdullayev A. "Nitq mədəniyyəti və natiqlik məharəti haqqında". Bakı, "Azərnəşr", 1968.
28. Qurbanov A.M. "Müasir Azərbaycan ədəbi dili". Bakı, "Maarif" nəşriyyatı, 1985.
29. Qurbanov A.M. "Ümumi dilçilik" I hissə. Bakı, "Maarif" nəşriyyatı, 1989.
30. Dəmirçizadə Ə. "Azərbaycan dilinin üslubiyyatı". Bakı, "Azərtədricnəşr", 1963.
31. Dəmirçizadə Ə. "Müasir Azərbaycan dili". Bakı, "Maarif nəşriyyatı" , 1972.
32. Əsgərov M. "Natiqlik sənətinin əsasları", Bakı, "Maarif" nəşriyyatı, 1975.
33. Əliyev K. "Natiqlik sənəti". Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
34. Məmmədov M. "Estetika haqqında söhbətlər". Bakı, "Gənclik", 1975.

35. Mirəhmədov Ə. “Ədəbiyyatşünaslıq terminləri lüğəti”. Bakı, “Maarif” nəşriyyatı, 1978.
36. Musayev İ. “Dil, Yaddaş, Vətən, Vətəndaş”. Bakı, “Azərbaycan Ensiklopediyası” nəşriyyatı, Poliqrafiya birliyi, 1995.
37. Rəfili M. “Ədəbiyyat nəzəriyyəsinə giriş”. Bakı, V.N.Lenin adına APİ-nin nəşriyyatı, 1958.
38. Seyidov Y. “Azərbaycan dili”. Bakı, “Maarif” nəşriyyatı, 1982.
39. Seyidov Y., Əlizadə S., “Klassik Azərbaycan Şairləri Söz Haqqında”. Bakı, “Gənclik nəşriyyatı”, 1997.
40. Xudiyev H., “H.Əliyev və Azərbaycan Dili”. Bakı, “Təhsil” nəşriyyatı.
41. Həsənov T., Əliyev K., Cəlilov F., “Azərbaycan dili” Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1989.
42. Afonasiyev V.Q. “Fəlsəfi Biliklərin Əsasları”. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1972.
43. Azərbaycan Ədəbiyyat tarixi. I cild, Bakı, Azərbaycan EA-nın nəşriyyatı, 1960.